ZAUR ƏLİYEV

İNSAN HÜQUQLARI

ENSİKLOPEDİYA



Azərbaycanın uzunmüddətli etibarlı tərəfdaşı və iri enerji layihələrinin operatoru olan bp şirkəti ölkənin həyatının müxtəlif sahələrinə – təhsil, yerli icmaların inkişafı, ətraf mühitin qorunması, xalqın zəngin mədəni irsi və tarixinin tədqiqi və təbliği, milli idmanın inkişafına da öz töhfəsini verir.

Müvafiq təhsil müəssisələri və mütəxəssislər üçün nəzərdə tutulmuş bu kitab bp-nin Azərbaycanda təhsilin inkişafına növbəti töhfəsidir.

Kitab satış üçün nəzərdə tutulmamışdır. Kitabda istifadə olunan fikirlər müəllifə məxsusdur və bp-nin rəsmi mövqeyini əks etdirmir.

Bütün müəllif hüquqları müəllifə məxsusdur.

ZAUR ƏLİYEV

İNSAN HÜQUQLARI
Ensiklopediya

Nulli vendemus, nulli negabimus, aut differemus, rectum vel justiciam.
Magna Carta Libertatum 1215
Nə insan hüquqları, nə də ədalət mühakiməsi heç kəsə satıla bilməz.
1215-ci il Böyük Azadlıqlar Xartiyasından

Bakı – 2025

HUMAN RIGHTS

ENCYCLOPAEDIA

Azərbaycan Respublikası Prezidentinin
28 dekabr 2024-cü il tarixli Sərəncamına əsasən elan edilmiş
Konstitusiya və Suverenlik İlinə həsr olunur.

Rəyçi:
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin
İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrası

Zaur Əliyev. İnsan hüquqları. Ensiklopediya. Bakı, İndigo Print House, 2025, 480 səh.

İnsan hüquqları üzrə ilk ensiklopediya olan bu vəsaitdə insan hüquqlarının müxtəlif məsələlərinə həsr olunmuş və insan hüquqlarının həm nəzəri, həm də praktik aspektlərini əhatə edən mindən çox müddəa öz əksini tapmışdır.

Ensiklopediyada insan hüquqlarının tarixi, formalaşması və inkişafı, insan hüquqları nəzəriyyəsi, insan hüquqlarının anlayışı, mahiyyəti və əsas prinsipləri, müasir strukturu, sistemi, tarixi meyara görə təsnifatı, mənbələri, insan hüquqları sahəsində milli qanunvericilik və beynəlxalq hüquq normaları, Azərbaycan Respublikasının Konstitusiyası və insan hüquqları, insan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi sahəsində universal müqavilə mexanizmləri, Birləşmiş Millətlər Təşkilatı çərçivəsində insan hüquqlarının müdafiəsi, BMT-nin ayrı-ayrı müqavilə komitələri, insan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi sahəsində BMT-nin qeyri-müqavilə mexanizmləri, insan hüquqlarının müdafiəsinin regional sistemi, Avropa Şurası və insan hüquqlarının müdafiəsi, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı və insan hüquqları, Avropa İttifaqının insan hüquqları sahəsində fəaliyyəti, insan hüquqlarının müdafiəsinin Asiya sistemi, insan hüquqlarının müdafiəsinin Amerika sistemi, Afrika İttifaqı çərçivəsində insan hüquqlarının müdafiəsi, insan hüquqları və beynəlxalq humanitar hüquq, insan hüquqlarının müdafiəsinin əsas dövlətdaxili mexanizmləri və insan hüquqlarının bu kimi digər aspektlərini əhatə edən mövzularla bağlı müddəalar əks olunmuşdur.

Ensiklopediya tələbələr, magistrantlar, doktorantlar, müəllimlər, elmi işçilər, hüquq müdafiəçiləri, hüquqşünaslar, dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının, insan hüquqları sahəsində ixtisaslaşan təşkilatların nümayəndələri, həmçinin insan hüquqları ilə maraqlanan oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.

Ensiklopediyadan ali təhsil müəssisələrində dərs vəsaiti kimi də istifadə edilə bilər.

Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Elmi Şurasının qərarı ilə çapa tövsiyə edilmişdir (protokol № 07, 22 sentyabr 2025-ci il).

Əqli Mülkiyyət Agentliyində qeydiyyatdan keçirilmişdir. Şəhadətnamə № 14852

DOI: https://doi.org/10.36719/0848/2025
ISBN: 978-9952-486-80-3

© Zaur Əliyev, 2025

MÜNDƏRİCAT

Sözlük **8**
İxtisarlar **43**
Müəllif sözü **45**
A **50**
B **103**
C **129**
Ç **140**
D **141**
E **159**
Ə **167**
F **179**
G **185**
H **191**
X **212**
İ **221**
K **292**
Q **307**
L **319**
M **321**
N **352**
O **358**
Ö **360**
P **362**
R **377**
S **383**
Ş **401**
T **406**
U **420**
Ü **435**
V **441**
Y **462**
Z **471**
Ədəbiyyat **472**
Müəllif haqqında məlumat **478**

SÖZLÜK

A

1. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası 50
2. Ab agendo 50
3. Abituriyent 50
4. Abort 50
5. Abrogatio legis 50
6. Abroqasiya 50
7. Absenteizm 51
8. Absque injuria 51
9. Absolvitor 51
10. Absolyusiya 51
11. Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı 51
12. Açıq informasiya 51
13. Adaptasiya 53
14. Adət hüququ 53
15. Ad hoc beynəlxalq tribunal 53
16. Ad hoc tanıma 53
17. Ad hüququ 54
18. Ad impossibilia lex non cogit 54
19. Adoptasiya 54
20. Ad referendum 54
21. Adyudikasiya 54
22. Adyunktura 54
23. Aequitas naturalis praeferenda est rigori juris 54
24. Aequum et bonum est lex legum 54
25. Affekt 54
26. Affidevit 54
27. Afrika Xartiyası (İnsan və xalqların hüquqları haqqında Afrika Xartiyası) 54
28. Afrika İttifaqı 55
29. Afrika Komissiyası (İnsan və xalqların hüquqları üzrə Afrika Komissiyası) 55
30. Afrika Məhkəməsi (İnsan və xalqların hüquqları üzrə Afrika Məhkəməsi) 56

31. Ağır cinayətlər 56
32. Ağır cinayətlər məhkəməsi 56
33. Ağlabatan müddət 57
34. Ailə həyatına hörmət hüququ 57
35. Akademiya 58
36. Akklamasiya 58
37. Akkresiya 58
38. Aksessiya 58
39. Aksiom 58
40. Akt 59
41. Aktiv seçki hüququ 59
42. Aquae haustus 59
43. Aliment 59
44. Ali məhkəmə 59
45. Altruizm 60
46. Amerika Bəyannaməsi (İnsan hüquq və vəzifələrinə dair Amerika Bəyannaməsi) 60
47. Amerika Dövlətləri Təşkilatı 60
48. Amerika İnsan Hüquqları Komissiyası 60
49. Amerika İnsan Hüquqları Konvensiyası 61
50. Amerika İnsan Hüquqları Məhkəməsi 61
51. Amittere curiam 62
52. Amnistiya 62
53. Amparo 62
54. Ana dilindən istifadə hüququ 62
55. Analogiya 62
56. Andlı iclasçı 63
57. Anklav 63
58. Anlaqlıq 63
59. Anlaqsızlıq 63
60. Anneksiya 63
61. Annulyasiya 64
62. Anonim 64
63. Anonim müraciət 64
64. Antinomiya 64
65. Antisemitizm 64
66. Antroposentrizm 64
67. Aparteid 64

68. Aparteid cinayəti ilə mübarizə və onun cəzalandırılması haqqında Konvensiya 65
69. Apatrid 65
70. Apatridlərin statusu haqqında Konvensiya 66
71. Apatrizm 66
72. Apellyasiya 66
73. Apellyasiya məhkəməsi 66
74. Apellyasiya şikayəti 66
75. Apologiya 67
76. Artikul 67
77. Asilomar Süni İntellekt Prinsipləri 67
78. Asiya Ombudsmanlar Assosiasiyası 67
79. Ateizm 67
80. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu 67
81. ATƏT-in Helsinki Yekun Aktı 68
82. ATƏT-in insan meyarı (insan ölçüsü) 69
83. ATƏT-in Kütləvi İnformasiya Vasitələrinin Azadlığı Məsələləri üzrə Nümayəndəsi 69
84. ATƏT-in Milli Azlıqların İşləri üzrə Ali Komissarı 70
85. Autentik 70
86. Autentik mətn 70
87. Avropa beynəlxalq hüququ 70
88. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) 71
89. Avropa hüququ 71
90. Avropa insan hüquqları hüququ 71
91. Avropa İnsan Hüquqları Konvensiyası (İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya) 71
92. Avropa İnsan Hüquqları Məhkəməsi 72
93. Avropa İttifaqı 74
94. Avropa İttifaqı hüququ 75
95. Avropa İttifaqı Xartiyası (Əsas hüquqlar haqqında Avropa İttifaqı Xartiyası) 75
96. Avropa İttifaqı Məhkəməsi 77
97. Avropa Komissiyası 77
98. Avropa Ombudsmanlar İnstitutu 78
99. Avropa parlamenti 78
100. Avropa Sosial Xartiyası 79
101. Avropa Şurası 79

102. Avropa şurası (Avropa İttifaqının orqanı) 80
103. Avropa Şurası Katibliyi 81
104. Avropa Şurası Nazirlər Komitəsi 81
105. Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı 82
106. Avropa Şurası Parlament Assambleyası 82
107. Avropa Təhlükəsizlik Xartiyası 83
108. Avropa Yerli və Regional Hakimiyyətlər Konqresi 84
109. Avropol 84
110. Avtokratiya 84
111. Avtoritarizm 84
112. Ayrı-seçkilik 85
113. Ayrı-seçkiliyə məruz qalmamaq hüququ 85
114. Azadlıq 86
115. Azadlıqdan məhrum etmə 87
116. Azadlıq hüququ 87
117. Azad sahibkarlıq hüququ 89
118. Az ağır cinayətlər 89
119. Azərbaycan Respublikasında daimi yaşayan 89
120. Azərbaycan Respublikasında İnsan Hüquqları Günü 90
121. Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı 90
122. Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu 90
123. Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı 90
124. Azərbaycan Respublikasında müvəqqəti olan 94
125. Azərbaycan Respublikasında müvəqqəti yaşayan 94
126. Azərbaycan Respublikasının Ailə Məcəlləsi 94
127. Azərbaycan Respublikasının Baş prokurorluğu 94
128. Azərbaycan Respublikasının Baş prokuroru 94
129. Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi 94
130. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi 95
131. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi 95
132. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi 95
133. Azərbaycan Respublikasının Əmək Məcəlləsi 95
134. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) 96

135. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu 97
136. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi 97
137. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi 98
138. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 98
139. Azərbaycan Respublikasının Konstitusiyası 100
140. Azərbaycan Respublikasının Mənzil Məcəlləsi 101
141. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi 101
142. Azərbaycan Respublikasının Mülki Məcəlləsi 102
143. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi 102
144. Azərbaycan Respublikasının Seçki Məcəlləsi 102

B

1. Barrister 103
2. Başa çatmayan cinayət 103
3. Başa çatmış cinayət 103
4. Baş prokuror 103
5. Baş Prokurorluq 103
6. Bern Konvensiyası (Ədəbi və bədii əsərlərin mühafizəsi haqqında 1886-cı il tarixli Konvensiya) 103
7. Beynəlxalq Bill 103
8. Beynəlxalq cinayət 103
9. Beynəlxalq cinayət hüququ 104
10. Beynəlxalq Cinayət Məhkəməsi 104
11. Beynəlxalq ədalət mühakiməsi 104
12. Beynəlxalq Əmək Təşkilatı (ILO) 104
13. Beynəlxalq humanitar hüquq 105
14. Beynəlxalq Hüquq Akademiyası 105
15. Beynəlxalq Hüquq Assosiasiyası 105
16. Beynəlxalq hüquqi adət 105
17. Beynəlxalq-hüquqi məsuliyyət 105
18. Beynəlxalq hüquq normaları 106
19. Beynəlxalq hüququn əsas prinsipləri 106
20. Beynəlxalq hüququn mənbələri 106

21. Beynəlxalq hüququn subyekti ... 106
22. Beynəlxalq xüsusi hüquq ... 106
23. Beynəlxalq İnsan Hüquqları Günü ... 107
24. Beynəlxalq insan hüquqları hüququ ... 107
25. Beynəlxalq Qızıl Xaç Komitəsi (ICRC) ... 107
26. Beynəlxalq Məhkəmə ... 107
27. Beynəlxalq Miqrasiya Təşkilatı ... 107
28. Beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi ... 107
29. Beynəlxalq müqavilə ... 108
30. Beynəlxalq müqavilələr hüququ ... 108
31. Beynəlxalq Ombudsmanlar İnstitutu ... 108
32. Beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipi ... 108
33. Beynəlxalq Paktlar ... 109
34. Beynəlxalq sanksiyalar ... 109
35. Beynəlxalq terror fəaliyyəti ... 109
36. Beynəlxalq təşkilat ... 109
37. Beynəlxalq təşkilatlar hüququ ... 109
38. Beynəlxalq tribunal (ad hoc beynəlxalq hərbi tribunal) ... 109
39. Beynəlxalq ümumi hüquq (beynəlxalq hüquq) ... 109
40. Bələdiyyə ... 109
41. Bələdiyyə hüququ ... 110
42. Bələdiyyə qulluğu ... 110
43. Bələdiyyə qulluğu haqqında Azərbaycan Respublikasının Qanunu ... 110
44. Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının Qanunu ... 110
45. Bələdiyyə mülkiyyəti ... 110
46. Bələdiyyə orqanları ... 110
47. Bələdiyyə orqanlarının vəzifəli şəxsi ... 110
48. Bərabərlik hüququ ... 110
49. Bərabər seçki hüququ ... 111
50. Biqamiya ... 111
51. Bilik cəmiyyətləri ... 111
52. Bill ... 111
53. Bioetika ... 112
54. Biosid ... 112
55. Bipatrid ... 112
56. Bipatrizm ... 112
57. Birbaşa seçki hüququ ... 112

58. Birləşmək hüququ 113
59. Birləşmiş Millətlər Təşkilatı (BMT) 114
60. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 114
61. Birləşmiş Millətlər Təşkilatının Baş Katibi 115
62. Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Hüquq Komissiyası 115
63. Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Məhkəməsi 115
64. Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu (UNFPA) 116
65. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) 116
66. Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) 116
67. Birləşmiş Millətlər Təşkilatının Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Genişləndirilməsi Təşkilatı (UN Women) 117
68. Birləşmiş Millətlər Təşkilatının İİV/QİÇS (insanın immunçatışmazlığı virusu/qazanılmış immun çatışmazlığı sindromu) üzrə Birgə Proqramı (UNAIDS) 117
69. Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurası (ECOSOC) 118
70. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP) 118
71. Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komissiyası 118
72. Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurası 119
73. Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarı (OHCHR) 120
74. Birləşmiş Millətlər Təşkilatının İnsan Məskənləri üzrə Proqramı (UN-HABITAT) 121
75. Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarı (UNHCR) 121
76. Birləşmiş Millətlər Təşkilatının Qəyyumluq Şurası 121
77. Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi (UNODC) 121
78. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi 122
79. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası 122
80. Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO) 123
81. Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNİCEF) 124
82. Birləşmiş Millətlər Təşkilatının yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın qarşısının alınmasına yönəlmiş rəhbər prinsipləri (Ər-Riyad rəhbər prinsipləri) 124
83. Bona fide 124
84. Böhtan 124

85. Böyük Azadlıqlar Xartiyası 125
86. Böyük ictimai təhlükə törətməyən cinayətlər 125
87. Brian-Kelloq Paktı 125
88. Brifinq 125
89. Bürokratiya 125
90. Bütün əməkçi-miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında Beynəlxalq Konvensiya 125
91. Bütün əməkçi-miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi üzrə Komitə 126
92. Bütün şəxslərin zorakılıqla yoxa çıxarma hallarından müdafiəsi haqqında Beynəlxalq Konvensiya 127
93. Bütün şəxslərin zorakılıqla yoxa çıxarmalardan müdafiəsi üzrə Komitə 127

C

1. Casus 129
2. Casus delicti 129
3. Casus fortuitus 129
4. Casus major 129
5. Causa 129
6. Cenevrə Konvensiyaları 129
7. Cenevrə Prinsiplər Bəyannaməsi 129
8. Centlmen sazişi 130
9. Cəmiyyət 130
10. Cəmiyyətin və dövlətin siyasi həyatında iştirak hüququ 130
11. Cərimə 131
12. Cəza 131
13. Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə 132
14. Cəzanı ağırlaşdıran hallar 132
15. Cəzanın icrası 132
16. Cəzanın məqsədi 133
17. Cəzanın sistemi 133
18. Cəzanı yüngülləşdirən hallar 133
19. Cinayət 133
20. Cinayətdə iştirakçılıq 134

21. Cinayət etməyə cəhd 134
22. Cinayətə hazırlıq 134
23. Cinayət hadisəsi 134
24. Cinayət hüququ 134
25. Cinayətin ehtiyatsızlıqdan törədilməsi 135
26. Cinayətin qəsdən törədilməsi 135
27. Cinayət işi 135
28. Cinayətkar 136
29. Cinayətkarlıq 136
30. Cinayət qanunvericiliyi 136
31. Cinayətlərin residivi 136
32. Cinayətlərin təkrar törədilməsi 136
33. Cinayətlərin təsnifatı 137
34. Cinayət mühakimə icraatı 137
35. Cinayət prosesi 137
36. Cinayət prosesini həyata keçirən orqanlar 137
37. Cinayət-prosessual hüquq 137
38. Cinayət-prosessual qanunvericiliyi 137
39. Cinayət təqibi 138
40. Cinayət törətməkdən könüllü imtina etmə 138
41. Cinsi istismar 138
42. Cismani cəza 138
43. Cogitationis poenam nemo patitur 138
44. Constare non potest jus, nisi sit aliquis iuris peritus, per quem possit quotidie in melius produci 138
45. Contra jus 138
46. COP 138
47. Corpus juris 139
48. Curia 139
49. Cursus curiae est lex curiae 139

Ç

1. Çəkişmə prinsipi 140
2. Çərçivə qanunu 140

D

1. Dayanıqlı İnkişaf Məqsədləri 141
2. De-fakto tanıma 142
3. Dekret 142
4. Delikt 142
5. Demilitarizasiya 142
6. Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu 142
7. Demokratiya 142
8. Demoqrafiya 143
9. Demos 143
10. Denonsasiya 143
11. Deportasiya 143
12. Depozitari 143
13. Deputat 144
14. Deputat sorğusu 144
15. Deroqasiya 144
16. Devalvasiya 144
17. Deviant davranış 144
18. De-yure tanıma 144
19. Dələduzluq 145
20. Diffamasiya 145
21. Diktatura 145
22. Dini ekstremist 145
23. Dini ekstremizm 145
24. Dini ekstremizmə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu 146
25. Dini etiqad azadlığı 146
26. Dini etiqad azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu ... 148
27. Dini fanatizm 148
28. Dini icma 148
29. Dini qurumlar 148
30. Dini radikalizm 148
31. Din və əqidə azadlığı üzrə BMT-nin Xüsusi Məruzəçisi 149
32. Diskriminasiya 149
33. Dissertasiya 150
34. Distant təhsil 150
35. Dominium non potest esse in pendenti 150

36. Dövlət 150
37. Dövlət hakimiyyəti 151
38. Dövlətin daxili yurisdiksiyasında olan işlərə qarışmamaq prinsipi 151
39. Dövlətin idarə olunmasında iştirak etmək hüququ 151
40. Dövlətin yurisdiksiyası 152
41. Dövlət qulluğu 152
42. Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanunu 153
43. Dövlət qulluqçusu 153
44. Dövlət quruluşu 154
45. Dövlətlərin bir-biri ilə əməkdaşlıq etmək prinsipi 154
46. Dövlətlərin ərazi bütövlüyü prinsipi 154
47. Dövlətlərin suveren bərabərliyi prinsipi 154
48. Dövlət orqanı 154
49. Dövlət orqanının vəzifəli şəxsi 155
50. Dövlət sirri 155
51. Dövlət suverenliyi 155
52. Dövlət Suverenliyi Günü 156
53. Dura lex, sed lex 156
54. Dünyəvi dövlət 156

E

1. Ehtiyatsızlıqdan törədilmiş cinayət 159
2. Ekoloji biliklər 159
3. Ekoloji cinayətlər 159
4. Ekoloji fəlakət 159
5. Ekoloji insan hüquqları 159
6. Ekoloji maarifləndirmə 160
7. Ekoloji mədəniyyət 160
8. Ekoloji təhlükə 160
9. Ekoloji təhlükənin subyekti 161
10. Ekoloji təhlükəsizlik 161
11. Ekoloji təhlükəsizliyin təmin edilməsi 161
12. Ekoloji təhsil 161
13. Ekosid 161
14. Ekspatriant 161

15. Ekspatriasiya 161
16. Ekspropriasiya 162
17. Ekstradisiya 162
18. Ekzoqamiya 163
19. Elektron hökumət 163
20. Elektron müraciət 164
21. Elektron vətəndaş 164
22. Emiqrant 164
23. Etatizm 164
24. Etnik təmizləmə 164
25. Evtanaziya 165

Ə

1. Əcnəbi 167
2. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqları 167
3. Ədalətli əmək şəraiti hüququ 167
4. Ədalətli məhkəmə araşdırması hüququ 167
5. Ədalətli və əlverişli iş şəraiti hüququ 168
6. Ədalət mühakiməsi 169
7. Ədalət mühakiməsi əleyhinə olan cinayətlər 169
8. Ədliyyə 170
9. Əfvetmə 170
10. Əhali 171
11. Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının Qanunu 171
12. Əhalinin sağlamlığının qorunmasının əsas prinsipləri 171
13. Əhalinin sağlamlığının qorunması sahəsində dövlətin vəzifələri 171
14. Əxlaq 172
15. Əqli mülkiyyət hüquqları 172
16. Əqli mülkiyyət hüququ 172
17. Əlilliyi olan şəxs 172
18. Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya 172
19. Əlilliyi olan şəxslərin hüquqları üzrə Komitə 172
20. Əlverişli ətraf mühit hüququ 173
21. Əməkçi miqrant 173

22. Əmək funksiyası 173
23. Əmək hüququ 173
24. Əmək miqrasiyası 174
25. Əmək müqaviləsi 174
26. Əmək pensiyası 174
27. Əmək pensiyasının sığorta hissəsi 175
28. Əmək pensiyasının yığım hissəsi 175
29. Əmək şəraiti 175
30. Əməyin ədalətli ödənilməsi hüququ 175
31. Əməyin mühafizəsi 175
32. Ərizə 175
33. Ər-Riyad rəhbər prinsipləri 175
34. Əsas hüquqlar haqqında Avropa İttifaqı Xartiyası 176
35. Əsas insan hüquqları və azadlıqları 176
36. Əsas və əlavə cəzalar 176
37. Əşyaların interneti 176
38. Ətraf mühit 177
39. Ətraf mühitə dair informasiya 177
40. Ətraf mühitə dair informasiya almaq haqqında Azərbaycan Respublikasının Qanunu 177
41. Ətraf mühitə dair informasiya almaq hüququ 177
42. Ətraf mühitə dair informasiyanın alınmasına təminat 177
43. Ətraf mühitə zərərli təsir 177
44. Ətraf mühitin keyfiyyət göstəriciləri 178
45. Ətraf mühitin monitorinqi 178
46. Ətraf mühitin mühafizəsi 178

F

1. Fakültativ protokol 179
2. Faunistik hüquq 179
3. Femida 179
4. Feminizm 179
5. Fəaliyyət qabiliyyəti 179
6. Fərarilik 179
7. Fərdi identifikasiya nömrəsi 179

8. Fərdi məlumatlar 179
9. Fərdi məlumatlar haqqında Azərbaycan Respublikasının Qanunu 180
10. Fərdi məlumatların adsızlaşdırılması 180
11. Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında Konvensiya 180
12. Fərdi məlumatların istifadəçisi 180
13. Fərdi məlumatların işlənilməsi 181
14. Fərdi Məlumatların Qorunmasının Ümumi Qaydaları (GDPR – General Data Protection Regulation) 181
15. Fərdi məlumatların məhv edilməsi 181
16. Fərdi məlumatların mülkiyyətçisi 181
17. Fərdi məlumatların toplanılması 181
18. Fərdi məlumatların transsərhəd ötürülməsi 181
19. Fərdi məlumatların verilməsi 181
20. Fərdi məlumatların yayılması 181
21. Fərman 181
22. Fikir və söz azadlığı 182
23. Fiziki şəxs 183
24. Fond 183
25. Fövqəladə vəziyyət 183
26. Francus homo 184
27. Fransız Mülki Məcəlləsi (Napoleon Məcəlləsi) 184

G

1. Gender 185
2. Gender bərabərliyi 185
3. Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanunu 185
4. Genosid 185
5. Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya 188
6. Grammatica falsa non vitiat chartam 189
7. Güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi 190

H

1. Haaqa hüququ 191
2. Haaqa konvensiyaları 191
3. Haaqa sülh konfransları 191
4. “Habeas Korpus” Aktı 192
5. Hakim 192
6. Hakimiyyət 193
7. Hakimiyyətlərin bölgüsü 193
8. Hakimlərin Etik Davranış Kodeksi 193
9. Hakimlərin Seçki Komitəsi 194
10. Hamiləliyin süni surətdə pozulması, abort 194
11. Hammurapi qanunları 194
12. Helsinki Yekun Aktı 194
13. Heydər Əliyev Fondu 194
14. Həbs 196
15. Həbs yerləri 196
16. Həmkarlar ittifaqları yaratmaq hüququ 196
17. Hominum causa jus constitutum est 197
18. Homo sui juris 197
19. Hökumət 197
20. Humanitar hüquq 197
21. Humanizm 197
22. Humanizm prinsipi 197
23. Hüquq 197
24. Hüquq ailəsi 198
25. Hüquqauyğun davranış 199
26. Hüquq düşüncəsi 199
27. Hüquq elmi 199
28. Hüquq fəlsəfəsi 199
29. Hüquq haqqında petisiya 200
30. Hüquqi adət 200
31. Hüquqi akt 200
32. Hüquqi dövlət 200
33. Hüquqi ekspropriasiya 201
34. Hüquqi fakt 201
35. Hüquqi idealizm 201
36. Hüquqi məsuliyyət 201

37. Hüquqi nihilizm 202
38. Hüquqi plüralizm 202
39. Hüquqi status 202
40. Hüquqi şəxs 202
41. Hüquqi tənzimetmə 203
42. Hüquqi yardım almaq hüququ 203
43. Hüquq qabiliyyəti 203
44. Hüquq qaydası 204
45. Hüquqlar haqqında Bill (Amerika Birləşmiş Ştatları) 204
46. Hüquqlar haqqında Bill (İngiltərə) 204
47. Hüquq mədəniyyəti 204
48. Hüquq müdafiəçisi 205
49. Hüquq müdafiə təşkilatları 205
50. Hüquq mühafizə orqanları 205
51. Hüquq münasibətləri 205
52. Hüquq norması 206
53. Hüquq pozuntusu 206
54. Hüquq sistemi 206
55. Hüquq subyektliliyi 207
56. Hüquqşünas 207
57. Hüquqşünaslıq 207
58. Hüquq tərbiyəsi 207
59. Hüququn aliliyi 207
60. Hüququn analogiyası 208
61. Hüququn mənbələri 209
62. Hüququn sistemi 209
63. Hüququn subyekti 209
64. Hüquq və azadlıqların məhkəmə təminatı hüququ 209

X

1. Xalq 212
2. Xalq hakimiyyəti 212
3. Xalqı təmsil etmək hüququ 212
4. Xalqların öz müqəddəratını təyinetmə hüququ 212
5. Xalqların özünümüəyyənetmə prinsipi 212

6. Xalqların sülh hüququ haqqında Bəyannamə 213
7. Xalq suverenliyi 213
8. Xaos 213
9. Xartiya 214
10. Xəta 214
11. Xocalı soyqırımı 214
12. Xuliqanlıq 219
13. Xüsusi kateqoriyalı fərdi məlumatlar 219
14. Xüsusilə ağır cinayətlər 219
15. Xüsusi mülkiyyət 219
16. Xüsusi mülkiyyət hüququ 219
17. Xüsusi prosedurlar 220

İ

1. Ibi esse poenam, ubi et nox est 221
2. Ibi jus, ubi remedium 221
3. Ignorantia juris sui non praejudicat juri 221
4. Ignorare legis est culpa 221
5. Impunitas continuum affectum tribuit delinquendi 221
6. In aequali jure 221
7. Ira non excusat delictum 221
8. İcra hakimiyyəti 221
9. İctimai birlik 221
10. İctimai informasiya 221
11. İctimai mənəviyyat əleyhinə cinayətlər 221
12. İctimai təşkilat 221
13. İddiaçı 221
14. İkili vətəndaşlıq 221
15. İqlim Dəyişikliyi üzrə BMT-nin Çərçivə Konvensiyası 222
16. İqtisadi, sosial və mədəni hüquqlar 222
17. İqtisadi, Sosial və Mədəni Hüquqlar Haqqında Beynəlxalq Pakt 223
18. İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitə 225
19. İmmiqrant 226
20. İmmiqrasiya 226
21. İmplementasiya 226

22. İmplementasiya öhdəlikləri....226
23. İndemnitet....226
24. İnformasiya....226
25. İnformasiya cəmiyyəti....226
26. İnformasiya ehtiyatları....227
27. İnformasiya əldə etmək azadlığı....227
28. İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının Qanunu....227
29. İnformasiya əldə olunmasının əsas prinsipləri....227
30. İnformasiya hüququ....228
31. İnformasiya xidmətləri....228
32. İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu....228
33. İnformasiyanın açıqlanması....228
34. İnformasiya prosesləri....228
35. İnformasiya sahibi....228
36. İnformasiya sistemi....229
37. İnformasiya sorğusu....229
38. İnformasiya sorğusu verən....229
39. İnformasiya texnologiyaları....229
40. İnformasiya təhlükəsizliyi....229
41. İngilis-amerikan hüquq ailəsi....229
42. İngilis-amerikan hüquq sistemi....229
43. İngilis-sakson hüquq ailəsi....229
44. İngilis-sakson hüquq sistemi....229
45. İnkişaf hüququ....230
46. İnkişaf hüququ haqqında Bəyannamə....230
47. İnkorporasiya....230
48. İnsan alverçisi....231
49. İnsan alveri....231
50. İnsan alverinə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu....231
51. İnsan alverinin qurbanı....231
52. İnsan alverinin potensial qurbanları....231
53. İnsan Hüquqları Günü....231
54. İnsan hüquqları haqqında Beynəlxalq Bill....231
55. İnsan hüquqları haqqında Ümumi Bəyannamə....232
56. İnsan hüquqları hüququ....232

57. İnsan Hüquqları Komitəsi 232
58. İnsan hüquqları mədəniyyəti 233
59. İnsan hüquqları müdafiəçiləri haqqında Bəyannamə 233
60. İnsan hüquqları müdafiəçisi 233
61. İnsan hüquqlarına dair beynəlxalq müqavilələrlə bağlı qeyd-şərtlər .. 233
62. İnsan hüquqlarına dair beynəlxalq paktlar 234
63. İnsan hüquqlarına dair şikayətlərə baxılması üzrə "1503" proseduru ... 234
64. İnsan hüquqlarına dair təbii hüquq nəzəriyyəsi 234
65. İnsan hüquqlarına və əsas azadlıqlara hörmət edilməsi prinsipi 235
66. İnsan hüquqlarını həyata keçirmək hüququ 237
67. İnsan hüquqlarını müdafiə etmək hüququ 238
68. İnsan hüquqlarının anlayışı və mahiyyəti 238
69. İnsan hüquqlarının beynəlxalq müdafiəsi sahəsində BMT-nin qeyri-müqavilə mexanizmləri 239
70. İnsan hüquqlarının beynəlxalq müdafiəsi sahəsində BMT-nin müqavilə mexanizmləri 243
71. İnsan hüquqlarının etik aspekti 245
72. İnsan hüquqlarının implementasiyası 245
73. İnsan hüquqlarının kataloqu 245
74. İnsan hüquqlarının konstitusion prinsipləri 245
75. İnsan hüquqlarının qloballaşması 245
76. İnsan hüquqlarının məhdudlaşdırılması 245
77. İnsan hüquqlarının mənbələri 247
78. İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı 247
79. İnsan hüquqlarının nəsilləri 248
80. İnsan hüquqlarının pozuntularına görə dövlətlərin beynəlxalq məsuliyyəti 249
81. İnsan hüquqlarının tarixi meyara görə təsnifatı 250
82. İnsan hüquqlarının təsnifatı 250
83. İnsan hüquqlarının universallığı 250
84. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya 251
85. İnsan hüquqlarını səciyyələndirən əsas cəhətlər 251
86. İnsan hüquqlarını təşviq etmək hüququ 251
87. İnsan hüquqları sahəsində beynəlxalq nəzarət orqanları 251
88. İnsan hüquqları sahəsində dövlətlərin öhdəlikləri 251
89. İnsan hüquqları sahəsində əsas prinsiplər 253
90. İnsan hüquqları sahəsində hüquqi maarifləndirmə 254

91. İnsan hüquqları sahəsində xüsusi prosedurlar 255
92. İnsan hüquqları sahəsində təhsil 256
93. İnsan hüquqları sahəsində təhsilə dair Ümumdünya Proqramı 258
94. İnsan hüquqları sahəsində təhsilə görə UNESCO mükafatı 258
95. İnsan hüquqları sahəsində təhsil onilliyinə dair BMT-nin Fəaliyyət Planı 259
96. İnsan hüquqları sahəsində təhsil və hazırlığa dair Bəyannamə 259
97. İnsan hüquqları sistemi 259
98. İnsan Hüquqları Şurasının şikayətlərə baxılması proseduru 260
99. İnsan hüquqları təbii hüquqlar kimi 261
100. İnsan hüquqları üzrə Avropa Məhkəməsi 261
101. İnsan hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi 261
102. İnsan hüquqları üzrə Komissiya 263
103. İnsan hüquqları üzrə Ümumdünya Konfransı 263
104. İnsan hüquqları və beynəlxalq humanitar hüquq 263
105. İnsan hüquqları və əsas azadlıqlar 265
106. İnsan hüquqları və əsas azadlıqları haqqında Müstəqil Dövlətlər Birliyi Konvensiyası 268
107. İnsan hüquqları və ləyaqət 268
108. İnsan hüquq və vəzifələrinə dair Amerika Bəyannaməsi 270
109. İnsanın konstitusiya hüquqi statusu 270
110. İnsan istismarı 270
111. İnsanlıq əleyhinə cinayətlər 270
112. İnsan meyarı 272
113. İnsan ölçüsü 272
114. İnsan və xalqların hüquqları haqqında Afrika Xartiyası 272
115. İnsan və xalqların hüquqları üzrə Afrika Komissiyası 272
116. İnsan və xalqların hüquqları üzrə Afrika Məhkəməsi 273
117. İnsan və vətəndaş hüquqları Bəyannaməsi 273
118. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi 273
119. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi 273
120. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı 273
121. İnsan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində polisin fəaliyyəti 274
122. İnsan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlər 274
123. İnternetdə kommunikasiya azadlığı haqqında Bəyannamə 275

124. İnternet hüququ 276
125. İnternet informasiya ehtiyatı 276
126. İnternet informasiya ehtiyatının sahibi 276
127. İnternet-qanunvericilik 276
128. İnternet provayder 276
129. İnterpol 276
130. İnzibati cərimə 277
131. İnzibati hüquq 277
132. İnzibati xətalar məcəlləsi 277
133. İnzibati prosessual məcəllə 277
134. İpoteka 277
135. İpoteka hüququ 277
136. İrqi ayrı-seçkilik 278
137. İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya 278
138. İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Komitə 278
139. İstifadə hüququ 279
140. İstiqlal Bəyannaməsi 279
141. İstiqlaliyyət Bəyannaməsi 280
142. İstirahət hüququ 280
143. İşgəncə 280
144. İşgəncə əleyhinə Komitə 281
145. İşgəncə əleyhinə milli preventiv mexanizm 284
146. İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiya 287
147. İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında Avropa Konvensiyası 288
148. İşgəncənin və qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsi 288
149. İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Subkomitə 289
150. İşgəncəyə məruz qalmamaq hüququ 290
151. İT-İP cütlüyü 291

K

1. Kanonik hüquq....292
2. Karser....292
3. Kassasiya....292
4. Kassasiya instansiyası....292
5. Kassasiya məhkəməsi....292
6. Kassasiya şikayəti....292
7. Kazus....293
8. Kibercinayət....293
9. Kibercinayətkarlıq haqqında Budapeşt Konvensiyası....293
10. Kiberhücum....293
11. Kiberinsident....294
12. Kiberməkan....294
13. Kibertəhdid....294
14. Kilsə hüququ....294
15. Klauzula....294
16. Klerikal dövlət....294
17. Kollektiv hüquqlar....294
18. Kollizion hüquq....296
19. Kollizion norma....296
20. Kolliziya....296
21. Kombatant....296
22. Kommersiya sirri....296
23. Konfidensial informasiya....296
24. Konstitusionalizm....297
25. Konstitusion hüquqlar və azadlıqlar....297
26. Konstitusion islahat....298
27. Konstitusion məsuliyyət....298
28. Konstitusion təminatlar....298
29. Konstitusiya....298
30. Konstitusiya ədalət mühakiməsi....300
31. Konstitusiya ədliyyəsi....300
32. Konstitusiya hüququ....300
33. Konstitusiya qanunu....300
34. Konstitusiyalı monarxiya....300
35. Konstitusiya Məhkəməsi....301
36. Konstitusiya nəzarəti....301

37. Konstitusiya şikayəti 301
38. Kontinental hüquq ailəsi 301
39. Kontinental hüquq sistemi 302
40. Konvensiya 302
41. Korrupsiya 302
42. Korrupsiya ilə əlaqədar hüquq pozmalar 302
43. Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi (Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi).... 304
44. Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu 305
45. Köləlik 305
46. Köləlikdə saxlanılmamaq hüququ 305
47. Kritik informasiya infrastrukturu 305
48. Kritik informasiya infrastrukturu obyekti 306
49. Kritik informasiya infrastrukturu subyekti 306
50. Kütləvi informasiya 306
51. Kütləvi İnformasiya Vasitələrinin Azadlığı Məsələləri üzrə Nümayəndə 306

Q

1. Qaçqın 307
2. Qaçqınların statusu haqqında Konvensiya 308
3. Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında Azərbaycan Respublikasının Qanunu 308
4. Qaçqınlar üzrə BMT-nin Ali Komissarı 308
5. Qadın hüquqları 308
6. Qadın hüquqları üzrə BMT-nin ixtisaslaşmış təşkilatı 309
7. Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya 309
8. Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi üzrə Komitə.. 309
9. Qadınların siyasi hüquqları haqqında Konvensiya 310
10. Qanun 310
11. Qanunauyğun davranış 311
12. Qanunçuluq 311
13. Qanunun aliliyi 311

14. Qanunun analogiyası....311
15. Qanunvericilik 312
16. Qanunvericilikdə boşluqlar....312
17. Qanunvericilik hakimiyyəti 313
18. Qanunvericilik sistemi 313
19. Qanunvericilik təşəbbüsü....313
20. Qanunvericiliyin sistemləşdirilməsi 314
21. Qayıdış hüququ....314
22. Qeyri-hökumət təşkilatı 315
23. Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasının Qanunu....315
24. Qəyyumluq Şurası....315
25. Qitə hüquq sistemi 315
26. Qloballaşma 315
27. Qloballaşma və insan hüquqları....315
28. Qrant 317
29. Quaelibet poena corporalis, quamvis minima, major est qualibet poena pecuniaria 318

L

1. Layiqli həyat səviyyəsi hüququ 319
2. Legitimlik....319
3. Lex injusta non est lex 319
4. Leqallıq 319
5. Limburq prinsipləri 319
6. Lokaut 320
7. Loyallıq....320

M

1. Maastrixt rəhbər prinsipləri 321
2. Male nostro jure uti non debemus....321
3. Mandat 321
4. Manifest 321

5. Media 321
6. Media azadlığı 321
7. Media haqqında Azərbaycan Respublikasının Qanunu 322
8. Mediasiya 322
9. Mediasiya haqqında Azərbaycan Respublikasının Qanunu 323
10. Media subyekti 323
11. Mediator 323
12. Memorandum 323
13. Məcburi əmək 323
14. Məcburi köçkün 324
15. Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu 324
16. Məcəllə 324
17. Məcəllələşdirmə 324
18. Mədəni hüquqlar 324
19. Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu 325
20. Məhkəmə 325
21. Məhkəmə aidiyyətinin dəyişdirilməsinə yol verilməməsi 326
22. Məhkəmə hakimiyyəti 326
23. Məhkəmə hökmü 327
24. Məhkəmə-Hüquq Şurası 327
25. Məhkəmə instansiyası 329
26. Məhkəmə qərardadı 331
27. Məhkəmə qərarı 331
28. Məhkəmə qətnaməsi 331
29. Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikasının Qanunu 332
30. Məhkəmə müdafiəsi hüququ 332
31. Məhkəmə sistemi 332
32. Məhkəmə təminatı ilə bağlı olan hüquqlar 332
33. Məhkəməyə müraciət etmək hüququ 333
34. Məhkəməyə təkrar müraciət hüququ 334
35. Məhkum 334
36. Məhkumların əsas hüquqları və azadlıqları 334
37. Məhkumlarla minimal standart davranış qaydaları 335
38. Məişət zəminində cinsi zorakılıq 335
39. Məişət zəminində fiziki zorakılıq 336
40. Məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi 336

41. Məişət zəminində psixi zorakılıq 336
42. Məişət zorakılığı 336
43. Məişət zorakılığından zərər çəkmiş şəxs 336
44. Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanunu 336
45. Məlumat azadlığı 337
46. Məlumat azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu 337
47. Mənbə 337
48. Mənəvi zərər 337
49. Mənzil hüququ 338
50. Mənzil məcəlləsi 338
51. Mənzil toxunulmazlığı hüququ 338
52. Məşğulluq 339
53. Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu 339
54. Mətbuat relizi (press reliz) 339
55. Miqrasiya Məcəlləsi 339
56. Millətlər Liqası 339
57. Milli Azlıqların İşləri üzrə Ali Komissar 339
58. Milli Fəaliyyət Planı 340
59. Milli Fəaliyyət Proqramı 340
60. Milli Məclis 340
61. Minilliyin İnkişaf Məqsədləri 341
62. Monarxiya 342
63. Monitorinq 342
64. Monoqamiya 342
65. Moratorium 342
66. Multikulturalizm 342
67. Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında Azərbaycan Respublikasının Qanunu 343
68. Müharibə cinayətləri 343
69. Müharibə qurbanlarının müdafiəsinə dair Cenevrə Konvensiyaları ... 344
70. Müqavilə 344
71. Müqavilə azadlığı 344
72. Mülki hüquq 344
73. Mülki hüquq və azadlıqlar 344
74. Mülki məcəllə 345
75. Mülki prosessual hüquq 345
76. Mülki prosessual məcəllə 345

77. Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt 345
78. Mülkiyyət hüququ 347
79. Müraciət 347
80. Müraciət etmək hüququ 348
81. Müstəqil Dövlətlər Birliyi 348
82. Müstəqil Dövlətlər Birliyi və insan hüquqları 349
83. Mütləq hüquqlar və azadlıqlar 351

N

1. Napoleon Məcəlləsi 352
2. Naturalizasiya 352
3. Nazirlər kabineti 352
4. Neminem laedit qui suo jure utitur 352
5. Nemo cogitationis poenam patitur 352
6. Nemo cogitur rem suam vendere, etiam justo pretio 352
7. Nemo debet ex alieno damno lucrari 352
8. Nemo est supra leges 352
9. Nemo jure suo uti cogltur 352
10. Nifrət nitqi 352
11. Nikah 353
12. Nikah hüququ 353
13. Normativ hüquqi akt 354
14. Normativ hüquqi aktda dəyişikliklərin edilməsi 354
15. Normativ hüquqi aktın açıqlanması 354
16. Normativ hüquqi aktın hüquqi qüvvəsi 354
17. Normativ hüquqi aktların kolliziyası 354
18. Normayaratma fəaliyyəti 354
19. Normayaratma orqanı 354
20. Normayaratma prosesi 354
21. Normayaratma texnikası 355
22. Notariat 355
23. Notarius 355
24. Nulli vendemus, nulli negabimus,
aut differemus, rectum vel justitiam 356
25. Nullum crimen, nulla poena sine lege 356
26. Nürnberq tribunalı 356

O

1. Ombudsman 358
2. Orqanik qanun 359

Ö

1. Öhdəlik 360
2. Ölüm cəzası 360
3. Ömürlük azadlıqdan məhrum etmə 361

P

1. Pacta sunt servanda 362
2. Pakt 362
3. Parlament 362
4. Parlamentarizm 363
5. Parlament hüququ 363
6. Pasiyentlərin hüquqları 363
7. Pasiyentlərin hüquqları haqqında Avropa Xartiyası 365
8. Pasport 366
9. Passiv seçki hüququ 366
10. Patent hüququ 367
11. Penitensiar 367
12. Penitensiar müəssisə 367
13. Pensiya 367
14. Petisiya 367
15. Piratçılıq 368
16. Plagiatlıq 368
17. Plebissit 368
18. Plüralizm 368
19. Poliqamiya 368
20. Polis 369
21. Polis əməkdaşı 369

22. Polisin əsas vəzifələri....369
23. Pozitiv hüquqlar....370
24. Presedent....370
25. Preyudisiya....371
26. Prezident....372
27. Prokuror....374
28. Prokurorluq....374
29. Prolonqasiya....375
30. Promulqasiya....375
31. Prosessual hüquq....375
32. Protokol....375
33. Publik hüquq....376
34. Publik hüquqi şəxs....376
35. Publik hüquqi şəxslər haqqında Azərbaycan Respublikasının Qanunu....376

R

1. Ratifikasiya....377
2. Reabilitasiya....378
3. Referendum....378
4. Regional beynəlxalq müqavilələr....379
5. Regional beynəlxalq təşkilatlar....379
6. Reqlament....379
7. Reparasiya....380
8. Repatriant....380
9. Repatriasiya....380
10. Repressali....380
11. Repressiya....380
12. Resipiyent....380
13. Respublika....381
14. Restitusiya....381
15. Retorsiya....381
16. Robot....381
17. Roma hüququ....381
18. Roman-alman hüquq ailəsi....382

19. Roman-alman hüquq sistemi 382
20. Ruanda tribunalı..... 382

S

1. Sağlam ətraf mühitdə yaşamaq hüququ..... 383
2. Sağlamlığın qorunması hüququ 383
3. Sağlamlığın vəziyyəti barədə vətəndaşların məlumat almaq hüququ 384
4. Sahibkarlıq hüququ..... 385
5. Sahiblik hüququ..... 386
6. Salus populi – suprema lex 386
7. Sanksiya..... 386
8. Satisfaksiya 386
9. Seçki hüququ..... 386
10. Seqreqasiya 387
11. Senzura..... 387
12. Separatçılıq 388
13. Sərbəst toplaşmaq azadlığı..... 388
14. Sərbəst toplaşmaq azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu..... 389
15. Sərəncam hüququ..... 390
16. Sərhədlərin pozulmazlığı prinsipi..... 390
17. Sığınacaq hüququ..... 390
18. Sığorta..... 391
19. Sığorta fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu..... 391
20. Siyasi hüquq və azadlıqlar 391
21. Siyasi sığınacaq hüququ..... 392
22. Sosial dövlət..... 392
23. Sosial hüquqlar 393
24. Sosial sığorta..... 393
25. Sosial sığorta haqqında Azərbaycan Respublikasının Qanunu..... 394
26. Sosial təminat hüququ..... 394
27. Sosial və tibbi yardım hüququ 395
28. Soyqırımı 395
29. Söz azadlığı..... 395

30. Status 397
31. Status-kvo 397
32. Statut 397
33. Subyektiv hüquq 397
34. Suisid 397
35. Summum jus est summa injuria 397
36. Suveren hüquqlar 397
37. Suverenlik 397
38. Sülh hüququ 397
39. Sülh mədəniyyəti 398
40. Sülh mədəniyyəti sahəsində Bəyannamə və Fəaliyyət proqramı 398
41. Sülh və insanlıq əleyhinə cinayətlər 400
42. Süni intellekt 400

Ş

1. Şəxsi həyat 401
2. Şəxsi həyata və ailə həyatına hörmət hüququ 401
3. Şəxsi həyatın toxunulmazlığını pozma 401
4. Şəxsi həyatın toxunulmazlığı tezisi 401
5. Şəxsi hüquqlar 402
6. Şəxsin suverenliyi 402
7. Şəxsi toxunulmazlıq hüququ 402
8. Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər 403
9. Şəxsiyyətin hüquqi statusu 403
10. Şərəfin, ləyaqətin və ya işgüzar nüfuzun müdafiəsi 404
11. Şərəf və ləyaqətin müdafiəsi hüququ 404
12. Şifahi müraciət 405
13. Şikayət 405

T

1. Teokratik dövlət 406
2. Teokratiya 406

3. Terrorçu 406
4. Terrorçuluğa qarşı mübarizə 406
5. Terrorçuluq 406
6. Terror əleyhinə aparılan əməliyyatlar 406
7. Terror fəaliyyəti 406
8. Terrorizm 406
9. Terror qrupu 410
10. Terror təşkilatı 410
11. Təbii hüquq nəzəriyyəsi 410
12. Təcavüz 410
13. Təhqir 411
14. Təhlükəsiz və sağlam əmək şəraiti hüququ 411
15. Təhlükəsiz yaşamaq hüququ 411
16. Təhsil hüququ 411
17. Təqsirsizlik prezumpsiyası 413
18. Təqsirsizlik prezumpsiyası hüququ 413
19. Tətil hüququ 413
20. Tibbi hüquq 414
21. Tibbi sığorta 414
22. Tibbi sığorta haqqında Azərbaycan Respublikasının Qanunu 414
23. Tolerantlıq 414
24. Tolerantlıq prinsipləri haqqında Bəyannamə 415
25. Totalitar dövlət 415
26. Totalitarizm 415
27. Törəmə hüquqlar 416
28. Transplantasiya 416
29. Tribunal 416
30. Turist 416
31. Türk Dövlətləri Təşkilatı 417

U

1. Ubi culpa est, ibi poena subesse debet 420
2. Ubi jus ibi remedium 420
3. Ubi jus incertum, ibi nullum 420
4. Ubi non est lex, ibi non est transgressio quoad mundum 420

5. UNESCO 420
6. Unitar dövlət 420
7. Universal Dövri İcmal 420
8. Uşağın ad və vətəndaşlıq almaq hüququ 421
9. Uşağın ailədə yaşamaq hüququ 421
10. Uşağın azadlıq və şəxsi toxunulmazlıq hüququ 421
11. Uşağın əmək hüquqları 422
12. Uşağın həyatı və sağlamlığının mühafizəsi hüququ 422
13. Uşağın istirahət hüququ 422
14. Uşağın istismardan və zərərli təsirlərdən mühafizəsi 423
15. Uşağın məlumat azadlığı 423
16. Uşağın mənzil hüququ 423
17. Uşağın şərəf və ləyaqətinin müdafiəsi hüququ 424
18. Uşağın təhsil almaq hüququ 424
19. Uşağın tərbiyə almaq hüququ 424
20. Uşağın vərəsəlik və valideynlərinin əmlakı hesabına saxlanma hüququ 424
21. Uşağın vicdan, fikir və söz azadlığı 424
22. Uşağın yaşamaq və inkişaf etmək hüququ 425
23. Uşağın zəruri maddi təminat hüququ 425
24. Uşaq hüquqları 425
25. Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu 430
26. Uşaq hüquqları haqqında Bəyannamə 430
27. Uşaq Hüquqları haqqında Konvensiya 431
28. Uşaq Hüquqları Komitəsi 433
29. Uşaqların hüquq bərabərliyi 433
30. Uşaqların ictimai təşkilatlarda birləşmək hüququ 434
31. Uşaq mənafelərinin üstünlüyü 434
32. Uzurpasiya 434

Ü

1. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi 435
2. Ümumdünya Sammitinin Yekun Sənədi 438
3. Ümumxalq səsverməsi 439
4. Ümumi hüquq 439

5. Ümumi hüquq ailəsi....439
6. Ümumi hüquq sistemi....439
7. Ümumi seçki hüququ....439
8. Ünvanlı dövlət sosial yardımı....440
9. Ünvanlı dövlət sosial yardımı haqqında Azərbaycan Respublikasının Qanunu....440

V

1. Valideynlərindən ayrı yaşayan uşağın hüququ....441
2. Valideynlərin hüquq və vəzifələri....441
3. Valideynlərin hüquq və vəzifələrinin bərabərliyi....441
4. Valideynlik hüquqlarından məhrumetmə....441
5. Valideynlik hüquqlarından məhrumetmə qaydası....441
6. Valideynlik hüquqlarından məhrumetmənin nəticələri....442
7. Valideynlik hüquqlarının bərpası....442
8. Valideynlik hüquqlarının həyata keçirilməsi....443
9. Valideynlik hüquqlarının məhdudlaşdırılması....443
10. Valideynlik hüquqlarının məhdudlaşdırılmasının nəticələri....444
11. Valideynlik hüquqlarının müdafiəsi....445
12. Vassenaar sazişi....445
13. Veritas nihil veretur nisi abscondi....445
14. Veymar Konstitusiyası....445
15. Vəkil....446
16. Vəkillər Kollegiyası....449
17. Vəkillər və vəkillik fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu....450
18. Vəkillik....451
19. Vətəndaş....451
20. Vətəndaş cəmiyyəti....452
21. Vətəndaş hüquqları....453
22. Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu....453
23. Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının Qanunu....453

24. Vətəndaşlığı olmayan şəxs 453
25. Vətəndaşlıq 453
26. Vətəndaşlıq hüququ 456
27. Vətəndaşlıq hüququnun təminatı 456
28. Vətəndaş və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt 456
29. Vətən müharibəsi 456
30. Vicdan azadlığı 458
31. Vis legibus est inimica 459
32. Vita et membra sunt in potestate legis 459
33. Voluntas in delictis non exitus spectatur 459
34. Vyana Bəyannaməsi və Fəaliyyət Proqramı 459

Y

1. Yaradıcılıq azadlığı 462
2. Yaşamaq hüququ 462
3. Yaşayış yeri seçmək hüququ 466
4. Yetkinlik yaşına çatmayan şəxslərə münasibətdə ədalət mühakiməsinin həyata keçirilməsinə dair BMT-nin minimal standart qaydaları (Pekin qaydaları) 467
5. Yığıncaqlar azadlığı 468
6. Yuqoslaviya tribunalı 468
7. Yurisdiksiya 469
8. Yurisprudensiya 469
9. Yuvenal ədliyyə 469
10. Yuvenal məhkəmə 469
11. Yuvenal sistem 470

Z

1. Zəfər Günü 471

İXTİSARLAR:

1. ABŞ – Amerika Birləşmiş Ştatları
2. Afr. – Afrika dillər qrupuna daxil olan dillərin birində
3. AKPB – Avropa Kömür və Polad Birliyi
4. Alm. – almanca
5. ATƏM – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi
6. ATƏT – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı
7. B.e. – bizim eranın
8. B.e.ə. – bizim eradan əvvəl
9. BQXK – Beynəlxalq Qızıl Xaç Komitəsi
10. BMT – Birləşmiş Millətlər Təşkilatı
11. Böyük Britaniya – Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı
12. ECOSOC – United Nations Economic and Social Council – Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurası
13. Ərəb. – ərəbcə
14. FAO – Food and Agriculture Organization of the United Nations – Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı
15. Fr. – fransızca
16. Hərf. – hərfi
17. ICRC – International Committee of the Red Cross – Beynəlxalq Qızıl Xaç Komitəsi
18. ILO – International Labour Organization – Beynəlxalq Əmək Təşkilatı
19. İxt. – ixtisarla
20. İKT – informasiya-kommunikasiya texnologiyaları
21. İng. – ingiliscə
22. İsp. – ispanca
23. İsv. – isveçcə
24. İtal. – italyanca
25. QHT – qeyri-hökumət təşkilatı
26. Lat. – latınca
27. MDB – Müstəqil Dövlətlər Birliyi
28. Məs. – məsələn
29. OHCHR – The Office of the United Nations High Commissioner for Human Rights – Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarının İdarəsi
30. TDT – Türk Dövlətləri Təşkilatı

31. UNAIDS – Joint United Nations Programme on HIV/AIDS – Birləşmiş Millətlər Təşkilatının İİV/QİÇS üzrə Birgə Proqramı
32. UNDP – United Nations Development Programme – Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı
33. UNEP – United Nations Environment Programme – Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı
34. UNESCO – United Nations Educational, Scientific and Cultural Organization – Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı
35. UNFPA – United Nations Population Fund – Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu
36. UNHCR – The Office of the United Nations High Commissioner for Refugees – Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarı İdarəsi
37. UN-HABITAT – United Nations Human Settlements Programme – Birləşmiş Millətlər Təşkilatının İnsan Məskənləri üzrə Proqramı
38. UNICEF – United Nations International Children's Emergency Fund; United Nations Children's Fund – Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu
39. UNODC – United Nations Office on Drugs and Crime – Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi
40. UN – United Nations – Birləşmiş Millətlər Təşkilatı
41. UNWOMEN – United Nations Entity for Gender Equality and the Empowerment of Women – Birləşmiş Millətlər Təşkilatının Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Genişləndirilməsi Təşkilatı
42. Yun. – yunanca

MÜƏLLİF SÖZÜ

Ulu Öndər Heydər Əliyev – müasir Azərbaycan dövlətinin banisi
Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev –
qalib Azərbaycan dövlətinin banisi

Ümummilli Lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə ən çox diqqət yetirdiyi sahələrdən biri insan hüquq və azadlıqlarının qorunması olmuşdur. Ulu Öndərin rəhbərliyi altında həyata keçirilmiş islahatlar nəticəsində insan hüquqlarının səmərəli müdafiəsi təmin edilmiş, bütövlükdə insan hüquqlarının inkişafı üçün münbit şərait yaranmışdır. Məhz Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət nəticəsində Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. Bu mərhələnin əsas hədəfi insan hüquqlarına hörmətin təmin olunması və işğaldan azad edilmiş ərazilərin bərpası və çiçəklənməsidir.

Prezident İlham Əliyevin cəmiyyətdə ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi, demokratiyanın inkişafı, insan hüquq və azadlıqlarının qorunması istiqamətində fəaliyyəti nəticəsində bu gün Azərbaycan hüquqi dövlət ideyasının reallaşdığı, dövlət, cəmiyyət və şəxsiyyət münasibətlərinin demokratik prinsiplərə əsaslandığı, müxtəlif millətlərin dilinin, dininin, mədəniyyətlərinin qovuşması nəticəsində yaranmış, tolerantlıq prinsiplərinə sadiq, multikultural mühitin formalaşdığı bir məkana çevrilmişdir. Bütövlükdə prezident İlham Əliyevin yürütdüyü siyasət məhz insan hüquq və azadlıqlarının səmərəli təminə yönəlmişdir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın və rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti davamlı inkişafın təmin edilməsinə və insan hüquqlarının etibarlı şəkildə müdafiəsinə xidmət edir. Birinci vitse-prezident Mehriban Əliyevanın bilavasitə rəhbərliyi ilə həyata keçirilən müxtəlif layihələr nəticəsində insan hüquqlarının, xüsusilə sosial hüquqların və uşaq hüquqlarının səmərəli müdafiəsi təmin edilir.

İnsan hüquqlarının aktuallıq kəsb etdiyi müasir dövrdə bu sahədə tədris vəsaitlərinin, xüsusi nəşrlərin hazırlanması və çap edilməsi olduqca vacibdir. Belə nəşrlər sırasında ensiklopediyalar əhəmiyyətli yer tutur. Azərbaycan Respublikasında ensiklopediyaşünaslığın və ensiklopediya mədəniyyətinin özünəməxsus tarixi vardır. Bu mühüm fəaliyyətin formalaşma və inkişaf dövrü Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ulu Öndər Heydər Əliyevin fəal dəstəyi ilə 1976-1987-ci illərdə "Azərbaycan Sovet Ensiklopedi-

yası”nın nəşri Azərbaycanın elmi həyatında tarixi hadisəyə çevrildi. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra milli ensiklopediyanın nəşri məsələsi gündəmə gəldi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev universal milli ensiklopediyanın yüksək elmi səviyyədə hazırlanıb nəşr olunması üçün müxtəlif vaxtlarda “Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında”, həmçinin “Azərbaycan Milli Ensiklopediyası” Elmi Mərkəzinin yaradılması haqqında” sərəncamlar imzalamışdır.

Tarixin müxtəlif dönəmlərində ensiklopediya zəngin informasiya mənbəyi olaraq cəmiyyətin intellektual potensialının artırılmasında, ümumi elmi düşüncənin formalaşmasında müstəsna əhəmiyyətə malik bir vəsait kimi cıxış etmiş və bu gün də bu funksiyanı yerinə yetirməkdə davam edir. İstənilən elm sahəsinin dərindən mənimsənilməsi baxımından ensiklopediyaların rolu əvəzedilməzdir. Ümumiyyətlə, qeyd edilməlidir ki, ensiklopediya elmi termin kimi XVI əsrdə meydana gəlsə də, ensiklopediya haqqında müəyyən əsərlərin qədim tarixi kökləri vardır. Ensiklopediya tipli vəsaitlər hələ Qədim Misirdə (b.e.ə. II minillik) və Qədim Çində (b.e.ə. XII-X əsrlər) hazırlanmışdır. Ensiklopediyaların məşhurluq qazanması orta əsrlər dövrünə təsadüf edir. Ən qədim ensiklopediyanın müəllifi Roma mütəfəkkiri və yazıçısı Qay Pliniy Sekund (lat. Gains Plinius Secundus, b.e. 24-cü ili-b.e. 79-cu ili) hesab edilir. Mütəfəkkirin dövrümüzə gəlib çatmış yeganə əsəri “Təbii tarix” adlı nəhəng ensiklopedik əsərdir. Pliniy ilk ensiklopedist alim hesab edilir. Mütəfəkkir öz əsərini “hərtərəfli təlim” (yun. enkyklios paideia) adlandırırdı. Ensiklopediya sözü öz mənşəyini buradan götürür. Müsəlman aləmində ilk ensiklopedik əsər X əsrdə yazılmış “Bəsrə qardaşlarının ensiklopediyası” adlı 4 cilddən ibarət əsərdir. Ensiklopediyanın müəllifləri o dövrün tanınmış müsəlman filosoflarıdır (Əbu Süleyman Məhəmməd ibn Muşir əl-Busti və digərləri). Ensiklopediya özündə 52 elmi əsəri birləşdirirdi: 14 elmi əsər riyazi elmlər və məntiq üzrə, 17 elmi əsər təbiət elmləri üzrə, 10 elmi əsər ruh və idrak məsələləri üzrə, 11 elmi əsər isə ilahi qanunlar və şəriət üzrə.

Orta əsrlərdə Avropada ensiklopediyalar artıq ali təhsil müəssisələrində dərs vəsaiti kimi istifadə olunurdu. Renessans dövründə, XIV-XVI əsrlərdə ensiklopediya özünün böyük inkişaf və təkamül dövrünü yaşamağa başladı. Ensiklopediyaşünaslığın əsasını qoyanlardan biri də məşhur fransız filosofu və yazıçısı Deni Didrodur (fr. Denis Diderot, 1713-1784). Məhz onun ümumi redaktəsi ilə 1751-ci ildə “Ensiklopediya, yaxud elmlər, incəsənət və peşələr haqqında izahlı lüğət” əsəri (fr. Encyclopedie on dictionnaire raisonne 44 des sciences, des arts et des metiers) işıq üzü görmüşdür. 1751-1772-ci illərdə Didronun redaktəsi ilə ensiklopediyanın 28 cildi çap edilmişdir. Ensiklopediya Av-

ropada elmi təfəkkürün inkişafında misilsiz rol oynamaqla məşhur "Britaniya ensiklopediyası"nın və ya "Britannika"nın hazırlanması üçün əsas rolunu oynadı. Beləliklə, 1768-1771-ci illərdə Edinburqda şotlandiyalı tarixçi və ensiklopedist Uilyam Smellinin (ing. William Smellie, 1740-1795) ümumi redaktəsi ilə məşhur Britannika ensiklopediyası işıq üzü gördü. XVIII-XIX əsrlərdə bir sıra digər Avropa dövlətlərində də (Almaniya, Avstriya, İtaliya, İsveç və s.) ensiklopediyaların nəşrinə başlanıldı. Ümumi ensiklopediyalarla yanaşı, ayrı-ayrı sahələri əhatə edən xüsusi, ixtisaslaşmış ensiklopediyaların da mühüm əhəmiyyəti vardır. Bunların sırasında hüquq ensiklopediyaları xüsusi yer tutur. Tarixən hüquqşünas-tələbələrin peşəkar mütəxəssis kimi formalaşmasında, ümumilikdə isə, hüquq mədəniyyətinin və hüquq düşüncəsinin inkişafında, hüquqi nihilizmin aradan qaldırılmasında hüquq ensiklopediyaları müstəsna məna kəsb etmişdir. Qeyd etmək yerinə düşər ki, uzun illər bir sıra hüquq fakültələrində (məsələn, İngiltərənin, Fransanın, Rusiyanın ali məktəblərində) "hüquq ensiklopediyası" hüquq nəzəriyyəsi, hüquq fəlsəfəsi ilə yanaşı, müstəqil və əsas fənn kimi tədris olunurdu. Hüquq ensiklopediyası vasitəsilə tələbələr hüququn mahiyyəti, fəlsəfəsi, hüquq haqqında əsas təlimlər, nəzəriyyələr və hüquq elmi haqqında ilkin və zəruri bilikləri əldə edirdilər. Ümumilikdə isə, hüquq elminin hərtərəfli öyrənilməsi baxımından hüquq ensiklopediyalarının böyük əhəmiyyəti vardır.

Hal-hazırda insan hüquqlarının tədrisinin geniş vüsət aldığını nəzərə alaraq insan hüquqlarının müstəqil tədris fənni kimi öyrənilməsində insan hüquqları üzrə ixtisaslaşmış ensiklopediyanın nəşri hüquq elminin bu mühüm sahəsinin dərindən və hərtərəfli mənimsənilməsinə xidmət edir.

Hər bir dövlətdə insan hüquqlarına hörmət mühitinin formalaşmasında bu sahədə nəşr olunan xüsusi vəsaitlərin özünəməxsus rolu olur. Təqdim olunan bu ensiklopediyanın əsas məqsədlərindən biri də məhz insan hüquqları sahəsində biliklərin əldə edilməsi vasitəsilə cəmiyyətdə insan hüquqlarına hörmətin artırılmasına yardımçı olmaqdan ibarətdir.

Oxucuların diqqətinə təqdim olunan və respublikamızda ilk dəfə olaraq nəşr edilən belə unikal ensiklopedik vəsaitin işıq üzü görməsi məhz bu baxımdan əhəmiyyətli sayıla bilər. Bu vəsaitin nəşri, həm də insan hüquqlarının səmərəli tədrisinə yardım etmək məqsədi daşıyır.

Təqdim edilən ensiklopediya özündə insan hüquqlarının, demək olar ki, bütün mühüm aspektlərini ehtiva edir. Ensiklopediyada insan hüquqlarının tarixi, formalaşması və inkişafı, insan hüquqları nəzəriyyəsi, insan hüquqlarının anlayışı, mahiyyəti və əsas prinsipləri, müasir strukturu, mənbələri, insan hüquqları sahəsində milli qanunvericilik və beynəlxalq hüquq normaları

və insan hüquqlarının bu kimi digər aspektlərini əhatə edən mövzularla bağlı mindən artıq müddəa əks olunmuşdur. Eyni zamanda ensiklopediyada insan hüquqları ilə bilavasitə və ya dolayısı ilə bağlı olan digər hüquq sahələrinə aid bir sıra terminlərin, həmçinin insan hüquqlarına dair bəzi latın aforizmlərinin də izahı verilmişdir. Bu isə ensiklopediyanın zənginliyinin göstəricilərindən biri sayıla bilər.

Hazırda respublikamız özünün yeni intibah dövrünü yaşayır. 2020-ci ilin sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı irimiqyaslı hücumuna cavab olaraq, Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsində təsbit olunmuş özünümüdafiə hüququndan istifadə edərək, öz ərazisində Ermənistana qarşı əks-hücum əməliyyatına başladı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsi nəticəsində 30 ilə yaxın davam edən işğala son qoydu. Beləliklə də, işğalçı sülhə məcbur edildi. Klassik beynəlxalq hüquqa görə, ədalətli müharibə hüquqi məcburetmənin, o cümlədən sülhə məcburetmənin formalarından biridir. 2023-cü ilin 19-20 sentyabr tarixlərində həyata keçirilən uğurlu anti-terror əməliyyatı nəticəsində isə dövlət suverenliyimiz tam bərpa olundu. Ərazi bütövlüyümüzün və dövlət suverenliyimizin bərpa olunması ilə pozulmuş beynəlxalq hüquq normaları da bərpa olundu. Dahi alman filosofu İmmanuel Kanta görə, hüquq uğrunda mübarizə aparmaq lazımdır, yalnız belə mübarizə nəticəsində hüququ əldə etmək olar. Xüsusilə vurğulanmalıdır ki, işğal müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərlə müşayiət olunub. Ermənistan tərəfindən Azərbaycana qarşı zəncirvari və müntəzəm xarakter almış beynəlxalq cinayətlərin növbəti mərhələsi 44 günlük Vətən müharibəsi vaxtı törədildi. Ermənistan Azərbaycana qarşı törətdiyi beynəlxalq cinayətlərə görə beynəlxalq hüquqi məsuliyyət daşıyır və həm Ermənistan dövlətinin, həm də onun ayrı-ayrı vəzifəli şəxslərinin beynəlxalq hüquqi məsuliyyətə cəlb edilməsi və beynəlxalq səviyyədə mühakimə olunması mexanizmləri beynəlxalq hüquq normalarında nəzərdə tutulmuşdur. Ermənistan tərəfindən törədilmiş beynəlxalq cinayətlərin hüquqi təhlili, bu cinayətlərin beynəlxalq hüquq və insan hüquqları kontekstində tədqiq edilməsi, Ermənistanın beynəlxalq hüquqi məsuliyyətə cəlb edilməsinin hüquqi və nəzəri əsaslarının müəyyənləşdirilməsi baxımından da bu vəsaitin əhəmiyyətli olacağına inanıram.

Hüquqi dövlətin və vətəndaş cəmiyyətinin inkişafı, demokratik dəyərlərin bərqərar olması baxımından insan hüquqlarının tədrisi mühüm əhəmiyyət kəsb edir. BMT Baş Assambleyasının 59/113 saylı, 10 dekabr 2004-cü il tarixli "İnsan hüquqları sahəsində təhsilə dair Ümumdünya Proqramı" adlı qətnaməsində insan hüquqları sahəsində təhsilin insan hüquqlarının və əsas azadlıqların

həyata keçirilməsində mühüm əhəmiyyət kəsb etdiyi, bərabərliyin təşviqində, konfliktlərin və insan hüquqlarının pozuntusu hallarının qarşısının alınmasında mühüm rol oynadığı vurğulanır. İnsan hüquqlarının elmi-nəzəri cəhətdən öyrənilməsi və praktiki tətbiqi haqqında biliklərin, insan hüquqlarına hörmətə əsaslanan hüquq mədəniyyəti və hüquq düşüncəsinin formalaşmasında, gənc nəslin insan hüquqlarına hörmət ruhunda tərbiyə olunmasında təqdim olunan bu ensiklopediyanın özünəməxsus rolu olacağına, insan hüquqları sahəsində təhsilin inkişafına xidmət edəcəyinə inanıram.

Oxucuların diqqətinə təqdim olunan bu ensiklopediyanı 2014-cü ildə yazmağa başladım və bizim üçün olduqca əlamətdar olan 2025-ci ildə, yəni Konstitusiya və Suverenlik İlində tamamladım. İnsan hüquqları üzrə ilk ensiklopediyanın Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2024-cü il tarixli Sərəncamına əsasən elan edilmiş Konstitusiya və Suverenlik İlində, həmçinin müəllifi Ulu Öndər Heydər Əliyev olan insan hüquqlarının əsas mənbəyi – ilk milli və hüquqi Konstitusiyamızın qəbul edilməsinin 30 illiyi ərəfəsində işıq üzü görməsi təqdirəlayiq hal kimi qiymətləndirilə bilər.

Müharibələrin, müxtəlif münaqişələrin artdığı müasir dövrdə insan hüquqları amilinin bəşəriyyət üçün nə qədər böyük önəm daşıdığını sübut etməyə ehtiyac yoxdur. Dünyanı gözəllik deyil, insan hüquqlarına hörmət xilas edəcəkdir.

Konstitusiya və Suverenlik İlinə həsr edilmiş insan hüquqları üzrə bələdçi olan bu ensiklopediyanın Azərbaycan hüquq ictimaiyyəti üçün dəyərli töhfə olacağına ümid edirəm.

Zaur Əliyev
Hüquq elmləri üzrə fəlsəfə doktoru, dosent
Xankəndi şəhəri, 20 sentyabr 2025-ci il

A

1. **“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası** – 2020-ci ilədək dövr üçün ölkənin perspektiv inkişaf hədəf və istiqamətlərini müəyyənləşdirmək və onların gerçəkləşdirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş sənəd. Konsepsiya ölkə həyatının bütün sahələrində inkişaf siyasətinin əsas strateji hədəflərini özündə ehtiva edir və onun həyata keçirilməsi məqsədli dövlət proqramları vasitəsilə gerçəkləşdirilmişdir. Konsepsiya 11 bölmədən ibarətdir: mövcud vəziyyət; müasir çağırışlar; Azərbaycan 2020: strateji baxış və əsas prioritetlər; yüksək rəqabətqabiliyyətli iqtisadiyyata doğru (səmərəli dövlət tənzimləməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşması; iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun inkişafı; elmi potensialın və innovasiya fəaliyyətinin dəstəklənməsi); nəqliyyat, tranzit və logistika infrastrukturunun təkmilləşdirilməsi. Bölgələrin tarazlı inkişafı; informasiya-kommunikasiya texnologiyalarının inkişafı və informasiya cəmiyyətinə keçidin təmin edilməsi; insan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması (əhalinin sağlamlığı və səhiyyə sahəsində qarşıda duran başlıca vəzifələr; müasir təhsil sisteminin formalaşdırılması; sosial müdafiə sisteminin təkmilləşdirilməsi; gender bərabərliyinin təmin olunması və ailənin inkişafı; gənclərin potensialının və idmanın inkişafı); qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi; vətəndaş cəmiyyətinin inkişafı; mədəni irsin qorunması və səmərəli idarə edilməsi; ətraf mühitin qorunması və ekologiya məsələləri. Konsepsiyanın başlıca strateji məqsədi mövcud imkan və resursları nəzərə almaqla, Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi və qanunun aliliyi, insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olmaqdır.
2. **Ab agendo** (lat.) **–** hüquqlardan məhrum edilmiş şəxs.
3. **Abituriyent** – ali təhsil və ya orta peşə-ixtisas təhsili müəssisəsinə qəbul olunmaq üçün müvafiq sənədləri təqdim etmiş şəxs.
4. **Abort** (lat. abortus – uşaqsalma) – hamiləliyin süni surətdə pozulması.
5. **Abrogatio legis** (lat.) **–** qanunun ləğvi.
6. **Abroqasiya** (lat. abrogatio – ləğv etmə) – köhnəlmiş, müasir tələblərə cavab verməyən qanunun ləğv edilməsi.

7. **Absenteizm** (lat. absens – iştirak etməmək) – seçkilərdə və ya referendumda seçicilərin səsvermədə iştirak etməkdən imtina etməsi.
8. **Absque injuria** (lat.) – hüquq pozuntusuna yol vermədən; insan hüquqlarını pozmadan.
9. **Absolvitor** (lat.) – bəraət hökmü.
10. **Absolyusiya** (lat. absolutio, ing. absolution – bağışlanma; bəraət) – təqsirləndirilən şəxsi cəzadan azad edən prosessual xarakterli məhkəmə aktı. Bu akt əsasında təqsirləndirilən şəxs məhkəmə zalından azadlığa buraxılır.
11. **Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı** – açıq hökumət prinsiplərinin tətbiqinin genişləndirilməsi, korrupsiyanın qarşısının alınması üzrə yeni mexanizmlərin tətbiqi, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin və ictimai nəzarətin gücləndirilməsi, sahibkarların hüquqlarının müdafiəsi, "Açıq hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" çərçivəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş sənəd. Milli Fəaliyyət Planı vətəndaş cəmiyyəti üzvlərinin fəal iştirakı ilə hazırlanmış və çoxsaylı ictimai dinləmələrdə müzakirə edilmişdir. Plan on bir bölmədən ibarətdir: elektron xidmətlərin təkmilləşdirilməsi; informasiya əldə edilməsinin təmin olunması; normativ hüquqi aktların vahid internet elektron bazasının fəaliyyətinin təkmilləşdirilməsi; vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin genişlənməsi və ictimai iştirakçılığın artırılması (vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin dəstəklənməsi; ictimai iştirakçılığın genişləndirilməsi); maliyyə şəffaflığının təmin edilməsi; yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi (bələdiyyə qulluğuna qəbul prosesində şəffaflığın təmin edilməsi; bələdiyyə qulluqçularının etik davranış qaydaları barədə məlumatlandırılması və peşəkarlığının artırılması); mədən sənayesində şəffaflığın artırılması; korrupsiyanın qarşısının alınması sahəsində tədbirlər və qanunvericiliyin təkmilləşdirilməsi; özəl sektorda şəffaflığın və məsuliyyətin artırılması; maarifləndirmə və əməkdaşlıq; Fəaliyyət Planının icrasının monitorinqi və nəzarətin təşkili.
12. **Açıq informasiya** – İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının Qanununun 34.2-ci maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikasının qanunu ilə əldə olunması məhdudlaşdırılmayan informasiyalar. İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının

Qanununun 29-cu maddəsində aşağıdakı informasiyaların açıqlanması informasiya sahiblərinin üzərinə vəzifə kimi qoyulmuşdur: ümumiləşdirilmiş statistik məlumatlar, o cümlədən cinayətlərin və inzibati xətaların ümumiləşdirilmiş statistikası; büdcə proqnozları; dövlət orqanlarının struktur bölmələri haqqında əsasnamələr; dövlət orqanlarının və bələdiyyələrin fəaliyyətləri ilə bağlı hazırlanmış təlimatlar; dövlət orqanlarının və bələdiyyələrin ştat cədvəlləri, həmin idarələrdə çalışan vəzifəli şəxslərin adları, soyadları, telefon nömrələri, elektron poçt ünvanları, həmçinin onların təhsili və ixtisasları barədə məlumatlar; dövlət orqanlarının və bələdiyyələrin fəaliyyəti barədə hesabatlar; ictimai funksiyaları yerinə yetirən hüquqi şəxslərin (o cümlədən publik hüquqi şəxslərin) rəhbər orqanlarında çalışanların adları və soyadları, elektron poçt ünvanları; dövlət və bələdiyyə satınalmalarının şərtləri, nəticəsi, eləcə də dövlət və bələdiyyə əmlakının satılması, onun üzərində əmlak hüquqlarının dəyişməsi barədə məlumatlar; dövlət orqanları və bələdiyyələrin, eləcə də ictimai funksiyaları yerinə yetirən hüquqi şəxslər (o cümlədən publik hüquqi şəxslər), həmçinin normativ hüquqi aktlarla və ya müqavilə əsasında təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrdə xidmət göstərən özəl hüquqi şəxslər və fiziki şəxslərin aldıqları kreditlər, qrantlar, onların şərtləri və istifadəsi haqqında məlumatlar; normativ hüquqi aktların layihələri razılaşdırmaya və ya təsdiq olunmağa göndərildiyi andan; normativ hüquqi aktlar qüvvəyə mindiyi gündən; ictimai funksiyaları yerinə yetirən hüquqi şəxslərin (o cümlədən publik hüquqi şəxslərin) fəaliyyətinə dair hesabatlar, onların gəlirləri və xərcləri barədə məlumatlar; dövlət büdcəsinin və icmal büdcənin icrası barədə hesabatlar; ətraf mühitin vəziyyətinə, ətraf mühitə ziyan vurulmasına, təhlükəli ekoloji təsirlərə və ətraf mühitə təsirin qiymətləndirilməsinə dair məlumatlar; dövlət orqanlarının və bələdiyyələrin əmr, sərəncam və qərarları – əmr, sərəncam və qərarlar qüvvəyə mindiyi gündən; dövlətin ictimai əhəmiyyətli konsepsiyalarının, inkişaf planlarının və proqramlarının layihələri təsdiq olunmağa təqdim edilənədək; dövlət orqanlarının və bələdiyyələrin vakansiyaları haqqında məlumatlar; dövlət orqanlarının və bələdiyyələrin mal və xidmətlərinə dair məlumatlar; dövlət orqanları və bələdiyyələr tərəfindən təsis edilmiş və ya onların iştirakı ilə fəaliyyət göstərən özəl hüquqi şəxslərə dövlət büdcəsindən verilmiş vəsaitdən və ya onlara ayrılmış əmlakdan istifadəyə dair məlumatlar; kütləvi tədbirlərin proqramları; dövlət orqanlarının və bələdiyyələrin göstərdikləri xidmətlə bağlı dəyişikliklərə dair məlumatlar – bu dəyişikliyin edilməsinə ən geci on gün qalanadək; dövlət və bələ-

diyyə orqanları rəhbərlərinin qəbul saatları barədə məlumatlar; dövlət və bələdiyyə müəssisələrində qüvvədə olan əmək haqqı dərəcələri, əməyin ödənilməsinə dair təlimatlar, habelə əlavə haqların ödənilməsi qaydaları və xüsusi güzəştlər barədə məlumatlar; ictimai funksiyaları yerinə yetirən hüquqi şəxslərin (o cümlədən publik hüquqi şəxslərin), həmçinin normativ hüquqi aktlarla və ya müqavilə əsasında təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrdə xidmət göstərən özəl hüquqi və fiziki şəxslərin bu funksiyaların yerinə yetirilməsi ilə bağlı malik olduqları informasiyalar; təbii inhisar subyektləri – istehsalını (satışını) həyata keçirdikləri məhsulların siyahısı, məhsullar üzrə qiymətlərin siyahısı (tənzimlənən və tənzimlənməyən qiymətləri fərqləndirməklə), müştərilər tərəfindən məhsulların əldə edilməsi (qoşulması, istifadə edilməsi) üçün tələb olunan şərtlər, müqavilənin forması və bağlanılması qaydası, müştərilər tərəfindən şikayətlərin edilməsi qaydasına aid informasiyalar; tamamilə və ya qismən dövlət mülkiyyətində, yaxud asılılığında olan qeyri-kommersiya təşkilatlarına, büdcədənkənar fondlara, həmçinin dövlətin üzv olduğu və ya iştirak etdiyi kommersiya birliklərinə dövlət büdcəsindən verilmiş vəsaitdən və ya onlara ayrılmış əmlakdan istifadəyə aid informasiyalar; əhaliyə göstərilən ictimai xidmətlər haqqında, habelə xidmət göstərilməsi zamanı onların qiymətlərində edilən dəyişikliklər barədə məlumatlar bu dəyişikliklər edilənədək; məhkəmə aktları; qanunla nəzərdə tutulduğu həddə dövlət reyestrləri haqqında məlumatlar; informasiya sahiblərinin reyestri; ictimai rəy sorğusunun nəticələri; informasiya sahibinin mülkiyyəti və mülkiyyət öhdəliyi haqqında məlumatlar; dövlət sirri təşkil edən məlumatların siyahısı; açıqlanması xüsusi qanunla, beynəlxalq müqavilələrlə və ya onların əsasında qəbul edilən normativ aktlarla müəyyənləşdirilən informasiyalar, yaxud informasiya sahibinin açıqlanmasını zəruri saydığı digər məlumatlar.

13. **Adaptasiya** (lat. adaptatio – uyğunlaşma) – milli qanunvericiliyin dövlətin yeni beynəlxalq öhdəliklərinə uyğunlaşdırılması.
14. **Adət hüququ** (ərəb. adət – vərdiş) – hər hansı bir ictimai mühitdə yaranan və uzun müddət ərzində vərdiş halına keçən normaların məcmusu. Adətlər dövlət tərəfindən sanksiyalaşdırıldıqda hüquqi xarakter alır. Adətlər hüququn ən qədim və ilkin mənbəyidir. Hal-hazırda adətlər hüququn subsidiar mənbəyi qismində çıxış edir.
15. **Ad hoc beynəlxalq tribunal** (lat. ad hoc "bu hal üçün") – Bax: beynəlxalq tribunal.
16. **Ad hoc tanıma** (lat. ad hoc "bu hal üçün") – beynəlxalq hüquqda qeyri-

rəsmi tanıma forması. Ad hoc tanıma iki bir-birini rəsmi tanımayan dövlətin konkret məsələlərin həlli üçün müvəqqəti münasibətlər qurmasında ifadə olunur.

17. **Ad hüququ** – hər bir şəxsin addan, ata adından və soyaddan ibarət adı olmaq hüququ.
18. **Ad impossibilia lex non cogit** (lat.) **–** qanun mümkün olmayanı tələb etmir.
19. **Adoptasiya** (lat. adoptio – övladlığa götürmə) – hüquqi nəticələrə səbəb olan övladlığa götürmə.
20. **Ad referendum –** beynəlxalq hüquqda beynəlxalq müqavilənin dövlət nümayəndəsi tərəfindən şərti imzalanması. Bu, müqavilənin özü üçün məcburiliyini qəbul edən və ya onun mətni ilə razılaşdığını bildirən dövlətin ilkin razılığının ifadə üsuludur.
21. **Adyudikasiya** – ərazi mübahisəsinin dinc həlli halında ərazinin beynəlxalq məhkəmənin və ya arbitrajın qərarı əsasında əldə edilməsi.
22. **Adyunktura** – hərbi təhsil müəssisəsində doktoranturaya bərabər tutulan yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanması forması.
23. **Aequitas naturalis praeferenda est rigori juris** (lat.) **–** təbii ədalət hüququn sərtliyindən üstündür.
24. **Aequum et bonum est lex legum** (lat.) – ədalət və rifah qanunların qanunudur.
25. **Affekt** (lat. affectus – ruhi həyəcan; qorxu) – dərin sarsıntılarla, özünə nəzarətin itməsi ilə xarakterizə olunan güclü psixi vəziyyət. Affektin iki növü məlumdur: fizioloji və patoloji. Fizioloji affektin insan psixikasına böyük qüvvə ilə təsir edən xassəyə malik olmasına baxmayaraq, o, insanı öz davranışını dərk etmək, öz hərəkətlərinə nəzarət etmək və onlara cavab vermək imkanından məhrum etmir. Ona görə də fizioloji affekt vəziyyətində törədilən cinayət şəxsin cinayət məsuliyyətinə cəlb olunmasını istisna etməsə də, müəyyən şəraitdə məsuliyyəti yüngülləşdirən hal sayıla bilər. Patoloji affekt insan psixikasının müvəqqəti pozulmasından ibarətdir. Belə vəziyyətdə cinayət törətmiş şəxs anlaqsız hesab edilir və cinayət məsuliyyətinə cəlb edilmir.
26. **Affidevit** (lat. affidare – inanmaq, etibar etmək) – Böyük Britaniyada və ABŞ-də şahidin şəxsən gəlməsinin qeyri-mümkün olduğu hallarda notarius yaxud digər səlahiyyətli vəzifəli şəxs tərəfindən andla verilən və təsdiq edilən yazılı ifadə və ya ərizə.
27. **Afrika Xartiyası (İnsan və xalqların hüquqları haqqında Afrika Xartiyası)** – Afrika İttifaqı tərəfindən qəbul edilmiş regional beynəlxalq-

hüquqi akt. 1981-ci ildə İnsan və xalqların hüquqları haqqında Xartiyanın qəbul edilməsi ilə insan hüquqlarının müdafiəsinin Afrika regional mexanizminin əsası qoyuldu. Xartiyanın digər universal və regional beynəlxalq-hüquqi aktlardan fərqi ondan ibarətdir ki, Xartiyada bir sıra mühüm III nəsil hüquqlar, yəni kollektiv hüquqlar: beynəlxalq sülh və təhlükəsizlik hüququ, inkişaf hüququ, sağlam ətraf mühit hüququ öz əksini tapmışdır.

28. Afrika İttifaqı – 1963-cü ildən fəaliyyət göstərən və özündə 55 üzvdövləti birləşdirən ən iri regional beynəlxalq təşkilat. Təşkilatın əsas məqsədləri Afrika dövlətləri arasında əməkdaşlığın möhkəmləndirilməsi, onların suverenliyinin, ərazi bütövlüyünün və müstəqilliyinin qorunması, BMT Nizamnaməsinə və Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə müvafiq olaraq, beynəlxalq əməkdaşlığın həvəsləndirilməsidir. Mənzilqərargahı Əddis-Əbəbə şəhərində (Efiopiya) yerləşir.

29. Afrika Komissiyası (İnsan və xalqların hüquqları üzrə Afrika Komissiyası) – insan hüquqlarının müdafiəsinin Afrika sisteminin əsasını təşkil edən mexanizmlərdən biri. Komissiya İnsan və xalqların hüquqları haqqında Afrika Xartiyasının iştirakçı dövlətlərinin təqdimatı əsasında Afrika İttifaqına üzv olan ölkələrin dövlət və hökumət başçıları Assambleyası tərəfindən 6 il müddətinə seçilən (yenidən seçilə bilmək hüququ ilə), milliyyətcə afrikalı olan 11 müstəqil üzvdən ibarətdir. Xartiyaya əsasən, Komissiya Afrika qitəsində insan hüquqlarının inkişafı və müdafiəsi məqsədilə yaradılır. Komissiyanın əsas funksiyaları aşağıdakılardan ibarətdir: insan və xalqların hüquqlarına dair tədqiqatlar aparmaq; bu sahədə ixtisaslaşan yerli təşkilatlara dəstək vermək; hökumətlərə tövsiyələr vermək; Afrika dövlətlərinin qanunvericiliyinin təkmilləşdirilməsinə yardımçı olmaq. Komissiya həmçinin iştirakçı dövlətlərin, Afrika İttifaqının və ya Birlik tərəfindən tanınan istənilən Afrika təşkilatının müraciəti ilə Xartiyanın müddəalarını şərh edə bilər. Komissiyanın daha bir mühüm səlahiyyəti ondan ibarətdir ki, o, dövlətlərarası və fərdi şikayətlərə baxır, həmçinin ayrı-ayrı məlumatlar əsasında insan və xalqların hüquqlarının kobud və kütləvi pozulması hallarına Assambleyanın diqqətini cəlb edir. Dövlətlərarası şikayət proseduru BMT komitələrində olduğu kimidir. Lakin mühüm fərq ondan ibarətdir ki, Afrika Xartiyasına əsasən (maddə 40), bəzi hallarda bir iştirakçı dövlət digərinin Xartiyanın müddəalarını pozması ilə bağlı həmin dövləti xəbərdar etmədən birbaşa Komissiyaya müraciət edə bilər. Fərdi şikayət proseduru Amerika İnsan Hüquqları Komissiyasında olduğu kimidir. Mühüm fərq ondan ibarətdir

ki, Amerika Konvensiyasından fərqli olaraq, Afrika Xartiyasında dövlətdaxili orqanın qərarından sonra Komissiyaya müraciət etmək üçün 6 aylıq vaxt məhdudiyyəti nəzərdə tutulmamışdır. Xartiyada şikayətin milli müdafiə vasitələri tükəndikdən sonra ağlabatan müddət ərzində Komissiyaya göndərilməsi şərti irəli sürülür. "Ağlabatan müddət"in isə hansı zaman kəsiyini əhatə etməsi Xartiyada açıqlanmır. Eyni zamanda pozuntu aşkar etdikdə Komissiyanın müvafiq dövlətin üzərinə hansı tələblər qoymaq səlahiyyəti də Xartiyada açıq qalır.

30. **Afrika Məhkəməsi (İnsan və xalqların hüquqları üzrə Afrika Məhkəməsi)** – Afrika insan hüquq müdafiə sisteminin əsas orqanlarından biri. Məhkəmə İnsan və xalqların hüquqları haqqında Afrika Xartiyasının 9 iyun 1998-ci il tarixli Protokolu əsasında təsis edilmişdir. 25 yanvar 2004-cü ildə Protokol qüvvəyə minmiş və Afrika Məhkəməsi fəaliyyətə başlamışdır. Məhkəmə Afrika İttifaqına üzv dövlətlərin təqdimatı əsasında Assambleya tərəfindən gizli səsvermə yolu ilə 6 il müddətinə seçilən (yenidən seçilə bilmək hüququ ilə) 11 hakimdən ibarətdir. Məhkəməyə Afrika Komissiyası, Afrika İttifaqının iştirakçı dövlətləri, Afrika hökumətlərarası təşkilatları müraciət edə bilərlər. Eyni zamanda Məhkəmə işə aidiyyəti olan Komissiya yanında müşahidəçi statusuna malik olan qeyri-hökumət təşkilatlarına və ya ayrı-ayrı fərdlərə bilavasitə Məhkəməyə müraciət etmək hüququ verə bilər. İnsan və xalqların hüquqlarının pozuntusu faktını müəyyən edərsə, Məhkəmə delikvent – dövlətin qarşısına bu pozuntunu aradan qaldırmaq, ədalətli kompensasiya ödəmək və digər tələblər qoya bilər. Məhkəmənin qərarları məcburidir və iştirakçı dövlətlər bu qərarları icra etmək öhdəliyini götürmüşlər.

31. **Ağır cinayətlər –** Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə qəsdən və ya ehtiyatsızlıqdan törədilməsinə görə nəzərdə tutulmuş azadlıqdan məhrum etmə cəzasının yuxarı həddi on iki ildən artıq olmayan əməllər.

32. **Ağır cinayətlər məhkəməsi** – birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş cinayət işlərinə baxan məhkəmə orqanı. Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli Qanununa əsasən, ağır cinayətlər məhkəməsi birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş cinayət işlərinə baxır, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) məsələsini həll edir, məhkəmə statistikasını təhlil edir, məhkəmə fəaliyyətinin təşkili vəziyyətini, məhkəmə təcrübəsini öyrənir və ümumiləş-

dirir, Azərbaycan Respublikası qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir (maddə 25).

33. **Ağlabatan müddət –** işə ağlabatan müddətdə baxılması hüquqi dövlətin əsasını təşkil edən ədalət mühakiməsinin əsas elementlərindən biridir. Beynəlxalq hüquqda ağlabatan müddətin insan hüquqlarının səmərəli təminatı baxımından mühüm əhəmiyyət daşıyan bir sıra normalar mövcuddur. Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsinə əsasən, hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir. Avropa Şurası Nazirlər Komitəsinin 1997-ci ildə qəbul etdiyi qətnaməyə əsasən, ədalət mühakiməsinin həyata keçirilməsinin hədsiz ləngiməsi nəinki proses iştirakçılarına ziyan vurur, həm də hüquqi dövlətə təhlükə törədir. Avropa İnsan Hüquqları Məhkəməsi dəfələrlə vurğulamışdır ki, ədalət mühakiməsinin həyata keçirilməsinin yubadılması onun səmərəliliyini şübhə altına alır. Avropa Məhkəməsi tərəfindən ağlabatan müddətin konkret olaraq rəqəmlə hansı müddəti əhatə etməsi müəyyən edilməmişdir. Avropa Məhkəməsinin mövqeyinə görə bu məsələ şəraitdən asılı olaraq hər bir işə konkret fərdi yanaşma tələb edir. Ağlabatan müddətin təyin edilməsi üçün Avropa Məhkəməsi tərəfindən 4 meyar müəyyən edilmişdir: işin mürəkkəbliyi; milli səviyyədə məhkəmə proseslərində ərizəçinin davranışı; müvafiq işə baxan milli məhkəmə orqanlarının davranışı; ərizəçinin qanuni maraqlarının və hüquqlarının həyata keçirilməsi üçün vaxt faktorunun əhəmiyyəti. Beləliklə, ağlabatan müddət qeyd olunan meyarlar nəzərə alınmaqla işin hallarının öyrənilməsi nəticəsində müəyyən edilir. İşə istənilən icraat daxilində ağlabatan müddətdə baxılması müasir beynəlxalq hüququn tələbi olmaqla yanaşı, bir sıra hüquqi dövlətlərin əsas qanunlarında bilavasitə öz əksini tapmışdır. Niderland Konstitusiyasının 15-ci maddəsinə əsasən, işə məhkəmədə baxılmasından əvvəl azadlıqdan məhrum edilmiş şəxsin üzərində məhkəmə ağlabatan müddətdə keçirilməlidir. İsveçrə Konstitusiyasının 29-cu maddəsinə görə, hər kəs məhkəmə və inzibati instansiyalar qarşısında bərabər və ədalətli rəftar, həmçinin qərarın ağlabatan müddətdə çıxarılması hüququna malikdir. Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinə əsasən, hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın.

34. **Ailə həyatına hörmət hüququ** – Azərbaycan Respublikasının Konsti-

tusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsinə əsasən, hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi və ailə həyatına müdaxilə etmək qadağandır. Hər kəsin şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ vardır. Avropa İnsan Hüquqları Konvensiyasının 8-ci maddəsinə əsasən, hər kəs öz şəxsi və ailə həyatına, evinə və yazışma sirrinə hörmət hüququna malikdir. Milli təhlükəsizlik və ictimai asayiş, ölkənin iqtisadi rifah maraqları naminə, iğtişaş və ya cinayətin qarşısını almaq üçün, sağlamlığı yaxud mənəviyyatı qorumaq üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan hallar istisna olmaqla, bu hüququn həyata keçirilməsinə dövlət hakimiyyəti orqanları tərəfindən müdaxiləyə yol verilmir. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 17-ci maddəsinə müvafiq olaraq, heç kimin şəxsi və ailə həyatına özbaşınalıqla və yaxud qeyri-qanuni müdaxilə, onun mənzilinin toxunulmazlığına və yazışma sirrinə özbaşınalıqla və ya qeyri-qanuni qəsd və ya onun ləyaqəti və nüfuzuna qeyri-qanuni qəsd edilə bilməz. Hər bir insan belə müdaxilə və qəsdlərdən qanunla qorunmaq hüququna malikdir.

35. **Akademiya –** müəyyən sahə üzrə ali və əlavə təhsil proqramlarını həyata keçirən, fundamental və tətbiqi elmi tədqiqatlar aparan ali təhsil müəssisəsi.
36. **Akklamasiya** (lat. acclamatio – qışqırmaq) – beynəlxalq təşkilatların iclaslarında, beynəlxalq forum və konfranslarda qərarların səsvermə yolu ilə deyil, iştirakçıların reaksiyaları, replika və alqışları yolu ilə qəbul edilməsi üsulu.
37. **Akkresiya** (lat. accretio – genişləndirmə, artırma) **–** dövlətin ərazisinin yeni əmələ gəlmiş quru ərazilərin hesabına təbii olaraq artması.
38. **Aksessiya** (lat. accessio – birləşmə) – beynəlxalq müqaviləyə qoşulma.
39. **Aksiom** (yun. axioma – fikir, müddəa) – sübutsuz qəbul edilən iddia, doğruluğu isbat edilmədən qəbul edilən fikir. Aksiomlar adətən məlum həqiqətlər olur. *Hüquqi aksiom* **–** doğruluğu isbat edilmədən qəbul edilən hüquq haqqında fikirlər. Hüquqi aksiomlar normativ funksiyalar yerinə yetirir. Onlardan bəziləri qanunvericilikdə öz əksini tapır və hüquq təcrübəsində tətbiq olunur. Hüquqi aksiomlara misal olaraq "müqavilələr icra olunmalıdır", "dərc edilməyən qanunlar tətbiq edilmir", "qanunu bilməmək məsuliyyətdən azad etmir", "eyni məsələyə dair iki hüquqi aktdan daha yuxarı orqan tərəfindən və sonradan qəbul edilmiş akt tətbiq edilir",

"məsuliyyət yaradan və ya ağırlaşdıran qanunun geriyə qüvvəsi yoxdur", "heç kəs eyni əmələ görə iki dəfə cəzalandırıla bilməz" və s. göstərmək olar.

40. **Akt** (lat. actus – hərəkət, actum – sənəd) – 1. əməl, hərəkət; 2. rəsmi sənəd. *Hüquqi akt* – dövlət orqanları tərəfindən qəbul edilən sənədlərin ümumi adı. Qanun, fərman, sərəncam və s. hüquqi aktın müxtəlif formalarıdır.

41. **Aktiv seçki hüququ** – vətəndaşların ayrı-ayrı şəxsləri dövlət hakimiyyəti orqanlarında müəyyən vəzifələrə, nümayəndəli orqanlara, həmçinin yerli özünüidarə orqanlarına seçmək, o cümlədən referendumda iştirak etmək hüququ. Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsinə əsasən, Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır. Məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkilərdə, habelə referendumda iştirak etmək hüququ yoxdur. Hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin, bu Konstitusiyada və qanunda nəzərdə tutulan digər şəxslərin seçilmək hüququ qanunla məhdudlaşdırıla bilər. Azərbaycan Respublikasının Seçki Məcəlləsinə əsasən, Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsində və bu Məcəllənin 14-cü maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, Milli Məclisə seçkilərin, Prezident seçkilərinin, bələdiyyələrə seçkilərin, referendumun keçirilməsi günü (həmin gün də daxil olmaqla) 18 yaşına çatmış Azərbaycan Respublikasının hər bir vətəndaşının seçmək, referendumda səs vermək, seçkilərin (referendumun) gedişini müşahidə etmək, seçkiqabağı (referendumqabağı) təşviqatda iştirak etmək, bu Məcəllə ilə nəzərdə tutulmuş seçki hərəkətlərində və referendumun hazırlanması ilə bağlı hərəkətlərin həyata keçirilməsində iştirak etmək hüququ – aktiv seçki hüququ vardır (maddə 12).

42. **Aquae haustus** (lat.) – başqa şəxsə məxsus olan torpaqdan su çıxarmaq hüququ.

43. **Aliment** (lat. alimentum – saxlama) – ailə hüququnda digər tərəfi maddi cəhətdən təmin etmək üçün vəsait. Aliment öhdəliyinin əsasını ailə münasibətləri təşkil edir. Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əsasən, valideynlər uşaqlarını saxlamadıqda uşaqların saxlanması üçün vəsait (aliment) valideynlərdən məhkəmə qaydasında tutulur.

44. **Ali Məhkəmə** – ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid olan mülki (o cümlədən kommersiya və inzibati mübahisələrə dair), ci-

nayət işləri və digər işlər üzrə ali məhkəmə orqanı. Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli Qanununa əsasən, Ali Məhkəmə kassasiya instansiyası məhkəməsi kimi qanunla müəyyən edilmiş prosessual qaydada ədalət mühakiməsini həyata keçirir. Ali Məhkəmənin tərkibinə Ali Məhkəmənin sədri, onun müavini, kollegiya sədrləri və hakimləri daxildirlər. Ali Məhkəmə Plenumdan və Kassasiya Kollegiyasından ibarətdir. Ali Məhkəmədə mülki kollegiya, kommersiya kollegiyası, inzibati kollegiya və cinayət kollegiyası təşkil edilir (maddələr 77; 78).

45. **Altruizm** (lat. alter – başqa) **–** başqa insanlara təmənnasız xidmət göstərilməsindən, onların xoşbəxtliyi naminə öz şəxsi mənafeyini qurban verməkdən ibarət əxlaqi prinsip. Altruizm terminini elmə fransız filosofu və sosioloqu İsidor Kont (1798-1857) gətirmişdir. Konta görə altruizm konsepsiyasının əsasını "başqası üçün yaşa" prinsipi təşkil edir.

46. **Amerika Bəyannaməsi (İnsan hüquq və vəzifələrinə dair Amerika Bəyannaməsi)** – insan hüquqlarına dair regional beynəlxalq-hüquqi akt. 1948-ci il mayın 2-də Kolumbiyada qəbul edilmişdir. Bəyannamə insan hüquqlarını təbii və ayrılmaz hüquqlar elan edir. Bəyannamə iki hissədən ibarətdir. 28 maddəni əhatə edən birinci hissədə insan hüquqları 3 kateqoriyaya bölünür: siyasi, mülki və sosial-iqtisadi hüquqlar. Amerika Bəyannaməsini Ümumdünya İnsan Hüquqları Bəyannaməsindən fərqləndirən əsas cəhət bu sənəddə hüquqlarla yanaşı vəzifələrin geniş şəkildə təsbit edilməsidir. Amerika Bəyannaməsinin 2-ci hissəsi bütövlüklə vəzifələrə həsr edilmişdir.

47. **Amerika Dövlətləri Təşkilatı** – əsas məqsədi Amerika dövlətlərinin həmrəyliyinin möhkəmləndirilməsindən, onların suverenliyinin, ərazi bütövlüyünün və müstəqilliyinin qorunmasından ibarət olan, 1948-ci ildən fəaliyyət göstərən regional beynəlxalq təşkilat. Əsas orqanları Baş Assambleya, Daimi Şura və Baş Katiblikdir. Mənzil-qərargahı Vaşinqton şəhərində (ABŞ) yerləşir.

48. **Amerika İnsan Hüquqları Komissiyası** – insan hüquqlarının müdafiəsinin Amerika sisteminin əsas orqanlarından biri. Komissiya üzv dövlətlərin irəli sürdükləri namizədlər sırasından Amerika Dövlətləri Təşkilatının Baş Assambleyası tərəfindən 4 il müddətinə seçilən (daha bir müddətə yenidən seçilə bilmək hüququ ilə), öz dövlətlərini təmsil etməyən 7 üzvdən ibarətdir. Təşkilatın bütün üzv dövlətləri Komissiyada təmsil olunur. Komissiyanın əsas vəzifəsi insan hüquqlarına hörmət və onların müdafiəsi işinə dəstək verməkdir. Komissiyanın əsas funksiyası və səlahiyyət-

lərinə daxildir: üzv dövlətlərə insan hüquqları sahəsində tövsiyələr vermək; üzv dövlətlərə onların insan hüquqları sahəsində həyata keçirdikləri tədbirlərə dair məlumat verilməsi barədə sorğu ilə müraciət etmək; üzv dövlətlərə onların istəyi ilə konsultativ xidmət göstərmək və s. Komissiyanın ən əhəmiyyətli səlahiyyəti isə Konvensiyada nəzərdə tutulmuş insan hüquq və azadlıqlarının pozulması ilə bağlı fərdi və dövlətlərarası şikayətlərə baxmaqdan ibarətdir. Amerika İnsan Hüquqları Konvensiyasının 44-cü maddəsinə əsasən, istənilən şəxs və ya şəxslər qrupu, yaxud Amerika Dövlətləri Təşkilatının birində və ya bir neçəsində qanuni şəkildə tanınan istənilən qeyri-hökumət təşkilatı Konvensiyanın müddəalarının pozulması ilə bağlı Komissiyaya müraciət edə bilər.

49. **Amerika İnsan Hüquqları Konvensiyası** – insan hüquqlarının beynəlxalq müdafiəsinin Amerika sisteminin əsasını təşkil edən sənədlərdən biri. 1969-cu ildə qəbul edilmiş, 1978-ci ildə isə qüvvəyə minmişdir. İnsan hüquqları sahəsində əsas aktlar olan Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (1948), Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt (1966), İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt (1966), Avropa İnsan Hüquqları Konvensiyasından (1950) sonra qəbul olunan Amerika İnsan Hüquqları Konvensiyası, demək olar ki, qeyd olunan sənədlərlə eyniyyət təşkil edir. Amerika Konvensiyası, xüsusilə də Avropa İnsan Hüquqları Konvensiyasının əksər maddi-hüquqi normalarını özündə ehtiva edir. Amerika Konvensiyasında əsas etibarilə I nəsil, yəni mülki və siyasi hüquqlar təsbit olunmuşdur. Konvensiyanın III fəsli "iqtisadi, sosial və mədəni hüquqlar" adlansa da, burada II nəsil hüquqlar sadalanmır. "Proqressiv inkişaf" adlanan cəmi bir maddədən ibarət olan bu fəsildə yalnız ümumi formada Amerika Dövlətləri Təşkilatının Nizamnaməsində öz əksini tapan iqtisadi, sosial, təhsil, elmi və mədəni standartlara daxil olan bu hüquqların tam həyata keçirilməsinə nail olmaq üçün qanunvericilik və digər tədbirlərin görülməsini iştirakçı dövlətlər öz öhdələrinə götürmüşlər.

50. **Amerika İnsan Hüquqları Məhkəməsi** – Amerika insan hüquqlarının müdafiəsi sistemində mühüm mexanizmlərdən biri. Məhkəmə Amerika Dövlətləri Təşkilatının Baş Assambleyası tərəfindən 6 il müddətinə (daha bir dəfə təkrar seçilə bilmək hüququ ilə) seçilən 7 hakimdən ibarətdir. Yalnız mübahisənin tərəfi olan dövlət və Amerika İnsan Hüquqları Komissiyası Məhkəməyə müraciət edə bilər. Məhkəmə işə yalnız Komissiya çərçivəsində həyata keçirilən prosedur tükəndikdən sonra baxa bilər. Pozuntu aşkar edərsə, Məhkəmə müvafiq dövlət qarşısında pozul-

muş hüquqların bərpası və zərərçəkmiş tərəfə ədalətli kompensasiya ödənilməsi tələbi ilə çıxış edə bilər. Amerika Məhkəməsinin daha bir səlahiyyəti Konvensiyanın təfsiri və tətbiqi ilə bağlıdır, yəni Konvensiyanın təfsiri və tətbiqi ilə bağlı bütün məsələlər Məhkəmənin yurisdiksiyasına aid edilmişdir.

51. **Amittere curiam** (lat.) – məhkəmə qarşısına çıxmaq hüququndan məhrum edilmək.

52. **Amnistiya** (yun. amnestia – bağışlama) – fərdi qaydada müəyyən edilməyən şəxslər barəsində, əsas etibarilə qanunverici orqan tərəfindən qəbul edilən akt. Cinayət törətmiş şəxslər amnistiya aktı ilə cinayət məsuliyyətindən azad edilə bilərlər. Cinayət törətməyə görə məhkum olunmuş şəxslər isə cəzadan azad edilə bilərlər, onlara təyin olunmuş cəzanın müddəti azaldıla bilər, belə şəxslərin cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə bilər və yaxud belə şəxslər əlavə cəzadan azad edilə bilərlər. Amnistiya aktı ilə cəzasını çəkmiş şəxslərin məhkumluğu götürülə bilər. Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin 1-ci hissəsinin 19-cu bəndinə əsasən, amnistiya məsələlərinin həlli Milli Məclisin səlahiyyətinə aiddir.

53. **Amparo** (isp. amparo – müdafiə, kömək) – bəzi ölkələrdə (məsələn, İspaniya, Meksika və s.) konstitusion hüquqların müdafiəsinin xüsusi proseduru.

54. **Ana dilindən istifadə hüququ** – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 45-ci maddəsinə əsasən, hər kəsin ana dilindən istifadə etmək hüququ vardır. Hər kəsin istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ vardır. Heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 27-ci maddəsinə əsasən, etnik, dini və dil azlıqlarının mövcud olduğu ölkələrdə bu azlıqlara mənsub olan şəxslərə, həmin qrupun digər üzvləri ilə birlikdə öz mədəniyyətindən istifadə etmək, öz dininə etiqad etmək və onun ayinlərini icra etmək, habelə doğma dilindən istifadə etmək hüququ verilməsindən imtina edilə bilməz.

55. **Analogiya** (yun. analogia – uyğunluq) – konkret ictimai münasibətləri tənzimləyən hüquq normalarının mövcud olmadığı halda, oxşar hüquq normalarının ictimai münasibətlərə tətbiqi. Qanunun analogiyası işin oxşar münasibətləri tənzimləyən qanunun əsasında, hüququn analogiyası isə hüququn ümumtanınmış prinsipləri və qanunvericiliyin mahiyyəti

əsasında həll edilməsidir. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 11-ci maddəsinə əsasən, mülki hüquq münasibətləri mülki qanunvericiliklə və ya tərəflərin razılaşması ilə birbaşa tənzimlənmədikdə və onlara tətbiq edilə bilən işgüzar adət olmadıqda həmin münasibətlərə, əgər bu, onların mahiyyətinə zidd deyildirsə, oxşar münasibətləri tənzimləyən mülki qanunvericilik normaları tətbiq edilir (qanunun analogiyası). Oxşar münasibətləri tənzimləyən mülki hüquq normaları olmadıqda tərəflərin hüquq və vəzifələri mülki qanunvericilik prinsipləri əsas götürülməklə tənzimlənir (hüququn analogiyası). Hüququn analogiyası tətbiq edilərkən ədalət, vicdan və mənəviyyat tələbləri nəzərə alınmalıdır. Cinayət qanununun analogiya üzrə tətbiqinə yol verilmir. Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının 21 dekabr 2010-cu il tarixli Konstitusiya Qanununa əsasən, konkret ictimai münasibətləri tənzimləyən qanunvericilik normaları olmadıqda hüququn analogiyasından və ya qanunun analogiyasından istifadə oluna bilər. Cinayət, inzibati xətalar və vergi qanunvericiliyində, məsuliyyətə cəlb olunma, hüquqların məhdudlaşdırılması və vəzifələrin müəyyən edilməsi hallarında hüququn analogiyasından və ya qanunun analogiyasından istifadə oluna bilməz (maddə 13).

56. **Andlı iclasçı –** ədalət mühakiməsinin həyata keçirilməsində iştirak etmək üçün məhkəməyə çağırılmış şəxs.

57. **Anklav** (lat. inclavo – açarla bağlanmış) – bir dövlətin tamamilə digər dövlətin və ya dövlətlərin quru ərazisi ilə əhatə olunmuş ərazisinin bir hissəsi.

58. **Anlaqlıq –** cinayət hüququnda psixi cəhətdən sağlam insanın normal vəziyyəti. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 19-cu maddəsinə əsasən, bu Məcəllə ilə müəyyən olunmuş yaş həddinə çatmış və cinayət törətmiş anlaqlı şəxs cinayət məsuliyyətinə cəlb edilir.

59. **Anlaqsızlıq –** cinayət hüququnda ictimai təhlükəli əməli (hərəkət və ya hərəkətsizliyi) törətdiyi zaman anlaqsız vəziyyətdə olmuş, yəni xroniki psixi xəstəlik, psixi fəaliyyətin müvəqqəti pozulması, əqli gerilik və ya sair psixi xəstəlik nəticəsində öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etməyən və ya onu idarə edə bilməyən şəxsin vəziyyəti. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 21.1-ci maddəsinə əsasən, ictimai təhlükəli əməli (hərəkət və ya hərəkətsizliyi) törətdiyi zaman anlaqsız vəziyyətdə olmuş şəxs cinayət məsuliyyətinə cəlb edilmir.

60. **Anneksiya** (lat. annexio – birləşmə) – bir dövlətin ərazisinin zorakı yol-

la digər dövlətin ərazisinə birləşdirilməsi. Anneksiya ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinin pozulmasına gətirib çıxardığından müasir beynəlxalq hüquq onu qadağan edir.

61. **Annulyasiya** (lat. annulo – məhv etmək; ing. annulment – ləğv etmək) **–** hər hansı hüquqi aktın, müqavilənin, yaxud hüquqların və ya səlahiyyətlərin ləğv olunması, etibarsız elan edilməsi.

62. **Anonim** (yun. anonymos – adsız, naməlum) – öz adını məktubunda, müraciətində və ya əsərində gizli saxlamış şəxs.

63. **Anonim müraciət** – müraciətə baxan subyektə və ya onun vəzifəli şəxsinə vətəndaşın soyadı, adı, atasının adı, ünvanı, şəxsi və ya elektron imzası (hüquqi şəxslərə münasibətdə hüquqi şəxsin adı və hüquqi ünvanı, onun rəhbərinin imzası) olmadan yazılı formada göndərilən müraciət. Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 30 sentyabr 2015-ci il tarixli Qanununun 6.4-cü maddəsinə əsasən, anonim müraciətlər müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri tərəfindən qəbul edilmir və onlara baxılmır. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında Azərbaycan Respublikasının 28 dekabr 2001-ci il tarixli Konstitusiya Qanununun 9.3-cü maddəsinə əsasən, anonim şikayətdə göstərilən hallar kifayət qədər sübutlu və əsaslı faktlarla təsdiq edilirsə, həmin şikayətlər müvəkkil tərəfindən baxılmaq üçün qəbul edilir.

64. **Antinomiya** (yun. anti – zidd, nomos **–** qanun) – qanunda ziddiyyət.

65. **Antisemitizm** (yun. anti – zidd, Sem – bibliyada adı hallanan yəhudi) **–** yəhudi əleyhdarlığı, yəhudi düşmənçiliyi. Ksenofobiyanın bir növü olub yəhudilərə münasibətdə milli və dini dözümsüzlükdə ifadə olunur.

66. **Antroposentrizm** – (yun. anthropos – insan, lat. centrum – mərkəz) – insanı Kainatın mərkəzi elementi və dünyada baş verən bütün hadisələrin məqsədi kimi qiymətləndirən idealist baxışlar.

67. **Aparteid** (afr. apartheid **–** bölgü) – irqi ayrı-seçkilikdə ifadə olunan beynəlxalq cinayət. Aparteid hər hansı bir irqi qrupu əsarət altında saxlamaq üçün digər irqi qrup tərəfindən üstünlüyü təşkil və təmin etmək məqsədilə insanların yaşamaq və azadlıq hüquqlarını inkar etmə, yəni öldürmə, onların sağlamlığına ağır zərər vurma və ya əqli qabiliyyətlərinə ciddi zərər vurma, işgəncə, qəddar, qeyri-insani, ləyaqəti alçaldan rəftar və ya cəza tətbiq etmə, qanunsuz olaraq azadlıqdan məhrum etmə və bu kimi digər hüquqazidd əməllərdə ifadə olunur. 1973-cü ildə aparteidi qadağan edən və onu beynəlxalq cinayət elan edən beynəlxalq hüquqi akt – Aparteid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Kon-

vensiya qəbul edilmişdir. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin "İrqi ayrı-seçkilik (aparteid)" adlanan 111-ci maddəsinə əsasən, hər hansı bir irqi qrupu əsarət altında saxlamaq üçün digər irqi qrup tərəfindən üstünlüyü təşkil və təmin etmək məqsədilə: irqi qrupa və ya qruplara mənsub olan şəxslərin yaşamaq və azadlıq hüquqlarını inkar etmə, yəni irqi qrupa və ya qruplara mənsub olan şəxsləri öldürmə, onların sağlamlığına ağır zərər vurma və ya əqli qabiliyyətlərinə ciddi zərər vurma, işgəncə və ya qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza tətbiq etmə, yaxud özbaşınalıqla həbs və qanunsuz olaraq azadlıqdan məhrum etmə; irqi qrupun və ya qrupların, bütövlükdə və ya qismən, fiziki məhvi ilə nəticələnə biləcək yaşayış şəraiti yaratma; irqi qrupun və ya qrupların ölkənin siyasi, sosial, iqtisadi və mədəni həyatında iştirakının qarşısını almaq, habelə qrupa və ya qruplara mənsub olan şəxslərin işləmək, həmkarlar təşkilatlarını yaratmaq, təhsil almaq, ölkədən getmək və ölkəyə qayıtmaq, vətəndaşlıq, hərəkət etmək və yaşayış yerini seçmək, fikir və söz azadlığı, toplaşmaq və birləşmək hüquqları daxil olmaqla əsas insan hüquq və azadlıqlarını inkar etməklə tam inkişafın qarşısını almaq məqsədilə hər hansı qanunverici və digər tədbiri həyata keçirmə; düşərgə və qettoların yaradılması ilə əhalini irqi qruplara bölmək, irqi qruplar arasında qarışıq nikahları qadağan etmək, irqi qrupa və ya qruplara və ya onların üzvlərinə mənsub olan torpaq sahələrini onların razılığı olmadan almaq məqsədilə, qanunverici tədbirlər daxil olmaqla, hər hansı bir tədbiri həyata keçirmə; irqi qrupa və ya qruplara mənsub olan şəxslərin əməyini istismar etmə; aparteidə qarşı çıxan şəxsləri və təşkilatları, əsas hüquq və azadlıqlardan məhrum etmə vasitəsilə təqib etmə on iki ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

68. **Aparteid cinayəti ilə mübarizə və onun cəzalandırılması haqqında Konvensiya** – 1973-cü ildə qəbul edilmiş və 1976-cı ildə qüvvəyə minmiş aparteidi qadağan edən və onu beynəlxalq cinayət elan edən universal beynəlxalq hüquqi akt. Beynəlxalq və milli səviyyədə aparteid cinayəti ilə mübarizədə səmərəli tədbirlər görmək məqsədilə qəbul edilmişdir. Konvensiyanın 1-ci maddəsinə görə, iştirakçı-dövlətlər bəyan edirlər ki, aparteid beynəlxalq hüququn prinsiplərini pozan və beynəlxalq sülh və təhlükəsizliyə təhlükə yaradan insanlıq əleyhinə cinayətdir.

69. **Apatrid** (lat. apatris və yun. apolis – vətənindən məhrum edilmiş) – vətəndaşlığı olmayan şəxs. Belə şəxslərin hər hansı bir dövlətlə hüquqi bağlılığı olmur və heç bir dövlət tərəfindən onlara diplomatik müdafiə

göstərilmir.

70. **Apatridlərin statusu haqqında Konvensiya –** BMT-nin İqtisadi və Sosial Şurasının 526 A (XVII) saylı, 26 aprel 1954-cü il tarixli qətnaməsinə müvafiq olaraq çağırılmış səlahiyyətli nümayəndələrin Konfransı tərəfindən 28 sentyabr 1954-cü ildə qəbul edilmiş universal beynəlxalq müqavilə. Konvensiya apatridlərin vəziyyətini beynəlxalq müqavilə vasitəsilə tənzimləmək və yaxşılaşdırmaq məqsədilə qəbul edilmişdir. Konvensiyaya görə "apatrid" termini altında qanunvericiliyə müvafiq olaraq hər hansı bir dövlətin vətəndaşı olmayan şəxs başa düşülür. Konvensiyaya əsasən, hər bir apatridin olduğu dövlətin qanunlarına tabe olmaq öhdəliyi vardır. Eyni zamanda iştirakçı-dövlətlərin üzərinə belə bir öhdəlik qoyulur ki, onlar bu Konvensiyanın müddəalarını apatridlərə münasibətdə irq, din və ya mənşə ölkə mənsubiyyətinə görə ayrı-seçkiliyə yol verməd̈n tətbiq etsinlər.

71. **Apatrizm –** şəxsin heç bir dövlətin vətəndaşlığına mənsub olmaması ilə xarakterizə olunan hüquqi vəziyyət. Bu sahədə iki beynəlxalq hüquqi akt mövcuddur: Apatridlərin statusu haqqında 1954-cü il Konvensiyası və Vətəndaşsızlıq hallarının azaldılması haqqında 1961-ci il Konvensiyası.

72. **Apellyasiya** (lat. appellatio – müraciət) – işə yenidən baxılması məqsədilə birinci instansiya məhkəməsinin qanuni qüvvəyə minməmiş hökm və ya qərarından daha yüksək məhkəmə instansiyasına edilən müraciət. Apellyasiya ilk dəfə XIX əsrin əvvəllərində Fransanın cinayət-prosessual qanunvericiliyinə daxil edilməklə tətbiq edilməyə başlanılmışdır.

73. **Apellyasiya məhkəməsi** – mülki, kommersiya və inzibati mübahisələrə dair, cinayət və inzibati xətalara dair işlər üzrə yuxarı instansiya məhkəməsi. Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli Qanununa əsasən, Apellyasiya məhkəməsi Rəyasət Heyətindən, mülki kollegiyadan, kommersiya kollegiyasından, inzibati kollegiyadan və cinayət kollegiyasından ibarətdir. Apellyasiya məhkəməsinin kollegiyalarında işlərə baxmaq üçün məhkəmə tərkibləri yaradılır (maddə 61-62).

74. **Apellyasiya şikayəti –** birinci instansiya məhkəməsinin qanuni qüvvəyə minməmiş hökm və ya qərarından işdə iştirak edən şəxs tərəfindən yuxarı instansiya (apellyasiya) məhkəməsinə verilən şikayət. Azərbaycan Respublikasının prosessual qanunvericilik normalarında birinci instansiya məhkəmələri tərəfindən çıxarılmış hökm və ya qərarlardan qanunvericilikdə nəzərdə tutulmuş hallarda və qaydada apellyasiya instansiyası məhkəməsinə apellyasiya şikayətinin (cinayət işləri üzrə həmçinin apell-

yasiya protestinin) verilməsi qaydası tənzimlənir.

75. **Apologiya** (yun. apologia – bəraət) – təqsirləndirilən şəxsi şifahi və ya yazılı formada müdafiə etmək.

76. **Artikul** (lat. articulus – maddə) – qanunun maddəsi.

77. **Asilomar Süni İntellekt Prinsipləri** – 2017-ci ildə Həyatın Gələcəyi İnstitutunun (Future of Life Institute) təşkilatçılığı ilə hüquqşünaslar, iqtisadçılar, alimlər və sosial elmlər sahəsində mütəxəssislərin, o cümlədən mühəndislər və bir sıra texniki sahələr üzrə mütəxəssislərin iştirakı ilə keçirilmiş Asilomar Konfransında (ABŞ, Kaliforniya) qəbul edilmiş sənəd. Asilomar Süni İntellekt Prinsipləri üç kateqoriyaya bölünür: tədqiqat; etika; dəyərlər və uzunmüddətli məsələlər. Hüquqi aspektləri əhatə edən ikinci kateqoriyaya aid olan prinsiplərə daxildir: təhlükəsizlik; zərərvurmanın müəyyən olunmasında şəffaflıq; mühakimənin şəffaflığı; dəyərlərin uzlaşması; məsuliyyət; humanizm; şəxsi toxunulmazlıq; azadlıq və toxunulmazlıq; faydanın paylaşılması; rifahın paylaşılması; insan nəzarəti; pozucu olmamaq və etiklik; süni intellekt silahlanma yarışına yol verilməməsi.

78. **Asiya Ombudsmanlar Assosiasiyası –** 16 aprel 1996-cı ildə Asiyada ombudsmanların qeyri-siyasi, müstəqil və professional forumu kimi yaradılmış beynəlxalq qeyri-hökumət təşkilatı. Assosiasiyanın yaranması ideyası 1995-ci ildə Beynəlxalq Ombudsmanlar İnstitutunun idarə heyətinin iclasında irəli sürülmüşdür. Assosiasiyanın hazırda 25 ölkədən 44 üzvü vardır və 9 nəfərdən ibarət İdarə Heyəti tərəfindən idarə olunur. Təşkilatın əsas məqsədlərinə daxildir: Asiyada ombudsman konsepsiyasının inkişafını təşviq etmək; ombudsman institutu ilə əlaqədar araşdırma və tədqiqat işlərini təşviq etmək və dəstəkləmək; regionda ombudsman institutları arasında məlumat və təcrübə mübadiləsi aparmaq; Asiya ölkələri ombudsmanlarının mütəmadi olaraq konfranslarını təşkil etmək və s. Təşkilatın mənzil-qərargahı İslamabad şəhərində (Pakistan) yerləşir.

79. **Ateizm** (yun. a – inkar, theos – Allah) **–** Allaha, fövqəltəbiiliyə, dinlərə inamı və etiqadı inkar edən baxışlar sistemi.

80. **ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu –** ATƏT çərçivəsində insan hüquqları sahəsində əsas mexanizmlərdən biri. Büronun vəzifələrinə daxildir: seçki prosesinə nəzarət yolu ilə demokratik seçkilərin keçirilməsinə kömək göstərilməsi; demokratik institut və insan hüquqlarının təmin edilməsinə, vətəndaş cəmiyyətinin və hüququn aliliyinin möhkəmləndirilməsinə yardım; insan meyarı üzrə öhdəliklərin yerinə yetirilməsinə nəzarət; insan hüquqları sahəsindəki vəziyyəti və

seçkilərin keçirilməsini izləyən jurnalistlərin və müşahidəçilərin hazırlanması və s. Büronun mənzil-qərargahı Varşavada yerləşir. İlkin olaraq Yeni Avropa üçün Paris Xartiyasına uyğun olaraq, 1990-cı ildə Azad seçkilər üzrə Büro kimi yaradılmış Demokratik təsisatlar və insan hüquqları Bürosu ATƏT-in insan meyarı sahəsində işi üçün əsas təsisat hesab edilir. Büro ATƏT-in seçkilər, insan hüquqları və demokratikləşdirmə ilə məşğul olan ixtisaslaşmış qurumudur. Büro hər il Varşava şəhərində ATƏT-in insan meyarı üzrə öhdəliklərinin yerinə yetirilməsini nəzərdən keçirmək üçün insan meyarının implementasiyası görüşünü təşkil edir. ATƏT iştirakçı dövlətləri, milli insan hüquqları təsisatları, qeyri-hökumət təşkilatları və beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdiyi belə görüşlər 10 gün davam edir. Büro vətəndaş cəmiyyətinin və demokratik institutların inkişafı məqsədilə müxtəlif proqramlar həyata keçirir. Belə layihələrə aiddir: hüququn aliliyinin möhkəmləndirilməsinə yönəlmiş kadrların hazırlığı və texniki yardım proqramları; milli insan hüquqları institutlarına texniki yardım göstərilməsi; insan meyarı məsələləri üzrə maarifləndirmə işləri və məlumatın yayılması; insan alverinə qarşı mübarizə; qeyri-hökumət təşkilatları arasında, eləcə də onlarla hökumətlər arasında əlaqələrin inkişafı və təkmilləşdirilməsinə töhfə verilməsi; kişi və qadınların hüquq bərabərliyi; işgəncələrə qarşı mübarizə və din azadlığının təminatı üzrə fəaliyyət.

81. **ATƏT-in Helsinki Yekun Aktı** – insan hüquqlarına aid olan müxtəlif sahələrdə dövlətlərin konkret əməkdaşlıq formalarını və istiqamətini müəyyən edən beynəlxalq akt. Helsinki Yekun Aktı öz təbiətinə görə mürəkkəb beynəlxalq sənəd olmaqla, özündə iştirakçı dövlətlər arasında beynəlxalq münasibətlərin ümumi prinsiplərini, Avropada təhlükəsizliyin təmin edilməsi və etimadın möhkəmləndirilməsi, eləcə də insan hüquqları, ətraf mühit, humanitar və digər sahələrdə əməkdaşlıq üzrə razılaşmalar kompleksini əks etdirir. Helsinki Yekun Aktının əsas hissəsi 5 bölmədən ibarətdir: "Avropada təhlükəsizliyə dair məsələlər", "İqtisadiyyat, elm, texnika və ətraf mühit sahəsində əməkdaşlıq", "Aralıq dənizi regionunda təhlükəsizliyə və əməkdaşlığa dair məsələlər", "Humanitar və digər sahələrdə əməkdaşlıq" və "Müşavirədən sonra görüləcək tədbirlər". Yekun Aktın tərkibinə daxil olan ilk sənəd kimi çıxış edən İştirakçı dövlətlər arasında münasibətlərdə rəhbər tutulan prinsiplər haqqında Bəyannamənin "fikir, vicdan, din və ya əqidə azadlığı da daxil olmaqla insan hüquqları və əsas azadlıqlarına hörmət" adlı bölməsində qeyd olunur ki, iştirakçı dövlətlər insan hüquqları və əsas azadlıqlarına hörmət edəcəklər.

82. ATƏT-in insan meyarı (insan ölçüsü) – ATƏT çərçivəsində insan hüquqlarının müdafiəsi sahəsində əhəmiyyətli yeniliklərdən biri. ATƏT iştirakçı dövlətlərinin nümayəndələrinin 1986-cı ildə Vyanada keçirilmiş görüşü nəticəsində qəbul edilmiş yekun sənədinə "ATƏT-in insan meyarı" adlı bölmə əlavə edilmişdir. İnsan meyarı üzrə 1989-cu ildə Paris şəhərində keçirilmiş görüşdə humanitar sahədə yeni yanaşmalar və Helsinki prosesinin iştirakçılarının həmin sahədə götürdükləri öhdəlikləri icra etməyə hazırlıqları ciddi şəkildə nəzərdən keçirilmişdir. 5-29 iyun 1990-cı ildə Kopenhagen şəhərində (Danimarka) keçirilmiş insan meyarı üzrə müşavirə nəticəsində qəbul edilmiş sənəddə təsbit edilmiş öhdəliklərin xarakterində keyfiyyət baxımından dəyişiklik müşahidə olunmuşdur. Belə ki, burada ayrı-ayrı insan hüquqları və azadlıqları üzrə öhdəliklər nəzərdə tutulmuşdur (məsələn, səmərəli hüquqi müdafiə vasitələri hüququ, sərbəst toplaşmaq azadlığı və s.) və insan meyarı sahəsində öhdəliklərin həyata keçirilməsinin zəruriliyi qeyd edilmişdir. ATƏT-in insan meyarı sahəsində öhdəliklərinin yerinə yetirilməsi üçün yardım göstərilməsi məqsədilə bir sıra daimi təsisatlar yaradılmışdır. Həmin orqanlara daxildir: Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu; Milli azlıqlar üzrə Ali Komissar; Kütləvi informasiya vasitələrinin azadlığı məsələləri üzrə Nümayəndə. ATƏT-in insan meyarı sahəsində öhdəliklərinin unikallığı onların insan hüquqları və əsas azadlıqlarının ənənəvi müdafiəsi çərçivəsindən kənara çıxır, özündə hüququn aliliyi və demokratik institutların təsisinə yardımı birləşdirir. ATƏT normaları bütün iştirakçı dövlətlərə münasibətdə qüvvədədir. ATƏT çərçivəsində qəbul edilən qərarlar konsensus əsasında qəbul olunduğu üçün heç bir iştirakçı dövlət bu və ya digər öhdəliyin ona aid olmadığını iddia edə bilməz. İnsan hüquq və əsas azadlıqlarının müdafiəsində ATƏT-in strategiyasının unikallığını şərtləndirən digər amil təhlükəsizliyin təmin edilməsində əməkdaşlığa əsaslanan yanaşmadır ki, bu da dövlətlərin təcrid olunmasını deyil, onlara kömək edilməsini rəhbər tutur.

83. ATƏT-in Kütləvi İnformasiya Vasitələrinin Azadlığı Məsələləri üzrə Nümayəndəsi – insan hüquqları, xüsusilə də söz və mətbuat azadlığı sahəsində ATƏT-in ali vəzifəli şəxsi. İştirakçı dövlətlərdə kütləvi informasiya vasitələri sahəsində işlərin ümumi vəziyyətinə nəzarət etmək, öz fikrini azad ifadə etmək və kütləvi informasiya vasitələrinin azadlığına dair ATƏT çərçivəsində qəbul edilmiş prinsip və öhdəliklərin ciddi pozulmasına operativ cavab vermək məqsədilə yaradılmışdır. Nümayəndənin əsas məqsədi müstəqil və plüralist kütləvi informasiya vasitələrinin

inkişafının təmin edilməsində iştirakçı dövlətlərlə əməkdaşlıq etmək və onlara yardım göstərməkdən ibarətdir. Nümayəndənin bürosu Vyana şəhərində yerləşir. Nümayəndə bütün iştirakçı dövlətlərdə kütləvi informasiya sahəsində baş verən hadisələrin müşahidə edilməsi, eləcə də kütləvi informasiya vasitələrinə maneə və jurnalistlərin fəaliyyəti üçün əlverişli olmayan şəraitin yaradılması kimi amillərlə səciyyələnən problemlərə xüsusi diqqət ayırmaqla sərbəst ifadə azadlığına dair ATƏT çərçivəsindəki prinsip və öhdəliklərin dəstəklənməsi və təşviq edilməsi səlahiyyətlərinə malikdir. Bununla yanaşı, Nümayəndə ATƏT-in iştirakçı dövlətləri tərəfindən ATƏT çərçivəsində ifadə azadlığı və öhdəliklərə ciddi şəkildə riayət edilməməsi hallarına operativ şəkildə reaksiya vermək məsuliyyətini daşıyır.

84. **ATƏT-in Milli Azlıqların İşləri üzrə Ali Komissarı** – ATƏT çərçivəsində preventiv diplomatik funksiyaları həyata keçirən ali vəzifəli şəxs. Əsas vəzifəsi sülh və sabitliyi, o cümlədən ATƏT-in iştirakçı dövlətləri arasında münasibətləri təhlükə altında qoyan etnik gərginliyin aşkar edilməsi və aradan qaldırılmasıdır. Ali Komissar milli azlıqlarla əlaqədar yaranan vəziyyətləri təhlil edir və gərgin vəziyyətlərin ilkin mərhələdə həll edilməsi üçün tədbirlər görür. ATƏT mandatı çərçivəsində Ali Komissar işi gizli apara bilər və gərgin vəziyyətin tərəfi də daxil olmaqla, bütün tərəflərdən asılı olmayaraq müstəqil şəkildə fəaliyyət göstərə bilər. O, sərbəst olaraq bu və ya digər vəziyyətə məhz harada və hansı anda müdaxilə etməyin mümkünlüyü haqqında qərar vermək hüququna malikdir. Vasitəçilik fəaliyyətinin səmərəliliyi üçün o, qərəzsiz olmalı və heç bir tərəfə üstünlük verməməlidir. Milli azlıqların işləri üzrə Ali Komissarlığın mənzil-qərargahı Haaqada (Niderland Krallığı) yerləşir. Ali Komissarın işinin əsas prinsipləri bunlardır: erkən xəbərdarlıq və erkən fəaliyyət; müstəqillik; bitərəflik; konfidensiallıq.

85. **Autentik** (yun. autentikos – əsl, həqiqi) – əsl, həqiqi, ilkin mənbədən irəli gələn.

86. **Autentik mətn –** beynəlxalq müqavilənin qəti, əsl və bərabər məcburi qüvvəyə malik mətni (mətnləri). İkitərəfli müqavilənin mətni adətən hər iki tərəfin, çoxtərəfli müqavilənin mətni isə həmin müqavilənin işlənib hazırlanması üçün konfrans çağıran beynəlxalq təşkilatda rəsmi dil qismində qəbul edilmiş yaxud tərəflərin razılaşdıqları dildə (dillərdə) tərtib edilir. Beynəlxalq müqavilənin yekun maddələrində, bir qayda olaraq, müqavilənin mətninin bərabər autentik olduğu göstərilir.

87. **Avropa beynəlxalq hüququ** – Avropa dövlətləri arasında münasibətləri

tənzimləyən beynəlxalq hüquq normalarının məcmusu. Bu normalar Avropa dövlətləri arasında bağlanmış ikitərəfli və ya çoxtərəfli beynəlxalq müqavilələrdə formalaşır.

88. **Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) –** öz fəaliyyətinə 1972-ci ildə dialoq və danışıqlar üçün çoxtərəfli forum kimi başlayan və tərkibinə 60-a yaxın ölkənin daxil olduğu özünəməxsus xüsusiyyətlərə malik olan regional beynəlxalq təşkilat. 1975-ci ildə Helsinkidə qəbul edilmiş Yekun Aktı, 1990-cı ildə Parisdə qəbul edilmiş Yeni Avropa üçün Xartiya və ona Əlavə protokol, 1992-ci il Helsinki Bəyannaməsi, habelə 1994-cü il Budapeşt Müşavirəsinin sənədləri ATƏT-in təsis sənədləri sayılır. Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Müşavirə (ATƏM) bu qərarlara uyğun olaraq ATƏT-ə çevrilmiş, onun məqsədləri dəqiqləşdirilmiş və quruluşu təkmilləşdirilmişdir. Belə ki, 1994-cü il Budapeşt Sammitindən sonra 1 yanvar 1995-ci ildən ATƏM ATƏT adlanmağa başlanmışdır. ATƏT-in əsas məqsədləri kimi uzunmüddətli sülhün təmin edilməsi üçün müvafiq şəraitin yaradılması, təhlükəsizlik şəraitində əməkdaşlıq, tərksilah, münaqişəli vəziyyətlərin qarşısının alınması, iqtisadiyyat, mədəniyyət, insan hüquqlarının və azadlıqlarının təmin olunması sahəsində əməkdaşlıq və s. məsələləri qeyd etmək olar. ATƏT-in regional təşkilat kimi fəaliyyətinin əsas qayəsi təhlükəsizlik məsələləri olsa da, onu digər təhlükəsizlik təşkilatlarından fərqləndirən əsas cəhət onun təhlükəsizliyə hərtərəfli və genişmiqyaslı aspektdən yanaşması, eləcə də bu və ya digər məsələyə dair çıxardığı qərarların siyasi xarakterə malik olmasıdır.

89. **Avropa hüququ –** Avropa məkanında olan hüququn ümumi prinsipləri, milli hüquq sistemlərinin normaları, beynəlxalq hüququn müvafiq normaları daxil olmaqla hüquq normalarının məcmusu (geniş mənada). Avropa İttifaqı, Avropa Şurası və digər Avropa təşkilatları çərçivəsində qəbul edilmiş hüquq normalarının məcmusu (dar mənada). Avropa hüququ Avropa inteqrasiyası prosesində formalaşan münasibətləri tənzimləyən Avropa inteqrasiya hüququ və insan hüquqlarının müdafiəsinin Avropa sisteminin hüquqi göstərişlərini əhatə edən xüsusi hüquq sistemidir.

90. **Avropa insan hüquqları hüququ –** Avropa məkanında insan hüquqlarının müdafiəsi sahəsində ümumi standartlar müəyyənləşdirən və bu standartların dövlətlər tərəfindən yerinə yetirilməsinə nəzarət məqsədilə xüsusi mexanizmlər müəyyən edən hüquq normalarının məcmusu.

91. **Avropa İnsan Hüquqları Konvensiyası (İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya)** – Avropa Şurası çər-

çivəsində qəbul edilmiş, insan hüquqları sahəsində mühüm əhəmiyyətə malik regional beynəlxalq müqavilə. 1950-ci ilin noyabrın 4-də Romada Avropa Şurasının üzv dövlətləri tərəfindən qəbul edilmiş və 1953-cü ilin sentyabrın 3-də 8 dövlət tərəfindən ratifikasiya olunduqdan sonra qüvvəyə minmişdir. Konvensiya Avropa Şurasının ən mühüm nailiyyətlərindən sayılır. Şuranın rəsmi dilləri ingilis və fransız dilləri olduğu üçün Konvensiya bu iki dildə qəbul olunmuşdur və 59-cu maddəyə əsasən, hər iki mətni bərabər autentikdir. Konvensiyanın I bölməsinə daxil olan 2-dən 18-ə kimi maddələrdə əsas insan hüquqları və azadlıqları sadalanır. Konvensiyanın üstün cəhətlərindən biri ondan ibarətdir ki, o, yeni sənədlərlə tamamlanmaqla daim inkişafdadır. Konvensiyaya dair bir sıra Protokollar qəbul edilmişdir. 2, 3, 5, 8, 9,10, 11, 14 saylı Protokollar prosedur məsələlərə həsr olunub və Konvensiyanın mətninə inkorporasiya olunmuşdur, 1, 4, 6, 7, 12, 13 saylı Protokollar isə Konvensiyada təsbit olunmuş əsas insan hüquqları və azadlıqlarına əlavə hüquqlar nəzərdə tutur. 2013-cü ildə 15 və 16 saylı Protokollar qəbul edilmişdir. Bu Protokollar əlavə hüquq və azadlıqlar nəzərdə tutmur. 15 saylı Protokola əsasən, şikayətin verilmə müddəti 6 aydan 4 aya endirilmişdir. 16 saylı Protokola uyğun olaraq isə, iştirakçı dövlətlərin müvafiq məhkəmə orqanları məsləhətçi rəylərin verilməsi üçün Avropa Məhkəməsinə müraciət edə bilərlər. Konvensiyaya dair əlavə Protokollar Avropa hüquq sisteminə, demək olar ki, əksər mülki və siyasi hüquqları daxil etmişdir. Konvensiyada və əlavə Protokollarda yaşamaq hüququ, işgəncələrə məruz qalmamaq hüququ, azadlıq və toxunulmazlıq hüququ, ədalətli məhkəmə araşdırması hüququ, şəxsi həyata və ailə həyatına hörmət hüququ, fikir, vicdan və din azadlığı, ifadə azadlığı, yığıncaqlar və birləşmək azadlığı, nikah hüququ, səmərəli hüquqi müdafiə vasitələri hüququ, mülkiyyət hüququ, təhsil hüququ, azad seçki hüququ və digər mülki və siyasi hüquqlar təsbit olunmuşdur. Konvensiya 25 dekabr 2001-ci ildə Azərbaycan Respublikası Milli Məclisi tərəfindən müvafiq bəyanatlar və qeyd-şərtlərlə ratifikasiya olunmuşdur.

92. **Avropa İnsan Hüquqları Məhkəməsi** – İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın 19-cu maddəsi əsasında yaradılmış beynəlxalq məhkəmə orqanı. Məhkəmə daimi əsasda fəaliyyət göstərir. Məhkəmədə hakimlərin sayı Konvensiyanın iştirakçı-dövlətlərinin sayına bərabərdir. Hakimlər yüksək mənəvi keyfiyyətlərə malik olmalı və yüksək məhkəmə vəzifələrinə təyin olunarkən qoyulan tələblərə cavab verməli və ya tanınmış hüquqşünas olmalıdırlar. Hakimlər hər bir

üzv-dövlətin təqdim etdiyi namizədlər siyahısından Avropa Şurası Parlament Assambleyasının səs çoxluğu ilə seçilir. Hakimlər doqquz il müddətinə seçilir və yenidən seçilə bilməzlər. Hakimlər 70 yaşa çatdıqdan sonra onların səlahiyyət müddəti bitir. Hakim, onun istefası və vəzifəsindən azad olunması nəticəsində vaxtından əvvəl də vəzifədən uzaqlaşdırıla bilər. Hakimin istefası deyəndə, onun öz istəyi ilə istefaya getməsi başa düşülür. Avropa İnsan Hüquqları Məhkəməsinin Reqlamentinin 6-cı maddəsinə müvafiq olaraq, bu haqda ərizə Məhkəmənin Sədrinə verilir, o isə, öz növbəsində, bunu Avropa Şurasının Baş Katibinə çatdırır. Hakim yalnız onun hakimlər üçün irəli sürülən tələblərə cavab verməməsi haqqında digər hakimlərin üçdə iki səs çoxluğu ilə qəbul edilmiş qərar əsasında vəzifəsindən azad edilə bilər. Bu qərar Məhkəmənin plenar iclasında qəbul edilir. Məhkəmə həm dövlətlərarası, həm də fərdi şikayətlərə baxır. Avropa İnsan Hüquqları Konvensiyasının bir iştirakçı-dövləti digər iştirakçı-dövlətin Konvensiyanın və ona dair Protokolların müddəalarının hər hansı birini pozması ehtimalı ilə bağlı Məhkəməyə müraciət edə bilər. Bundan başqa, Məhkəmə istənilən fiziki şəxsdən, qeyri-hökumət təşkilatından və ya ayrı-ayrı şəxslər qrupundan, Razılığa gələn Yüksək Tərəflərdən birinin onun bu Konvensiyanın və ya ona əlavə Protokolların müddəaları ilə nəzərdə tutulmuş hüquqlarını pozmasının qurbanı olduğunu iddia edən şikayətlər qəbul edə bilər. Dövlətlər öz üzərlərinə bu hüququn səmərəli həyata keçirilməsinə heç bir yolla mane olmamaq öhdəliyini götürmüşlər. Bundan əlavə, Məhkəmə Nazirlər Komitəsinin sorğusu ilə Konvensiyanın və ona dair Protokolların müddəalarının şərhinə dair hüquqi məsələlər üzrə məsləhət rəyləri verə bilər. Məhkəmə şikayətləri yalnız müəyyən şərtlər daxilində öz icraatına qəbul edə bilər. Bu şərtlərə aiddir: Avropa Məhkəməsinə yalnız Avropa İnsan Hüquqları Konvensiyasında və ya onun əlavə Protokollarında təsbit olunmuş hüquq və ya azadlıqların pozulması ilə bağlı müraciət edilməsi; Məhkəməyə yalnız hüquqları pozulmuş şəxsin özünün müraciət etməsi; bütün dövlətdaxili hüquq müdafiə vasitələrinin tükənməsi. Şikayətin qəbul olunması üçün o, anonim olmamalıdır, əvvəllər Avropa Məhkəməsi tərəfindən baxılmamış olan və ya başqa bir beynəlxalq orqana təqdim olunmayan şikayət olmalıdır, milli məhkəmənin son qərarının çıxarıldığı müddətdən dörd aydan gec olmayaraq verilməlidir, əsaslandırılmış olmalıdır və ərizəçi şikayət vermək hüququndan sui-istifadə etməməlidir. 2013-cü ildə Avropa İnsan Hüquqları Konvensiyasına dəyişikliklər edilməsi barədə 15 və 16 saylı Protokollar qəbul edilmişdir. 15 saylı Protokola əsasən şikayətin

verilmə müddəti 6 aydan 4 aya endirilmişdir. 16 saylı Protokola uyğun olaraq isə, iştirakçı-dövlətlərin müvafiq məhkəmə orqanları məsləhətçi rəylərin verilməsi üçün Avropa Məhkəməsinə müraciət edə bilərlər.

93. **Avropa İttifaqı** – unikal siyasi-hüquqi keyfiyyətə malik dövlətlər birliyi. Avropa İttifaqı mürəkkəb regional inteqrasiya qurumu olmaqla beynəlxalq təşkilatların müasir anlayışının hüdudlarından kənara çıxır. Avropa İttifaqının hüquqi təbiətinin unikallığı onun dövlətüstü xarakter daşımasındadır. Bu isə özünü Avropa İttifaqı hüququ adlanan hüquqi norma və qaydalar kompleksində göstərir. Avropa İttifaqı hüququ normaları milli qanunvericilik üzərində üstünlüyə malikdir, bütün vətəndaşlar və hüquqi şəxslər üçün məcburi xarakter kəsb edir. Avropa İttifaqının əsası 1951 və 1957-ci illərdə qəbul olunmuş üç müqavilə ilə qoyulmuşdur: Avropa Kömür və Polad Birliyinin yaradılması haqqında 1951-ci il Paris Müqaviləsi; Atom Enerjisi üzrə Avropa Birliyinin yaradılması haqqında 1957-ci il Roma Müqaviləsi; Avropa İqtisadi Birliyinin təsis olunması haqqında 1957-ci il Roma Müqaviləsi. Təsis müqavilələri ilə yanaşı, Avropa İttifaqının təşkili və fəaliyyəti aşağıdakı hüquqi sənədlərə əsaslanır: 1965-ci il Brüssel Müqaviləsi (bu müqaviləyə əsasən, üç birliyin vahid orqanları yaradılmışdır); 1971-ci il Lüksemburq Müqaviləsi (bu müqaviləyə əsasən, ən mühüm məsələlər üzrə qərarların yalnız ümumi razılıq əsasında qəbul olunması müəyyənləşmişdir); 1986-cı il Vahid Avropa Aktı (bu Akta əsasən, İttifaq çərçivəsində 1993-cü ilə qədər vahid daxili bazarın yaradılması və siyasi əməkdaşlığın genişləndirilməsi məqsədi qarşıya qoyulmuşdur); 1990-cı il Şengen Sazişi (bu Sazişdə 1993-cü ildən etibarən Avropa İttifaqı ərazisində vahid viza rejimi, yük, kapital və şəxslərin sərhədlərdən maneəsiz olaraq keçməsi barədə müddəalar əks olunmuşdur); Ümumi müdafiə, valyuta-iqtisadi ittifaqı da daxil olmaqla, siyasi ittifaqın yaradılmasını nəzərdə tutan 1992-ci il Maastrixt Müqaviləsi; 1997-ci il Amsterdam Sazişi (bu Sazişdə, əsasən sosial sahədə əməkdaşlığın gücləndirilməsi, əhalinin miqrasiyasının liberallaşdırılması və ümumi pul vahidinə (avro) keçidlə bağlı müddəalar əks olunmuşdur); 2001-ci il Nitsa Sazişi (bu Saziş müvafiq qurumun orqan və institutlarının formalaşdırılması məqsədilə Avropa İttifaqının təsis aktlarına əsas dəyişikliklər etmişdir). Avropa İttifaqının ümumi məqsədi İttifaqa daxil olan ölkələrin vətəndaşlarına sülh və tərəqqi gətirməkdən ibarətdir. Bu məqsədə daim möhkəmləndirilən əməkdaşlıq əsasında nail olunur. Həmin əməkdaşlıq iqtisadi, siyasi və sosial sahələri əhatə edir. İttifaqın iqtisadi və sosial tərəqqisini təmin etmək, beynəlxalq miqyasda Avropa

İttifaqının vahidliyini möhkəmləndirmək, Avropa vətəndaşlığını tətbiq etmək, azadlığın, təhlükəsizliyin və ədalətin əhatə dairəsini inkişaf etdirmək, Avropa İttifaqı hüququ əsasında Avropa cəmiyyəti qurmaq kimi vəzifələri vardır. Avropa İttifaqı ilk vaxtlar yalnız iqtisadi məqsədlərlə yaradılmasına baxmayaraq, indi daha çox siyasi quruma çevrilmişdir. Belə ki, 1992-ci il Maastrixt Müqaviləsinin qüvvəyə minməsi Avropa İttifaqının siyasi bir qurum olaraq fəaliyyətə başlamasına əsas verdi. Bu baxımdan, Avropa İttifaqı müəyyən strukturlar və təsisatlar formalaşdırmağa başladı. Vahid Avropa İttifaqı vətəndaşı məsələsinin ortaya çıxması isə İttifaq çərçivəsində insan hüquq va azadıqlarının təmin olunması ilə əlaqədar problemi gündəmə gətirdi.

94. **Avropa İttifaqı hüququ –** Avropa inteqrasiya prosesi, Avropa hakimiyyət institutlarının yaranması və fəaliyyəti qaydalarını və bununla bağlı ictimai münasibətləri nizama salan hüquq normaları sistemi. Avropa İttifaqı hüququ özünün mənbələri və prinsipləri olan, Avropa İttifaqı dövlətlərinin milli hüququ və beynəlxalq hüququn qovşağında formalaşan müstəqil hüquq sistemidir.

95. **Avropa İttifaqı Xartiyası (Əsas hüquqlar haqqında Avropa İttifaqı Xartiyası)** – Avropa İttifaqı çərçivəsində insan hüquq və azadlıqları ilə əlaqədar 2000-ci ilin dekabr ayının 7-də Nitsada qəbul edilmiş mühüm beynəlxalq-hüquqi akt. Xartiyada öz təsdiqini tapmış əksər hüquqlar Avropa İttifaqı ərazisində olan istənilən şəxsə münasibətdə tanınan hüquqlardır. Xartiyada ilk dəfə əsas hüquqlar qismində tanınan səmərəli idarəetmə kimi hüquqlar da öz təsbitini tapmışdır. Xartiyanın əsas spesifik xüsusiyyəti burada əsas insan hüquqları və azadlıqlarının unikal təsnifatının aparılmasındadır. Belə ki, Xartiya əsas insan hüquq və azadlıqlarını özünəməxsus şəkildə sistemləşdirmişdir. Təsnifatın əsası kimi subyektiv hüquqlar (şəxsi, siyasi, iqtisadi və s.) deyil, onların müdafiəsinə yönələn dəyərlər çixiş edir: insan ləyaqəti; azadlıq; bərabərlik; həmrəylik. Xartiyanın I bölməsi "Ləyaqət" adlanır və 1-5-ci maddələri əhatə edir. Burada insan ləyaqətinin toxunulmazlığı, ona hörmət edilməsi və müdafiə olunması, yaşamaq hüququ və heç bir şəxsin ölüm cəzasına məhkum və ya edam oluna bilməməsi kimi müddəalar öz əksini tapmışdır. Xartiyada keyfiyyətcə yeni müddəa – şəxsiyyətin toxunulmazlığı hüququ bəyan edilmişdir. II bölmə "Azadlıq" adlanır və 6-19-cu maddələri əhatə edir. Burada azadlıq və şəxsi toxunulmazlıq hüququ, şəxsi və ailə həyatına hörmət, fərdi məlumatların müdafiəsi, nikaha daxil olmaq və ailə qurmaq hüququ, fikir, vicdan və etiqad azadlığı bəyan olunur və

dini motivlərə görə hərbi xidmətdən imtina hüququnun həyata keçirilməsi milli qanunvericiliyə uyğun olaraq tanınır. Bundan başqa, ifadə və məlumat azadlığı, yığıncaqlar və birləşmək azadlığı, keyfiyyətcə yeni olan incəsənət və elm azadlığı, təhsil hüququ, peşə fəaliyyəti azadlığı və əmək hüququ, sahibkarlıq azadlığı, mülkiyyət hüququ, sığınacaq hüququ kimi əsas hüquq və azadlıqlar təsbit olunmuşdur. III bölmə "Bərabərlik" adlanır və 20-26-cı maddələri əhatə edir. Burada bütün insanların qanun qarşısında bərabərliyi təsbit olunmuşdur. Eyni zamanda uşaq hüququ, ahılların hüququ, əlilliyi olan şəxslərin inteqrasiyası kimi ayrı-ayrı sosial təbiətə malik məsələlər Xartiyada öz konkret ifadəsini tapmışdır. Bu, Xartiyanın aktuallığını vurğulamaqla yanası, onun əsl insan meyarından çıxış etməsinin və ona xidmət etməsinin bariz sübutudur. IV bölmə "Həmrəylik" adlanır və 27-38-ci maddələri əhatə edir. Bu bölmədə işçilərin informasiya və məsləhət hüququ; kollektiv müqavilələr və kollektiv fəaliyyət hüququ; məşğulluq xidmətinə müraciət etmək hüququ; hər bir işçinin onun sağlamlığına, təhlükəsizliyinə və ləyaqətinə hörmət edən əmək şəraiti hüququ; hər bir işçinin iş vaxtının maksimum müddətinin məhdudlaşdırılması hüququ; həftəlik istirahət hüququ; illik ödənişli məzuniyyət hüququ; səhiyyə sisteminin profilaktik tədbirlər sisteminə daxil olmaq və tibbi köməkdən istifadə etmək hüququ və s. hüquqlar öz əksini tapmışdır. Bundan başqa, burada uşaq əməyinin qadağan edilməsi və iş yerlərində gənclərin müdafiəsi, ailə və peşə həyatı ilə əlaqədar ailə və peşə həyatının qarşılıqlı uyğunluğunu təmin etmək məqsədilə hər kəsin analıqla əlaqədar motivlərlə işdən çıxarılmaqdan müdafiə hüququ, həmçinin hamiləliyə və doğuşa görə haqqı ödənilən məzuniyyət və uşağın doğulması və ya övladlığa götürülməsi ilə əlaqədar ona xidmət göstərmək üçün məzuniyyət hüququ, sosial təminat və sosial müdafiə hüququ, sağlamlığın müdafiəsi, ətraf mühitin mühafizəsi, istehlakçıların müdafiəsi kimi məsələlər tənzimlənir. "Vətəndaşlıq" adlanan və 39-46-cı maddələri əhatə edən V bölmədə İttifaqın hər bir vətəndaşının yaşadığı dövlətdə bu dövlətin vətəndaşı üçün nəzərdə tutulmuş şərtlərlə Avropa Parlamentinin seçkilərində namizəd kimi iştirak etmək və səs vermək hüququ, bələdiyyə seçkilərində namizəd kimi iştirak etmək və səs vermək hüququ, müraciət hüququ, yaşayış yeri seçmək azadlığı və s. kimi hüquq və azadlıqlar öz əksini tapmışdır. Bundan başqa, 41-ci maddədə yeni müddəa sayıla biləcək səmərəli idarəetmə hüququ təsbit olunmuşdur. Xartiyanın VI bölməsi "Ədalət mühakiməsi" adlanır və 47-50-ci maddələri əhatə edir. Bu bölmədə təqsirsizlik prezumpsiyası və müdafiə hüququ, səmərəli və qərəz-

siz məhkəməyə müraciət hüququ, cinayət və cəzanı müəyyənləşdirərkən qanunçuluq və mütənasiblik prinsipi, eyni bir cinayətə görə iki dəfə cinayət təqibi və cinayət cəzasına məruz qalmamaq hüququ kimi hüquqlar əks olunmuşdur. Xartiyanın sonuncu VII bölməsi isə "Ümumi qaydalar" adlanır və 51-54-cü maddələri əhatə edir. Bu bölmədə Xartiya ilə bağlı ümumi müddəalar, onun tətbiqi sferası və qaydası əks olunmuşdur. Burada, eyni zamanda insan hüquq və əsas azadlıqlarının müdafiəsində mühüm rol oynayan ombudsman institutuna da həsr olunmuş müddəaya rast gəlmək olar. 43-cü maddəyə əsasən, İttifaqa üzv dövlətdə yaşayan hər bir vətəndaşın, yaxud hər bir fiziki və ya hüquqi şəxsin Ombudsmana müraciət etmək hüququ vardır.

96. **Avropa İttifaqı Məhkəməsi** – Avropa İttifaqının əsas institutlarından biri. İlkin olaraq Avropa Kömür və Polad Birliyinin (AKPB) təsis edilməsi haqqında 1951-ci il tarixli Paris müqaviləsinin əsasında AKPB-nin məhkəməsi kimi formalaşmışdır. Avropa İqtisadi Birliyinin və Atom Enerjisi üzrə Avropa Birliyinin yaradılması ilə 1957-ci ildə AKPB-nin məhkəməsi vahid məhkəmə orqanına – Avropa İttifaqı Məhkəməsinə çevrildi. Məhkəmənin iş yükünün artması ilə əlaqədar olaraq Avropa şurasının 24 oktyabr 1988-ci il tarixli qərarına əsasən, əlavə olaraq birinci instansiya məhkəməsi (tribunal) yaradıldı. 2001-ci il tarixli Nitsa müqaviləsinə müvafiq olaraq, Şuranın 2 noyabr 2004-cü il tarixli qərarına əsasən, Mülki xidmət məsələləri üzrə məhkəmə yaradıldı. Məhkəmənin əsas funksiyası Avropa məmurları və Avropa İttifaqı institutları arasında əmək və inzibati xarakterli mübahisələrə baxmaqdan ibarətdir. Məhkəmənin olduğu yer Lüksemburqdur.

97. **Avropa Komissiyası** – Avropa İttifaqının aparıcı institutlarından biri. Komissiya İttifaqın işlərinə gündəlik operativ idarəçiliyi həyata keçirir. Komissiyanın iştirakı olmadan İttifaqın, demək olar ki, heç bir vacib qərarı qəbul edilmir. Komissiya Avropa İttifaqının Məhkəməsi ilə birgə Avropa inteqrasiyasının maraqlarını İttifaqın üzv dövlətlərinin müdaxilələrindən qoruyur. Komissiyanın qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə kollegial şəkildə qəbul edilir. Komissiya həm də qanunvericilik funksiyalarına malikdir. Komissiya Avropa parlamenti qarşısında məsuliyyət daşıyır. Komissiya 28 komissardan ibarətdir. Komissarlar öz dövlətlərini təmsil etmirlər, hökumətdən hər hansı bir göstəriş ala bilməzlər, yalnız İttifaqın maraqlarını müdafiə edirlər. Məhz buna görə də hər bir komissar, vəzifəsinin icrasına başlamazdan əvvəl öz hökumətindən müstəqil olacağına dair təntənəli şəkildə and içir. Təcrübədə, adətən Komissiyanın

üzvləri keçmiş hökumət başçıları, yaxud nazirlər olur. Hər bir üzv müəyyən bir sahəni əlaqələndirir və müvafiq inzibati xidmətlərin işinə rəhbərliyi həyata keçirir. Komissiya dövlətin öz öhdəliyini yerinə yetirməməsi ilə bağlı Avropa İttifaqı Məhkəməsinə müraciət edə bilər. Komissiya həmçinin Avropa İttifaqı hüququnun ayrı-ayrı normalarının, əsasən də antiinhisar hüquq normalarının pozulması ilə bağlı müəssisələrə cərimə şəklində sanksiyalar tətbiq edə bilər. Cərimələrin ödənilməsinə nəzarəti Avropa İttifaqı Məhkəməsi həyata keçirir.

98. **Avropa Ombudsmanlar İnstitutu –** 1988-ci ildə yaradılmış beynəlxalq ictimai təşkilat. Təşkilatın üzvləri Avropa ölkələrinin ombudsmanları, milli insan hüquqları təsisatları, insan hüquqları sahəsində tanınmış alimlər və mütəxəssislərdir. 1982-ci ildə İnsbruq Universitetinin (Avstriya) əməkdaşları ombudsman institutları üzrə tədqiqatların aparılması məqsədilə Avropada elmi cəmiyyətin yaradılması təşəbbüsü ilə çıxış etmişlər. Nəticədə Avropa ombudsmanlar akademiyasının əsası qoyulmuş, sonradan isə Avropa ombudsmanlar institutu kimi fəaliyyət göstərməyə başlamışdır. İnstitutun əsas fəaliyyət istiqamətləri insan hüquqları sahəsində elmi araşdırmalar aparmaq, ombudsman ideyasının təbliği və inkişafı, milli insan hüquqları təsisatları ilə əməkdaşlıq, milli və regional səviyyədə təcrübə mübadiləsinin aparılmasından ibarətdir. Təşkilatın ilk prezidenti İnsbruq universitetinin professoru Hans Klesatski olmuşdur (1988-1989). Təşkilatın mənzil-qərargahı Avstriyanın İnsbruq şəhərində yerləşir.

99. **Avropa parlamenti** – Avropa İttifaqının institusional sistemində əsas yerlərdən birini tutan qanunvericilik və siyasi nəzarət funksiyalarını həyata keçirən orqan. 1979-cu ildə ümumi seçki hüququ əsasında parlamentə ilk birbaşa seçkilər keçirilmişdir. 2007-ci il tarixli Lissabon müqaviləsinə əsasən, Parlament, İttifaq vətəndaşlarının nümayəndələrindən ibarətdir. Parlament bir palatalı struktura malikdir. Deputatlar milli nümayəndə heyətlərində deyil, ümumi siyasi maraqlar əsasında siyasi qrup və ya fraksiyalarda birləşmişlər. Parlament həmçinin Avropa şurasının təklifi əsasında Komissiyanın sədrini seçir. Parlament beynəlxalq xarakterli problemləri müzakirə edir və bunun nəticəsi olaraq hüquqi qüvvəyə malik olmayan bəyannamələr qəbul edir. Parlamentə seçmək və seçilmək hüququna Avropa İttifaqı dövlətlərinin vətəndaşları malikdirlər. Seçkilər hər bir üzv dövlətdə milli seçki qanunvericiliyinə uyğun olaraq keçirilir. Deputatlar 5 il müddətinə seçilirlər. Parlament 750 deputat və bir nəfər sədrdən ibarətdir. Avropa parlamentinin illik sessiyaları Strasburqda (Fransa) keçirilir.

100. Avropa Sosial Xartiyası – Avropa Şurası çərçivəsində qəbul edilmiş, insan hüquqları sahəsində mühüm əhəmiyyətə malik regional beynəlxalq müqavilə. Sosial hüquqların təminatı sahəsində mühüm beynəlxalq müqavilə olmaqla özündə bir sıra sosial və iqtisadi hüquqları ehtiva edir. Xartiya 1961-ci il oktyabrın 18-də Turin şəhərində (İtaliya) imzalanmış, 1965-ci il fevralın 25-də qüvvəyə minmişdir. 1988-ci il mayın 5-də qəbul edilmiş Əlavə Protokol Xartiyada təsbit olunmuş hüquqların siyahısını daha da genişləndirmişdir. Xartiyada təsbit olunan hüquqları, əsasən, iki qrupa ayırmaq olar: əmək şəraiti, əməyin mühafizəsi ilə bağlı olan hüquqlar və ümumsosial müdafiə hüquqları. Xartiyadan irəli gələn öhdəliklərə əməl etmələri haqqında dövlətlərin sosial hüquqlar üzrə Avropa Komitəsinə təqdim etdikləri məruzələr 1991-ci ildə qəbul edilmiş Protokol əsasında yaradılan nəzarət mexanizminin əsasını təşkil edir. 1996-cı ildə yenidən baxılmış Avropa Sosial Xartiyası qəbul olundu və ilk Xartiyanın məzmununu onun qəbul edilməsindən sonra baş verən əsaslı sosial dəyişikliklərə uyğunlaşdırdı. Tədricən 1961-ci il Xartiyasını əvəzləyən yenidən baxılmış Avropa Sosial Xartiyası bir sıra yeni sosial hüquqlar müəyyən etmişdir. Yenidən baxılmış Xartiya Preambula və altı hissədən ibarətdir. Preambulada qeyd edilir ki, Xartiyanı imzalayan Avropa Şurasının üzv dövlətləri Avropa Şurasının məqsədinin üzv dövlətlərin ümumi irsi sayılan ideya və prinsiplərin qorunması və həyata keçirilməsi məqsədilə onların arasında daha sıx birliyə nail olmaq və onların iqtisadi və sosial tərəqqisinə, xüsusilə insan hüquqları və əsas azadlıqlarının möhkəmləndirilməsi və daha geniş təminatı yolu ilə yardım etmək olduğunu nəzərə alaraq razılığa gəlmişlər. Xartiyada müdafiə olunan hüquqları 3 kateqoriyaya ayırmaq olar. Birinci kateqoriyaya məşğulluğun müdafiəsi ilə bağlı hüquqlar aid edilir. Belə hüquqlara məşğulluğun yaxşılaşdırılması, işçilərin ədalətli əmək şəraiti hüququ, işçilərin öz iqtisadi və sosial maraqlarının müdafiəsi məqsədilə təşkilatlanma hüquqları, işçilərin əməyinin ədalətli ödənilməsi və s. hüquqlar aiddir. İkinci kateqoriyaya insanların sosial müdafiə hüquqları aid edilir. Belə hüquqlara ailənin müdafiəsi, sosial təminat hüququ və s. aid edilə bilər. Üçüncü kateqoriyaya isə iş müəssisəsindən kənar xüsusi hüquqlar aiddir ki, bunlara da mənzil hüququ, sağlamlıq hüququ və s. daxildir. Azərbaycan Respublikası 18 oktyabr 2001-ci ildə yenidən baxılmış Avropa Sosial Xartiyasını imzalamış və 2006-cı ildə ratifikasiya etmişdir.

101. Avropa Şurası – fəaliyyəti demokratik prinsiplərin, insan hüquqlarının və qanunun aliliyinin təmin edilməsinə yönələn regional beynəlxalq təş-

kilat. 5 may 1949-cu ildə Londonda 10 Avropa dövləti tərəfindən Nizamnaməsi qəbul edilməklə yaradılmışdır. Təşkilatın hər bir üzvü beynəlxalq hüququn ümumtanınmış prinsiplərindən olan və bir sıra beynəlxalq sənədlərdə, o cümlədən BMT Nizamnaməsində, Ümumdünya İnsan Hüquqları Bəyannaməsində öz əksini tapmış, əsas insan hüquq və azadlıqlarına hörmət edilməsi prinsipini rəhbər tutmalıdır. Şuranın Nizamnaməsinə əsasən, onun əsas məqsədlərindən biri insan hüquq və azadlıqlarının təmin edilməsidir. Nizamnaməyə əsasən, Şuranın istənilən üzvü hüququn aliliyi prinsipini tanıyır və belə bir prinsipi qəbul edir ki, onun yurisdiksiyası altında olan istənilən şəxs insan hüquqlarından və əsas azadlıqlarından istifadə etməlidir. Avropa Şurasının mənzil-qərargahı Fransanın Strasburq şəhərində yerləşir. İnsan hüquqlarına hörmət edilməsi və hüququn aliliyi Avropa Şurasına üzvlük üçün zəruri şərtlərdir. Bundan əlavə, yeni üzvlüyə namizəd dövlətlər üçün milli azlıqların hüquqlarının qorunması, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanı imzalamağa və qısa zaman ərzində ratifikasiya etməyə hazır olmaq və s. bu kimi əlavə tələblər irəli sürülür. Avropa Şurasının iki əsas orqanı – Nazirlər Komitəsi və Parlament Assambleyasıdır. Bu orqanlara Avropa Şurasının Katibliyi kömək edir. Nazirlər Komitəsinin fəaliyyəti, demək olar ki, siyasi məsələlərin bütün aspektlərini əhatə edir: inteqrasiya məsələləri, əməkdaşlığın inkişafı, demokratik dəyərlərin, təsisatların, institutların inkişafı və insan hüquqlarının müdafiəsi və s. Avropa Şurasının ikinci mühüm orqanı məşvərətçi nümayəndəli orqan olan Parlament Assambleyasıdır. Assambleya üzv-ölkələrin parlamentləri tərəfindən seçilmiş və ya təyin olunmuş parlament nümayəndələrindən ibarətdir. Avropa Şurasının Nizamnaməsində nəzərdə tutulmuş üçüncü orqan Katiblikdir. Katiblik Avropa Şurasının inzibati orqanıdır. Ona Nazirlər Komitəsinin təqdimatı ilə Parlament Assambleyası tərəfindən 5 il müddətinə seçilən Baş Katib rəhbərlik edir. Avropa Şurasının Nizamnaməsində nəzərdə tutulmayan, lakin Şuranın orqanlarından biri sayılan və hal-hazırda fəaliyyət göstərən orqan Avropa yerli və regional hakimiyyətlər Konqresidir. 1994-cü ildə Avropa Şurası əvvəllər fəaliyyət göstərən yerli və regional hakimiyyətlərin Avropa daimi konfransının əvəzinə konsultativ orqan qismində Avropa yerli və regional hakimiyyətlər Konqresini təsis etmişdir. Konqres üzv-dövlətlərə səmərəli yerli və regional hakimiyyət orqanları yaradılmasında köməklik göstərir. Konqres üzv-dövlətlərin müvafiq ərazi qurumlarının nümayəndələrindən ibarətdir.

102. Avropa şurası (Avropa İttifaqının orqanı) – Avropa İttifaqının siyasi

rəhbərliyinin ali orqanı. Şura, İttifaqın ayrı-ayrı institutları arasında yaranan siyasi kolliziyaları həll edir. Şuranın tərkibinə İttifaqa üzv-dövlətlərin dövlət və (və ya) hökumət başçıları, həmçinin Avropa komissiyasının sədri daxildir. Şuranın qərarları, İttifaqın müqavilələri ilə başqa hal nəzərdə tutulmayıbsa, konsensus əsasında qəbul edilir.

103. Avropa Şurası Katibliyi – Avropa Şurasının inzibati orqanı. Katibliyə Nazirlər Komitəsinin təqdimatı ilə Parlament Assambleyası tərəfindən 5 il müddətinə seçilən Baş Katib rəhbərlik edir. Avropa Şurası təsis olunduğu vaxtdan indiyədək on dörd Baş katibi olmuşdur: Jak Kamil Pari (Fransa, 1949-1953); Leon Marşal (Fransa, 1953-1956); Lodoviço Benvenuti (İtaliya, 1957-1964); Piter Smizers (İngiltərə, 1964-1969); Lujo Tonçiç-Sorinj (Avstriya, 1969-1974); Qeorq Kan-Akerman (Almaniya, 1974-1979); Franz Karazek (Avstriya, 1979-1984); Marselino Akirre (İspaniya, 1984-1989); Katrin Lalümiyer (Fransa, 1989-1994); Daniyel Tarşis (İsveç, 1994-1999); Valter Şvimmer (Avstriya, 1999-2004); Terri Devis (İngiltərə, 2004-2009), Turbyorn Yaqland (Norveç, 2009-2019), Mariya Peyçinoviç Buriç (Xorvatiya, 2019-2024). Şuranın sayca 15-ci, yəni hazırkı Baş katibi Alain Berset (İsveçrə) 2024-cü ilin sentyabrında bu vəzifəyə seçilmişdir. İlk vaxtlar Baş katibin işi sadəcə Nazirlər Komitəsinə və Parlament Assambleyasına yardım etməkdən ibarət idi, indi isə ondan Şuranın işini əlaqələndirmək və onu istiqamətləndirmək tələb olunur. Baş Katib Şuranın səmərəli fəaliyyətini təmin edir və onun fəaliyyətinə hərtərəfli nəzarəti həyata keçirir. Baş Katib həmçinin Avropa İnsan Hüquqları Konvensiyasına əsasən xüsusi rola malikdir. Konvensiyanın 15-ci maddəsinə əsasən, müharibə və ya əhalinin həyatını təhdid edən istənilən digər fövqəladə hallar zamanı bu Konvensiya üzrə öhdəliklərindən geri çəkilmək niyyətində olan üzv-dövlət gördüyü tədbirlər və onların səbəbləri barədə Baş Katibi tam məlumatlandırmalıdır. Katiblik Avropa ictimaiyyətini Şuranın fəaliyyəti ilə tanış etmək məqsədilə təşkilatın sənədlərini nəşr edir, həmçinin Nazirlər Komitəsi və Parlament Assambleyasının qərarlarının hazırlanmasında mühüm rol oynayır.

104. Avropa Şurası Nazirlər Komitəsi – Avropa Şurasının əsas orqanlarından biri. Komitənin fəaliyyəti, demək olar ki, siyasi məsələlərin bütün aspektlərini əhatə edir: inteqrasiya məsələləri, əməkdaşlığın inkişafı, demokratik dəyərlərin, təsisatların, institutların inkişafı, insan hüquqlarının müdafiəsi və s. Avropa Şurasının hər bir üzvünün Komitədə nümayəndəsi vardır və hər bir nümayəndənin bir səsi vardır. Komitənin qərarları zəruri hallarda üzv dövlətlərin hökumətlərinə tövsiyə formasında çıxa-

rıla bilər, eləcə də Komitə həmin tövsiyələrin yerinə yetirilməsi barəsində hökumətlərə sorğu ilə müraciət edə bilər. Komitə bölgədəki siyasi vəziyyəti qiymətləndirmək və əməkdaşlıq məsələlərini müzakirə etmək məqsədilə bir qayda olaraq ildə iki dəfə iclaslar keçirir. Komitə həmçinin üzv dövlətlərdə Avropa Şurası çərçivəsində qəbul olunan konvensiyalara riayət olunmasına və Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının icrasına nəzarət edir. Üzv dövlətlər hər biri altı ay müddətinə olmaqla, ingilis əlifbasındakı ardıcıllıqla Komitəyə sədrlik edirlər. Ənənəvi olaraq, sədrliyin dəyişməsi may və noyabr aylarına təsadüf edir. Azərbaycan Respublikası 2014-cü ilin may-noyabr aylarında Komitəyə sədrliyi həyata keçirmişdir.

105. Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı – insan hüquqlarının daha səmərəli müdafiəsinə yardım məqsədilə Avropa Şurası çərçivəsində 1999-cu ildə təsis edilmiş vəzifə. Komissar hüquqi xarakterli səlahiyyətlərə malik deyildir. O, insan hüquqlarına dair tövsiyələr verir və onların pozulmasına dair məlumatları toplayır və Şuranın orqanlarına təqdim edir. Komissar həmçinin ayrı-ayrı dövlət orqanlarından, parlamentdən, ombudsmandan, qeyri-hökumət təşkilatlarından və vətəndaşlardan daxil olan insan hüquqlarına aid informasiyanı araşdırmaq səlahiyyətinə malikdir. Komissar zəruri hallarda Nazirlər Komitəsində və Parlament Assambleyasında baxılmaq üçün öz məruzələrini təqdim edə bilər. Komissarın səlahiyyət müddəti altı ildir və bu vəzifəyə təkrar seçilə bilməz. Komissarın əsas vəzifəsi insan hüquqlarına hörməti təşviq etmək, insan hüquqları ilə bağlı təhsili və məlumatlılığı stimullaşdırmaq və Avropa Şurasının insan hüquqlarına dair sənədlərinə riayət olunmasını təmin etməkdən ibarətdir. Onun rolu preventiv xarakter daşıyır və bir növ, Avropa İnsan Hüquqları Məhkəməsinin və digər orqanların rolunu tamamlayır. Avropa İnsan Hüquqları Konvensiyasına dair 14 saylı Protokol qüvvəyə mindikdən sonra Komissar Avropa Məhkəməsi qarşısında prosesin üçüncü iştirakçısı kimi çıxış etmək səlahiyyətinə malik olmuş və Palatada, yaxud Böyük Palatada keçirilən dinləmələrdə iştirak etmək və yazılı şərhlər vermək imkanı əldə etmişdir.

106. Avropa Şurası Parlament Assambleyası – Avropa Şurasının əsas orqanlarından biri. Assambleya üzv-ölkələrin parlamentləri tərəfindən seçilmiş və ya təyin olunmuş parlament nümayəndələrindən ibarətdir. Hər bir nümayəndə heyəti öz ölkəsinin müxtəlif siyasi dairələrinin mənafelərini ifadə etməlidir. Dövlətlərin Assambleyada nümayəndələrinin sayı müxtəlifdir (2-dən 18-ə kimi), məsələn: Almaniya, Böyük Britaniya,

İtaliya, Fransa – 18, İspaniya, Polşa, Türkiyə, Ukrayna – 12, Azərbaycan, Avstriya, Bolqarıstan, İsveç, İsveçrə – 6, Andorra, Lixtenşteyn, San-Marino – 2 və s. Hər nümayəndə təmsil etdiyi üzv dövlətin vətəndaşı olmalıdır. 1989-cu ildə Assambleya yeni namizəd dövlətlər üçün Şuraya tam hüquqlu üzv kimi qəbul olunmazdan əvvəl "xüsusi dəvət olunmuş" statusu müəyyən etmişdir. 1996-cı il iyunun 28-də Assambleya bürosunun iclasında Azərbaycanın xüsusi dəvət olunmuş statusu ilə Şuraya qəbul edilməsi barədə qərar çıxarılmışdır. Bundan 5 il sonra isə Azərbaycan Avropa Şurasına tam hüquqlu üzv kimi qəbul olundu. Assambleyanın həftəlik plenar iclasları ildə 4 dəfə Fransanın Strasburq şəhərində Avropa Sarayında keçirilir. Assambleya özünün daxili reqlamentini qəbul edir, öz üzvlərindən sədrini və onun müavinlərini seçir. Sədr və onun müavinləri Assambleya Bürosunu təşkil edir. Sədr Assambleyanın işinə rəhbərlik edir, lakin nə müzakirə, nə də səsvermədə iştirak etmir. Sədrin müavinləri isə iclaslarda iştirak etmək, çıxış etmək və səs vermək hüququna malikdirlər. Assambleya həmçinin Avropa Şurası Baş Katibini, onun müavinini, Avropa İnsan Hüquqları Məhkəməsinin hakimlərini, həmçinin İnsan hüquqları üzrə Komissarı seçir. Nizamnamənin 24-cü maddəsi Assambleyaya hüquq verir ki, öz səlahiyyətlərinə daxil edilmiş istənilən məsələyə baxılması üçün komitələr yaxud komissiyalar təsis etsin. Assambleya, həmçinin ad hoc komitələr də təsis edir. Komitələr tövsiyələrə, rəylərə, yaxud qətnamə təkliflərinə və Assambleyanın, yaxud Daimi Komitənin onlarla məsləhətləşdiyi istənilən başqa məsələyə baxırlar. Onlar həmçinin öz səlahiyyətlərinə daxil olan digər məsələləri də nəzərdən keçirir və onların hesabatları əsasında Assambleyanın qəbul etdiyi qərarların yerinə yetirilməsinə nəzarət edirlər. İki həmməruzəçisi olan Monitorinq Komitəsindən fərqli olaraq, komitələr hər məsələ üzrə bir məruzəçi təyin edirlər. İlk vaxtlar Assambleya ildə bir dəfə bir ay davam edən sessiya keçirirdi. 1957-ci ildə o, bu sessiyanı üç hissəyə bölmək qərarına gəldi, 1994-cü ildə isə bu sessiyalara "yay sessiyası" da əlavə olundu. Başqa sözlə, illik sessiya yanvar, aprel, iyun və sentyabr aylarında keçirilən və orta hesabla bir həftə davam edən dörd altsessiyadan ibarətdir.

107. Avropa Təhlükəsizlik Xartiyası – 1999-cu ildə ATƏT çərçivəsində İstanbulda qəbul edilmiş mühüm beynəlxalq-hüquqi akt. Xartiyada təhlükəsizlik məsələləri ilə yanaşı, insan meyarına da geniş yer ayrılmışdır. Xartiyada ATƏT çərçivəsində qəbul edilmiş təhlükəsizlik konsepsiyasında insan hüquq və əsas azadlıqlarına hörmət edilməsi, demokratiya və qanunun aliliyi mərkəzi yer tutur. Burada xüsusilə milli azlıqlara mənsub

olan şəxslərin hüquqlarının müdafiəsi və onların həyata keçirilməsinə yardım, vətəndaşlıq məsələləri diqqət mərkəzinə çəkilir, işgəncə, eləcə də qəddar və qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftar, etnik təmizləmə qadağan olunur. Sənəddə, eyni zamanda qadın və uşaqların hüquqlarının müdafiəsi məsələlərinə də toxunulmuşdur. Burada qadın və kişi bərabərliyinin həm Təşkilat, həm də dövlət səviyyəsində siyasətin ayrılmaz tərkib hissəsi olması qeyd olunur. Həmçinin qadın və uşaqlara münasibətdə bütün növ ayrı-seçkilik formalarının aradan qaldırılması, onların hüquqlarının həyata keçirilməsinin təmin edilməsi, yetkinlik yaşına çatmayan şəxslərin hərbi münaqişələrdə iştirakının qadağan olunması üçün görülməli olan tədbirlər təsbit olunmuşdur.

108. **Avropa Yerli və Regional Hakimiyyətlər Konqresi** – Avropa Şurasının Nizamnaməsində nəzərdə tutulmayan, lakin Şuranın orqanlarından biri sayılan və hal-hazırda fəaliyyət göstərən məşvərətçi qurum. 1994-cü ildə Şura əvvəllər fəaliyyət göstərən yerli və regional hakimiyyətlərin Avropa daimi konfransının əvəzinə konsultativ orqan qismində Konqresi təsis etmişdir. Konqres üzv dövlətlərə səmərəli yerli və regional hakimiyyət orqanları yaradılmasında köməklik göstərir. Konqres üzv dövlətlərin müvafiq ərazi qurumlarının nümayəndələrindən ibarətdir.

109. **Avropol** (ing. Europol) **–** Avropa İttifaqının hüquq mühafizə agentliyi. Mənzil-qərargahı Niderlandın Haaqa şəhərində yerləşir. Avropolun əsas vəzifəsi beynəlxalq mütəşəkkil cinayətkarlıqla mübarizədə milli polis orqanlarının işinin əlaqələndirilməsi və üzv dövlətlərin polis xidmətləri arasında məlumat mübadiləsinin yaxşılaşdırılmasıdır. Avropolun əsas fəaliyyət istiqamətləri terrorçuluqla, qanunsuz silah və narkotik ticarəti ilə mübarizədir. Avropolun yaradılması 1992-ci il tarixli Maastrixt sazişi ilə nəzərdə tutulmuşdur. Avropolun fəaliyyətini tənzimləyən Konvensiya 1 oktyabr 1998-ci ildə qüvvəyə minmiş və 1 iyul 1999-cu ildən agentlik tam fəaliyyətə başlamışdır. Avropol struktur baxımından 3 böyük departamentdən ibarətdir: əməliyyatlar departamenti, idarəçilik departamenti və imkanlar departamenti. Avropol üzv dövlətlər tərəfindən maliyyələşdirilir. Agentliyin illik büdcəsi təxminən 100 milyon avro təşkil edir.

110. **Avtokratiya** (yun. autokrateia – mütləqiyyət) – bir şəxsə mütləq ali hakimiyyətin məxsus olduğu idarəçilik sistemi.

111. **Avtoritarizm** (lat. autoritas – hakimiyyət) – demokratiya və totalitarizmlə yanaşı, siyasi rejimin formalarından biri. Avtoritar rejimdə hakimiyyət tək bir şəxsin əlində cəmləşir və insan hüquq və azadlıqları, həmçinin müxalif fikir məhdudlaşır.

112. Ayrı-seçkilik – insan hüquq və azadlıqlarının irq, milliyyət, din, dil, cins, mənşə, əqidə, siyasi, sosial mənsubiyyətə və digər əlamətlərə görə məhdudlaşdırılması. Ayrı-seçkilik müasir beynəlxalq hüquqla və demokratik, hüquqi dövlətlərin konstitusiyaları ilə qadağan edilir. Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə əsasən, hamı qanun və məhkəmə qarşısında bərabərdir. Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır. Dövlət irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın 14-cü maddəsinə əsasən, bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlardan istifadə cins, irq, dərinin rəngi, dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya hər hansı digər əlamətlərə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır. Konvensiyaya dair 12 saylı Protokol isə ayrı-seçkiliyi ümumi şəkildə qadağan edir. Protokolun 1-ci maddəsinə uyğun olaraq, qanunla nəzərdə tutulmuş istənilən hüquqdan istifadə cins, irq, rəng, dil, din, siyasi və ya digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya hər hansı digər əlamətlərə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır (həmçinin bax: diskriminasiya).

113. Ayrı-seçkiliyə məruz qalmamaq hüququ – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsinə əsasən, hamı qanun və məhkəmə qarşısında bərabərdir. Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır. Dövlət irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır. Avropa İnsan Hüquqları Konvensiyasının 14-cü maddəsinə əsasən, bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlardan istifadə cins, irq, dərinin rəngi, dil, din, siyasi və digər

baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya digər hər hansı əlamətlərinə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır. Avropa İnsan Hüquqları Konvensiyasına dair 4 noyabr 2000-ci il tarixli 12 saylı Protokol ayrı-seçkiliyi ümumi şəkildə qadağan etmişdir. Protokolun 1-ci maddəsinin 1-ci bəndinə əsasən, qanunla nəzərdə tutulmuş istənilən hüquqdan istifadə cins, irq, rəng, dil, din, siyasi və ya digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya hər hansı digər əlamətlərinə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır. Həmin maddənin 2-ci bəndində qeyd edilir ki, heç kim 1-ci bənddə sadalanan hər hansı əsasa görə hər hansı dövlət hakimiyyəti orqanı tərəfindən ayrı-seçkiliyə məruz qalmamalıdır. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 26-cı maddəsinə əsasən, bütün insanlar qanun qarşısında bərabərdirlər və heç bir ayrı-seçkiliyə yol verilmədən qanunla bərabər müdafiə olunmaq hüququna malikdirlər. Bununla bağlı ayrı-seçkiliyin bütün növləri qanunla qadağan olunmalıdır və qanun istənilən əlamətə: irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, doğuşu və ya digər halları ilə bağlı əlamətlərə görə ayrı-seçkiliyə qarşı bütün şəxslərə bərabər və səmərəli müdafiə təminatı verməlidir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə əsasən, hər bir insan, irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, anadangəlmə mənsubiyyəti və digər vəziyyətlərinə görə heç bir fərq qoyulmadan hazırkı Bəyannamədə bəyan edilən bütün hüquqlara və azadlıqlara malik olmalıdır (maddə 2). Bütün insanlar qanun qarşısında bərabərdirlər və heç bir fərq qoyulmadan qanun tərəfindən bərabər müdafiə olunmaq hüququna malikdirlər. Bütün insanlar, hazırkı Bəyannaməni pozan istənilən ayrı-seçkilik aktından və belə bir ayrı-seçkiliyə hər cür təhrikdən müdafiə olunmaqda bərabər hüquqlara malikdirlər (maddə 7).

114. Azadlıq – insanların idrak və zərurətə yiyələnməsi vasitəsilə nail olduğu real sərbəstlik. Hüquqi kateqoriya kimi azadlıq şəxsin şüurlu müstəqil seçimi əsasında və özünün tələbatlarına, istəklərinə, maraqlarına və qarşıya qoyduğu məqsədlərə müvafiq olaraq qanunla müəyyən edilmiş çərçivədə müəyyən hərəkətlər etmək və ya belə hərəkətləri etməkdən imtina etmək imkanıdır. Dahi fransız hüquqşünası və filosofu Şarl Lui de Monteskyenin (1689-1755) fikrincə, azadlıq yalnız qanunlarla təmin edilə bilər. Mütəfəkkir "Qanunların ruhu haqqında" əsərində (1748) qeyd edir ki, "Azadlıq – qanunla yol verilən hər şeyi etmək hüququdur". 1789-cu il

tarixli İnsan və vətəndaş hüquqları Bəyannaməsində (Fransa) qeyd edilir ki, "Azadlıq – digərinə zərər vurmadan hər şeyi etmək imkanıdır" (maddə 4).

115. **Azadlıqdan məhrum etmə** – cinayət qanunvericiliyində cəza növü. Azadlıqdan məhrum etmə ilə bağlı Azərbaycan Respublikasının Cinayət Məcəlləsində müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə cəzaları nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 55-ci maddəsinə uyğun olaraq, müəyyən müddətə azadlıqdan məhrum etmə məhkumun məntəqə tipli, ümumi, ciddi və xüsusi rejimli cəzaçəkmə müəssisəsinə və ya həbsxanaya yerləşdirilməsi yolu ilə onun cəmiyyətdən təcrid olunmasından ibarətdir. Azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş, lakin hökm çıxarılanadək on səkkiz yaşı tamam olmamış şəxslər ümumi və ya möhkəm rejimli tərbiyə müəssisələrində yerləşdirilirlər. Müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası üç aydan iyirmi ilədək müddətə müəyyən edilir. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 57-ci maddəsinə əsasən, ömürlük azadlıqdan məhrum etmə yalnız sülh və insanlıq əleyhinə, müharibə cinayətləri ilə əlaqədar, şəxsiyyət, ictimai təhlükəsizlik və ictimai qayda və dövlət hakimiyyəti əleyhinə törədilmiş, xüsusilə ağır cinayətlərə görə müəyyən edilir. Ömürlük azadlıqdan məhrum etmə qadınlara, cinayət törədərkən on səkkiz yaşı tamam olmamış şəxslərə, habelə hökm çıxarılanadək altmış beş yaşına çatmış kişilərə təyin edilmir. Məhkəmə ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən məhkumun azadlıqdan məhrum etmənin ən azı iyirmi beş ilini həqiqətən çəkdiyini, həmçinin onun bu cəzanı çəkdiyi müddətdə qəsdən cinayət törətmədiyini nəzərə alaraq və məhkumun həmin cəzanı çəkməsinə daha lüzum olmadığı qənaətinə gələrsə, ömürlük azadlıqdan məhrum etmə cəza növünü müəyyən müddətə azadlıqdan məhrum etmə ilə əvəz edə və ya onu bu cəzadan şərti olaraq vaxtından əvvəl azad edə bilər.

116. **Azadlıq hüququ –** Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikasının Konstitusiyasının 28-ci maddəsinə əsasən, hər kəsin azadlıq hüququ vardır. Azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər. Qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəs sərbəst hərəkət edə bilər, özünə yaşayış yeri seçə bilər və Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilər. Avropa İnsan Hüquqları Konvensiyasının 5-ci maddəsinə

əsasən, hər kəsin azadlıq və şəxsi toxunulmazlıq hüququ vardır. Heç kəs aşağıdakı hallardan və qanunla müəyyən olunmuş qaydadan başqa azadlıqdan məhrum edilə bilməz: səlahiyyətli məhkəmə tərəfindən məhkum olunduqdan sonra şəxsin qanuni həbsə alınması; məhkəmənin qanuni çıxardığı qərarı icra etməməyə görə və ya qanunla nəzərdə tutulmuş hər hansı öhdəliyin icra olunmasını təmin etmək məqsədilə şəxsin qanuni tutulması və ya həbsə alınması; hüquq pozuntusunun törədilməsində əsaslı şübhə ilə bağlı şəxsin səlahiyyətli məhkəmə orqanı qarşısına gətirilməsi məqsədilə və ya onun tərəfindən törədilən hüquq pozuntusunun, yaxud pozuntunu törətdikdən sonra gizlənməsinin qarşısını almaq üçün kifayət qədər zəruri əsaslar olduğunun hesab edildiyi hallarda şəxsin qanuni tutulması və ya həbsə alınması; yetkinlik yaşına çatmamış şəxsin tərbiyə nəzarəti üçün qanuni qərar əsasında həbsə alınması və ya onun səlahiyyətli orqana verilməsi üçün qanuni həbsə alınması; yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaq üçün şəxslərin, habelə ruhi xəstələrin, alkoqolizmə və narkomaniyaya düçar olanların və ya səfillərin qanuni həbsə alınması; şəxsin ölkəyə qanunsuz gəlməsinin qarşısını almaq məqsədilə və ya barəsində deportasiya, yaxud ekstradisiya tədbirləri tətbiq olunan şəxsin qanuni tutulması və ya həbsə alınması. Tutulmuş hər bir kəsə ona aydın olan dildə onun tutulmasının səbəbləri və ona qarşı irəli sürülən istənilən ittiham barədə dərhal məlumat verilir. Tutulmuş və ya həbsə alınmış hər kəs dərhal hakimin və ya qanunla məhkəmə hakimiyyətini həyata keçirmək səlahiyyəti verilmiş digər vəzifəli şəxsin qarşısına gətirilir və ağlabatan müddət ərzində məhkəmə araşdırması və ya məhkəməyə qədər azad edilmək hüququna malikdir. Azad edilmək məhkəməyə gəlmə təminatlarının təqdim edilməsi ilə şərtləndirilə bilər. Tutulma və ya həbsə alınma nəticəsində azadlıqdan məhrum edilmiş hər kəs onun həbsə alınmasının qanuniliyinə məhkəmə tərəfindən təxirə salınmadan baxılması hüququna və əgər onun həbsi məhkəmə tərəfindən qanunsuz hesab edilibsə, azad edilmək hüququna malikdir. Bu maddənin müddəalarının pozulması ilə tutulmağa və ya həbsə alınmağa məruz qalan hər kəsin kompensasiya hüququ var. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 9-cu maddəsinə müvafiq olaraq, hər bir insan azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir. Heç kim özbaşınalıqla həbs edilə və ya həbsdə saxlanıla bilməz. Heç kim qanunla müəyyən edilən əsaslardan başqa və qanuni prosedura uyğun olmadan heç bir halda azadlıqdan məhrum edilməməlidir. Həbs edilən hər bir kəsə həbs zamanı onun həbs olunmasının səbəbləri barədə məlumat verilir və irəli sürülən istə-

nilən ittiham təcili qaydada ona bildirilir. Cinayət ittihamı ilə həbs edilən və ya tutulub saxlanılan hər bir şəxs təcili qaydada məhkəməyə və yaxud məhkəmə hakimiyyətinin həyata keçirilməsinin qanunla həvalə edildiyi digər vəzifəli şəxs qarşısına çıxarılır və ağlabatan müddət ərzində məhkəmə araşdırması və ya azad edilmə hüququna malikdir. Məhkəmə araşdırmasını gözləyən şəxslərin həbsdə saxlanılması ümumi qayda şəklində olmamalıdır; lakin azadlığa buraxılma məhkəməyə gəlməyə, məhkəmə araşdırmasının istənilən mərhələsinə gəlməyə və zəruri halda isə hökmün icrası üçün gəlməyə təminat verilməsindən asılı hala salına bilər. Həbs və ya həbsdə saxlama nəticəsində azadlıqdan məhrum edilən hər kəs işinin məhkəmədə araşdırılması hüququna malikdir ki, bu məhkəmə təxirə salınmadan onun tutulub saxlanılmasının qanuniliyi barədə qərar çıxarsın və ya əgər onun tutulub saxlanılması qanuni deyilsə, azadlığa buraxılmasına dair qərar versin. Qeyri-qanuni həbs və ya həbsdə saxlanılmanın qurbanı olan hər bir kəs iddia qüvvəsində olan kompensasiya hüququna malikdir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə əsasən, heç kəs özbaşınalıqla həbsə, tutulub saxlanılmaya və ya sürgün edilməyə məruz qala bilməz (maddə 9). Hər bir insan, hər bir dövlətin hüdudları daxilində sərbəst hərəkət etmək və özünə yaşayış yeri seçmək hüququna malikdir. Hər bir insan, öz ölkəsi də daxil olmaqla istənilən ölkəni tərk etmək və öz ölkəsinə qayıtmaq hüququna malikdir (maddə 13).

117. Azad sahibkarlıq hüququ – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikasının Konstitusiyasının 59-cu maddəsinə əsasən, hər kəs öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər. Dövlət sahibkarlıq sahəsində yalnız dövlət maraqlarının, insan həyatının və sağlamlığının müdafiəsi ilə bağlı tənzimləməni həyata keçirir.

118. Az ağır cinayətlər – Azərbaycan Respublikası Cinayət Məcəlləsi ilə qəsdən və ya ehtiyatsızlıqdan törədilməsinə görə nəzərdə tutulmuş azadlıqdan məhrum etmə cəzasının yuxarı həddi yeddi ildən artıq olmayan əməllər.

119. Azərbaycan Respublikasında daimi yaşayan – Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə almış əcnəbi və ya vətəndaşlığı olmayan şəxs.

120. **Azərbaycan Respublikasında İnsan Hüquqları Günü** – Ümummilli Lider Heydər Əliyev tərəfindən 1998-ci il iyunun 18-də "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq edildiyi və insan hüquqlarının təmin olunmasının dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edildiyi nəzərə alınaraq, Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış 18 iyun 2007-ci il tarixli Sərəncama müvafiq olaraq, hər il iyunun 18-də qeyd edilən əlamətdar gün.
121. **Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı** – insan hüquqlarının müdafiəsi sahəsində görülən tədbirlərin genişləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş sənəd. Plan insan hüquqlarının müdafiəsinin əsas istiqamətlərini əhatə edir: normativ-hüquqi bazanın təkmilləşdirilməsi sahəsində fəaliyyət, insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlıq, əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsinin gücləndirilməsi sahəsində tədbirlər, dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təmini baxımından təkmilləşdirilməsi sahəsində tədbirlər, insan hüquqları sahəsində tədris, maarifləndirmə, elmi-analitik və əməkdaşlıq tədbirləri.
122. **Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu** – Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsini İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyaya uyğunlaşdırmaq məqsədilə qəbul edilmiş qanunvericilik aktı. Konstitusiya Qanununda insan hüquq və azadlıqlarının həyata keçirilməsinin əsas şərtləri, məhdudlaşdırılması qadağan olunan insan hüquqları, qanun əsasında insan hüquqlarının və azadlıqlarının məhdudlaşdırılmasına dair tələblər, şəxsin tutulmasına, həbsə alınmasına və ya azadlıqdan məhrum edilməsinə qoyulan məhdudiyyətlər, şəxsin insan hüquqlarını və azadlıqlarını pozan qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının qərarlarından, bələdiyyə aktlarından Konstitusiya Məhkəməsinə şikayət vermək hüququ, məhkəmələrin Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ ilə bağlı müddəalar öz əksini tapmışdır. Qanun 24 dekabr 2002-ci ildə qəbul edilmişdir.
123. **Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı** – insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması,

cəmiyyətdə hüquq mədəniyyətinin inkişaf etdirilməsi, normativ-hüquqi bazanın və hüquq müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş sənəd. Çoxşaxəli problemlərin həlli ilə bağlı tədbirlərin həyata keçirilməsini özündə ehtiva edən və 6 fəsil, 75 bənddən ibarət olan Proqram insan hüquqlarının müdafiəsinin səmərəliliyinin artırılmasının əsas istiqamətlərini əhatə edir: normativ-hüquqi bazanın təkmilləşdirilməsi; əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsi; dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi; tədris, elmi-analitik və maarifləndirmə tədbirlərinin həyata keçirilməsi; beynəlxalq təşkilatlarla əməkdaşlıq; Milli Fəaliyyət Proqramının həyata keçirilməsinin əlaqələndirilməsi, monitorinqi və qiymətləndirilməsi. Proqramda hər bir istiqamət üzrə qarşıya qoyulan vəzifələr, onların icrasına məsul qurumlar və icra müddəti təsbit olunmuşdur. Proqramda təsbit olunmuş vəzifələri ümumi xarakterli, konkret hüquqlar və sahələr üzrə qruplaşdırmaq olar. Ümumi xarakterli vəzifələr sırasında Azərbaycan Respublikası qanunları layihələrinin hazırlanması zamanı Azərbaycan Respublikasının Konstitusiyasında və tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilmiş insan hüquq və azadlıqlarının əsas meyar kimi rəhbər tutulması, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin həyata keçirilməsi və qanunvericiliyin beynəlxalq hüquqi sənədlərə uyğunluğunun təmin edilməsi kimi vəzifələri qeyd etmək olar. Konkret hüquqlarla bağlı vəzifələr sırasında mülki və siyasi hüquqlarla bağlı: fikir, söz və ifadə azadlığının daha səmərəli təmini sahəsində diffamasiyaya görə cinayət məsuliyyətinin aradan qaldırılması məqsədilə qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması, kütləvi informasiya vasitələri üçün fikir və ifadə azadlıqlarının həyata keçirilməsi ilə bağlı təlimlərin təşkil edilməsi, İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikası qanunvericiliyinin izahı ilə bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi və informasiya almaq hüququnun səmərəli təmin edilməsi kimi vəzifələri göstərmək olar. Proqramda əhalinin mülkiyyət hüquqlarının təmin edilməsi sahəsində tədbirlərin səmərəliliyinin artırılması ilə bağlı vəzifələr də nəzərdə tutulmuşdur. Mülki və siyasi hüquqlar sırasında mühüm hüquqlardan biri də müraciət etmək hüququdur. Proqramda bu hüququn daha səmərəli təmini və dövlət orqanlarının bu istiqamətdə fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə müasir dövrün tələbləri nəzərə alınmaqla bir sıra mühüm vəzifələr nəzərdə tutulmuşdur.

Belə ki, dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təmin edilməsi, elektron hökumət portalının tam istifadəyə verilməsi, şəxslərin müraciət etmək imkanlarının genişləndirilməsi məqsədilə regional elektron müraciət terminallarının yaradılması, şəxslərin bu terminallardan istifadəsinin təşviq edilməsi kimi vəzifələr Proqramda öz əksini tapmışdır. İqtisadi, sosial və mədəni hüquqların təmini ilə bağlı nəzərdə tutulan vəzifələr sırasında isə işsizlərin əmək bazarında rəqabət qabiliyyətinin artırılması, onların yeni peşələrə yiyələnməsinə yönəlmiş kursların təşkili, işçilərin əmək hüquqlarının müdafiəsinin gücləndirilməsi, istehsalatda və tikintidə əməyin təhlükəsizliyinin təmin edilməsi sahəsində tədbirlərin səmərəliliyinin artırılması, etnik azlıqların mədəni irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsində fəaliyyətin davam etdirilməsi, əhalinin sağlam ətraf mühitdə yaşamaq hüququnun təmini və ətraf mühitin çirkləndirilməsinin qarşısının alınması məqsədilə ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi və digər bu kimi tədbirlər Proqramda təsbit olunmuşdur. Əhalinin müxtəlif kateqoriyalarının hüquqlarına gəldikdə Proqramda bu istiqamətdə mühüm vəzifələr nəzərdə tutulmuşdur. Uşaq hüquqlarının müdafiəsi baxımından nəzərdə tutulan vəzifələr sırasında: uşaqların cinsi istismarının qarşısının alınması məqsədilə cinayət qanunvericiliyin beynəlxalq hüquq standartlarına uyğunlaşdırılması barədə təkliflərin hazırlanması, valideyn məsuliyyətinin artırılması və valideyn vəzifələrini tənzimləyən normativ-hüquqi bazanın təkmilləşdirilməsi, əhali, xüsusilə də uşaq və gənclər arasında sağlam ətraf mühit və sağlam həyat tərzinin geniş təbliği, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların təlim və peşə hazırlığının, onlara göstərilən xidmətlərin (sosial xidmət, inklüziv təhsil və s.) keyfiyyətinin yaxşılaşdırılması məqsədilə xüsusi olaraq tibbi, pedaqoji kadrların və sosial işçilərin hazırlanması, uşaqların tərbiyəsinə, tədrisinə və maarifləndirilməsinə yönəlmiş televiziya proqramlarının hazırlanması, habelə Uşaq Televiziyasının yaradılması imkanlarının araşdırılması, uşaq əməyinə dair müvafiq beynəlxalq konvensiyalardan, həmçinin Beynəlxalq Əmək Təşkilatının sənədlərindən irəli gələn öhdəliklərin yerinə yetirilməsi üzrə tədbirlərin gücləndirilməsi, orta ixtisas və ali təhsil müəssisələrində insan hüquqlarının tədrisinin genişləndirilməsi, ümumtəhsil məktəblərində uşaq hüquqlarının pilləli tədrisinin inkişaf etdirilməsi kimi vəzifələri göstərmək olar. Qadın hüquqlarının müdafiəsi baxımından nəzərdə tutulan vəzifələr sırasında: qadınların əmək bazarında rəqabət qabiliyyətinin artırılması, qadınlar arasında sahibkarlığın inkişaf etdiril-

məsi, qadınlar tərəfindən yeni peşələrin əldə edilməsinə yönəlmiş kursların təşkili, məişət zorakılığına məruz qalmış qadınlar üçün reabilitasiya proqramlarının hazırlanması, qadınlara qarşı zorakılıq, o cümlədən məişət zorakılığı ilə mübarizənin gücləndirilməsi, bu cür zorakılığın qurbanları üçün hüquqi müdafiə vasitələrinin, zəruri kompensasiyanın, reabilitasiyanın, tibbi və psixoloji yardımın təmin olunması kimi vəzifələri göstərmək olar. Məhkum və saxlanılan şəxslərin hüquqlarının müdafiəsi baxımından nəzərdə tutulan vəzifələr sırasında: həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında Azərbaycan Respublikası Qanununun qəbul edilməsi, barəsində həbs qətimkan tədbiri seçilmiş şəxslərin həbsdə saxlanılmasının qanuniliyinin təmin edilməsi məqsədilə Cinayət-Prosessual Məcəlləsinə əlavə və dəyişikliklərin edilməsi, "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın və onun Fakültativ Protokolunun tələblərinin hüquq mühafizə orqanlarının, digər aidiyyəti qurumların əməkdaşları, habelə vəkillər tərəfindən öyrənilməsi işinin təşkil olunması, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə şəraitin və rejimin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi, azadlıqdan məhrum edilmiş şəxslərin beynəlxalq standartlara uyğun saxlanılması məqsədilə yeni penitensiar müəssisələrin inşa edilməsi işinin davam etdirilməsi, şəxsin tutulması, həbs edilməsi, müvəqqəti saxlama yerində və istintaq təcridxanalarında saxlanması zamanı qanunvericiliyin tələblərinin, insan hüquqlarının pozulması, pis rəftar, vəzifədən sui-istifadə və digər bu kimi halların ciddi araşdırılması, qanunvericiliklə nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi kimi vəzifələri göstərmək olar. Proqramda həmçinin əlillərin, ahılların, sahibkarların və əhalinin digər qruplarının hüquqlarının müdafiəsi istiqamətində mühüm vəzifələr nəzərdə tutulmuşdur. Eyni zamanda Proqramda məhkəmə hüquq sisteminin insan hüquqlarının daha səmərəli təmini baxımından təkmilləşdirilməsi istiqamətində mühüm vəzifələr nəzərdə tutulmuşdur. Proqramda insan hüquqları sahəsində tədris, elmi-analitik və maarifləndirmə tədbirləri də nəzərdə tutulmuşdur. Proqramda insan hüquqları sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıqla bağlı mühüm vəzifələr nəzərdə tutulmuşdur ki, bunların da sırasında BMT-nin ixtisaslaşmış qurumları, beynəlxalq regional təşkilatlar, o cümlədən Avropa Şurası, Avropa İttifaqı, ATƏT-lə birgə layihələrin hazırlanması və həyata keçirilməsi, 2012-2013-cü illər üçün Avropa Şurası ilə birgə Fəaliyyət Planının həyata keçirilməsi, BMT-nin "Minilliyin inkişaf

məqsədləri”nin təbliği və həyata keçirilməsi üçün BMT-nin İnsan Hüquqları Şurası ilə səmərəli əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi kimi vəzifələri qeyd etmək olar.

124. **Azərbaycan Respublikasında müvəqqəti olan** – Azərbaycan Respublikasında yaşamaq üçün icazəsi olmayan, turizm, şəxsi iş, xidməti ezamiyyət və sair bu kimi müvəqqəti xarakter daşıyan hallarla əlaqədar Azərbaycan Respublikasına qanuni əsaslarla gəlmiş əcnəbi və ya vətəndaşlığı olmayan şəxs.
125. **Azərbaycan Respublikasında müvəqqəti yaşayan** – Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə almış əcnəbi və ya vətəndaşlığı olmayan şəxs.
126. **Azərbaycan Respublikasının Ailə Məcəlləsi –** Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli, 781-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş sistemləşdirilmiş qanunvericilik aktı. Məcəllə Azərbaycan Respublikası Konstitusiyasında nəzərdə tutulan əsas insan və vətəndaş hüquqlarına və azadlıqlarına uyğun olaraq ailə münasibətlərinin yaranmasının və möhkəmlənməsinin, onlara xitam verilməsinin prinsiplərini, ailə münasibətlərinin iştirakçılarının hüquq və vəzifələrini, dövlət orqanlarının bu sahədə vəzifələrini, habelə vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyat qaydalarını tənzimləyən normaları müəyyən edir. Ailə qanunvericiliyi ailənin möhkəmləndirilməsi zəruriyyətindən, ailə münasibətlərinin qarşılıqlı məhəbbət və hörmət hissləri əsasında qurulmasından, ailənin işinə hər kəsin qarışmasının yolverilməzliyindən, ailə üzvlərinin ailə qarşısında qarşılıqlı yardım və məsuliyyətindən, onların hüquqlarının maneəsiz həyata keçirilməsinin təmin olunmasından və bu hüquqların məhkəmədə müdafiəsi imkanlarından irəli gəlir. Ailə Məcəlləsi nikahın bağlanması, nikaha xitam verilməsi və onun etibarsız sayılması qaydaları və şərtlərini müəyyən edir, ailə üzvləri (ər-arvad, valideynlər və uşaqlar), eləcə də ailə qanunvericiliyində nəzərdə tutulmuş hallarda və həddə başqa qohumlar və digər şəxslər arasında yaranan əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir, habelə valideyn himayəsindən məhrum olan uşaqların tərbiyəyə götürülməsi qaydalarını müəyyən edir.
127. **Azərbaycan Respublikasının Baş prokurorluğu** – Bax: baş prokurorluq.
128. **Azərbaycan Respublikasının Baş prokuroru** – Bax: baş prokuror.
129. **Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi** – Bax: Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi.

130. **Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi –** Azərbaycan Respublikasının 14 iyul 2000-ci il tarixli, 908-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş sistemləşdirilmiş qanunvericilik aktı. Məcəllənin məqsədi məhkumları islah etmək, həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlər törədilməsinin qarşısını almaqdır. Məcəllənin vəzifəsi cəzaların icrası və çəkilməsi, habelə cinayət-hüquqi xarakterli digər tədbirlərin tətbiqi qaydalarını və şərtlərini tənzimləməkdən, məhkumların islah edilmə vasitələrini müəyyən etməkdən, məhkumların hüquq və azadlıqlarını, qanuni mənafelərini qorumaqdan ibarətdir. Cəzaların icrası qanunvericiliyi qanunçuluq, humanizm, demokratizm, məhkumların qanun qarşısında bərabərliyi, cəzaların icrasının fərdiləşdirilməsi, məcburetmə tədbirlərindən və məhkumların islah edilmə vasitələrindən məqsədəuyğun istifadə edilməsi, onlarda qanuna itaətin həvəsləndirilməsi və cəzanın islahedici təsirinin artırılması prinsiplərinə əsaslanır.

131. **Azərbaycan Respublikasının Cinayət Məcəlləsi** – Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il tarixli, 787-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş sistemləşdirilmiş qanunvericilik aktı. Məcəllə Azərbaycan Respublikasının Konstitusiyasına, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarına və prinsiplərinə əsaslanır. Cinayət Məcəlləsinin vəzifələri sülhü və bəşəriyyətin təhlükəsizliyini təmin etməkdən, insan və vətəndaş hüquq və azadlıqlarını, mülkiyyəti, iqtisadi fəaliyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, Azərbaycan Respublikasının konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumaqdan, habelə cinayətlərin qarşısını almaqdan ibarətdir. Məcəllə qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirə görə məsuliyyət, ədalət və humanizm prinsiplərinə əsaslanır.

132. **Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi** – Azərbaycan Respublikasının 14 iyul 2000-ci il tarixli, 907-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş sistemləşdirilmiş qanunvericilik aktı. Cinayət-prosessual qanunvericiliyi cinayətin əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmamasını, cinayəti törətməkdə təqsirləndirilən şəxsin təqsirli olub-olmamasını, habelə cinayət qanunu ilə nəzərdə tutulmuş əməlləri törətməkdə şübhəli və ya təqsirləndirilən şəxsin cinayət təqibinin və müdafiəsinin, hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsinin hüquqi prosedurlarını müəyyən edir. Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi qanunçuluğun, insan və vətəndaş hüquq və azadlıqlarına hörmətin bərqərar olmasına imkan yaradır.

133. **Azərbaycan Respublikasının Əmək Məcəlləsi** – Azərbaycan Respub-

likasının 1 fevral 1999-cu il tarixli, 618-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş sistemləşdirilmiş qanunvericilik aktı. Əmək Məcəlləsi işçilərlə işəgötürənlər arasında yaranan əmək münasibətlərini, habelə onlarla müvafiq dövlət hakimiyyəti orqanları, hüquqi şəxslər arasında həmin münasibətlərdən törəyən digər hüquq münasibətlərini tənzim edir. Məcəllə fiziki şəxslərin əmək hüquqlarının və bu hüquqların həyata keçirilməsini təmin edən qaydaların minimum normalarını müəyyən edir. Əmək Məcəlləsi əmək münasibətlərində tərəflərin hüquq bərabərliyinin təmin edilməsi; mənafelərinin haqq-ədalətlə və qanunun aliliyinin təmin olunması ilə qorunması; maddi, mənəvi, sosial, iqtisadi və digər həyati tələbatlarını ödəmək məqsədilə əqli, fiziki və maliyyə imkanlarından sərbəst istifadə etməsinin təmin edilməsi; əmək münasibətlərinin mülki hüquqi müqavilələrlə rəsmiləşdirilməsinin yolverilməzliyi daha çox əmək müqaviləsi (kontrakt) üzrə öhdəliklərin icrasına hüquqi təminat yaradılması prinsiplərinə əsaslanır.

134. **Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman)** – Azərbaycan Respublikası Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və Azərbaycan Respublikasının dövlət orqanları, bələdiyyələr, habelə dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslər (o cümlədən publik hüquqi şəxslər) və büdcə təşkilatları, onların vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi və Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında Konstitusiya Qanunu ilə müəyyən edilmiş hallarda insan hüquqları pozuntularının qarşısının alınması üçün təsis edilmiş vəzifə. Müvəkkil "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarını həyata keçirir. İşgəncənin və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısını almaq məqsədilə o, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə müntəzəm surətdə və ya zəruri saydığı istənilən halda baş çəkir. Müvəkkil dövlət orqanlarının, bələdiyyələrin, publik hüquqi şəxslərin, onların vəzifəli şəxslərinin "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələri yerinə yetirməsinə nəzarəti həyata keçirir. Müvəkkil "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın və "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin,

bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarını həyata keçirir. Müvəkkil əfv, vətəndaşlıq, siyasi sığınacaq verilməsi məsələlərinin həlli ilə bağlı Azərbaycan Respublikası Prezidentinə təkliflər verə bilər. Müvəkkil Azərbaycan Respublikasının Milli Məclisinə insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə qanunların qəbul edilməsinə, ləğv edilməsinə və ya qanunlarda dəyişikliklər edilməsinə dair təkliflər verə bilər. Müvəkkil Azərbaycan Respublikasının Milli Məclisinə amnistiya elan edilməsi barədə təklif verə bilər. Müvəkkilin məhkəmələrdə süründürməçilik, sənədlərin itirilməsi və vaxtında verilməməsi, habelə məhkəmə qərarlarının icrasının gecikdirilməsi ilə əlaqədar insan hüquqlarının pozulmasına dair şikayətlərə baxmaq hüququ vardır. Müvəkkilin fəaliyyəti aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət, qərəzsizlik prinsipləri əsasında qurulur. Müvəkkili Azərbaycan Respublikası Prezidentinin təqdim etdiyi üç namizəd arasından Azərbaycan Respublikasının Milli Məclisi 83 səs çoxluğu ilə seçir. Yaşı 30-dan aşağı olmayan, ali təhsilli, insan hüquqlarının müdafiəsi sahəsində təcrübəyə və yüksək əxlaqi keyfiyyətlərə malik olan Azərbaycan Respublikasının vətəndaşı Müvəkkil vəzifəsinə seçilə bilər. Müvəkkil 7 il müddətinə seçilir. Eyni şəxs bu vəzifəyə iki dəfədən artıq seçilə bilməz. Müvəkkil müstəqildir və yalnız Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına tabedir. O, Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, hüquqi şəxslərin insan hüquqlarının pozulmasına dair şikayətlərinə baxır.

135. **Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu –** insan hüquqları üzrə müvəkkilin fəaliyyətini tənzimləyən qanunvericilik aktı. Konstitusiya Qanununda İnsan hüquqları üzrə müvəkkilin (ombudsmanın) fəaliyyətinin və təyin edilməsinin əsasları, insan hüquqlarının pozulmasına dair şikayətlərə baxılması və milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi, müvəkkilin fəaliyyətinin təşkili və təminatları ilə bağlı müddəalar öz əksini tapmışdır. 28 dekabr 2001-ci ildə qəbul edilmişdir.

136. **Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi** – Azərbaycan Respublikasının 29 dekabr 2015-ci il tarixli, 96-VQ nömrəli Qanunu ilə təsdiq edilmiş sistemləşdirilmiş qanunvericilik aktı. İnzibati xətalar qanunvericiliyinin vəzifələri insan və vətəndaş hüquqlarını və azadlıqlarını, onların sağlamlığını, əhalinin sanitariya-epidemioloji salamatlığını,

ictimai mənəviyyatı, mülkiyyəti, şəxslərin iqtisadi maraqlarını, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, idarəçilik qaydalarını qorumaqdan, qanunçuluğu möhkəmləndirməkdən və inzibati xətaların qarşısını almaqdan ibarətdir. Bu Məcəllə insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət edilməsi, qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirsizlik prezumpsiyası, ədalətlilik və inzibati xətaların qarşısının alınması prinsiplərinə əsaslanır.

137. **Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi** – Azərbaycan Respublikasının 30 iyun 2009-cu il tarixli, 846-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş sistemləşdirilmiş qanunvericilik aktı. Məcəllə inzibati hüquq münasibətləri ilə bağlı mübahisələrin məhkəmə aidiyyətini, həmin mübahisələrə məhkəmədə baxılmasının və həll edilməsinin prosessual prinsiplərini və qaydalarını müəyyən edir.

138. **Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi** – əsas məqsədləri Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etmək, hər kəsin əsas hüquq və azadlıqlarını müdafiə etməkdən ibarət olan Azərbaycan Respublikasının Konstitusiyası ilə onun səlahiyyətlərinə aid edilmiş məsələlərə dair ali konstitusiya ədalət mühakiməsi orqanı. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 14 iyul 1998-ci ildə təsis edilmişdir. Konstitusiya Məhkəməsinin fəaliyyəti Azərbaycan Respublikası Konstitusiyasının aliliyi, müstəqillik, kollegiallıq və açıqlıq prinsipləri əsasında qurulur. Konstitusiya Məhkəməsi müstəqil dövlət orqanıdır və təşkilati, maliyyə, habelə hər hansı başqa cəhətdən qanunvericilik, icra və digər məhkəmə hakimiyyəti orqanlarından, yerli özünüidarə orqanlarından, habelə hüquqi və fiziki şəxslərdən asılı deyildir. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin I hissəsinə uyğun olaraq Konstitusiya Məhkəməsi 9 hakimdən ibarətdir. Məhkəmə işlərə palataların və Plenumun iclaslarında baxır. Plenumun tərkibinə Konstitusiya Məhkəməsinin bütün hakimləri daxildir. Konstitusiya Məhkəməsinin hakimlərini Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi təyin edir. Hakimlər 15 il müddətinə təyin edilirlər. Hakim vəzifəsinə təkrarən təyin edilə bilməz. Hakimin vəzifədə olmasının yaş həddi 70 yaşdır. Konstitusiya Məhkəməsinin 70 yaşına çatmış hakimi Konstitusiya Məhkəməsinin yeni hakimi təyin olunanadək vəzifələrini icra etməyə davam edir. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinə əsasən, Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respubli-

kası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Prokurorluğunun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sorğusu əsasında aşağıdakı məsələləri həll edir: 1) Azərbaycan Respublikası qanunlarının, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, Azərbaycan Respublikası Milli Məclisinin qərarlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu; 2) Azərbaycan Respublikası Prezidentinin fərmanlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Azərbaycan Respublikası qanunlarına uyğunluğu; 3) Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Azərbaycan Respublikası Prezidentinin fərmanlarına uyğunluğu; 4) Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarlarının qanunda nəzərdə tutulmuş hallarda Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına uyğunluğu; 5) bələdiyyə aktlarının Azərbaycan Respublikası Konstitusiyasına, Azərbaycan Respublikası qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına (Naxçıvan Muxtar Respublikasında həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, qanunlarına və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına) uyğunluğu; 6) Azərbaycan Respublikasının qüvvəyə minməmiş dövlətlərarası müqavilələrinin Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu; Azərbaycan Respublikasının hökumətlərarası müqavilələrinin Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına uyğunluğu; 7) Naxçıvan Muxtar Respublikası Konstitusiyasının, qanunlarının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarlarının və Nazirlər Kabinetinin qərarlarının Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu; Naxçıvan Muxtar Respublikası qanunlarının, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarının Azərbaycan Respublikası qanunlarına uyğunluğu; Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarının Azərbaycan Respublikası Prezidentinin fərmanlarına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına uyğunluğu; 8) qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələr. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin,

Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Prokurorluğunun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sorğusu əsasında Azərbaycan Respublikasının Konstitusiyasını və qanunlarını şərh edir. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin V hissəsinə əsasən, hər kəs onun hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarından, bələdiyyə və məhkəmə aktlarından qanunla müəyyən edilmiş qaydada bu maddənin III hissəsinin 1-7-ci bəndlərində göstərilən məsələlərin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən həll edilməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə pozulmuş insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədilə şikayət verə bilər. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı Azərbaycan Respublikası ərazisində məcburi qüvvəyə malikdir.

139. **Azərbaycan Respublikasının Konstitusiyası** – Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsası. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş, 1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir. 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da ümumxalq səsverməsində (referendumda) əlavələr və dəyişikliklər edilmişdir. Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malikdir. Konstitusiya xalq hakimiyyətinin və dövlətin əsaslarını, əsas insan və vətəndaş hüquqları və azadlıqlarını, vətəndaşların əsas vəzifələrini, dövlət hakimiyyətinin həyata keçirilməsi və mənsubiyyətini, Naxçıvan Muxtar Respublikasının statusunu, yerli özünüidarəetmənin təşkilini, qanunvericilik sistemini, Konstitusiyada dəyişikliklərin və Konstitusiyaya əlavələrin qəbul edilməsi qaydalarını müəyyən edir. Azərbaycan Respublikasının Konstitusiyası preambuladan, 12 fəsildən, 158 maddədən və keçid müddəalarından ibarətdir. Konstitusiyanın 147-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasında ən yüksək hüquqi qüvvəyə malikdir. Konstitusiyanın III fəsli əsas insan və vətəndaş hüquqları və azadlıqlarını ehtiva edir. Konstitusiyanın 24-cü maddəsinə əsasən, insan ləyaqəti qorunur və ona hörmət edilir. Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır. Konstitusiyada bərabərlik hüququ, yaşamaq hüququ, azadlıq hüququ, mülkiyyət hüququ, əqli mülkiyyət hüququ, təhlükəsiz yaşamaq hüququ, şəxsi toxunulmazlıq hüququ, mənzil toxunulmazlığı hüququ, nikah hüququ, əmək hüququ, tətil hüququ, istirahət hüququ, sosial təminat hüququ, sağlam

ətraf mühitdə yaşamaq hüququ, mədəniyyət hüququ, sağlamlığın qorunması hüququ, təhsil hüququ, mənzil hüququ, milli mənsubiyyət hüququ, ana dilindən istifadə hüququ, şərəf və ləyaqətin müdafiəsi hüququ, fikir və söz azadlığı, vicdan azadlığı, sərbəst toplaşmaq azadlığı, məlumat azadlığı, yaradıcılıq azadlığı, vətəndaşlıq hüququ, cəmiyyətin və dövlətin siyasi həyatında iştirak hüququ, dövlətin idarə olunmasında iştirak etmək hüququ, seçki hüququ, müraciət etmək hüququ, birləşmək hüququ, azad sahibkarlıq hüququ, hüquqi yardım almaq hüququ, təqsirsizlik prezumpsiyası hüququ, məhkəməyə təkrar müraciət hüququ, özbaşınalıqdan müdafiə və vicdanlı davranış hüququ, zərərin ödənilməsini tələb etmək hüququ, siyasi sığınacaq hüququ öz əksini tapmışdır. Konstitusiyanın 71-ci maddəsinə uyğun olaraq, Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. Azərbaycan Respublikası ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir.

140. Azərbaycan Respublikasının Mənzil Məcəlləsi – Azərbaycan Respublikasının 30 iyun 2009-cu il tarixli, 845-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş sistemləşdirilmiş qanunvericilik aktı. Mənzil qanunvericiliyi dövlət orqanları və bələdiyyələr tərəfindən vətəndaşların mənzil hüququnun həyata keçirilməsinə şərait yaradılmasına, mənzil təhlükəsizliyinə, onun toxunulmazlığına, əsassız olaraq mənzil hüququndan məhrum etmənin yolverilməzliyinə, mənzil qanunvericiliyi ilə tənzimlənən münasibətlərdən irəli gələn hüquqların maneəsiz həyata keçirilməsi zəruriliyinə, habelə Mənzil Məcəlləsindən, digər qanundan və ya mövcud münasibətlərin məzmunundan başqa hal irəli gəlmirsə, yaşayış sahəsinə sahiblik, ondan istifadə və barəsində sərəncam verilməsi üzrə mənzil qanunvericiliyi ilə tənzimlənən münasibətlərin iştirakçılarının bərabərliyinin tanınması zəruriliyinə, pozulmuş yaşayış hüquqlarının bərpasının, onların məhkəmə müdafiəsinin təmin edilməsi, yaşayış fondunun saxlanmasının və yaşayış sahəsindən təyinatı üzrə istifadənin təmin edilməsi zəruriliyinə əsaslanır.

141. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi – Azərbaycan Respublikasının 2 iyul 2013-cü il tarixli, 713-IVQ nömrəli Qanunu ilə təsdiq edilmiş sistemləşdirilmiş qanunvericilik aktı. Məcəllə Azərbaycan Respublikasında miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, miqrasiya proseslərinin və bu sahədə yaranan münasibətlərin tənzimlənməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan

Respublikasında hüquqi vəziyyəti ilə bağlı normaları müəyyənləşdirir. Azərbaycan Respublikasının miqrasiya qanunvericiliyi insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət, qanunçuluq, qanun qarşısında bərabərlik və ədalətlilik, Azərbaycan Respublikası miqrasiya qanunvericiliyinin hamılıqla tanınan beynəlxalq hüquq normalarına uyğunluğunun təmin edilməsi, miqrasiya proseslərinin tənzimlənməsində innovativ metodların tətbiqi və şəffaflığın təmin edilməsi prinsiplərinə əsaslanır.

142. Azərbaycan Respublikasının Mülki Məcəlləsi – Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli, 779-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş və 26 may 2000-ci il tarixli, 886-IQ nömrəli Qanuna əsasən, 2000-ci il sentyabr ayının 1-dən qüvvəyə minmiş sistemləşdirilmiş qanunvericilik aktı. Məcəllənin məqsədi üçüncü şəxslərin hüquqlarına xələl gətirmədən mülki dövriyyənin azadlığını onun iştirakçılarının bərabərliyi əsasında təmin etməkdir. Məcəllənin vəzifələri mülki hüquq subyektlərinin əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləmək; mülki hüquq subyektlərinin hüquqlarını və qanuni mənafelərini müdafiə etmək; fiziki şəxslərin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu, şəxsi və ailə həyatının, şəxsi toxunulmazlığının müdafiəsi hüququnu qorumaq; mülki dövriyyəni təmin etmək; sahibkarlıq fəaliyyətini dəstəkləmək; sərbəst bazar iqtisadiyyatının inkişafına şərait yaratmaqdan ibarətdir.

143. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi – Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli, 780-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş sistemləşdirilmiş qanunvericilik aktı. Məcəllə Azərbaycan Respublikasının məhkəmələrində mülki işlər və kommersiya mübahisələri üzrə məhkəmə icraatının qaydasını müəyyən edir.

144. Azərbaycan Respublikasının Seçki Məcəlləsi – Azərbaycan Respublikasının 27 may 2003-cü il tarixli, 461-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş sistemləşdirilmiş qanunvericilik aktı. Məcəllə Azərbaycan Respublikası parlamentinin – Milli Məclisin deputatlarının, Azərbaycan Respublikası Prezidentinin və bələdiyyə seçkilərinin, həmçinin ümumxalq səsverməsinin – referendumun təşkili və keçirilməsi qaydalarını müəyyən edir.

B

1. **Barrister –** İngiltərədə vəkillik fəaliyyəti ilə məşğul olan şəxs.
2. **Başa çatmayan cinayət –** cinayətin törədilməsi mərhələsini səciyyələndirən anlayış. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 27.2-ci maddəsinə əsasən, cinayətə hazırlıq və cinayət etməyə cəhd başa çatmayan cinayət hesab olunur.
3. **Başa çatmış cinayət –** konkret cinayət tərkibinin obyektiv və subyektiv əlamətlərinin tam həcmdə mövcud olması ilə xarakterizə olunan əməl. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 27.1-ci maddəsinə əsasən, şəxs tərəfindən törədilmiş əməldə (hərəkət və ya hərəkətsizlikdə) bu Məcəllə ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətləri mövcuddursa, cinayət başa çatmış hesab olunur.
4. **Baş prokuror –** vahid mərkəzləşdirilmiş prokurorluq orqanları sisteminə rəhbərliyi həyata keçirir. Prokurorluq haqqında Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli Qanununa əsasən, Azərbaycan Respublikasının Prokurorluğuna Azərbaycan Respublikasının baş prokuroru rəhbərlik edir. Azərbaycan Respublikasının Baş prokurorunu Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə vəzifəyə təyin və vəzifədən azad edir.
5. **Baş Prokurorluq** – bütün prokurorluq orqanlarının fəaliyyətinə rəhbərlik edən prokurorluğun mərkəzi aparatı. Azərbaycan Respublikasının Baş Prokurorluğuna birinci müavini, müavinləri, böyük köməkçiləri olan Azərbaycan Respublikasının baş prokuroru rəhbərlik edir.
6. **Bern Konvensiyası (Ədəbi və bədii əsərlərin mühafizəsi haqqında 1886-cı il tarixli Konvensiya)** – ədəbi və bədii əsərlərə olan hüquqların daha səmərəli qorunması məqsədilə qəbul edilmiş beynəlxalq-hüquqi akt. 9 sentyabr 1886-cı ildə İsveçrənin Bern şəhərində qəbul edilmişdir. Konvensiyanın ilk iştirakçı dövlətləri Belçika, Almaniya, Fransa, İspaniya, Böyük Britaniya, İsveçrə və Tunis olmuşlar. Konvensiyaya bir neçə dəfə əlavə və dəyişikliklər edilmişdir: 1896-cı ildə Parisdə, 1908-ci ildə Berlində, 1914-cü ildə Berndə, 1928-ci ildə Romada, 1948-ci ildə Brüsseldə, 1967-ci ildə Stokholmda və 1971-ci ildə Parisdə. Konvensiya beynəlxalq əqli mülkiyyət hüququnun bir sıra prinsiplərini müəyyən edir: milli rejim, müdafiənin müstəqilliyi, avtomatik müdafiə və müəllif prezumpsiyası prinsipləri.
7. **Beynəlxalq Bill** – Bax: insan hüquqları haqqında beynəlxalq bill.
8. **Beynəlxalq cinayət** – ayrı-ayrı dövlətlərin hüquq və qanuni mənafeləri-

ni, beynəlxalq səviyyədə tanınmış insan hüquqlarını kobud və ya kütləvi şəkildə pozan, hüquqi tərkibi beynəlxalq hüquq normalarında müəyyən olunmuş, beynəlxalq hüquqa zidd olan əməl.

9. **Beynəlxalq cinayət hüququ –** beynəlxalq ümumi hüququn nisbətən yeni sahəsi olub, beynəlxalq cinayətlərə görə fiziki şəxslərin cinayət məsuliyyətini müəyyən etmək yolu ilə beynəlxalq hüquq qaydasını cinayət əməllərindən qorumaq məqsədilə yaradılan prinsip və hüquq normalarının məcmusu.
10. **Beynəlxalq Cinayət Məhkəməsi** – daimi əsasda fəaliyyət göstərən ilk ixtisaslaşmış beynəlxalq cinayət ədalət mühakiməsi orqanı. 17 iyul 1998-ci ildə qəbul edilmiş və 1 iyul 2002-ci ildə qüvvəyə minmiş Roma Statutuna əsasən yaradılmışdır. Məhkəmə milli cinayət ədalət mühakiməsi sistemlərini tamamlayan daimi orqan olub beynəlxalq birliyi narahat edən ən ağır cinayətlərə görə məsul olan şəxslər barəsində yurisdiksiyanı həyata keçirir. Məhkəmə genosid cinayəti, insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və təcavüz cinayətinə münasibətdə yurisdiksiyaya malikdir. Məhkəmə beynəlxalq hüquq subyektliliyinə malikdir. Məhkəmənin olduğu yer Niderlandın Haaqa şəhəridir.
11. **Beynəlxalq ədalət mühakiməsi –** beynəlxalq hüququn subyektləri tərəfindən yaradılan ixtisaslaşmış beynəlxalq məhkəmə orqanları tərəfindən həyata keçirilən hüquqtətbiqetmə fəaliyyətinin xüsusi növü.
12. **Beynəlxalq Əmək Təşkilatı (ILO) –** BMT-nin sosial ədaləti, insan hüquqlarını, xüsusilə də əmək hüquqlarını təşviq edən ixtisaslaşmış agentliyi. Beynəlxalq Əmək Təşkilatı (BƏT) 1919-cu ildə Versal sülh müqaviləsinin əsasında Millətlər Liqasının struktur bölməsi kimi təsis edilmişdir. 1946-cı ildə BMT-nin ilk ixtisaslaşmış agentliyi olmuşdur. 1969-cu ildə, yaranmasının 50 illiyində BƏT Nobel Sülh Mükafatına layiq görülmüşdür. BƏT iş və yaşayış şərtlərini yaxşılaşdırmağa kömək etmək üçün proqramlar hazırlayır, bu proqramların həyata keçirilməsində milli orqanlar üçün tövsiyələr qismində beynəlxalq əmək standartlarını müəyyən edir, hökumətlərə kömək etmək üçün geniş texniki əməkdaşlıq proqramları həyata keçirir. BƏT beynəlxalq təşkilatlar arasında fərqləndirici, unikal bir xüsusiyyətə malikdir, belə ki, bu təşkilatda işçilərin və işəgötürənlərin nümayəndələri siyasətlərin formalaşdırılmasında hökumətlərlə bərabər səsə malikdirlər. Təşkilatın ali orqanı Beynəlxalq Əmək Konfransıdır. BƏT-in bütün aktları məhz bu Konfransda qəbul olunur. Konfrans hər il üzv dövlətlərdən hökumət, işəgötürən müəssisələrin və işçilərin nümayəndələrini bir araya gətirir. Konfrans beynəlxalq

əmək standartlarını müəyyən edir və bütün dünya üçün əhəmiyyət kəsb edən sosial və əmək problemlərinin müzakirə olunduğu forum qismində fəaliyyət göstərir. Təşkilatın icra orqanı İnzibati Şuradır. Şura BƏT-in fəaliyyətini istiqamətləndirir, proqram və büdcəni hazırlayır, BƏT-in standartlarına riayət olunmama hallarını araşdırır. Təşkilatın katibliyi funksiyasını Beynəlxalq Əmək Bürosu icra edir. Mənzil qərargahı Cenevrədə (İsveçrə) yerləşir.

13. **Beynəlxalq humanitar hüquq** – silahlı münaqişələr zamanı tətbiq olunan, döyüş aparılmasının müəyyən üsul və metodlarının tətbiqini qadağan edən, yaxud məhdudlaşdıran və silahlı münaqişə dövründə fərdin hüquqlarının qorunmasına yönələn beynəlxalq hüquq normalarının məcmusu.
14. **Beynəlxalq Hüquq Akademiyası** – beynəlxalq tədris və elmi-tədqiqat mərkəzi. Akademiyanın yaradılması ideyası 1907-ci il Haaqa Konfransında irəli sürülmüşdür. Əsası 1914-cü ildə qoyulmuşdur. Əsas məqsədi beynəlxalq ümumi hüquq və beynəlxalq xüsusi hüquq sahəsində elmi araşdırmalar aparmaqdan ibarətdir. İşçi dilləri ingilis və fransız dilləridir. Akademiyanın yerləşdiyi yer Haaqa şəhəridir (Niderland).
15. **Beynəlxalq Hüquq Assosiasiyası** – beynəlxalq qeyri-hökumət elmi təşkilatı. Əsası 1873-cü ildə Brüsseldə (Belçika) qoyulmuşdur. Təşkilat BMT-nin İqtisadi və Sosial Şurası (ECOSOC) və UNESCO yanında məsləhətçi statusa malikdir. Təşkilatın əsas məqsədi beynəlxalq hüququn məcəllələşdirilməsi və mütərəqqi inkişafına yardım göstərmək, beynəlxalq hüquq sahəsində fundamental elmi araşdırmaları dəstəkləməkdən ibarətdir. Təşkilatın tərkibinə 50-dən artıq milli bölmə, həmçinin beş mindən çox fərdi üzv daxildir. Təşkilatın üzvləri, əsas etibarilə beynəlxalq hüquq sahəsində tanınmış alimlər, siyasi xadimlər və diplomatlardır. Təşkilatın ali orqanı iki ildən bir çağırılan Konfransdır. Assosiasiyanın əsas inzibati orqanı İcra Şurasıdır. Şuraya Konfrans tərəfindən iki il müddətinə seçilən prezident rəhbərlik edir. Assosiasiyanın işinə rəhbərlik baş katib tərəfindən həyata keçirilir. Assosiasiyanın nəzdində on daimi komitə fəaliyyət göstərir. Mənzil-qərargahı Londonda (Böyük Britaniya) yerləşir.
16. **Beynəlxalq hüquqi adət** – beynəlxalq praktikada təşəkkül tapmış və məcburi norma kimi tanınmış davranış qaydası. Beynəlxalq hüquqi adətin əsas əhəmiyyəti ondan ibarətdir ki, o, hər hansı bir universal müqavilə iştirakçıları ilə bu müqavilənin iştirakçısı olmayan dövlətlər arasındakı və sonuncuların özləri arasındakı müvafiq münasibətləri nizama salır.
17. **Beynəlxalq-hüquqi məsuliyyət** – beynəlxalq hüquq pozuntusu nəticə-

sində digər dövlətə və ya dövlətlərə (yaxud beynəlxalq hüququn başqa subyektlərinə) vurulmuş zərərin nəticələrini aradan qaldırmaq üzrə vəzifə. Dövlətin beynəlxalq məsuliyyəti onun beynəlxalq hüquqi öhdəliyinin pozulmasına görə ortaya çıxır. Beynəlxalq məsuliyyətin faktik əsasını beynəlxalq hüquq pozuntusu təşkil edir. Beynəlxalq hüquqi məsuliyyətin iki növü fərqləndirilir: siyasi məsuliyyət və maddi məsuliyyət. Beynəlxalq təşkilatların məsuliyyəti onların orqanlarının və ya vəzifəli şəxslərinin əməlləri nəticəsində dövlətlərə, digər beynəlxalq təşkilatlara və fiziki şəxslərə vurulan zərərə görə ortaya çıxır.

18. **Beynəlxalq hüquq normaları** – dövlətlər və beynəlxalq hüququn digər subyektləri arasındakı qarşılıqlı münasibətləri nizama salan ümumməcburi davranış qaydaları. Beynəlxalq hüquq normaları dövlətlərin qarşılıqlı razılığı əsasında yaranır.
19. **Beynəlxalq hüququn əsas prinsipləri** – beynəlxalq hüquq sisteminin normativ-hüquqi əsasını təşkil edən, dünyanın bütün dövlətləri üçün hüquqi cəhətdən məcburi xarakter daşıyan beynəlxalq hüququn ən ümumi və ən mühüm normaları. Bu prinsiplər ən yüksək hüquqi qüvvəyə malik olan imperativ jus cogens normalarıdır. Beynəlxalq hüququn əsas prinsipləri bir-biri ilə üzvi surətdə bağlıdır və bir-birini şərtləndirir. Bu prinsiplər aşağıdakılardır: güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi; beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi; dövlətin daxili yurisdiksiyasında olan işlərə qarışmamaq prinsipi; dövlətlərin BMT Nizamnaməsinə uyğun olaraq bir-biri ilə əməkdaşlıq etmək prinsipi; xalqların hüquq bərabərliyi və özünümüəyyənetmə prinsipi; dövlətlərin suveren bərabərlik prinsipi; dövlətlərin BMT Nizamnaməsinə uyğun olaraq öz üzərlərinə götürdükləri öhdəlikləri vicdanla yerinə yetirməsi prinsipi; sərhədlərin toxunulmazlığı prinsipi; dövlətlərin ərazi bütövlüyü prinsipi; əsas insan hüquq və azadlıqlarına hörmət edilməsi prinsipi.
20. **Beynəlxalq hüququn mənbələri** – beynəlxalq hüquq normalarının ifadə forması. Beynəlxalq hüququn əsas mənbələri qismində beynəlxalq müqavilələr, beynəlxalq təşkilatların qətnamələri, beynəlxalq hüquqi adətlər, hüququn ümumi prinsipləri, beynəlxalq məhkəmə orqanlarının qərarları və tanınmış alimlərin rəyləri çıxış edir.
21. **Beynəlxalq hüququn subyekti** – beynəlxalq hüquqdan irəli gələn hüquq və vəzifələri daşımaq və onları həyata keçirmək qabiliyyətinə malik olan qurum, yaxud şəxs.
22. **Beynəlxalq xüsusi hüquq –** qeyri-dövlət xarakterli beynəlxalq münasibətləri, əcnəbi fiziki və ya hüquqi şəxsin iştirak etdiyi mülki-hüquqi və

ona yaxın olan münasibətləri nizama salan hüquq normalarının məcmusu.

23. **Beynəlxalq İnsan Hüquqları Günü –** Bax: İnsan Hüquqları Günü.
24. **Beynəlxalq insan hüquqları hüququ** – insan hüquqlarının müdafiəsi sahəsində ümumi standartlar müəyyənləşdirən və bu standartların dövlətlər tərəfindən yerinə yetirilməsinə nəzarət məqsədilə xüsusi mexanizmlər müəyyən edən hüquq normalarının məcmusu.
25. **Beynəlxalq Qızıl Xaç Komitəsi (ICRC) –** silahlı münaqişələrin qurbanlarına yardım göstərən müstəqil beynəlxalq humanitar təşkilat. 24 iyun 1863-cü ildə İsveçrədə əsası qoyulmuşdur. Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) beynəlxalq hökumətlərarası təşkilat statusuna malik deyil. Lakin buna baxmayaraq 1949-cu il Cenevrə konvensiyaları və onların əlavə protokolları Komitəyə humanitar missiyanın həyata keçirilməsi sahəsində bir sıra mühüm səlahiyyətlər verir. BQXK beynəlxalq humanitar hüququn məcəllələşdirilməsi və mütərəqqi inkişafına və bu hüquq sahəsinin təbliği işinə mühüm töhfələr vermişdir. Səmərəli fəaliyyətinə görə BQXK üç dəfə Nobel Sülh Mükafatına layiq görülmüşdür (1917, 1944 və 1963-cü illərdə). Komitənin ali idarəetmə orqanı Assambleyadır. Komitənin işinə cari rəhbərliyi təşkilatın prezidenti həyata keçirir. Təşkilatın fəaliyyətinin əsas prinsipləri humanistlik, qərəzsizlik, neytrallıq, müstəqillik, könüllülük, birlik və universallıqdır. Mənzil-qərargahı Cenevrədə yerləşir (İsveçrə).
26. **Beynəlxalq Məhkəmə –** Bax: Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Məhkəməsi.
27. **Beynəlxalq Miqrasiya Təşkilatı –** miqrasiya sahəsində beynəlxalq hökumətlərarası təşkilat. 1951-ci ildə yaradılmışdır. Əsas məqsədi miqrasiya proseslərinin idarə edilməsi, həmçinin insan alveri ilə mübarizədir. Dörd aparıcı istiqamət üzrə fəaliyyət göstərir: miqrasiya və inkişaf, miqrasiyaya yardım, miqrasiyanın tənzimlənməsi və məcburi miqrasiya. Mənzil-qərargahı Cenevrədə (İsveçrə) yerləşir.
28. **Beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi** – BMT-nin Nizamnaməsində öz əksini tapmış beynəlxalq hüququn ümumtanınmış prinsiplərindən biri. Nizamnamənin 2-ci maddəsinə görə, BMT-nin bütün üzvləri öz beynəlxalq mübahisələrini dinc vasitələrlə o qaydada həll edirlər ki, beynəlxalq sülh və təhlükəsizlik, həmçinin ədalət təhlükəyə məruz qalmasın. Beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipinin məzmunu dövlətlərin aşağıdakı hüquq və öhdəliklərində öz ifadəsini tapır: 1. dövlətlər öz mübahisələrini, onların xarakterindən və mənşəyin-

dən asılı olmayaraq, yalnız və yalnız dinc vasitələrlə həll etməlidirlər; 2. dövlətlər öz mübahisələrini həll edərkən dinc vasitələrdən hər hansı birini seçmək hüququna malikdirlər. Lakin dövlətlər əvvəlcədən konkret beynəlxalq müqavilədə hər hansı nizamlama vasitəsinə razılaşa bilərlər; 3. dövlətlər öz aralarında olan mübahisəni həll olunmaq üçün hər hansı üçüncü tərəfə təqdim etməyə məcbur oluna bilməzlər. Lakin bu norma beynəlxalq sülhə və təhlükəsizliyə təhlükə yarada bilən mübahisələrə aid deyildir; 4. dövlətlər aralarında olan mübahisənin kəskinləşməsinə səbəb ola bilən hərəkətlərdən çəkinməlidirlər. Mübahisənin həllini çətinləşdirə bilən, beynəlxalq sülhə və təhlükəsizliyə təhlükə yarada bilən, habelə mübahisənin tərəflərindən birinin vəziyyətini pisləşdirə bilən hərəkətlər qadağan olunur; 5. dövlətlər öz mübahisələrini beynəlxalq hüquq və ədalət əsasında həll etməlidirlər.

29. **Beynəlxalq müqavilə** – iki və ya daha artıq dövlət yaxud beynəlxalq hüququn digər subyektləri arasında bağlanan, qarşılıqlı beynəlxalq hüquq və vəzifələr müəyyən edən razılaşma. Beynəlxalq müqavilələr vasitəsilə dövlətlər və habelə beynəlxalq hüququn digər subyektləri, məsələn, beynəlxalq təşkilatlar öz aralarında ortaya çıxan müxtəlif xarakterli məsələləri həll edirlər. Dövlət yalnız öz razılığı ilə hər hansı beynəlxalq müqavilənin iştirakçısı ola bilər. Beynəlxalq müqavilə yalnız onun iştirakçıları üçün hüquq və öhdəliklər yaradır.
30. **Beynəlxalq müqavilələr hüququ** – beynəlxalq müqavilələrin bağlanması, icrası və xitam olunması qaydasını nizama salan beynəlxalq hüquq normalarının məcmusu.
31. **Beynəlxalq Ombudsmanlar İnstitutu** – 1978-ci ildə 150-dən çox ombudsman institutlarının əməkdaşlığı məqsədilə təsis edilmiş beynəlxalq qeyri-hökumət təşkilatı. İnstitutun əsas məqsədi bütün üzvləri arasında ünsiyyətə və əməkdaşlığa yardımçı olmaqdır. Beynəlxalq Ombudsmanlar İnstitutu altı regionu əhatə edir: Afrika, Asiya, Avstraliya və Okeaniya, Avropa, Karib hövzəsi, Latın Amerikası və Şimali Amerika. Təşkilatın 3 işçi dili var: ingilis, fransız və ispan dilləri. Təşkilatın mənzil-qərargahı Vyanada (Avstriya) yerləşir.
32. **Beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipi** – BMT-nin Nizamnaməsində öz əksini tapmış beynəlxalq hüququn ümumtanınmış prinsiplərindən biri. Nizamnamənin 2-ci maddəsinə görə, BMT-nin bütün üzvləri Təşkilata üzvlükdən irəli gələn hüquq və üstünlükləri özlərinə təmin etmək üçün bu Nizamnaməyə uyğun olaraq öz üzərlərinə götürdükləri öhdəlikləri vicdanla yerinə yetirirlər. Bu prinsip habelə Beynəlxalq

müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasında öz əksini tapmışdır. Bu mühüm prinsipin əsas mahiyyəti ondan ibarətdir ki, dövlətlər BMT Nizamnaməsinə uyğun olaraq öz üzərlərinə götürdükləri bütün öhdəlikləri, o cümlədən beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarından, beynəlxalq müqavilələrdən və beynəlxalq hüququn digər mənbələrindən irəli gələn öhdəlikləri yerinə yetirməlidirlər. Beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipi pacta sunt servanda (müqavilələr yerinə yetirilməlidir) formulasında ifadə olunur.

33. **Beynəlxalq Paktlar –** Bax: Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt; bax: İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt.
34. **Beynəlxalq sanksiyalar –** beynəlxalq öhdəliyini pozan və beynəlxalq hüquqazidd əməl törədən dövlətə qarşı tətbiq edilən hüquqi məcburi neqativ nəticələr.
35. **Beynəlxalq terror fəaliyyəti –** terrorçular və ya terror təşkilatları tərəfindən bir neçə dövlətin ərazisində həyata keçirilən və ya bir neçə dövlətin maraqlarına zərər vura bilən, şəxs tərəfindən onun mənsub olduğu dövlətin və ya başqa bir dövlətin ərazisində hər hansı bir dövlətin vətəndaşına qarşı edilən, terrorçu və terrorçuluğa məruz qalan şəxslər eyni və ya müxtəlif dövlətlərin vətəndaşları olduqları halda, həmin dövlətlərin ərazisindən kənarda törədilən cinayətlə bağlı olan fəaliyyət.
36. **Beynəlxalq təşkilat** – müəyyən məqsədləri həyata keçirmək üçün beynəlxalq müqavilə əsasında yaradılan, daimi əsasda fəaliyyət göstərən, müvafiq orqanlar sisteminə malik olan, üzv-dövlətlərin hüquq və öhdəliklərindən fərqli hüquq və vəzifələrə malik olan dövlətlər birliyi.
37. **Beynəlxalq təşkilatlar hüququ** – dövlətlərarası təşkilatların statusunu, strukturunu, onların orqanlarının səlahiyyətlərini və fəaliyyət qaydasını nizama salan hüquq normalarının məcmusu.
38. **Beynəlxalq tribunal (ad hoc beynəlxalq hərbi tribunal)** – beynəlxalq məhkəmə orqanlarının növlərindən biri. Beynəlxalq tribunallar müxtəlif vaxtlarda ağır beynəlxalq cinayətlər törətmiş şəxsləri mühakimə etmək məqsədilə təsis olunmuşdur.
39. **Beynəlxalq ümumi hüquq (beynəlxalq hüquq) –** dövlətlər və beynəlxalq hüququn digər subyektləri arasındakı münasibətləri nizama salan hüquq normalarının məcmusu.
40. **Bələdiyyə** (ərəb. şəhər idarəsi) **–** yerli özünüidarə orqanı. Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının 2 iyul 1999-cu il tarixli Qanununa görə, bələdiyyə – qanunla müəyyən edilmiş ərazi hüdudları

daxilində yerli özünüidarəetmə formasıdır. Bələdiyyənin öz mülkiyyəti və yerli büdcəsi olur və o, Azərbaycan Respublikasının Konstitusiyası ilə və bu qanunla səlahiyyətlərinə aid edilmiş yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edir. Bələdiyyələr bərabərlik əsasında qurulur və fəaliyyət göstərirlər.

41. **Bələdiyyə hüququ –** yerli özünüidarənin təşkilini və bununla bağlı münasibətləri tənzimləyən hüquq normalarının məcmusu.
42. **Bələdiyyə qulluğu –** yerli özünüidarə orqanlarının səlahiyyətlərini icra etmək üçün həmin orqanlarda daimi peşə fəaliyyəti.
43. **Bələdiyyə qulluğu haqqında Azərbaycan Respublikasının Qanunu –** bələdiyyə qulluğu ilə bağlı münasibətləri və Azərbaycan Respublikasında bələdiyyə qulluqçularının hüquqi vəziyyətini tənzimləyən qanunvericilik aktı. 30 noyabr 1999-cu ildə qəbul edilmişdir.
44. **Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının Qanunu –** Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq yerli özünüidarəni həyata keçirən bələdiyyələrin yaradılması prinsiplərini, rolunu, yerli özünüidarənin hüquqi, iqtisadi və maliyyə əsaslarını, onun həyata keçirilməsi üçün dövlət təminatlarını müəyyənləşdirən qanunvericilik aktı. 2 iyul 1999-cu ildə qəbul edilmişdir.
45. **Bələdiyyə mülkiyyəti –** bələdiyyəyə mənsub olan bütün növ daşınar və daşınmaz əmlak.
46. **Bələdiyyə orqanları –** səlahiyyətləri çərçivəsində yerli əhəmiyyətli məsələləri həll etmək üçün bələdiyyə qulluğunun təşkili məqsədilə bələdiyyə tərəfindən yaradılan və dövlət orqanları sisteminə daxil olmayan orqanlar.
47. **Bələdiyyə orqanlarının vəzifəli şəxsi –** yerli özünüidarə orqanlarında təşkilatçılıq-sərəncamçılıq funksiyalarını yerinə yetirən və dövlət qulluqçuları kateqoriyasına aid olmayan, kontrakt (əmək müqaviləsi) üzrə işləyən şəxs.
48. **Bərabərlik hüququ** – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə əsasən, hamı qanun və məhkəmə qarşısında bərabərdir. Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır. Dövlət irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və

vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır. Həmçinin bax: Ayrı-seçkiliyə məruz qalmamaq hüququ.

49. **Bərabər seçki hüququ** – vətəndaşların seçkilərdə və referendumda bərabər əsaslarla iştirak etməsi. Azərbaycan Respublikasının Seçki Məcəlləsinə əsasən, hər bir səsvermə zamanı hər bir vətəndaşın bir səsi vardır. Vətəndaşların hər bir səsi eyni hüquqi qüvvəyə malikdir.

50. **Biqamiya** (lat. bi – iki, yun. gamos – nikah) – ikinikahlılıq.

51. **Bilik cəmiyyətləri** – XX əsrin 90-cı illərindən başlayaraq "bilik" və "informasiya" anlayışlarının fərqinə diqqətin artması artıq "informasiya cəmiyyəti"nin "bilik cəmiyyətləri" ifadəsi ilə əvəz olunması ideyasını formalaşdırdı. Bu ideya ilk dəfə UNESCO-nun 2005-ci il hesabatında səsləndirilmişdir. Belə ki, həmin hesabatda artıq informasiya cəmiyyətindən bilik cəmiyyətlərinə keçid dövrünün gəlib çatdığı qeyd olunur. Hesabata əsasən, bilik cəmiyyətləri elə bir cəmiyyətlərdir ki, onların mənbəyini fərdi müxtəliflik və fərdi bacarıqlar təşkil edir. İnformasiya cəmiyyəti texnologiyanın nailiyyətlərinə əsaslanır. Bilik cəmiyyətləri isə daha geniş sosial, etik və siyasi parametrləri əhatə edir. Bu cəmiyyətlərin məhz cəm şəklində qeyd olunması təsadüfi hal deyil. Belə təqdimatda əsas məqsəd onu vurğulamaqdır ki, dünyada mədəni və dil müxtəlifliyini əks etdirən vahid model yoxdur. İstənilən cəmiyyətin qurulması müxtəlif bilik və mədəni formaları ehtiva edir və bu formalara müasir elmi-texniki inkişaf öz təsirini göstərir. İnformasiya texnologiyaları və kommunikasiyaları sahəsində inqilabların dar texnoloji determinizm və fatalizm məntiqi çərçivəsində vahid cəmiyyət formalaşdırması məsələsini məqbul saymaq olmaz. Belə ki, internet və multimedia vasitələrinin imkanlarından istifadə mətbuat, radio, televiziya və ən əsası, məktəb kimi vacib alətlərdən uzaqlaşmağa məcbur etməməlidir. Dünya əhalisinin əksəriyyəti kitablara, dərs vəsaitlərinə, savadlı pedaqoqlara ehtiyac duyur. Ona görə də ayrı-ayrı qrupların müxtəlif dil və mədəni keyfiyyətləri əsasında yaratdığı bilik cəmiyyətləri həm bu müxtəlifliyin digər bilik cəmiyyətlərində tanınmasına, həm də həmin bilik cəmiyyətlərinin öz bilik və bacarıqlarının dərkinə gətirib çıxaracaqdır. Bilik cəmiyyətlərində sosial biganəlik mövcud olmur, çünki burada bilik ictimai xarakter daşıdığı üçün hər kəs üçün əlçatan olur. Məhz bu səbəbdən də UNESCO-nun hesabatında bilik cəmiyyətlərinin rəqəmsal bərabərsizliyi aradan qaldıracağı xüsusi vurğulanır.

52. **Bill** (ing. bill, lat. billa, bulla – dəyirmi) – ABŞ, Kanada, Böyük Britaniya

və ingilis-sakson hüquq ailəsinə daxil olan digər ölkələrdə qanun layihəsinin adı.

53. **Bioetika** (yun. bios – həyat, ethike – rəftar, davranış) – təbabətdə və biologiyada insan fəaliyyətinin mənəvi tərəfi haqqında təlim. Bioetika biotəbabətin inkişafı və səhiyyədə yeni texnologiyaların tətbiqi ilə əlaqədar yaranan yeni elmi-tədqiqat sahəsidir. Bioetika biotəbabət elminin sürətli inkişafının insanın mənəvi və fiziki rifahı üçün doğurduğu təhlükələrə cavab olaraq meydana gələn mürəkkəb mədəni fenomendir. Bioetikanın mərkəzində insanın mövcudluğunu şərtləndirən fundamental mənəvi dəyərlərin müdafiəsi dayanır. Bioetikanı sürətlə inkişaf edən sosial institut kimi, müəyyən mənada, həm də səhiyyə sahəsində hüquq müdafiə hərəkatının bir hissəsi kimi nəzərdən keçirmək olar. Evtanaziya, orqanların transplantasiyası, abort, klonlaşdırma, yeni dərman vasitələrinin və vaksinlərin klinik sınağı, surroqat analıq, pasiyentlərin hüquqlarının müdafiəsi, təbiətlə əlaqələr, insanlar və heyvanlar üzərində elmi sınaqların həyata keçirilməsi, gen mühəndisliyi və bununla bağlı digər sahələr bioetikanın öyrəndiyi problemlər sırasındadır.

54. **Biosid** (yun. bios – həyat, lat. caedere – öldürmək; hərf. həyatın məhv edilməsi) – kütləvi qırğın silahı vasitəsilə insanların və canlı aləmin kütləvi şəkildə məhv edilməsini nəzərdə tutur.

55. **Bipatrid** (lat. bis – ikili və yun. patrida – vətən) – iki və ya daha artıq vətəndaşlığı olan şəxs. Azərbaycan Respublikasının vətəndaşlığı haqqında Azərbaycan Respublikasının 30 sentyabr 1998-ci il tarixli Qanununa əsasən, Azərbaycan Respublikasının vətəndaşı olan şəxsin ikili vətəndaşlığı olduqda (Azərbaycan Respublikası vətəndaşlığı ilə yanaşı, digər dövlətin (dövlətlərin) vətəndaşı olduqda) həmin şəxsin xarici dövlətin vətəndaşlığına mənsubiyyəti, Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş və ya Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə müvafiq surətdə həll edilmiş hallar istisna olmaqla tanınmır. Xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı bir ay müddətində bu barədə müvafiq icra hakimiyyəti orqanına yazılı məlumat verməlidir (maddə 10).

56. **Bipatrizm** – şəxsin iki və ya daha artıq vətəndaşlığının olması ilə xarakterizə olunan hüquqi vəziyyət.

57. **Birbaşa seçki hüququ** – vətəndaşların seçkilərdə şəxsən səs verməsi. Azərbaycan Respublikasının Seçki Məcəlləsinə əsasən, vətəndaşlar seçkilərdə namizədin lehinə, referenduma çıxarılan məsələnin lehinə və ya

əleyhinə şəxsən səs verirlər. Başqa şəxslərin yerinə səs vermək qadağandır. Başqalarının əvəzinə səs verən və ya bunun üçün şərait yaradan vətəndaşlar Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və ya İnzibati Xətalar Məcəlləsində göstərilən məsuliyyətə cəlb olunurlar.

58. **Birləşmək hüququ** – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 58-ci maddəsinə əsasən, hər kəsin başqaları ilə birləşmək hüququ vardır. Hər kəs istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququna malikdir. Bütün birliklərin sərbəst fəaliyyətinə təminat verilir. Heç kəs hər hansı birliyə daxil olmağa və onun üzvlüyündə qalmağa məcbur edilə bilməz. Azərbaycan Respublikasının bütün ərazisində və ya hər hansı hissəsində qanuni dövlət hakimiyyətini zorla devirmək məqsədi, cinayət hesab edilən digər məqsədlər güdən və ya cinayətkar üsullardan istifadə edən birliklər qadağandır. Konstitusiyanı və qanunları pozan birliklərin fəaliyyətinə yalnız məhkəmə qaydasında xitam verilə bilər. Avropa İnsan Hüquqları Konvensiyasının 11-ci maddəsinə əsasən, hər kəsin dinc toplaşmaq azadlığı və öz maraqlarını müdafiə etmək üçün həmkarlar ittifaqları yaratmaq və onlara qoşulmaq hüququ da daxil olmaqla, başqaları ilə birləşmək azadlığı hüququ vardır. Bu hüquqların həyata keçirilməsinə milli təhlükəsizlik və ictimai asayiş maraqları naminə, iğtişaşın və cinayətin qarşısını almaq üçün, sağlamlığın və mənəviyyatın qorunması üçün və ya digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olanlardan başqa, heç bir məhdudiyyət qoyula bilməz. Bu maddə silahlı qüvvələr, polis və ya inzibati dövlət orqanları üzvlərinin belə hüquqlarının həyata keçirilməsinə qanuni məhdudiyyətlər qoyulmasına mane olmur. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 22-ci maddəsinə əsasən, hər bir insan öz maraqlarının müdafiəsi üçün həmkarlar ittifaqları yaratmaq və belə təşkilatlara üzv olmaq hüququ da daxil olmaqla başqaları ilə birləşmək hüququna malikdir. Bu hüquqdan istifadəyə, qanuna müvafiq surətdə qoyulan və demokratik cəmiyyətdə dövlətin və ya ictimaiyyətin təhlükəsizliyi, ictimai asayiş, əhalinin sağlamlığı və mənəviyyatın və yaxud başqa şəxslərin hüquq və azadlıqlarının qorunması mənafeləri üçün zəruri olan məhdudiyyətlərdən başqa, heç bir məhdudiyyət qoyula bilməz. Hazırkı maddə silahlı qüvvələrin və polisin tərkibinə daxil olan şəxslərin bu hüquqdan istifadə etmələrinə qanuni məhdudiyyətlər qoyulmasına mane olmur.

59. **Birləşmiş Millətlər Təşkilatı (BMT)** – bütün dünyada sülhün və təhlükəsizliyin qorunub saxlanması və dövlətlər arasında əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə yaradılmış universal beynəlxalq təşkilat. BMT-nin Nizamnaməsi 1945-ci ilin iyunun 26-da imzalanmış və 1945-ci ilin oktyabrın 26-da qüvvəyə minmişdir. BMT-nin əsas orqanları bunlardır: Baş Assambleya, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblik. BMT-nin aşağıdakı məqsədləri vardır: beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq və bu məqsədlə: sülhə təhlükənin qarşısını almaq və aradan qaldırmaq üçün və təcavüz aktlarını və digər sülhün pozulması hallarını aradan qaldırmaq üçün səmərəli kollektiv tədbirlər görmək və sülhün pozulmasına gətirib çıxara bilən beynəlxalq mübahisə və situasiyaların dinc vasitələrlə və ədalət və beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq nizamlanmasına və yaxud həll olunmasına müvəffəq olmaq; millətlər arasında, xalqların hüquq bərabərliyi və özünümüəyyənetmə prinsipinə hörmət əsasında dostluq münasibətləri inkişaf etdirmək, universal sülhün möhkəmləndirilməsi üçün digər müvafiq tədbirlər görmək; iqtisadi, sosial, mədəni və ya humanitar xarakterli beynəlxalq problemlərin həll edilməsində və irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hörmətin dəstəklənməsində və həvəsləndirilməsində beynəlxalq əməkdaşlığa nail olmaq və bu ümumi məqsədlərə çatmaq üçün millətlərin hərəkətlərini uzlaşdırmaq üçün mərkəz rolunu oynamaq. BMT onun bütün üzvlərinin suveren bərabərliyi prinsipinə əsaslanır. BMT-nin rəsmi dilləri çin, ingilis, fransız, rus və ispan dilləridir. Ərəb dili 1973-cü ildə rəsmi dillərə əlavə olunmuşdur. Mənzil-qərargahı Nyu-Yorkda (Amerika Birləşmiş Ştatları) yerləşir.

60. **Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası** – BMT-nin nümayəndəli orqanı. BMT-nin bütün üzvləri Baş Assambleyada təmsil olunurlar. Baş Assambleya sülhün və beynəlxalq təhlükəsizliyin qorunub saxlanması ilə bağlı dövlətlərin əməkdaşlığının ümumi prinsiplərini, o cümlədən tərksilah məsələlərini nəzərdən keçirə bilər, siyasi, iqtisadi, sosial və mədəni sahələrdə əməkdaşlıq məsələlərini, insan hüquq və azadlıqlarının həyata keçirilməsinə dəstək verilməsi, beynəlxalq hüququn mütərəqqi inkişafı və onun məcəllələşdirilməsi məsələlərini müzakirə edə bilər, üzv dövlətlərə və Təhlükəsizlik Şurasına bu məsələlər üzrə tövsiyələr verə bilər. Baş Assambleya BMT-nin büdcəsini nəzərdən keçirir və təsdiq edir, eyni zamanda Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlərini, İqtisadi və Sosial Şuranın üzvlərini seçir, köməkçi orqanlar yara-

dır. Təhlükəsizlik Şurasının təqdimatı əsasında Baş Assambleya BMT-yə yeni üzvlərin qəbul edilməsi və üzvlükdən çıxarılması, BMT üzvlərinin öz hüquq və imtiyazlarını həyata keçirməsinin müvəqqəti dayandırılması məsələlərini həll edir, Baş Katibi təyin edir, Təhlükəsizlik Şurası ilə paralel Beynəlxalq Məhkəmənin üzvlərini seçir. Baş Assambleya öz müntəzəm illik sessiyalarına və vəziyyət tələb etdikdə xüsusi sessiyalara yığışır. Xüsusi sessiyalar Baş Katib tərəfindən Təhlükəsizlik Şurasının və ya BMT üzvlərinin əksər hissəsinin tələbi ilə çağırılır.

61. **Birləşmiş Millətlər Təşkilatının Baş Katibi** – BMT-nin əsas inzibati vəzifəli şəxsi. Baş Katib BMT Təhlükəsizlik Şurasının tövsiyəsi əsasında Baş Assambleya tərəfindən 5 illik müddətə təyin olunur. Baş Katibin mühüm səlahiyyətlərindən biri ondan ibarətdir ki, o, beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılmasına təhlükə törədə bilən istənilən məsələni Təhlükəsizlik Şurasının nəzərinə çatdıra bilər.

62. **Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Hüquq Komissiyası** – BMT çərçivəsində beynəlxalq hüququn və onun məcəllələşdirilməsi işinin proqressiv şəkildə inkişaf etdirilməsini təşviq etmək məqsədilə yaradılmış qurum. 1947-ci ildə Baş Assambleya tərəfindən təsis edilmişdir. Hər il toplaşan Komissiya Baş Assambleya tərəfindən beş il müddətinə seçilən 34 üzvdən ibarətdir. Komissiyanın üzvləri dünyanın əsas hüquq sistemlərini təmsil edirlər və Komissiyanın işində müstəqil qisimdə iştirak edirlər. Komissiyanın işinin əksər hissəsi beynəlxalq hüququn müxtəlif aspektləri üzrə beynəlxalq hüquqi aktların layihələrinin hazırlanmasından ibarətdir.

63. **Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Məhkəməsi** – BMT-nin əsas məhkəmə orqanı. Məhkəmə BMT Nizamnaməsinə əlavə olunmuş və onun ayrılmaz tərkib hissəsini təşkil edən Statuta uyğun fəaliyyət göstərir. Məhkəmə dövlətlərarası mübahisələri həll edir və hüquqi məsələlər üzrə məsləhətçi rəylər çıxarır. Hər bir dövlət tərəf kimi çıxış etdiyi işdə Beynəlxalq Məhkəmənin qərarına əməl etməlidir. BMT-nin bütün üzvləri ipso facto Beynəlxalq Məhkəmənin Statutunun iştirakçılarıdır. BMT üzvü olmayan dövlət, Təhlükəsizlik Şurasının tövsiyəsi əsasında Baş Assambleya tərəfindən müəyyən olunan şərtlərlə, Beynəlxalq Məhkəmənin Statutunun iştirakçısı ola bilər. Məhkəmə Baş Assambleya və Təhlükəsizlik Şurası tərəfindən seçilən müxtəlif dövlətlərin vətəndaşı olan 15 hakimdən ibarətdir. Hakimlər yenidən seçilə bilmək hüququ ilə 9 il müddətinə seçilirlər. Məhkəmənin tərkibi dünyanın əsas hüquq sistemlərini təmsil etməlidir. Hakimlər yüksək əxlaqi keyfiyyətlərə malik olmalı,

ya öz ölkələrində ən yüksək məhkəmə vəzifələrinə təyin edilməsi üçün irəli sürülən tələblərə cavab verməli, ya da beynəlxalq hüquq sahəsində tanınmış nüfuzlu hüquqşünas olmalıdırlar. BMT-nin Nizamnaməsinə və Məhkəmənin Statutuna əsasən, Məhkəmə Baş Assambleyanın, Təhlükəsizlik Şurasının, İqtisadi və Sosial Şuranın, Beynəlxalq Atom Enerjisi Agentliyinin və ixtisaslaşmış təsisatların xahişi ilə istənilən hüquqi məsələ üzrə məsləhətçi rəy verə bilər. Məhkəmə tərəfindən fəaliyyəti dövründə 100-dən çox qərar və 25-dən artıq məsləhətçi rəy çıxarılmışdır. BMT-nin hər bir üzvü tərəf kimi çıxış etdiyi istənilən işdə Məhkəmənin qərarına əməl etməyi öz öhdəsinə götürür. Əgər iş üzrə tərəflərdən biri Məhkəmənin çıxardığı qərarla onun üzərinə qoyulmuş öhdəlikləri icra etmirsə, qarşı tərəf Təhlükəsizlik Şurasına müraciət edə bilər; Təhlükəsizlik Şurası, zəruri hesab etdikdə, tövsiyələr verə bilər və ya həmin qərarın həyata keçirilməsi üçün görülməli olan tədbirlər barəsində qərar qəbul edə bilər. Məhkəmənin yerləşdiyi yer Niderlandın Haaqa şəhəridir.

64. **Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu (UNFPA) –** BMT-nin inkişaf etməkdə olan və keçid dövrünü yaşayan ölkələrə əhali ilə bağlı müxtəlif yardımlar göstərən strukturlarından biri. 1969-cu ildə Baş Assambleyanın təşəbbüsü ilə yaradılmışdır. Fond, əsas etibarilə ölkələrə fərdi seçim əsasında reproduktiv sağlamlıq və ailə planlaşdırılması xidmətlərinin təkmilləşdirilməsində, habelə davamlı inkişaf üçün əhali ilə bağlı siyasətlərin formalaşdırılmasına kömək edir. 129 idarədən ibarət qlobal şəbəkəyə malik olan Fond Baş Assambleyanın yardımçı orqanı qismində çıxış edir.

65. **Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) –** BMT-nin kənd təsərrüfatı, meşəçilik, balıqçılıq və kənd yerlərinin inkişaf etdirilməsi üzrə aparıcı agentliyi. FAO kənd təsərrüfatının inkişafını, daha yaxşı qidalanmanı və ərzaq təhlükəsizliyinə riayət olunmasını təşviq etməklə yoxsulluq və aclıq hallarını yüngülləşdirmək istiqamətində fəaliyyət göstərir. Hazırda 130-dan çox ölkədə FAO inkişafa yardım göstərir, hökumətlərə siyasətlərin hazırlanması və planlaşdırma ilə bağlı məsləhətlər verir, informasiyanı toplayır, təhlil edir və yayır, habelə ərzaq və kənd təsərrüfatı məsələləri üzrə müzakirələr üçün beynəlxalq forum qismində çıxış edir. FAO üzv-dövlətlərin nümayəndələrindən ibarət olan Konfrans tərəfindən idarə olunur. İllik büdcəsi təxminən 1 milyard ABŞ dolları təşkil edir.

66. **Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) –** ətraf mühit sahəsində BMT-nin əsas orqanı. UNEP qlobal səviyyədə ətraf

mühit üzrə gündəliyi müəyyənləşdirir, BMT sistemində davamlı inkişafın ekoloji ölçülərinə riayət olunmasını təşviq edir və qlobal səviyyədə ətraf mühitin nüfuzlu müdafiəçisi qismində çıxış edir. UNEP öz fəaliyyətini əsas etibarilə, altı prioritet sahə üzrə həyata keçirir: iqlim dəyişikliyi, ekosistemin idarə olunması, ətraf mühitin idarə olunması, zərərli maddələr və təhlükəli tullantılar, fəlakətlər və münaqişələr, resurslardan səmərəli istifadə. UNEP-in mandatı və fəaliyyət dairəsi bərabər regional təmsilçilik nəzərə alınmaqla, Baş Assambleya tərəfindən seçilmiş 58 hökumət nümayəndəsindən ibarət orqan olan İdarəetmə Şurası tərəfindən müəyyən olunur. İllik büdcəsi təxminən 500 milyon ABŞ dolları təşkil edir. UNEP-in əsas könüllü maliyyələşmə mexanizmi Ekoloji Fonddur. Əlavə vəsaitlər BMT-nin büdcəsindən, habelə yardım fondları və ayrılan ianələr formasında UNEP tərəfindən toplanılır.

67. **Birləşmiş Millətlər Təşkilatının Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Genişləndirilməsi Təşkilatı (UN Women) –** BMT-nin qadın hüquqlarının müdafiəsi və qadın inkişafı sahəsində fəaliyyət göstərən ixtisaslaşmış təşkilatı. 2010-cu ildə Baş Assambleyanın qətnaməsi ilə Qadınlar üçün İnkişaf Fondu, Qadınların İmkanlarının Genişləndirilməsi üzrə Bölmə, Gender Məsələləri üzrə Xüsusi Məsləhətçi İdarəsi və Qadınların İmkanlarının Genişləndirilməsi üzrə BMT-nin Beynəlxalq Tədqiqat və Təlim İnstitutunun bazasında yaradılmışdır. Hal-hazırda UN Women (ing. United Nations Entity for Gender Equality and the Empowerment of Women) qeyd olunan qurumların mandat və funksiyalarını özündə birləşdirir. 2011-ci ilin yanvarından fəaliyyətə başlamışdır. Təşkilatın işinə BMT Baş katibi tərəfindən 4 il müddətinə təyin olunan və Baş katibin müavini statusunda fəaliyyət göstərən direktor rəhbərlik edir. Təşkilat öz fəaliyyətində, əsas etibarilə BMT Nizamnaməsini, Pekin Bəyannaməsini və Fəaliyyət Platformasını, həmçinin Baş Assambleyanın XXIII xüsusi sessiyasının qərarlarını rəhbər tutur. Qurumun illik büdcəsi təxminən 500 milyon ABŞ dolları təşkil edir.

68. **Birləşmiş Millətlər Təşkilatının İİV/QİÇS (insanın immun çatışmazlığı virusu/qazanılmış immun çatışmazlığı sindromu) üzrə Birgə Proqramı (UNAIDS) –** BMT-nin İİV-lə mübarizədə aparıcı rol oynayan əsas proqramı. 1996-cı ildən fəaliyyət göstərən Proqramın əsas məqsədi epidemiyanın kəskin pandemiyaya çevrilməsinin qarşısını almaq və yoluxmuş şəxslərə qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasıdır. UNAİDS dövlətlərə informasiya və texniki dəstək göstərir, epidemiyaya qarşı həyata keçirilən tədbirlərin monitorinqini aparır və onları qiymətləndirir.

69. **Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurası (ECOSOC)** – BMT-nin və onun ixtisaslaşmış təsisatlarının iqtisadi və sosial sahələrdə fəaliyyətini əlaqələndirən orqan. Şura Baş Assambleya tərəfindən üç il müddətinə seçilən 54 üzv dövlətdən ibarətdir; bu tərkibin üçdə biri, yəni 18 üzv dövlət hər il yenidən seçilir. Şura beynəlxalq iqtisadi və sosial problemləri müzakirə etmək və müvafiq tövsiyələr işləyib hazırlamaq üçün mərkəzi forum rolunu oynayır. Şura iqtisadi, sosial, mədəni, təhsil, səhiyyə və digər sahələrdə beynəlxalq məsələlərə aid tədqiqatlar aparır və məruzələr edir və ya istənilən belə məsələlərə aid Baş Assambleyaya, Birləşmiş Millətlərin üzvlərinə və maraqlı ixtisaslaşdırılmış təsisatlara tövsiyələr verir, Baş Assambleyaya təqdim etmək üçün konvensiya layihələri hazırlayır, beynəlxalq konfranslar çağırır. Şuranın ən mühüm səlahiyyətlərindən biri BMT-nin ixtisaslaşmış təsisatlarının fəaliyyətini əlaqələndirməkdir. Şura öz səlahiyyətləri çərçivəsində olan məsələlərlə məşğul olan qeyri-hökumət təşkilatları ilə məsləhətləşmələr aparır. Şuranın hər bir üzvü bir səsə malikdir. Onun qərarları iştirak edən və səs verən üzvlərin səs çoxluğu ilə qəbul olunur.

70. **Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP) –** BMT-nin qlobal inkişaf şəbəkəsinin aparıcı qurumu. 160-dan çox ölkədə fəaliyyət göstərməklə BMT-nin İnkişaf Proqramı (BMTİP) inkişaf etməkdə olan ölkələrə davamlı inkişafla bağlı öz məqsədlərinə çatmaq üçün kömək edir. BMTİP-in əsas mandatı yoxsulluğu azaltmaq, demokratik idarəetməni təşviq etmək, böhranların qarşısını almaq və onları aradan qaldırmaq, ətraf mühiti qorumaq və iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün ölkələrlə iş aparmaqdır. BMTİP inkişaf etməkdə olan ölkələrin Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaları üçün onların resurslara və biliklərə çıxış imkanlarını təmin etməyə çalışır. BMTİP həm inkişaf etməkdə olan, həm də inkişaf etmiş ölkələrin təmsil olunduğu 36 üzvdən ibarət İcraçı Şura tərəfindən idarə olunur. BMTİP üzv-dövlətlərin könüllü ianələri hesabına maliyyələşir; onun illik büdcəsi təxminən 5 milyard ABŞ dolları təşkil edir.

71. **Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komissiyası –** BMT-nin insan hüquqları sahəsində onilliklər boyu fəaliyyət göstərmiş və sonradan ixtisar edilmiş mərkəzi orqanlarından biri. Komissiya 1946-cı ildə BMT-nin İqtisadi və Sosial Şurası tərəfindən yaradılmışdır. İlk vaxtlar Komissiya 18 üzv dövlətdən ibarət idi, 90-cı illərin əvvəllərindən isə BMT-yə yeni üzv-dövlətlərin qəbulu ilə əlaqədar olaraq onun tərkibi genişləndirildi və üzvlərinin sayı 53-ə çatdırıldı (3 il müddətinə seçilmək-

lə). Komissiya İqtisadi və Sosial Şuraya insan hüquqlarının müdafiəsi məsələləri ilə bağlı təkliflər, tövsiyələr və məruzələr təqdim etmək səlahiyyətinə malik idi. İlkin olaraq Komissiyanın qarşısında bir sıra mühüm vəzifələr dayanırdı: insan hüquqlarına dair fundamental beynəlxalq hüquqi aktların, ilk növbədə insan hüquqları haqqında Beynəlxalq Billin işlənib hazırlanması; ayrı-ayrı insan hüquqlarının (qadınların, uşaqların, milli azlıqların və s.) müdafiəsinə yönəlmiş beynəlxalq konvensiya və bəyannamə layihələrinin işlənib hazırlanması; müxtəlif əlamətlərə görə, əsasən də irqinə, cinsinə, dilinə, dininə və ya digər əlamətlərinə görə ayrı-seçkiliyin ümumi qadağan edilməsinə dair təkliflərin işlənib hazırlanması; insan hüquqlarının müdafiəsinin digər aktual məsələlərinə dair təkliflərin işlənib hazırlanması. Komissiya onun qarşısında qoyulan bütün vəzifələri, demək olar ki, yerinə yetirdi və bununla da beynəlxalq insan hüquqları hüququnun inkişafına və insan hüquqları sahəsində beynəlxalq mexanizmlərin formalaşması və fəaliyyətinə böyük töhfələr vermiş oldu. Belə ki, İnsan hüquqlarına dair Beynəlxalq Bill və bir sıra digər mühüm universal beynəlxalq müqavilələr Komissiya tərəfindən işlənib hazırlandı. Komissiyanın illik sessiyaları altı həftə ərzində İsveçrənin Cenevrə şəhərində çağırılırdı. Özünün illik sessiyalarında Komissiya bir sıra mühüm sənədlər, o cümlədən tematik qətnamələr qəbul edirdi. Bəzi hallarda isə (məsələn, insan hüquqlarının kobud pozulması və təcili müdaxilə tələb edilən hallarda) Komissiyanın xüsusi sessiyaları çağırılırdı. Fəaliyyət dövrü ərzində Komissiya bu və ya digər ölkədə insan hüquqlarının kobud pozuntusu hallarına operativ reaksiya vermək məqsədilə bir sıra mühüm mexanizmlər təsis etmişdir. Bunların sırasında tematik mexanizmlər, xüsusi məruzəçilər yaxud xüsusi prosedurlar, müxtəlif işçi qruplarının yaradılması önəmli yer tutur.

72. **Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurası –** BMT-nin insan hüquqları sahəsində əsas orqanı. BMT Baş Assambleyasının 15 mart 2006-cı il tarixli 60/251 saylı "İnsan Hüquqlar Şurası" adlı Qətnaməsi ilə İnsan Hüquqları Komissiyasının əvəzinə Baş Assambleyanın köməkçi orqanı qismində təsis edilmişdir. Şura 47 üzv-dövlətdən ibarətdir. Şuraya seçkilərin ədalətli coğrafi bölgü prinsipi əsasında həyata keçirilməsini təmin etmək məqsədilə Şurada yerlər regional qruplar arasında bu qaydada bölünmüşdür: Afrika dövlətləri qrupu 13 yer; Asiya dövlətləri qrupu 13 yer; Şərqi Avropa dövlətləri qrupu 6 yer; Latın Amerikası və Karib hövzəsi dövlətləri qrupu 8 yer; Qərbi Avropa və digər dövlətlər qrupu 7 yer. Şuranın üzvləri 3 illik müddətə seçilirlər və yenidən seçil-

mək hüququna malik olurlar, lakin iki ardıcıl səlahiyyət müddətindən dərhal sonra yenidən seçilə bilməzlər. Şuranın funksiyaları bunlardır: insan hüquqları sahəsində tədris-maarifləndirmə fəaliyyətinə, eləcə də məsləhətçi xidmətlərin göstərilməsi, texniki köməyin göstərilməsi və maraqlı üzv-dövlətlərlə məsləhətləşməklə potensialın yaradılması fəaliyyətinə yardım etmək; insan hüquqlarının bütün sahələri üzrə tematik məsələlərin müzakirə olunması üçün forum kimi çıxış etmək; beynəlxalq insan hüquqları hüququnun inkişafına dair Baş Assambleyaya tövsiyələr vermək; dövlətlər tərəfindən qəbul olunmuş insan hüquqları sahəsində öhdəliklərin yerinə yetirilməsi üzərində nəzarətin həyata keçirilməsinə yardımçı olmaq; obyektiv və doğru məlumatlar əsasında hər bir dövləti əhatə etməklə universal dövri icmal prosedurunu həyata keçirmək; dialoq və əməkdaşlıq vasitəsilə insan hüquqları pozuntularının qarşısının alınmasına yardım etmək və insan hüquqları sahəsində fövqəladə vəziyyətlərə reaksiya vermək; İnsan Hüquqları Komissiyasının İnsan Hüquqları üzrə Ali Komissarı idarəsinin işi ilə əlaqədar rolunu və öhdəliklərini öz üzərinə götürmək; insan hüquqlarının həvəsləndirilməsi və müdafiəsinə dair tövsiyələr vermək; Baş Assambleyaya illik məruzələr təqdim etmək.

73. **Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarı (OHCHR) –** BMT-nin insan hüquqları ilə bağlı fəaliyyətinə məsul olan yüksək vəzifəli şəxs. 20 dekabr 1993-cü ildə Baş Assambleyanın 48-ci sessiyasında BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı vəzifəsinin təsis edilməsi haqqında 48/141 saylı qətnamə qəbul edilmişdir. Ali Komissar Baş Assambleya tərəfindən təsdiq edilməklə Baş Katib tərəfindən 4 il müddətinə (daha bir müddətə təyin edilə bilmək hüququ ilə) təyin edilir və o, Baş Katibin müavini statusunda fəaliyyət göstərir. Baş Assambleya Ali Komissara geniş səlahiyyətlər verməsə də, bununla bərabər Komissar, demək olar ki, BMT-nin insan hüquqları sahəsində fəaliyyətini əlaqələndirir. BMT-nin insan hüquqları sahəsində fəaliyyətinə əsas məsuliyyəti məhz Ali Komissar daşıyır. Komissarın əsas vəzifələri sırasında bütün insan hüquqlarının səmərəli həyata keçirilməsinə dəstək verilməsi; insan hüquqlarına hörmət məqsədilə beynəlxalq əməkdaşlığın təşviqi; BMT çərçivəsində insan hüquqları sahəsində fəaliyyətin əlaqələndirilməsi və həvəsləndirilməsi; insan hüquqları sahəsində yeni standartların işlənib hazırlanmasına yardımçı olunması; insan hüquqları sahəsində beynəlxalq müqavilələrin ratifikasiya olunmasına yardımçı olunmasını göstərmək olar. Ali Komissar həmçinin insan hüquqlarının kobud pozuntusu hallarında tədbirlər görmək və preventiv fəaliyyət həyata keçirmək səlahiyyətlərinə də malikdir.

74. **Birləşmiş Millətlər Təşkilatının İnsan Məskənləri üzrə Proqramı (UN-HABITAT) –** BMT-nin davamlı yaşayış məntəqələrinin inkişafını təşviq edən əsas proqramı. 1978-ci ildə təsis olunmuş UN-HABITAT xarabalıqlarda yaşayan ən azı yüz milyon insanın yaşayış şəraitini yaxşılaşdırmaq və içməli sudan və əsas sanitar xidmətlərdən davamlı istifadə edilməsi imkanı olmayanların sayını yarıya qədər azaltmaqla bağlı Minilliyin İnkişaf Məqsədinə nail olmaqda dünya ölkələrinə kömək edir. Proqram BMT-nin ixtisaslaşmış qurumları, hökumətlər, yerli orqanlar, qeyri-hökumət təşkilatları və özəl sektorla tərəfdaşlıq etməklə fəaliyyət göstərir. Proqram çərçivəsində həyata keçirilən layihələrdə əsas diqqət xarabalıqlarda yaşayan insanların vəziyyətinin yaxşılaşdırılmasına, yoxsulluğun azaldılmasına, fəlakətdən sonrakı bərpa işlərinə, içməli su və sanitar xidmətlərin təminatına və sığınacaq verilməsi üçün maliyyə imkanlarının səfərbər olunmasına yönəlir. UN-HABITAT 58 üzvdən ibarət İdarəetmə Şurası tərəfindən idarə olunur. Mənzil-qərargahı Nayrobi şəhərində (Keniya) yerləşir.

75. **Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarı (UNHCR) –** BMT çərçivəsində qaçqınların və daxili məcburi köçkünlərin problemlərinin həllinə məsul olan yüksək vəzifəli şəxs. Ali Komissar, əsas etibarilə nəzarət və təminat funksiyalarını həyata keçirir, qaçqınların və daxili məcburi köçkünlərin problemlərinin həll edilməsində dövlətlərə maddi, texniki və digər yardımlar göstərir. Ali Komissar Baş Katibin təqdimatı əsasında Baş Assambleya tərəfindən üç il müddətinə seçilir. O, Baş Assambleyanın rəhbərliyi altında fəaliyyət göstərir və hər il İqtisadi və Sosial Şura vasitəsilə Baş Assambleyaya illik məruzə təqdim edir.

76. **Birləşmiş Millətlər Təşkilatının Qəyyumluq Şurası –** beynəlxalq qəyyumluq sisteminə daxil olan ərazilərin siyasi, iqtisadi və sosial tərəqqisinə, onların özünüidarəyə və müstəqilliyə doğru inkişafına dəstək vermək üçün yaradılmış əsas orqanlardan biri. 1 noyabr 1994-cü ildə Qəyyumluq Şurası BMT-nin himayəsi altında olan ərazilərdən sonuncusunun, Palaunun həmin ilin 1 oktyabr tarixində müstəqillik qazanmasından sonra öz fəaliyyətini dayandırmışdır.

77. **Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi (UNODC) –** BMT-nin narkotiklərlə və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində fəaliyyət göstərən əsas strukturu. 1997-ci ildə təsis edilmiş İdarənin əsas missiyası narkotiklər, cinayətkarlıq və terrorçuluqla mübarizə üzrə beynəlxalq müqavilələrin ratifikasiyasında və yerinə yetirilməsində dövlətlərə texniki yardım göstərmək, beynəlxalq

hüquq normalarına uyğun olaraq dövlətdaxili qanunvericiliyi inkişaf etdirmək, hüquq mühafizə orqanlarının əməkdaşlarına təlimlər keçməkdən ibarətdir.

78. **Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi –** üzv-dövlətlərin hüquqlarını və öhdəliklərini, həmçinin təşkilatın əsas orqanlarını və prosedurları müəyyən edən əsas sənəd. Preambula və 19 fəsildə qruplaşdırılmış 111 maddədən ibarətdir. 1-ci fəsil BMT-nin məqsədlərini və prinsiplərini müəyyən edir, 2-ci fəsil BMT-yə üzvlük üçün meyarları müəyyən edir, 3-cü fəsildə BMT-nin altı əsas orqanının adları sadalanır, 4-15-ci fəsillərdə bu orqanların funksiyaları və səlahiyyətləri məyyən edilir, 16-17-ci fəsillər BMT-ni mövcud beynəlxalq hüquqla əlaqələndirir, 18-19-cu fəsillər Nizamnaməyə düzəliş və ratifikasiya şərtlərini müəyyən edir. Nizamnamənin mətni 1945-ci ilin aprel-iyun aylarında San-Fransiskoda (ABŞ) keçirilmiş konfransda qəbul edilmiş və həmin ilin iyunun 26-da imzalanmışdır. Nizamnamənin qüvvəyə mindiyi tarix – 24 oktyabr 1945-ci il bütün üzv dövlətlərdə "BMT Günü" kimi qeyd edilir.

79. **Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası –** beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında mühüm rol oynayan əsas orqan. Təhlükəsizlik Şurası 15 üzvdən ibarətdir. Onlardan beşi daimi üzvlərdir: ABŞ, Böyük Britaniya, Rusiya, Fransa və Çin. Qeyri-daimi üzvlər olan qalan on dövlət isə Baş Assambleya tərəfindən iki il müddətinə seçilir. BMT-nin Nizamnaməsinə əsasən, Təhlükəsizlik Şurasının geniş səlahiyyətləri vardır. Şura beynəlxalq ixtilafa gətirib çıxara bilən və ya beynəlxalq mübahisəyə səbəb ola bilən istənilən mübahisəni və ya situasiyanı, həmin mübahisənin və ya situasiyanın davam etməsinin beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasına təhlükə yarada biləcəyini müəyyən etmək məqsədilə tədqiq edə bilər. Sülhə təhlükənin, sülhün pozulmasının və ya təcavüz aktının olmasının müəyyən edilməsi Təhlükəsizlik Şurasının müstəsna səlahiyyətinə aiddir. Təhlükəsizlik Şurasının daha bir mühüm səlahiyyəti potensial və ya mövcud münaqişə zonasına müvafiq dövlətin razılığı ilə sülhməramlı qüvvələrin göndərilməsidir. Təhlükəsizlik Şurasının hər bir üzvü bir səsə malikdir. Təhlükəsizlik Şurasının prosedur məsələlər üzrə qərarları doqquz üzvün lehinə səs verməsi ilə qəbul olunur. Təhlükəsizlik Şurasının bütün digər məsələlər üzrə qərarları daimi üzvlərin uyğun gələn səsləri də daxil olmaqla, doqquz üzvün lehinə səs verməsi ilə qəbul olunur. Təhlükəsizlik Şurasının hər hansı bir üzvü qərarın əleyhinə səs verirsə, qərar qəbul

olunmur. Təhlükəsizlik Şurasının daimi üzvlərinin bu müstəsna hüququ veto hüququ adlanır. Əgər daimi üzvlərdən biri və ya bir neçəsi səsvermə zamanı bitərəf qalırsa və ya səsvermədə iştirak etmirsə, doqquz üzvün lehinə səs verdiyi qərar qəbul olunmuş sayılır.

80. **Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO) –** dünya ölkələrinin təhsil, elm, mədəniyyət, informasiya və kommunikasiya sahəsindəki əməkdaşlığının ən böyük hökumətlərarası forumu. Təşkilatın nizamnaməsi 16 noyabr 1945-ci ildə Londonda (Böyük Britaniya) imzalanmış, 4 noyabr 1946-cı ildə 20 üzv dövlətdən ibarət UNESCO öz rəsmi fəaliyyətinə başlamışdır. Hazırda UNESCO 193 ölkə və 6 Assosiativ üzvdən ibarətdir. UNESCO ümumi dəyərlərə hörmət əsasında və davamlı inkişaf, sülh mədəniyyəti, insan hüquqlarına hörmət və yoxsulluğun azaldılmasına doğru yönəlməklə sivilizasiyalar, mədəniyyətlər və insanlar arasında dialoq üçün şərait yaratmaq istiqamətində fəaliyyət göstərir. UNESCO-nun fəaliyyət sahələrinə təhsil, təbiət elmləri, sosial və bəşəri elmlər, mədəniyyət və xalqlar arasında qarşılıqlı anlaşma və informasiya sahələri aiddir. Xüsusi diqqət ayrılan məsələlər sırasında hamı üçün təhsil alma imkanına nail olma, elmi araşdırmaları təşviq etmə, mədəniyyətlərin özünüdərk proseslərinə dəstək göstərmə, dünyanın təbii və mədəni irsini qoruma və möhkəmləndirmə, azad informasiya axınını və mətbuat azadlığını təşviq etmə, habelə inkişaf etməkdə olan ölkələrin mətbuat və media imkanlarını gücləndirməni qeyd etmək olar. Təşkilatın qarşısında duran mühüm prioritet məsələlərdən biri də gender bərabərliyinin təmin edilməsidir. UNESCO 193 Milli Komissiyadan ibarət sistemə malikdir. UNESCO üç əsas işçi orqandan ibarətdir: Baş Konfrans, İcraiyyə Şurası və Katiblik. Baş Konfrans UNESCO-nun ali orqanıdır. Konfransın iclasları iki ildən bir keçirilir. Əhalisinin sayından və ya büdcəyə verdiyi vəsaitin həcmindən asılı olmayaraq, hər bir üzv dövlət bir səsə malikdir. Baş Konfrans təşkilatın fəaliyyətinin əsas istiqamətlərini müəyyən edir. İcraiyyə Şurası UNESCO-nun icra orqanıdır. O, Baş Konfransın işini təşkil edir və onun qərarlarının düzgün icra olunmasına nəzarət edir. Şuranın funksiya və vəzifələri Nizamnamə ilə və Baş Konfransın qayda və direktivləri ilə müəyyən olunur. Şuranın 58 üzvü var və onlar Baş Konfrans tərəfindən, əsasən təmsil etdikləri mədəniyyətlərin müxtəlifliyi və mənsub olduqları coğrafi məkan əsasında seçilir. İcraiyyə Şurasının iclasları ildə iki dəfə keçirilir. Katiblik UNESCO-nun daimi fəaliyyət göstərən orqanıdır və Paris şəhərində yerləşir. Burada UNESCO-ya üzv olan 170 dövlətin vətəndaşları çalışır. UNESCO Parisdəki baş qərar-

gahından əlavə, dünyanın müxtəlif ölkələrindəki regional büroları, institutları və mərkəzləri ilə geniş şəbəkəyə malikdir. Azərbaycan-UNESCO münasibətlərinin inkişaf etdirilməsi sahəsində Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın gördüyü işlər xüsusi əhəmiyyət kəsb edir. Məhz Mehriban xanım Əliyevanın səyləri nəticəsində Azərbaycanın maddi və qeyri-maddi mədəni irs nümunələri UNESCO-nun müvafiq siyahılarında yer almaqdadır.

81. **Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNİCEF) –** BMT-nin uşaq hüquqlarının müdafiəsi və uşaqların inkişafı sahəsində fəaliyyət göstərən ixtisaslaşmış təşkilatı. 11 dekabr 1946-cı ildə Baş Assambleyanın qətnaməsi əsasında yaradılmış və ilk dövrlərdə Beynəlxalq Fövqəladə Uşaq Fondu (UNİCEF – United Nations International Children's Emergency Fund) adlandırılmışdır. Fond İkinci Dünya müharibəsindən zərər çəkmiş uşaqlara yardım məqsədilə müvəqqəti fövqəladə təşkilat kimi yaradılmışdır. 1953-cü ildə BMT Fondun fəaliyyət dairəsini genişləndirdi və səlahiyyət müddətini qeyri-müəyyən müddətə uzatdı. Fonda əvvəlki abbreviaturasını (UNİCEF) saxlamaqla indiki adı (BMT-nin Uşaq Fondu – United Nations Children's Fund) verildi. 1965-ci ildə Fond səmərəli fəaliyyətinə görə Nobel sülh mükafatına layiq görüldü. UNİCEF-in əsas məqsədləri sırasında ana və uşaq ölümünün azaldılması, uşaqlara ilkin ibtidai təhsil verilməsini qeyd etmək olar. Bu və digər məqsədlərinə çatmaq üçün UNİCEF-ə 180-dən çox xoşməramlı səfir kömək edir. Təşkilatın əsas orqanı BMT-nin İqtisadi və Sosial Şurası tərəfindən üç il müddətinə seçilən və 36 üzvdən ibarət olan İdarəetmə Şurasıdır. UNİCEF tamamilə könüllü yardımlar hesabına fəaliyyət göstərir. Bütün yardımların 30%-dən çoxu uşaq sağlamlığının qorunmasına (əsasən, vaksinlərin, peyvəndlərin və uşaq qidalarının alınmasına) sərf olunur.

82. **Birləşmiş Millətlər Təşkilatının yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın qarşısının alınmasına yönəlmiş rəhbər prinsipləri (Ər-Riyad rəhbər prinsipləri)** – yuvenal cinayətkarlığın qarşısının alınmasına yönəlmiş sənəd. BMT Baş Assambleyasının 45/112 nömrəli, 14 dekabr 1990-cı il tarixli qətnaməsi ilə Ər-Riyad şəhərində (Səudiyyə Ərəbistanı) qəbul edilmişdir. Sənədin əsas məqsədi üzv-dövlətləri yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın qarşısının alınmasına yönəlmiş tədbirlərin səmərəliliyinin artırılmasına həvəsləndirməkdir.

83. **Bona fide** (lat.) – vicdanla.

84. **Böhtan** – yalan olduğunu bilə-bilə hər hansı şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan məlumatları kütləvi çıxışlarda, kütlə-

vi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında yaymaqdan ibarət olan cinayət əməli.

85. **Böyük Azadlıqlar Xartiyası** (lat. Magna Carta Libertatum, ing. The Great Charter of Liberties) – insan hüquqlarının inkişafında müstəsna rol oynamış mühüm əhəmiyyətə malik tarixi sənəd. 15 iyun 1215-ci ildə İngiltərə kralı John Lackland tərəfindən təsdiq edilmişdir. Preambula və 63 maddədən ibarət olan bu tarixi sənəd latın dilində tərtib olunmuşdur. Kralın hüquqlarını müəyyən dərəcədə məhdudlaşdıran Xartiya təbəələrə bəzi hüquq və azadlıqlar nəzərdə tuturdu. Xartiya bir sıra fundamental insan hüquqlarının əsasını qoymuşdur. Xartiyanın 39-cu maddəsinə əsasən, heç bir azad insan özbaşına həbs edilə bilməz, həmçinin mülkiyyətindən məhrum edilə bilməz. 42-ci maddədə isə hər kəsin sərbəst şəkildə hərəkət etmək azadlığı öz əksini tapmışdır. Xartiyada həmçinin ədalət mühakiməsi sisteminin müstəqilliyi ilə bağlı vacib müddəalar öz ifadəsini tapmışdır. Xartiyanın ən böyük dəyəri orada qanunun aliliyi prinsipinin təsbit olunmasıdır. Hal-hazırda sənədin əsli Londonda Britaniya muzeyində saxlanılır.

86. **Böyük ictimai təhlükə törətməyən cinayətlər –** Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 15-ci maddəsinə əsasən, qəsdən və ya ehtiyatsızlıqdan törədilməsinə görə bu Məcəllə ilə azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəza nəzərdə tutulmuş əməllər, yaxud qəsdən və ya ehtiyatsızlıqdan törədilməsinə görə bu Məcəllə ilə nəzərdə tutulmuş azadlıqdan məhrum etmə cəzasının yuxarı həddi iki ildən artıq olmayan əməllər.

87. **Brian-Kelloq Paktı –** siyasi vasitə kimi müharibəni rədd edən müqavilə. 27 avqust 1928-ci ildə Parisdə imzalanmışdır. Müqavilənin təşəbbüskarları qismində Fransanın xarici işlər naziri A.Brian və ABŞ dövlət katibi F.Kelloq çıxış etmişlər. Paktın iştirakçıları konfliktləri yalnız sülh yolu ilə həll etməyi öhdələrinə götürmüşlər.

88. **Brifinq** – mətbuat nümayəndələrinin qısa yığıncağı. Belə toplantıda xüsusi səlahiyyətli şəxs tərəfindən hökumətin, hər hansı partiyanın, təşkilatın və ya ayrıca siyasi xadimin müəyyən məsələ üzrə mövqeyi açıqlanır.

89. **Bürokratiya** (fr. bureau – dəftərxana və yun. kratos – hakimiyyət) – formalizmə, şəxsi maraqlara və mütləq hakimiyyətə əsaslanan dövlət idarəçiliyi.

90. **Bütün əməkçi-miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında Beynəlxalq Konvensiya –** BMT Baş Assambleya-

sının 45/158 saylı, 18 dekabr 1990-cı il tarixli qətnaməsi ilə qəbul edilmiş universal beynəlxalq müqavilə. Konvensiya hər hansı bir əlamətə görə ayrı-seçkiliyə yol verilmədən bütün əməkçi-miqrantlara və onların ailə üzvlərinə şamil olunur. Konvensiyaya görə, "əməkçi-miqrant" termini vətəndaşı olmadığı dövlətdə ödənişli fəaliyyətlə məşğul olacaq, məşğul olan və ya məşğul olmuş şəxsdir. Konvensiyada əməkçi-miqrantların və onların ailə üzvlərinin bir sıra hüquqları təsbit edilmişdir: yaşamaq hüququ, işgəncəyə və ya qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamaq hüququ, köləlikdə və ya asılı vəziyyətdə saxlanılmamaq hüququ, məcburi və ya icbari əməyə cəlb edilməmək hüququ, fikir, vicdan və din azadlığı hüququ, maneəsiz olaraq öz fikrində qalmaq hüququ, ifadə azadlığı hüququ, şəxsi və ailə həyatına zorakı və ya qeyri-qanuni müdaxiləyə, yaşayış sahəsinin və ya yazışma sirrinin toxunulmazlığına zorakı və qeyri-qanuni qəsdlərə və ya şərəf və reputasiyaya qeyri-qanuni qəsdlərə məruz qalmamaq hüququ, mülkiyyət hüququ, azadlıq və şəxsi toxunulmazlıq hüququ, təqsirsizlik prezumpsiyası hüququ, hüquq subyekti kimi tanınmaq hüququ və s. Konvensiya müvafiq sənədləri və ya daimi statusu olan əməkçi-miqrantlara və onların ailə üzvlərinə əlavə hüquqlar nəzərdə tutur: dövlətin ərazisində sərbəst hərəkət etmək və yaşayış yeri seçmək hüququ, özlərinin iqtisadi, sosial, mədəni və digər maraqlarının müdafiəsi üçün assosiasiyalar və həmkarlar ittifaqları yaratmaq hüququ, ictimai həyatda iştirak etmək, olduğu dövlətin qanunvericiliyinə uyğun olaraq seçmək və seçilmək hüququ və s. Konvensiyanın əsasında xüsusi mexanizm – Bütün əməkçi-miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi üzrə Komitə fəaliyyət göstərir. Komitənin əsas səlahiyyətləri hər 5 ildən bir dövlətlərin təqdim etdikləri dövri məruzələrə, həmçinin Konvensiyanın pozulması ilə bağlı fərdi və dövlətlərarası şikayətlərə baxmaqdan ibarətdir. İstər fərdi, istərsə də dövlətlərarası şikayət proseduru könüllü xarakter daşıyır, yəni dövlət Konvensiyanın iştirakçısı olmaqla Komitənin bu səlahiyyətini avtomatik olaraq tanımır, bunun üçün müvafiq iştirakçı-dövlətin xüsusi bəyanatı tələb olunur.

91. Bütün əməkçi-miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi üzrə Komitə – BMT-nin insan hüquqları sahəsində fəaliyyət göstərən müqavilə komitələrindən biri. Komitə bütün əməkçi-miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında 1990-cı il Konvensiyasının əsasında 2004-cü ildə təsis olunmuş və elə həmin ilin martında Komitənin ilk sessiyası keçirilmişdir. Komitə 4 il müddətinə seçilən 14 müstəqil ekspertdən ibarətdir. Komitənin əsas səlahiyyətləri hər

5 ildən bir dövlətlərin təqdim etdikləri dövri məruzələrə, həmçinin Konvensiyanın pozulması ilə bağlı fərdi və dövlətlərarası şikayətlərə baxmaqdan ibarətdir. İstər fərdi, istərsə də dövlətlərarası şikayət proseduru könüllü xarakter daşıyır, yəni dövlət Konvensiyanın iştirakçısı olmaqla Komitənin bu səlahiyyətini avtomatik olaraq tanımır, bunun üçün müvafiq iştirakçı-dövlətin xüsusi bəyanatı tələb olunur.

92. **Bütün şəxslərin zorakılıqla yoxa çıxarma hallarından müdafiəsi haqqında Beynəlxalq Konvensiya –** BMT Baş Assambleyasının 61/177 saylı, 20 dekabr 2006-cı il tarixli qətnaməsi ilə qəbul edilmiş universal beynəlxalq müqavilə. Konvensiyanın 1-ci maddəsinə əsasən, heç kəs zorakılıqla yoxa çıxarmaya məruz qala bilməz. Heç bir istisna hal, müharibə və ya müharibə təhlükəsi, daxili siyasi qeyri-sabitlik və ya istənilən digər fövqəladə vəziyyət zorakı yoxa çıxarmaya bəraət qazandıra bilməz. Konvensiyaya əsasən, zorakılıqla yoxa çıxarma dövlətin nümayəndələri və ya dövlətin göstərişi, razılığı və ya dəstəyi ilə fəaliyyət göstərən şəxslər və ya şəxslər qrupu tərəfindən həmin şəxsin qanunun müdafiəsindən məhrum olunması ilə müşayiət olunan azadlıqdan məhrum etmə faktının etiraf edilməsindən imtina etməkdə və ya yoxa çıxarılmış şəxsin taleyi və ya olduğu yer haqqında məlumatları gizlətməkdə ifadə olunan həbs, saxlanılma, oğurlama və ya istənilən digər formada azadlıqdan məhrum etmə sayılır (maddə 2). Konvensiyaya görə, hər bir iştirakçı-dövlət zorakılıqla yoxa çıxarılmanın qanunvericilikdə cinayət kimi tövsif olunması üçün zəruri tədbirlər görməlidir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin "İnsanları zorakılıqla yoxa çıxarma" adlanan 110-cu maddəsinə əsasən, dövlətin və ya siyasi təşkilatın göstərişi, dəstəyi və ya razılığı ilə uzun müddət ərzində qanuni müdafiədən kənarlaşdırmaq məqsədilə şəxsi tutma, həbs etmə və ya oğurlama və sonradan şəxsin azadlıqdan məhrum edilməsini danma və ya onun aqibəti və ya yeri barədə məlumat verməkdən imtina etmə on ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

93. **Bütün şəxslərin zorakılıqla yoxa çıxarmalardan müdafiəsi üzrə Komitə –** BMT-nin insan hüquqları sahəsində fəaliyyət göstərən müqavilə komitələrindən biri. Komitənin yaradılması BMT Baş Assambleyasının 61/177 saylı, 20 dekabr 2006-cı il tarixli qətnaməsi ilə qəbul edilən Bütün şəxslərin zorakılıqla yoxa çıxarma hallarından müdafiəsi haqqında Beynəlxalq Konvensiya ilə nəzərdə tutulmuşdur. Komitə 4 il müddətinə seçilən, insan hüquqları sahəsində tanınmış mütəxəssislər olan 10 müstəqil ekspertdən ibarətdir. Konvensiya üzrə öhdəliklərin yerinə yetirilməsi ilə

bağlı iştirakçı-dövlətlərin dövri məruzələrinə, fərdi və dövlətlərarası şikayətlərə baxmaq Komitənin əsas səlahiyyətləridir. Konvensiyanın 30-cu maddəsinə əsasən, yoxa çıxarılan şəxsin qohumları, qanuni nümayəndələri və ya onun vəkilləri təcili qaydada Komitəyə yoxa çıxarılan şəxsin axtarışı və onun yerinin müəyyən edilməsi xahişi ilə müraciət edə bilər. Fərdi və dövlətlərarası şikayət proseduru fakültativ xarakter daşıyır və iştirakçı-dövlətlərin Komitənin belə səlahiyyətini tanıması ilə bağlı xüsusi bəyanatından asılıdır.

C

1. **Casus** (lat.) – hadisə, hal.
2. **Casus delicti** (lat.) – hüquq pozuntusu halı.
3. **Casus fortuitus** (lat.) – təsadüfi hadisə.
4. **Casus major** (lat.) – qeyri-adi hadisə.
5. **Causa** (lat.) – səbəb, əsas, rəy, fikir.
6. **Cenevrə Konvensiyaları** – 21 aprel-12 avqust 1949-cu ildə Cenevrədə (İsveçrə) müharibə qurbanlarının müdafiəsi haqqında beynəlxalq konvensiyaların hazırlanması məqsədilə cağırılmış Diplomatik Konfrans tərəfindən qəbul edilmiş universal beynəlxalq müqavilələr. Müharibə qurbanlarının müdafiəsinə dair Cenevrə Konvensiyaları (12 avqust 1949) aşağıdakı sənədləri ehtiva edir: Quruda döyüşən silahlı qüvvələrdəki yaralı və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında Cenevrə Konvensiyası (I Konvensiya); Dənizdəki silahlı qüvvələrin yaralı, xəstə və gəmi qəzasına uğramış üzvlərinin vəziyyətinin yaxşılaşdırılması haqqında Cenevrə Konvensiyası (II Konvensiya); Hərbi əsirlərlə rəftara dair Cenevrə Konvensiyası (III Konvensiya); Müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair Cenevrə Konvensiyası (IV Konvensiya). 12 avqust 1949-cu il Cenevrə Konvensiyalarına bir sıra əlavə Protokollar qəbul edilmişdir: Beynəlxalq silahlı münaqişə qurbanlarının müdafiəsinə dair Protokol (I Protokol) – 8 iyun 1977; Qeyri-beynəlxalq xarakterli silahlı münaqişə qurbanlarının müdafiəsinə dair protokol (II Protokol) – 8 iyun 1977; Əlavə fərqləndirici emblemin qəbul edilməsinə dair Protokol (III Protokol) – 8 dekabr 2005. Beynəlxalq humanitar hüquq üçün ən əhəmiyyətli sənədlər məhz Müharibə qurbanlarının müdafiəsinə dair 1949-cu il Cenevrə Konvensiyaları və onlara əlavə Protokollardır. Cenevrə Konvensiyaları üçün ümumi olan 2-ci maddədə deyilir: "Dinc dövrdə qüvvəyə minməli olan müddəalardan başqa, bu Konvensiya iki və ya daha artıq Yüksək Razılığa gələn Tərəflər arasında meydana çıxan elan olunmuş müharibə və ya istənilən digər silahlı münaqişə zamanı, – həmin Tərəflərdən biri müharibə vəziyyətini tanımadığı halda belə, – tətbiq olunur. Konvensiya, habelə Yüksək Razılığa gələn Tərəfin ərazisinin bütövlükdə və ya qismən işğal olunduğu bütün hallarda, – bu işğal heç bir silahlı müqavimətə rast gəlmədikdə belə, – tətbiq olunur".
7. **Cenevrə Prinsiplər Bəyannaməsi** – 2003-cü ildə Cenevrədə İnformasiya Cəmiyyəti Məsələləri üzrə Ümumdünya Sammitində qəbul edilmiş Prinsiplər Bəyannaməsi. Prinsiplər Bəyannaməsinə görə, informasiya cəmiy-

yətinin qurulmasında başlıca məqsəd əsas insan hüquq və azadlıqlarının qorunması və təminatıdır. 3-cü bənddə deyilir: "Biz bütün insan hüquq və azadlıqlarının (o cümlədən Vyana bəyannaməsində əks olunan inkişaf hüququnun) universallığı, bölünməzliyi, qarşılıqlı asılılığı və əlaqəsini bir daha təsdiq edirik". Prinsiplər Bəyannaməsinə müvafiq olaraq, informasiya cəmiyyətinin qurulmasında ən başlıca məqsədlərdən biri keçid iqtisadiyyatında olan, inkişaf etməkdə olan və ya çox zəif inkişaf etmiş dövlətlərin də İKT-dən istifadə imkanlarını genişləndirmək və onların inkişafını təmin etməkdir. Şübhəsiz ki, qeyd olunan bütün məqsədlərin yerinə yetirilməsi üçün maraqlı tərəflər həm milli, həm də beynəlxalq səviyyədə həmrəy olmalıdırlar. Belə həmrəylik, tərəfdaşlıq və əməkdaşlıq olmazsa, informasiya cəmiyyətinin normal inkişafını təmin etmək mümkün deyil. Prinsiplər Bəyannaməsi də bunu bəyan edir. Bəyannamə informasiya cəmiyyətinin yaradılması üçün tələb olunan prinsiplərin siyahısını müəyyənləşdirir və bunlara daxildir: 1. inkişaf məqsədilə İKT-nin tətbiqi üzrə dövlət idarəetmə orqanlarının və maraqlı tərəflərin birgə iştirakı; 2. hamı üçün açıq olan informasiya cəmiyyətinin zəruri təməlini informasiya və kommunikasiya infrastrukturu təşkil edir; 3. informasiya və biliklərin əlçatanlığı; 4. potensialın möhkəmləndirilməsi; 5. İKT-dən istifadə ilə bağlı təhlükəsizliyin və etimadın möhkəmləndirilməsi; 6. əlverişli şərait (mühit); 7. İKT-yə qoşulma bütün sahələrdə üstünlüyə malik olmalıdır; 8. mədəni və linqvistik fərqlilik; mədəni irs və yerli kontent; 9. KİV-in iştirakı; 10. informasiya cəmiyyətinin etik aspektləri; 11. beynəlxalq və regional əməkdaşlıq.

8. **Centlmen sazişi** – qeyri-formal beynəlxalq razılaşma. Centlmen sazişinin pozulması hüquqi nəticələr doğurmur. Belə sazişlər həm yazılı, həm də şifahi formada bağlanıla bilər.
9. **Cəmiyyət** – müəyyən inzibati ərazidə insanların məcmusu. Cəmiyyət sözün geniş mənasında maddi həyatın, canlı təbiətin bir hissəsi olan, tarixən inkişaf edən insanların fəaliyyəti formasıdır. Sözün dar mənasında isə – tarixin müəyyən bir mərhələsi (feodalizm, kapitalizm) və ya konkret sosial icmadır (Avropa cəmiyyəti və s.). Cəmiyyət müəyyən qayda üzrə qurulmuş struktura malik olan bütöv bir sistemdir.
10. **Cəmiyyətin və dövlətin siyasi həyatında iştirak hüququ** – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda təsbit olunmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 54-cü maddəsinə əsasən, Azərbaycan Respublikası vətəndaşlarının cəmiyyətin və dövlətin siyasi həyatında maneəsiz

iştirak etmək hüququ vardır. Dövlətə qarşı qiyama və ya dövlət çevrilişinə müstəqil müqavimət göstərmək Azərbaycan Respublikasının hər bir vətəndaşının hüququdur. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakta əsasən, hər bir vətəndaş ayrı-seçkiliyə yol verilmədən və heç bir əsassız məhdudiyyət qoyulmadan dövlət işlərinin aparılmasında həm bilavasitə, həm də azad seçilmiş nümayəndələr vasitəsilə iştirak etmək hüququna və imkanına malik olmalıdır (maddə 25).

11. **Cərimə** – Azərbaycan Respublikası Cinayət Məcəlləsi ilə müəyyən edilmiş hallarda və məbləğdə məhkəmə tərəfindən təyin edilən pul tənbehi. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, cərimə həm əsas, həm də əlavə cəza kimi tətbiq edilir. Cərimə törədilmiş cinayətin ağırlığı və məhkumun əmlak vəziyyəti nəzərə alınmaqla iyirmi min manatadək miqdarda və ya cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir mislindən on mislinədək miqdarda, habelə cinayətin predmetinin dəyərinin yüz faizinədək miqdarda müəyyən olunur. Cərimə əlavə cəza kimi məhkəmələr tərəfindən yalnız Azərbaycan Respublikası Cinayət Məcəlləsinin xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hallarda təyin edilə bilər. Cəriməni ödəməkdən qəsdən boyun qaçıran şəxslərə bu cəza növü ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması və ya müəyyən müddətə azadlıqdan məhrum etmə ilə əvəz oluna bilər.

12. **Cəza –** törədilmiş cinayətin cinayət-hüquqi nəticəsi; qanun əsasında yaradılmış məhkəmə tərəfindən təyin edilən dövlət məcburetmə tədbiri. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə müvafiq olaraq, cəza məhkəmə hökmü ilə təyin edilən cinayət-hüquqi xarakterli tədbirdir. Cəza cinayət törətməkdə təqsirli hesab edilən şəxsə tətbiq olunur və həmin şəxs barəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsi ilə müəyyən edilən məhrumiyyətlər yaradılmasından və ya onun hüquq və azadlıqlarının məhdudlaşdırılmasından ibarətdir. Cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədilə tətbiq edilir (maddə 41). Azərbaycan Respublikası Cinayət Məcəlləsinə görə, cəzanın növləri aşağıdakılardır: cərimə; nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə; müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə; ictimai işlər; xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə; islah işləri; hərbi xidmət üzrə məhdudlaşdırma; Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma; azadlığın məhdudlaşdırılması;

intizam xarakterli hərbi hissədə saxlama; müəyyən müddətə azadlıqdan məhrum etmə; ömürlük azadlıqdan məhrum etmə (maddə 42).

13. **Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə –** cəzadan azad etmənin bir növü. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 76-cı maddəsinə əsasən, məhkəmə islah işləri, hərbi xidmət üzrə məhdudlaşdırma, azadlığın məhdudlaşdırılması, intizam xarakterli hərbi hissədə saxlama, müəyyən müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxsin islah olunmaq üçün cəzanı tam çəkməsinə lüzum olmadığı qənaətinə gələrsə, onu cəzadan şərti olaraq vaxtından əvvəl azad edə bilər. Bu halda, şəxs tamamilə və ya qismən əlavə cəzadan da azad edilə bilər.

14. **Cəzanı ağırlaşdıran hallar –** cəza təyin edilərkən məhkəmə tərəfindən nəzərə alınan hallar. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 61-ci maddəsinə əsasən, cəzanı ağırlaşdıran hallar aşağıdakılardır: cinayətlərin təkrar törədilməsi, cinayətlərin residivi; cinayətin ağır nəticələrə səbəb olması; cinayətin qabaqcadan əlbir olmuş bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədilməsi; cinayətin törədilməsində xüsusilə fəal iştirak etmə; psixi pozuntulardan əziyyət çəkən və ya sərxoş vəziyyətdə olan şəxslərin, habelə cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmayan şəxslərin cinayət törətməyə cəlb olunması; cinayətin milli, irqi və ya dini düşmənçilik, dini fanatizm, digər şəxslərin qanuni hərəkətlərinə görə qisas almaq zəminində, tamah məqsədilə və ya sair alçaq niyyətlərlə, habelə başqa cinayəti ört-basdır etmək və ya onun törədilməsini asanlaşdırmaq məqsədilə törədilməsi; cinayətin təqsirkar üçün aşkar surətdə hamilə vəziyyətində olan qadın, habelə azyaşlı, qoca və ya köməksiz vəziyyətdə olan və ya təqsirkardan asılı vəziyyətdə olan şəxsə qarşı törədilməsi; cinayətin öz qulluq və ya ictimai borcunu yerinə yetirən şəxsə və ya onun yaxın qohumlarına qarşı törədilməsi; cinayətin zərərçəkmiş şəxsə qarşı xüsusi amansızlıqla, o cümlədən əzab və ya işgəncə verməklə törədilməsi; cinayətin odlu silahdan, partlayıcı vasitələrdən və ya digər ümumi təhlükəli üsullardan və texniki vasitələrdən istifadə etməklə törədilməsi; cinayətin fövqəladə və ya hərbi vəziyyət, təbii və ya digər ictimai fəlakət şəraitində, habelə kütləvi iğtişaşlar zamanı törədilməsi; cinayətin hakimiyyət nümayəndəsinin xüsusi geyimlərindən və ya sənədlərindən istifadə etməklə törədilməsi; cinayətin qulluq mövqeyinə və ya müqaviləyə əsasən təqsirkara göstərilən etimaddan istifadə etməklə törədilməsi.

15. **Cəzanın icrası –** səlahiyyətli dövlət orqanlarının məhkəmənin cəzanın

tətbiqi haqqında ittiham hökmünün göstərişlərinin həyata keçirilməsi üzrə fəaliyyəti.

16. **Cəzanın məqsədi –** sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısının alınması.
17. **Cəzanın sistemi –** əsas və əlavə cəzalardan ibarət cəza növlərinin vahid siyahısı.
18. **Cəzanı yüngülləşdirən hallar –** cəza təyin edilərkən məhkəmə tərəfindən nəzərə alınan hallar. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 59-cu maddəsinə əsasən, cəzanı yüngülləşdirən hallar aşağıdakılardır: hadisələrin təsadüfi axarı zəminində ilk dəfə olaraq böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayətin törədilməsi; cinayətin yetkinlik yaşına çatmayan şəxs tərəfindən törədilməsi; cinayətin hamilə qadın tərəfindən törədilməsi; cinayət törətmiş şəxsin himayəsində azyaşlı uşağın olması; cinayətin ağır həyat şəraiti nəticəsində və ya mərhəmətlilik niyyəti ilə törədilməsi; cinayətin fiziki və ya psixi məcburiyyət təsiri altında, yaxud maddi, xidməti və ya sair cəhətdən asılılıq nəticəsində törədilməsi; cinayətin zəruri müdafiənin, ictimai təhlükəli əməl törətmiş şəxsin tutulmasının, son zərurətin, əsaslı riskin, əmrin və ya sərəncamın icra edilməsinin qanunla müəyyən edilmiş şərtlərini pozmaqla törədilməsi; cinayətin zərərçəkmiş şəxsin qanunsuz və ya əxlaqsız hərəkətlərinin təsiri altında və ya bu hərəkətlər nəticəsində qəflətən baş vermiş güclü ruhi həyəcan (affekt) vəziyyətində törədilməsi; cinayətin anlaqlılığı istisna etməyən psixi pozuntusu olan şəxs tərəfindən törədilməsi; şəxsin könüllü gəlib təqsirini boynuna alması, cinayətin açılmasına, onun digər iştirakçılarının ifşa edilməsinə, cinayət nəticəsində əldə edilmiş əmlakın axtarışına və tapılmasına fəal kömək etməsi; cinayətin törədilməsindən bilavasitə sonra zərərçəkmiş şəxsə tibbi və ya digər yardım göstərilməklə onun həyat və sağlamlığına dəyə biləcək zərərin azaldılması; zərərçəkmiş şəxslə və ya onun yaxın qohumu olan hüquqi varisi ilə barışıq əldə edilməsi; cinayət nəticəsində dəymiş ziyanın könüllü olaraq tamamilə ödənilməsi və ya aradan qaldırılması; cinayət nəticəsində dəymiş ziyanın qismən ödənilməsi və ya ziyanın azaldılması ilə nəticələnmiş digər hərəkətlərin edilməsi.
19. **Cinayət –** cinayət qanunu ilə qadağan olunmuş ictimai təhlükəli, təqsirli və cəzalandırılan əməl (hərəkət və ya hərəkətsizlik). Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 14-cü maddəsinə əsasən, bu Məcəllə ilə cəza təhdidi altında qadağan olunmuş ictimai təhlükəli əməlin (hərəkət

və ya hərəkətsizliyin) təqsirli olaraq törədilməsi cinayət sayılır. Cinayət qanununda nəzərdə tutulmuş hər hansı əməlin (hərəkət və ya hərəkətsizliyin) əlamətləri formal cəhətdən mövcud olsa da, lakin az əhəmiyyətli olduğuna görə ictimai təhlükəli sayılmayan, yəni şəxsiyyətə, cəmiyyətə və yaxud dövlətə zərər yetirməyən və ya zərər yetirmək təhlükəsi yaratmayan əməl (hərəkət və ya hərəkətsizlik) cinayət hesab edilmir.

20. **Cinayətdə iştirakçılıq –** iki və ya daha çox şəxsin qəsdən cinayət törətməkdə qəsdən birgə iştirakı.
21. **Cinayət etməyə cəhd –** bilavasitə cinayət törətməyə yönəldilmiş qəsdən edilən əməlin (hərəkət və ya hərəkətsizlik), şəxsin iradəsindən asılı olmayan səbəblərə görə başa çatdırılmaması.
22. **Cinayətə hazırlıq –** cinayət törətmək üçün vasitə və ya alət axtarma, əldə etmə və ya hazırlama, yaxud cinayət törətmək üçün başqaları ilə əlaqəyə girmə, sövdələşmə və yaxud cinayət törətmək üçün qəsdən başqa cür şərait yaratma zamanı cinayətin şəxsin iradəsindən asılı olmayaraq başa çatdırılmaması. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 28-ci maddəsinə əsasən, yalnız ağır və xüsusilə ağır cinayətlərin törədilməsinə yönəlmiş hazırlıq cinayət məsuliyyətinə səbəb olur.
23. **Cinayət hadisəsi –** cinayətin əlamətlərini özündə əks etdirən hadisə.
24. **Cinayət hüququ** – hansı əməllərin cinayət olmasını və onları törədən şəxslərə münasibətdə hansı cəzaların, həmçinin digər cinayət-hüquqi tədbirlərin tətbiq edilməli olduğunu, cinayət məsuliyyətinin və cinayət məsuliyyətindən və cəzadan azad olmanın əsaslarını müəyyənləşdirən hüquq normalarının məcmusu. Bir sıra dillərdə hüququn bu sahəsi "cinayət" (məs., ingilisdilli ölkələrdə – criminal law, crime – cinayət) və ya "cəza" (məs., Almaniyada – Strafrecht, strafe – cəza) sözlərindən əmələ gəlir. Cinayət hüququnun qədim mənbələri sırasında Hammurapinin qanunlar külliyyatı, On iki cədvəl qanunları, Manu qanunları kimi hüquq abidələrini qeyd etmək olar. Cinayət hüququnun əsas prinsipləri sırasında qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirə görə məsuliyyət, ədalət, humanizm prinsiplərini qeyd etmək olar. Qanunçuluq prinsipinin mahiyyəti ondan ibarətdir ki, əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılması və həmin əmələ görə cəza və digər cinayət-hüquqi xarakterli tədbirlər yalnız cinayət qanunu ilə müəyyən edilir. Qanun qarşısında bərabərlik prinsipinə görə, cinayət törətmiş şəxslər qanun qarşısında bərabərdirlər və irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mən-

subiyyətindən və digər hallardan asılı olmayaraq cinayət məsuliyyətinə cəlb olunurlar. Təqsirə görə məsuliyyət prinsipinə müvafiq olaraq, yalnız törətdiyi ictimai təhlükəli əmələ (hərəkət və ya hərəkətsizliyə) və onun nəticələrinə görə təqsiri müəyyən olunmuş şəxs cinayət məsuliyyətinə cəlb edilə və cəzalandırıla bilər; şəxs təqsirsiz olaraq vurduğu zərərə görə cinayət məsuliyyətinə cəlb oluna bilməz. Ədalət prinsipinin məzmunu ondan ibarətdir ki, cinayət törətmiş şəxs haqqında tətbiq edilən cəza və ya digər cinayət-hüquqi xarakterli tədbirlər ədalətli olmalıdır, yəni cinayətin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, onun törədilməsi hallarına və cinayət törətməkdə təqsirli bilinən şəxsin şəxsiyyətinə uyğun olmalıdır; heç kəs eyni bir cinayətə görə iki dəfə cinayət məsuliyyətinə cəlb oluna bilməz. Humanizm prinsipinə əsasən, cinayət törətmiş şəxsə tətbiq edilən cəza və digər cinayət-hüquqi xarakterli tədbirlər işgəncə və ya digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan xarakter və ya məqsəd daşıya bilməz.

25. **Cinayətin ehtiyatsızlıqdan törədilməsi** – cinayətkarcasına özünəgüvənmə və ya cinayətkarcasına etinasızlıq nəticəsində törədilmiş əməl (hərəkət və ya hərəkətsizlik). Şəxs öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) ictimai təhlükəli nəticələr verə biləcəyi imkanını qabaqcadan görmüş, lakin kifayət qədər əsas olmadan onların qarşısını alacağını güman etmişdirsə, bu əməl (hərəkət və ya hərəkətsizlik) cinayətkarcasına özünəgüvənmə nəticəsində törədilmiş cinayət hesab olunur. Şəxs öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) ictimai təhlükəli nəticələr verə biləcəyi imkanını lazımi diqqət və ehtiyatlılıq göstərərək qabaqcadan görməli olduğu və görə biləcəyi halda, onları görməmişdirsə, bu əməl (hərəkət və ya hərəkətsizlik) cinayətkarcasına etinasızlıq nəticəsində törədilmiş cinayət hesab olunur.

26. **Cinayətin qəsdən törədilməsi** – birbaşa və ya dolayı qəsdlə törədilmiş əməl (hərəkət və ya hərəkətsizlik). Şəxs öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) ictimai təhlükəli olduğunu dərk etmiş, onun ictimai təhlükəli nəticələrini qabaqcadan görmüş və bunları arzu etmişdirsə, bu halda cinayət birbaşa qəsdlə törədilmiş hesab olunur. Şəxs öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) ictimai təhlükəli olduğunu dərk etmiş, onun ictimai təhlükəli nəticələrini qabaqcadan görmüş, lakin bunları arzu etməmiş və belə nəticələrin baş verməsinə şüurlu surətdə yol vermişdirsə, bu halda cinayət dolayı qəsdlə törədilmiş hesab olunur.

27. **Cinayət işi** – törədilən və ya törədilməsi ehtimal edilən cinayətlə əlaqədar cinayət təqibinin həyata keçirilməsi zamanı toplanmış materialların

məcmusu.

28. **Cinayətkar –** ictimai təhlükəli əməl (hərəkət və ya hərəkətsizlik) törətmiş şəxs. Yalnız törətdiyi ictimai təhlükəli əmələ (hərəkət və ya hərəkətsizliyə) və onun nəticələrinə görə təqsiri müəyyən olunmuş şəxs cinayət məsuliyyətinə cəlb edilə və cəzalandırıla bilər. Şəxs təqsirsiz olaraq vurduğu zərərə görə cinayət məsuliyyətinə cəlb oluna bilməz.
29. **Cinayətkarlıq** – bu və ya digər vaxtda müəyyən ərazidə törədilmiş cinayətlər sistemindən ibarət olan dəyişkən sosial və cinayət-hüquqi neqativ təzahür. Cinayətkarlıq insanlara, iqtisadiyyata, ətraf mühitə, ictimai qaydaya, ictimai təhlükəsizliyə, bütövlükdə dövlətə ciddi zərər vurur.
30. **Cinayət qanunvericiliyi –** cinayət məsuliyyətinin əsaslarını, həddini və cinayət hesab olunan əməlləri, həmçinin onların törədilməsinə görə cəzanın növlərini və ölçüsünü müəyyən edən hüquq normalarının məcmusu. Azərbaycan Respublikasının cinayət qanunvericiliyi Azərbaycan Respublikasının Cinayət Məcəlləsindən ibarətdir.
31. **Cinayətlərin residivi –** qəsdən cinayət törətməyə görə əvvəllər məhkum olunmuş şəxs tərəfindən yenidən qəsdən cinayətin törədilməsi. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18-ci maddəsinə əsasən, cinayətlərin residivi aşağıdakı hallarda təhlükəli sayılır: qəsdən cinayət törətməyə görə əvvəllər iki dəfə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxs, yenidən qəsdən cinayət törətməyə görə azadlıqdan məhrum etmə cəzasına məhkum olunduqda; qəsdən ağır cinayət törətməyə görə əvvəllər azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxs yenidən qəsdən ağır cinayət törətdikdə. Cinayətlərin residivi aşağıdakı hallarda xüsusilə təhlükəli sayılır: qəsdən az ağır və ya qəsdən ağır cinayət törətməyə görə əvvəllər hər hansı ardıcıllıqla üç dəfədən az olmayaraq azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxs yenidən qəsdən cinayət törətməyə görə azadlıqdan məhrum etmə cəzasına məhkum olunduqda; qəsdən ağır cinayət törətməyə görə əvvəllər iki dəfə və ya xüsusilə ağır cinayət törətməyə görə əvvəllər bir dəfə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxs yenidən qəsdən ağır cinayət törətdikdə; qəsdən ağır və ya xüsusilə ağır cinayət törətməyə görə əvvəllər azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxs yenidən xüsusilə ağır cinayət törətdikdə. Azərbaycan Respublikası Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş əsaslarla və hədlərdə cinayətlərin residivinə görə daha sərt cəza tətbiq edilir.
32. **Cinayətlərin təkrar törədilməsi –** cinayət qanununun eyni bir maddəsi ilə nəzərdə tutulmuş cinayətin iki dəfə və ya iki dəfədən çox törədilməsi.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinə əsasən, əvvəllər törətdiyi cinayətə görə bu Məcəllə ilə müəyyən edilmiş qaydada cinayət məsuliyyətindən azad olunmuş, yaxud məhkumluğu götürülmüş və ya ödənilmiş şəxs tərəfindən həmin cinayətin yenidən törədilməsi, cinayətin təkrar törədilməsi hesab edilmir.

33. **Cinayətlərin təsnifatı –** cinayət qanunu ilə nəzərdə tutulmuş əməllərin (hərəkət və ya hərəkətsizlik) xarakterindən və ictimai təhlükəlilik dərəcəsindən asılı olaraq böyük ictimai təhlükə törətməyən, az ağır, ağır və xüsusilə ağır cinayətlər üzrə bölgüsü.
34. **Cinayət mühakimə icraatı –** Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş qaydada məhkəməyədək, habelə birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələrində aparılan icraat.
35. **Cinayət prosesi –** cinayət təqibi üzrə həyata keçirilən prosessual hərəkətlərin və qəbul olunan prosessual qərarların məcmusu.
36. **Cinayət prosesini həyata keçirən orqanlar –** icraatında cinayət işi və ya cinayət təqibi ilə bağlı digər materiallar olan təhqiqat, istintaq, prokurorluq orqanları və ya məhkəmələr.
37. **Cinayət-prosessual hüquq** – cinayətin əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmamağını, cinayəti törətməkdə təqsirləndirilən şəxsin təqsirli olub-olmamağını, habelə cinayət qanunu ilə nəzərdə tutulmuş əməlləri törətməkdə şübhəli və ya təqsirləndirilən şəxsin cinayət təqibinin və müdafiəsinin hüquqi prosedurlarını müəyyənləşdirən hüquq normalarının məcmusu.
38. **Cinayət-prosessual qanunvericiliyi –** cinayətin əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmamağını, cinayəti törətməkdə təqsirləndirilən şəxsin təqsirli olub-olmamağını, habelə cinayət qanunu ilə nəzərdə tutulmuş əməlləri törətməkdə şübhəli və ya təqsirləndirilən şəxsin cinayət təqibinin və müdafiəsinin hüquqi prosedurlarını müəyyən edən hüquq normalarının məcmusu. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə əsasən, Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi ona yönəlmişdir ki: qanunla cinayət hesab olunan əməli törətmiş hər bir şəxsi ifşa etmək və cinayət məsuliyyətinə cəlb etmək mümkün olsun; cinayət törətməkdə təqsiri olmayan heç kəsi cinayət prosesini həyata keçirən orqanların vəzifəli şəxslərinin və ya hakimlərin özbaşına hərəkətləri ilə qanunsuz şübhə altına almaq, ittiham və ya məhkum etmək mümkün olmasın; heç kəs qanunsuz və ya zərurət olmadan prosessual məcburiyyət tədbirlərinə, insan və vətəndaş hüquq

və azadlıqlarının digər məhdudiyyətlərinə məruz qalmasın. Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi qanunçuluğun, insan və vətəndaş hüquq və azadlıqlarına hörmətin bərqərar olmasına imkan yaradır.

39. **Cinayət təqibi –** cinayət hadisəsinin müəyyən edilməsi, cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxsin ifşa olunması, ittiham irəli sürülməsi, bu ittihamın məhkəmədə müdafiə edilməsi, ona cəza təyin edilməsi, zəruri olduqda prosessual məcburiyyət tədbirlərinin təmin edilməsi məqsədilə həyata keçirilən cinayət-prosessual fəaliyyət.
40. **Cinayət törətməkdən könüllü imtina etmə –** cinayəti başa çatdırmaq imkanına malik olduğunu dərk edən şəxs tərəfindən cinayətə hazırlıq hərəkətlərinin və ya bilavasitə cinayət törətməyə yönəldilmiş əməlin (hərəkət və ya hərəkətsizliyin) dayandırılması. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 30-cu maddəsinə əsasən, cinayəti başa çatdırmaqdan könüllü olaraq qəti imtina edən şəxs cinayət məsuliyyətinə cəlb olunmur. Cinayəti başa çatdırmaqdan könüllü imtina edən şəxs yalnız o halda cinayət məsuliyyətinə cəlb olunur ki, onun törətdiyi əməldə başqa bir cinayətin tərkibi olsun.
41. **Cinsi istismar –** şəxsin fahişəlikdə, seksual köləlikdə və ya pornoqrafik materialların istehsalında istifadə edilməsi, digər şəxslərin cinsi istismarından mənfəət əldə edilməsi.
42. **Cismani cəza –** insana fiziki əziyyət, işgəncə verməkdən ibarət olan cəza tədbiri. Müasir beynəlxalq hüquq və hüquqi, demokratik dövlətlərin qanunvericiliyi cismani cəzanı qadağan edir. Hazırda bir sıra ölkələrdə, məsələn, müsəlman hüquq ailəsinə daxil olan bir sıra dövlətlərdə (İran, Əfqanıstan, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Yəmən, Bəhreyn və s.), həmçinin bir sıra digər ölkələrdə (Sinqapur, Nigeriya, Şri-Lanka, o cümlədən ABŞ-nin bəzi ştatlarında) cismani cəzaya yol verilir. ABŞ-də cismani cəza, əsasən məktəblərdə və penitensiar müəssisələrdə tətbiq olunur. Azərbaycan qanunvericiliyi cismani cəzanı birmənalı şəkildə qadağan edir.
43. **Cogitationis poenam nemo patitur** (lat.) – düşüncəyə görə cəzalandırmaq yolverilməzdir.
44. **Constare non potest jus, nisi sit aliquis iuris peritus, per quem possit quotidie in melius produci** (lat.) – hüquq, onu gündəlik olaraq təkmilləşdirən hüquqşünaslar olmadan mövcud ola bilməz.
45. **Contra jus** (lat.) – hüquqa zidd olaraq.
46. **COP –** (Conference of Parties) Tərəflər Konfransı deməkdir. Tərəflər Kon-

fransı BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (1992) icrasına nəzarət edən ali qərarverici orqandır. Burada tərəflər Konvensiyaya üzv olan 198 dövlətdir. Əgər tərəflərin fərqli qərarı olmazsa, COP hər il keçirilir. COP-un ilk konfransı 1995-ci ilin martında Berlində baş tutmuşdur, katibliyi Bonn şəhərində (Almaniya) yerləşir. COP-un missiyası Çərçivə konvensiyasından irəli gələn tələblərin və tövsiyələrin icrasına nəzarət etməkdir. Bu tələblər, əsasən qlobal istiləşmə tempini səngitmək, qlobal istiləşməyə məruz qalan ərazilərin adaptasiyasına dəstək olmaq və 2050-ci ilə qədər "0" – sıfır emissiyaya nail olmaqdır. COP görüşləri ilk növbədə danışıqlar və debatlar ətrafında cərəyan edir. Məqsəd Çərçivə konvensiyasının ümumi məqsədinə doğru irəliləyişi nəzərdən keçirməkdir, yəni iqlim dəyişikliyini məhdudlaşdırmaqdır. Məhz bu səbəblərdən COP görüşləri yeni müqavilələrlə nəticələnir, hədəfləri dəqiqləşdirmək, qaydaları razılaşdırmaq və ya Kioto Protokolu və ya Paris Sazişi kimi müqavilələr yaratmaq məqsədi daşıyır. Hər il keçirilən konfransa (COP) rəhbərlik və ev sahibliyi BMT-nin 5 regional qrupunu (Afrika ölkələri, Asiya ölkələri, Latın Amerikası və Karib ölkələri, Mərkəzi və Şərqi Avropa ölkələri, Qərbi Avropa və digər ölkələr) təmsil edən 198 ölkənin səsverməsi ilə seçilir. 1995-ci il 28 mart – 7 aprel tarixlərində vaxtilə Soyuq Müharibənin qərb və şərq arasında bölünməsinin simvolu olan tarixi şəhərdə – Berlində 117 Tərəf və 53 müşahidəçi dövlətin nümayəndələri ilə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının ilk Konfransı (COP-1) keçirilmişdir. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının, yəni COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərar COP28-in 2023-cü il dekabrın 11-də Dubayda keçirilmiş plenar iclasında qəbul olunmuşdur. 2024-cü ildə Azərbaycanda keçirilmiş COP29 iqlim diplomatiyasında dönüş nöqtəsi oldu və Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşdü. COP29-un nəticəsi olaraq qəbul edilmiş qərarlar ətraf mühitin qorunması baxımından bütün dövlətlər üçün mühüm əhəmiyyət kəsb edir. COP29-un uğurlu nəticələrindən biri də iqlim dayanıqlılığı üçün insan inkişafı üzrə Bakı Təşəbbüsü və iqlim dayanıqlılığı üçün insan inkişafı üzrə Bakı Rəhbər Prinsiplərinin qəbul edilməsi oldu.

47. **Corpus juris** (lat.) – qanunlar külliyyatı.
48. **Curia** (lat.) – məhkəmə.
49. **Cursus curiae est lex curiae** (lat.) – məhkəmənin təcrübəsi məhkəmə üçün qanundur.

Ç

1. **Çəkişmə prinsipi** – mülki işə hərtərəfli və düzgün baxılması və onun həlli üçün zəruri olan faktiki və sübutedici materialların tamlığını təmin edən prinsip. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə əsasən, ədalət mühakiməsi çəkişmə, tərəflərin bərabərliyi və faktlar əsasında həyata keçirilir. Hakim bütün hallarda prosesin çəkişmə prinsipini təmin etməlidir. O, öz qərarını yalnız tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi dəlillərlə, onların verdiyi izahatlarla, sənədlərlə əsaslandırmalıdır.
2. **Çərçivə qanunu** – müəyyən sahəni tənzimləyən, yalnız ümumi prinsipləri müəyyən edən xüsusi qanunvericlik aktı. Çərçivə qanunlarının qəbul edilməsi təcrübəsi bəzi dövlətlərdə (məs., Fransada) geniş tətbiq edilir.

D

1. **Dayanıqlı İnkişaf Məqsədləri** – Birləşmiş Millətlər Təşkilatının üzvü olan dövlətlərin 2015-ci ilin 25-27 sentyabr tarixlərində keçirilən Dayanıqlı İnkişaf Sammitində 2016-2030-cu illər üçün təsdiqlənmiş hədəflər. Qarşıya qoyulmuş məqsəd və hədəflər dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji aspektlərini əhatə etməklə, Minilliyin İnkişaf Məqsədlərinə əsaslanır və növbəti inkişaf istiqamətlərini müəyyənləşdirir. Dayanıqlı İnkişaf Məqsədləri bunlardır: 1. dünyanın hər bir yerində yoxsulluğun və onun bütün formalarının ləğv edilməsi; 2. aclığın ləğv edilməsi, qida təhlükəsizliyinin təmin edilməsi, qidalanmanın yaxşılaşdırılması və dayanıqlı kənd təsərrüfatının inkişafına nail olunması; 3. sağlam həyat tərzinin təmin edilməsi və bütün yaş kateqoriyaları üçün rifaha nail olunması; 4. keyfiyyətli hərtərəfli və ədalətli təhsilin təmin edilməsi və hər kəs üçün bütün həyatı boyu təhsil almaq imkanlarının təbliğ olunması; 5. gender bərabərliyinin təmin edilməsi, eləcə də bütün qadınların və qızların hüquqlarının və imkanlarının genişləndirilməsi; 6. hər kəs üçün su resurslarının və sanitariyanın mövcudluğunun və rasional istifadəsinin təmin edilməsi; 7. hər kəs üçün əlverişli, etibarlı, dayanıqlı və müasir enerjiyə çıxışın təmin edilməsi; 8. hər kəs üçün yüksələn, hərtərəfli və dayanıqlı iqtisadi artıma, eləcə də tam və məhsuldar məşğulluğa və layiqli işə nail olunması; 9. möhkəm infrastrukturun yaradılması, hərtərəfli və dayanıqlı sənayeləşməyə və innovasiyalara nail olunması; 10. ölkədaxili və ölkələrarası qeyri-bərabərliyin ixtisar edilməsi; 11. şəhərlərin və yaşayış məntəqələrinin açıqlığının, təhlükəsizliyinin, davamlılığının və iqtisadi dayanıqlılığının təmin edilməsi; 12. istehlak və istehsalın rasional modellərinə keçidin təmin edilməsi; 13. iqlim dəyişikliyi və onun nəticələrinə qarşı mübarizə sahəsində təcili tədbirlərin həyata keçirilməsi; 14. dayanıqlı inkişaf maraqları naminə okean, dəniz və digər su resurslarının qorunması və onlardan rasional istifadə edilməsi; 15. qurunun ekosistemlərinin müdafiəsi və bərpası, onlardan rasional istifadəyə nail olunması, meşələrdən rasional istifadə olunması, səhralaşma ilə mübarizə aparılması, torpaqların deqradasiyası prosesinin qarşısının alınması və dayandırılması, o cümlədən biomüxtəlifliyin itkisi prosesinin dayandırılması; 16. dayanıqlı inkişaf naminə sülhsevər və açıq cəmiyyətin qurulmasına nail olunması, hər kəs üçün ədalət mühakiməsinin əlçatan olmasının təmin edilməsi və bütün səviyyələrdə səmərəli, məsul və geniş iştiraka əsaslanan təsisatların yaradılması; 17. dayanıqlı inkişaf naminə

qlobal tərəfdaşlıq çərçivəsində icra vasitələrinin möhkəmləndirilməsi və fəaliyyətin canlandırılması.

2. **De-fakto tanıma** (lat. de facto – həqiqətən) – beynəlxalq hüquqda tanımanın formalarından biri. De-fakto tanıma müvəqqəti xarakter daşıyır və qəti tanıma deyildir. De-fakto tanıma yeni dövlətin və ya hökumətin sabitliyinə və uzun müddət qalacağına tam əmin olmamaqdan irəli gəlir. De-fakto tanıma zamanı tərəflər arasında, adətən yalnız konsulluq münasibətləri qurulur.
3. **Dekret** (lat. decretum – qərar, qətnamə) – xüsusi hüquqi qüvvəyə malik olan akt. Qədim Roma hüququndan irəli gəlir. Qədim Romada imperatorun, senatın, konsulun qərarı, Fransada Paris kommunası dövründə ali orqanların qərarları dekret adlanırdı.
4. **Delikt** (lat. delictum – hüquq pozuntusu) – mülki hüquq pozuntusu. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 1096-cı maddəsinə əsasən, mülki hüquq pozuntusu (delikt) hüquqla və ya qanunla müdafiə edilən başqa şəxsə (zərərçəkənə) birbaşa ziyan və ya zərər vurulmasına gətirib çıxaran təqsirli, hüquqa zidd (mülki qanunvericiliyin normalarını pozan) əməldir (hərəkət və ya hərəkətsizlikdir). Delikt törətmiş şəxs mülki hüquq məsuliyyəti daşıyır. Delikt nəticəsində fiziki şəxsin şəxsiyyətinə və ya əmlakına vurulmuş zərərin, habelə hüquqi şəxsin əmlakına və işgüzar nüfuzuna vurulmuş zərərin əvəzi zərərvuran tərəfindən tam həcmdə ödənilməlidir (maddə 1097.1).
5. **Demilitarizasiya** (lat. de – inkar şəkilçisi, militaris – hərbi) – tərk-silah edilmə; beynəlxalq hüquqa uyğun olaraq müəyyən ərazidə hərbi istehkamların və qurğuların ləğv edilməsi, yəni həmin ərazinin tam hərbsizləşdirilməsi.
6. **Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu** – Bax: ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu.
7. **Demokratiya** (yun. demos – xalq, kratos – hakimiyyət, "xalq hakimiyyəti") – xalq hakimiyyətinə əsaslanan siyasi quruluş forması. Demokratik quruluşda xalq hakimiyyətin mənbəyi qismində çıxış edir. Demokratiya, ilk növbədə dövlət mexanizminin hakimiyyətlərin bölgüsü prinsipinə uyğun formalaşmasını nəzərdə tutur. Demokratiya həm respublika, həm də konstitusiyalı monarxiya idarəçilik formalarında təzahür edə bilər. Demokratik quruluşun əsas cəhətlərindən biri əsas insan hüquq və azadlıqlarının hər hansı bir əlamətə görə ayrı-seçkiliyə yol verilmədən təmin edilməsidir. Demokratiya hüququn aliliyinə, insan hüquqlarına, insan şəxsiyyətinə və ləyaqətinə hörmətə əsaslanır.

8. **Demoqrafiya** (yun. demos – xalq, grapho – yazıram) – əhali haqqında elm. Demoqrafiya həmçinin əhalinin sayı, tərkibi və artımı ilə bağlı məlumatların toplanması və təhlili üzrə praktiki fəaliyyət növünü də əhatə edir. Demoqrafiya terminindən ilk dəfə fransız alimi A.Guillard 1855-ci ildə öz əsərini adlandırmaq üçün istifadə etmişdir (A.Guillard, Eléments de statistique humaine ou Démographie comparée; "İnsan statistikasının elementləri və ya müqayisəli demoqrafiya"). Rəsmi olaraq demoqrafiya terminindən ilk dəfə 1882-ci ildə Cenevrədə keçirilmiş gigiyena və demoqrafiya üzrə beynəlxalq konqresdə istifadə edilmişdir. Demoqrafiyanın əsas prosesləri qismində doğum, ölüm və miqrasiya çıxış edir.
9. **Demos** (yun. demos – xalq) – qədim Yunanıstanda xalq, aristokratiyaya mənsub olmayan, lakin müəyyən hüquqları olan azad insanların toplusu.
10. **Denonsasiya** (fr. dénoncer – ləğv etmək) – razılığa gələn yüksək tərəflərdən birinin ikitərəfli beynəlxalq müqaviləni müqavilədə nəzərdə tutulmuş qaydada dayandırması və ya çoxtərəfli beynəlxalq müqavilədən çıxması. Denonsasiya dövlətin beynəlxalq müqavilədə göstərilən şərtlərlə, digər iştirakçı dövlətləri əvvəlcədən xəbərdar etməklə müqavilədən imtina etməsi deməkdir.
11. **Deportasiya** (lat. deportatio – sürgün etmə) – şəxsin və ya şəxslər qrupunun məcburi qaydada başqa bir dövlətin ərazisinə köçürülməsi. Müasir beynəlxalq hüquq qanunsuz və məcburi deportasiyanı qadağan edir. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyaya dair 7 saylı Protokolun əcnəbilərin çıxarılmasına dair prosedur təminatları nəzərdə tutan 1-ci maddəsinə uyğun olaraq, qanuni əsaslarla dövlətin ərazisində yaşayan əcnəbi, qanuna müvafiq qəbul edilmiş qərarların icrası istisna olmaqla, oradan çıxarıla bilməz və onun aşağıdakı imkanları olmalıdır: özünün çıxarılmasına qarşı arqumentlər təqdim etmək, öz işinə baxılmasını tələb etmək və bu məqsədlərə görə səlahiyyətli orqan qarşısında və belə orqanların təyin etdiyi şəxs yaxud şəxslər qarşısında təmsil olunmaq. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin "Əhalini deportasiya etmə və ya məcburi köçürmə" adlanan 107-ci maddəsinə əsasən, beynəlxalq hüquq normaları və Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş əsaslar olmadıqda, əhalini qanuni yerləşdiyi yerlərdən başqa ölkəyə qovma və ya digər məcburi hərəkətlərlə didərgin salma on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.
12. **Depozitari** (lat. depositarium – saxlanılan yer) – çoxtərəfli beynəlxalq müqavilənin əsl, yəni autentik mətnini və ona dair bütün digər sənədləri

(bəyanatlar, qeyd-şərtlər və s.) saxlayan tərəf. Depozitari qismində bir və ya bir neçə dövlət, beynəlxalq təşkilat, beynəlxalq təşkilatın ali vəzifəli şəxsi çıxış edə bilər. BMT çərçivəsində bağlanan çoxtərəfli beynəlxalq müqavilələrin depozitarisi rolunda, bir qayda olaraq BMT-nin Baş katibi çıxış edir.

13. **Deputat** (lat. deputatus – göndərilmiş) – xalq tərəfindən seçilmiş və qanunvericilik hakimiyyətini həyata keçirmək səlahiyyətinə malik olan nümayəndə. Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında Azərbaycan Respublikasının 17 may 1996-cı il tarixli Qanununa müvafiq olaraq, deputat aşağıdakı formalarda fəaliyyət göstərir: Milli Məclisin iclaslarında iştirak edir; Milli Məclisin komitə və komissiyalarının işində iştirak edir; Milli Məclisin, Milli Məclisin sədrinin, Milli Məclisin komitə və komissiyalarının tapşırıqlarını yerinə yetirir; deputat sorğuları verir; seçicilərlə iş aparır (maddə 5).
14. **Deputat sorğusu** – deputatın dövlət hakimiyyəti orqanlarına, vəzifəli şəxslərə rəsmi müraciəti. Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında Azərbaycan Respublikasının 17 may 1996-cı il tarixli Qanununa müvafiq olaraq, deputat öz səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, məhkəmə hakimiyyəti orqanlarına, Azərbaycan Respublikasının Baş prokuroruna və ona tabe olan prokurorlara, yerli özünüidarə orqanlarına və onların vəzifəli şəxslərinə, Azərbaycan Respublikası Mərkəzi Bankının idarə heyətinə, Azərbaycan Respublikasının Auditorlar Palatasına sorğu verə bilər. Deputat sorğusu deputat tərəfindən fərdi qaydada və ya Azərbaycan Respublikası Milli Məclisinin iclaslarında yazılı şəkildə verilir. Sonuncu halda deputat sorğusu Azərbaycan Respublikası Milli Məclisinin iclasına sədrlik edən və ya sorğunu verən deputat tərəfindən oxunur. Müvafiq orqanlar və ya vəzifəli şəxslər deputat sorğusuna bir ay müddətində rəsmi surətdə yazılı cavab verməlidirlər (maddə 10).
15. **Deroqasiya** (lat. derogatio – azalma) – 1. köhnə qanunun qismən ləğv edilməsi; 2. insan hüquqlarının məhdudlaşdırılması.
16. **Devalvasiya** (lat. de – enmə, aşağı düşmə, valeo – qiyməti olmaq, dəyəri olmaq) – milli valyutanın dəyərinin azalması. Devalvasiya iqtisadi siyasətlə müəyyənləşən real valyuta kursunun aşağı enməsidir.
17. **Deviant davranış** – hüquqazidd, o cümlədən qeyri-əxlaqi davranış.
18. **De-yure tanıma** (lat. de jure – hüquqi) – beynəlxalq hüquqda tanımanın formalarından biri. De-yure tanıma tam və qəti tanımadır. De-yure tanıma tərəflər arasında diplomatik münasibətlərin qurulması ilə nəticələnir.

19. **Dələduzluq –** etibardan sui-istifadə etmə və ya aldatma yolu ilə özgənin əmlakını ələ keçirmə və ya əmlak hüquqlarını əldə etmə. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, dələduzluq cinayət əməlidir.
20. **Diffamasiya** (lat. defamatio – pisləmək, ləkələmək) **–** fiziki və ya hüquqi şəxsin ləyaqətini alçaldan ləkələyici məlumatların yayılması. Bu terminin hüquqi təsbiti hələ orta əsrlərdə ilk dəfə İngiltərədə reallaşdırılmışdır və hal-hazırda orada yazılı böhtanı (libel) və şifahi təhqiramiz ifadələri, şəratmanı (slander) əks etdirən iki qanun hüquqi qüvvəyə malikdir: "Böhtan haqqında" 1819-cu il Cinayət Aktı və "Diffamasiya haqqında" 1996-cı il Aktı. Əksər dövlətlərin qanunvericiliyi diffamasiyanı zərərçəkmiş şəxsin ləyaqətini alçaldan və onun işgüzar nüfuzuna xələl gətirən hüquqazidd əməl kimi nəzərdə tutur. Məzmununa görə diffamasiyanın iki növü fərqləndirilir: cinayət və mülki diffamasiya. Cinayət diffamasiyası böhtan və ya təhqirə görə cinayət qanunvericiliyində cinayət tərkiblərinin nəzərdə tutulmasını əhatə edir (Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 147, 148 və 148-1-ci maddələri). Mülki diffamasiya şərəf, ləyaqət və işgüzar nüfuzun mülki icraat çərçivəsində müdafiəsinə yönəlmişdir (Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23-cü maddəsi).
21. **Diktatura** (lat. dictatura **–** qeyri-məhdud hakimiyyət) **–** bir şəxs, şəxslər qrupu yaxud müəyyən bir təbəqə tərəfindən güc hesabına həyata keçirilən, qanunla məhdudlaşmayan, qeyri-məhdud hakimiyyət. Diktatura hər hansı bir məhdudiyyəti olmayan, qeyri-qanuni, gücə əsaslanan hakimiyyət formasıdır. Diktatura demokratiyanın tam əks formasıdır.
22. **Dini ekstremist –** hər hansı formada dini ekstremist fəaliyyətin həyata keçirilməsində iştirak edən şəxs.
23. **Dini ekstremizm –** dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində törədilən hüquqazidd əməl. Dini ekstremizmə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının 4 dekabr 2015-ci il tarixli Qanununa əsasən, dini ekstremizm (dini ekstremist fəaliyyət) – dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində: Azərbaycan Respublikasının konstitusiya quruluşunun, o cümlədən onun dünyəvi xarakterinin zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına, yaxud hakimiyyətin zorla ələ keçirilməsinə yönələn hərəkətlərin törədilməsi; qanunsuz silahlı birləşmələrin və ya qrupların yaradılması, həmin birləşmə və ya qruplarda iştirak edilməsi; terror fəaliyyətinin həyata keçirilməsi; Azərbaycan Respublikasının hüdudlarından kənarda silahlı münaqişələrdə iştirak edilməsi; milli, sosial və ya dini nifrətin salınma-

sı, milli ləyaqətin alçaldılması, milli, irqi, sosial və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlərin törədilməsi; şəxsin hər hansı dinə (dini cərəyana) etiqad etməyə, o cümlədən dini ayin və mərasimləri yerinə yetirməyə və ya dini ayin və mərasimlərdə iştirak etməyə, habelə dini təhsil almağa məcbur edilməsi; bu Qanunda nəzərdə tutulmuş əməllərin törədilməsinə açıq çağırışların edilməsi; dini ekstremist materialların, yəni dini ekstremist fəaliyyəti həyata keçirməyə çağıran və ya belə fəaliyyəti əsaslandıran, yaxud belə fəaliyyətin zəruriliyinə bəraət qazandıran materialların hazırlanması, saxlanması və ya yayılması; dini ekstremizmin maliyyələşdirilməsidir (maddə 1).

24. **Dini ekstremizmə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu –** Azərbaycan Respublikasında dini ekstremizmə qarşı mübarizənin hüquqi və təşkilati əsaslarını müəyyən edən, dini ekstremizm əleyhinə mübarizəni həyata keçirən, dövlət orqanlarının və vətəndaşların hüquq və vəzifələrini təsbit edən qanunvericilik aktı. 4 dekabr 2015-ci ildə qəbul edilmişdir.

25. **Dini etiqad azadlığı –** Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas azadlıqlardan biri. Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinə əsasən, hər kəsin vicdan azadlığı vardır. Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır. Dini mərasimlərin yerinə yetirilməsi, ictimai qaydanı pozmursa və ya ictimai əxlaqa zidd deyildirsə, sərbəstdir. Dini etiqad və əqidə hüquq pozuntusuna bəraət qazandırmır. Heç kəs öz dini etiqadını və əqidəsini ifadə etməyə (nümayiş etdirməyə), dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur edilə bilməz. Dini etiqad azadlığı haqqında Azərbaycan Respublikasının 20 avqust 1992-ci il tarixli Qanununa əsasən, hər kəsin hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır. Şəxsin dini etiqadını ifadə etməsinə, ibadətlərdə, dini ayin və mərasimlərdə iştirak etməsinə və ya dini öyrənməsinə hər hansı maneə törədilə bilməz. Heç kəs öz dini etiqadını ifadə etməyə (nümayiş etdirməyə), dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur edilə bilməz. Dini etiqadın və dini həyat tərzinin zor tətbiq etməklə və ya zor tətbiq ediləcəyi ilə hədələməklə, habelə irqi, milli,

dini, sosial ədavət və düşmənçilik yaratmaq məqsədilə təbliğinə yol verilmir. İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin (dini cərəyanların) yayılması və təbliği qadağandır. Dini etiqad azadlığı yalnız qanunda nəzərdə tutulan və demokratik cəmiyyətdə zəruri olan hallarda ictimai təhlükəsizlik mənafeləri üçün, ictimai qaydanın təmin edilməsi, sağlamlığın, mənəviyyatın və ya digər şəxslərin hüquq və azadlıqlarının qorunması üçün məhdudlaşdırıla bilər. Bu Qanunun 21-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində dini təbliğat aparılması qadağandır. Belə ki, 21-ci maddəyə görə, Azərbaycan Respublikasında fəaliyyət göstərən dini mərkəz (idarə) tərəfindən dəvət edilmiş və ya Azərbaycan Respublikasında rəsmi səfərdə olan əcnəbi və ya vətəndaşlığı olmayan din xadimi tərəfindən dini ibadət, ayin və mərasimlərin aparılmasına yol verilir. Valideynlər və ya digər qanuni nümayəndələr, qarşılıqlı razılıq əsasında uşaqları özlərinin dini əqidəsinə və dinə münasibətinə müvafiq olaraq tərbiyə edə bilərlər. Uşaqların dinə etiqad etməyə məcbur edilməsi qadağandır. Uşaqların dini tərbiyəsi onların fiziki və psixi sağlamlığına mənfi təsir göstərməməlidir. Bu Qanunun 21-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, kütləvi dini ibadət, ayin və mərasimlərin icrası zamanı dini təlimin əsaslarının işıqlandırılması yalnız bu Qanunla müəyyən edilmiş qaydada təyin olunmuş din xadimləri tərəfindən həyata keçirilə bilər. Dini ekstremizmin təbliğinə, həmçinin siyasi məqsədlər üçün dinlərarası və dinlərdaxili fərqlərin istifadəsinə yönəldilmiş fəaliyyət qadağandır (maddə 1). Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 18-ci maddəsinə əsasən, hər bir insan düşüncə, vicdan və din azadlığı hüququna malikdir; bu hüquqa öz dinini və ya əqidəsini dəyişmək azadlığı, öz dininə və ya əqidəsinə həm təkbaşına, həm də başqaları ilə birlikdə, dini təlimdə, ibadətdə və dini mərasim qaydalarının yerinə yetirilməsində açıq və fərdi qaydada etiqad etmək azadlığı daxildir. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 18-ci maddəsinə əsasən, hər bir insanın fikir, vicdan və din azadlığı hüququ vardır. Bu hüquqa özünün seçdiyi dinə və əqidəyə malik olmaq, öz dininə və əqidəsinə istər təklikdə, istərsə də başqaları ilə birgə, açıq, yaxud fərdi qaydada, ibadətdə, dini ayin və mərasimlərin icrasında və təlimdə etiqad bəsləmək azadlığı daxildir. Heç kəs öz seçiminə görə dininə və əqidəsinə malik olmaq və ya onları qəbul etmək azadlığını alçaldan məcburiyyətə məruz qalmamalıdır. Öz dininə və əqidəsinə etiqad etmək azadlığına yal-

nız qanunla müəyyən edilən və ictimai təhlükəsizliyin, asayişin, sağlamlığın və əxlaqın, eyni dərəcədə digər şəxslərin əsas hüquq və azadlıqlarının mühafizəsi üçün zəruri olan məhdudiyyətlər qoyula bilər. Bu Paktda iştirak edən dövlətlər valideynlərin və müvafiq hallarda qanuni qəyyumların uşaqlarının öz şəxsi əqidələrinə uyğun dini və mənəvi tərbiyə almasını təmin etmək azadlığına hörmət etməyi öhdələrinə götürürlər. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın 9-cu maddəsinə əsasən, hər kəsin fikir, vicdan və din azadlığı hüququ vardır; bu hüquqa öz dinini və ya əqidəsini dəyişmək azadlığı, öz dininə və ya əqidəsinə həm təkbaşına, həm də başqaları ilə birlikdə etiqad etmək və açıq yaxud şəxsi qaydada ibadəti, təlimləri, dini və mərasim ayinlərini yerinə yetirmək azadlığı daxildir. Öz dininə və baxışlarına etiqad etmək azadlığı yalnız ictimai asayiş maraqları naminə, ictimai qaydanı, sağlamlığı, yaxud mənəviyyatı qorumaq üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan məhdudiyyətlərə məruz qala bilər.

26. **Dini etiqad azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu –** Azərbaycan Respublikasında dini etiqad azadlığının Azərbaycan Respublikasının Konstitusiyasına və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə müvafiq surətdə həyata keçirilməsi üçün təminatlar yaradan, dini qurumların statusunu, hüquq və vəzifələrini müəyyənləşdirən, dini qurumların fəaliyyəti ilə bağlı yaranan münasibətləri tənzimləyən qanunvericilik aktı. 20 avqust 1992-ci ildə qəbul edilmişdir.
27. **Dini fanatizm** – dini ekstremizmin ideoloji əsaslarından biri olmaqla, dini inamın hər hansı tənqidi yanaşmanı istisna edən və dini normalara kor-koranə riayət etmə ilə müşayiət edilən ifrat dərəcəsi.
28. **Dini icma –** Dini etiqad azadlığı haqqında Azərbaycan Respublikasının 20 avqust 1992-ci il tarixli Qanununa əsasən, dini icma dinə birlikdə ibadət etmək və digər dini tələbatı ödəmək məqsədilə eyni inzibati ərazi vahidi hüdudlarında yaşayan könüllülük əsasında birləşmiş yetkinlik yaşına çatmış dindar şəxslərin yerli dini qurumudur (maddə 8).
29. **Dini qurumlar –** Dini etiqad azadlığı haqqında Azərbaycan Respublikasının 20 avqust 1992-ci il tarixli Qanununa əsasən, dini mərkəz və idarələr, dini təhsil müəssisələri və dini icmalar, onların birlikləri dini qurumlardır. Dini qurumlar öz mərkəzi (idarələri) ilə təmsil olunurlar (maddə 7).
30. **Dini radikalizm** – hər hansı dini etiqad çərçivəsində ifrat dini baxışlara

bağlılığı ifadə edən, həmin dini baxışların müstəsnalığının təsbit edilməsində barışmaz mövqe nümayiş etdirən və yayılmasında aqressiv üsul və vasitələrdən istifadə edilməsi ilə səciyyələnən davranış.

31. **Din və əqidə azadlığı üzrə BMT-nin Xüsusi Məruzəçisi –** əsas vəzifəsi "Dözümsüzlüyün və din və əqidə azadlığı sahəsində ayrı-seçkiliyin bütün növlərinin ləğv olunması haqqında Bəyannamə"nin müddəalarının BMT-nin üzvü olan dövlətlər tərəfindən tətbiq olunmasına nəzarət etmək və məruzələr hazırlamaqdan ibarət olan beynəlxalq vəzifəli şəxs.

32. **Diskriminasiya** (lat. discriminatio – fərqləndirmə) **–** fiziki və ya hüquqi şəxslərin hüquqlarının digər fiziki və ya hüquqi şəxslərə münasibətdə məhdudlaşdırılması. Geniş mənada diskriminasiya dedikdə, hər hansı əlamətə görə insan hüquq və azadlıqlarının məhdudlaşdırılması başa düşülür. Müasir beynəlxalq hüquq diskriminasiyanı qadağan edir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə əsasən, bütün insanlar öz ləyaqətləri və hüquqları etibarilə azad və bərabər doğulurlar. Hər bir insan, irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti və digər vəziyyətlərinə görə heç bir fərq qoyulmadan Bəyannamədə bəyan edilən bütün hüquqlara və azadlıqlara malik olmalıdır. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakta müvafiq olaraq, Paktda iştirak edən hər bir dövlət, onun ərazisi hüdudlarında və onun yurisdiksiyası altında olan bütün şəxslərin Paktda qəbul edilən hüquqlarına, irqi, dərisinin rəngi, cinsi, dini, dili, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, doğuşu və digər halları ilə bağlı əlamətlərinə heç bir fərq qoymadan hörmət etməyi, onların bu hüquqlarını təmin etməyi öhdəsinə götürür. Paktda iştirak edən dövlətlər Paktda nəzərdə tutulan bütün mülki və siyasi hüquqlardan kişilərin və qadınların bərabər şəkildə istifadə etmələrini təmin etməyi öhdələrinə götürürlər. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyaya əsasən, bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlardan istifadə cins, irq, dərinin rəngi, dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya hər hansı digər əlamətlərə görə ayrı seçkilik olmadan təmin olunmalıdır. Konvensiyaya dair 12 saylı Protokol isə diskriminasiyanı ümumi şəkildə qadağan edir. Protokolun 1-ci maddəsinə uyğun olaraq, qanunla nəzərdə tutulmuş istənilən hüquqdan istifadə cins, irq, rəng, dil, din, siyasi və ya digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya hər hansı digər əlamətlərə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır. Azərbaycan

Respublikasının qanunvericiliyi də diskriminasiyanı birmənalı olaraq qadağan edir. Azərbaycan Respublikası Konstitusiyasına görə, dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən aslı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır. Həmçinin bax: ayrı-seçkilik.

33. **Dissertasiya –** müvafiq elmi dərəcə almaq üçün təqdim edilən elmi tədqiqat işi.
34. **Distant təhsil –** tədris prosesinin elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında təşkil olunduğu təhsilalma forması.
35. **Dominium non potest esse in pendenti** (lat.) **–** mülkiyyətçinin hüququ ləğv edilə bilməz.
36. **Dövlət –** cəmiyyətin siyasi təşkilinin hüquqi forması. Beynəlxalq hüquqa görə, dövlət beynəlxalq hüququn əsas və ilkin subyekti, beynəlxalq münasibətlərin iştirakçısıdır. Dövlət özündə üç əsas elementi ehtiva edir: müəyyən ərazi, həmin ərazidə yaşayan əhali və hakimiyyət. Dövləti beynəlxalq hüququn əsas subyekti kimi xarakterizə edən başlıca cəhət suverenlikdir. Dövlət universal beynəlxalq hüquq qabiliyyətinə malikdir. Beynəlxalq hüququn subyekti kimi dövlətin bir sıra hüquqları və öhdəlikləri vardır. Müasir beynəlxalq hüquq doktrinasına görə, dövlətin əsas hüquqları sırasında müstəqillik və özünün qanuni maraqlarını sərbəst surətdə həyata keçirmək hüququ, digər dövlətlərlə bərabər tərəfdaşlıq hüququ, təkbaşına və kollektiv özünümüdafiə hüququ, əsas öhdəlikləri sırasında isə insan hüquq və azadlıqlarına hörmət etmək, digər dövlətlərin daxili və xarici işlərinə müdaxilə etməmək, digər dövlətin ərazi bütövlüyünü pozmamaq, beynəlxalq öhdəliklərini vicdanla yerinə yetirmək və digərlərini qeyd etmək olar. Ümumi dövlət nəzəriyyəsinə görə, "dövlət" termini dövlət hakimiyyətinin təşkili və fəaliyyətinin müxtəlif tərəflərini ehtiva edən aşağıdakı mənalarda işlədilir: 1. müəyyən ərazidə yaşayan və dövlət hakimiyyəti ilə birləşən insanların toplusu; 2. dövlət hakimiyyətini həyata keçirən təşkilat yaxud dövlət aparatı, dövlət orqanlarının və vəzifəli şəxslərin məcmusu; 3. hüquqla tənzimlənən siyasi münasibətlərin məcmusu. Tanınmış ingilis filosofu Con Lokkun (1632-1704) fikrincə, dövlət təbii hüquqların və qanunların təmin edilməsi məqsədilə yaradılmışdır, o, təbii hüquqlara və qanuna qəsd etməməlidir. Məşhur alman fi-

losofu İmmanuel Kanta (1724-1804) görə, dövlət hüquqi qanunlara tabe olan müxtəlif insanların birliyidir.

37. **Dövlət hakimiyyəti –** sosial hakimiyyətin xüsusi növü və dövlət suverenliyinin ayrılmaz elementi olub, dövlət tərəfindən həyata keçirilən siyasi hakimiyyətdir. Hüquqi-demokratik dövlətlərdə dövlət hakimiyyəti hakimiyyətlərin bölgüsü prinsipi əsasında həyata keçirilir. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir: qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir; icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur; məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir. Konstitusiyanın müddəalarına əsasən, qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

38. **Dövlətin daxili yurisdiksiyasında olan işlərə qarışmamaq prinsipi** – beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərindən biri. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, dövlətin öz suveren hüquqlarını öz iradəsinə uyğun həyata keçirməsinə heç bir digər dövlət və ya beynəlxalq təşkilat qarışa bilməz. BMT Nizamnaməsinin 2-ci maddəsinin 7-ci bəndində deyilir: "Bu Nizamnamənin heç bir müddəası Birləşmiş Millətlərə səlahiyyət vermir ki, hər hansı bir dövlətin əsas etibarilə daxili yurisdiksiyasında olan məsələlərə müdaxilə etsin...". Qeyd olunan prinsipin normativ məzmununu belə qruplaşdırmaq olar: 1. dövlətin suverenliyinə və onun siyasi və iqtisadi əsaslarına qarşı yönəlmiş silahlı müdaxilə və digər müdaxilə formaları qadağandır; 2. heç bir dövlət başqa bir dövlətin, onun öz suveren hüquqlarını həyata keçirməkdə özünə tabe edilməsinə və bununla ondan hər hansı imtiyaz əldə edilməsinə nail olmaq üçün hərbi, siyasi və ya istənilən digər məcburiyyət tətbiq edə bilməz; 3. başqa bir dövlətin quruluşunun zorakı yolla dəyişdirilməsinə yönəlmiş təxribatçı və ya terrorist fəaliyyətin təşkili və yaxud dəstəklənməsi yolverilməzdir; 4. başqa bir dövlətdə silahlı münaqişəyə müdaxilə qadağandır; 5. hər bir dövlət digər dövlətlərin və beynəlxalq hüququn digər subyektlərinin müdaxiləsi olmadan öz siyasi, iqtisadi, sosial və mədəni sistemini seçmək hüququna malikdir.

39. **Dövlətin idarə olunmasında iştirak etmək hüququ** – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq hüquqi aktlarda təsbit olunmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 55-ci maddəsinə əsasən, Azərbaycan Respublikası

vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ vardır. Bu hüququ onlar bilavasitə və ya nümayəndələri vasitəsilə həyata keçirə bilərlər. Azərbaycan Respublikasının vətəndaşları dövlət orqanlarında qulluq etmək imkanına malikdirlər. Dövlət orqanlarının vəzifəli şəxsləri Azərbaycan Respublikasının vətəndaşları sırasından təyin edilirlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət qulluğuna qanunla müəyyənləşdirilmiş qaydada qəbul edilə bilərlər. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 21-ci maddəsinə əsasən, hər bir insan öz ölkəsinin idarə edilməsində bilavasitə və yaxud azad seçilən nümayəndələr vasitəsilə iştirak etmək hüququna malikdir. Hər bir şəxs öz ölkəsində dövlət xidmətində qulluq etmək üçün bərabər imkana malik olmaq hüququna malikdir. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 25-ci maddəsinə müvafiq olaraq, hər bir vətəndaş hər hansı bir ayrı-seçkiliyə yol verilmədən və heç bir əsassız məhdudiyyət qoyulmadan aşağıdakı hüquq və imkanlara malik olmalıdır: a) dövlət işlərinin aparılmasında həm bilavasitə, həm də azad seçilmiş nümayəndələr vasitəsilə iştirak etmək; b) ümumi və bərabər seçki hüququ əsasında, gizli səsvermə yolu ilə keçirilən və seçicilərin öz iradələrini azad şəkildə bildirmələrinin təmin edildiyi həqiqi vaxtaşırı seçkilərdə səs vermək və seçilmək; c) öz ölkəsində ümumi bərabərlik əsasında dövlət qulluğuna buraxılmaq.

40. **Dövlətin yurisdiksiyası –** dövlət tərəfindən hakimiyyət səlahiyyətlərinin həyata keçirilməsini ifadə edən hüquqi termin. Dövlətin qanunverici, inzibati (icra) və məhkəmə yurisdiksiyası fərqləndirilir. Dövlətin öz yurisdiksiyasını həyata keçirməsi dövlətin ərazisi hüdudlarında öz suverenliyini həyata keçirməsidir.

41. **Dövlət qulluğu –** dövlət funksiyalarının dövlət aparatının əməkdaşları tərəfindən praktiki şəkildə həyata keçirilməsində ifadə olunan əmək fəaliyyətinin xüsusi növü. Hüquqi institut kimi dövlət qulluğu dövlət qulluqçularının hüquqi vəziyyətini, dövlət qulluğu qaydalarını müəyyən edən hüquqi normalar kompleksidir. Bir sıra qərb dövlətlərində "dövlət qulluğu" termini əvəzinə "mülki qulluq" terminindən istifadə edilir. Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının 21 iyul 2000-ci il tarixli Qanununa əsasən, dövlət qulluğu Azərbaycan Respublikasının Konstitusiyasına və digər normativ hüquqi aktlarına uyğun olaraq dövlətin məqsəd və funksiyalarının həyata keçirilməsi sahəsində, dövlət qulluğu sahəsində xidmətdir. Dövlət qulluğunun əsas vəzifələri aşağıdakılardır: Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunvericilik aktları əsasında vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi; dövlət orqanla-

rının səlahiyyəti hüdudlarında qərarların hazırlanması, qəbul edilməsi, icrası və onların icrasına nəzarət edilməsi; dövlət orqanlarının səmərəli fəaliyyətinin və dövlət qulluqçuları tərəfindən qulluq funksiyalarının icrasının təmin edilməsi (maddə 3). Dövlət qulluğu aşağıdakı prinsiplərə əsaslanır: qanunçuluq; Azərbaycan Respublikasında qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının səlahiyyət hüdudlarının müəyyən edilməsi; dövlət orqanlarına və dövlət qulluqçularına nəzarət və onların hesabat verməsi; yuxarı kateqoriya dövlət orqanlarının və vəzifəli şəxslərin öz səlahiyyətləri hüdudlarında qəbul etdikləri qərarların aşağı kateqoriya dövlət orqanları və vəzifəli şəxslər tərəfindən yerinə yetirilməsinin məcburiliyi; bütün vətəndaşların və vəzifəli şəxslərin dövlət qulluqçularının qanuni tələblərini icra etməyə və qanuni hərəkətlərini müdafiə etməyə borclu olması; dövlət qulluğuna qəbulun şəffaflığı; vətəndaşların dövlət qulluğuna müsabiqə və müsahibə əsasında qəbul edilməsi; vətəndaşların öz qabiliyyətlərinə, xidməti nailiyyətlərinə və peşə hazırlığına uyğun olaraq dövlət qulluğunun hər hansı vəzifəsini tutmaqda hüquq bərabərliyi; irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, sosial mənşəyindən, ailə, əmlak və qulluq mövqeyindən, yaşayış yerindən, əqidəsindən, həmkarlar ittifaqlarına və ya ictimai birliklərə mənsubiyyətindən, habelə dövlət qulluqçusunun xidməti fəaliyyətinə aid olmayan başqa səbəblərdən asılı olmayaraq dövlət qulluqçularının hüquq bərabərliyi; dövlət qulluqçularının potensialının səmərəli istifadəsi və peşəkarlıq səviyyəsinin artırılması məqsədilə onların rotasiyası; dövlət qulluqçularının sosial və hüquqi müdafiəsi, onların özləri və ailələri üçün layiqli həyat səviyyəsinin təmin edilməsi; dövlət orqanlarının və ya onların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri (hərəkətsizliyi) nəticəsində vurulmuş zərərə görə dövlət orqanlarının məsuliyyət daşıması (maddə 4).

42. **Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanunu –** Azərbaycan Respublikasında dövlət qulluğunun hüquqi, təşkilati və maliyyə-iqtisadi əsaslarını müəyyən edən qanunvericilik aktı. 21 iyul 2000-ci ildə qəbul edilmişdir.

43. **Dövlət qulluqçusu –** Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının 21 iyul 2000-ci il tarixli Qanununa əsasən, yalnız bu Qanunun 1.1.4-cü maddəsində nəzərdə tutulan mənbələrdən dövlət məvacibi alan, bu Qanunla müəyyən edilmiş qaydada inzibati və ya yardımçı dövlət qulluğu vəzifəsini tutan və ixtisas dərəcəsi verilən, inzibati vəzifə üzrə ilk dəfə daimi dövlət qulluğuna qəbul edilərkən Azərbaycan Respublikasına sadiq olacağına and içən, Azərbaycan Respublikasının vətəndaşı olan dövlət orqanının işçisi.

44. **Dövlət quruluşu –** konstitusiya hüquq normaları ilə müəyyən edilən sosial, iqtisadi, siyasi və hüquqi münasibətlər sistemi.
45. **Dövlətlərin bir-biri ilə əməkdaşlıq etmək prinsipi –** beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərindən biri. Bu prinsip ilk dəfə olaraq BMT Nizamnaməsində təsbit olunmuşdur. Beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında və iqtisadi, sosial, mədəni və humanitar xarakterli problemlərin həllində əməkdaşlıq etmək dövlətlərin həm hüququ, həm də vəzifəsidir. Dövlətlərin əməkdaşlığı onların siyasi, iqtisadi və sosial sistemlərindəki fərqlərdən asılı olmayaraq həyata keçirilməlidir.
46. **Dövlətlərin ərazi bütövlüyü prinsipi** – beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərindən biri. Bu prinsipin başlıca məzmunu ondan ibarətdir ki, dövlətlər bir-birinin ərazi bütövlüyünə hörmət etməlidirlər. Hər bir dövlət başqa bir dövlətin ərazi bütövlüyünün pozulmasına yönəlmiş hüquqazidd hərəkətlərdən çəkinməlidir. Dövlətin ərazisi qanunsuz güc tətbiqi nəticəsində hərbi işğal obyekti ola bilməz. Qeyd olunan prinsip BMT Nizamnaməsinin 2-ci maddəsində öz əksini tapmışdır. Həmin maddəyə əsasən, bütün üzvlər öz beynəlxalq münasibətlərində hər hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı və yaxud BMT-nin məqsədləri ilə bir araya sığmayan hər hansı bir şəkildə güclə hədələməkdən və gücün tətbiqindən çəkinirlər.
47. **Dövlətlərin suveren bərabərliyi prinsipi** – beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərindən biri. Bu prinsip öz birbaşa ifadəsini BMT Nizamnaməsinin 2-ci maddəsinin 1-ci bəndində tapmışdır: "Təşkilat onun bütün üzvlərinin suveren bərabərliyi prinsipinə əsaslanır". Suveren bərabərlik prinsipinin məzmunu iki elementdən ibarətdir: 1. Hər bir dövlət tam suverenliyə malikdir və öz siyasi və iqtisadi sistemini sərbəst və maneəsiz olaraq özü müəyyən edir. Hər bir dövlət bütün digər dövlətlərin suverenliyinə, o cümlədən ərazi bütövlüyünə və siyasi müstəqilliyinə hörmət etməlidir. 2. Bütün dövlətlər ərazisinin miqyasından, əhalisinin sayından, inkişaf səviyyəsindən və hərbi-siyasi potensialından asılı olmayaraq hüquqi cəhətdən bərabərdir. Beynəlxalq təşkilatlarda, bir qayda olaraq, hər bir dövlət bir səsə malikdir. Beynəlxalq hüquq normaları dövlətlər tərəfindən qarşılıqlı razılıq yolu ilə bərabərhüquqlu əsasda yaradılır. Suveren bərabərlik prinsipi bütün dövlətlərin beynəlxalq məsələlərin həllində bərabər iştirakını təmin etməyə yönəlmişdir.
48. **Dövlət orqanı –** hakimiyyət səlahiyyətlərinə malik olan və ictimai həyatın müəyyən bir sahəsinin idarə edilməsi üzrə dövlət vəzifələrini yerinə yetirən təşkilat. Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının 21

iyul 2000-ci il tarixli Qanununa əsasən, dövlət orqanı – Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş hüdudlarda dövlətin məqsədini və funksiyalarını həyata keçirən, Azərbaycan Respublikasının dövlət büdcəsindən, Naxçıvan Muxtar Respublikasının büdcəsindən və qanunla müəyyən edilən hallarda əlavə olaraq büdcədənkənar vəsaitlər hesabına maliyyələşdirilən, Azərbaycan Respublikasının Konstitusiyasına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq yaradılan və bu Qanunun 7-ci maddəsində nəzərdə tutulan struktura malik olan dövlət təsisatıdır.

49. Dövlət orqanının vəzifəli şəxsi – inzibati vəzifə tutan və hakimiyyət səlahiyyətləri alan dövlət qulluqçusu.

50. Dövlət sirri – dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı olub, dövlət tərəfindən mühafizə edilən və yayılması Azərbaycan Respublikasının təhlükəsizliyinə ziyan vura bilən məlumatlar (Dövlət sirri haqqında 7 sentyabr 2004-cü il tarixli Azərbaycan Respublikası Qanununun 1-ci maddəsi).

51. Dövlət suverenliyi – beynəlxalq hüququn əsas və ilkin subyekti kimi dövlətin siyasi və hüquqi müstəqilliyini bildirən onun ayrılmaz, təbii, hüquqi və başlıca keyfiyyəti. Suverenlik bir dövlətin, onun hakimiyyətinin digər dövlətdən, onun hakimiyyətindən asılı olmamasını ehtiva edir. Suverenlik dövlət hakimiyyətinin müstəqil şəkildə həyata keçirilməsini təsbit edir. Suverenlik həm də dövlətin əsas əlamətlərindən biridir, yəni dövlətin siyasi-hüquqi mənada dövlət olduğunu göstərən mühüm xüsusiyyətdir. Suverenlik doktrinasının banisi tanınmış fransız mütəfəkkiri Jan Boden (1530-1596) hesab edilir. J.Boden müstəqilliyi dövlət hakimiyyətinin əsas göstəricisi sayırdı. Bəzi müəlliflərin (məs., İ.Traynin, D.Levin) fikrincə, suverenlik daxili məsələlərdə dövlət hakimiyyətinin üstünlüyünü, xarici məsələlərdə isə müstəqilliyini ehtiva edir. Məşhur avstriyalı hüquqşünas alim, Avstriya Konstitusiya Məhkəməsinin yaradıcısı və hakimi Hans Kelzen (1881-1973) ingilis dilində qələmə aldığı "Beynəlxalq hüququn prinsipləri" ("Principles of International Law", 1952) əsərində qeyd edir ki, "dövlət hakimiyyəti daxildə müstəqil ola bilər, lakin xaricdə isə beynəlxalq hüquqa tabedir". Keele Universitetinin professoru Alan Jeymsin fikrincə, suverenliyin əsasında hər bir dövlətin milli konstitusiyası dayanır. Dövlət özünün əsas qanununda daxili və xarici aspektdə özünün müstəqilliyini bəyan etməlidir. Müəllifin fikrincə, suverenlik – konstitusion müstəqillikdir (James A.A. Sovereign Statehood: The Basis of International Society. Sydney, 1986). Beləliklə, dövlət su-

verenliyinə birmənalı anlayış vermək mümkün deyil. Suverenlik həm dövlətin təbii və ilkin xüsusiyyəti kimi, həm də ona xalq tərəfindən verilən keyfiyyət kimi nəzərdən keçirilə bilər. Eyni zamanda qeyd etmək lazımdır ki, dövlətlərin suveren bərabərliyi prinsipi beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərindən biridir. Bu prinsip öz birbaşa ifadəsini BMT Nizamnaməsinin 2-ci maddəsinin 1-ci bəndində tapmışdır: "Təşkilat onun bütün üzvlərinin suveren bərabərliyi prinsipinə əsaslanır". Suveren bərabərlik prinsipinin məzmunu iki elementdən ibarətdir: 1. hər bir dövlət tam suverenliyə malikdir və öz siyasi və iqtisadi sistemini sərbəst və maneəsiz olaraq özü müəyyən edir. Hər bir dövlət bütün digər dövlətlərin suverenliyinə, o cümlədən ərazi bütövlüyünə və siyasi müstəqilliyinə hörmət etməlidir; 2. bütün dövlətlər ərazisinin miqyasından, əhalisinin sayından, inkişaf səviyyəsindən və hərbi-siyasi potensialından asılı olmayaraq hüquqi cəhətdən bərabərdirlər.

52. **Dövlət Suverenliyi Günü –** 2023-cü il 19-20 sentyabr tarixlərində Azərbaycanın Qarabağ bölgəsində silahlı separatçı ünsürlərin və terrorçu qruplaşmaların məhv edilməsi məqsədilə keçirilmiş lokal antiterror əməliyyatından sonra Azərbaycan Respublikasında Dövlət Suverenliyinin bərpasının şərəfinə qeyd edilən gün. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2024-cü il sentyabrın 19-da imzaladığı "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" Sərəncama əsasən qeyd edilir. Sərəncamda göstərilir ki, 2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərksilah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlanmışdır. Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır. Sərancama əsasən, hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd edilir.

53. **Dura lex, sed lex** (lat.) **–** qanun sərt olsa da, qanundur.

54. **Dünyəvi dövlət** – hər hansı dinin, dini cərəyanların, dini təşkilatların və

onların nümayəndələrinin dövlətin siyasi və hüquqi institutlarının quruluşuna və fəaliyyətinə, dövlət təhsil sisteminə və dövlət həyatının digər sahələrinə hər hansı bir təsiri olmayan, insan hüquq və azadlıqlarının, o cümlədən din və vicdan azadlığının qanunvericilik səviyyəsində tanındığı dövlət. Dünyəvi dövlətlərdə hər hansı bir dinin rəsmi və ya üstün din kimi tanınması qadağan edilir, dini doqmalar, müqəddəs kitablar hüququn mənbəyi qismində çıxış etmir. Dünyəvi dövlətlərdə dinlərə neytral münasibət mövcud olur və din azadlığı qanunla qorunur. Dünyəvi dövlətin əsas təminatı dinin dövlətdən ayrı olmasının qanunvericilikdə əks etdirilməsidir. Dünyəvi dövlət dini qurumlara hər hansı bir hakimiyyət funksiyasını həvalə etmir, dini qurumların qanuni fəaliyyətini mühafizə edir, həmçinin onların qanunvericiliyə riayət etmələrinə nəzarəti həyata keçirir. Dini qurumlar isə dövlət orqanlarının işinə, dövlətin siyasi həyatına müdaxilə etmir, siyasi partiyalar yaratmır və siyasi partiyaların işində iştirak etmir, hakimiyyət orqanlarına seçkilərdə namizəd irəli sürmür, seçkiləri maliyyələşdirmir və digər siyasi fəaliyyətlə məşğul olmurlar. Lakin elə hallar olur ki, din dövlət səviyyəsində rəsmi qaydada tanınır, lakin dövlət özünü dünyəvi dövlət elan edir. Məsələn, İngiltərədə ingilis kilsəsi dövlət səviyyəsində tanınır. İngilis parlamentinin hər iki palatasının iclası yalnız ingilis kilsəsinin keşişi tərəfindən dua oxunduqdan sonra öz işinə başlayır. Dünyəvi dövlətin vacib şərtlərindən biri təhsil sisteminin dindən ayrı olması, dünyəvi xarakter daşımasıdır. Lakin bununla yanaşı, təhsil müəssisələrində yalnız fakültativ qaydada dinin əsaslarının tədrisinə yol verilə bilər. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Konstitusiyanın "Din və dövlət" adlanan 18-ci maddəsinə görə, Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Bütün dini etiqadlar qanun qarşısında bərabərdir. İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin (dini cərəyanların) yayılması və təbliği qadağandır. Dövlət təhsil sistemi dünyəvi xarakter daşıyır. Dini etiqad azadlığı haqqında Azərbaycan Respublikasının 20 avqust 1992-ci il tarixli Qanununa müvafiq olaraq, Azərbaycan Respublikasında din və dini qurumlar dövlətdən ayrıdır. Dövlət ona aid olan hər hansı işin yerinə yetirilməsini dini qurumlara tapşırmır və onların fəaliyyətinə qarışmır. Bütün dinlər və dini qurumlar qanun qarşısında bərabərdir. Heç bir din (dini cərəyan) və dini qurum barəsində digərlərinə nisbətən hər hansı üstünlük və ya məhdudiyyət müəyyən edilə bilməz. Dini qurumlar ictimai həyatda iştirak etmək, habelə ictimai birliklərlə yanaşı, mediadan istifa-

də etmək hüququna malikdirlər. Dini qurumlar siyasi partiyaların fəaliyyətində iştirak etmir və onlara maliyyə yardımı göstərmirlər (maddə 5). Azərbaycan Respublikasında dövlət təhsil sistemi dünyəvi xarakter daşıyır (maddə 6).

E

1. **Ehtiyatsızlıqdan törədilmiş cinayət** – cinayətkarcasına özünəgüvənmə və ya cinayətkarcasına etinasızlıq nəticəsində törədilmiş əməl (hərəkət və ya hərəkətsizlik).
2. **Ekoloji biliklər** – ətraf mühitə, ekologiyaya, insan və təbiət arasında qarşılıqlı əlaqələrə dair məlumatlar.
3. **Ekoloji cinayətlər** – ekoloji qanunvericiliyi pozan, ətraf mühitə və insanların sağlamlığına zərər vuran hüquqazidd əməllər. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən aşağıdakı əməllər ekoloji cinayətlər sayılır: işlərin yerinə yetirilməsi zamanı ətraf mühitin mühafizəsi (qorunması) qaydalarını pozma; ekoloji cəhətdən təhlükəli maddələrin və tullantıların dövriyyəsi qaydalarını pozma; baytarlıq qaydalarını və bitki xəstəliklərinə və ziyanvericilərinə qarşı müəyyən edilmiş mübarizə qaydalarını pozma; suyu (su mənbələrini) çirkləndirmə; atmosferi (havanı) çirkləndirmə; dəniz ətraf mühitini çirkləndirmə; sahilyanı şelf haqqında Azərbaycan Respublikasının qanunvericiliyini pozma; torpaqları korlama; yerin təkinin qorunması və istifadəsi qaydalarını pozma; balıq və digər su bioresurslarını qanunsuz tutma; balıq və digər su bioresurslarının qorunması qaydalarını pozma; qanunsuz ov etmə; qanunsuz olaraq ağacları, kolları və ya digər yaşıllıqları kəsmə; ağacları, kolları və ya digər yaşıllıqları məhv etmə və ya zədələmə; xüsusi mühafizə olunan təbiət ərazilərinin və təbiət obyektlərinin mühafizə rejimini pozma (247-261-ci maddələr).
4. **Ekoloji fəlakət** – insanların həyatı və fəaliyyəti sahəsində və ətraf mühitdə dönməz dəyişiklərlə səciyyələnən fövqəladə ekoloji vəziyyət.
5. **Ekoloji insan hüquqları** – insanın ekoloji-hüquqi statusunu müəyyən edən hüquqların məcmusu. Ekoloji hüquqlar müxtəlif beynəlxalq-hüquqi aktlarda, həmçinin dövlətlərin konstitusiyalarında və digər qanunvericilik aktlarında təsbit olunur. İnsan hüquqları nəzəriyyəsində ekoloji hüquqlar, əsas etibarilə, üç qrupa bölünür. Birinci qrupa ətraf mühitin mühafizəsi ilə bağlı olan hüquqlar aid edilir. Belə hüquqlara ekoloji təhlükəsizlik hüququ, radiasiya təhlükəsizliyi hüququ, fövqəladə ekoloji vəziyyətdə həyat və sağlamlığın mühafizəsi hüququ, ətraf mühitin vəziyyəti barədə dolğun məlumat almaq hüququ, ətraf mühitin mühafizəsi ilə bağlı ictimai birliklər yaratmaq və onların işində iştirak etmək hüququ və bununla əlaqədar digər hüquqlar aiddir. İkinci qrupa təbiətdən istifadə ilə bağlı olan hüquqlar aiddir. Bu qrupa daxil olan hüquqlar sırasında torpağa sa-

hib olmaq hüququ, sosial, iqtisadi, sağlamlıq, estetik, elmi, mədəni və digər ehtiyacların ödənməsi üçün torpaqdan, meşədən, su hövzələrindən, flora və fauna aləmindən, digər təbii resurslardan səmərəli, rasional istifadə hüququ, təmiz içməli su hüququ və digərlərini qeyd etmək olar. Ekoloji insan hüquqlarının üçüncü qrupunu digər ekoloji hüquqlar təşkil edir. Bu qrupa, əsasən dövlət ekoloji ekspertizasının, ekoloji sertifikatlaşma tədbirlərinin keçirilməsini tələb etmək və bununla bağlı digər hüquqlar aid edilir. Bu sahədə əsas beynəlxalq sənədlər 1972-ci ildə Stokholmda (İsveç) keçirilmiş ətraf mühitin problemləri üzrə BMT konfransında qəbul edilmiş Bəyannamə və 1992-ci ildə Rio-de-Janeyroda (Braziliya) ətraf mühit və inkişaf üzrə keçirilmiş BMT konfransında qəbul edilmiş Bəyannamədir. Beynəlxalq hüquqda ilk dəfə olaraq Stokholm Bəyannaməsində "əlverişli ətraf mühit hüququ" anlayışı öz əksini tapmışdır. 1992-ci il Rio-de-Janeyro Bəyannaməsi müəyyən mənada Stokholm Bəyannaməsinin müddəalarını inkişaf etdirən və bu sənədin davamı kimi çıxış edən akt kimi dəyərləndirilə bilər. Rio Bəyannaməsində bir sıra yeni ekoloji hüquqlar öz əksini tapmışdır. Bunların sırasında ətraf mühitə dair informasiya əldə etmək hüququ, ətraf mühitə dair beynəlxalq problemlərin həllində iştirak hüququ və başqalarını qeyd etmək olar. 2012-ci ildə Rio-de-Janeyroda BMT-nin davamlı inkişaf üzrə konfransı (Rio+20 konfransı) keçirilmişdir. Konfransın nəticəsi olaraq "İstədiyimiz gələcək" adlı yekun sənəd qəbul edilmişdir. Sənədin əsasını "yaşıl iqtisadiyyat" konsepsiyası təşkil edir. Ekoloji hüquqlar Azərbaycan Respublikasının qanunvericiliyində də təsbit olunmuşdur. Azərbaycan Respublikası Konstitusiyasının 39-cu maddəsinə əsasən, hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır. Hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır. Heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz. Dövlət ekoloji tarazlığın saxlanılmasına, yabanı bitkilərin və vəhşi heyvanların qanunla müəyyən edilmiş növlərinin qorunmasına təminat verir.

6. **Ekoloji maarifləndirmə** – ekoloji mədəniyyətin formalaşmasına yönəldilmiş ekoloji bilik və təcrübənin yayılması.
7. **Ekoloji mədəniyyət** – əhalinin və ölkənin ekoloji təhlükəsizliyinə, insanın ətraf mühitlə qarşılıqlı əlaqəsinə dair bilik və təcrübənin məcmusu.
8. **Ekoloji təhlükə** – insanın və cəmiyyətin həyati vacib maraqlarına, ətraf mühitə antropogen və təbii təsirlər nəticəsində təhlükə yaradan vəziyyət.

9. **Ekoloji təhlükənin subyekti** – fəaliyyəti təhlükəli ekoloji vəziyyət yarada bilən hər hansı hüquqi və ya fiziki şəxs.
10. **Ekoloji təhlükəsizlik** – insanın və cəmiyyətin həyati vacib maraqlarının, ətraf mühitin ona antropogen və təbii təsirlər nəticəsində yaranan təhlükələrdən qorunmasının təmin edilməsi.
11. **Ekoloji təhlükəsizliyin təmin edilməsi** – təhlükəli ekoloji vəziyyətlərin yaranması və inkişafının qarşısının alınması, habelə onların nəticələrinin, o cümlədən gələcəkdə təsir göstərə biləcək nəticələrin aradan qaldırılması üzrə tədbirlər sistemi.
12. **Ekoloji təhsil** – ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə normaların, xüsusi biliklərin, təcrübənin tədrisi və öyrənilməsi prosesi.
13. **Ekosid** (yun. oikos – ev, lat. caedo – öldürürəm) – insan varlığının bioloji əsasını təşkil edən ətraf mühitin məhv edilməsinə yönələn cinayət. Ekosid insanla təbiət arasında ekoloji əlaqənin pozulmasına səbəb olmaqla kütləvi qırğın silahının tətbiqi nəticəsində ətraf mühitin məhv edilməsi ilə nəticələnir. Ekosid ekoloji fəlakətə səbəb olmaqla bitkilər və ya heyvanlar aləminin kütləvi şəkildə məhv edilməsində, atmosferin, torpaq və ya su hövzələrinin zəhərlənməsində ifadə olunur. Ekosid cinayətinin obyektiv cəhəti flora və ya fauna aləminin kütləvi şəkildə məhv edilməsindən, ətraf mühitin zəhərləndirilməsindən ibarət olan hərəkətlər, ekoloji fəlakətin baş verməsindən ibarət olan nəticə və qeyd olunan hərəkətlərlə nəticə arasında səbəbli əlaqə ilə xarakterizə olunur. Ekosid cinayətinin subyektiv cəhəti birbaşa və ya dolayı qəsdlə xarakterizə olunur. Bır sıra dövlətlərin cinayət qanunvericiliyi ekosid cinayətini sülh və bəşəriyyət əleyhinə yönələn cinayətlər kateqoriyasına aid edir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının 22 oktyabr 2024-cü il tarixli Qanununa əsasən Cinayət Məcəlləsinə (“Sülh və insanlıq əleyhinə cinayətlər” bölməsinə) “Ekosid” adlanan 104-1-ci maddə əlavə edilmişdir. Həmin maddəyə əsasən, bitki və ya heyvanlar aləminin kütləvi məhv edilməsi, atmosferin, torpaq və ya su ehtiyatlarının zəhərlənməsi, yaxud ekologiyaya ziyan vuran digər hərəkətlərin qəsdən törədilməsi, bu əməllər ekoloji fəlakətə səbəb olduqda və ya ekoloji fəlakətin baş verməsi üçün real təhlükə yaratdıqda on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.
14. **Ekspatriant** – vətəndaşlığını itirmiş şəxs, habelə öz istəyi ilə vətəndaşlıqdan məhrum edilmiş şəxs.
15. **Ekspatriasiya** (lat. ex – dan, dən, patria – vətən) – vətəndaşlığın itirilmə-

si, habelə şəxsin öz istəyi ilə vətəndaşlıqdan məhrum edilməsi. Bəzi ədəbiyyatlarda ekspatriasiya termini altında şəxsin vətəndaşlığı itirilməklə vətəndaşı olduğu ölkədən cıxarılması nəzərdə tutulur.

16. **Ekspropriasiya** (lat. ex – dan, dən, proprius – mülkiyyət) – mülkiyyətçinin məcburi qaydada öz mülkiyyətindən məhrum edilməsi. Hüquqi ekspropriasiya isə əvəzi ödənilməklə mülkiyyətin dövlət orqanları tərəfindən özgəninkiləşdirilməsidir.

17. **Ekstradisiya** (lat. ex – dan, dən, traditio – vermə, verilmə) – təqsirləndirilən və ya məhkum edilmiş şəxsin bir dövlət tərəfindən sorğu əsasında digər dövlətə verilməsi. Ekstradisiya həmçinin hüquqi yardım çərçivəsində həyata keçirilən dövlətlərarası əməkdaşlığın bir formasıdır. Ekstradisiya ikitərəfli və ya çoxtərəfli müqavilə əsasında həyata keçirilir. Beynəlxalq praktikaya və ayrı-ayrı dövlətlərin qanunvericiliyinə əsasən, dövlət öz vətəndaşını digər dövlətə verə bilməz. Azərbaycan Respublikası Konstitusiyasının 53-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikasından qovula və ya xarici dövlətə verilə bilməz. Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında Azərbaycan Respublikasının 15 may 2001-ci il tarixli Qanununa əsasən, xarici dövlət tərəfindən verilməsi sorğu edilən şəxs yalnız onun törətdiyi əməl Azərbaycan Respublikasının və sorğu edən dövlətin qanunvericiliyinə uyğun olaraq cinayət sayıldıqda və həmin əməlin törədilməsinə görə azı bir il azadlıqdan məhrumetmə cəzası, yaxud daha ağır cəza növü nəzərdə tutulduqda verilə bilər. Törətdiyi cinayətə görə xarici dövlətin məhkəməsi tərəfindən azadlıqdan məhrumetmə cəzasına, yaxud daha ağır cəza növünə məhkum olunmuş şəxs cəzanın icrası üçün verilə bilər. Bu halda azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş müddəti altı aydan az ola bilməz. Şəxsin verilməsindən aşağıdakı hallarda imtina edilir: barəsində sorğu edilən şəxs onun verilməsi haqqında məsələ həll edildiyi zaman Azərbaycan Respublikasının vətəndaşı olduqda; verilməsi haqqında sorğu edilən şəxsə Azərbaycan Respublikası ərazisində qanunvericiliklə müəyyən edilmiş qaydada siyasi sığınacaq verildikdə; verilməsi haqqında sorğu edilən şəxsin törətdiyi və verilməyə əsas olan əməl Azərbaycan Respublikası tərəfindən siyasi xarakterli cinayət sayıldıqda; verilməyə əsas olan cinayət Azərbaycan Respublikası ərazisində törədildikdə; şəxsin verilməsinə əsas olan cinayətə görə Azərbaycan Respublikasının ərazisində qanuni qüvvəyə minmiş hökm və ya cinayət təqibinə xitam verilməsi haqqında qərar olduqda; Azərbaycan Respublikasının və ya sorğu edən xarici dövlətin cinayət qanunvericiliyinə əsasən, cinayət

məsuliyyətinə cəlbetmə, yaxud ittiham hökmünün icrası müddətləri keçdikdə; şəxsin verilməsinə əsas olan cinayət sorğu edən xarici dövlətin qanunvericiliyində hərbi xidmət əleyhinə cinayət kimi nəzərdə tutulduqda və hərbi xidmətlə bağlı olmayan başqa cinayətin tərkibini yaratmadıqda; cinayət törətmiş şəxslərin verilməsi ilə bağlı sorğu edən xarici dövlət tərəfindən qarşılıqlı yardım prinsipinə riayət olunmadıqda; Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə müvafiq olaraq cinayət xüsusi ittiham qaydasında (zərər çəkmiş şəxsin şikayəti əsasında) təqib edildiyi halda (maddələr 2; 3).

18. **Ekzoqamiya** (yun. exo – kənardan, gamos – nikah) – qohumluğu olan şəxslər arasında nikahın bağlanmasını qadağan edən adət.

19. **Elektron hökumət** (ing. e-Government) – dövlət xidmətlərinin göstərilməsinin səmərəliliyinin artırılması məqsədilə informasiya-kommunikasiya texnologiyalarından fəal istifadə etməklə formalaşan yeni idarəçilik sistemi. Elektron hökumətin əsas vəzifələrinə daxildir: dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təmin edilməsi; əhaliyə hökumət xidmətlərinin göstərilməsinin optimallaşdırılması; vətəndaşların özünəxidmət imkanlarının dəstəklənməsi və inkişafı; vətəndaşların informasiya məlumatlılığının artırılması; "coğrafi məkan" faktorunun təsirinin azaldılması. Elektron hökumət sisteminin tətbiqi səmərəli və daha az xərc tələb edən idarəetmənin formalaşmasına, cəmiyyətlə hökumət arasında münasibətlərin əsaslı şəkildə yaxşılığa doğru dəyişilməsinə, demokratik idarəçiliyin bərqərar olmasına və insan hüquq və azadlıqlarının daha səmərəli təminə gətirib çıxarır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 may tarixli sərəncamı ilə Azərbaycan Respublikasında 2010-2011-ci illərdə "Elektron hökumət"in formalaşdırılması üzrə Fəaliyyət Proqramı təsdiq edilmişdir. Proqramın məqsədi respublikada "e-hökumət"in formalaşdırılmasının təmin edilməsi və bunun üçün dövlət orqanlarında müasir informasiya-kommunikasiya texnologiyaları tətbiq etməklə idarəçilik metod və mexanizmlərinin təkmilləşdirilməsi, e-xidmətlərin göstərilməsinin təşkili, vətəndaş və təşkilatların bu xidmətlərdən sadə, asan və sərbəst istifadəsi üzrə kompleks tədbirlərin həyata keçirilməsidir. "E-hökumət"in formalaşdırılması ardıcıl və mərhələli qaydada dövlət orqanlarında informasiya-kommunikasiya texnologiyalarının tətbiqini, vahid infrastruktur əsasında öz aralarında təhlükəsiz informasiya mübadiləsinin həyata keçirilməsini, funksional vəzifələr üzrə e-xidmətlər göstərilməsini, mövcud informasiya təhlükəsizliyinin təmin edilməsini, səriştəli istifadəçi və mütəxəssislər hazırlanmasını və digər

vacib istiqamətlərdə həyata keçiriləcək fəaliyyəti nəzərdə tutur. Proqramın əsas istiqamətləri aşağıdakılardır: normativ hüquqi və metodoloji bazanın formalaşdırılması; dövlət idarəçiliyində müasir informasiya sistemlərinin geniş tətbiqi; "e-hökumət" infrastrukturunun əsas komponentlərinin yaradılması; dövlət idarəçiliyində e-xidmətlərin tətbiqi və inkişaf etdirilməsi; dövlət qulluqçularının, informasiya-kommunikasiya texnologiyaları üzrə mütəxəssislərin hazırlıq səviyyəsinin yüksəldilməsi; "e-hökumət" infrastrukturunun və informasiya sistemlərinin fəaliyyətinin təhlükəsizliyinin, fərdi məlumatların mühafizəsinin təmin olunması; əhali qrupları, bölgələr arasında "rəqəmli fərqliliyin" azaldılması, onların informasiya texnologiyaları sahəsində savadlılıq səviyyəsinin artırılması, "e-hökumət" xidmətlərinə çıxışının təmin olunması.

20. **Elektron müraciət** – müraciətə baxan subyektin və ya onun vəzifəli şəxsinin elektron ünvanına göndərilən və ya rəsmi internet saytı vasitəsilə daxil edilən müraciət.
21. **Elektron vətəndaş –** informasiya cəmiyyətində İKT-dən istifadə etməklə, öz hüquq və azadlıqlarını elektron (rəqəmsal) imkanlar əsasında realizə edən cəmiyyət üzvü. Elektron vətəndaş hər hansı bir dövlətin yurisdiksiyası ilə məhdudlaşır, yəni elektron vətəndaş konkret dövlət tərəfindən elektron hüquq və azadlıqlarını realizə edən və vəzifələr daşıyan şəxsdir.
22. **Emiqrant** – vətəndaşı olduğu və ya daimi yaşadığı ölkəni tərk edən və daimi əsaslarla yaşamaq məqsədilə digər ölkəyə gedən şəxs. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 12-ci maddəsinin 2-ci hissəsinə əsasən, hər bir insan, öz ölkəsi də daxil olmaqla, istənilən ölkəni tərk etmək hüququna malikdir.
23. **Etatizm** (fr. etat – dövlət) – insan hüquqlarına münasibətdə dövlətin mütləq üstünlüyünə əsaslanan doktrina. Bu doktrinaya əsasən, insan hüquqlarının müdafiəsinin etatist modeli işlənib hazırlanmışdır. Bu modeldə insan hüquqları müstəsna olaraq suveren dövlət yurisdiksiyasının çərçivəsində mövcuddur. İnsan hüquqları sahəsində etatistlər sırasında görkəmli xadimlər olan K. fon Klauzevis, G.Morgentau, C.Kennan, G.Kissencer və digərlərini qeyd etmək olar.
24. **Etnik təmizləmə** – güc tətbiq etməklə və ya güclə hədələməklə hər hansı milli, irqi, etnik, dini qrupa məxsus insanların müəyyən bir ərazidən, o cümlədən onların daimi yaşadığı ərazidən əvvəlcədən planlaşdırılmış qaydada, qərəzli şəkildə, insan hüquq və azadlıqlarının kobud pozulması ilə müşayiət olunan zorla köçürülməsi. Etnik təmizləmənin əsas məqsədlərindən biri müəyyən bir ərazini etnik cəhətdən "təmiz",

monoetnik əraziyə çevirməkdən ibarətdir. Məşhur "Britannika" ensiklopediyasına görə, etnik təmizləmə həm də müəyyən ərazidən qovulmuş qrupun həmin ərazidəki izlərini itirməkdən ötrü yaşayış məkanlarının, tarixi, dini, mədəni və digər abidələrin məhv edilməsini də ehtiva edir. Etnik təmizləmə terminə BMT-nin müəyyən sənədlərində də rast gəlmək olar. Keçmiş Yuqoslaviya ərazisində beynəlxalq humanitar hüquq normalarının pozulması hallarını araşdıran BMT-nin ekspertlər komissiyasının yekun məruzəsində (S/1994/674) etnik təmizləmə ilə bağlı qeyd edilir ki: "etnik təmizləmə insanların qətlə yetirilməsi, işgəncə, qanunsuz həbslər, zorlama, mülki əhalinin qovulması, deportasiyası və ya məcburi yerdəyişməsi, mülki əhaliyə və əraziyə məqsədyönlü hərbi hücumlar və ya belə hücumlarla hədələmə, həmçinin mülkiyyətin məhv edilməsi ilə müşayiət olunur". Müasir beynəlxalq hüquq etnik təmizləməni avtonom beynəlxalq cinayət kimi nəzərdə tutmur, onu müəyyən mənada ayrı-ayrı beynəlxalq cinayətlərin (genosid, insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri) tərkib hissəsi kimi nəzərdən keçirir. Beynəlxalq hüquqda etnik təmizləmənin dəqiq, birmənalı definisiyası verilməmişdir və onun beynəlxalq müqavilə əsası yoxdur. Ötən əsrin 80-ci illərinin sonları, 90-cı illərin əvvəllərində Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edilməsi həmin ərazilərin yerli mülki əhalisinin etnik təmizlənməsi ilə nəticələnən kütləvi qırğınlarla müşayiət edilmişdir. Bu əməllərin ardıcıl və sistematik şəkildə həyata keçirilməsi onların Ermənistan hökuməti tərəfindən planlaşdırılmasını və onun göstərişləri ilə həyata keçirildiyini sübut edir. Avropa Şurasının Parlament Assambleyası 1416 saylı 2015-ci il tarixli qətnaməsində Ermənistan tərəfinin hərbi əməliyyatlarının "dəhşətli etnik təmizləmə konsepsiyasını xatırladan genişmiqyaslı etnik qovulma və mono-etnik ərazilərin yaranmasına səbəb olduğunu" təsdiq etmişdir. İşğala məruz qalmış Azərbaycan ərazilərində mülki əhaliyə qarşı törədilən kütləvi qırğınlar və etnik təmizləmə tək bir hal deyildir. Tarixən Ermənistan qüvvələri Zəngəzur daxil olmaqla azərbaycanlıların məskunlaşdığı müxtəlif bölgələrdə kütləvi qırğınlar və etnik təmizləmə törətmişlər. 1918-1920-ci illərdə Ermənistan qüvvələri Azərbaycanın Zəngəzur qəzasının (hal-hazırda Ermənistanın Syunik vilayətidir) 200-dən çox kəndində etnik təmizləmə həyata keçirmişlər. BMT-nin müvafiq sənədlərində etnik təmizləmənin beynəlxalq hüquqa zidd olduğu vurğulanır.

25. **Evtanaziya** (yun. eu – yaxşı, thanatos – ölüm) – ağır fiziki və mənəvi iztirablarla müşayiət olunan, müalicəsi mümkün olmayan xəstəlikdən əziyyət çəkən şəxsin ölümünün tezləşdirilməsinə yönələn hərəkət və ya

hərəkətsizlik. Evtanaziyanın vacib şərtlərindən biri xəstəlikdən əziyyət çəkən şəxsin, sadəcə razılığı deyil, təkidli istəyidir. Evtanaziyanın iki forması fərqləndirilir: passiv və aktiv. Passiv evtanaziya terapevtik reanimasiya tədbirlərinin dayandırılmasında, aktiv evtanaziya isə xəstənin bilavasitə ölümünə səbəb olan vasitələrin tətbiqində ifadə olunur. Azərbaycan qanunvericiliyi evtanaziyanı qadağan edir və buna görə xüsusi cəza tədbirləri nəzərdə tutur. Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının 26 iyun 1997-ci il tarixli Qanununun "Evtanaziyanın qadağan olunması" adlanan 38-ci maddəsinə əsasən, evtanaziya, yəni xəstənin xahişi ilə onun ölümünü hər hansı vasitə, yaxud hərəkətlə tezləşdirmək, həyatın davam etməsinə kömək edən süni tədbirlərin dayandırılması qadağandır. Xəstəni bilərəkdən evtanaziyaya meyil etdirən və ya evtanaziya edən şəxs qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyır. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, evtanaziya, yəni xəstənin xahişi ilə onun ölümünü hər hansı vasitə, yaxud hərəkətlə tezləşdirmə və ya onun həyatının davam etməsinə kömək edən süni tədbirləri dayandırma iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır (maddə 135).

Ə

1. **Əcnəbi** – Azərbaycan Respublikasının vətəndaşı olmayan və başqa dövlətin vətəndaşlığına mənsub olan şəxs.
2. **Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqları** – Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər. Azərbaycan Respublikası ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqları yalnız beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq məhdudlaşdırıla bilər.
3. **Ədalətli əmək şəraiti hüququ** – əsas iqtisadi-sosial hüquqlardan biri. Dəyişdirilmiş Avropa Sosial Xartiyasının 2-ci maddəsinə müvafiq olaraq, ədalətli əmək şəraiti hüququnun səmərəli həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər aşağıdakı öhdəlikləri üzərlərinə götürürlər: 1) ağlabatan iş günü və iş həftəsini nəzərdə tutmaq, habelə məhsuldarlıq artımının və digər müvafiq amillərin imkan verdiyi dərəcədə iş həftəsini tədricən azaltmaq; 2) ödənişli bayram günlərini təyin etmək; 3) ən azı dörd həftəlik ödənişli illik məzuniyyətin verilməsini təmin etmək; 4) təhlükəli və sağlamlıq üçün zərərli işlərlə əlaqədar təhlükələri aradan qaldırmaq, habelə belə təhlükələrin aradan qaldırılması və ya kifayətedici dərəcədə azaldılması hələ mümkün olmadıqda, belə işlərə cəlb olunan işçilər üçün iş vaxtının azaldılmasını və ya əlavə ödənişli məzuniyyəti nəzərdə tutmaq; 5) müvafiq ölkə və ya bölgənin adət və ənənəsinə görə istirahət günü kimi tanınmış həftə günü ilə imkan dərəcəsində üst-üstə düşən hər həftə üçün istirahət dövrü ayırmaq; 6) əmək müqaviləsinin və ya əmək münasibətlərinin mühüm cəhətləri haqqında işçilərə mümkün qədər tez və ya hər halda onların muzdlu işinin başlanmasından iki ay müddətindən gec olmayaraq məlumat verməyi təmin etmək; 7) gecə əməyinin xüsusiyyətini nəzərə alan imtiyazları işçilərin almasını təmin etmək.
4. **Ədalətli məhkəmə araşdırması hüququ** – əsas insan hüquqlarından biri. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın "Ədalətli məhkəmə araşdırması hüququ" adlanan 6-cı maddəsinə əsasən, hər kəs onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında

yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsilə ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir. Məhkəmə qərarı açıq elan edilir, lakin demokratik cəmiyyətdə əxlaq, ictimai qayda və ya milli təhlükəsizlik mülahizələrinə görə, həmçinin yetkinlik yaşına çatmayanların maraqları və ya tərəflərin şəxsi həyatının müdafiəsi bunu tələb etdikdə, yaxud məhkəmənin fikrincə, aşkarlığın ədalət mühakiməsinin maraqlarını poza biləcəyi xüsusi hallar zamanı ciddi zərurət olduqda mətbuat və ictimaiyyət bütün proses boyu və ya onun bir hissəsində məhkəmə iclasına buraxılmaya bilər. Cinayət törətməkdə ittiham olunan hər kəs onun təqsiri qanun əsasında sübut edilənədək təqsirsiz hesab edilir. Cinayət törətməkdə ittiham olunan hər kəs, ən azı, aşağıdakı hüquqlara malikdir: ona qarşı irəli sürülmüş ittihamın xarakteri və əsasları haqqında onun başa düşdüyü dildə dərhal və ətraflı məlumatlandırılmaq; öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq; şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman, ədalət mühakiməsinin maraqları tələb etdikdə, belə müdafiədən pulsuz istifadə etmək; onun əleyhinə ifadə vermiş şahidləri dindirmək və ya bu şahidlərin dindirilməsinə nail olmaq və onun əleyhinə ifadə vermiş şahidlər üçün eyni olan şərtlərlə onun lehinə olan şahidlərin çağırılması və dindirilməsi hüququna malik olmaq; məhkəmədə istifadə olunan dili başa düşmürsə və ya bu dildə danışa bilmirsə, tərcüməçinin pulsuz köməyindən istifadə etmək. Azərbaycan Respublikasının Konstitusiyasına görə, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın (maddə 60).

5. **Ədalətli və əlverişli iş şəraiti hüququ** – əsas iqtisadi və sosial hüquqlardan biri. İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 7-ci maddəsinə əsasən, bu Paktda iştirak edən dövlətlər hər bir şəxsin ədalətli və əlverişli iş şəraiti hüququnu tanıyır, o cümlədən: 1. bütün zəhmətkeşlər üçün ən azı: a) ədalətli əmək haqqı və eyni dəyərli iş üçün heç bir fərq qoyulmadan hamının bərabər mükafatlandırılması; bu zaman qadınlara kişilər üçün olduğundan pis olmayan iş səraiti təmin edilməli və eyni əmək üçün bərabər haqq ödənilməlidir; b) onların özləri və ailələri üçün bu Paktın müddəalarına müvafiq olaraq qənaətbəxş yaşayış; 2. təhlükəsizlik və gigiyena tələblərinə cavab verən iş şəraiti; 3. hamının yalnız iş stajı və ixtisas səviyyəsi əsasında daha yüksək vəzifələrə irəli çəkilmək

üçün eyni şərait imkanı; 4. istirahət, asudə vaxt və iş gününün ağlabatan şəkildə məhdudlaşdırılması və ödənilən mütəmadi məzuniyyət, eləcə də bayram günlərinin haqqının ödənilməsi təmin olunmalıdır. Azərbaycan Respublikası Konstitusiyasına görə, hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əməkhaqqı miqdarından az olmayan haqq almaq hüququ vardır (maddə 35).

6. **Ədalət mühakiməsi** – məhkəmə hakimiyyətinin reallaşdığı, məhkəmələr tərəfindən onların səlahiyyətinə aid edilmiş işlərə baxılmasında ifadə olunan dövlətin hüquq mühafizə və hüquq tətbiqi üzrə fəaliyyət formalarından biri. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz. Ədalət mühakiməsi vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi əsasında həyata keçirilir. Ədalət mühakiməsi təqsirsizlik prezumpsiyasına əsaslanır. Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli Qanununa əsasən, ədalət mühakiməsi hakimlərin müstəqilliyi təmin edilməklə, heç bir məhdudiyyət qoyulmadan, faktlara əsasən, qərəzsiz, ədalətlə və qanunlara müvafiq həyata keçirilir. Ədalət mühakiməsi həyata keçirilərkən Azərbaycan Respublikası Konstitusiyasının 63-cü maddəsində nəzərdə tutulmuş təqsirsizlik prezumpsiyası prinsipinə riayət olunması təmin edilir. Azərbaycan Respublikasının məhkəmələri ədalət mühakiməsinin məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun olan, bütün prosessual tələblərin yerinə yetirilməsinə imkan verən, hakimlərin öz iradəsini ifadə etmək azadlığına təsiri istisna edən şəraitdə həyata keçirirlər. Ədalət mühakiməsinin həyata keçirilməsinə dair müddəaların pozulması qanunda nəzərdə tutulmuş hüquqi nəticələrə səbəb olur (8-18-ci maddələr).

7. **Ədalət mühakiməsi əleyhinə olan cinayətlər** – ədalət mühakiməsinin həyata keçirilməsi, məqsəd və vəzifələrinin təmin edilməsi üzrə məhkəmələrin və digər hüquq mühafizə orqanlarının fəaliyyətinə qəsd edən cinayətlər qrupu. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, ədalət mühakiməsinin, ibtidai istintaqın həyata keçirilməsinə mane olma, ədalət mühakiməsini və ya ibtidai istintaqı həyata keçirən şəxsin həyatına qəsd etmə, ədalət mühakiməsinin və ya ibtidai istintaqın həyata keçirilməsi ilə əlaqədar hədələmə və ya zor tətbiq etmə, məhkəməyə hörmətsizlik etmə, təqsiri olmadığını bilə-bilə şəxsi cinayət məsuliyyətinə cəlb etmə, qanunsuz olaraq cinayət məsuliyyətindən azad etmə, qanunsuz olaraq tutma, həbsə alma və ya həbs yerində saxlama,

işgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza, sübutları saxtalaşdırma, bilə-bilə ədalətsiz hökm, qətnamə, qərardad və qərar çıxarma, bilə-bilə yalan xəbərçilik etmə, bilə-bilə yalan ifadə vermə, yalan rəy vermə və ya yanlış tərcümə etmə, şahidin və ya zərərçəkmiş şəxsin ifadə verməkdən imtina etməsi, ifadə verməkdən boyun qaçırmağa, yalan ifadə və ya yalan rəy verməyə, yaxud yanlış tərcümə etməyə məcbur etmə və ya pulla ələ alma, təhqiqat və ya ibtidai istintaq məlumatlarını yayma, məhkəmə və hüquq mühafizə orqanları işçiləri barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatları yayma, əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma, siyahıya alınmış və ya üzərinə həbs qoyulmuş, yaxud müsadirə olunmalı əmlak barəsində qanunsuz hərəkətlər, azadlıqdan məhrum etmə və ya həbs yerindən, yaxud mühafizə altından qaçma, azadlıqdan məhrum etmə növündə cəza çəkməkdən boyun qaçırma, məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə, cinayət barəsində xəbər verməmə və ya qabaqcadan vəd etmədən cinayəti gizlətmə ədalət mühakiməsi əleyhinə olan cinayətlərdir (286-307-ci maddələr).

8. **Ədliyyə** – məhkəmə orqanlarının məcmusu.

9. **Əfvetmə** – dövlət başçısının konstitusion səlahiyyətlərindən biri. Əfvetmə məhkum olunmuş şəxsin cəzasının çəkilməmiş hissəsindən tamamilə azad olunmasında və ya cəzanın daha yüngül cəza ilə əvəz olunmasında ifadə olunur. Əfvetmə cinayət hüququnun ən qədim institutlarından olub, hələ qədim Hammurapi qanunlarında öz əksini tapmışdı. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, əfvetmə fərdi qaydada müəyyən edilmiş şəxs barəsində Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir. Cinayət törətməyə görə məhkum olunmuş şəxs əfvetmə aktı ilə cəzanın qalan hissəsini çəkməkdən azad edilə bilər, yaxud ona təyin olunmuş cəzanın müddəti azaldıla bilər və ya belə şəxsin cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə bilər. Ömürlük azadlıqdan məhrum etmə cəzası əfv qaydasında iyirmi beş ildən çox olmayan müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilə bilər. Əfvetmə aktı ilə cəzasını çəkmiş şəxsin məhkumluğu götürülə bilər (maddə 82). Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyul tarixli, 538 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əfvetmə haqqında Əsasnaməyə müvafiq olaraq, əfvetmə Azərbaycan Respublikası məhkəmələri tərəfindən məhkum edilmiş şəxslərə və ya başqa dövlətlərin məhkəmələri tərəfindən məhkum olunmuş və cəzalarını Azərbaycan Respublikasında çəkən Azərbaycan Respublikası vətəndaşlarına, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə tətbiq edilə bilər.

10. **Əhali** – konstitusiya hüququnda: ölkə sakinlərinin (vətəndaşlar, əcnəbilər, vətəndaşlığı olmayan şəxslər) məcmusu; beynəlxalq hüquqda: dövlətin ərazisində yaşayan və onun yurisdiksiyasına tabe olan fərdlərin məcmusu; dövlət nəzəriyyəsində: dövlətin əlamətlərindən biri.
11. **Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının Qanunu** – əhalinin sağlamlığının qorunması sahəsində vətəndaşlarla dövlət orqanları, eləcə də dövlət və qeyri-dövlət səhiyyə sistemlərinin subyektləri arasında yaranan münasibətləri tənzimləyən qanunvericilik aktı. 26 iyun 1997-ci ildə qəbul edilmişdir.
12. **Əhalinin sağlamlığının qorunmasının əsas prinsipləri** – əhalinin sağlamlığının qorunması hər bir insanın fiziki və ruhi sağlamlığının mühafizəsinə, onun fəal uzun ömürlüyünün artırılmasına, tibbi yardımla təminatına yönəldilmiş siyasi, iqtisadi, hüquqi, elmi, tibbi, sanitariya-gigiyena xarakterli tədbirlərin məcmusundan ibarətdir. Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının 26 iyun 1997-ci il tarixli Qanununa əsasən, əhalinin sağlamlığının qorunmasının əsas prinsiplərinə daxildir: əhalinin sağlamlığının qorunması sahəsində insan və vətəndaş hüquqlarına dövlət təminatı və bu təminatla bağlı hüquqi və fiziki şəxslərin məsuliyyəti; əhalinin sağlamlığının qorunması sahəsində profilaktik tədbirlərin həyata keçirilməsi; tibbi-sosial yardımın hamı üçün mümkünlüyü; sağlamlığın itirilməsi zamanı vətəndaşların sosial müdafiəsi (maddə 1).
13. **Əhalinin sağlamlığının qorunması sahəsində dövlətin vəzifələri** – Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının 26 iyun 1997-ci il tarixli Qanununa əsasən, əhalinin sağlamlığının qorunması sahəsində dövlətin vəzifələri aşağıdakılardır: əhalinin sağlamlığının qorunması sahəsində dövlət siyasətinin əsaslarının müəyyən edilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi; sağlamlığın qorunması sahəsində dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi; səhiyyə sisteminin təşkili qaydalarının və fəaliyyətinin müəyyənləşdirilməsi; dövlət səhiyyə sisteminin maliyyələşdirilməsi; ətraf mühitin qorunmasının, ekoloji təhlükəsizliyin təmin edilməsi; icbari tibbi sığorta üzrə sığorta məbləğinin və sığorta haqqının ödənilməsi qaydasının müəyyənləşdirilməsi; əhalinin xüsusi qrupları üçün tibbi-sosial yardım göstərilməsinə təminat verilməsi; dövlət və qeyri-dövlət səhiyyə sistemi müəssisələri arasında sağlam rəqabətə təminat verilməsi; ailənin, valideynlərin və uşaqların mühafizəsi; səhiyyə sahəsində beynəlxalq əməkdaşlığın həyata keçirilməsi; tibb müəssisələrinin akkreditasiyasının həyata keçirilməsi (maddə 3).

14. **Əxlaq** – insanın mənəvi keyfiyyətini müəyyən edən etik normaların məcmusu.
15. **Əqli mülkiyyət hüquqları** – müəlliflik hüququnun obyekti olan əsərlərə, ifalara, fonoqramlara, yayım təşkilatlarının verilişlərinə, inteqral sxem topologiyalarına, məlumat toplularına, folklor nümunələrinə (ənənəvi mədəni nümunələrə), ixtiralara, faydalı modellərə, sənaye nümunələrinə, əmtəə nişanlarına, coğrafi göstəricilərə olan hüquqlar.
16. **Əqli mülkiyyət hüququ** – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, hər kəsin əqli mülkiyyət hüququ vardır. Müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun başqa növləri qanunla qorunur (maddə 30).
17. **Əlilliyi olan şəxs** – anadangəlmə, xəstəlikdən və ya xəsarətdən doğan əqli və ya fiziki qüsurlar nəticəsində həyat fəaliyyəti məhdudlaşan, sosial yardıma və müdafiəyə ehtiyacı olan şəxs. Əlilliyi olan şəxslərə – müxtəlif maneələrlə qarşılıqlı təsir zamanı onların digərləri ilə bərabər səviyyədə cəmiyyətin həyatında tam və səmərəli iştirakına mane olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntuları olan insanlar aiddir.
18. **Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya** – əsas məqsədi əlilliyi olan şəxslər tərəfindən insan hüquqlarının və əsas azadlıqların tam və bərabər səviyyədə həyata keçirilməsini həvəsləndirməkdən, müdafiə və təmin etməkdən, eləcə də onların ləyaqətinə hörmət edilməsini həvəsləndirməkdən ibarət olan beynəlxalq müqavilə. BMT Baş Assambleyası tərəfindən 2006-cı il dekabrın 13-də qəbul edilmişdir. Konvensiya aşağıdakı prinsiplərə əsaslanır: şəxsi seçim etmək azadlığı və müstəqilliyi də daxil olmaqla, insan ləyaqətinə, onun şəxsi sərbəstliyinə hörmət olunması; ayrı-seçkiliyə yol verilməməsi; cəmiyyətə tam və səmərəli cəlb olunma və daxil olma; əlilliyi olan şəxslərin xüsusiyyətlərinə hörmət olunması və onların insan müxtəlifliyinin komponenti və bəşəriyyətin bir hissəsi kimi qəbul olunması; imkanların bərabərliyi; müyəssərlik; kişi və qadınların bərabərliyi; əlilliyi olan uşaqların inkişaf edən qabiliyyətinə hörmət və onların öz fərdiliyini saxlamaq hüquqlarına hörmət.
19. **Əlilliyi olan şəxslərin hüquqları üzrə Komitə** – BMT-nin insan hüquqları sahəsində fəaliyyət göstərən müqavilə komitələrindən biri. Komitə 2006-cı ilin dekabrında qəbul edilən və 2008-ci ilin mayında qüvvəyə minən Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya əsasında yaradılmışdır. 23 fevral 2009-cu ildə Komitənin ilk sessiyası keçirilmiş-

dir. Komitə 4 il müddətinə seçilən və onun işində müstəqil surətdə iştirak edən 18 ekspertdən ibarətdir. Komitənin əsas səlahiyyəti hər 4 ildən bir əlilliyi olan şəxslərin hüquqlarının səmərəli təmin edilməsi üzrə iştirakçı dövlətlərin öz üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirmələri ilə bağlı dövri məruzələrə baxmaq, həmçinin BMT Baş Assambleyasının 61/106 saylı, 13 dekabr 2006-cı il tarixli qətnaməsi ilə qəbul edilən Fakültativ Protokola əsasən, fərdi şikayətlərə baxmaqdan ibarətdir. Protokolun iştirakçısı olan dövlət avtomatik olaraq Komitənin fərdi şikayətlərə baxmaq səlahiyyətini tanıyır. Komitənin daha bir mühüm səlahiyyəti ondan ibarətdir ki, əgər o, Konvensiyada təsbit olunmuş hüquqların hər hansı iştirakçı dövlət tərəfindən sistematik pozulduğuna dair məlumat alarsa, bu halda həmin məlumatın araşdırılması və ona dair qeydlərin təqdim olunması üçün həmin iştirakçı dövlətə əməkdaşlıq təklif edir. Komitə həmçinin özünün bir və ya bir neçə üzvünü hüquq pozuntusu ilə bağlı təhqiqat aparmaq (müvafiq iştirakçı dövlətin razılığı olduğu halda, təhqiqat onun ərazisində aparıla bilər) və bununla bağlı Komitəyə təcili surətdə hesabat təqdim etməyi həvalə edə bilər. Lakin Komitənin bu səlahiyyəti məcburi xarakter daşımır. Protokolun iştirakçısı olan dövlət onu təsdiq edərkən Komitənin bu səlahiyyətini tanımadığını bəyan edə bilər.

20. **Əlverişli ətraf mühit hüququ** – Bax: sağlam ətraf mühitdə yaşamaq hüququ.

21. **Əməkçi miqrant** – haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün qanuni əsaslarla bir ölkədən başqa ölkəyə miqrasiya edən fiziki şəxs. BMT Baş Assambleyasının 18 dekabr 1990-cı il tarixli qətnaməsi ilə qəbul edilmiş Bütün əməkçi-miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında Beynəlxalq Konvensiyaya əsasən, bu Konvensiyanın məqsədləri üçün "əməkçi-miqrant" termini vətəndaşı olmadığı dövlətdə ödənişli fəaliyyətlə məşğul olacaq, məşğul olan və ya məşğul olmuş şəxs mənasını verir.

22. **Əmək funksiyası** – əmək müqaviləsində nəzərdə tutulan bir və ya bir neçə vəzifə (peşə) üzrə işçinin yerinə yetirməli olduğu işlərin (xidmətlərin) məcmusu.

23. **Əmək hüququ** – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinə əsasən, əmək fərdi və ictimai rifahın əsasıdır. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır. Heç kəs zorla işlədilə bilməz. Əmək

müqavilələri sərbəst bağlanılır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz. Məhkəmə qərarı əsasında şərtləri və müddətləri qanunla nəzərdə tutulan məcburi əməyə cəlb etmək, hərbi xidmət zamanı səlahiyyətli şəxslərin əmrlərinin yerinə yetirilməsi ilə əlaqədar işlətmək, fövqəladə vəziyyət və hərbi vəziyyət zamanı vətəndaşlara tələb olunan işləri gördürmək hallarına yol verilir. Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır. İşsizlərin dövlətdən sosial müavinət almaq hüququ vardır. Dövlət işsizliyin aradan qaldırılması üçün bütün imkanlarından istifadə edir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 23-cü maddəsinə əsasən, hər bir şəxsin əmək, sərbəst iş yeri seçmək, ədalətli və münasib iş şəraiti və işsizlikdən müdafiə hüququ var. İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 6-cı maddəsinə əsasən, bu Paktda iştirak edən dövlətlər hər bir şəxsin azad seçdiyi və ya könüllü razılaşdığı işlə həyatını təmin etmək hüququnu əhatə edən əmək hüququnu tanıyırlar və bu hüququn təmin olunması üçün müvafiq addımlar atacaqlar. Bu Paktda iştirak edən dövlətlər tərəfindən bu hüququn tam təmin olunması məqsədilə gördüyü tədbirlərə texniki-peşə təhsili və hazırlığı proqramları, insanların əsas siyasi və iqtisadi hüquqlarının təmin olunduğu şəraitdə durmadan iqtisadi, sosial və mədəni inkişafa, tam və məhsuldar məşğulluğa nail olmağın yolları və üsulları daxildir. Dəyişdirilmiş Avropa Sosial Xartiyasının 1-ci maddəsinə müvafiq olaraq, əmək hüququnun səmərəli həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər aşağıdakı öhdəlikləri üzərlərinə götürürlər: 1) tam məşğulluğun əldə olunması məqsədilə mümkün qədər yüksək və sabit məşğulluq səviyyəsinə nail olunmasını və onun saxlanılmasını öz əsas məqsəd və öhdəliklərindən biri kimi qəbul etmək; 2) işçinin sərbəst seçdiyi iş vasitəsilə öz yaşayışı üçün qazanc əldə etmək hüququnu səmərəli qorumaq; 3) bütün işçilər üçün pulsuz məşğulluq xidmətlərini yaratmaq və ya saxlamaq; 4) müvafiq peşə yönümünü, hazırlığı və bərpasını təmin etmək və ya inkişaf etdirmək.

24. **Əmək miqrasiyası** – fiziki şəxsin haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olması üçün qanuni əsaslarla bir ölkədən başqa ölkəyə miqrasiya etməklə yaşayış yerini dəyişməsi.

25. **Əmək müqaviləsi** – işəgötürənlə işçi arasında fərdi qaydada bağlanan əmək münasibətlərinin əsas şərtlərini, tərəflərin hüquq və vəzifələrini əks etdirən yazılı müqavilə.

26. **Əmək pensiyası** – məcburi dövlət sosial sığortaolunanların onlara əmək

pensiyası təyin olunduqdan əvvəl aldıqları əmək haqqı və digər gəlirlərin, yaxud sığortaolunanların ölümü ilə əlaqədar onların ailə üzvlərinin itirdikləri gəlirlərin kompensasiyası məqsədilə vətəndaşlara aylıq pul ödənişi.

27. **Əmək pensiyasının sığorta hissəsi** – fərdi şəxsi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalının gözlənilən pensiya ödənişi müddətinin aylarının sayına nisbəti şəklində hesablanan məbləğ.
28. **Əmək pensiyasının yığım hissəsi** – fərdi şəxsi hesabın yığım hissəsində toplanan pensiya kapitalının gözlənilən pensiya ödənişi müddətinin aylarının sayına nisbəti şəklində hesablanan məbləğ.
29. **Əmək şəraiti** – işçinin öz əmək funksiyasını səmərəli və faydalı yerinə yetirmək üçün minimum normaları qanunvericilikdə nəzərdə tutulan, habelə əmək müqaviləsində tərəflərin özləri müəyyən etdiyi əmək, sosial və iqtisadi normaların məcmusu.
30. **Əməyin ədalətli ödənilməsi hüququ** – əsas iqtisadi-sosial hüquqlardan biri. Dəyişdirilmiş Avropa Sosial Xartiyasının 4-cü maddəsinə görə, əməyin ədalətli ödənilməsi hüququnun səmərəli həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər aşağıdakı öhdəlikləri götürürlər: 1) işçilərin əməyinin işçilərə və ailələrinə layiqli həyat səviyyəsini təmin edəcək dərəcədə ödənilməsi hüququnu tanımaq; 2) xüsusi hallar istisna edilməklə, işçilərin iş vaxtından artıq gördükləri işə görə əməyin daha yüksək dərəcədə ödənilməsi hüququnu tanımaq; 3) işçi kişi və qadınların bərabər həcmli əməyinin bərabər ödənilməsi hüququnu tanımaq; 4) bütün işçilərin əmək münasibətlərinin xitam edilməsi haqqında bildirişin ağlabatan müddətdə verilməsi hüququnu tanımaq; 5) maaşdan tutulmalara yalnız milli qanunvericilikdə və ya qaydalarda nəzərdə tutulmuş, yaxud kollektiv müqavilələr və ya arbitraj qərarları ilə müəyyən edilmiş şərtlərlə və dərəcədə icazə vermək. Bu hüquqların həyata keçirilməsinə sərbəst şəkildə bağlanmış kollektiv müqavilələr vasitəsilə, qanunda maaşların müəyyən edilməsi ilə və ya milli şəraitlərə uyğun digər vasitələrlə nail olunur.
31. **Əməyin mühafizəsi** – işçilərin təhlükəsiz və sağlam şəraitdə işləmək hüququnu təmin etmək məqsədilə texniki təhlükəsizlik, sanitariya, gigiyena, müalicə-profilaktika tədbirləri, normaları və standartları sistemi.
32. **Ərizə** – hüquq və azadlıqların həyata keçirilməsi ilə bağlı tələbləri nəzərdə tutan müraciət.
33. **Ər-Riyad rəhbər prinsipləri** – Bax: Birləşmiş Millətlər Təşkilatının yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın qarşısının alınmasına yönəlmiş rəhbər prinsipləri.

34. **Əsas hüquqlar haqqında Avropa İttifaqı Xartiyası** – Bax: Avropa İttifaqı Xartiyası.
35. **Əsas insan hüquqları və azadlıqları** – demokratik-hüquqi dövlətlərin konstitusiyalarında, həmçinin insan hüquqlarına dair fundamental beynəlxalq-hüquqi aktlarda təsbit edilmiş və insanın hüquqi statusunun təmin edilməsi üçün vacib əhəmiyyət kəsb edən hüquqlar və əsas azadlıqlar. Elə hallar olur ki, konkret bir hüquq hər hansı fundamental beynəlxalq müqavilədə təsbit edilir, lakin milli hüquqda öz əksini tapmır. Belə olan halda da bu hüquq əsas insan hüquqları sırasına daxil edilir. Həmçinin burada bir məqamı da nəzərə almaq gərəkdir ki, əksər dövlətlərin konstitusiyaları beynəlxalq-hüquqi aktları özünün milli hüququnun tərkib hissəsi elan edir. Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının hüquq sisteminin ayrılmaz tərkib hissəsidir. Deməli, Azərbaycan hüququnda əsas hüquqlar kateqoriyasına həm Konstitusiyada, həm də Azərbaycanın qoşulduğu beynəlxalq müqavilələrdə təsbit olunmuş hüquqlar aiddir. Eyni zamanda Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, Azərbaycan Respublikası ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir (maddə 71). Bu maddəni təhlil edərək belə nəticəyə gəlmək olar ki, Konstitusiyada təsbit edilib-edilməməsindən aslı olmayaraq, fundamental beynəlxalq hüquqi aktlarda əksini tapmış insan hüquq və azadlıqları Azərbaycan ərazisində qüvvədədir və birbaşa tətbiq edilə bilər. Yəni belə hüquqların tətbiq edilməsi üçün onların milli hüquqa gətirilməsi zəruri deyil.
36. **Əsas və əlavə cəzalar –** Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, ictimai işlər, islah işləri, hərbi xidmət üzrə məhdudlaşdırma, intizam xarakterli hərbi hissədə saxlama, azadlığın məhdudlaşdırılması, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə cəza növləri yalnız əsas cəza kimi tətbiq edilir. Cərimə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəza növləri həm əsas, həm də əlavə cəza kimi tətbiq edilir. Xüsusi və ya hərbi rütbədən, fəxri addan, yaxud dövlət təltifindən məhrum etmə, nəqliyyət vasitələrini idarə etmə hüququndan məhrum etmə və Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəza növləri yalnız əlavə cəza kimi tətbiq edilir (maddə 43).
37. **Əşyaların interneti** (ing. Internet of things, IoT) **–** fiziki obyektlər arasında məlumatların ötürülməsi şəbəkəsi konsepsiyası. Konsepsiya 1999-cu

ildə Massaçusets Texnologiya İnstitutu (ABŞ, Massachusetts Institute of Technology, MIT) tərəfindən hazırlanmışdır. Bu cihazların işləmə mexanizmi əvvəlcədən dəqiq müəyyən olunmuşdur, onlar dəqiq təyin olunmuş informasiyaya əsaslanan funksiyaları yerinə yetirir. Onların işləməsində insan tərəfindən idarə olunma vacibdir. Bu cihazların süni intellekt olmadan fəaliyyət nəticələri səmərəli hesab olunmur.

38. **Ətraf mühit** – insanı və ya digər canlı orqanizmi əhatə edən və onun mövcudluğunun forma və xarakterini müəyyənləşdirən fiziki, coğrafi, bioloji, sosial və digər şərtlərin kompleksi. Ətraf mühitin mühafizəsi haqqında Azərbaycan Respublikasının 8 iyun 1999-cu il tarixli Qanununa əsasən, ətraf mühit – insan fəaliyyətindən asılı olmayaraq onu əhatə edən canlı və cansız təbiətin məcmusudur.
39. **Ətraf mühitə dair informasiya –** torpağın, suyun, yerin təkinin, atmosferin və canlı orqanizmlərin vəziyyəti, ətraf mühitə, insanların sağlamlığına təsir edən və ya təsir edə biləcək fəaliyyət nəticəsində ətraf mühitin komponentlərində baş verən və baş verə biləcək dəyişikliklər, onların qiymətləndirilməsi, ətraf mühitin mühafizəsi və səmərəli istifadəsinə yönəldilmiş tədbirlər və məsrəflər barədə məlumatlar.
40. **Ətraf mühitə dair informasiya almaq haqqında Azərbaycan Respublikasının Qanunu** – ətraf mühitin vəziyyətinə və təbii ehtiyatlardan istifadəyə dair dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarından, həmçinin məsul şəxslərdən tam, dəqiq, vaxtında informasiya almaqla bağlı yaranan münasibətləri tənzimləyən normativ hüquqi akt. 12 mart 2002-ci ildə qəbul edilmişdir.
41. **Ətraf mühitə dair informasiya almaq hüququ** – alınması məhdudlaşdırılan informasiya istisna edilməklə, hər bir şəxsin zamanından asılı olmayaraq və şərt qoyulmadan ətraf mühitə dair informasiya almaq hüququ.
42. **Ətraf mühitə dair informasiyanın alınmasına təminat** – informasiyanın axtarılmasına şərait yaratmaq, sənədlərlə tanış olmaq, onların surətini əldə etmək, vəzifəli şəxslərdən müsahibələr götürmək, mətbuat konfranslarında və digər tədbirlərdə iştirak etmək, yazılı sorğulara rəsmi cavablar almaq hüququnun dövlət və yerli özünüidarəetmə orqanları, habelə məsul şəxslər tərəfindən təmin edilməsi.
43. **Ətraf mühitə zərərli təsir** – ekoloji sistemin ayrı-ayrı komponentlərinin kəmiyyət və keyfiyyətcə dəyişməsinə, ekoloji tarazlığın pozulmasına səbəb olan kimyəvi və bioloji, zərərli fiziki, texniki, dağ-mədən işlərində texnologiyanın pozulması, təbii resurslardan israfçılıqla istifadə edilməsi ilə müşayiət olunan fəaliyyət.

44. **Ətraf mühitin keyfiyyət göstəriciləri** – səlahiyyətli dövlət orqanları tərəfindən təsdiq edilmiş insan sağlamlığını və ətraf mühitin mühafizəsini təmin edən normativ texniki sənədlərin və standartların tələblərinə cavab verən məhsullar və ətraf mühitin tarazlığının ilkin göstəriciləri.
45. **Ətraf mühitin monitorinqi** – təbii və antropogen təsirlər nəticəsində ətraf mühitə yayılan zərərli qaz, maye və bərk haldakı tullantılara kəmiyyət və keyfiyyət cəhətdən nəzarətin elmi əsaslarla həyata keçirilməsi.
46. **Ətraf mühitin mühafizəsi** – ətraf mühitdə təbii mövcud olan maddi varlıqların ilkin kəmiyyət və keyfiyyətcə dəyişmələrə yol verilməməsi, qorunub saxlanması.

F

1. **Fakültativ protokol** – çoxtərəfli beynəlxalq müqavilənin növü olub, əsas beynəlxalq müqavilənin bağlanması ilə əlaqədar olaraq ona əlavə şəklində ayrıca qəbul edilən beynəlxalq hüquqi akt. Əsas müqavilənin tərəflərinin fakültativ protokola qoşulması mütləq deyildir.
2. **Faunistik hüquq** – heyvanlar aləminin mühafizəsi ilə əlaqədar meydana gələn hüquq normalarının və hüquq münasibətlərinin məcmusu.
3. **Femida** (yun. Themis) – hüququn və qanunun aliliyini ifadə edən mifoloji ədalət mühakiməsi ilahəsi. Femida adətən gözübağlı olmaqla bir əlində tərəzi, digərində isə qılınc tutmuş vəziyyətdə təsvir olunur. Femida özü qanunu, gözübağlılıq qərəzsizliyi, tərəzi ədaləti, qılınc isə gücü (bəzi mənbələrdə cəzanı) ifadə edir.
4. **Feminizm** (lat. femina – qadın) – qadınların hüquqlarının təmin edilməsi uğrunda ictimai-siyasi hərəkat.
5. **Fəaliyyət qabiliyyəti** – şəxsin öz hərəkətləri ilə mülki hüquqlar əldə etmək və həyata keçirmək, özü üçün mülki vəzifələr yaratmaq və icra etmək qabiliyyəti.
6. **Fərarilik** – hərbi xidmət əleyhinə olan cinayət növü. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, hərbi qulluqçunun müddətindən asılı olmayaraq hərbi xidmətdən boyun qaçırmaq məqsədilə hərbi hissəni və ya xidmət yerini özbaşına buraxıb getməsi və ya xidmət yerinə qayıtmaması (gəlməməsi) fərarilik sayılır (maddə 334).
7. **Fərdi identifikasiya nömrəsi** – fərdi məlumatların informasiya sistemlərinə barəsində fərdi məlumat daxil edilən şəxsə müəyyən edilmiş qaydada verilən və şəxs barəsində müvafiq məlumatları birmənalı müəyyən etməyə imkan verən vahid təkrarolunmaz kod.
8. **Fərdi məlumatlar** – şəxsin kimliyini birbaşa və ya dolayısı ilə müəyyənləşdirməyə imkan verən istənilən məlumat. Fərdi məlumatlar 2 növ: şəxsi və ailə həyatına dair məlumatları özündə ehtiva edir. İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının 30 sentyabr 2005-ci il tarixli Qanununun 38-ci maddəsinə görə, əldə olunmasına məhdudiyyətlər qoyulan şəxsi həyata dair məlumatlar aşağıdakılardır: qanunla müəyyənləşdirilmiş qaydada qeydə alınan özəl hüquqi şəxslərdə, üzvlüyə dair məlumatlar istisna olmaqla, siyasi baxışları, dini etiqadları, əqidələri və dünya görüşlərini əks etdirən məlumatlar; etnik mənşə və ya irqi mənsubiyyət haqqında məlumatlar; cinayət işləri və ya digər hüquq pozuntularına dair işlər üzrə icraatın gedişində toplanmış informasiyalar

açıq məhkəmə iclasınadək və ya hüquq pozuntusuna dair məhkəmə qərarı çıxarılanadək, yaxud insanların mənəviyyatı, şəxsi və ailə həyatının müdafiəsi, yetkinlik yaşına çatmayanın, zərərçəkənin və ya şahidin mənafeyi, yaxud ədalət mühakiməsinin həyata keçirilməsi üçün tələb edilən hallarda; şəxsin məhkumluğu barədə məlumatlar; sağlamlıq vəziyyəti haqqında məlumatlar; şəxslərin özəl xüsusiyyətləri, qabiliyyətləri və xarakterlərinin digər cizgiləri haqqında məlumatlar; sosial yardım və sosial xidmətlər göstərilməsinə dair vəsatətlər barəsində məlumatlar; ruhi və fiziki əzablara dair məlumatlar; şəxsə qarşı məişət zorakılığının törədilməsinə dair məlumatlar; vergi ödənişləri üzrə borclar istisna olmaqla, vergitutma ilə əlaqədar məlumatlar; maliyyə əməliyyatları barədə məlumatlar. Əldə olunmasına məhdudiyyətlər qoyulan ailə həyatına dair məlumatlar isə aşağıdakılardır: cinsi həyat haqqında məlumatlar; vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı haqqında məlumatlar; ailə həyatının ayrı-ayrı məqamları haqqında məlumatlar; övladlığa götürmə ilə bağlı məlumatlar.

9. **Fərdi məlumatlar haqqında Azərbaycan Respublikasının Qanunu** – fərdi məlumatların toplanılması, işlənilməsi və mühafizəsi ilə bağlı münasibətləri, milli informasiya məkanının fərdi məlumatlar bölümünün formalaşdırılması, habelə fərdi məlumatların transsərhəd ötürülməsi ilə əlaqədar məsələləri tənzimləyən, bu sahədə fəaliyyət göstərən dövlət və yerli özünüidarə orqanlarının, hüquqi və fiziki şəxslərin hüquq və vəzifələrini müəyyən edən normativ hüquqi akt. 11 may 2010-cu ildə qəbul edilmişdir.
10. **Fərdi məlumatların adsızlaşdırılması** – fərdi məlumatların, onun subyektinin kimliyini müəyyənləşdirməyə imkan verməyən vəziyyətə salınması.
11. **Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında Konvensiya** – 1981-ci ildə Strasburqda Avropa Şurasının üzvü olan dövlətlər tərəfindən qəbul edilmiş beynəlxalq-hüquqi sənəd. Konvensiyanın məqsədi vətəndaşlığından, yaxud yaşadığı yerdən asılı olmayaraq, hər bir Tərəfin ərazisində hər bir şəxsin hüquq və əsas azadlıqlarına, xüsusilə fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar olaraq şəxsi həyatın toxunulmazlığı ("məlumatların qorunması") hüququna hörmət edilməsini təmin etməkdən ibarətdir.
12. **Fərdi məlumatların istifadəçisi** – yalnız özü üçün zəruri informasiyanın əldə olunması məqsədilə səlahiyyətləri daxilində mülkiyyətçi tərəfindən müəyyən edilmiş qaydada və həcmdə fərdi məlumatlardan istifadə

hüququ verilmiş dövlət və ya yerli özünüidarə orqanı, hüquqi və ya fiziki şəxs.

13. **Fərdi məlumatların işlənilməsi** – fərdi məlumatlar üzərində aparılan əməliyyatlar (fərdi məlumatların yazılması, sistemləşdirilməsi, təzələnməsi, dəyişdirilməsi, çıxarılması, adsızlaşdırılması, saxlanması, ötürülməsi, məhv edilməsi).
14. **Fərdi Məlumatların Qorunmasının Ümumi Qaydaları (GDPR – General Data Protection Regulation)** – 27 aprel 2016-cı il tarixində Avropa İttifaqı çərçivəsində qəbul edilmiş, 25 may 2018-ci ildə qüvvəyə minmişdir. Qaydalar Avropa İttifaqı vətəndaşlarının fərdi məlumatlarının toplanmasını, emalını, ötürülməsini, istifadəsini və mühafizəsini tənzimləyir və aşağıdakı prinsipləri rəhbər tutur: qanunauyğunluq, ədalətlilik və şəffaflıq; dəqiqlik; məlumatların saxlanılmasının məhdudlaşdırılması; tamlıq və təhlükəsizlik; hesabatlılıq.
15. **Fərdi məlumatların məhv edilməsi** – informasiya sistemində fərdi məlumatların silinməsi, məzmununun sonradan bərpa edilməsi mümkün olmayan vəziyyətə salınması və ya fərdi məlumatlar olan maddi daşıyıcıların məhv edilməsi.
16. **Fərdi məlumatların mülkiyyətçisi** – qanunvericiliklə müəyyən edilmiş qaydada fərdi məlumatların informasiya sistemi və ya ehtiyatı üzərində tam sahiblik, istifadə, sərəncamvermə hüququnu həyata keçirən, fərdi məlumatların işlənilməsi məqsədini müəyyən edən dövlət və ya yerli özünüidarə orqanı, hüquqi və ya fiziki şəxs.
17. **Fərdi məlumatların toplanılması** – subyekt barəsində fərdi məlumatların sənədləşdirilmiş qaydada qanuna uyğun olaraq əldə edilməsi.
18. **Fərdi məlumatların transsərhəd ötürülməsi** – fərdi məlumatların qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının dövlət sərhədindən əlaqədar beynəlxalq təşkilatlara, başqa ölkələrin dövlət və ya yerli özünüidarə orqanlarına, hüquqi və ya fiziki şəxslərinə verilməsi.
19. **Fərdi məlumatların verilməsi** – fərdi məlumatların qanunvericiliklə müəyyən edilmiş qaydada sorğu əsasında maddi daşıyıcılarla və ya informasiya texnologiyaları vasitəsilə istifadəçilərə təqdim edilməsi.
20. **Fərdi məlumatların yayılması** – fərdi məlumatların media, habelə informasiya sistemləri ilə açıqlanması və ya fərdi məlumatlarla şəxslərin hər hansı digər üsulla tanış olmasına imkan yaradılması.
21. **Fərman –** normativ hüquqi aktın növlərindən biri. Azərbaycan Respublikası Konstitusiyasının 113-cü maddəsinə müvafiq olaraq, ümumi qayda-

lar müəyyən etdikdə Azərbaycan Respublikasının Prezidenti fərmanlar, başqa məsələlər barəsində isə sərəncamlar qəbul edir. Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarında başqa qayda nəzərdə tutulmayıbsa, onlar dərc edildiyi gündən qüvvəyə minir. Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının 21 dekabr 2010-cu il tarixli Konstitusiya Qanununun 18-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Konstitusiyasının 113-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin normativ hüquqi aktları fərman formasında qəbul edilir. Azərbaycan Respublikası Prezidentinin fərmanları Azərbaycan Respublikasının Konstitusiyası ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinə aid edilmiş və normativ tənzimləmə predmeti olan məsələlər üzrə qəbul edilir. Azərbaycan Respublikasının Prezidenti tərəfindən qəbul edilən əsasnamələr, nizamnamələr, qaydalar və norma nəzərdə tutan digər aktlar Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə təsdiq edilir.

22. **Fikir və söz azadlığı –** Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 47-ci maddəsinə əsasən, hər kəsin fikir və söz azadlığı vardır. Heç kəs öz fikir və əqidəsini açıqlamağa və ya fikir və əqidəsindən dönməyə məcbur edilə bilməz. İrqi, milli, dini, sosial və hər hansı digər meyara əsaslanan ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 18-ci maddəsinə uyğun olaraq, hər bir şəxs fikir, vicdan və din azadlığı hüququna malikdir. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 19-cu maddəsinə əsasən, hər bir insan maneəsiz olaraq öz fikirlərində qalmaq hüququna malikdir. Hər bir insan öz fikrini sərbəst ifadə etmək hüququna malikdir; bu hüquqa hər cür informasiyaları və ideyaları dövlət sərhədlərindən asılı olmayaraq şifahi və ya yazılı şəkildə, mətbuat və ya bədii ifadə formaları vasitəsilə və yaxud öz seçiminə uyğun olaraq digər üsullarla axtarmaq, almaq və yaymaq hüququ daxildir. Bu maddənin 2-ci bəndində nəzərdə tutulan hüquqlardan istifadə insanın üzərinə xüsusi öhdəliklər və xüsusi məsuliyyət qoyur. Buna görə də o, bəzi məhdudiyyətlərlə bağlıdır; lakin aşağıdakı məqsədlər üçün qoyula bilən həmin məhdudiyyətlər qanunla müəyyən edilməli və zəruri olmalıdır: a) başqa şəxslərin hüquqlarına və nüfuzlarına hörmət edilməsi üçün; b) dövlət təhlükəsizliyinin, ictimai asayişin, əhalinin sağlamlığının və mənəviyyatının qorunması üçün. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın

10-cu maddəsinə əsasən, hər kəs öz fikrini ifadə etmək azadlığı hüququna malikdir. Bu hüquqa öz rəyində qalmaq azadlığı və dövlət hakimiyyəti orqanları tərəfindən hər hansı maneə olmadan və dövlət sərhədlərindən asılı olmayaraq, məlumat və ideyaları almaq və yaymaq azadlığı daxildir. Bu maddə dövlətlərin radio-yayım, televiziya və kinematoqrafiya müəssisələrinə lisenziya tələbi qoymasına mane olmur. Bu azadlıqların həyata keçirilməsi milli təhlükəsizlik, ərazi bütövlüyü və ya ictimai asayiş maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısını almaq üçün, sağlamlığın və mənəviyyatın qorunması üçün, digər şəxslərin nüfuzu və hüquqlarının müdafiəsi üçün, konfidensial şəkildə əldə edilmiş məlumatların açıqlanmasının qarşısını almaq üçün və ya ədalət mühakiməsinin nüfuz və qərəzsizliyini təmin etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan müəyyən rəsmi tələblərə, şərtlərə, məhdudiyyətlərə və ya sanksiyalara məruz qala bilər.

23. **Fiziki şəxs –** hüquq münasibətlərində öz adından iştirak edən insan fərdi. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən, Azərbaycan Respublikasında bütün vətəndaşlar, Azərbaycan Respublikasının ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər fiziki şəxslərdir (maddə 24).

24. **Fond –** üzvləri olmayan, bir və ya bir neçə fiziki və (və ya) hüquqi şəxslər tərəfindən əmlak haqqı əsasında təsis edilən və sosial, xeyriyyə, mədəni, təhsil və ya digər ictimai-faydalı məqsədlər daşıyan qeyri-hökumət təşkilatı.

25. **Fövqəladə vəziyyət –** ölkə ərazisində tətbiq edilən xüsusi hüquqi rejim. Fövqəladə vəziyyət və sosial xarakterli fövqəladə mühit haqqında Azərbaycan Respublikasının 8 iyun 2004-cü il tarixli Qanununa əsasən, fövqəladə vəziyyət – Azərbaycan Respublikasının Konstitusiyasına və bu Qanuna uyğun olaraq Azərbaycan Respublikasının ayrı-ayrı yerlərində Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin konstitusion hüquq və azadlıqlarının, habelə mülkiyyət formasından asılı olmayaraq, bütün hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin bu Qanun ilə müəyyən edilmiş qaydada məhdudlaşdırılmasına və onların üzərinə əlavə vəzifələr qoyulmasına yol verən, eləcə də müvafiq icra hakimiyyəti orqanları və yerli özünüidarə orqanlarının, onların vəzifəli şəxslərinin fəaliyyətini tənzimləyən xüsusi hüquqi rejimdir. Fövqəladə vəziyyət müvəqqəti tədbirdir və fövqəladə vəziyyətin tətbiq edilməsində məqsəd onun tətbiq edilməsinə səbəb olmuş şəraitin tezliklə aradan qaldırılması, qanunçuluğun bərpa edilmə-

si, vətəndaşların, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının təmin olunması, müvafiq icra hakimiyyəti orqanları və yerli özünüidarə orqanlarının, mülkiyyət formasından asılı olmayaraq bütün hüquqi şəxslərin normal fəaliyyət göstərməsi üçün şərait yaradılması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun müdafiəsidir (maddələr 1; 2). Qanunun 21.1-ci maddəsinə əsasən, fövqəladə vəziyyət şəraitində müvafiq icra hakimiyyəti orqanlarının, yerli özünüidarə orqanlarının səlahiyyətlərinin, eləcə də mülkiyyət formasından asılı olmayaraq bütün hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin, vətəndaşların, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının məhdudlaşdırılmasını nəzərdə tutan və tətbiq edilən tədbirlər Azərbaycan Respublikasının Konstitusiyası, bu Qanun, digər qanunvericilik aktları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr ilə müəyyən edilmiş qaydada, yaranmış vəziyyətin kəskinliyindən irəli gələn hədlər çərçivəsində həyata keçirilir. Qanunun 21.2-ci maddəsində isə qeyd edilir ki, bu Qanunun 21.1-ci maddəsində göstərilən tədbirlər Azərbaycan Respublikasının insan hüquqları sahəsində tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərə uyğun gəlməli və irqinə, milliyyətinə, dilinə, cinsinə, mənşəyinə, əmlak vəziyyətinə, qulluq mövqeyinə, əqidəsinə, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətinə və s. səbəblərə görə ayrı-ayrı şəxslərin və əhalinin ayrı-ayrı qruplarının ayrı-seçkiliyinə səbəb olmamalıdır.

26. **Francus homo** (lat.) – azad insan.

27. **Fransız Mülki Məcəlləsi (Napoleon Məcəlləsi) –** Fransanın fundamental qanunvericilik aktlarından biri. İlkin adı fransızların mülki məcəlləsi (code civil des francaise) olan bu akt 21 mart 1804-cü ildə qəbul edilmişdir. Məcəllə 360-dan artıq hüquqi adətlər toplusunu əvəz etmişdir. Məcəllənin bir sıra müddəaları 1789-cu il İnsan və vətəndaş hüquqları Bəyannaməsinə uyğun olaraq hazırlanmışdır. Məcəllə özündə 2281 maddəni ehtiva etməklə giriş titulu və üç kitabdan ibarətdir. Məcəllə fərdin azadlığı, vicdan azadlığı, dünyəvi dövlət, qanun qarşısında bərabərlik kimi dəyərlərə təminat vermişdir. Məcəllə hal-hazırda da qüvvədədir.

G

1. **Gender** (lat. genus – soy, nəsil; cins) – ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində kişi və qadın münasibətlərinin sosial cəhəti.
2. **Gender bərabərliyi** – qadın və kişilərin hüquq bərabərliyi və bu hüquqların həyata keçirilməsi üçün bərabər imkanlar və onların cəmiyyətdə bərabər sosial vəziyyəti. Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının 10 oktyabr 2006-cı il tarixli Qanununa əsasən, gender bərabərliyinin təmin edilməsi üzrə dövlət siyasətinin əsas istiqamətləri aşağıdakılardır: gender bərabərliyinin təmin edilməsi üçün normativ hüquqi bazanın formalaşdırılması, təkmilləşdirilməsi və inkişafı; normativ hüquqi aktların gender ekspertizasından keçirilməsi; gender bərabərliyinin təmin edilməsi üçün dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi; gender bərabərliyi mədəniyyətinin təbliği (maddə 5).
3. **Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanunu** – məqsədi cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlar yaratmaqla gender bərabərliyinin təmin edilməsindən ibarət olan qanunvericilik aktı. 10 oktyabr 2006-cı ildə qəbul edilmişdir.
4. **Genosid** (yun. genos, lat. genus – nəsil, soy; lat. caedo – qətlə yetirmək) – sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə yönələn beynəlxalq cinayət. Beynəlxalq hüquqa əsasən, genosid ən ağır beynəlxalq cinayət olmaqla, təcavüz, insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri kimi cinayətlərlə yanaşı, sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə yönələn cinayətlər qrupuna aid edilir. Beynəlxalq cinayət hüququnda genosid xüsusilə təhlükəli beynəlxalq cinayət hesab edilir. Bu cinayətin tərkibi bir sıra beynəlxalq hüquqi aktlarda müəyyənləşdirilmişdir. İkinci dünya müharibəsi illərində beynəlxalq cinayətlər törətmiş şəxsləri mühakimə etmək üçün yaradılmış ilk beynəlxalq məhkəmə orqanı olan Nürnberq hərbi tribunalının Nizamnaməsində birbaşa genosid termini işlədilməsə də, bu cinayəti təşkil edən əməllər insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri kimi nəzərdə tutulmuşdur. Genosid cinayətinin əsas tərkib elementini zəruri niyyətin təşkil etməsi və onun dinc dövrdə törədilə bilməsi də, bu əməli digər oxşar beynəlxalq cinayətlərdən, xüsusilə də

müharibə cinayətlərindən fərqləndirir. Məhz buna görə də genosid, Yuqoslaviya və Ruanda tribunallarının nizamnamələrində, Beynəlxalq Cinayət Məhkəməsinin Statutunda və bir sıra digər sənədlərdə ayrıca beynəlxalq cinayət kimi fərqləndirilmişdir. Nürnberq Beynəlxalq Hərbi Tribunalının Nizamnaməsində təsbit olunmuş prinsiplər BMT Baş Assambleyasının qətnamələrində əsas prinsiplər kimi təsdiq olunmuşdur. Həmin prinsiplər bunlardır: beynəlxalq hüquqa görə, cinayət sayılan hər hansı əməli törətmiş şəxs ona görə məsuliyyət daşıyır və cəzalandırılmalıdır; beynəlxalq hüquqa görə, cinayət sayılan hər hansı əmələ görə dövlətdaxili hüquqda cəza nəzərdə tutulmaması həmin əməli törətmiş şəxsi beynəlxalq hüquq üzrə məsuliyyətdən azad etmir; beynəlxalq hüquqa görə, cinayət sayılan hər hansı əməli törətmiş şəxsin dövlət başçısı və ya hökumətin məsul vəzifəli şəxsi olması onu beynəlxalq hüquq üzrə məsuliyyətdən azad etmir; beynəlxalq hüquqa görə, cinayət sayılan hər hansı əməli törətmiş şəxsin hökumət və ya məsul şəxsin əmrini yerinə yetirməklə əlaqədar fəaliyyət göstərməsi onu beynəlxalq hüquq üzrə məsuliyyətdən azad etmir, lakin yüngülləşdirici hal kimi qiymətləndirilə bilər; sülh və bəşəriyyət əleyhinə cinayətlər, insanlığa qarşı cinayətlər, müharibə cinayətləri beynəlxalq cinayət kimi cəzalandırılır. BMT-nin bir sıra sənədlərində də genosid ümumi beynəlxalq hüquq normalarını pozan, bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayət kimi vurğulanır. BMT Baş Assambleyasının 11 dekabr 1946-cı il tarixli, 96 (1) saylı qətnaməsində genosidin beynəlxalq hüquq normalarını pozan, BMT-nin ruhuna və məqsədlərinə zidd cinayət olduğu elan edilir. Genosid cinayətinin hüquqi əsası BMT Baş Assambleyasının 9 dekabr 1948-ci il tarixli, 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya ilə müəyyən olunmuşdur. Konvensiyanın preambulasında qeyd olunduğu kimi, genosidin bütün tarix boyu bəşəriyyətə böyük itkilər gətirdiyini etiraf edərək, bəşəriyyəti bu mənfur bəladan xilas etmək üçün beynəlxalq əməkdaşlığın zəruriliyini nəzərə alaraq bu Konvensiya qəbul olunmuşdur. Konvensiyaya görə, genosid hər hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə edilən aşağıdakı hərəkətlərdir: bu cür qrup üzvlərinin öldürülməsi; belə qrup üzvlərinə ağır bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi; hər hansı qrup üçün qəsdən onun tam, yaxud bir qisminin fiziki məhvini nəzərdə tutan tədbirlərin görülməsi; uşaqların zorla bir insan qrupundan alınıb başqasına verilməsi. Analoji müddəa Yuqoslaviya beynəlxalq cinayət tribunalının nizamnaməsində (4-cü mad-

də), Ruanda beynəlxalq cinayət tribunalının nizamnaməsində (3-cü maddə), Beynəlxalq Cinayət Məhkəməsinin Statutunda (6-cı maddə) və bəzi dövlətlərin cinayət qanunvericiliyində əks olunmuşdur. Belə bir müddəa Azərbaycan qanunvericiliyində də təsbit olunmuşdur. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 16-cı fəsli "Sülh və insanlıq əleyhinə cinayətlər" adlanır. Cinayət Məcəlləsinin 103-cü maddəsinə əsasən, hər hansı milli, etnik, irqi və ya dini qrupu, bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərini öldürmə, qrup üzvlərinin sağlamlığına ağır zərər vurma və ya onların əqli qabiliyyətinə ciddi zərər vurma, qrupun bütövlükdə və ya qismən fiziki məhvinə yönəlmiş yaşayış şəraiti yaratma, qrup daxilində doğumların qarşısını almağa yönəlmiş tədbirləri həyata keçirmə, bir qrupa mənsub olan uşaqları zorla başqa qrupa keçirmə soyqırım sayılır. Konvensiyanın iştirakçı dövlətləri sülh, yaxud müharibə dövründə törədilməsindən asılı olmayaraq, genosidin beynəlxalq hüquq normalarını pozan cinayət olduğunu təsdiq edir və onun qarşısını almaq və onun törədilməsinə görə cəzalandırmaq üçün tədbirlər görməyi öhdələrinə götürmüşlər. Konvensiyaya əsasən, genosid, genosid törətmək məqsədilə sui-qəsd, genosidə birbaşa və açıq təhrikçilik, genosidə cəhd, genosiddə iştirak etmək əməlləri cəzalandırılır. Genosid cinayətinə görə, məsuliyyət universal olduğundan bununla bağlı digər dövlətlər də müvafiq tədbirlər görə bilərlər. Belə ki, Konvensiyanın əsasında duran prinsiplər, BMT Beynəlxalq Məhkəməsi tərəfindən bütün dövlətlər üçün məcburi xarakter daşıyan normalar kimi tanınmışdır. Konvensiyada qeyd edilir ki, genosid həyata keçirmiş şəxslər konstitusiyaya görə, məsul şəxs olmasından asılı olmayaraq cəzalandırılmalıdırlar. Genosid törətmiş şəxslərin cəzalandırılması labüddür. Konvensiyanın 5-ci maddəsinə əsasən, iştirakçı-dövlətlər genosid cinayəti törətməkdə təqsirli olan şəxslərin cəzalandırılması üçün təsirli tədbirlər görməlidirlər. Həmin şəxslər ya dövlətin ərazisində səlahiyyətli məhkəmələrdə, yaxud da beynəlxalq məhkəmə tərəfindən mühakimə edilməlidirlər. Genosid cinayəti törətməkdə təqsirli bilinən şəxslərin ekstradisiyasına gəlincə isə, Konvensiyaya əsasən belə şəxslərin təhvil verilməsinə münasibətdə genosid siyasi cinayət sayılmır. Deməli, genosid cinayəti törətmiş şəxslərə sığınacaq hüququ şamil edilmir. Konvensiyanın 8-ci maddəsinə əsasən, Konvensiyanın hər bir iştirakçısı BMT-nin müvafiq orqanına BMT Nizamnaməsinin müddəalarına uyğun olaraq, onun fikrincə, genosidin qarşısını almaq və ya kökünü kəsmək üçün lazım olan bütün tədbirlərin görülməsi tələbi ilə müraciət edə bilər. Konvensiyaya görə, bu və ya

digər dövlətin genosiddə məsuliyyəti barədə mübahisə tərəflərdən birinin tələbi ilə Beynəlxalq Məhkəməyə verilir. 26 noyabr 1968-ci il tarixli Müddətin hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə tətbiq edilməməsi haqqında Konvensiya imkan verir ki, törədilmə vaxtından asılı olmayaraq genosid cinayəti törətmiş məsul şəxslər istənilən vaxt cinayət məsuliyyətinə cəlb edilsinlər. Belə bir müddəa Azərbaycan qanunvericiliyində də nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müddətin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad etməni nəzərdə tutan 75-ci maddəsinin 5-ci bəndinə əsasən, bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş sülh və insanlıq əleyhinə, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə və müharibə cinayətləri törətmiş şəxslərə bu maddənin müddəaları tətbiq olunmur. BMT Baş Assambleyasının 3 dekabr 1973-cü il tarixli qətnaməsi ilə qəbul edilmiş "Hərbi cinayətlərin, bəşəriyyətə qarşı cinayətlərin törədilməsində təqsiri olan şəxslərin aşkara çıxarılması, həbs edilməsi, təhvil verilməsi və cəzalandırılmasına dair beynəlxalq əməkdaşlığın prinsipləri"nə müvafiq olaraq, hərbi cinayətlərin, bəşəriyyətə qarşı cinayətlərin törədilməsində təqsiri olan şəxslərin məhkəmə təqibinin və cəzalandırılmasının təmin edilməsinə yönəldilmiş beynəlxalq tədbirlərin görülməsinə xüsusi zərurət vardır. Hərbi cinayətlər və bəşəriyyətə qarşı cinayətlər nə vaxt və harada törədilməsindən asılı olmayaraq tədqiq edilməli, belə cinayətləri törətdikləri barəsində dəlillər olan şəxslər isə axtarılmalı, həbs edilməli, məsuliyyətə cəlb olunmalı və cəzalandırılmalıdırlar. Genosid cinayətinə görə məsuliyyətin meydana çıxması üçün bütövlükdə müəyyən qrupun məhv edilməsindən ibarət son nəticə tələb olunmur. Genosid cinayətinin tərkibini təşkil edən əməllərdən birinin və ya bir neçəsinin müəyyən qrupu tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi genosid kimi qiymətləndirilir. Beynəlxalq cinayətlərə görə məsuliyyətin zəruriliyi barədə müddəa beynəlxalq adət normasına çevrilmişdir və dövlətdaxili hüquqla nəzərdə tutulub-tutulmamasından asılı olmayaraq, ümumqəbulolunmuş hüquq prinsiplərinə əsasən cinayət sayılan hər hansı əmələ görə cinayət məsuliyyətinə cəlb edilmə zəruridir. Genosid cinayətinə misal olaraq, 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri tərəfindən azərbaycanlıların bir milli qrup kimi tamamilə və ya qismən məhv edilməsi məqsədilə törədilmiş Xocalı genosidini qeyd etmək olar (ətraflı bax: Xocalı soyqırımı).

5. **Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya –** genosid cinayətinin hüquqi əsasını müəyyənləşdirən bey-

nəlxalq müqavilə. BMT Baş Assambleyasının 9 dekabr 1948-ci il tarixli, 260 (III) saylı qətnaməsi ilə qəbul edilmişdir. Konvensiyanın preambulasında qeyd edilir ki, genosidin bütün tarix boyu bəşəriyyətə böyük itkilər gətirdiyini etiraf edərək, bəşəriyyəti bu mənfur bəladan xilas etmək üçün beynəlxalq əməkdaşlığın zəruriliyini nəzərə alaraq bu Konvensiya qəbul olunmuşdur. Konvensiyaya görə, genosid hər hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə edilən aşağıdakı hərəkətlərdir: bu cür qrup üzvlərinin öldürülməsi; belə qrup üzvlərinə ağır bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi; hər hansı qrup üçün qəsdən onun tam, yaxud bir qisminin fiziki məhvini nəzərdə tutan tədbirlərin görülməsi; uşaqların zorla bir insan qrupundan alınıb başqasına verilməsi. Konvensiyanın iştirakçı dövlətləri sülh, yaxud müharibə dövründə törədilməsindən asılı olmayaraq genosidin beynəlxalq hüquq normalarını pozan cinayət olduğunu təsdiq edir və onun qarşısını almaq və onun törədilməsinə görə cəzalandırmaq üçün tədbirlər görməyi öhdələrinə götürmüşlər. Konvensiyaya əsasən, genosid, genosid törətmək məqsədilə sui-qəsd, genosidə birbaşa və açıq təhrikçilik, genosidə cəhd, genosiddə iştirak etmək əməlləri cəzalandırılır. Genosid cinayətinə görə, məsuliyyət universal olduğundan bununla bağlı digər dövlətlər də müvafiq tədbirlər görə bilərlər. Belə ki, Konvensiyanın əsasında duran prinsiplər BMT Beynəlxalq Məhkəməsi tərəfindən bütün dövlətlər üçün məcburi xarakter daşıyan normalar kimi tanınmışdır. Konvensiyada qeyd edilir ki, genosid həyata keçirmiş şəxslər konstitusiyaya görə, məsul şəxs olmasından asılı olmayaraq cəzalandırılmalıdırlar. Genosid törətmiş şəxslərin cəzalandırılması labüddür. Konvensiyanın 5-ci maddəsinə əsasən, iştirakçı-dövlətlər genosid cinayəti törətməkdə təqsirli olan şəxslərin cəzalandırılması üçün təsirli tədbirlər görməlidirlər. Həmin şəxslər ya dövlətin ərazisində səlahiyyətli məhkəmələrdə, yaxud da beynəlxalq məhkəmə tərəfindən mühakimə edilməlidirlər. Genosid cinayəti törətməkdə təqsirli bilinən şəxslərin ekstradisiyasına gəlincə isə, Konvensiyaya əsasən, belə şəxslərin təhvil verilməsinə münasibətdə genosid siyasi cinayət sayılmır. Konvensiyanın 8-ci maddəsinə əsasən, Konvensiyanın hər bir iştirakçısı BMT-nin müvafiq orqanına BMT Nizamnaməsinin müddəalarına uyğun olaraq, onun fikrincə, genosidin qarşısını almaq və ya kökünü kəsmək üçün lazım olan bütün tədbirlərin görülməsi tələbi ilə müraciət edə bilər. Konvensiyaya görə, bu və ya digər dövlətin genosiddə məsuliyyəti barədə mübahisə, tərəflərdən birinin tələbi ilə Beynəlxalq Məhkəməyə verilir.

6. **Grammatica falsa non vitiat chartam** (lat.) – qrammatik səhvlər sənədi etibarsız etmir.

7. **Güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi –** beynəlxalq hüququn ümumtanınmış, əsas prinsiplərindən biri. Bu prinsip öz birbaşa ifadəsini BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində tapmışdır. Burada deyilir ki, BMT-nin bütün üzvləri "öz beynəlxalq münasibətlərində, hər hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı və yaxud BMT-nin məqsədləri ilə bir araya sığmayan hər hansı bir şəkildə güclə hədələməkdən və gücün tətbiqindən çəkinirlər". Qeyd olunan prinsip, həmçinin Təcavüzün tərifi haqqında BMT Baş Assambleyasının 1974-cü il tarixli Qətnaməsində və Beynəlxalq münasibətlərdə güclə hədələməkdən və ya onun tətbiqindən imtina edilməsi prinsipinin səmərəliliyinin artırılması haqqında 1987-ci il tarixli Bəyannamədə öz əksini tapmışdır. Beynəlxalq hüquqda "güc" dedikdə hərbi, silahlı güc başa düşülür. Qeyd olunan prinsipdə iki istisna hal mövcuddur, yəni beynəlxalq hüquq yalnız iki halda silahlı gücün tətbiqinə yol verir: 1. özünümüdafiə və 2. sülhə təhlükə, sülhün pozulması və ya təcavüz aktı olduqda, BMT Təhlükəsizlik Şurasının qərarına əsasən.

H

1. **Haaqa hüququ –** 1899 və 1907-ci illərdə Niderland Krallığında keçirilmiş sülh konfranslarında qəbul edilmiş on üç beynəlxalq konvensiyanın müddəalarından ibarət hüquqi normalar sistemi.
2. **Haaqa konvensiyaları –** 1899 və 1907-ci illərdə Niderland Krallığında keçirilmiş Haaqa sülh konfranslarında qəbul edilmiş beynəlxalq hüquqi aktlar. 1899-cu il konfransında üç konvensiya qəbul edilmişdir: Beynəlxalq münaqişələrin sülh yolu ilə həlli haqqında; Quruda olan müharibənin qanun və adətləri haqqında; Dəniz müharibələrinə 10 avqust 1864-cü il tarixli Cenevrə Konvensiyasının əsaslarının tətbiqi haqqında. 1907-ci il konfransında 1-ci sülh konfransında qəbul edilmiş konvensiyalara yenidən baxılmış və daha on konvensiya qəbul edilmişdir: Borc öhdəliyinə görə güc tətbiqinin məhdudlaşdırılması haqqında; Hərbi əməliyyatların başlanması haqqında; Quruda olan müharibədə neytral dövlətlərin və şəxslərin hüquq və öhdəlikləri haqqında; Hərbi əməliyyatlar vaxtı qarşı tərəfin ticarət gəmilərinin vəziyyəti haqqında; Ticarət gəmilərinin hərbiləşdirilməsi haqqında; Avtomatik sualtı minaların quraşdırılmaası haqqında; Müharibə vaxtı dəniz qüvvələri tərəfindən bombardman haqqında; Dəniz müharibəsində istila etmə hüququndan istifadənin bəzi məhdudiyyətləri haqqında; Dəniz müharibəsində neytral dövlətlərin hüquq və öhdəlikləri haqqında; Beynəlxalq mükafat palatasının təsis edilməsi haqqında. Sonuncu qeyd edilən konvensiya qüvvəyə minməmişdir.
3. **Haaqa sülh konfransları** – Niderland Krallığında keçirilmiş dayanıqlı sülhün təmin edilməsinə və silahlanmanın məhdudlaşdırılmasına yönəlmiş beynəlxalq forumlar. Birinci Haaqa sülh konfransı 1899-cu ildə keçirilmişdir. Konfransın işində 26 dövlət iştirak etmişdir. Konfransda üç konvensiya, həmçinin hərbi əməliyyatların məhdudlaşdırılmasına yönələn üç bəyannamə qəbul edilmişdir. Birinci Haaqa konfransının nəticələrindən razı qalmayan ABŞ prezidenti Teodor Ruzvelt ikinci sülh konfransının keçirilməsini təklif etmişdir. İkinci Haaqa sülh konfransı 44 dövlətin iştirakı ilə 1907-ci ildə keçirilmişdir. 1899-cu ildə qəbul edilmiş üç konvensiyaya yenidən baxan konfrans daha on konvensiya qəbul etmişdir. Konfransın işinə məşhur hüquqşünas alimlər: L.Burjua (Fransa), A.Bertran (Belçika), İ.Torielli (İtaliya) və F.Martens (Rusiya) böyük töhfə vermişlər. Konfransda həmçinin 3-cü sülh konfransının keçirilməsi razılaşdırılmışdı. Lakin birinci dünya müharibəsinin başlanması buna imkan verməmişdir.

4. **“Habeas Korpus” Aktı** (ing. Habeas Corpus Act) – 1679-cu ildə İngiltərə parlamenti tərəfindən qəbul edilmiş qanunvericilik aktı. Akt insan hüquqları baxımından mühüm əhəmiyyət kəsb edən tarixi sənəddir. Akta əsasən, cinayət (dövlətə xəyanət və ağır cinayətlər istisna olmaqla) törətdiyinə görə saxlanılan şəxs bilavasitə özü və ya nümayəndə vasitəsilə “habeas corpus” (şəxsin məhkəmə qarşısına çıxarılması, məhkəməyə gətirilməsi) əmrinin verilməsi ilə bağlı məhkəməyə müraciət etmək hüququna malikdir. “Habeas corpus” əmrini alan vəzifəli şəxs saxlanılan şəxsi göstərilən müddətdə məhkəməyə gətirməyə borcludur. “Habeas corpus” əmrinə müvafiq olaraq, azad edilmiş şəxs eyni əmələ görə məhkəməyə qədər yenidən həbs edilə bilməz. 1679-cu il Aktının əsasında ədalət mühakiməsinin bir sıra mühüm prinsipləri formalaşmışdır: təqsirsizlik prezumpsiyası; şəxsin tutulması zamanı qanunçuluğa əməl edilməsi, ədalətli məhkəmə araşdırması.
5. **Hakim** – ədalət mühakiməsini həyata keçirmək üçün qanunla müəyyən edilmiş səlahiyyətlərə malik şəxs. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, seçkilərdə iştirak etmək hüququna malik olan, ali hüquq təhsilli və hüquqşünas ixtisası üzrə 5 ildən artıq işləyən Azərbaycan Respublikası vətəndaşları hakim ola bilərlər. Hakimlər heç bir başqa seçkili və təyinatlı vəzifə tuta bilməzlər, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməzlər, siyasi fəaliyyətlə məşğul ola bilməz və siyasi partiyalara üzv ola bilməzlər, vəzifə maaşından, habelə elmi, pedaqoji və yaradıcılıq fəaliyyətinə görə aldığı vəsaitdən başqa məvacib ala bilməzlər. Hakimlər müstəqildir, yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabedir və səlahiyyətləri müddətində dəyişilməzdirlər. Hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxırlar. Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli Qanununa əsasən, Azərbaycan Respublikasının bütün hakimləri (məhkəmələrin sədrləri, sədr müavinləri, kollegiya sədrləri və hakimləri) işlərə baxarkən eyni statusa, hüquq və vəzifələrə malikdirlər və bir-birindən yalnız təyin olunma qaydasına, səlahiyyətlərinə və səlahiyyət müddətlərinə görə fərqlənirlər. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunda qəbul olunmuş qərarlardan başqa, bütün digər kollegial məhkəmə qərarlarına görə onların qəbul olunmasında iştirak etmiş hər bir hakim (qərar qəbul edilərkən xüsusi rəy və ya belə qərarın əleyhinə səs vermiş hakim istisna olmaqla) eyni dərəcədə məsuldur (maddə 92). İkili vətəndaşlığı,

digər dövlətlər qarşısında öhdəlikləri olanlar, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən təsdiq edilmiş, tibbi rəyə əsasən, fiziki və əqli pozuntularına görə hakim səlahiyyətlərini yerinə yetirməyə qadir olmayan, cinayət törətməyə görə əvvəllər məhkum olunmuş, barəsində cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilmiş, hakim vəzifəsindən intizam qaydasında azad edilmiş şəxslər hakim ola bilməzlər (maddə 93).

6. **Hakimiyyət –** 1. nəyinsə və ya kiminsə üzərində sərəncam vermək və öz iradəsinə tabe etmək üzrə hüquq və imkanların vəhdəti; 2. siyasi hökmranlıq; 3. hakimiyyətin müxtəlif növlərini: dövlət hakimiyyəti, ictimai hakimiyyət, təsərrüfat hakimiyyəti, ailə hakimiyyəti və s. ifadə edən ümumi termin. Məşhur alman filosofu və sosioloqu Maks Veberə görə, hakimiyyət – sosial münasibətlər çərçivəsində hər hansı bir müqavimətə baxmayaraq, öz iradəsini tətbiq etmək üzrə istənilən imkandır.

7. **Hakimiyyətlərin bölgüsü –** dövlət hakimiyyətinin təşkilinin demokratik konsepsiyası. Hakimiyyətlərin bölgüsü konsepsiyası ilk dəfə məşhur ingilis filosofu Con Lokk (1632-1704) tərəfindən irəli sürülmüş və tanınmış fransız hüquqşünası Şarl Lui de Monteskye (1689-1755) tərəfindən inkişaf etdirilmişdir. Ümumilikdə, hakimiyyətlərin bölgüsü haqqında elmi doktrina Monteskye tərəfindən işlənib hazırlanmışdır. "Qanunların ruhu haqqında" əsərində (1748) Monteskye qeyd edirdi ki, "Hakimiyyətlərin bölgüsünün əsas məqsədi – hakimiyyətdən sui-istifadənin qarşısını almaqdır. Hakimiyyətlərin bölgüsü siyasi azadlığın təmin edilməsinin əsas şərtidir". Monteskyeyə görə, hər bir dövlətdə hakimiyyətin üç qolu olmalıdır: qanunverici, icra və məhkəmə. Müasir demokratik dövlətlərin konstitusiyalarında Monteskyenin nəzəriyyəsi öz əksini tapmışdır. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir: qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir; icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur; məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir. Konstitusiyanın müddəalarına əsasən, qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

8. **Hakimlərin Etik Davranış Kodeksi** – hakimlik fəaliyyətinin etik prinsiplərinin və standartlarının toplusu. Kodeks hakimlər üçün spesifik əxlaq və ədəb tələblərini, onların peşə etikası məsələlərini, iş fəaliyyətindən kənar davranışını nizamlayır, peşə fəaliyyətinə münasibətini müəyyən

edir. Hakimlərin Etik Davranış Kodeksi Məhkəmə-Hüquq Şurası tərəfindən təsdiq edilir.

9. **Hakimlərin Seçki Komitəsi** – Məhkəmə-Hüquq Şurası tərəfindən formalaşdırılan və hakim vəzifəsinə namizədlərin seçimini həyata keçirən orqan.
10. **Hamiləliyin süni surətdə pozulması, abort** (lat. abortus – uşaqsalma) – hər bir qadının analıq barədə məsələni təkbaşına həll etmək hüququ. Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının Qanununa əsasən, hamiləliyin süni surətdə pozulması üçün üç hal müəyyən edilmişdir: 1. qadının öz arzusu ilə: hamiləliyin süni surətdə pozulması qadının arzusu ilə hamiləliyin 12 həftəlik müddətinədək aparılır; 2. tibbi göstərişlər əsasında: tibbi göstərişlərə əsasən və qadının razılığı olduqda hamiləlik müddətindən asılı olmayaraq, süni surətdə pozula bilər; 3. sosial göstərişlər əsasında: sosial göstərişlər üzrə süni pozulma hamiləliyin 22 həftəliyinədək aparıla bilər (maddə 30).
11. **Hammurapi qanunları –** ən qədim qanunlar külliyyatlarından biri olub, Babilistan çarı Hammurapinin (b.e.ə. 1792-1750) qanunlar toplusudur. Toplunun ilk müddəaları cinayət və cəza məsələlərinə həsr olunmuşdur. Topluda həmçinin mülkiyyətin müdafiəsi ilə bağlı məsələlər də öz əksini tapmışdır. Ümumilikdə, topluda nikah, mülkiyyət, borc, müqavilə, əxlaqla bağlı müddəalar anlaşıqlı şəkildə ifadə edilmişdir. Məhz bu topluya görə Hammurapi hüquq tarixinə "qanunvericilik sənətinin dahisi" kimi daxil olmuşdur.
12. **Helsinki Yekun Aktı –** Bax: ATƏT-in Helsinki Yekun Aktı.
13. **Heydər Əliyev Fondu –** müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılmış qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. 2004-cü ildən fəaliyyətə başlamış Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir. Heydər Əliyev Fondunun prezidenti Azərbaycanın birinci xanımı, ISESCO-nun Xoşməramlı səfiri Mehriban Əliyevadır. Fondun əsas məqsədləri görkəmli siyasi xadim Heydər Əliyevin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi, işləyib hazırladığı siyasətin öyrənilməsinə, təbli-

ğinə və bu ideyaların həyata keçirilməsinə dəstək vermək; Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə Ümummilli Lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşmasına kömək etmək; elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr hazırlayıb həyata keçirmək; respublikanın və xarici ölkələrin fondları, QHT-ləri, ictimai təşkilatları ilə əməkdaşlığı genişləndirmək, onlarla birgə layihələr həyata keçirmək; yerli əhəmiyyətli sosial problemlərin həllinə yardımçı olmaq, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərmək; insanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardım etmək; Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlərə kömək etmək; uşaq və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək; Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardım göstərmək; Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq; respublikanın və xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlıq etmək; elmi tədqiqatların aparılmasına yardım göstərmək; xarici ölkələrin tanınmış elmi-tədqiqat mərkəzləri ilə alimlərin mübadiləsini təşkil etmək, ölkənin yaradıcı və elmi potensialının artırılmasına kömək etmək; uşaq müəssisələrinin infrastrukturlarını inkişaf etdirmək; səhiyyə və tibbi təsisatları inkişaf etdirmək; ekologiya sahəsində mühüm tədqiqatları dəstəkləmək, sağlam həyat tərzini təbliğ etmək; Azərbaycan Respublikasının ərazisində və xaricdə aktual mövzulara dair konfrans və seminarlar təşkil etmək; uşaqların, yaradıcı gənclərin, incəsənət xadimlərinin sərgilərini təşkil etmək; dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək verməkdən ibarətdir. Təhsil sisteminin inkişaf etdirilməsi məqsədilə Heydər Əliyev Fondu "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" və "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" layihələrini, səhiyyə sisteminin inkişafı məqsədilə "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Tibb müəssisələrinin yenidən qurulması və inşası", "Xeyriyyə aksiyaları" layihələrini, mədəniyyət sahəsinin inkişafı məqsədilə "Mədəniyyət obyektləri və tarixi mədəniyyət abidələri", "Musiqi layihələri", "İncəsənət festivalları və sərgilər", "Tolerantlığın ünvanı – Azərbaycan", "Azərbaycan mədəniyyətinin xaricdə təbliği" layihələri-

ni uğurla həyata keçirir. Eyni zamanda müntəzəm olaraq xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün şənliklər, əyləncəli tədbirlər, uşaq festivalları, idmanın təbliği məqsədilə marafonlar, ətraf mühitin mühafizəsinin təbliği məqsədilə isə ağacəkmə və təmizlik aksiyaları, "Tullantıdan sənətə" sərgiləri, "Ağacların müayinəsi" tədbirləri keçirilir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu Ulu Öndərin xeyirxahlıq və humanizm missiyasını yaşadır və uğurla davam etdirir.

14. **Həbs** – Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə əsasən, qətimkan tədbiri qismində bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada təqsirləndirilən şəxsin azadlığını müvəqqəti məhdudlaşdırmaqla həbs yerlərində saxlanılması (maddə 7).
15. **Həbs yerləri** – Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə əsasən, tutulmuş və ya həbs edilmiş şəxsin saxlanılması üçün nəzərdə tutulmuş müvəqqəti saxlama yerləri, istintaq təcridxanaları və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin qarnizon hauptvaxtları (maddə 7).
16. **Həmkarlar ittifaqları yaratmaq hüququ –** Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikasının Konstitusiyasının 58-ci maddəsinə əsasən, hər kəs istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququna malikdir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 23-cü maddəsinə əsasən, hər bir şəxsin həmkarlar ittifaqı yaratmaq və öz sosial maraqlarını müdafiə etmək üçün həmkarlar ittifaqlarına daxil olmaq hüququ var. İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 8-ci maddəsinə əsasən, bu Paktda iştirak edən dövlətlər aşağıdakıları təmin etməyi öhdələrinə götürürlər: a) hər bir şəxsin öz iqtisadi və sosial maraqlarını həyata keçirmək və müdafiə etmək üçün həmkarlar ittifaqları yaratmaq və müvafiq təşkilatın qaydalarını gözləmək şərtilə onlara daxil olmaq hüququna, həmin hüquqdan istifadə olunmasına qanunda nəzərdə tutulandan və demokratik cəmiyyətdə dövlət təhlükəsizliyinin, yaxud ictimai asayişin və yaxud başqalarının hüquq və azadlıqlarının qorunması üçün zəruri olanlardan əlavə heç bir məhdudiyyət qoyulmamalıdır, b) həmkarlar ittifaqlarının milli federasiyalar və konfederasiyalar yaratmaq və sonuncuların beynəlxalq həmkarlar ittifaqları təşkilatları yaratmaq, yaxud onlara qoşulmaq hüququnu;

c) həmkarlar ittifaqlarının qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə dövlət təhlükəsizliyi və ictimai asayişin qorunması məqsədilə olan məhdudiyyətlərdən başqa, heç bir məhdudiyyət olmadan fəaliyyət göstərmək hüququnu; d) hər bir ölkənin qanunlarına uyğun şəkildə keçirilməklə tətil hüququnu. Bu maddə silahlı qüvvələrə, polisə və dövlət idarəetmə orqanlarına daxil olan şəxslərin bu hüquqlardan istifadə etmələrinə qanuni məhdudiyyətlərin qoyulmasına maneə törətmir.

17. **Hominum causa jus constitutum est** (lat.) – hüquq bəşəriyyətin xeyri üçün yaranmışdır.
18. **Homo sui juris** (lat.) – hüquqlara malik olan azad insan.
19. **Hökumət –** dövlət idarəetmə orqanlarının rəhbərlərindən ibarət olan ali icra orqanı. Adətən, ya nazirlər şurası, ya da nazirlər kabineti adlanan hökumətə hökumət başçısı (baş nazir) rəhbərlik edir. Azərbaycan Respublikasında Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin yuxarı icra orqanıdır. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, Azərbaycan Respublikasının Prezidenti icra səlahiyyətlərinin həyata keçirilməsinin təşkili məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetini yaradır. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidentinə tabedir və onun qarşısında cavabdehdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin tərkibinə Azərbaycan Respublikasının Baş naziri, onun müavinləri, nazirlər və başqa mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri daxildirlər.
20. **Humanitar hüquq** – Bax: beynəlxalq humanitar hüquq.
21. **Humanizm** (lat. humanitas – insanlıq, humanus – insani, homo – insan) **–** insanı təbii hüquq və azadlıqlara malik, azad və xoşbəxt olmağa, inkişaf etməyə hüququ olan, ləyaqətə malik olan şəxsiyyət kimi dəyərləndirən etik kateqoriya.
22. **Humanizm prinsipi –** hüququn ümumtanınmış prinsiplərindən biri. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, bu Məcəllə qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirə görə məsuliyyət, ədalət və humanizm prinsiplərinə əsaslanır. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin "Humanizm prinsipi" adlanan 9-cu maddəsinə əsasən, Cinayət Məcəlləsi insanların təhlükəsizliyini təmin edir. Cinayət törətmiş şəxsə tətbiq edilən cəza və digər cinayət-hüquqi xarakterli tədbirlər işgəncə və ya digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan xarakter və ya məqsəd daşıya bilməz.
23. **Hüquq –** sosial tənzimetmənin xüsusi növü. Hüquq geniş anlayış olduğundan ona birmənalı tərif vermək qeyri-mümkündür. Hüquq insanların

davranışının tənzimlənməsinə yönələn və dövlət tərəfindən təmin edilən ümumməcburi, formal müəyyən edilmiş normalar sistemidir. Hüquq ictimai münasibətlərin nizamlayıcılarından biri olmaqla dövlət tərəfindən təmin edilən ümumməcburi davranış qaydaları sistemidir. Hüququn aşağıdakı əlamətlərini qeyd etmək olar: normativlik; ümumməcburilik; dövlət tərəfindən təminatlılıq; formal müəyyənlik; sistemlilik. Hüquq həm də əsasən iki mənada başa düşülür: subyektiv hüquq, yəni subyektin – konkret şəxsin (həm hüquqi, həm də fiziki) hüquqi cəhətdən təminatlandırılmış davranış azadlığı və ya imkanı. Məsələn, hər kəs qanunvericilikdə və beynəlxalq hüquq normalarında nəzərdə tutulmuş bir sıra hüquq və azadlıqlara malikdir. Məsələn, azadlıq hüququ, ədalətli məhkəmə hüququ, sosial təminat hüququ və s. Obyektiv mənada hüquq əsasən normativ, normalardan ibarət "törəmə" kimi başa düşülür. Obyektiv mənada hüquq deyəndə davranış azadlığı nəzərdə tutulmur, normalardan ibarət "sosial fenomen" başa düşülür. Obyektiv hüquq geniş mənada hüquq (məsələn, Azərbaycan hüququ, dövlətdaxili hüquq) və ya dar mənada hüquq (məsələn, cinayət hüququ, mülki hüquq), yaxud qanunlarda və hüququn digər mənbələrində ifadə olunan hüquq normaları, bu normaların məcmusudur. Hüquq deyəndə həm də qanunlarda və dövlət tərəfindən tanınan hüququn digər mənbələrində öz əksini tapmış və hüquqi cəhətdən yol verilən (həmçinin qadağan edilən) davranışın ümumməcburi meyarı qismində çıxış edən normalar sistemi başa düşülür. Bu hüququn daha çox praktik definisiyasıdır. Bəzi mənbələrdə qeyd olunur ki, məşhur alman mütəfəkkiri İmmanuel Kantın fikrincə, "Hüquq – Allahın yer üzündə ən müqəddəs varlığıdır". Məşhur alman filosofu Fridrix Hegelə görə, hüquq – azad iradənin reallıqda həyata keçirilməsidir. Hegelin fikrincə, hüququn əsasında azadlıq və əxlaq dayanır. "Hüquq"a konkret bir cümlə ilə belə tərif vermək olar: Hüquq – xeyirxahlıq (yaxşılıq) və ədalətlilik sənətidir (Jus est ars boni et aequi).

24. Hüquq ailəsi – hüququn mənbələri, strukturu və formalaşmasının tarixi mərhələlərinə dair ümumi cəhətləri birləşdirən ayrı-ayrı milli hüquq sistemlərinin məcmusu, oxşar hüquqi adət və ənənələrə və ümumi cəhətlərə malik hüquq sistemlərinin qrupu. "Hüquq ailəsi" termini elmi ədəbiyyata ilk dəfə olaraq məşhur alman filosofu, Berlin Elmlər Akademiyasının təsisçisi və ilk prezidenti Qotfrid Vilhelm Leybnis (1646-1716) tərəfindən gətirilmişdir. "Hüquqşünaslığın tədrisinin yeni üsulları (Nova Methodus Discendae Docendaeque İurisprudentiae)" əsərində (1667) alman mütəfəkkiri ayrı-ayrı dövlətlərin hüquq sistemlərinin ailələrdə birləşdi-

rilməsi konsepsiyasını irəli sürmüşdür. Bu konsepsiya sonradan tanınmış fransız alimi, Paris Universitetinin professoru Rene David (1906-1990) tərəfindən elmi cəhətdən əsaslandırılmış və inkişaf etdirilmişdir. "Müasir dövrün əsas hüquq sistemləri" əsərində (1964) R.David əsas üç hüquq ailəsini fərqləndirirdi: roman-alman (kontinental) hüquq ailəsi; ingilis-amerikan (ümumi) hüquq ailəsi; sosialist hüquq ailəsi. Bundan əlavə müəllif digər müstəqil hüquq ailələrinin də mövcudluğunu qeyd edirdi: müsəlman hüquq ailəsi, kanonik hüquq ailəsi, Uzaq Şərq (yapon-çin) hüquq ailəsi, Afrika hüquq ailəsi. Ayrı-ayrı hüquq sistemlərinin hüquq ailələrində birləşdirilməsinin aşağıdakı kriteriyalarını qeyd etmək olar: hüququn mənbələrinin uyğunluğu; presedentlərin yaranmasında məhkəmələrin rolu; hüquq sistemlərinin yaranması və inkişafı.

25. **Hüquqauyğun davranış –** fiziki və hüquqi şəxslərin qanuna müvafiq olan ictimai faydalı davranışı. Hüquqauyğun davranış dövlət tərəfindən təmin edilir və qorunur. Hüquqauyğun davranışın strukturu özündə 4 elementi ehtiva edir: subyekt, obyekt, subyektiv cəhət və obyektiv cəhət. Hüquqauyğun davranışın subyektləri qismində fiziki və hüquqi şəxslər, dövlət orqanları və digər qurumlar çıxış edir. Hüquqauyğun davranışın obyekti ətraf aləmin predmetləri və ya insanların davranışıdır. Subyektiv cəhət davranışın daxili mahiyyətini ifadə edir: davranışın motivi, öz hərəkətlərinə psixi münasibət və s. Obyektiv cəhət hüquqauyğun davranışın zahiri tərəfi olmaqla hərəkət və ya hərəkətsizlikdə ifadə olunur.

26. **Hüquq düşüncəsi –** ictimai düşüncənin bir növü olub, fərdlərin, sosial qrupların, bütövlükdə cəmiyyətin hüquqa, hüquqi hadisələrə münasibətində ifadə olunan hüquqi baxışlar, nəzəriyyələr, ideyalar, hisslər sistemi. Hüquq düşüncəsi insanlar tərəfindən hüquqi hadisələrin subyektiv dərk edilməsidir. Hüquq düşüncəsi hüquqi fəallığın mənbəyi və hüquqi əhəmiyyətli davranışın daxili tənzimləyicisi və həyata keçirilməsi mexanizmi kimi çıxış edir. Hüquq düşüncəsinin strukturuna hüquqi ideologiya və hüquqi psixologiya daxildir. Hüquq düşüncəsinin əsas funksiyaları idrak, qiymətləndirmə və tənzimləyici funksiyalardır. Hüquq ədəbiyyatında hüquq düşüncəsinin üç səviyyəsi fərqləndirilir: adi, elmi və peşəkar səviyyələr.

27. **Hüquq elmi –** dövlətin və hüququn xüsusiyyətlərini öyrənən elm sahəsi.

28. **Hüquq fəlsəfəsi –** hüququn anlayışı, məzmunu, mahiyyəti, əsasları, dəyəri, onun insanın, cəmiyyətin və dövlətin həyatında rolu ilə bağlı məsələləri tədqiq edən ümumnəzəri hüquq fənni. "Hüquq fəlsəfəsi" termininin geniş yayılması və aktuallaşması alman klassik fəlsəfəsinin banilərindən

biri olan Georq Vilhelm Fridrix Hegelin (1770-1831) "Hüquq fəlsəfəsi" əsəri (1820) ilə bağlıdır. Hegel özü bu əsəri hüquq fəlsəfəsi üzrə mühazirələr konspekti adlandırırdı. Hegelə görə, hüquq fəlsəfəsi hüquqa aid fənn deyil, fəlsəfəyə aid fənndir. Hegel qeyd edirdi ki, hüquq haqqında elm fəlsəfənin bir hissəsidir. Hegel hüquq fəlsəfəsinin predmetini belə müəyyən edirdi: "Hüquq haqqında fəlsəfə elminin predmetini hüququn ideyası – hüququn anlayışı və həyata keçirilməsi təşkil edir. Hüquq fəlsəfəsinin əsas vəzifəsi hüququn əsasında duran təfəkkürü dərk etməkdir".

29. **Hüquq haqqında petisiya** (ing. Petition of right) – 1628-ci ilin iyununda İngiltərə parlamenti tərəfindən qəbul edilmiş və kral I Karl tərəfindən təsdiq edilmiş insan hüquqlarına dair mühüm əhəmiyyət kəsb edən tarixi sənədlərdən biri. Sənəddə Böyük Azadlıqlar Xartiyasına istinad edilərək kral hakimiyyətinin özbaşınalığının aradan qaldırılmasının zəruriliyi qeyd olunurdu. Petisiya kral hakimiyyətini əhəmiyyətli dərəcədə məhdudlaşdıraraq vergilərin yalnız parlamentin razılığı ilə alınmasını və qanunsuz vergi ödəməkdən imtinaya görə həbsin qadağan edilməsini nəzərdə tuturdu. Petisiya İngiltərənin siyasi inkişafında və insan hüquqları düşüncəsinin formalaşmasında əhəmiyyətli rol oynamışdır.

30. **Hüquqi adət –** hüququn tarixən təşəkkül tapmış mənbəyi və müntəzəm təkrarlanmış davranış qaydası. Hüquqi adət dövlət tərəfindən sanksiyalaşdırıldıqda hüquq normasına çevrilir. Hüquqi adətlər, əsasən mülki hüquqda və beynəlxalq hüquqda tətbiq olunur.

31. **Hüquqi akt –** dövlət orqanları tərəfindən qəbul edilmiş normativ aktların ümumi adı. Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının 21 dekabr 2010-cu il tarixli Konstitusiya Qanununa əsasən, hüquqi akt – normativ hüquqi akt, normativ xarakterli akt və ya qeyri-normativ hüquqi aktdır.

32. **Hüquqi dövlət –** hakimiyyətin insan hüquq və azadlıqları ilə məhdudlaşdığı və hüququn aliliyinin təmin edildiyi dövlət. "Hüquqi dövlət" termini müasir elmi ədəbiyyatda ilk dəfə Almaniyada işlədilmişdir (Rechtsstaat). Hüquqi dövlətin ilkin əlaməti hüququn və onun tərkib hissəsi olaraq qanunun aliliyi və ictimai münasibətlərin bərabərlik prinsipi əsasında normativ tənzimlənməsidir. Hüquqi dövlətdə qanunlar da hüquqi olur. Hüquqi qanunlar hər kəsin azadlığını "qanunla qadağan olunmayan yolverilən-dir" prinsipi əsasında təmin edir və dövlət hakimiyyətini "qanunla icazə verilməyən qadağandır" tələbinə tabe edir. Hüquqi dövlətin ən mühüm əlamətlərindən biri əsas insan hüquq və azadlıqlarının təmin edilməsidir. Bu təminat insanın ümumi hüquqi statusunu təşkil edir. Hüquqi dövlətdə

insanın hüquqi statusuna aiddir: status negativus – insanın konstitusiya və digər hüquqi qanunlarla müəyyən edilmiş azadlıq sferası – bu sferaya nə dövlət, nə də ayrı-ayrı fiziki və ya hüquqi şəxslər müdaxilə edə bilməzlər; status positivus – hər kəsin dövlətdən onun əsas hüquq və azadlıqlarını təmin etməyi tələb etmək və məhkəmə təminatı hüququ var; status activus – dövlət hakimiyyətinin formalaşmasında və həyata keçirilməsində iştirak etmək hüququ. Hüquqi dövlətin mühüm əlamətlərindən biri də dövlət idarəçilik sisteminin hakimiyyətlərin bölgüsü prinsipi əsasında formalaşması, qanun əsasında və qərəzsiz fəaliyyət göstərən məhkəmə sisteminin olması, həmçinin insan hüquqlarının səmərəli müdafiəsi üçün institusional mexanizmlərin, xüsusilə ombudsman təsisatının və konstitusiya məhkəməsinin mövcudluğudur. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır.

33. **Hüquqi ekspropriasiya –** Bax: ekspropriasiya.

34. **Hüquqi fakt –** hüquq münasibətlərinin yaranması, dəyişilməsi və ya xitam olunmasını şərtləndirən konkret faktiki vəziyyət. Hüquqi fakt hüquq münasibətinin elə bir vəziyyətidir ki, bu vəziyyətlə müəyyən hüquqi nəticələr əlaqələndirilir. Hüquqi fakt hadisə və hərəkət formasında təzahür edir. Hadisə hüquq münasibəti subyektinin iradəsindən asılı olmayaraq baş verir, hərəkət isə şüurlu şəkildə törədilir. Hərəkət, öz növbəsində hüquqauyğun və ya hüquqazidd ola bilər. Hüquqi nəticə doğurmayan hüquqauyğun hərəkət hüquqi əməl, hüquqi nəticə doğuran hüquqauyğun hərəkət isə (məsələn, iddia ərizəsi ilə məhkəməyə müraciət) hüquqi akt adlanır.

35. **Hüquqi idealizm –** hüquqi nihilizmin əksi olaraq cəmiyyətdə hüququn rolunun və imkanlarının ifrat şişirdilməsi, bütün sosial problemlərin hüququn köməyi ilə həll olunmasına inam. Rusiyalı hüquqşünas alim, professor N.İ.Matuzova görə, hüquqi idealizm hüquqi nihilizm qədər təhlükəlidir.

36. **Hüquqi məsuliyyət –** şəxsin qanunlara əməl etmək öhdəliyindən irəli gələn, insanın ümumi hüquqi statusunun elementi (geniş mənada); hüquqazidd əməl törətmiş şəxsə münasibətdə dövlət məcburiyyət tədbirinin tətbiq edilməsi (dar mənada). Hüquqi məsuliyyət pozitiv məsuliyyət, yəni qanunlara əməl etmək öhdəliyi və neqativ məsuliyyət, yəni hüquqazidd əməlin törədilməsinə görə məcburetmə tədbirlərinə məruz qalmaq vəziyyəti, formalarında təzahür edir. Hüquqi məsuliyyətin yaranması üçün zəruri şərt hüquq pozuntusunun törədilməsidir. Hüquqi

məsuliyyətin əsas əlaməti dövlət məcburiyyətidir. Hüquqi məsuliyyətin məqsədi hüquq qaydasının müdafiəsi və qanunlara əməl edilməsi tərbiyəsinin formalaşdırılmasıdır. Hüquqi məsuliyyət tədbirləri əsas insan hüquq və azadlıqlarına zidd ola bilməz, insan ləyaqətinin alçaldılmasına səbəb ola bilməz. Təqsirsiz hüquqi məsuliyyət yaranmır. Hüquqi məsuliyyət yalnız qanunla müəyyən edilməlidir, qanunvericilikdə nəzərdə tutulmayan hüquqi məsuliyyət tədbirlərinin tətbiqi yolverilməzdir. Hüquqi məsuliyyət ədalət prinsipinə əsaslanır. Hüquqi məsuliyyətin əsas növləri aşağıdakılardır: mülki-hüquqi, cinayət, inzibati, intizam.

37. **Hüquqi nihilizm** (lat. nihil – heç nə) **–** hüququn sosial dəyərini və onun ictimai münasibətlərin tənzimləyicisi funksiyasını inkar edən ictimai-siyasi fikir; hüquq düşüncəsinin özünəməxsus vəziyyəti. Geniş mənada nihilizm müəyyən dəyərlərə, normalara, baxışlara mənfi münasibəti ifadə edir. Bütövlükdə nihilizm sosial davranışın bir növüdür. Hüquqi nihilizm sosial nihilizmin bir növü olub, hüquqa, qanunlara neqativ yanaşmanı bildirir. Mahiyyət etibarilə, hüquqi nihilizm hüquqi özgəninkiləşdirmədir, hüquqdan uzaqlaşmadır.

38. **Hüquqi plüralizm** – insanın hüquqi varlığının eyni vaxtda həm rəsmi (dövlət) hüquq normaları, həm də "ənənəvi" yaxud ümumi hüquq normaları və digər kvazinormativ nizamlayıcılarla müəyyən edildiyi hüquqi vəziyyət. Hüquqi plüralizm vəziyyətində eyni hallarda tətbiq edilən müxtəlif hüquqi mexanizmlər mövcud olur. Hüquqi plüralizm müsbət təzahür olmaqla, hüquqi ziddiyyətlərin və cəmiyyətdə gərginliyin aradan qalxmasına səbəb olur.

39. **Hüquqi status –** təbii və ayrılmaz insan hüquq və azadlıqlarının məcmusundan ibarət hüquqi vəziyyət. Hüquqi statusun məzmununu insan hüquqlarının və əsas vəzifələrin toplusu təşkil edir. Fərdin ümumi hüquqi statusu özündə üç elementi ehtiva edir: status negativus – insanın konstitusiya və digər hüquqi qanunlarla müəyyən edilmiş azadlıq sferası – bu sferaya nə dövlət, nə də ayrı-ayrı fiziki və hüquqi şəxslər müdaxilə edə bilməzlər; status positivus – hər kəsin dövlətdən onun əsas hüquq və azadlıqlarını təmin etməyi tələb etmək hüququ və məhkəmə təminatı hüququna malik olması; status activus – dövlət hakimiyyətinin formalaşmasında və həyata keçirilməsində iştirak etmək hüququ.

40. **Hüquqi şəxs –** qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək,

vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir. Hüquqi şəxsin müstəqil balansı olmalıdır. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən, hüquqi şəxslər bir fiziki və ya hüquqi şəxs tərəfindən, yaxud fiziki və hüquqi şəxslərin toplusu tərəfindən yaradıla bilər, üzvlüyə əsaslana bilər, üzvlərin olmasından asılı ola və ya asılı olmaya bilər, sahibkarlıq fəaliyyəti ilə məşğul ola və ya məşğul olmaya bilər. Hüquqi şəxslər fəaliyyətinin əsas məqsədi mənfəət götürməkdən ibarət olan (kommersiya hüquqi şəxsləri) və ya əsas məqsədi mənfəət götürməkdən ibarət olmayan və götürülən mənfəəti iştirakçıları arasında bölüşdürməyən (qeyri-kommersiya hüquqi şəxsləri), habelə ümumdövlət və (və ya) ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan (publik hüquqi şəxslər) qurumlar ola bilər (maddə 43).

41. **Hüquqi tənzimetmə –** hüquq normalarının ictimai münasibətlərə təsiri.

42. **Hüquqi yardım almaq hüququ –** Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsinə əsasən, hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır. Qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir. Hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ vardır. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 14-cü maddəsinə əsasən, hər bir şəxs ona qarşı irəli sürülən istənilən cinayət ittihamına baxılarkən bərabərlik əsasında öz iştirakı ilə mühakimə olunmaq və özünü şəxsən və ya öz seçdiyi müdafiəçisi vasitəsilə müdafiə etmək; əgər müdafiəçisi yoxdursa, bu hüququ barədə xəbərdar edilmək və ədalət məhkəməsinin mənafeyi bunu tələb etdiyi istənilən halda onun üçün təyin edilmiş müdafiəçiyə, bu müdafiəçinin haqqını ödəməyə kifayət qədər vəsaiti olmadığı istənilən halda isə pulsuz müdafiəçiyə malik olmaq hüququna malikdir. Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsinə müvafiq olaraq, cinayət törətməkdə ittiham olunan hər kəs şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman, ədalət mühakiməsinin maraqları tələb etdikdə, belə müdafiədən pulsuz istifadə etmək hüququna malikdir.

43. **Hüquq qabiliyyəti –** şəxsin subyektiv hüquq və vəzifələrə malik olmaq, hüquq münasibətlərinin iştirakçısı olmaq qabiliyyəti. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən, fiziki şəxsin mülki hüquq qabi-

liyyəti insanın mülki hüquqlara malik olmaq və mülki hüquq vəzifələri daşımaq qabiliyyətidir. Bütün fiziki şəxslərin mülki hüquq qabiliyyəti eyni dərəcədə tanınır. Fiziki şəxsin hüquq qabiliyyəti onun doğulduğu an əmələ gəlir və ölümü ilə xətm edilir. Beyinin fəaliyyətinin dayanması ölüm anı sayılır. Vərəsə olmaq hüququ maya bağlandığı andan əmələ gəlir, bu hüququn həyata keçirilməsi isə yalnız doğumdan sonra mümkündür. Fiziki şəxs hüquq qabiliyyətindən məhrum edilə bilməz (maddə 25). Hüquqi şəxs dövlət qeydiyyatına alındığı andan mülki hüquqlara malikdir və mülki vəzifələr daşıyır. Hüquqi şəxsin hüquq qabiliyyətinə onun ləğvinin başa çatdığı an xitam verilir (maddə 44).

44. Hüquq qaydası – hüquqi tənzimetmə sferasında mövcud olan ictimai qayda. Hüquq qaydasının inkişafının göstəricisi dövlət tərəfindən insan hüquq və azadlıqlarına hörmət olunması, bu hüquq və azadlıqların təmin edilməsi və cəmiyyətin ümumi hüquq mədəniyyətinin səviyyəsidir.

45. Hüquqlar haqqında Bill (ing. Bill of Rights, Amerika Birləşmiş Ştatları) **–** Amerika Birləşmiş Ştatlarının Konstitusiyasına əsas insan hüquq və azadlıqlarını nəzərdə tutan ilk on düzəliş. Düzəlişlər Konqresin 25 sentyabr 1789-cu il tarixli iclasında nümayəndələr palatasının üzvü Ceyms Medison tərəfindən irəli sürülmüş və 15 dekabr 1791-ci ildə qüvvəyə minmişdir. Billin mətnini şərti olaraq iki hissəyə ayırmaq olar: birinci hissədə klassik demokratik hüquq və azadlıqlar təsbit olunmuş, ikinci hissədə isə onların həyata keçirilməsinin təminatı əks olunmuşdur. Billdə təsbit olunan əsas hüquq və azadlıqlar sırasında söz azadlığı, din azadlığı, mətbuat azadlığı, yığıncaq azadlığı, müraciət etmək hüququ, silah saxlamaq və gəzdirmək hüququ, əsassız axtarışa və həbsə məruz qalmamaq hüququ, səmərəli məhkəmə araşdırması hüququ, xüsusi mülkiyyət hüququ, qəddar cəzalara məruz qalmamaq hüququnu qeyd etmək olar. Billdə həmçinin qeyd edilir ki, Konstitusiyada hüquq və azadlıqların sadalanması digər hüquq və azadlıqların alçaldılması kimi şərh edilə bilməz.

46. Hüquqlar haqqında Bill (ing. Bill of Rights, İngiltərə) **–** insan hüquqlarını hüquqi cəhətdən təsbit edən ilk sənədlərdən biri. 1689-cu ildə İngiltərə parlamenti tərəfindən qəbul edilmişdir. Monarxın hüquqlarını əsaslı şəkildə məhdudlaşdıran bu sənəd İngiltərənin əsas konstitusion aktlarından biridir. Billdə təsbit olunmuş hüquqlar sırasında krala şikayətlə müraciət etmək hüququ, məhkəmənin qərarı olmadan cərimələrə və mülkiyyətin müsadirəsinə məruz qalmamaq hüququ, qəddar cəzalara məruz qalmamaq hüququ, söz azadlığı, parlament seçkiləri azadlığını qeyd etmək olar.

47. Hüquq mədəniyyəti – mədəniyyətin tərkib hissəsi olub, hüquq haqqında

biliklərin ümumi səviyyəsi və cəmiyyətin hüquqa obyektiv münasibətini bildirir. Şəxsiyyətin hüquq mədəniyyəti hüquqi biliklərin və hüquqi məlumatlılığın olmasını, hüququn aliliyi çərçivəsində qanunlara əməl edilməsini şərtləndirir.

48. Hüquq müdafiəçisi – hüquq müdafiə fəaliyyəti ilə məşğul olan şəxs; təkbaşına yaxud digərləri ilə birgə dinc üsullarla insan hüquqlarını təbliğ edən şəxs. Hüquq müdafiəçilərinin fəaliyyətinin əsas prinsipləri müstəqillik, qərəzsizlik, ədalətlilik, insan hüquqlarının universallığının tanınması, fəaliyyətin qeyri-zorakı üsullara əsaslanması və həmrəylikdir.

49. Hüquq müdafiə təşkilatları – insan hüquqlarının təbliği və müdafiəsi, pozulmuş insan hüquq və azadlıqlarının bərpası işi ilə məşğul olan təşkilatlar. Hüquq müdafiə təşkilatları dövlət təşkilatları, hibrid təşkilatlar və qeyri-dövlət təşkilatlarına bölünür. Dövlət hüquq müdafiə təşkilatları funksiyalarını ombudsman, milli insan hüquqları təsisatları, icra hakimiyyəti və ya qanunvericilik hakimiyyəti strukturunda fəaliyyət göstərən insan hüquqları komissiyaları və komitələri, həmçinin məhkəmələr və digər hüquq mühafizə orqanları həyata keçirir. Hibrid hüquq müdafiə təşkilatlarına müxtəlif dövlət orqanlarının nəzdində fəaliyyət göstərən və tərkibi həm dövlət qulluqçuları, həm də qeyri-hökumət təşkilatlarının üzvlərindən ibarət olan komissiyaları və şuraları aid etmək olar. Qeyri-dövlət hüquq müdafiə təşkilatlarına isə insan hüquqları sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarını, hüquq müdafiə hərəkatlarını aid etmək olar.

50. Hüquq mühafizə orqanları – əsas funksiyası qanunçuluğun və hüquq qaydasının, insan hüquq və azadlıqlarının müdafiəsi, cinayətkarlıqla mübarizə, ictimai qaydanın, milli təhlükəsizliyin və dövlət təhlükəsizliyinin müdafiəsinin təmini, pozulmuş insan hüquq və azadlıqlarının bərpası, zəruri hallarda qanunla nəzərdə tutulmuş sanksiyaların tətbiqindən ibarət olan orqanlar sistemi. Hüquq mühafizə orqanlarına məhkəmə, prokurorluq, ədliyyə, daxili işlər, dövlət təhlükəsizliyi xidməti, gömrük, vergi orqanları aid edilir. Dövlət hüquq mühafizə orqanları (prokurorluq, polis və s.) və qeyri-dövlət hüquq mühafizə orqanları (vəkillik, xüsusi notariat orqanları, xüsusi mühafizə xidmətləri) fərqləndirilir. Çoxfunksiyalı (məhkəmə, prokurorluq, polis orqanları) və təkfunksiyalı hüquq mühafizə orqanları (gömrük, vergi orqanları) vardır.

51. Hüquq münasibətləri – hüquqla tənzimlənən ictimai münasibətlər kompleksi. Hüquq münasibətinin strukturunda subyekt, obyekt və məzmun fərqləndirilir. Hüquq münasibətinin subyekti onun iştirakçısı olan

hüquq subyektliliyinə malik şəxslərdir. Hüquq münasibətlərinin subyekti qismində həm fiziki, həm də hüquqi şəxslər çıxış edirlər. Fiziki şəxslər sırasında vətəndaşlar, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, hüquqi şəxslər və təşkilatlar sırasında isə dövlət qurumları, yerli özünüidarə orqanları, ictimai təşkilatlar, dini birliklər və digər bu kimi təşkilatlar çıxış edirlər. Hüquq münasibətlərinin iştirakçılarının subyektiv hüquq və vəzifələrinin məcmusu onun məzmununu təşkil edir. Hüquq münasibətinin obyekti subyektiv hüquq və vəzifələrin yönəldiyi hadisələrdir. Hüquq münasibətləri müxtəlif cür təsnifləşdirilir: konstitusion, cinayət, mülki, inzibati, prosessual və s.

52. **Hüquq norması –** hüququn məzmununun ilkin, əsas elementi olan ümumi sosial davranış qaydası. Hüquq norması sosial normanın bir növüdür. Hüquq norması dövlət tərəfindən müəyyən edilir, sanksiyalaşdırılır və yazılı formada ifadə olunur. Hüquq normasının mühüm əlamətləri sosiallıq, normativlik və ümumməcburilikdir. Hüquq normasının strukturunda üç element fərqləndirilir: hipoteza (müvafiq normanın rəhbər tutulması üçün göstərilən şərtlər), dispozisiya (rəhbər tutulan davranış qaydası) və sanksiya (dispozisiyanın pozulması halında yaranan hüquqi nəticə). Güc hüquq normasının vacib elementidir. Hüquq normasının strukturunda güc aparıcı yerlərdən birini tutur (hipoteza-dispozisiya-sanksiya (güc)). Güc hüquq normasının həyata keçirilməsinin əsas üsullarından biridir. Təsadüfi deyildir ki, hüquq ilahəsi olan Femida bir əlində tərəzi (ədalət), digərində isə qılınc (güc) tutur. Qılıncsız tərəzi heç nəyə yaramır. Tərəzisiz qılınc zorakılıqdır, qılıncsız tərəzi isə hüququn (normativ mənada) amorfluğudur.

53. **Hüquq pozuntusu –** sanksiya nəzərdə tutan hüquq normasının pozulması. Hüquqi məsuliyyət olmayan yerdə hüquq pozuntusu da yoxdur. Hüquq pozuntusu ictimai qaydaya qəsd edən ictimai təhlükəli əməldir. Hüquq pozuntusu qanunla nəzərdə tutulmalıdır. Hüquq pozuntusunun hüquqa zidd olması qanunla nəzərdə tutulmuş qadağanın pozulması və ya müəyyən hərəkətləri etmək öhdəliyinin yerinə yetirilməməsində ifadə olunur. Hüquq pozuntusunun ən mühüm əlaməti təqsirin olmasıdır. Hüquq pozuntusunun tərkibi dörd elementdən ibarətdir: hüquq pozuntusunun obyekti (hüquqla mühafizə olunan ictimai münasibətlər); hüquq pozuntusunun obyektiv cəhəti (hüquqazidd əməl – hərəkət və ya hərəkətsizlik); hüquq pozuntusunun subyekti (fiziki və hüquqi şəxslər); hüquq pozuntusunun subyektiv cəhəti (təqsir).

54. **Hüquq sistemi –** ictimai münasibətləri tənzimləyən, bir-biri ilə qarşı-

lıqlı əlaqədə və qarşılıqlı fəaliyyətdə olan hüquqi vasitələrin və hüquqi hadisələrin məcmusu; hüququn sisteminin (o cümlədən qanunvericilik sisteminin), hüquq mədəniyyətinin və hüququn implementasiyasının birgə əlaqəsi. "Hüquq sistemi" anlayışını "hüququn sistemi" anlayışı ilə qarışdırmaq olmaz. Bunlar fərqli anlayışlardır. Hüququn sistemi hüquq sisteminin tərkib hissəsi kimi çıxış edir. Hüquq sistemi terminindən həm də bir dövlətin hüququ ilə digər dövlətin hüququ arasında tarixi-hüquqi və etnik-mədəni fərqləri xarakterizə etmək üçün istifadə olunur. Hüquq sisteminin elementlərinə daxildir: cari hüquq normaları və hüquq mənbələrinin sistemi; hüquq düşüncəsinin və hüquq mədəniyyətinin xüsusiyyətləri, hüquq elmi, hüquq ideologiyası, hüquq siyasəti; hüquq münasibətlərinin sistemi, hüquq qaydasının və qanunçuluğun vəziyyəti; hüquq təcrübəsi; hüquq texnikası.

55. **Hüquq subyektliliyi –** şəxsin hüququn subyekti olmaq, hüquq münasibətlərinə daxil olmaq qabiliyyəti.
56. **Hüquqşünas –** hüquqşünaslıq, hüquq elmləri üzrə mütəxəssis; hüquq sahəsində praktik fəaliyyətlə məşğul olan şəxs.
57. **Hüquqşünaslıq** – Bax: hüquq elmi.
58. **Hüquq tərbiyəsi –** hüquq düşüncəsinin və hüquq mədəniyyətinin formalaşması və yüksəldilməsi üzrə dövlətin, onun ayrı-ayrı orqanlarının, ictimai təşkilatların məqsədyönlü sistematik fəaliyyəti.
59. **Hüququn aliliyi** (ing. rule of law) **–** hüquqi prinsiplərin, dəyərlərin, qanunların, insan hüquq və azadlıqlarının üstünlüyünə əsaslanan doktrina. Hüququn aliliyi prinsipinin əsasında dövlət tərəfindən insan hüquqlarının təbii hüquq kimi tanınması, onlara hörmət olunması və təmin edilməsi dayanır. Yalnız hüququn aliliyinin təmin edildiyi dövlət hüquqi dövlət sayıla bilər. "Britannika Ensiklopediyası"nda hüququn aliliyi hakimiyyətdən qanunazidd, özbaşına istifadəni məhdudlaşdıran, bütün şəxslərin qanun qarşısında bərabərliyini təmin edən mexanizm, proses, institut, praktika və ya norma kimi nəzərdən keçirilir. Hüququn aliliyi bütün normativ hüquqi aktların (o cümlədən konstitusiyanın) və dövlət hakimiyyətinin fəaliyyətinin insan hüquqlarının və insan ləyaqətinin üstünlüyünə əsaslanmasını tələb edir. Avropa Şurasının Venesiya Komissiyası (Hüquq vasitəsilə demokratiya üzrə Avropa Komissiyası) hüququn aliliyinin 8 tərkib hissəsini müəyyən etmişdir: 1. qanunun müddəalarının anlaşılan olması və qanuna çıxışın açıq, əlçatan olması; 2. hüquqi məsələlərin yalnız qanun əsasında həll edilməsi; 3. qanun qarşısında bərabərlik; 4. hakimiyyətin qanun əsasında, ədalətli şəkildə və səmərəli həyata keçirilməsi; 5. insan

hüquqlarının müdafiəsi; 6. mübahisələrin əsassız xərclərə və ləngimələrə yol verilmədən həlli üçün səmərəli vasitələrin təmin edilməsi; 7. ədalətli məhkəmə; 8. beynəlxalq və dövlətdaxili hüquq çərçivəsində dövlətin öz öhdəliklərini yerinə yetirməsi. BMT-nin Baş katibi (1997-2006), Nobel sülh mükafatı laureatı Kofi Annanın 2004-cü il tarixli məruzəsində qeyd edilir ki, "Hüququn aliliyi – əslində BMT-nin əsas missiyasının mahiyyətini təşkil edən anlayışdır. Hüququn aliliyi elə bir idarəçilik prinsipini özündə ehtiva edir ki, bütün şəxslər, qurumlar və strukturlar, o cümlədən dövlət və özəl, həmçinin dövlətin özü də beynəlxalq normalar və insan hüquqları sahəsində standartlara uyğun olaraq açıq şəkildə qəbul edilmiş və məhkəmə orqanları tərəfindən bərabər və müstəqil şəkildə tətbiq edilən qanunların təsiri altında fəaliyyət göstərirlər. Bunun üçün həmçinin hüququn ümumi prinsiplərinin primatlığı, qanun qarşısında bərabərlik, qanunların qərəzsiz tətbiqi, hakimiyyətlər bölgüsü, qərarların qəbul edilməsində iştirak, hüquqi müəyyənlik, özbaşınalığa yol verilməməsi, prosessual və hüquqi şəffaflıq təmin edilməlidir". Hüququn aliliyi anlayışı ilə qanunun aliliyi anlayışları eyni deyildir. Hüququn aliliyi daha geniş anlayışdır. Hüququn aliliyi özündə həm də qanunun aliliyini əks etdirməklə qanunların da hüquqi olmasını, hüququn ümumtanınmış prinsiplərinə, insan hüquqlarının və insan ləyaqətinin üstünlüyü prinsiplərinə uyğun olmasını ehtiva edir. Əgər qanunun aliliyi sırf hüquqi kateqoriyadırsa, hüququn aliliyi həm hüquqi, həm də fəlsəfi, əxlaqi, etik, mədəni kateqoriyadır. Qanunun aliliyi formal normativ kateqoriya kimi yalnız normativ hüquqi aktın üstünlüyünü ehtiva edirsə, hüququn aliliyi geniş fəlsəfi-hüquqi kateqoriya kimi bütövlükdə hüququn (həm də dar mənada onun ifadə forması olan qanunun), əxlaqın, ləyaqətin, insan hüquqlarının üstünlüyünü ehtiva edir.

60. **Hüququn analogiyası** – yalnız konkret ictimai münasibətləri deyil, həm də oxşar ictimai münasibətləri tənzimləyən qanunvericilik normaları olmadığına görə həmin ictimai münasibətlərə qanunvericiliyin məğzinin, hüququn ümumi prinsiplərinin və ya hüququn konkret sahələrinə aid prinsiplərin tətbiq edilməsi. Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının 21 dekabr 2010-cu il tarixli Konstitusiya Qanununa əsasən, konkret ictimai münasibətləri tənzimləyən qanunvericilik normaları olmadıqda hüququn analogiyasından və ya qanunun analogiyasından istifadə oluna bilər. Əvvəlcə qanunun analogiyasından istifadə olunur. Konkret ictimai münasibətləri tənzimləyən qanunvericilik normaları olmadıqda həmin ictimai münasibətlərə oxşar ictimai münasibətləri

tənzimləyən qanunvericilik normaları tətbiq edilir. Mülki hüquq münasibətləri mülki qanunvericiliklə və ya tərəflərin razılaşması ilə birbaşa tənzimlənmədikdə və onlara tətbiq edilə bilən işgüzar adət olmadıqda həmin münasibətlərə, əgər bu onların mahiyyətinə zidd deyildirsə, oxşar münasibətləri tənzimləyən mülki qanunvericilik normaları tətbiq edilir. Konkret ictimai münasibətləri tənzimləyən qanunvericilik normaları olmadığına görə həmin ictimai münasibətlərə oxşar ictimai münasibətləri tənzimləyən qanunvericilik normalarını tapmaq mümkün olmadıqda hüququn analogiyasından istifadə edilir. Bu zaman Azərbaycan Respublikasının Konstitusiyasında və qanunlarda təsbit edilmiş hüququn konkret sahələrinə aid prinsiplərdən və hüququn ümumi prinsiplərindən istifadə olunur. Hüququn analogiyası tətbiq edilərkən ədalət, insaf və mənəviyyat tələbləri nəzərə alınmalıdır. Cinayət, inzibati xətalar və vergi qanunvericiliyində, məsuliyyətə cəlb olunma, hüquqların məhdudlaşdırılması və vəzifələrin müəyyən edilməsi hallarında hüququn analogiyasından və ya qanunun analogiyasından istifadə oluna bilməz (maddə 13). Aşağıdakı hallarda hüququn analogiyasından və ya qanunun analogiyasından istifadə oluna bilməz: qanunvericilikdə boşluqlar zahiri xarakter daşıdıqda; normativ tənzimləmə zərurəti olmadıqda; normativ tənzimləmə qanunla qadağan olunduqda; normativ tənzimləmə mövcud olduqda (maddə 16).

61. Hüququn mənbələri – hüquq normalarının zahiri ifadə forması. Hüquqi adət, məhkəmə presedenti, məhkəmə təcrübəsi, normativ hüquqi akt, hüququn prinsipləri, hüquq doktrinası hüququn mənbələri sayılır.

62. Hüququn sistemi – hüququn struktur elementlərinin daxili quruluşu. Hüququn sisteminin struktur elementləri – hüquq norması, hüquq sahəsi, hüquq yarımsahəsi, hüquq institutu və hüquq subinstitutudur.

63. Hüququn subyekti – insan hüquq və azadlıqlarına, həmçinin qanuna müvafiq olaraq müəyyən öhdəliklərə malik olan şəxs (fiziki və ya hüquqi).

64. Hüquq və azadlıqların məhkəmə təminatı hüququ – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinə əsasən, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın. Hər kəsin inzibati icraat və məhkəmə prosesində dinlənilmək hüququ vardır. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzi-

bati qaydada və məhkəməyə şikayət edə bilər. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın 6-cı maddəsinə əsasən, hər kəs onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir. Məhkəmə qərarı açıq elan edilir, lakin demokratik cəmiyyətdə əxlaq, ictimai qayda və ya milli təhlükəsizlik mülahizələrinə görə, həmçinin yetkinlik yaşına çatmayanların maraqları və ya tərəflərin şəxsi həyatının müdafiəsi bunu tələb etdikdə, yaxud məhkəmənin fikrincə, aşkarlığın ədalət mühakiməsinin maraqlarını poza biləcəyi xüsusi hallar zamanı ciddi zərurət olduqda mətbuat və ictimaiyyət bütün proses boyu və ya onun bir hissəsində məhkəmə iclasına buraxılmaya bilər. Cinayət törətməkdə ittiham olunan hər kəs onun təqsiri qanun əsasında sübut edilənədək təqsirsiz hesab edilir. Cinayət törətməkdə ittiham olunan hər kəs, ən azı, aşağıdakı hüquqlara malikdir: ona qarşı irəli sürülmüş ittihamın xarakteri və əsasları haqqında onun başa düşdüyü dildə dərhal və ətraflı məlumatlandırılmaq; öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq; şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman, ədalət mühakiməsinin maraqları tələb etdikdə, belə müdafiədən pulsuz istifadə etmək; onun əleyhinə ifadə vermiş şahidləri dindirmək və ya bu şahidlərin dindirilməsinə nail olmaq və onun əleyhinə ifadə vermiş şahidlər üçün eyni olan şərtlərlə onun lehinə olan şahidlərin çağırılması və dindirilməsi hüququna malik olmaq; məhkəmədə istifadə olunan dili başa düşmürsə və ya bu dildə danışa bilmirsə, tərcüməçinin pulsuz köməyindən istifadə etmək. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 14-cü maddəsinə əsasən, bütün şəxslər məhkəmələr və tribunallar qarşısında bərabərdirlər. Hər bir şəxs, ona qarşı irəli sürülən istənilən cinayət ittihamına baxılması zamanı və yaxud hər hansı bir mülki prosesdə onun hüquq və vəzifələrinin müəyyən edilməsi zamanı qanun əsasında yaradılan səlahiyyətli, müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətli və açıq araşdırma hüququna malikdir. Demokratik cəmiyyətdə əxlaq, ictimai asayiş və ya dövlət təhlükəsizliyi mülahizələrinə əsasən və yaxud bunu tərəflərin özəl həyat mənafelərinin tələb etdiyi təqdirdə və yaxud məhkəmənin açıq keçirilməsinin ədalət mühakiməsinin maraqlarını pozduğu xüsusi hallarda: məhkəmənin rəyinə görə son dərəcə zəruri olduğu ölçüdə, mətbuat və ictimaiyyət bütün məhkəmə araşdırmasına və ya onun bir hissə-

sinə buraxılmaya bilər; lakin yetkinlik yaşına çatmayanların mənafelərinin başqa cür tələb etdiyi hallar və yaxud işin matrimonial mübahisələrə və ya uşaqlar üzərində qəyyumluğa aid olduğu hallar istisna edilməklə istənilən cinayət işi və ya mülki iş üzrə məhkəmə qərarı açıq olmalıdır. Cinayət əməlində ittiham olunan hər bir şəxs günahı qanuna uyğun olaraq sübut edilməyənə qədər günahsız hesab edilmək hüququna malikdir. Hər bir şəxs ona qarşı irəli sürülən istənilən cinayət ittihamına baxılarkən bərabərlik əsasında aşağıdakılarla təmin olunmaq hüququna malikdir: ona qarşı irəli sürülən ittihamın xarakteri və əsasları barədə başa düşdüyü dildə, təcili qaydada və ətraflı xəbərdar edilmək; öz müdafiəsinə hazırlaşmaq və özünün seçdiyi müdafiəçisi ilə əlaqə saxlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq; əsassız gecikdirmələrə yol verilmədən mühakimə olunmaq; öz iştirakı ilə mühakimə olunmaq və özünü şəxsən və ya öz seçdiyi müdafiəçisi vasitəsilə müdafiə etmək; əgər müdafiəçisi yoxdursa, bu hüququ barədə xəbərdar edilmək və ədalət mühakiməsinin mənafeyi bunu tələb etdiyi istənilən halda onun üçün təyin edilmiş müdafiəçiyə, bu müdafiəçinin haqqını ödəməyə kifayət qədər vəsaiti olmadığı istənilən halda isə pulsuz müdafiəçiyə malik olmaq; onun əleyhinə çıxış edən şahidləri dindirmək və ya bu şahidlərin dindirilməsi hüququna malik olmaq və onun əleyhinə çıxış edən şahidlər üçün mövcud olan şərtlərdə öz şahidlərini çağırtdırmaq və dindirmək hüququna malik olmaq; məhkəmədə istifadə olunan dili başa düşmürsə və yaxud bu dildə danışa bilmirsə, pulsuz tərcüməçi köməyindən istifadə etmək; öz əleyhinə ifadə verməyə və günahkar olduğunu zorla etiraf etməyə məcbur edilməmək. Yetkinlik yaşına çatmamışlara münasibətdə proses elə olmalıdır ki, onların yaşı və yenidən tərbiyəyə yardımçı olmaq arzuları nəzərə alınsın. Hər hansı bir cinayətə görə məhkum edilən hər bir şəxs onunla bağlı ittihamnaməyə və hökmə yuxarı məhkəmə instansiyası tərəfindən qanuna uyğun olaraq yenidən baxılmasına nail olmaq hüququna malikdir. Əgər hər hansı bir şəxs qəti qərarla cinayət əməlinə görə məhkum edilmişsə və əgər ona kəsilən hökm sonralar ləğv edilmişsə və ya o, hansısa yeni və yaxud yenidən üzə çıxarılmış halın məhkəmənin səhvini danılmaz şəkildə sübut etməsi əsasında əfv edilmişsə, onda bu cür ittihamnamə nəticəsində cəza çəkmiş olan həmin şəxs, əgər göstərilən naməlum halın tamamilə və ya qismən onun günahı ucbatından vaxtında üzə çıxarılmaması sübuta yetirilməzsə, qanuna müvafiq olaraq kompensasiya alır. Heç kim hər bir ölkənin qanununa və cinayət-prosessual hüququna müvafiq surətdə qəti məhkum olunduğu və yaxud bəraət aldığı cinayətə görə ikinci dəfə mühakimə edilə və ya cəzalandırıla bilməz.

X

1. **Xalq –** müvafiq dövlətin hakimiyyətin mənbəyi və daşıyıcısı kimi çıxış edən əhalisi (konstitusion hüquqi mənada). Konstitusiya hüququnda xalq konstitusiya hüquq münasibətlərinin subyekti kimi nəzərdən keçirilir. Beynəlxalq hüquqi anlayış kimi "xalq" "demos" (yun. xalq, dövlətin bütün əhalisi) kimi qəbul edilir və müvafiq dövlətin əhalisini bildirir.
2. **Xalq hakimiyyəti** – Bax: demokratiya.
3. **Xalqı təmsil etmək hüququ –** xalqın seçdiyi səlahiyyətli nümayəndələrin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, xalqın seçdiyi səlahiyyətli nümayəndələrindən başqa, heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur.
4. **Xalqların öz müqəddəratını təyinetmə hüququ –** bir sıra beynəlxalq-hüquqi aktlarda öz əksini tapmış əsas kollektiv hüquqlardan biri. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın, həmçinin İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 1-ci maddələrinə müvafiq olaraq, bütün xalqlar öz müqəddəratını təyinetmə hüququna malikdirlər. Bu hüquq sayəsində onlar öz siyasi statuslarını sərbəst müəyyən edir və öz iqtisadi, sosial və mədəni inkişaflarını sərbəst təmin edirlər. Xalqların öz müqəddəratını təyinetmə hüququ ilə millətlərin öz müqəddəratını təyinetmə hüququnu eyniləşdirmək olmaz. Xalq daha geniş məfhum olmaqla özündə bir neçə milləti birləşdirə bilər. Beynəlxalq hüquqa əsasən, millətlərin öz müqəddəratını təyinetmə hüququ xalqların öz müqəddəratını təyinetmə hüququna zidd ola bilməz. Xüsusilə qeyd etmək lazımdır ki, ayrılmaq hüququ və ayrıca dövlət yaratmaq hüququ öz müqəddəratını təyinetmə hüququnun tərkib elementi kimi çıxış etmir. Beynəlxalq-hüquqi aktlarda xüsusilə vurğulanır ki, öz müqəddəratını təyinetmə hüququnun həyata keçirilməsi dövlətlərin ərazi bütövlüyünün pozulmasına gətirib çıxarmamalıdır.
5. **Xalqların özünümüəyyənetmə prinsipi –** beynəlxalq hüququn ümumtanınmış, əsas prinsiplərindən biri. BMT Nizamnaməsinin 1-ci maddəsinə əsasən, millətlər arasında, xalqların hüquq bərabərliyi və özünümüəyyənetmə prinsipinə hörmət əsasında dostluq münasibətləri inkişaf etdirmək, universal sülhün möhkəmləndirilməsi üçün digər müvafiq tədbirlər görmək BMT-nin məqsədlərindən biridir.

6. **Xalqların sülh hüququ haqqında Bəyannamə –** BMT Baş Assambleyasının 39/11 saylı, 12 noyabr 1984-cü il tarixli qətnaməsi ilə qəbul edilmiş beynəlxalq-hüquqi akt. Bəyannamədə xalqların sülh hüququnun təmin edilməsi hər bir dövlətin müqəddəs borcu elan edilir. Bəyannamə bəşəriyyətin həyatından müharibələri istisna etmək, həmçinin beynəlxalq nüvə qəzasının qarşısını almaq məqsədilə qəbul edilmişdir. Bəyannamədə qeyd edilir ki, müharibəsiz həyat maddi rifahın, inkişafın, insan hüquq və azadlıqlarının tam həcmdə həyata keçirilməsinin əsasını təşkil edir. Bəyannaməyə əsasən, bütün xalqlar sülh hüququ kimi müqəddəs hüquqa malikdirlər. Bəyannaməyə uyğun olaraq, bütün dövlətlər və beynəlxalq təşkilatlar həm milli, həm də beynəlxalq səviyyədə müvafiq tədbirlər həyata keçirmək yolu ilə sülh hüququnun təmin edilməsinə hərtərəfli yardım etməlidirlər.

7. **Xalq suverenliyi –** özünün taleyinin, ictimai və dövlət quruluşunun müəyyən edilməsində xalqın müstəqilliyi. Xalq suverenliyi öz ifadəsini seçkilərdə, referendumlarda və digər formalarda tapır. Xalq suverenliyinin ifadəçisi kimi parlament çıxış edir. Azərbaycan Respublikası Konstitusiyasının "Xalqın suverenliyi" adlanan 2-ci maddəsinə əsasən, sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi – referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir. Hakimiyyətin xalqa mənsub olması xalq suverenliyinin tərkib elementlərindən biridir. Məşhur ingilis filosofu, siyasi liberalizmin banisi Con Lokk (1632-1704) "İdarəçilik haqqında iki traktat" ("Two Treatises of Government", 1689) adlı əsərində qeyd edir ki, "Qanun hamıdan üstündür, hər kəs, hətta monarx belə, qanuna tabedir, ali hakimiyyət isə xalqa məxsusdur". 1789-cu il tarixli İnsan və vətəndaş hüquqları haqqında Bəyannamədə (Fransa) suverenliyin mənbəyinin xalq olduğu vurğulanır (maddə 3). Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır (maddə 1). Suverenlik anlayışı həm də kollektiv hüquq kimi nəzərdən keçirilə bilər, yəni suverenlik (suverenlik hüququ) həm də xalqın əsas və ilkin hüququdur. Azərbaycan Respublikası Konstitusiyasının preambulasında Azərbaycan xalqının suveren hüququ təsbit olunmuşdur.

8. **Xaos** (yun. chaos – iğtişaş) – nizamsızlıq, qarışıqlıq, qaydasızlıq.

9. **Xartiya** (lat. charta – kağız) – hüquqi xarakterli bir sıra sənədlərin adı; beynəlxalq-hüquqi akt.
10. **Xəta –** Bax: inzibati xəta.
11. **Xocalı soyqırımı –** 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri tərəfindən azərbaycanlıların bir milli qrup kimi tamamilə və ya qismən məhv edilməsi məqsədilə törədilmiş beynəlxalq cinayət. Xocalıda törədilmiş əməllərin əvvəlcədən düşünülmüş qaydada, milli əlamətinə görə konkret bir qrupun tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi, onun beynəlxalq hüquqa əsasən məhz soyqırımı olduğunu sübut edir. Beynəlxalq hüquqa əsasən, soyqırımı ən ağır beynəlxalq cinayət olmaqla təcavüz, insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri kimi cinayətlərlə yanaşı, sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə yönələn cinayətlər qrupuna aid edilir. Beynəlxalq cinayət hüququnda soyqırımı xüsusilə təhlükəli beynəlxalq cinayət kimi dəyərləndirilir. Bu cinayətin tərkibi bir sıra beynəlxalq-hüquqi aktlarda müəyyənləşdirilmişdir. İkinci dünya müharibəsi illərində beynəlxalq cinayətlər törətmiş şəxsləri mühakimə etmək üçün yaradılmış ilk beynəlxalq məhkəmə orqanı olan Nürnberq hərbi tribunalının Nizamnaməsində birbaşa soyqırımı termini işlədilməsə də, bu cinayəti təşkil edən əməllər insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri kimi nəzərdə tutulmuşdur. Soyqırımı cinayətinin əsas tərkib elementini zəruri niyyətin təşkil etməsi və onun dinc dövrdə törədilə bilməsi də bu əməli digər oxşar beynəlxalq cinayətlərdən, xüsusilə də müharibə cinayətlərindən fərqləndirir. Məhz buna görə də soyqırımı Yuqoslaviya və Ruanda tribunallarının nizamnamələrində, Beynəlxalq Cinayət Məhkəməsinin Statutunda və bir sıra digər sənədlərdə ayrıca beynəlxalq cinayət kimi fərqləndirilmişdir. Nürnberq Beynəlxalq Hərbi Tribunalının Nizamnaməsində təsbit olunmuş prinsiplər BMT Baş Assambleyasının qətnamələrində əsas prinsiplər kimi təsdiq olunmuşdur. Həmin prinsiplər bunlardır: beynəlxalq hüquqa görə, cinayət sayılan hər hansı əməli törətmiş şəxs ona görə məsuliyyət daşıyır və cəzalandırılmalıdır; beynəlxalq hüquqa görə, cinayət sayılan hər hansı əmələ görə dövlətdaxili hüquqda cəza nəzərdə tutulmaması həmin əməli törətmiş şəxsi beynəlxalq hüquq üzrə məsuliyyətdən azad etmir; beynəlxalq hüquqa görə, cinayət sayılan hər hansı əməli törətmiş şəxsin dövlət başçısı və ya hökumətin məsul vəzifəli şəxsi olması onu beynəlxalq hüquq üzrə məsuliyyətdən azad etmir; beynəlxalq hüquqa görə, cinayət sayılan hər hansı əməli törətmiş şəxsin hökumət və ya məsul şəxsin əmrini yerinə yetirməklə əlaqədar fəaliyyət göstərməsi

onu beynəlxalq hüquq üzrə məsuliyyətdən azad etmir, lakin yüngülləşdirici hal kimi qiymətləndirilə bilər; sülh və bəşəriyyət əleyhinə cinayətlər, insanlığa qarşı cinayətlər, müharibə cinayətləri beynəlxalq cinayət kimi cəzalandırılır. BMT-nin bir sıra sənədlərində də soyqırımı ümumi beynəlxalq hüquq normalarını pozan, bəşəriyyətin təhlükəsizliyi əleyhinə yönələn cinayət kimi dəyərləndirilir. BMT Baş Assambleyasının 11 dekabr 1946-cı il tarixli, 96 (1) saylı qətnaməsində soyqırımının beynəlxalq hüquq normalarını pozan, BMT-nin ruhuna və məqsədlərinə zidd cinayət olduğu elan edilir. Soyqırımı cinayətinin hüquqi əsası BMT Baş Assambleyasının 9 dekabr 1948-ci il tarixli, 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya ilə müəyyən olunmuşdur. Konvensiyanın preambulasında qeyd olunduğu kimi, soyqırımının bütün tarix boyu bəşəriyyətə böyük itkilər gətirdiyini etiraf edərək, bəşəriyyəti bu mənfur bəladan xilas etmək üçün beynəlxalq əməkdaşlığın zəruriliyini nəzərə alaraq bu Konvensiya qəbul olunmuşdur. Konvensiyaya görə, soyqırımı hər hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə edilən aşağıdakı hərəkətlərdir: bu cür qrup üzvlərinin öldürülməsi; belə qrup üzvlərinə ağır bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi; hər hansı qrup üçün qəsdən onun tam, yaxud bir qisminin fiziki məhvini nəzərdə tutan tədbirlərin görülməsi; uşaqların zorla bir insan qrupundan alınıb başqasına verilməsi. Analoji müddəa Yuqoslaviya beynəlxalq cinayət tribunalının nizamnaməsində (4-cü maddə), Ruanda beynəlxalq cinayət tribunalının nizamnaməsində (3-cü maddə), Beynəlxalq Cinayət Məhkəməsinin Statutunda (6-cı maddə) və bəzi dövlətlərin cinayət qanunvericiliyində əks olunmuşdur. Belə bir müddəa Azərbaycan qanunvericiliyində də təsbit olunmuşdur. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103-cü maddəsinə əsasən, hər hansı milli, etnik, irqi və ya dini qrupu, bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərini öldürmə, qrup üzvlərinin sağlamlığına ağır zərər vurma və ya onların əqli qabiliyyətinə ciddi zərər vurma, qrupun bütövlükdə və ya qismən fiziki məhvinə yönəlmiş yaşayış şəraiti yaratma, qrup daxilində doğumların qarşısını almağa yönəlmiş tədbirləri həyata keçirmə, bir qrupa mənsub olan uşaqları zorla başqa qrupa keçirmə soyqırımı sayılır. Ermənilər tərəfindən Azərbaycanın Xocalı şəhərində törədilmiş əməllərdə niyyət əvvəlcədən düşünülmüş qaydada (yaxınlıqdakı kəndlərdə, qaçmaq istəyən əhalini məhv etmək məqsədilə əvvəlcədən pusquların qurulması da bunu sübut edir) məhz azərbaycanlı

olduqlarına görə milli qrupu tam və ya qismən məhv etmək məqsədilə bu qrup üzvlərinin öldürülməsi olmuşdur. Həmçinin Xocalıda uşaqların zorla valideynlərindən alınması faktı da məlumdur. Belə ki, bu cinayətin törədilməsi zamanı yüzlərlə azərbaycanlı ermənilər tərəfindən girov götürülmüşdür. Uşağı olan girov götürülmüş azərbaycanlılardan isə uşaqları zorla alınmışdır. Uşaqların zorla bir qrupdan alınıb başqa bir qrupa verilməsi də soyqırımı cinayətinin obyektiv cəhətini təşkil edən əlamətlərdəndir. Bütün bunlar isə ermənilərin Xocalıda soyqırımı cinayəti törətdiklərini bir daha sübut edir. Konvensiyanın iştirakçı dövlətləri sülh, yaxud müharibə dövründə törədilməsindən asılı olmayaraq soyqırımının beynəlxalq hüquq normalarını pozan cinayət olduğunu təsdiq edir və onun qarşısını almaq və onun törədilməsinə görə cəzalandırmaq üçün tədbirlər görməyi öhdələrinə götürmüşlər. Konvensiyaya əsasən, soyqırımı, soyqırımı törətmək məqsədilə sui-qəsd, soyqırımına birbaşa və açıq təhrikçilik, soyqırımına cəhd, soyqırımında iştirak etmək əməlləri cəzalandırılır. Soyqırımı cinayətinə görə məsuliyyət universal olduğundan bununla bağlı digər dövlətlər də müvafiq tədbirlər görə bilərlər. Belə ki, Konvensiyanın əsasında duran prinsiplər, BMT Beynəlxalq Məhkəməsi tərəfindən bütün dövlətlər üçün məcburi xarakter daşıyan normalar kimi tanınmışdır. Konvensiyada qeyd edilir ki, soyqırımı həyata keçirmiş şəxslər konstitusiyaya görə məsul şəxs olmasından asılı olmayaraq cəzalandırılmalıdırlar. Soyqırımı törətmiş şəxslərin cəzalandırılması labüddür. Konvensiyanın 5-ci maddəsinə əsasən, iştirakçı dövlətlər soyqırımı cinayəti törətməkdə təqsirli olan şəxslərin cəzalandırılması üçün təsirli tədbirlər görməlidirlər. Həmin şəxslər ya dövlətin ərazisində səlahiyyətli məhkəmələrdə, yaxud da beynəlxalq məhkəmə tərəfindən mühakimə edilməlidirlər. Soyqırımı cinayəti törətməkdə təqsirli bilinən şəxslərin ekstradisiyasına gəlincə isə, Konvensiyaya əsasən, belə şəxslərin təhvil verilməsinə münasibətdə soyqırımı siyasi cinayət sayılmır. Deməli, soyqırımı cinayəti törətmiş şəxslərə sığınacaq hüququ şamil edilmir. Konvensiyanın 8-ci maddəsinə əsasən, Konvensiyanın hər bir iştirakçısı BMT-nin müvafiq orqanına BMT Nizamnaməsinin müddəalarına uyğun olaraq, onun fikrincə, soyqırımının qarşısını almaq və ya kökünü kəsmək üçün lazım olan bütün tədbirlərin görülməsi tələbi ilə müraciət edə bilər. Konvensiyaya görə, bu və ya digər dövlətin soyqırımında məsuliyyəti barədə mübahisə, tərəflərdən birinin tələbi ilə Beynəlxalq Məhkəməyə verilir. 26 noyabr 1968-ci il tarixli Müddətin hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə tətbiq edilməməsi haqqında Konvensiya imkan ve-

rir ki, törədilmə vaxtından asılı olmayaraq soyqırımı cinayəti törətmiş məsul şəxslər istənilən vaxt cinayət məsuliyyətinə cəlb edilsinlər. Belə bir müddəa Azərbaycan qanunvericiliyində də nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müddətin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad etməni nəzərdə tutan 75-ci maddəsinin 5-ci bəndinə əsasən, bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş sülh və insanlıq əleyhinə, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə və müharibə cinayətləri törətmiş şəxslərə bu maddənin müddəaları tətbiq olunmur. Yeri gəlmişkən, 12 may 2006-cı ildə "Beynəlxalq cinayətlərə görə məsuliyyət müəyyən edən qanunun qüvvəsinin geriyə şamil olunması haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu qəbul edilmişdir. BMT Baş Assambleyasının 3 dekabr 1973-cü il tarixli qətnaməsi ilə qəbul edilmiş "Hərbi cinayətlərin, bəşəriyyətə qarşı cinayətlərin törədilməsində təqsiri olan şəxslərin aşkara çıxarılması, həbs edilməsi, təhvil verilməsi və cəzalandırılmasına dair beynəlxalq əməkdaşlığın prinsipləri"nə müvafiq olaraq, hərbi cinayətlərin, bəşəriyyətə qarşı cinayətlərin törədilməsində təqsiri olan şəxslərin məhkəmə təqibinin və cəzalandırılmasının təmin edilməsinə yönəldilmiş beynəlxalq tədbirlərin görülməsinə xüsusi zərurət vardır. Hərbi cinayətlər və bəşəriyyətə qarşı cinayətlər nə vaxt və harada törədilməsindən asılı olmayaraq tədqiq edilməli, belə cinayətləri törətdikləri barəsində dəlillər olan şəxslər isə axtarılmalı, həbs edilməli, məsuliyyətə cəlb olunmalı və cəzalandırılmalıdırlar. Soyqırımı cinayətinə görə məsuliyyətin meydana çıxması üçün bütövlükdə müəyyən qrupun məhv edilməsindən ibarət son nəticə tələb olunmur. Soyqırımı cinayətinin tərkibini təşkil edən əməllərdən birinin və ya bir neçəsinin müəyyən qrupu tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi soyqırımı kimi qiymətləndirilir. Beynəlxalq cinayətlərə görə məsuliyyətin zəruriliyi barədə müddəa beynəlxalq adət normasına çevrilmişdir və dövlətdaxili hüquqla nəzərdə tutulub-tutulmamasından asılı olmayaraq, ümumqəbulolunmuş hüquq prinsiplərinə əsasən cinayət sayılan hər hansı əmələ görə cinayət məsuliyyətinə cəlb edilmə zəruridir. Ermənilər tərəfindən Xocalı əhalisi olan etnik azərbaycanlılara qarşı törədilmiş əməllər beynəlxalq hüquqa müvafiq olaraq beynəlxalq cinayət – soyqırımı kimi qiymətləndirilməlidir və beynəlxalq hüquqa əsasən, soyqırımı törədənlərin cəzalandırılması onun törədilməsi vaxtından asılı olmayaraq zəruridir. Müvafiq olaraq, azərbaycanlılara qarşı soyqırımı törətmiş (istər cinayətin bilavasitə icraçıları, istərsə də təşkilatçıları) şəxslər, vəzifə mövqeyindən asılı olmaya-

raq (cinayətkarın dövlət başçısı və ya vəzifəli şəxs qismində çıxış etməsi ona immunitetdən istifadə etmək imkanı vermir) cinayət məsuliyyətinə cəlb edilməli, ya səlahiyyətli dövlətdaxili məhkəmədə, yaxud da Ruanda tribunalına uyğun olaraq yaradılması zəruri olan ad hoc beynəlxalq tribunal qarşısında cavab verməlidirlər. Azərbaycana qarşı törədilmiş cinayətlərlə bağlı 297 nəfər barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib və İnterpol vasitəsilə axtarışa verilib. Lakin indiyədək onlardan heç biri saxlanılaraq Azərbaycana təhvil verilməyib. İkili standartların mövcudluğunu, BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvlərinin tərkibini nəzərə alaraq, Xocalı soyqırımı üzrə beynəlxalq tribunalın yaradılması yaxın perspektivdə real görsənmir. Nə qədər ki, bu soyqırım aktının canlı şahidləri, sağ qalan zərərçəkənlər həyatdadırlar, Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin müddəaları əsasında Xocalı soyqırımı üzrə qiyabi mühakimənin keçirilməsi zəruridir. Belə ki, Cinayət-Prosessual Məcəllənin "Cinayət təqibi üzrə qiyabi icraatın açılması" adlanan 467-13-cü maddəsinə əsasən, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100-119, 137, 144-145, 178, 179, 182, 193-1, 204, 205, 206, 206-1, 208, 214-219-1, 228, 274-283-1, 308-314-3, 318, 318-1, 319 və 324-cü maddələri, eləcə də həmin maddələrlə yanaşı eyni bir cinayət işi çərçivəsində cinayətlərin məcmusu üzrə həmin Məcəllənin digər maddələri ilə ittiham olunan təqsirləndirilən şəxsin Azərbaycan Respublikasının ərazisindən kənarda istintaqdan və ya məhkəmədən gizləndiyi və ya çağırışa gəlməkdən qəsdən boyun qaçırdığı üçün cinayət prosesində şəxsən iştirakının təmin edilməsi mümkün olmadıqda onun barəsində cinayət təqibi qiyabi icraat qaydasında aparıla bilər. Beynəlxalq təcrübədə qiyabi mühakimə Nürnberq tribunalının Nizamnaməsinin 12-ci maddəsi əsasında Adolf Hitlerin şəxsi katibi Martin Bormana münasibətdə baş vermişdir. Deyilənləri nəzərə alaraq, Xocalı soyqırımı üzrə cinayət və cinayət-prosessual qanunvericilikləri əsasında milli məhkəmə prosesinin keçirilməsi və cinayətkarlara qarşı qiyabi də olsa, məhkəmə hökmünün çıxarılması hüquqi baxımdan olduqca əhəmiyyətlidir. Hələ həyatda olan soyqırım şahidlərinin ifadələri məhkəmə protokollarında, çıxarılacaq hökmdə öz əksini tapmalıdır. Bu məsələdə cinayətkarların ekstradisiyasına nail olmadığına görə qiyabi mühakimə icraatını tətbiq edən Livan Xüsusi Tribunalının və Banqladeş Beynəlxalq Cinayətlər Tribunalının təcrübəsini nəzərə almaq olar. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızın azad edilməsi, konstitusiya quruluşu və suverenliyi-

mizin tam bərpa edilməsi sülh və insanlıq əleyhinə, eləcə də digər cinayətlər törətmiş şəxslərin məsuliyyətə cəlb olunmasına zəmin yaratdı. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103-cü (soyqırımı) və 107-ci (əhalini deportasiya etmə və ya məcburi köçürmə) maddələri ilə təqsirləndirilən Xocalı rayonunun Meşəli kəndində soyqırımı törədənlərdən biri Vaqif Xaçaturyanın Laçın sərhəd-keçid məntəqəsində saxlanılaraq istintaqa cəlb edilməsi və məhkəmənin hökmü ilə 15 il müddətinə azadlıqdan məhrum edilməsi onu deməyə əsas verir ki, Xocalı soyqırımını törətmiş digər şəxslər də Azərbaycan qanunları qarşısında cavab verəcəklər.

12. **Xuliqanlıq –** ictimai təhlükəsizlik əleyhinə olan cinayət. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, ictimai qaydanı kobud surətdə pozan, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən, şəxslər üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, habelə özgənin əmlakının məhv edilməsi, yaxud zədələnməsi ilə müşayiət edilən qərəzli hərəkətlər xuliqanlıqdır.
13. **Xüsusi kateqoriyalı fərdi məlumatlar** – fiziki şəxsin irqi və ya milli mənsubiyyətinə, ailə həyatına, dini etiqadına və əqidəsinə, səhhətinə və ya məhkumluğuna aid olan məlumatlar.
14. **Xüsusilə ağır cinayətlər –** Azərbaycan Respublikası Cinayət Məcəlləsi ilə qəsdən törədilməsinə görə on iki ildən artıq azadlıqdan məhrum etmə cəzası və ya daha ağır cəza nəzərdə tutulmuş əməllər (maddə 15).
15. **Xüsusi mülkiyyət –** mülkiyyət növlərindən biri. Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinə əsasən, Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər. Mülkiyyətdən insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə bilməz.
16. **Xüsusi mülkiyyət hüququ** – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinə əsasən, mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur. Obyektiv mənada xüsusi mülkiyyət hüququ xüsusi mülkiyyətin əldə edilməsinin əsaslarını və qaydalarını, xüsusi mülkiyyətçinin hüquq və səlahiyyətlərini müəyyən edən hüquq normaları məcmusudur. Xüsusi mülkiyyət hüququnun subyektləri fiziki və hüquqi şəxslərdir. Xüsusi mülkiyyət hüququnun subyektlərinin səlahiyyətləri sahib olma, istifadə və sərəncamdan ibarətdir.

17. **Xüsusi prosedurlar –** Bax: İnsan hüquqları sahəsində xüsusi prosedurlar.

İ

1. **Ibi esse poenam, ubi et nox est** (lat.) – cinayət olan yerdə cəza da olmalıdır.
2. **Ibi jus, ubi remedium** (lat.) – hüquq olan yerdə onun müdafiə vasitəsi də olmalıdır.
3. **Ignorantia juris sui non praejudicat juri** (lat.) – öz hüququnu bilməmək hüququn mahiyyətinə və mövcudluğuna heç bir təsir göstərmir, ona xələl gətirmir.
4. **Ignorare legis est culpa** (lat.) – qanunu bilməmək ehtiyatsızlıqdır.
5. **Impunitas continuum affectum tribuit delinquendi** (lat.) – cəzasızlıq cinayətkarı həvəsləndirir.
6. **In aequali jure** (lat.) – bərabər hüquqlarla.
7. **Ira non excusat delictum** (lat.) – qəzəb hüquq pozuntusuna bəraət qazandırmır.
8. **İcra hakimiyyəti** – hakimiyyətlərin bölünməsi prinsipinə əsasən dövlət hakimiyyətinin qollarından biri. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur.
9. **İctimai birlik** – təsis sənədlərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşmiş bir neçə fiziki və (və ya) hüquqi şəxsin təşəbbüsü ilə yaradılmış könüllü, özünüidarəedən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvləri arasında bölməyən qeyri-hökumət təşkilatı.
10. **İctimai informasiya** – qanunlarla və ya digər normativ hüquqi aktlarla müəyyənləşdirilən ictimai vəzifələrin yerinə yetirilməsi prosesində yaradılan və ya əldə edilən faktlar, rəylər, bilgilər.
11. **İctimai mənəviyyat əleyhinə cinayətlər** – Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, pornoqrafik materialları və ya əşyaları qanunsuz yayma, fahişəliyə cəlb etmə, əxlaqsızlıq yuvaları saxlama, qumar oyunlarının təşkili və ya keçirilməsi, qəbir üzərində təhqiredici hərəkət, tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlama ictimai mənəviyyat əleyhinə olan cinayətlərdir (242-246-cı maddələr).
12. **İctimai təşkilat** – Bax: ictimai birlik.
13. **İddiaçı** – pozulmuş hüquqlarının bərpası və ya qanunla qorunan mənafelərinin müdafiəsi üçün iddia ərizəsi ilə məhkəməyə müraciət edən şəxs.
14. **İkili vətəndaşlıq** – Bax: bipatrizm.

15. **İqlim Dəyişikliyi üzrə BMT-nin Çərçivə Konvensiyası (Framework Convention on Climate Change, UN FCCC) –** 1992-ci il, 3-14 iyun tarixlərində Braziliyanın Rio-de-Janeyro şəhərində Birləşmiş Millətlər Təşkilatının ətraf mühit və inkişaf üzrə Konfransında qəbul edilmiş beynəlxalq-hüquqi akt. Bu Konfrans qeyri-rəsmi olaraq "Yer sammiti" (Earth Summit) də adlanır. "Yer sammiti" çərçivəsində bir sıra sənədlər qəbul edildi ki, bunlardan ən mühümü 26 maddədən ibarət İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası idi. Çərçivə Konvensiyası 1992-ci ildə 154 dövlət tərəfindən imzalandı və 1994-cü ildə qüvvəyə mindi. Konvensiyanın əsas məqsədi atmosferdəki istixana qazları konsentrasiyasının təhlükəli antropogen (yəni insan təsiri nəticəsində) mənşəli iqlim dəyişikliyinə yol verməyəcək səviyyədə stabilləşdirilməsidir. Yəni məqsəd istixana qazları konsentrasiyasını o səviyyədə sabitləşdirməkdir ki, bu, ətraf mühitə, ərzaq təhlükəsizliyinə və dayanıqlı iqtisadi inkişafa zərər verməsin. Konvensiyanın 7-ci maddəsi Tərəflər Konfransı (COP) ilə bağlı məsələləri tənzimləyir. Tərəflər Konfransı iqlim dəyişikliyi ilə mübarizə çərçivəsində mühüm qərarları qəbul edən və icra prosesini nəzarətdə saxlayan ali orqan kimi müəyyən edilmişdir. Konvensiya 198 dövlət tərəfindən imzalanmışdır.

16. **İqtisadi, sosial və mədəni hüquqlar** – insanın azad inkişafını, layiqli həyat səviyyəsini, insan həyatının mühüm ehtiyaclarını təmin etməyə yönəlmiş hüquqlar kompleksi. Bu qrupa daxil olan hüquqların təmini dövləti sosiallaşdırır. İqtisadi, sosial və mədəni hüquqlar sahəsində ən mühüm beynəlxalq-hüquqi aktlar Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt və Avropa Sosial Xartiyasıdır. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə əsasən, cəmiyyətin üzvü olmaq etibarilə hər bir insan sosial təminat hüququna, həmçinin iqtisadi, sosial və mədəni sahələrdə milli səylər və beynəlxalq əməkdaşlıq vasitəsilə hər bir dövlətin quruluş və ehtiyatlarına müvafiq olaraq öz ləyaqətinin qorunması və şəxsiyyətinin sərbəst inkişafı üçün lazım olan hüquqları həyata keçirmək hüququna malikdir. İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakta müvafiq olaraq, bu Paktda iştirak edən hər bir dövlət fərdi şəkildə və xüsusilə də iqtisadi və texniki sahələri əhatə edən beynəlxalq yardım və əməkdaşlıq qaydasında bu Paktda nəzərdə tutulan hüquqların tam şəkildə həyata keçirilməsini bütün vasitələr, o cümlədən qanunverici tədbirlərin görülməsi yolu ilə mümkün ehtiyatların maksimum səviyyəsində təmin etmək üçün addımlar atmalıdır. Bu Paktda iştirak edən dövlətlər bu Pakt-

da bəyan edilmiş hüquqların irqi, dərinin rəngi, dil, din, siyasi və digər əqidə, milli və sosial mənşə, əmlak vəziyyəti, doğum və s. fərqlər əsasında ayrı-seçkiliyə yol verməd̈n həyata keçirilməsini öhdələrinə götürürlər. Bu Paktda iştirak edən dövlətlər kişi və qadınların Paktda nəzərdə tutulmuş bütün iqtisadi, sosial və mədəni hüquqlardan bərabər istifadə etmələrini təmin etməyi öhdələrinə götürürlər. Azərbaycan Respublikasının Konstitusiyasında da bir sıra iqtisadi, sosial və mədəni hüquqlar təsbit olunmuşdur. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. İqtisadi, sosial və mədəni hüquqlara aiddir: əmək hüququ, tətil hüququ, istirahət hüququ, sosial təminat hüququ, mədəniyyət hüququ, sağlamlığın qorunması hüququ, mənzil hüququ, yaradıcılıq azadlığı, ədalətli əmək haqqı hüququ, həmkarlar ittifaqları yaratmaq və onlara daxil olmaq hüququ, münasib həyat səviyyəsi hüququ, aclığa məruz qalmamaq hüququ, fiziki və psixi sağlamlığın ən yüksək səviyyəsinə çatmaq hüququ, icbari pulsuz ibtidai təhsil hüququ, mədəni həyatda iştirak etmək hüququ, elmi tərəqqinin nəticələrindən və onların praktiki tətbiqindən istifadə etmək hüququ, müəllifi olduğu hər hansı elmi, ədəbi, yaxud incəsənət əsərlərinin nəticəsində meydana çıxan maddi və mənəvi maraqların müdafiəsindən istifadə etmək hüququ, ədalətli əmək şəraiti hüququ, təhlükəsiz və sağlam əmək şəraiti hüququ, ədalətli mükafatlandırılma hüququ, işləyən qadınların analığının mühafizəsi hüququ, peşəkar təhsil hüququ, sosial və tibbi yardım almaq hüququ, sosial xidmət hüququ, əmək qabiliyyəti olmayan şəxslərin müstəqillik, sosial inteqrasiya və ictimai həyatda iştirak etmək hüququ, hər bir ailənin sosial, hüquqi və iqtisadi müdafiə hüququ, uşaqların və gənclərin sosial, hüquqi və iqtisadi müdafiə hüququ, əməkçi-miqrantların və onların ailələrinin müdafiə və kömək olunmaq hüququ, ahıl şəxslərin sosial müdafiə hüququ və s.

17. **İqtisadi, Sosial və Mədəni Hüquqlar Haqqında Beynəlxalq Pakt** – insanın əsas iqtisadi, sosial və mədəni hüquqlarını özündə ehtiva edən universal beynəlxalq müqavilə. Birləşmiş Millət Təşkilatının Baş Assambleyası tərəfindən 16 dekabr 1966-cı ildə qəbul edilmiş, 3 yanvar 1976-cı ildə qüvvəyə minmişdir. İştirakçı-dövlətlərin Paktda nəzərdə tutulmuş öhdəliklərinə əməl etmələrinə nəzarət İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitə tərəfindən həyata keçirilir. İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın iştirakçısı olan hər bir dövlət "Paktda tanınan hüquqların bütün münasib vasitələrlə tam həyata

keçirilməsini tədricən təmin etmək məqsədilə mövcud resurslarının imkan verdiyi maksimum dərəcədə, xüsusən iqtisadi və texniki sahələrdə fərdi qaydada və beynəlxalq yardım və əməkdaşlıq qaydasında tədbirlər görməyi, o cümlədən konkret olaraq qanunvericilik tədbirlərini görməyi öhdəsinə götürür" (2-ci maddənin 1-ci bəndi). Beləliklə, Paktda hüquqların həyata keçirilməsinin tədricən təmin olunması nəzərdə tutulsa da və mövcud resursların məhdudluğunun şərtləndirdiyi çətinliklər etiraf edilsə də, İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitə 3 saylı ümumi şərhində qeyd etmişdir ki, Paktda "dərhal həyata keçirilməli olan müxtəlif öhdəliklər də nəzərdə tutulub". Komitənin fikrincə, bu öhdəliklərdən ikisi xüsusilə önəmlidir: birincisi, 2-ci maddənin 2-ci bəndində nəzərdə tutulmuş öhdəlik, yəni Paktda bəyan edilən hüquqların müəyyən konkret əlamətlərə görə ayrı-seçkiliyə yol verilmədən həyata keçirilməsini təmin etmək öhdəliyi, ikincisi isə 2-ci maddənin 1-ci bəndində nəzərdə tutulmuş öhdəlik, yəni "tədbirlər görmək" öhdəliyidir və bu öhdəlik heç bir qeyd-şərtlə və ya hər hansı digər mülahizələrlə məhdudlaşdırılmır. Başqa sözlə, müvafiq hüquqların həyata keçirilməsinin tədricən təmin olunmasına yol verilsə də, bu məqsədə nail olmağa yönələn tədbirlər Paktın müvafiq dövlət barəsində qüvvəyə minməsindən sonra ağlabatan dərəcədə qısa müddətdə həyata keçirilməlidir. Belə tədbirlər düşünülmüş və konkret olmalı və mümkün qədər Paktda tanınan öhdəliklərin yerinə yetirilməsi məqsədinə yönəlməlidir. Pakt özündə bir sıra mühüm hüquqları ehtiva edir: əmək hüququ, o cümlədən hər kəsin könüllü olaraq seçdiyi və ya razılıq verdiyi işi yerinə yetirməklə yaşayışı üçün vəsait qazanmaq hüququ; ədalətli və əlverişli şərtlərlə işləmək hüququ, o cümlədən hər hansı formada fərq qoyulmadan eyni dəyərdə əməyə görə eyni əmək haqqı almaq hüququ; həmkarlar ittifaqları yaratmaq və öz seçimi əsasında həmkarlar ittifaqına daxil olmaq hüququ; sosial sığorta da daxil olmaqla sosial təminat hüququ; ailəyə himayə və yardım göstərilməsi, nikaha könüllü surətdə daxil olma, analara himayə göstərilməsi, uşaqlara və yeniyetmələrə himayə və yardım göstərilməsi; adekvat yaşayış şəraiti ilə, o cümlədən adekvat qida, geyim və mənzillə təmin edilmə və yaşayış şəraitinin daim yaxşılaşdırılması hüququ; mümkün olan ən yüksək səviyyəli fiziki və psixi sağlamlığa şərait yaradılması hüququ; təhsil hüququ; icbari ibtidai təhsilin hələ təmin edilmədiyi yerlərdə onun təmin edilməsi üçün dövlətin ətraflı tədbirlər planları hazırlamaq və qəbul etmək öhdəliyi; mədəni həyatda iştirak hüququ, elmi tərəqqinin nəticələrindən istifadə hüququ və istənilən elmi, ədəbi və incəsənət əsərlərinin müəllifliyindən

irəli gələn mənəvi və maddi maraqların müdafiəsi hüququ. Paktla təmin olunan hüquqların həyata keçirilməsinə yalnız elə məhdudiyyətlər qoyula bilər ki, onlar: qanunla müəyyən edilmiş olsun; həmin hüquqların təbiətinə uyğun olsun; demokratik cəmiyyətdə ümumi rifaha şərait yaratmaq məqsədi daşısın. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktdan fərqli olaraq, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktda bu müqavilədə nəzərdə tutulmuş hüquqi öhdəliklərdən geri çəkilməyə icazə verən hər hansı norma nəzərdə tutulmayıb.

18. **İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitə** – BMT-nin insan hüquqları sahəsində fəaliyyət göstərən müqavilə komitələrindən biri. Komitə ECOSOC-un köməkçi orqanı olub, 1985-ci ildə ECOSOC-un qətnaməsi əsasında təsis edilmişdir. Komitə 1987-ci ildən fəaliyyətə başlamışdır. İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktda Komitənin yaradılması nəzərdə tutulmamışdır. Paktda nəzərdə tutulurdu ki, iştirakçı-dövlətlər Paktın implementasiyası ilə bağlı dövri məruzələri Baş Katibə təqdim edir, o isə, öz növbəsində, baxılmaq üçün ECOSOC-a göndərir. Komitə Paktın iştirakçı-dövlətlərinin təqdimatı ilə ECOSOC tərəfindən seçilən 18 müstəqil ekspertdən ibarətdir. 10 dekabr 2008-ci ildə BMT Baş Assambleyasının 63/117 saylı qətnaməsi ilə İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakta Fakültativ Protokol qəbul olunmuşdur. Protokol Komitəyə fərdi və dövlətlərarası işlərə baxmaq səlahiyyəti verir. Fərdi və dövlətlərarası şikayət proseduru yalnız Paktın və Fakültativ Protokolun iştirakçısı olan dövlətlərə münasibətdə tətbiq oluna bilər. İştirakçı dövlətin yurisdiksiyası altında olan ayrı-ayrı şəxslər, şəxslər qrupu və ya onların adından digər tərəf Paktda təsbit olunmuş iqtisadi, sosial və ya mədəni hüquqların pozulması ilə bağlı Komitəyə müraciət edə bilər. Fərdi şikayət prosedurundan fərqli olaraq dövlətlərarası şikayət proseduru məcburi xarakter daşımır. Yəni dövlətlərarası şikayət prosedurunun tanınması üçün dövlət xüsusi bəyanat verməlidir. Protokolun 10-cu maddəsinə əsasən, yalnız belə bəyanatla çıxış edən iştirakçı-dövlətə münasibətdə bu prosedur həyata keçirilə bilər. Həmin maddəyə əsasən, iştirakçı-dövlət istənilən vaxt bəyan edə bilər ki, o, Komitənin digər iştirakçı-dövlətlərdən Paktdan irəli gələn öhdəliklərə əməl etməməsi ilə bağlı məlumat almaq səlahiyyətini tanıyır. Dövlətlərarası şikayət proseduru, demək olar ki, İnsan hüquqları komitəsi çərçivəsində həyata keçirilən prosedurla eynidir. Komitə həmçinin ECOSOC-a ümumi tövsiyələr təqdim edir. Məsələn, bunların sırasında ləyaqətli yaşayış hüququna dair 4 saylı, ahılların sosial-iqtisadi

hüquqlarına dair 6 saylı, iqtisadi sanksiyaların tətbiqi problemi və onların sosial və iqtisadi hüquqlara təsirinə dair 8 saylı, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Paktın iştirakçısı olan dövlətlərin milli hüquq sistemlərində tətbiqinə dair 9 saylı, suya olan hüquqa dair 15 saylı qətnamə və digərlərini göstərmək olar.

19. **İmmiqrant** – hər hansı bir dövlətin ərazisinə daimi və ya müvəqqəti əsaslarla yaşamağa gəlmiş əcnəbi, yaxud vətəndaşlığı olmayan şəxs.
20. **İmmiqrasiya** – əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin hər hansı dövlətin ərazisinə daimi yaxud müvəqqəti əsaslarla yaşamağa gəlməsi.
21. **İmplementasiya** (ing. implementation – həyata keçirmə, yerinə yetirmə) **–** beynəlxalq öhdəliklərin dövlətdaxili səviyyədə həyata keçirilməsi.
22. **İmplementasiya öhdəlikləri –** insan hüquqlarına dair beynəlxalq müqavilələrdə və digər beynəlxalq aktlarda nəzərdə tutulmuş mexanizmlərin fəaliyyəti ilə bağlı dövlətlərin həyata keçirməli olduqları vəzifələr. İmplementasiya öhdəliklərinə misal olaraq, dövlətlər tərəfindən BMT-nin müqavilə komitələrinə dövri məruzələrin, İnsan Hüquqları Şurasına universal dövri icmalın təqdim edilməsi, Avropa İnsan Hüquqları Konvensiyasının iştirakçı-dövlətləri tərəfindən Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının icra edilməsini göstərmək olar.
23. **İndemnitet** (lat. indemnitas – zərərsiz, ziyansız) **–** 1. zərərin ödənilməsi, kompensasiya (beynəlxalq hüquqda); 2. parlament üzvünün sərbəst cıxış etmək və fikir bildirmək imtiyazı.
24. **İnformasiya –** yaranma tarixindən, təqdimat formasından və təsnifatından asılı olmayaraq, istənilən fəaliyyət nəticəsində yaradılan, yaxud əldə olunan faktlar, rəylər, bilgilər, xəbərlər və ya digər xarakterli məlumatlar.
25. **İnformasiya cəmiyyəti** – bəşəriyyətin inkişafının yeni tarixi mərhələsi olan postsənaye cəmiyyəti. Belə cəmiyyətdə əsas istehsal məhsulları kimi informasiya və bilik çıxış edir. Bu cəmiyyətin xarakterik cəhətləri cəmiyyətin həyatında informasiyanın rolunun artması, ümumdaxili məhsulda informasiya kommunikasiyalarının, məhsullarının və xidmətlərinin payının artması və qlobal informasiya məkanının yaradılmasıdır. "İnformasiya cəmiyyəti" anlayışı 1960-cı illərin ikinci yarısında, elmi termin kimi isə 1970-ci illərdə Yaponiyada informasiya cəmiyyətinin yaradılması planının işlənməsi vaxtı meydana gəlmişdir. İnformasiya cəmiyyəti dedikdə elə bir cəmiyyət başa düşülür ki, burada hər bir fərdin firavanlığının əsas şərti kimi informasiyaya maneəsiz çatım çıxış edir, informasiya mübadiləsi isə zaman, məkan və siyasi sərhəd tanımır. Bəzi müəlliflər hesab edir ki, əgər cəmiyyətdə əhalinin yarısından çoxu informasiya

xidmətləri sahəsi ilə məşğuldursa, belə cəmiyyət informasiya cəmiyyəti hesab edilir. İnformasiya cəmiyyətinin əsas əlamətləri bunlardır: daxili informasiya bazarının mövcudluğu, həmçinin onun dünya informasiya bazarı ilə inteqrasiyası; yerli və xarici informasiya resurslarına çatımı təmin edən informasiya infrastrukturunun mövcudluğu; beynəlxalq informasiya mübadiləsinin yüksək səviyyədə olması.

26. **İnformasiya ehtiyatları** – informasiya sistemlərində (kitabxanalarda, arxivlərdə, fondlarda, məlumat banklarında və s.) olan sənədlər və sənəd massivləri, habelə ayrıca mövcud olan sənədlər və onların massivləri.

27. **İnformasiya əldə etmək azadlığı** – Azərbaycan Respublikasının qanunvericiliyində və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquq və azadlıqlarından biri. İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının 30 sentyabr 2005-ci il tarixli Qanununa əsasən, Azərbaycan Respublikasında informasiyanın əldə olunması azaddır. Hər kəs özü birbaşa və ya nümayəndəsi vasitəsilə informasiya sahibinə müraciət etmək, informasiyanın növünü və əldə etmə formasını seçmək hüququna malikdir. İnformasiya sahibinə müraciət edən hər kəs sorğu edilən informasiyanın informasiya sahibində olub-olmadığını öyrənmək, bu informasiya olmadıqda onu əldə etmək üçün yardımçı məlumatlar almaq; informasiya sahibi sorğu edilən informasiyaya malik olduqda onu sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə əldə etmək hüququna malikdir. Fiziki şəxslərin özləri barəsindəki sənədləşdirilmiş informasiya ilə maneəsiz tanış olmaq, onu əldə etmək, bu informasiyada dəqiqləşdirmələr aparılmasını tələb etmək, informasiyadan kimlərin və hansı məqsədlə istifadə etdiyini öyrənmək hüququ vardır (maddə 2).

28. **İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının Qanunu –** məqsədi Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsi ilə təsbit olunmuş məlumat əldə etmək hüququnun sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə, açıq cəmiyyətin və demokratik hüquqi dövlətin prinsipləri əsasında təmin edilməsinin hüquqi əsaslarını müəyyənləşdirməkdən, həmçinin ictimai vəzifələrin yerinə yetirilməsinə vətəndaşlar tərəfindən nəzarət olunmasına şərait yaratmaqdan ibarət olan qanunvericilik aktı. 30 sentyabr 2005-ci ildə qəbul edilmişdir.

29. **İnformasiya əldə olunmasının əsas prinsipləri** – İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının 30 sentyabr 2005-ci il tarixli Qanununa əsasən, informasiya əldə olunmasının əsas prinsipləri bunlardır: informasiya sorğusunun sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə təmin edilməsi; informasiyanın əldə olunmasının qanuniliyi;

dövlət orqanlarının və bələdiyyələrin informasiyanı açıqlamaq vəzifəsi; informasiyanın maksimum açıqlığı; informasiya sorğusunun ən qısa zamanda və ən münasib üsulla təmin edilməsi; informasiya əldə etmək hüququnun dövlət tərəfindən qorunması, o cümlədən məhkəmə yolu ilə müdafiəsi; qanunla müəyyənləşdirilmiş hallar istisna olmaqla informasiyanın əldə edilməsinin ödənişsiz həyata keçirilməsi; informasiya əldə etmək hüququnun pozulmasına görə informasiya sahiblərinin məsuliyyət daşıması; informasiya əldə edilməsinə qoyulan məhdudiyyətin bu məhdudiyyəti doğuran əsaslardan daha artıq müəyyənləşdirilməməsi; ictimaiyyətdə maraq doğuran hüquq pozuntuları barədə məlumatı açıqlamağa görə vəzifəli şəxslərin təqib olunmaması (maddə 6).

30. **İnformasiya hüququ** – dövlətin, cəmiyyətin və insanların informasiya ehtiyaclarının təhlükəsiz təmin edilməsi məqsədilə informasiya dövriyyəsi, informasiya resurslarının formalaşması və onlardan istifadə, informasiya sistemlərinin yaranması və fəaliyyəti ilə bağlı informasiya sferasında ictimai münasibətləri tənzimləyən hüquq normalarının məcmusu.
31. **İnformasiya xidmətləri** – sorğu ilə müraciət edən hər kəsi informasiya ilə təmin etmək üçün göstərilən fəaliyyət.
32. **İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu** – informasiyanın yığılması, işlənməsi, saxlanması, axtarışı, yayılması əsasında informasiya ehtiyatlarının formalaşdırılması, informasiya sistemləri, texnologiyaları, onların təminat vasitələrinin yaradılması və onlardan istifadə olunması, informasiyanın mühafizəsi ilə əlaqədar olaraq yaranan münasibətləri tənzimləyən və informasiya proseslərində iştirak edən subyektlərin hüquqlarını müəyyən edən normativ hüquqi akt. 3 aprel 1998-ci ildə qəbul edilmişdir.
33. **İnformasiyanın açıqlanması –** informasiyanın sorğu verilmədən kütləvi informasiya vasitələrində, rəsmi nəşrlərdə, sorğu və ya məlumat kitabçalarında yayılması, İnternet informasiya ehtiyatlarında yerləşdirilməsi, brifinqlərdə, mətbuat relizlərində və ya konfranslarında elan edilməsi, rəsmi və ya kütləvi tədbirlərdə bildirilməsi.
34. **İnformasiya prosesləri** – informasiyanın yaradılması, yığılması, işlənməsi, saxlanması, axtarışı, yayılması.
35. **İnformasiya sahibi** – informasiya əldə etmək hüququnu təmin etmək üçün qanunvericiliklə müəyyənləşdirilən dövlət orqanları, bələdiyyələr, mülkiyyət növündən asılı olmayaraq yaradılmış hüquqi şəxslər və fiziki şəxslər.

36. **İnformasiya sistemi** – informasiya texnologiyaları və sənədlərinin təşkilati və texniki qaydada, o cümlədən hesablama texnikasından istifadə edilməklə, nizamlanmış məcmusu.
37. **İnformasiya sorğusu** – informasiya əldə etmək üçün yazılı və ya şifahi müraciət.
38. **İnformasiya sorğusu verən –** informasiya əldə etmək üçün yazılı və ya şifahi şəkildə müraciət edən hüquqi və ya fiziki şəxs.
39. **İnformasiya texnologiyaları** – informasiya prosesləri zamanı, o cümlədən hesablama və rabitə texnikasının tətbiqi ilə istifadə edilən üsul və vasitələr sistemi.
40. **İnformasiya təhlükəsizliyi** – informasiyanın tamlığının (dəqiq, səlis, aktual və bütöv olması), əlçatanlığının (müraciət və əldə etmənin, nəzarətdə saxlamanın mümkün olması), konfidensiallığının (yalnız səlahiyyəti olan istifadəçilər və proseslər üçün məlum ola bilməsi) və mötəbərliliyinin (adekvat, obyektiv, faydalı olması) mühafizə edilməsi.
41. **İngilis-amerikan hüquq ailəsi –** ingilis hüququnu, ABŞ, Kanada, Avstraliya, Yeni Zelandiya, İrlandiyanın hüququnu birləşdirən hüquq ailəsi. Bu hüquq ailəsi, əsas etibarilə ingilis hüququnun təsiri altında formalaşmışdır. İngilis-amerikan hüquq ailəsinin əsasını təşkil edən ümumi hüquq (ing. common law) ayrı-ayrı şəxslər arasında mübahisələri həll edən hakimlər tərəfindən yaradılmışdır. Ümumi hüquq norması kontinental hüquq normasından fərqli olaraq ümumi məcburi davranış qaydası yaratmır, konkret problemin həllinə yönəlir. İngilis-amerikan hüquq ailəsinə daxil olan dövlətlərdə hüququn əsas mənbəyi qismində məhkəmə presedenti çıxış edir. Məhkəmə presedenti yuxarı məhkəmələr tərəfindən yaradılır və aşağı məhkəmə orqanları onların qərarlarını rəhbər tuturlar. Presedent hüququnun məzmunu yuxarı məhkəmə orqanları tərəfindən müəyyən edilir. Presedentin hüququn mənbəyi kimi tanınması məhkəmələrə hüquqyaratma imkanı verir. İngilis-amerikan hüquq ailəsinə daxil olan ölkələrdə məhkəmə orqanları yalnız ədliyyə orqanları kimi deyil, həm də hüquqyaratma orqanları kimi çıxış edir. Presedent hüququ həmçinin statut hüququnun formalaşmasına mühüm təsir göstərmişdir. XIX əsrin sonu XX əsrin əvvəllərindən başlayaraq parlament statutları (qanunlar) məhkəmə presedenti ilə yanaşı, hüququn mənbəyi qismində çıxış edir.
42. **İngilis-amerikan hüquq sistemi** – Bax: İngilis-amerikan hüquq ailəsi.
43. **İngilis-sakson hüquq ailəsi** – Bax: İngilis-amerikan hüquq ailəsi.
44. **İngilis-sakson hüquq sistemi** – Bax: İngilis-amerikan hüquq ailəsi.

45. **İnkişaf hüququ –** beynəlxalq hüquqla nəzərdə tutulmuş kollektiv hüquqlardan biri. BMT Baş Assambleyasının 41/128 nömrəli, 4 dekabr 1986-cı il tarixli qətnaməsi ilə qəbul edilmiş İnkişaf hüququ haqqında Bəyannamədə təsbit olunmuşdur. Bəyannamənin 1-ci maddəsinə əsasən, inkişaf hüququ insanın ayrılmaz hüququdur və bu hüquqa uyğun olaraq hər kəs və bütün xalqlar bütün insan hüquqlarının və əsas azadlıqların tam həyata keçirilə biləcəyi iqtisadi, sosial, mədəni və siyasi inkişafda iştirak etmək, ona yardım etmək və ondan bəhrələnmək hüququna malikdir. İnkişaf hüququ onu nəzərdə tutur ki, insan inkişaf prosesinin əsas subyektidir və inkişaf hüququnun fəal iştirakçısı olmalıdır. İnkişaf hüququnun təmin edilməsi üçün zəruri tədbirlərin görülməsi dövlətin əsas öhdəliyidir.

46. **İnkişaf hüququ haqqında Bəyannamə** – BMT Baş Assambleyasının 41/128 nömrəli, 4 dekabr 1986-cı il tarixli qətnaməsi ilə qəbul edilmiş beynəlxalq hüquqi akt. Bəyannamədə BMT Nizamnaməsinə uyğun olaraq dövlətlərin hər hansı bir əlamətə görə ayrı-seçkiliyə yol vermədən insan hüquqlarının və əsas azadlıqların təmin edilməsi üzrə öhdəlikləri vurğulanır. Bəyannamədə qeyd edilir ki, beynəlxalq sülh və təhlükəsizlik inkişaf hüququnun həyata keçirilməsinin vacib faktorları qismində çıxış edir. Bəyannaməyə əsasən, insan inkişaf prosesinin əsas subyektidir və buna müvafiq olaraq o, inkişaf sahəsində siyasətdə inkişafın əsas iştirakçısı və benefisarisi kimi nəzərdən keçirilməlidir. Bəyannaməyə görə, inkişaf hüququ ayrılmaz insan hüquqlarından biridir.

47. **İnkorporasiya** (lat. incorporatio – daxil etmə, qoşulma) **–** qanunvericiliyin sistemləşdirilməsinin ənənəvi üsullarından biri. İnkorporasiya zamanı qüvvədə olan qanunlar və ya digər normativ hüquqi aktlar məzmunu dəyişdirilmədən toplu halına gətirilir. İnkorporasiya rəsmi və ya qeyri-rəsmi qaydada həyata keçirilə bilər. Rəsmi inkorporasiya müvafiq dövlət orqanları tərəfindən həyata keçirilir və hüquqi əhəmiyyət daşıyır. Rəsmi inkorporasiyanın əsas məqsədi qüvvədə olan qanunvericiliyin sistemləşdirilmiş qaydada nəşr edilməsidir. Qeyri-rəsmi inkorporasiya əhalinin məlumatlandırılması məqsədi daşımaqla qeyri-hökumət təşkilatları və ya ayrı-ayrı fiziki şəxslər tərəfindən həyata keçirilə bilər. Qeyri-rəsmi inkorporasiya normativ hüquqi aktların rəsmi nəşri sayılmır və belə toplulara məhkəmədə, həmçinin elmi ədəbiyyatda istinad edilə bilməz. Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının 21 dekabr 2010-cu il tarixli Konstitusiya Qanununa əsasən, inkorporasiya – normativ hüquqi aktların məzmunu dəyişdirilmədən müəyyən qaydada toplularda (külliyyatlarda) birləşdirilməsidir (maddə 1).

48. **İnsan alverçisi** – insan alveri ilə əlaqədar hər hansı fəaliyyəti həyata keçirən fiziki və ya hüquqi şəxs.
49. **İnsan alveri** – zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla, şəxsin istismar edilməsi məqsədilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, insan alveri cinayət əməlidir.
50. **İnsan alverinə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu** – Azərbaycan Respublikasında insan alverinin profilaktikasının, insan alverinə qarşı mübarizənin hüquqi və təşkilati əsaslarını, habelə insan alveri qurbanlarının hüquqi vəziyyətini müəyyən edən, insan alveri qurbanlarının müdafiəsi və onlara yardım göstərilməsi məsələlərini tənzimləyən qanunvericilik aktı. 28 iyun 2005-ci ildə qəbul edilmişdir.
51. **İnsan alverinin qurbanı** – insan alverindən zərər çəkmiş, yaxud zərər çəkməsi ehtimal olunan şəxs.
52. **İnsan alverinin potensial qurbanları** – avaralıqla və ya dilənçiliklə məşğul olanlar, səfil, əxlaqsız həyat tərzi sürənlər, kimsəsiz, baxımsız, təhsildən qərəzli şəkildə yayınan uşaqlar, narkotik vasitələrdən və psixotrop maddələrdən asılılığı olan şəxslər.
53. **İnsan Hüquqları Günü** – Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul edildiyi günün, yəni 10 dekabr tarixinin BMT Baş Assambleyasının 423 (V) saylı qətnaməsinə əsasən "İnsan Hüquqları Günü" kimi qeyd edildiyi tarix. İlk dəfə "İnsan Hüquqları Günü" 1950-ci ildə qeyd edilmişdir. Hər il bu əlamətdar tarixin qeyd olunması BMT-nin İnsan hüquqları üzrə Ali Komissarının İdarəsi tərəfindən təşkil edilir. Bir qayda olaraq, "İnsan Hüquqları Günü" münasibəti ilə BMT-nin Baş Katibi və İnsan hüquqları üzrə Ali Komissarı üzv-dövlətlərə müraciət ünvanlayır. Müraciətdə insan hüquqlarının təmini sahəsində BMT-ni narahat edən əsas məsələlər, həmçinin insan hüquqlarının pozuntularının aradan qaldırılması, pozulmuş hüquqların bərpası, ümumilikdə, insan hüquqlarının səmərəli təmini istiqamətində üzv-dövlətlərə tövsiyələr öz əksini tapır.
54. **İnsan hüquqları haqqında Beynəlxalq Bill** – insan hüquqlarına dair fundamental beynəlxalq hüquqi aktların toplusu. Bu topluya Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Mülki və siyasi hüquqlar haqqında

Beynəlxalq Pakt və onun fakültativ protokolları, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt və onun fakültativ protokolu daxildir.

55. **İnsan hüquqları haqqında Ümumi Bəyannamə** – Bax: Ümumdünya İnsan Hüquqları Bəyannaməsi.

56. **İnsan hüquqları hüququ** – insan hüquqlarına dair hüquq normalarının məcmusu.

57. **İnsan Hüquqları Komitəsi –** BMT-nin insan hüquqları sahəsində fəaliyyət göstərən müqavilə komitələrindən biri. Komitə Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 28-ci maddəsi əsasında 1976-cı ildə təsis olunmuşdur. Komitə onun işində müstəqil surətdə iştirak edən, insan hüquqları sahəsində tanınmış mütəxəssislər olan və 4 il müddətinə seçilən (yenidən seçilə bilmək hüququ ilə) 18 ekspertdən ibarətdir. Komitə hər il ozünün üç həftə davam edən sessiyalarını keçirir. Dövlətlər Paktdan irəli gələn öhdəliklərin icrasına dair hər 5 ildən bir Baş Katib vasitəsilə Komitəyə dövri hesabat təqdim edirlər. Komitənin mühüm səlahiyyətlərindən biri dövlətlərarası işlərə baxmaqdan ibarətdir. Lakin bu prosedur könüllü xarakter daşıyır. Yəni Komitənin dövlətlərarası işlərə baxa bilməsi üçün iştirakçı dövlətlərin Paktın 41-ci maddəsinə əsasən xüsusi bəyanatı tələb olunur. Dövlətlərarası işlərə münasibətdə Komitənin rolu subsidiardır. Belə ki, əgər 41-ci maddəyə uyğun olaraq Komitənin müvafiq səlahiyyətini tanımaq barədə bəyanatla çıxış edən hər hansı bir iştirakçı dövlət (və ya dövlətlər) belə bəyanat verən digər iştirakçı dövlətin Pakt üzrə öz üzərinə götürdüyü öhdəlikləri icra etməməsi qənaətinə gələrsə, bununla bağlı həmin dövlətə yazılı müraciət olunur. Əgər məsələ öz həllini tapmazsa, yalnız bundan sonra iş Komitəyə təqdim oluna bilər. Əgər məsələnin Komitə tərəfindən həlli tərəfləri qane etməzsə, bu halda onların razılığı ilə xüsusi razılaşdırıcı komissiya təyin edilə bilər. Təcrübədə müəyyən siyasi maraqlar səbəbindən dövlətlərarası şikayət proseduru öz təsdiqini tapmamışdır. Komitənin daha bir mühüm səlahiyyəti fərdi şikayətlərə baxmaqla bağlıdır. Dövlətlərarası şikayət prosedurundan fərqli olaraq fərdi şikayət proseduru kifayət qədər işlək və bir sıra hallarda səmərəli mexanizmdir. Pakta dair 16 dekabr 1966-cı il tarixli Fakültativ Protokola uyğun olaraq Protokolun iştirakçısı olan dövlətin yurisdiksiyası altında olan hər bir şəxs Paktda təsbit olunmuş hər hansı bir hüququnun (hüquqlarının) pozulduğu və pozulmuş hüququnun (hüquqlarının) bərpasına milli səviyyədə nail ola bilmədiyi halda Komitəyə müraciət edə bilər. Komitə yalnız Protokolun iştirakçısı olan

dövlətə münasibətdə verilən şikayətlərə baxa bilər. Komitə ECOSOC vasitəsilə Baş Assambleyaya özünün işi ilə bağlı illik hesabat təqdim edir.

58. İnsan hüquqları mədəniyyəti – mədəniyyətin tərkib hissəsi olub, insanın ləyaqətinin, onun hüquq və azadlıqlarının tanınması və onlara hörmət olunmasına əsaslanan biliklər, baxışlar, hisslər və emosiyalar sistemi. İnsan hüquqları mədəniyyətinin əsas elementi kimi biliklər kompleksi çıxış edir. İnsanın öz hüquq və azadlıqları haqqında məlumatlara malik olması insan hüquqları mədəniyyətinin vacib elementi kimi çıxış edir. Cəmiyyətdə insan hüquqları mədəniyyətinin təşəkkülündə mənəvi dəyərlərin qorunması və inkişafı xüsusi rol oynayır. İnsan hüquqları mədəniyyəti çoxşaxəli xarakterə malikdir. Subyektlərdən asılı olaraq insan hüquqları mədəniyyətinin aşağıdakı növlərini fərqləndirmək olar: cəmiyyətin insan hüquqları mədəniyyəti; ayrı-ayrı sosial qrupların insan hüquqları mədəniyyəti; ayrı-ayrı şəxslərin insan hüquqları mədəniyyəti.

59. İnsan hüquqları müdafiəçiləri haqqında Bəyannamə – BMT Baş Assambleyasının 9 dekabr 1998-ci il tarixli, 53/144 nömrəli qətnaməsi ilə qəbul edilmiş sənəd. Sənədin tam adı "Ayrı-ayrı şəxslərin, qrupların və orqanların ümumtanınmış insan hüquqlarını və əsas azadlıqları təşviq və müdafiə etmək hüququ və öhdəliyi haqqında Bəyannamə"dir. Bəyannamədə, əsas etibarilə insan hüquqlarını müdafiə etmək, təşviq etmək, həyata keçirmək, insan hüquqları pozuntularına qarşı dinc şəkildə fəaliyyət göstərmək, insan hüquqlarına dair yeni ideya və prinsipləri inkişaf etdirmək və müzakirə etmək, onların tanınmasına nail olmaq, insan hüquq və azadlıqları ilə bağlı məlumat almaq və axtarmaq hüququ və bununla bağlı digər hüquqlar öz əksini tapmışdır.

60. İnsan hüquqları müdafiəçisi – Bax: hüquq müdafiəçisi.

61. İnsan hüquqlarına dair beynəlxalq müqavilələrlə bağlı qeyd-şərtlər – insan hüquqlarına dair beynəlxalq müqavilə əsasında hər hansı dövlətin daşıdığı hüquqi öhdəliklərin dəqiq həcmini qiymətləndirərkən həmin dövlətin müqaviləni ratifikasiya etdiyi və ya ona qoşulduğu zaman müqavilənin müddəalarına qeyd-şərt edib-etmədiyini və ya şərhedici bəyanat verib-vermədiyini müəyyənləşdirmək lazımdır. Bir sıra beynəlxalq müqavilələrdə qeyd-şərtlərlə bağlı ayrıca normalar olur. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın "Qeyd-şərtlər" adlanan 57-ci maddəsinə əsasən, istənilən dövlət bu Konvensiyanı imzalayarkən və ya təsdiqnaməni saxlanmağa verərkən Konvensiyanın hər hansı konkret müddəası ilə bağlı, o dövrdə, onun ərazisində qüvvədə olan bu və ya digər qanunun həmin müddəaya uyğun olmaması

ilə əlaqədar qeyd-şərt verə bilər. Bu maddəyə müvafiq olaraq, ümumi xarakterli qeyd-şərtlərə yol verilmir. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda qeyd-şərtlə bağlı xüsusi bir norma nəzərdə tutulmamışdır. Paktda qeyd-şərtlər məsələsini tənzimləyən hər hansı maddə olmasa da, İnsan Hüquqları Komitəsi özünün 24 saylı ümumi şərhində bəyan edib ki, "qeyd-şərt etməyin qadağan olunmaması o demək deyil ki, istənilən qeyd-şərtə icazə verilə bilər", bu məsələ "beynəlxalq hüquqla tənzimlənir". Komitə Beynəlxalq müqavilələr hüququ haqqında Vyana Konvensiyasının 19-cu maddəsinin 3-cü bəndinə əsaslanaraq bildirib ki, "qeyd-şərtlərin şərhi və qəbulunun mümkünlüyü məsələsi" qeyd-şərtin "obyekt və məqsədinin" yoxlanılması yolu ilə tənzimlənir. Bu o deməkdir ki, məsələn, "qeyd-şərtlər konkret və şəffaf olmalıdır ki, insan hüquqlarına riayət edilməsinə dair hansı öhdəliklərin qəbul edildiyi və hansıların qəbul edilmədiyi Komitəyə, habelə qeyd-şərt etmiş dövlətin yurisdiksiyasında olan şəxslərə və digər iştirakçı dövlətlərə aydın olsun"; eləcə də qeyd-şərtlər "ümumi xarakter daşımamalı, Paktın konkret müddəasına aid olmalı və həmin müddəaya münasibətdə qeyd-şərtin dəqiq tətbiq dairəsi göstərilməlidir".

62. İnsan hüquqlarına dair beynəlxalq paktlar – Bax: Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt; həmçinin bax: İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt.

63. İnsan hüquqlarına dair şikayətlərə baxılması üzrə "1503" proseduru – BMT sistemində İnsan Hüquqları Şurasının yaranmasına qədər fəaliyyət göstərmiş İnsan Hüquqları Komissiyasının fərdi şikayət proseduru. "1503" proseduru BMT-nin İqtisadi və Sosial Şurasının 27 may 1970-ci il tarixli, 1503 saylı qətnaməsi əsasında həyata keçirilirdi. Qətnaməyə əsasən, Komissiya insan hüquqlarının sistematik və kütləvi pozuntuları haqqında ayrı-ayrı şəxslərdən, şəxslər qrupundan və ya qeyri-hökumət təşkilatlarından məlumatlar almaq səlahiyyətinə malik idi. İnsan Hüquqları Şurası təsis edildikdən sonra "1503" proseduru Şuranın yeni mexanizmi ilə əvəz edildi.

64. İnsan hüquqlarına dair təbii hüquq nəzəriyyəsi – azadlıq, ədalət, hüququn aliliyi, insan ləyaqətinin toxunulmazlığı, hamının qanun qarşısında bərabərliyi, xalqın hakimiyyətin yeganə mənbəyi kimi tanınması ideallarını ehtiva edən mütərəqqi nəzəriyyə. Təbii hüquq nəzəriyyəsinin inkişafı XVII-XVIII əsrlərə, dirçəliş dövrü isə XX əsrin əvvəllərinə təsadüf edir. Təbii hüquq nəzəriyyəsinin banisi beynəlxalq hüquq elminin əsasını qoymuş niderlandlı hüquqşünas alim, filosof və dövlət xadimi

Hüqo Qrotsi (lat. Hugo Grotius, 1583-1645) hesab olunur. Mütəfəkkir hesab edirdi ki, təbii hüquqlar dövlət hakimiyyətini məhdudlaşdıran əsas vasitədir. Qrotsidən sonra təbii hüquq nəzəriyyəsi məşhur ingilis mütəfəkkirləri Tomas Hobbs (ing. Thomas Hobbes, 1588-1679) və Con Lokkun (ing. John Locke, 1632-1704) əsərlərində inkişaf etdirilmişdir. C.Lokka görə, dövlət təbii hüquqların (yaşamaq hüququ, azadlıq hüququ, mülkiyyət hüququ və s.) və qanunların təmin edilməsi üçün yaranıb, o, təbii hüquqlara və qanunlara qəsd etməməlidir. Mütəfəkkirin fikrincə, təbii hüquqlar etibarlı şəkildə qorunmalıdır. Təbii hüquq nəzəriyyəsinin yeni məzmunda dirçəldilməsi ideyası ilə çıxış edən alman hüquqşünası RudolfŞtammler (1856-1938) insan ləyaqətinə hörmətin təbii hüquq nəzəriyyəsinin ən mühüm prinsipi olması fikrini irəli sürdü. Tanınmış alman hüquqşünası və sosioloqu Qustav Radbrux (1878-1949) Ümumdünya İnsan Hüquqları Bəyannaməsində təsbit olunmuş prinsiplərin və əsas insan hüquq və azadlıqlarının təbii hüquqlar olduğunu bildirirdi. XX əsrdə amerikalı siyasi filosof Con Rolz (ing. John Bordley Rawls, 1921-2002) "Ədalət nəzəriyyəsi" (ing. "A Theory of Justice") əsəri (1971) ilə postklassik təbii hüquq nəzəriyyəsinin əsasını qoydu. Təbii hüquq nəzəriyyəsinin təsiri altında insan hüquqları ilə bağlı müddəalar beynəlxalq sənədlərdə, bir çox dövlətlərin konstitusiyalarında öz əksini tapdı. İnsan hüquqları sahəsində təbii hüquq konsepsiyasının əsas mahiyyəti ondan ibarətdir ki, insanın hüquq və azadlıqları ona dövlət tərəfindən bəxş edilməmişdir. Bu hüquqlar ona görə insana məxsusdur ki, o, insandır və bu hüquqlar onun təbiətinə xasdır. Onlar insan təbiətinin mahiyyətidir və məhz bu səbəbdən təbii hüquqlar adlanır. Təbii hüquqlar həm də insan təbiətindən irəli gələn prinsiplərin məcmusu kimi də nəzərdən keçirilir. Təbii hüquqlar obyektiv olaraq mövcuddur və bu hüquqların daşıyıcısı olan hər hansı konkret insandan asılı deyil. Azərbaycan Respublikasının Konstitusiyasında təbii hüquq konsepsiyası öz əksini tapmışdır. Konstitusiyanın 24-cü maddəsinə əsasən, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır. Hüquqların insana doğulduğu andan məxsus olması, insan hüquqlarının təbii xarakteri ilə bağlı müddəalar ilk dəfədir ki, bu cür aydın şəkildə Azərbaycan hüququnda öz əksini tapmışdır.

65. İnsan hüquqlarına və əsas azadlıqlara hörmət edilməsi prinsipi – beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərindən biri. Bu prinsip ilk dəfə olaraq ümumi formada BMT Nizamnaməsində təsbit edilmişdir. Nizamnamədə BMT-nin məqsədlərindən biri kimi iqtisadi, sosial, mədəni

və ya humanitar xarakterli beynəlxalq problemlərin həll edilməsində və irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların hüquqlarına və əsas azadlıqlara hörmətin dəstəklənməsində və həvəsləndirilməsində beynəlxalq əməkdaşlığa nail olmaq göstərilmişdir (maddə 1). Nizamnamənin 55-ci maddəsində isə, Birləşmiş Millətlərin irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların hüquqlarına və əsas azadlıqlara hamılıqla hörmət edilməsinə və riayət edilməsinə dəstək verdiyi qeyd edilir. İnsan hüquqlarına və əsas azadlıqlara hörmət edilməsi prinsipi 1975-ci il tarixli Helsinki Yekun Aktında beynəlxalq hüququn əsas prinsiplərindən biri kimi əks olunmuşdur. Yekun Aktın "Fikir, vicdan, din və əqidə azadlığı da daxil olmaqla insan hüquqlarına və əsas azadlıqlara hörmət edilməsi" adlanan VII hissəsində qeyd edilir ki, "İştirakçı-dövlətlər irqi, cinsi, dil və dini əlamətlərindən asılı olmayaraq, bütün insanların fikir, vicdan, din və əqidə azadlığı da daxil olmaqla hüquqlarına və əsas azadlıqlara hörmət edəcəklər". Yekun Aktda dövlətlərin insan şəxsiyyətinə məxsus ləyaqətdən irəli gələn və insanın azad və hərtərəfli inkişafı üçün əsas olan mülki, siyasi, iqtisadi, sosial, mədəni və digər hüquq və azadlıqların səmərəli həyata keçirilməsini təşviq və inkişaf etdirəcəkləri qeyd edilir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə əsasən, hər bir şəxs irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, siyasi və digər əqidəsindən, milli və ya sosial mənşəyindən, əmlak, sosial mövqe və digər vəziyyətindən asılı olmayaraq bu Bəyannamədə elan olunmuş bütün hüquq və azadlıqlara malik olmalıdır. 21 noyabr 1990-cı il tarixli Yeni Avropa üçün Paris Xartiyasında insan hüquqlarının və əsas azadlıqların hər kəsə anadan olandan məxsus olduğu, onların ayrılmaz olduğu və qanunla təmin olunduğu qeyd edilir. Xartiyada həmçinin insan hüquqlarına riayət edilməsi və tam şəkildə həyata keçirilməsinin azadlığın, ədalətin və sülhün əsası olduğu vurğulanır. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın preambulasında Avropa Şurasının məqsədinin onun üzvləri arasında daha böyük birliyə nail olmaqdan ibarət olduğu və bu məqsədlərə nail olmağın əsas vasitələrindən birinin insan hüquqlarının və əsas azadlıqların dəstəklənməsi və gələcək reallaşdırılması olduğu qeyd edilir. Konvensiyanın 1-ci maddəsinə müvafiq olaraq, Razılığa gələn Yüksək Tərəflər onların yurisdiksiyasında olan hər kəs üçün bu Konvensiyanın I bölməsində müəyyən olunmuş hüquq və azadlıqları təmin edirlər. İnsan hüquqlarına hörmət edilməsi prinsipi və onun ayrı-ayrı təzahür formaları həm də dünyanın müxtəlif dövlətlərinin milli qanunve-

riciliyində də öz əksini tapmışdır. Azərbaycan Respublikası Konstitusiyasının III fəsli bütünlüklə əsas insan və vətəndaş hüquq və azadlıqlarına həsr edilmişdir. Burada mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqlar təsbit edilmişdir. Eyni zamanda insan hüquqlarına hörmət edilməsi prinsipinin müxtəlif aspektləri Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələrində: 10, 12, 71, 148, 151-ci və s. bu və ya digər dərəcədə müəyyən edilmişdir. Belə ki, 10-cu maddədə dövlətlərarası münasibətlərin əsasında beynəlxalq hüququn prinsiplərinin dayanması, 12-ci maddədə insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətin ali məqsədi olması, Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqlarının Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilməsi, 71 maddədə insan hüquqlarının birbaşa qüvvəsi, 148-ci maddədə dövlətimizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrin dövlətdaxili qanunvericilik sisteminin tərkib hissəsi olması, 151-ci maddədə isə milli qanunvericilik və beynəlxalq hüquq arasında ziddiyyət məsələlərinin həlli təsbit edilmişdir. Bütövlükdə, insan hüquqlarına və əsas azadlıqlara hörmət edilməsi prinsipindən dövlətlərin aşağıdakı öhdəlikləri doğur: insan hüquqlarına və əsas azadlıqlara hörmətlə yanaşmaq, onları qanunvericilik səviyyəsində təmin etmək, təşviq etmək və onlara riayət etmək; insan ləyaqətini qorumaq; insan hüquqlarını azadlığın, ədalətin və sülhün əsası kimi tanımaq; heç bir ayrı-seçkiliyə yol vermədən dövlətin yurisdiksiyası altında olan hər bir şəxsin beynəlxalq hüquqla tanınmış bütün hüquq və azadlıqlarını təmin etmək; insan hüquqlarının və əsas azadlıqların təmin edilməsi üçün zəruri olan qanunvericilik, inzibati və digər tədbirləri həyata keçirmək; səmərəli hüquq müdafiə mexanizmləri təsis etmək. Beynəlxalq hüquqda insan hüquqlarına hörmət edilməsi prinsipinin məzmunu aşağıdakı qaydada ifadə edilir: bütün dövlətlər öz ərazisində yerləşən bütün şəxslərin əsas hüquq və azadlıqlarına hörmət etmək öhdəliyi daşıyırlar; dövlətlər cins, irq, dil, dini və s. əlamətlərə görə ayrı-seçkiliyə yol verməmək vəzifəsini öz üzərlərinə götürürlər; dövlətlər insan hüquq və əsas azadlıqlarına ümumi hörmət olunması və bu məqsədlərə nail olunması sahəsində bir-biri ilə əməkdaşlıq etmək öhdəliyinə malikdirlər.

66. İnsan hüquqlarını həyata keçirmək hüququ – beynəlxalq hüquqi aktlarda nəzərdə tutulmuş insan hüquqlarından biri. BMT Baş Assambleyasının 9 dekabr 1998-ci il tarixli, 53/144 nömrəli qətnaməsi ilə qəbul edilmiş Ayrı-ayrı şəxslərin, qrupların və orqanların ümumtanınmış insan

hüquqlarını və əsas azadlıqları təşviq və müdafiə etmək hüququ və öhdəliyi haqqında Bəyannaməyə əsasən, hər kəsin fərdi qaydada və başqaları ilə birgə milli və beynəlxalq səviyyədə insan hüquqlarını və əsas azadlıqları həyata keçirmək hüququ vardır.

67. **İnsan hüquqlarını müdafiə etmək hüququ** – beynəlxalq hüquqi aktlarda nəzərdə tutulmuş insan hüquqlarından biri. BMT Baş Assambleyasının 9 dekabr 1998-ci il tarixli, 53/144 nömrəli qətnaməsi ilə qəbul edilmiş Ayrı-ayrı şəxslərin, qrupların və orqanların ümumtanınmış insan hüquqlarını və əsas azadlıqları təşviq və müdafiə etmək hüququ və öhdəliyi haqqında Bəyannaməyə əsasən, hər kəsin fərdi qaydada və başqaları ilə birgə milli və beynəlxalq səviyyədə insan hüquqlarını və əsas azadlıqları müdafiə etmək hüququ vardır.

68. **İnsan hüquqlarının anlayışı və mahiyyəti** – insan hüquqları insan varlığından, insan ləyaqətindən irəli gələn və insanın azad və hərtərəfli inkişafı üçün əsas olan təbii hüquqlardır. Yaşamaq hüququ, ləyaqət, şəxsiyyətin toxunulmazlığı, vicdan, fikir, əqidə azadlığı, cəmiyyətin və dövlətin siyasi həyatında iştirak hüququ, işgəncələrə məruz qalmamaq hüququ və bununla bağlı digər hüquqlar müasir sivil cəmiyyətdə insan həyatının qurulmasının zəruri şərtidir və bu hüquqlar dövlət tərəfindən təmin edilməli və müdafiə olunmalıdır. İnsan hüquqları ayrılmazdır. Heç kəs insanı təbii hüquqlarından: yaşamaq, şəxsi toxunulmazlıq, özünün həyat fəaliyyətini azad seçmək, vicdan, fikir, əqidə azadlığı və digər təbii hüquqlarından məhrum edə bilməz. Müasir həyatı azadlıq, bərabərlik, ədalət prinsiplərinə əsaslanan və universal xarakter daşıyan insan hüquqları olmadan təsəvvür etmək mümkün deyil. Hüquqi dövlətin inkişafı insan hüquqlarının səmərəli müdafiəsindən və həyata keçirilməsindən asılıdır. İnsan hüquqları hüquqi dövlətin və hüququn aliliyinin əsas sütunu qismində çıxış edir. İnsan hüquqları fərdə təkcə dövlətin idarə olunmasında iştirak etmək imkanı vermir, həm də dövlətdən uzaqlaşmaq, şəxsi həyat sahəsində özünütəyinetməni, əqidəsini, mülkiyyətə münasibətini müstəqil olaraq müəyyənləşdirmək imkanı verir. Dövlətin vətəndaş cəmiyyətinə tam nəzarət etməsi, həyatın bütün sahələrinin dövlətləşdirilməsi yalnız insan hüquqlarının təmin edilmədiyi dövlətdə mümkündür. İnsan hüquqları azadlıq, bərabərlik, ədalət prinsiplərinə əsaslanaraq universal xarakter daşıyır. Müasir dünyada insan hüquqları ümumbəşər mədəniyyətinin əsas elementi kimi çıxış edir. Bəşəriyyət tərəfindən həqiqi universal dəyərlər kimi dərk olunan bütün qeyri-maddi xarakterli dəyərlər içərisində insan hüquq və azadlıqları ilk yerlərdən birini tutur. Mi-

nilliklər boyu cəmiyyət tərəfindən dərk edilmiş və formalaşdırılmış insan hüquqları son nəticədə özünün müasir forma və anlamını tapmışdır. Müasir sivilizasiyanın fundamental dəyəri kimi insan hüquqları və əsas azadlıqlar qloballaşma ilə xarakterizə olunan müasir dövrdə böyük əhəmiyyət kəsb edir. İnsan hüquqları həm də şəxsin hüquq normalarında təsbit olunmuş, hakimiyyət və dövlətlə qarşılıqlı münasibətlərindəki statusunu səciyyələndirən hüquqi anlayışdır. Beynəlxalq sülh və təhlükəsizliyin təmini və möhkəmləndirilməsi insan hüquqlarına hörmət, onların səmərəli müdafiəsi, demokratiyanın və sosial ədalətin gücləndirilməsi ilə bilavasitə bağlıdır. Təəssüf ki, müasir dövrdə insan hüquqları bəzən siyasi spekulyasiya və beynəlxalq münasibətlərdə digər dövlətlərə təzyiq göstərmək aləti kimi çıxış edir. İnsan hüquqları totalitarizm, qloballaşma, diskriminasiya, dözümsüzlük, zorakılıq, ekstremizm, terrorçuluq, millətçilik, dini fundamentalizm, ksenofobiya və bu kimi digər problemlərin həllində müstəsna əhəmiyyətə malikdir. İnsan hüquqları, əsas etibarilə mənəviyyat və əxlaq normalarından qaynaqlansa da, onlar həm də hüquq normaları kimi mövcuddur. Bəzən hüquqi sənədlərdə də mənəvi kateqoriyalardan istifadə edilir. Məsələn, Ümumdünya İnsan Hüquqları Bəyannaməsində göstərilir ki, insanlar şüura və vicdana malikdirlər və bir-birləri ilə münasibətdə qardaşlıq ruhunda davranmalıdırlar. Eyni zamanda Uşaq hüquqları haqqında Konvensiyada xoşbəxtlik və məhəbbət sözləri vardır. Azərbaycan Respublikasının Ailə Məcəlləsi ailə münasibətlərinin qarşılıqlı məhəbbət və hörmət hissləri üzərində qurulmasının zəruriliyini təsbit edir. Hər bir hüquqi dövlət insan hüquqlarını tanımalı, onlara hörmət etməli və onları təmin etməlidir, insan hüquqları sahəsində götürdüyü öhdəliklərə əməl etməlidir.

69. İnsan hüquqlarının beynəlxalq müdafiəsi sahəsində BMT-nin qeyri-müqavilə mexanizmləri – BMT-nin insan hüquqları sahəsində fəaliyyət göstərən əsas və köməkçi orqanları. İnsan hüquqlarının beynəlxalq müdafiəsi sahəsində BMT-nin, qeyri-müqavilə mexanizmlərinin mühüm rolu vardır. Hal-hazırda BMT-nin, demək olar ki, əksər əsas və köməkçi orqanları bilavasitə və ya dolayısı ilə insan hüquqlarının müdafiəsi məsələsi ilə məşğul olurlar. Bunların sırasında Baş Assambleya, Təhlükəsizlik Şurası və İqtisadi və Sosial Şura (ECOSOC) xüsusi yer tutur. BMT Nizamnaməsinin 1-ci maddəsinə əsasən, təşkilatın əsas məqsədlərindən biri irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hörmətin dəstəklənməsində və həvəsləndirilməsində beynəlxalq əməkdaşlığa nail olmaqdan

ibarətdir. Baş Assambleya irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarının həyata keçirilməsinə yardım göstərmək məqsədilə tədqiqatlar təşkil edir və tövsiyələr verir. Sülhün və təhlükəsizliyin qorunub saxlanmasına görə başlıca məsuliyyət Təhlükəsizlik Şurasının üzərindədir. Öz vəzifələrini icra edərkən Təhlükəsizlik Şurası BMT-nin məqsəd və prinsiplərinə uyğun olaraq hərəkət edir. İnsan hüquqları sahəsində BMT sistemində xüsusi yerlərdən birini onun əsas orqanlarından biri olan ECOSOC tutur. ECOSOC hər kəsin əsas hüquq və azadlıqlarına hörmət edilməsinə və riayət edilməsinə dəstək vermək üçün tövsiyələr verə bilər. Eyni zamanda ECOSOC-un daha bir mühüm səlahiyyəti ondan ibarətdir ki, o, Baş Assambleyaya təqdim etmək üçün öz səlahiyyəti çərçivəsində olan məsələlərə aid konvensiya layihələri hazırlaya bilər. Nizamnaməyə əsasən ECOSOC insan hüquqlarına dəstək vermək üçün komissiyalar təsis edə bilər. BMT-nin orqanları, əsasən də, Baş Assambleya və Təhlükəsizlik Şurası yalnız aşağıda qeyd olunan hallarda insan hüquqları məsələsini müzakirəyə çıxarır: insan hüquqlarının pozuntusu beynəlxalq sülh və təhlükəsizliyə təhlükə törədirsə; vəziyyət humanitar fəlakət həddinə çataraq beynəlxalq nizamasalmanı zəruri edirsə; insan hüquqlarının pozuntusu beynəlxalq cinayətdirsə; terror aktları mülki əhali arasında böyük itkilərə səbəb olursa; qeyri-beynəlxalq xarakterli daxili konfliktlər nəticəsində mülki əhalinin hüquqları kobud və sistematik şəkildə pozulursa və s. Onilliklər boyu BMT-nin insan hüquqları sahəsində mərkəzi orqanlarından biri kimi İnsan Hüquqları Komissiyası çıxış edirdi. Komissiya 1946-cı ildə ECOSOC tərəfindən yaradılmışdı. İlk vaxtlar Komissiya 18 üzv dövlətdən ibarət idi, 90-cı illərin əvvəllərindən isə BMT-yə yeni üzv dövlətlərin qəbulu ilə əlaqədar olaraq onun tərkibi genişləndirildi və üzvlərinin sayı 53-ə çatdırıldı (3 il müddətinə seçilməklə). Komissiya ECOSOC-a insan hüquqlarının müdafiəsi məsələləri ilə bağlı təkliflər, tövsiyələr və məruzələr təqdim etmək səlahiyyətinə malik idi. İlkin olaraq Komissiyanın qarşısında aşağıdakı vəzifələr dayanırdı: insan hüquqlarına dair fundamental beynəlxalq-hüquqi aktların, ilk növbədə isə, insan hüquqları haqqında Beynəlxalq Billin işlənib hazırlanması; ayrı-ayrı insan hüquqlarının (qadınların, uşaqların, milli azlıqların və s.) müdafiəsinə yönəlmiş beynəlxalq konvensiya və bəyannamə layihələrinin işlənib hazırlanması; müxtəlif əlamətlərə görə, əsasən də irqinə, cinsinə, dilinə, dininə və ya digər əlamətlərinə görə ayrı-seçkiliyin ümumi qadağan edilməsinə dair təkliflərin işlənib hazırlanması; insan hüquqlarının müdafiə-

sinin digər aktual məsələlərinə dair təkliflərin işlənib hazırlanması. Komissiya onun qarşısında qoyulan bütün vəzifələri, demək olar ki, yerinə yetirdi və bununla da beynəlxalq insan hüquqları hüququnun inkişafına və insan hüquqları sahəsində beynəlxalq mexanizmlərin formalaşması və fəaliyyətinə böyük töhfələr vermiş oldu. Belə ki, İnsan hüquqlarına dair Beynəlxalq Bill (Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt və onun fakültativ protokolu, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt və onun fakültativ protokolları) və bir sıra digər mühüm universal beynəlxalq müqavilələr Komissiya tərəfindən işlənib hazırlandı. Komissiyanın illik sessiyaları altı həftə ərzində İsveçrənin Cenevrə şəhərində çağırılırdı. Özünün illik sessiyalarında Komissiya bir sıra mühüm sənədlər, o cümlədən tematik qətnamələr qəbul edirdi. Bəzi hallarda isə (məsələn, insan hüquqlarının kobud pozulması və təcili müdaxilə tələb edən və bu kimi digər hallarda) Komissiyanın xüsusi sessiyaları çağırılırdı. Fəaliyyət dövrü ərzində Komissiya bu və ya digər ölkədə insan hüquqlarının kobud pozuntusu hallarına operativ reaksiya vermək məqsədilə bir sıra mühüm mexanizmlər təsis etmişdir. Bunların sırasında tematik mexanizmlər, xüsusi məruzəçilər, yaxud xüsusi prosedurlar, müxtəlif işçi qruplarının yaradılması xüsusi yer tutur. BMT Baş Katibindən, İnsan Hüquqları üzrə Ali Komissardan, İnsan Hüquqları Komissiyasından (hazırda isə İnsan Hüquqları Şurasından) mandat almış xüsusi məruzəçilər, insan hüquqları ilə bağlı vəziyyəti yerində araşdırmaq, monitorinq aparmaq məqsədilə bu və ya digər üzv dövlətə səfərlər edir, aidiyyəti dövlət qurumlarının, milli insan hüquqları təsisatlarının, qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüşlər keçirir. Daha sonra isə araşdırma ilə bağlı özünün hesabatını hazırlayır və BMT-nin müvafiq qurumuna təqdim edir. İnsan Hüquqları Komissiyasının tərkibində müstəqil ekspertlərin deyil, ayrı-ayrı dövlətlərin təmsilçiliyi bəzən onun işinə siyasi çalarlar qatmaqla maneçilik törədirdi. Həmin dövrdə BMT-nin Baş Katibi olan K.Annanın qeyd etdiyi kimi, bir sıra dövlətlər Komissiyaya, insan hüquqlarının müdafiəsi məqsədilə deyil, öz maraqlarını güdərək özlərini tənqiddən qorumaq məqsədilə üzv olmağa can atırlar. BMT-nin 60 illiyi ərəfəsində Baş Katib üzv dövlətlərə müraciət edərək Komissiyanın əvəzinə BMT-nin əsas orqanlarından biri, yaxud Baş Assambleyanın köməkçi orqanı qismində İnsan Hüquqları Şurasının yaradılmasını təklif etdi. Baş Assambleyanın 15 mart 2006-cı il tarixli, 60/251 saylı "İnsan Hüquqlar Şurası" adlı Qətnaməsi ilə İnsan Hüquqları Komissiyasının əvəzinə,

Baş Assambleyanın köməkçi orqanı qismində İnsan Hüquqları Şurası təsis edildi. Şura 47 üzv dövlətdən ibarətdir. Şuraya seçkilərin ədalətli coğrafi bölgü prinsipi əsasında həyata keçirilməsini təmin etmək məqsədilə Şurada yerlər regional qruplar arasında aşağıdakı qaydada bölünmüşdür: Afrika dövlətləri qrupu 13 yer; Asiya dövlətləri qrupu 13 yer; Şərqi Avropa dövlətləri qrupu 6 yer; Latın Amerikası və Karib hövzəsi dövlətləri qrupu 8 yer, Qərbi Avropa və digər dövlətlər qrupu 7 yer. Şuranın üzvləri 3 illik müddətə seçilirlər və yenidən seçilmək hüququna malik olurlar, lakin iki ardıcıl səlahiyyət müddətindən dərhal sonra yenidən seçilə bilməzlər. 9 may 2006-cı ildə BMT-nin Nyu-Yorkdakı mənzil qərargahında Baş Assambleyanın iclasında Şuraya ilk üzvlərin seçkiləri keçirildi. 47 yer uğrunda 63 dövlət mübarizə aparırdı. Seçkilər nəticəsində Azərbaycan Şuraya 3 illik müddətə üzv seçildi. Şuranın funksiyalarını aşağıdakı kimi təsnifləşdirmək olar: insan hüquqları sahəsində tədris – maarifləndirmə fəaliyyətinə, eləcə də məsləhətçi xidmətlərin göstərilməsi, texniki köməyin göstərilməsi və maraqlı üzv dövlətlərlə məsləhətləşməklə potensialın yaradılması fəaliyyətinə yardım etmək; insan hüquqlarının bütün sahələri üzrə tematik məsələlərin müzakirə olunması üçün forum kimi çıxış etmək; beynəlxalq insan hüquqları hüququnun inkişafına dair Baş Assambleyaya tövsiyələr vermək; dövlətlər tərəfindən qəbul olunmuş insan hüquqları sahəsində öhdəliklərin yerinə yetirilməsi üzərində nəzarətin həyata keçirilməsinə yardımçı olmaq; obyektiv və doğru məlumatlar əsasında hər bir dövləti əhatə etməklə universal dövri icmal prosedurunu həyata keçirmək; dialoq və əməkdaşlıq vasitəsilə insan hüquqları pozuntularının qarşısının alınmasına yardım etmək və insan hüquqları sahəsində fövqəladə vəziyyətlərə reaksiya vermək; İnsan Hüquqları Komissiyasının İnsan Hüquqları üzrə Ali Komissarı idarəsinin işi ilə əlaqədar rolunu və öhdəliklərini öz üzərinə götürmək; insan hüquqlarının həvəsləndirilməsi və müdafiəsinə dair tövsiyələr vermək; Baş Assambleyaya illik məruzələr təqdim etmək. Şuranın gətirdiyi əsas yenilik Universal Dövri İcmal mexanizmidir. Bütün üzv dövlətlər, ilk növbədə isə Şuranın üzvləri bu prosedurdan keçməlidirlər. İcmal aşağıdakı məlumatlar əsasında həyata keçirilir: 1. müvafiq dövlətin milli məruzəsi; 2. İnsan Hüquqları üzrə Ali Komissar tərəfindən hazırlanan və özündə BMT-nin müqavilə qurumlarının, xüsusi prosedurların rəylərini əks etdirən xülasə; 3. qeyri-hökumət təşkilatları, milli insan hüquqları təsisatları tərəfindən təqdim olunan alternativ məruzələr. BMT çərçivəsində insan hüquqları sahəsində fəaliyyət göstərən qurumlardan biri də İnsan

Hüquqları üzrə Ali Komissardır. Ali Komissar vəzifəsi Baş Assambleyanın 20 dekabr 1993-cü il tarixli, 48/141 saylı qətnaməsi əsasında təsis edilmişdir. Ali Komissar Baş Assambleya tərəfindən təsdiq edilməklə Baş Katib tərəfindən 4 il müddətinə təyin edilir (daha bir müddətə təyin edilə bilmək hüququ ilə) və o, Baş Katibin müavini statusunda fəaliyyət göstərir. Ali Komissar geniş səlahiyyətlərə malik olmasa da, BMT-nin insan hüquqları sahəsində fəaliyyətini əlaqələndirir. BMT-nin insan hüquqları sahəsində fəaliyyətinə əsas məsuliyyəti də məhz Ali Komissar daşıyır. Komissarın əsas vəzifələri sırasında bütün insan hüquqlarının səmərəli həyata keçirilməsinə dəstək verilməsi; insan hüquqlarına hörmət məqsədilə beynəlxalq əməkdaşlığın təşviqi; BMT çərçivəsində insan hüquqları sahəsində fəaliyyətin əlaqələndirilməsi və həvəsləndirilməsi; insan hüquqları sahəsində yeni standartların işlənib hazırlanmasına yardımçı olunması; insan hüquqları sahəsində beynəlxalq müqavilələrin ratifikasiya olunmasına yardımçı olunmasını qeyd etmək olar. Ali Komissar həmçinin insan hüquqlarının kobud pozuntusu hallarında tədbirlər görmək və preventiv fəaliyyət həyata keçirmək səlahiyyətlərinə də malikdir.

70. İnsan hüquqlarının beynəlxalq müdafiəsi sahəsində BMT-nin müqavilə mexanizmləri – BMT-nin insan hüquqları sahəsində müqavilə əsasında fəaliyyət göstərən orqanları. İnsan hüquqlarının beynəlxalq müdafiəsi sahəsində BMT-nin müqavilə qurumlarının əhəmiyyətli rolu vardır. Universal səviyyədə insan hüquqlarına dair beynəlxalq normaların implementasiyası üzərində beynəlxalq nəzarəti BMT-nin konvension orqanları (müqavilə qurumları) yerinə yetirir. Hal-hazırda bu qurumların sayı doqquzdur: İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə komitə; İnsan hüquqları komitəsi; Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi üzrə komitə; İqtisadi, sosial və mədəni hüquqlar üzrə komitə; İşgəncə əleyhinə komitə; Uşaq hüquqları komitəsi; Bütün əməkçi-miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi üzrə komitə; Əlilliyi olan şəxslərin hüquqları üzrə komitə; Bütün şəxslərin zorakı yoxaçıxmalardan müdafiəsi üzrə komitə. Bu qurumların hər biri müvafiq beynəlxalq müqavilə əsasında təsis edilib, yalnız İqtisadi, sosial və mədəni hüquqlar üzrə komitə eyniadlı Pakt əsasında deyil, İqtisadi və Sosial Şuranın (ECOSOC) qətnaməsi əsasında yaradılmışdır. Paktda komitənin yaradılması nəzərdə tutulmamışdır. Paktın 16-cı maddəsinə əsasən, iştirakçı-dövlətlər bu Pakta uyğun olaraq həyata keçirdikləri tədbirlər və bu Paktda təsbit olunmuş hüquqların təmini sahəsində əldə olunmuş nailiyyətlərə dair məruzələrini BMT Baş Katibinə təqdim

edir, o isə öz növbəsində məruzələri baxılmaq üçün ECOSOC-a göndərir. Lakin 1987-ci ildən İqtisadi, sosial və mədəni hüquqlar üzrə komitənin fəaliyyətə başlaması ilə Paktda nəzərdə tutulan bu prosedur dəyişikliyə məruz qaldı. İlk müqavilə qurumu – İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə komitə 1970-ci ildə təsis edilmişdir. Lakin bundan əvvəl 1965-ci ildə üzv-dövlətlər ECOSOC-un qərarı ilə BMT Baş Katibinə bu və ya digər hüquqların həyata keçirilməsinə dair illik məruzələr təqdim edirdilər. Dövlətlərin məruzələrinə baxılması üçün dövri məruzələr üzrə xüsusi komitə fəaliyyət göstərirdi. BMT çərçivəsində qəbul olunan universal beynəlxalq müqavilələrin (insan hüquqlarına dair Beynəlxalq Paktlar, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya və s.) qüvvəyə minməsi ilə bundan əvvəl mövcud olan mexanizm yenisi ilə əvəz olundu. Əsasında təsis edildiyi beynəlxalq-hüquqi aktda təsbit olunmuş insan hüquqlarına dair beynəlxalq hüquq normalarının implementasiyası üzərində beynəlxalq nəzarət həyata keçirən universal müqavilə qurumlarının əsas funksiyaları iştirakçı dövlətlərin müvafiq konvensiya ilə üzərlərinə götürdükləri öhdəliklərin icrasına dair əvvəlcə ilkin, daha sonra isə dövri məruzələrinə baxmaq, bununla bağlı müvafiq dövlətə tövsiyələr bildirmək, həmçinin mandatından asılı olaraq fərdi və (və ya) dövlətlərarası şikayətlərə baxmaqdan ibarətdir. Dövri məruzələrə baxarkən komitələr əsasən aşağıdakı məqamlara diqqət yetirirlər: müvafiq beynəlxalq aktda təsbit olunmuş hüquq və azadlıqların pozulduğu halda onların bərpası üçün səmərəli dövlətdaxili hüquq müdafiə mexanizmlərinin (məhkəmə, inzibati və digər) mövcudluğu; beynəlxalq səviyyədə tanınmış insan hüquqlarının milli hüquqda, ilk növbədə əsas qanunda və digər qanunvericilik aktlarında təsbit olunması; insan hüquqlarına dair beynəlxalq aktların milli qanun-vericiliyə münasibətdə hüquqi statusu, dövlətdaxili hüquqda normativ hüquqi aktların iyerarxiyasında onların yeri; dövlətin iştirakçısı olduğu insan hüquqlarına dair beynəlxalq hüquqi aktların milli səviyyədə birbaşa tətbiqi imkanları; insan hüquqları sahəsində milli nəzarət mexanizmlərinin mövcudluğu və fəaliyyəti; dövlət tərəfindən müvafiq konvension normaların implementasiyası sahəsində həyata keçirilən fəaliyyət, əldə olunan uğurlar, mövcud çətinliklər və s. Komitələr tərəfindən dövlətlərin dövri məruzələrinə baxılmasının aşağıdakı məqsədlərini qeyd etmək olar: milli qanunvericiliyin təhlili, ayrı-ayrı qanunvericilik aktlarının beynəlxalq hüquq normalarına uyğunluğunun müəyyən edilməsi; dövlətlər tərəfindən insan hüquqlarının təminə diqqətin artırılması, daim bu məsələnin nəzarət altında saxlanılmasının təmin edilməsi; dövlətlərə müvafiq

beynəlxalq müqavilədən irəli gələn öhdəliklərin nə dərəcədə yerinə yetirilməsi ilə bağlı məlumat vermək imkanının yaradılması; insan hüquqlarının təmini sahəsində ictimai nəzarətin gücləndirilməsinə və inkişafına nail olunması; insan hüquqlarının təmini sahəsində dəqiq indikatorların müəyyən edilməsi; dövlətlərə insan hüquqlarının implementasiyası, pozulmuş hüquq və azadlıqların bərpası sahəsində mövcud olan nöqsan və çatışmazlıqların aşkarlanmasında yardımçı olunması; qarşılıqlı informasiya mübadiləsi və mövcud nöqsanların birgə səylərlə aradan qaldırılmasına nail olunması.

71. **İnsan hüquqlarının etik aspekti –** insan hüquqlarının spesifikliyi ondadır ki, fərd məhz insan varlığı olduğuna görə həmin hüquqlara malikdir və insanı heç bir halda insan mahiyyətindən məhrum etmək mümkün deyil. İnsan hüquqları insan mahiyyətinin ayrılmaz tərkib hissəsidir. Bu, insan hüquqlarının fundamental etik prinsipidir. İnsan hüquqları hər kəsə xas olan hüquqlardır. İnsan hüquqları bütün şəxslərin universal və ayrılmaz hüquqlarıdır. İnsanlar mahiyyətcə öz hüquqlarından məhrum edilə bilməzlər. Yalnız müəyyən hallarda bu hüquqların bəzilərinin həyata keçirilməsi məhdudlaşdırıla bilər. İnsan hüquqlarının insan varlığının unikal təbiətindən irəli gəlməsi faktı o deməkdir ki, onlar milli və beynəlxalq səviyyədə səmərəli şəkildə qorunmalıdırlar. İnsanın daxili və xarici orqanları olduğu kimi hüquqları da vardır və bu orqanlar ona məhz insan olduğu üçün məxsus olduğu kimi təbii hüquqları ona qeyd-şərtsiz məxsusdur.

72. **İnsan hüquqlarının implementasiyası –** insan hüquqlarına dair beynəlxalq normaların milli qanunvericiliyə gətirilməsi və milli səviyyədə həyata keçirilməsi.

73. **İnsan hüquqlarının kataloqu –** fundamental beynəlxalq hüquqi aktlarda (ilk növbədə insan hüquqlarına dair Beynəlxalq Billdə) təsbit olunmuş mülki, siyasi, iqtisadi, sosial, mədəni hüquqların və əsas azadlıqların kompleksi. İlk dəfə olaraq rəsmi qaydada beynəlxalq səviyyədə 1948-ci ildə Ümumdünya İnsan Hüquqları Bəyannaməsində müəyyən edilmişdir.

74. **İnsan hüquqlarının konstitusion prinsipləri –** Bax: insan hüquqları sahəsində əsas prinsiplər.

75. **İnsan hüquqlarının qloballaşması –** Bax: qloballaşma və insan hüquqları.

76. **İnsan hüquqlarının məhdudlaşdırılması –** müəyyən hüquqların, məsələn, ifadə azadlığı, birləşmək və toplaşmaq azadlığı, fikir, vicdan və din azadlığı, azadlıq və şəxsi toxunulmazlıq hüququ və digər bir sıra hüquq və azadlıqların həyata keçirilməsi (həmin hüquqların mahiyyəti

deyil, məhz həyata keçirilməsi) müəyyən məhdudiyyətlərə məruz qala bilər. Həmin məhdudiyyətlər, məsələn, digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi, dövlət təhlükəsizliyinin qorunması, sağlamlığın və ya mənəviyyatın mühafizəsi məqsədilə tətbiq edilə bilər. İnsan hüquqlarının həyata keçirilməsinə məhdudiyyətlər fərdin maraqları ilə ümumi maraqlar arasında balansın diqqətlə yoxlanılması nəticəsində tətbiq edilir və qanuni hesab edilmək üçün həmin məhdudiyyətlər: qanunla nəzərdə tutulmalı; bir və ya bir neçə qanuni məqsəd üçün tətbiq edilməli; bir və ya bir neçə qanuni məqsədə nail olmaq üçün demokratik cəmiyyətdə zəruri olmalıdır (mütənasiblik prinsipi). Zəruri sayılmaq üçün məhdudiyyət həm ümumən, həm də tətbiq edildiyi konkret halda dəqiq şəkildə müəyyən edilmiş ictimai tələbata cavab verməlidir. İnsan hüquqlarının məhdudlaşdırılması ilə bağlı müddəalar bir sıra beynəlxalq sənədlərdə də nəzərdə tutulmuşdur. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 29-cu maddəsinə görə, öz hüquq və azadlıqlarını həyata keçirərkən hər bir şəxs ancaq elə məhdudiyyətlərə məruz qala bilər ki, onlar qanunla müstəsna olaraq başqalarının hüquq və azadlıqlarının tanınması, onlara hörmət edilməsi və demokratik cəmiyyətdə əxlaq, ictimai asayiş və ümumi rifahın ədalətli tələblərini təmin etmək məqsədilə müəyyən edilsin. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 4-cü maddəsinə müvafiq olaraq, dövlət daxilində əhalinin həyatını təhlükə altına salan fövqəladə vəziyyət zamanı və belə halın mövcudluğu rəsmən elan edilərkən, iştirakçı-dövlətlər hazırkı Pakt üzrə öz öhdəliklərindən yalnız həmin vəziyyətin tələb etdiyi ölçüdə geri çəkilmək üçün tədbirlər görə bilərlər, bu şərtlə ki belə tədbirlər onların beynəlxalq hüquq üzrə digər öhdəliklərinə zidd olmasın və insanın irqi, dərisinin rəngi, cinsi, dili, dini və ya sosial mənsubiyyəti ilə bağlı əlamətləri əsasında ayrı-seçkiliyə yol verilməsinə gətirib çıxarmasın. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın 9-cu maddəsinə əsasən, öz dininə və baxışlarına etiqad etmək azadlığı yalnız ictimai asayiş maraqları naminə, ictimai qaydanı, sağlamlığı, yaxud mənəviyyatı qorumaq üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan məhdudiyyətlərə məruz qala bilər. Konvensiyanın "İfadə azadlığı" adlanan 10-cu maddəsinə müvafiq olaraq, bu azadlıqların həyata keçirilməsi milli təhlükəsizlik, ərazi bütövlüyü və ya ictimai asayiş maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısını almaq üçün, sağlamlığın və mənəviyyatın qorunması üçün, digər şəxslərin nüfuzu və hüquqlarının müdafiəsi üçün, konfidensial şə-

kildə əldə edilmiş məlumatların açıqlanmasının qarşısını almaq üçün və ya ədalət mühakiməsinin nüfuz və qərəzsizliyini təmin etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan müəyyən rəsmi tələblərə, şərtlərə, məhdudiyyətlərə və ya sanksiyalara məruz qala bilər. Yığıncaqlar və birləşmək azadlığını nəzərdə tutan 11-ci maddəyə görə, bu hüquqların həyata keçirilməsinə milli təhlükəsizlik və ictimai asayiş maraqları naminə, iğtişaşın və cinayətin qarşısını almaq üçün, sağlamlığın və mənəviyyatın qorunması üçün və ya digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olanlardan başqa, heç bir məhdudiyyət qoyula bilməz. Bu maddə silahlı qüvvələr, polis və ya inzibati dövlət orqanları üzvlərinin belə hüquqlarının həyata keçirilməsinə qanuni məhdudiyyətlər qoyulmasına mane olmur. Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinə müvafiq olaraq, insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz. Hər kəsin hüquq və azadlıqları bu Konstitusiyada və qanunlarda müəyyən edilmiş əsaslarla, habelə digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşır. Hüquq və azadlıqların məhdudlaşdırılması dövlət tərəfindən gözlənilən nəticəyə mütənasib olmalıdır. Müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə səfərbərlik elan edilərkən insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini nəzərə almaq şərtilə qismən və müvəqqəti məhdudlaşdırıla bilər. Həyata keçirilməsi məhdudlaşdırılan hüquq və azadlıqlar haqqında əhaliyə qabaqcadan məlumat verilir.

77. **İnsan hüquqlarının mənbələri –** insan hüquqları sahəsində hüquq normalarının ifadə forması. İnsan hüquqlarının ən mühüm mənbəyi beynəlxalq müqavilədir. Həmçinin milli qanunvericilik aktları da insan hüquqlarının mənbəyi sayılır. İnsan hüquqları sahəsində tövsiyə xarakterli normalar da insan hüquqlarının mənbəyi kimi çıxış edir.

78. **İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı –** Azərbaycanın konkret inkişaf mərhələsinə uyğun olaraq, insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin 18 iyun 1998-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş sənəd. Proqramda Azərbaycan Respublikasının insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, bu sahədə elmi-tədqiqat institutunun yaradılması, normativ hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları

sahəsində fəaliyyət göstərən beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, bu sahədə fəaliyyət göstərən beynəlxalq institut və mərkəzlərdə tədqiqat və təhsil proqramları üzrə mütəxəssislərin hazırlanması, insan hüquqları haqqında öhdəliklərə riayət edilməsi, insan hüquqları üzrə səlahiyyətli müvəkkil təsisatının yaradılması və digər məsələlər öz əksini tapmışdır.

79. **İnsan hüquqlarının nəsilləri** – insan hüquqlarının tarixi meyara görə təsnifatı forması. "İnsan hüquqlarının nəsilləri" konsepsiyası XX əsrin 70-ci illərində təşəkkül tapmışdır. Konsepsiyaya əsasən, əsas insan hüquqları öz inkişaf tarixində üç mərhələ keçmişdir və bu mərhələlər əsasında insan hüquqlarının üç nəsli fərqləndirilir. Birinci nəslə mülki və siyasi hüquqlar – yaşamaq hüququ, azadlıq hüququ, işgəncəyə məruz qalmamaq hüququ, ədalətli məhkəmə araşdırması hüququ, bərabərlik hüququ, şəxsi toxunulmazlıq hüququ, nikah hüququ, şərəf və ləyaqətin müdafiəsi hüququ, fikir və söz azadlığı, din, vicdan və əqidə azadlığı, sərbəst toplaşmaq azadlığı, məlumat azadlığı, seçki hüququ, birləşmək hüququ, mülkiyyət hüququ, təhsil hüququ və s. aiddir. Birinci nəsil insan hüquqları, əsas etibarilə Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyada və onun əlavə protokollarında təsbit olunmuşdur. İkinci nəsil insan hüquqlarını iqtisadi, sosial və mədəni hüquqlar təşkil edir və bu nəsil hüquqlara aiddir: əmək hüququ, tətil hüququ, istirahət hüququ, sosial təminat hüququ, mənzil hüququ, həmkarlar ittifaqları yaratmaq və onlara üzv olmaq hüququ və s. İkinci nəsil hüquqlar, əsasən İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktda, Avropa Sosial Xartiyasında öz əksini tapmışdır. Üçüncü nəsil hüquqlara isə ayrı-ayrı fərdlər tərəfindən deyil, bütövlükdə kollektiv, qrup tərəfindən həyata keçirilən hüquqlar aiddir. Bu nəsil hüquqlara inkişaf hüququ, sülh hüququ, sağlam ətraf mühit hüququ, ümumi bəşəri irs hüququ, kommunikasiya hüququ, suverenlik hüququ, xalqların öz müqəddəratını sərbəst təyin etmək hüququ və s. hüquqlar aiddir. Üçüncü nəsil hüquqların fərqləndirici xüsusiyyətlərindən biri ondan ibarətdir ki, ayrı-ayrı fərdlər bu hüquqların həyata keçirilməsində iştirak edir, lakin bu iştirak fərdin şəxsi statusu ilə bağlı deyil, hər hansı bir kollektivə, topluya, qrupa aid olması ilə əlaqədardır. Kollektiv hüquqlar müəyyən kollektivə, topluya, qrupa daxil olan fərdlərin hüquqlarının cəmi kimi nəzərdən keçirilə bilməz. Kollektiv hüquqlar təbii hüquqlar kimi çıxış etmir. Üçüncü nəsil hüquqlar bəzi beynəlxalq müqavilələrdə (Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq

Pakt, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt), həmçinin BMT-nin bir sıra sənədlərində (BMT Baş Assambleyasının 41/128 nömrəli, 4 dekabr 1986-cı il tarixli qətnaməsi ilə qəbul edilmiş İnkişaf hüququ haqqında Bəyannamə, BMT Baş Assambleyasının 39/11 nömrəli, 12 noyabr 1984-cü il tarixli qətnaməsi ilə qəbul edilmiş Xalqların sülh hüququ haqqında Bəyannamə) öz əksini tapmışdır.

80. İnsan hüquqlarının pozuntularına görə dövlətlərin beynəlxalq məsuliyyəti – beynəlxalq hüquqa əsasən, dövlətlər onlar üçün məcburi qüvvəyə malik olan müqavilədə və ya digər hüquq mənbəyində tanınan insan hüquqlarına hörmət və əməl etmədikdə və onların səmərəli şəkildə həyata keçirilməsini təmin etmədikdə məsuliyyət daşıyırlar. Velaskesin işində Amerika İnsan Hüquqları Məhkəməsinin qeyd etdiyi kimi, "Beynəlxalq hüquq normalarına əsasən, hüquq pozuntuları hər hansı dövlət orqanının hərəkəti və ya hərəkətsizliyi nəticəsində baş verirsə, dövlət tərəfindən törədilmiş pozuntu sayılır və belə hallarda həmin dövlət məsuliyyət daşıyır". Dövlət nümayəndələrinin hərəkətlərinə və ya hərəkətsizliyinə görə dövlət məsuliyyət daşıyır. Dövlət, hüquq pozuntularının qarşısını almağa, belə pozuntuları araşdırmağa, təqsirkarları cəzalandırmağa və mümkün olan hallarda pozulmuş hüquqları bərpa etməyə və (və ya) kompensasiya ödəməyə borcludur. İnsan hüquqlarına dair beynəlxalq hüquq normaları bəzən üçüncü tərəf üçün mühüm hüquqi nəticələr doğurur, belə ki, dövlətlər ayrı-ayrı fərdlərin və ya qrupların törətdiyi insan hüquqlarını pozan hərəkətlərin qarşısını almaq və ya daxili qanunvericiliyə uyğun olaraq, belə pozuntulara qarşı adekvat müdafiəni təmin etmək üçün əsaslı tədbir görmədiklərinə görə üçüncü tərəf qismində məsuliyyət daşıya bilərlər. Məsələn, Avropa İnsan Hüquqları Konvensiyasının 8-ci maddəsində nəzərdə tutulmuş şəxsi və ailə həyatına hörmət hüququ ilə bağlı Avropa İnsan Hüquqları Məhkəməsi qeyd etmişdir ki, bu maddə: "mahiyyət etibarilə şəxsi onun hüquqlarına dövlət orqanları tərəfindən qanunsuz müdaxilələrdən qoruyur. O nəinki dövləti bu cür müdaxilələrdən çəkinməyə məcbur edir, həm də əsasən neqativ xarakterli olan bu öhdəlikdən əlavə, bu maddəyə əsasən, dövlətin şəxsi və ya ailə hüququna hörmət öhdəliyindən irəli gələn pozitiv öhdəlikləri də mövcud ola bilər. Bu öhdəliklər hətta fərdlər arasındakı münasibətlər sahəsində fərdin şəxsi həyatına hörməti təmin etmək məqsədi daşıyan tədbirlərin görülməsini özündə ehtiva edə bilər". Beləliklə, "şəxsi həyatın təməl dəyərləri və mühüm aspektləri təhlükə altında olduqda" Avropa Konvensiyasının iştirakçısı olan dövlətlər öz daxili qanunvericiliklərində onların "praktiki və səmərəli müdafiə-

sini" təmin etməlidirlər. Lakin dövlət insan hüquqlarının pozuntularına görə yalnız o halda beynəlxalq məsuliyyət daşıyır ki, pozuntudan zərər çəkdiyini iddia edən şəxsi özünün məhkəmələri və ya inzibati orqanları vasitəsilə adekvat və səmərəli hüquqi müdafiə vasitələri ilə təmin etməmiş olsun. Beynəlxalq hüquqa görə, pozuntudan zərər çəkdiyini iddia edən şəxsin şikayətlərinə məhkəmə və ya kvazi-məhkəmə xarakterli beynəlxalq nəzarət orqanı tərəfindən baxıla bilməsi üçün həmin şəxs bütün ölkədaxili səmərəli hüquqi müdafiə vasitələrini tükəndirməlidir. Bu, əsasən o deməkdir ki, insan hüquqlarının müdafiəsi üçün müxtəlif beynəlxalq mexanizmlərin yaradılması, əslində fərdin hüquqlarının təmin edilməsi üçün ölkədaxili səviyyədə mövcud olan sistemlərə "əlavədir", yəni subsidiardır, belə ki, beynəlxalq mexanizmlər yalnız tərəflər arasındakı mübahisə ölkə daxilində araşdırıldıqdan və bütün ölkədaxili hüquqi müdafiə vasitələri tükəndirildikdən sonra işə düşür.

81. İnsan hüquqlarının tarixi meyara görə təsnifatı – Bax: insan hüquqlarının nəsilləri.

82. İnsan hüquqlarının təsnifatı – Bax: insan hüquqlarının nəsilləri.

83. İnsan hüquqlarının universallığı – insan hüquqları ümumi, universal xarakter daşıyır. Hüquq və azadlıqların ümumiliyini və universallığını bir neçə aspektdə nəzərdən keçirmək lazımdır. Birincisi, bütün insanlar hər hansı ayrı-seçkiliyə yol verilmədən əsas hüquq və azadlıqlara malikdirlər. Beynəlxalq hüquqi aktlar və demokratik dövlətlərin konstitusiyaları irqindən, cinsindən, milliyyətindən, dilindən, mənşəyindən, əmlakından, yaşayış yerindən, dini mənsubiyyətindən və digər əlamətlərindən asılı olmayaraq bütün insanların hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İkincisi, bütün hüquq və azadlıqlar onların məzmununun qəbul edilməsi nöqteyi-nəzərindən universaldır. Yaşamaq hüququ, işgəncəyə məruz qalmamaq hüququ, azadlıq hüququ, ədalətli məhkəmə hüququ, fikir, vicdan və din azadlığı, dinc toplaşmaq azadlığı, ayrı-seçkiliyə məruz qalmamaq hüququ, mülkiyyət hüququ və s. bu kimi ümumtanınmış hüquq və azadlıqlar milli, regional, tarixi, mədəni, dini xüsusiyyətlərdən, siyasi rejimdən, ictimai quruluşdan, dövlət quruluşu və idarəetmə formasından, insanın mənsub olduğu ölkənin beynəlxalq statusundan asılı olmayaraq hər bir kəsə məxsusdur. Üçüncüsü, insan hüquq və azadlıqlarının ümumiliyi onun məkan və ərazi xüsusiyyəti ilə də ifadə olunur. Harada olursa-olsun insan hər yerdə əsas hüquq və azadlıqlara malikdir. İnsan hüquqları və azadlıqları ümumi bir kompleksdən, hüquqlar sistemindən ibarətdir. Vyana Bəyannaməsində və 1993-cü il insan hüquqla-

rı üzrə Ümumdünya Konfransında qəbul edilmiş Fəaliyyət Proqramında birmənalı şəkildə elan edilir ki, bütün insan hüquqları universaldır, bölünməzdir, qarşılıqlı surətdə bir-birindən asılıdır və qarşılıqlı əlaqədədir. İnsan hüquqlarına qlobal hadisə kimi, ədalətlə və ayrı-seçkilik qoyulmadan, eyni prinsiplərlə və diqqətlə yanaşılmalıdır. Milli və regional özünəməxsusluqları, müxtəlif tarixi, mədəni və dini xüsusiyyətləri nəzərə almaq zəruri olsa da, siyasi, iqtisadi və mədəni sistemindən asılı olmayaraq bütün dövlətlər insan hüquqlarını və əsas azadlıqları müdafiə və təşviq etməyə borcludurlar.

84. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya – Bax: Avropa İnsan Hüquqları Konvensiyası.

85. İnsan hüquqlarını səciyyələndirən əsas cəhətlər – Bax: insan hüquqları sahəsində əsas prinsiplər.

86. İnsan hüquqlarını təşviq etmək hüququ – beynəlxalq hüquqi aktlarda nəzərdə tutulmuş insan hüquqlarından biri. BMT Baş Assambleyasının 9 dekabr 1998-ci il tarixli, 53/144 nömrəli qətnaməsi ilə qəbul edilmiş Ayrı-ayrı şəxslərin, qrupların və orqanların ümumtanınmış insan hüquqlarını və əsas azadlıqları təşviq və müdafiə etmək hüququ və öhdəliyi haqqında Bəyannaməyə əsasən, hər kəsin fərdi qaydada və başqaları ilə birgə milli və beynəlxalq səviyyədə insan hüquqlarını və əsas azadlıqları təşviq etmək hüququ vardır.

87. İnsan hüquqları sahəsində beynəlxalq nəzarət orqanları – Bax: İnsan hüquqlarının beynəlxalq müdafiəsi sahəsində BMT-nin müqavilə mexanizmləri.

88. İnsan hüquqları sahəsində dövlətlərin öhdəlikləri – insan hüquqları sahəsində dövlətlər öz üzərlərinə müxtəlif xarakterli beynəlxalq öhdəliklər götürürlər. Beynəlxalq müqavilələrdə və digər beynəlxalq aktlarda nəzərdə tutulmuş mexanizmlərin fəaliyyəti ilə bağlı dövlətlərin həyata keçirməli olduqları öhdəliklər implementasiya öhdəlikləridir. İmplementasiya öhdəliklərinə misal olaraq, dövlətlər tərəfindən BMT-nin müqavilə komitələrinə dövri məruzələrin, İnsan Hüquqları Şurasına universal dövri icmalın təqdim edilməsi, Avropa İnsan Hüquqları Konvensiyasının iştirakçı dövlətləri tərəfindən Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının icra edilməsini göstərmək olar. Bu və ya digər müqavilənin iştirakçısı olmaqla, dövlət öz üzərinə konkret insan hüquqları ilə bağlı öhdəliklərlə yanaşı, həmin müqavilədə təsbit olunmuş bütün hüquqlara aid olan ümumi öhdəliklər də götürür. Ümumi öhdəliklərə misal olaraq, insan hüquqlarına hörmət etmək, insan hüquqlarını təmin etmək, insan

hüquqlarını həyata keçirərkən ayrı-seçkiliyə yol verməmək, qanunvericilik və digər tədbirləri həyata keçirmək və s. göstərmək olar. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 2-ci maddəsinin 1-ci bəndinə əsasən, hər bir iştirakçı dövlət "ərazisində olan və yurisdiksiyasının şamil olunduğu hər kəsin bu Paktda tanınan hüquqlarına hörmət etməyi və onları təmin etməyi öhdəsinə götürür". Paktın 2-ci maddəsini şərh edərkən İnsan Hüquqları Komitəsi "iştirakçı dövlətlərin diqqətini bu fakta" cəlb etməyi zəruri hesab edir ki, "Paktda nəzərdə tutulmuş öhdəlik insan hüquqlarına hörmət etməklə məhdudlaşmır, belə ki, iştirakçı dövlətlər yurisdiksiyaları daxilində olan hər kəsin bu hüquqlardan istifadə etmələrini təmin etmək öhdəliyini də daşıyırlar. Bu amil iştirakçı dövlətlərdən tələb edir ki, fərdlərin öz hüquqlarından istifadə etmələrini təmin etmək üçün konkret addımlar atsınlar". İnsan hüquqlarını təmin etmək öhdəliyi iştirakçı dövlətin pozitiv öhdəliklərini doğurur, yəni iştirakçı dövlət yurisdiksiyası daxilində olan bütün şəxslərin Paktda tanınan hüquq və azadlıqlarını təmin etmək üçün tələb olunan hərəkətləri etməlidir. Bu mühüm və pozitiv hüquqi öhdəlikdən belə nəticə çıxır ki, fərdi hüquq və azadlıqlar pozulduğu hallarda iştirakçı dövlətlərin həmin pozuntuları səmərəli şəkildə araşdırması, cinayət təqibini həyata keçirməsi və təqsirkarları cəzalandırması tələb olunur. Amerika İnsan Hüquqları Konvensiyasının 1-ci maddəsinin müddəalarına əsasən, iştirakçı dövlətlər Konvensiyada tanınan hüquq və azadlıqlara hörmət etməyi və yurisdiksiyaları daxilində olan bütün şəxslərin ayrı-seçkiliyə məruz qalmadan bu hüquq və azadlıqları sərbəst surətdə və tam şəkildə həyata keçirmələrini təmin etməyi öhdələrinə götürürlər. Amerika İnsan Hüquqları Məhkəməsi Velaskes Rodrigesin işində "hüquq və azadlılara hörmət etmək" öhdəliyi ilə əlaqədar olaraq qeyd etmişdir ki, "dövlət hakimiyyətinin həyata keçirilməsinin müəyyən hüdudları var və onlar bu faktla şərtlənir ki, insan hüquqları insan ləyaqətinin ayrılmaz atributudur və buna görə də dövlət hakimiyyətindən üstündür". Bu həm də o deməkdir ki, "insan hüquqlarının müdafiəsi dövlət hakimiyyətinin həyata keçirilməsinin məhdudlaşdırılması konsepsiyasını qaçılmaz olaraq özündə ehtiva edir". Avropa İnsan Hüquqları Konvensiyasının 1-ci maddəsində deyilir ki, "Razılığa gələn Yüksək Tərəflər yurisdiksiyaları daxilində olan hər kəs üçün bu Konvensiyanın I bölməsində müəyyən olunmuş hüquq və azadlıqları təmin edirlər". Avropa İnsan Hüquqları Məhkəməsi "təmin etmək" ifadəsini "avtonom" termin kimi deyil, Konvensiyanın və onun Protokollarının digər maddi hüquq normaları ilə birgə şərh edir. Mahmut Kaya Türkiyəyə qarşı

işi üzrə qərarında Avropa İnsan Hüquqları Konvensiyasının 2-ci maddəsi ilə təmin edilən yaşamaq hüququnu şərh edərkən Məhkəmə bildirmişdir ki, 2-ci maddənin 1-ci bəndinin birinci cümləsi "təkcə dövlətin insanları qəsdən və qanunsuz olaraq həyatdan məhrum etməkdən çəkinməsini deyil, həm də yurisdiksiyası daxilində olan şəxslərin həyatını qorumaq üçün lazımi tədbirlər görməsini tələb edir". Məhkəmə qeyd etmişdir ki, "Bu öhdəlik dövlətin üzərinə fərdləri şəxsiyyət əleyhinə cinayətlər törətməkdən çəkindirən və arxasında həmin normaların pozulması hallarının qarşısının alınmasını, kökünün kəsilməsini və onları pozanların cəzalandırılmasını təmin edən hüquq mühafizə mexanizmləri dayanan səmərəli cinayət qanunvericiliyi normalarını qəbul etməklə yaşamaq hüququnu təmin etməkdən ibarət mühüm vəzifə qoyur. O həmçinin müvafiq hallarda digər fərdin cinayətkar hərəkətləri nəticəsində həyatı təhlükə altında olan fərdin və ya fərdlərin müdafiəsi üçün dövlətin qabaqlayıcı tədbirlər görməkdən ibarət pozitiv öhdəliyini doğurur". Ümumi qayda olaraq qeyd etmək lazımdır ki, insan hüquqlarına "hörmət etmək" və onların həyata keçirilməsini "təmin etmək" öhdəlikləri bu və ya digər müqavilədə birbaşa əks olunmasa belə, istənilən halda dövlətlər müqavilə öhdəliklərini vicdanla yerinə yetirməyə borcludurlar. Beynəlxalq hüququn bu əsas qaydası, eyni zamanda "pacta sunt servanda" kimi tanınır. Beynəlxalq müqavilələr hüququ haqqında Vyana Konvensiyasının 26-cı maddəsində təsbit olunmuş bu qayda, təbii ki, digər beynəlxalq müqavilələrlə yanaşı insan hüquqlarına dair müqavilələrə də şamil olunur. Məsələn, insan hüquqlarının pozuntularının qarşısını almamaqla və ya ciddi şəkildə araşdırmamaqla və zəruri hallarda araşdırmanın ardınca məhkəmə təqibini həyata keçirməməklə dövlət öz müqavilə öhdəliklərini pozmuş olur və beləliklə, müvafiq hüquq pozuntularına görə beynəlxalq məsuliyyət daşıyır. İnsan hüquqları sahəsində dövlətlərin öz üzərlərinə götürdükləri öhdəliklər sırasında "pozitiv" və "neqativ" öhdəliklər də fərqləndirilir. Əgər fərdin hüququnun təmin olunması üçün dövlətdən yalnız müəyyən hərəkətləri etməkdən çəkinmək tələb olunursa, bu, neqativ öhdəlikdir. Pozitiv öhdəliklər isə, əksinə, dövlətdən müəyyən tədbirlərin (qanunvericilik, inzibati və s.) görülməsini tələb edir.

89. İnsan hüquqları sahəsində əsas prinsiplər – insan hüquqları sahəsində əsas prinsiplər bunlardır: insan hüquqları fərd anadan olandan ona məxsusdur və ona görə də təbii, ayrılmaz və toxunulmaz hüquqlardır; insan hüquqları universaldır və bərabərlik prinsipinə əsaslanır; dövlətin yurisdiksiyası altında olan hər bir şəxs üçün həmin hüquqlara təmi-

nat verilir; insan hüquqları ali dəyərdir, onlara hörmət olunması, riayət edilməsi və müdafiəsi dövlətin vəzifəsidir; insan hüquqları hakimiyyət üzərində nəzarət vasitəsidir. Bu hüquqlar dövlətin tam hakimiyyətliliyini məhdudlaşdırır. Dövlət insan hüquqları ilə müəyyən edilmiş azadlıqların sərhədini keçməməlidir; hüquq və azadlıqların həyata keçirilməsi başqalarının hüquq və azadlıqlarını pozmamalıdır; hüquq və azadlıqların təmini hər hansı əlamətə görə ayrı-seçkiliklə bir araya sığmır; əsas hüquq və azadlıqlar dövlətin bütün ərazisində vahid olmalıdır; mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquq və azadlıqlar bərabərdir; bu hüquqların vahid sistemində heç bir iyerarxiya mövcud deyil; kollektiv hüquqlar fərdi hüquqlardan ayrılmazdır; onlar fərdi hüquqlara zidd olmamalı, şəxsiyyətin hüquqi statusunu məhdudlaşdırmamalıdır; insan hüquqları qanunla tənzimlənməlidir; insan hüquq və azadlıqları qanunla, konstitusiya və beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş hallar əsasında məhdudlaşdırıla bilər. Hüquq və azadlıqların müvəqqəti məhdudlaşdırılması bu cür məhdudiyyətin zəruriliyini müəyyən edən vəziyyətə müvafiq və proporsional olmalıdır.

90. İnsan hüquqları sahəsində hüquqi maarifləndirmə – insan hüquqlarına hörmətin möhkəmləndirilməsi məqsədilə müxtəlif təşkilatlar – dövlət strukturları, təhsil müəssisələri, milli insan hüquqları təsisatları, qeyri-hökumət təşkilatları tərəfindən həyata keçirilən geniş informasiya-maarifləndirmə fəaliyyəti. İnsan hüquqları sahəsində hüquqi maarifləndirmənin əsas məqsədi insanların öz hüquq və azadlıqları, həmçinin onların müdafiəsi mexanizmləri haqqında məlumatlandırılması, insan hüquqları hüququ haqqında elementar biliklərin formalaşdırılması, insan hüquqları mədəniyyətinin və insan hüquqları düşüncəsinin inkişafına dəstək verilməsindən ibarətdir. İnsan hüquqları sahəsində hüquqi maarifləndirməyə dair müddəalar İnsan Hüquqları üzrə Ümumdünya Konfransında 25 iyun 1993-cü ildə qəbul edilmiş Vyana Bəyannaməsi və Fəaliyyət Proqramında öz əksini tapmışdır. Bəyannamədə və Fəaliyyət Proqramında vurğulanır ki, insan hüquqları sahəsində maarifləndirmə insan hüquqlarının təşviq edilməsində və insan hüquqlarına hörmət olunmasında mühüm rol oynayır. Həmçinin qeyd edilir ki, insan hüquqları sahəsində maarifləndirmə, o cümlədən ictimaiyyətin insan hüquqları barədə məlumatlandırılması cəmiyyətdə sabit münasibətlərin qurulması, qarşılıqlı anlaşmanın, dözümlülüyün və sülhün möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında insan

hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının dördüncü fəsli bütünlüklə insan hüquqları sahəsində tədris, elmi-analitik və maarifləndirmə tədbirlərinə həsr olunmuşdur. Proqramda BMT-nin Baş Məclisi tərəfindən bəyan edilmiş "İnsan hüquqları sahəsində maarifləndirmə" və "İnsan hüquqları sahəsində təhsil", BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının İnsan hüquqlarının tədrisi üzrə Dünya Proqramına, UNESCO-nun "Davamlı İnkişaf naminə təhsil" onilliklərinə uyğun insan hüquqları üzrə tədris vəsaitlərinin hazırlanması; orta ixtisas və ali təhsil müəssisələrində insan hüquqlarının tədrisinin genişləndirilməsi, ümumtəhsil məktəblərində uşaq hüquqlarının pilləli tədrisinin inkişaf etdirilməsi; məktəblilər və tələbələr üçün insan hüquqlarına dair olimpiadaların, müsabiqələrin, sərgilərin və digər tədbirlərin keçirilməsinin davam etdirilməsi; insan hüquqları ilə bağlı dərs vəsaitlərinin, əyani vəsaitlərin, bukletlərin, plakatların hazırlanması, nəşr edilməsi və əhali arasında yayılması işinin davam etdirilməsi; ali təhsil və elm ocaqlarında insan hüquq və azadlıqları problemlərinə dair elmi-tədqiqat işlərinin təkmilləşdirilməsi; UNESCO-nun "Təhsil hamı üçün" prinsipinin təbliği, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi məqsədilə əhalinin müxtəlif qrupları üçün hüquqi maarifləndirmə sahəsində təlimçilərin hazırlanması; insan hüquqları sahəsində təhsilin səmərəliliyinin artırılması və bu sahədə işin əlaqələndirilməsi məqsədilə ixtisaslaşmış insan hüquqları mərkəzlərinin (insan hüquqları məktəbi, insan hüquqları evi və s.) və ya şəbəkələrinin yaradılması və bununla bağlı digər məsələlər öz əksini tapmışdır.

91. İnsan hüquqları sahəsində xüsusi prosedurlar – insan hüquqlarının xüsusilə ciddi pozuntularının və ayrı-ayrı fərdlərdən və qeyri-hökumət təşkilatlarından daxil olan şikayətlərin araşdırılması üçün Birləşmiş Millətlər Təşkilatı tərəfindən təsis edilmiş xüsusi mexanizmlər. İnsan hüquqları normalarına riayət edilməsinə nəzarət funksiyasını yerinə yetirən bu müqavilədənkənar mexanizmlər fərdi qisimdə fəaliyyət göstərən ekspertlərdən ibarət işçi qrupu, yaxud xüsusi məruzəçi, xüsusi nümayəndə və ya müstəqil ekspert qismində təyin olunan şəxslər formasında təsis edilə bilər. Onların mandatı konkret ölkədə və ya ərazidə insan hüquqları sahəsində vəziyyəti öyrənməkdən, yaxud bütün dünyada insan hüquqlarının pozuntularının konkret növləri ilə bağlı vəziyyəti araşdırmaqdan ibarətdir. Bu mexanizmlər insan hüquqlarına dair universal normalara riayət edilməsinə nəzarət üçün mühüm əhəmiyyət daşıyır və insan hüquqlarının ən ciddi pozuntularının aradan qaldırılmasına xidmət edir. Bütün

xüsusi prosedurların başlıca məqsədi milli səviyyədə insan hüquqlarına dair beynəlxalq normalara riayət edilməsini yaxşılaşdırmaqdan ibarətdir. Bununla belə, hər bir xüsusi prosedurun tətbiq dairəsi onun konkret mandatı ilə müəyyən edilir və bəzən bu mandat şəraitdən və tələbatlardan asılı olaraq dəyişə bilər. Bu mexanizmlərin işi müxtəlif mənbələrdən, o cümlədən pozuntu qurbanlarından və ya onların qohumlarından və yerli və ya beynəlxalq qeyri-hökumət təşkilatlarından alınan insan hüquqlarının pozuntuları barədə məlumatlar əsasında qurulur. Bu xüsusi mexanizmlər insan hüquqlarının pozuntularına aid əsaslandırılmış işləri izahat almaq üçün müvafiq ölkələrin hökumətlərinə təqdim edə bilər. Araşdırmanın nəticələri bu mexanizmlərin İnsan Hüquqları Şurasına və Birləşmiş Millətlər Təşkilatının digər səlahiyyətli orqanlarına sonradan təqdim etdikləri məruzələrdə əks olunur. Bundan başqa, alınmış məlumat insan hüquqlarının ciddi şəkildə pozula biləcəyi təhlükəsindən xəbər verdiyi halda, bu mexanizmlər müvafiq hökumətlərə təcili məlumat göndərərək həmin işə dair izahat istəyə və hüquqlarının pozulduğu iddia edilən şəxsin müdafiəsi üçün hökuməti zəruri addımlar atmağa dəvət edə bilərlər. Onlar həmçinin müvafiq ölkəyə dərhal səfər etmək istədikləri barədə sorğu göndərə bilərlər.

92. **İnsan hüquqları sahəsində təhsil** – insan hüquqlarının elmi-nəzəri cəhətdən öyrənilməsinə və praktiki tətbiqi haqqında biliklərin formalaşmasına yönələn təhsil forması. İnsan hüquqları sahəsində təhsilin əsas məqsədləri bunlardır: insan hüquqları sahəsində müasir hüquqi təlimlərin yayılması; insan hüquqlarının müstəqil tədris fənni kimi bütün ali təhsil müəssisələrində tədris olunması; insan hüquqlarının əsaslarının, o cümlədən uşaq hüquqlarının ümumtəhsil məktəblərində tədris olunması; insan hüquqlarına hörmətə əsaslanan hüquq mədəniyyəti və hüquq düşüncəsinin formalaşdırılması; gənc nəslin insan hüquqlarına hörmət ruhunda tərbiyə olunması. Bu sahədə mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri də insan hüquqlarına dair xüsusi ədəbiyyatın, dərsliklərin, dərs vəsaitlərinin, maarifləndirici tədris materiallarının nəşri, həmçinin insan hüquqlarına dair elmi-tədqiqat işlərinin aparılmasıdır. Ümumilikdə, təhsil insan hüquqlarının inkişafına, insan hüquq və azadlıqlarına hörmətin artırılmasına yönəldilməlidir. Bununla bağlı müddəalar bir sıra beynəlxalq-hüquqi aktlarda öz əksini tapmışdır. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 26-cı maddəsinə əsasən, təhsil insan şəxsiyyətinin tam inkişafına və insan hüquqlarına və əsas azadlıqlara hörmətin artırılmasına yönəldilməlidir. Təhsil bütün xalqlar, irqi və dini qruplar arasında qarşılıqlı anlaş-

maya, dözümlülüyə və dostluğa yardımçı olmalı və Birləşmiş Millətlər Təşkilatının sülhün qorunub saxlanması ilə bağlı fəaliyyətinə köməklik göstərməlidir. İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 13-cü maddəsinə əsasən, təhsil insan şəxsiyyətinin tam inkişafına və ləyaqətinin dərk olunmasına yönəldilməli, insan hüquqlarına və əsas azadlıqlara hörməti möhkəmləndirməlidir. Təhsil hamıya azad cəmiyyətin faydalı iştirakçısı olmaq imkanı verməlidir, bütün millətlər, irqi, dini və etnik qruplar arasında qarşılıqlı anlaşmaya, dözümlülüyə və Birləşmiş Millətlər Təşkilatının sülhü qoruma sahəsində fəaliyyətinə yardım etməlidir. Uşaq hüquqları haqqında Konvensiyanın 29-cu maddəsinə müvafiq olaraq, uşağın təhsili insan hüquqlarına və əsas azadlıqlara, habelə Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində bəyan olunmuş prinsiplərə hörmətin tərbiyə edilməsinə yönəldilməlidir. Bu sahədə mühüm sənədlərdən biri də Avstriyanın paytaxtı Vyanada keçirilmiş İnsan Hüquqları üzrə Ümumdünya Konfransında 25 iyun 1993-cü ildə qəbul edilmiş Vyana Bəyannaməsi və Fəaliyyət Proqramıdır. Bəyannaməyə və Fəaliyyət Proqramına əsasən, dövlətlər təhsil sisteminin insan hüquqlarına və əsas azadlıqlara hörmətin möhkəmləndirilməsinə yönəldilməsini təmin etməlidirlər. Qeyd olunan sənəddə insan hüquqları haqqında məsələnin tədris proqramlarına daxil edilməsinin vacibliyi vurğulanmaqla insan hüquqları, humanitar hüquq, demokratiya və qanunçuluqla bağlı mövzuların bütün təhsil müəssisələrinin tədris proqramlarına daxil edilməsi ilə bağlı dövlətlərə çağırış öz əksini tapmışdır. İnsan hüquqları sahəsində təhsilin sülhün, demokratiyanın, inkişafın və sosial ədalətin təmin edilməsi ilə bağlı məsələləri özündə ehtiva etməsi Bəyannamədə və Fəaliyyət Proqramında xüsusilə vurğulanır. Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının dördüncü fəsli bütünlüklə insan hüquqları sahəsində tədris, elmi-analitik və maarifləndirmə tədbirlərinə həsr olunmuşdur. Proqramda BMT-nin Baş Məclisi tərəfindən bəyan edilmiş "İnsan hüquqları sahəsində maarifləndirmə" və "İnsan hüquqları sahəsində təhsil", BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının İnsan hüquqlarının tədrisi üzrə Dünya Proqramına, UNESCO-nun "Davamlı İnkişaf naminə təhsil" onilliklərinə uyğun insan hüquqları üzrə tədris vəsaitlərinin hazırlanması; orta ixtisas və ali təhsil müəssisələrində insan hüquqlarının tədrisinin genişləndirilməsi, ümumtəhsil məktəblərində uşaq hüquqlarının pilləli tədrisinin inkişaf

etdirilməsi; məktəblilər və tələbələr üçün insan hüquqlarına dair olimpiadaların, müsabiqələrin, sərgilərin və digər tədbirlərin keçirilməsinin davam etdirilməsi; insan hüquqları ilə bağlı dərs vəsaitlərinin, əyani vəsaitlərin, bukletlərin, plakatların hazırlanması, nəşr edilməsi və əhali arasında yayılması işinin davam etdirilməsi; ali təhsil və elm ocaqlarında insan hüquq və azadlıqları problemlərinə dair elmi-tədqiqat işlərinin təkmilləşdirilməsi; UNESCO-nun "Təhsil hamı üçün" prinsipinin təbliği, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi məqsədilə əhalinin müxtəlif qrupları üçün hüquqi maarifləndirmə sahəsində təlimçilərin hazırlanması; insan hüquqları sahəsində təhsilin səmərəliliyinin artırılması və bu sahədə işin əlaqələndirilməsi məqsədilə ixtisaslaşmış insan hüquqları mərkəzlərinin (insan hüquqları məktəbi, insan hüquqları evi və s.) və ya şəbəkələrinin yaradılması və bununla bağlı digər məsələlər öz əksini tapmışdır.

93. İnsan hüquqları sahəsində təhsilə dair Ümumdünya Proqramı – BMT-nin İnsan hüquqları üzrə Ali Komissarlığının və UNESCO-nun təhsilə dair birgə proqramı. BMT Baş Assambleyasının 59/113 nömrəli, 10 dekabr 2004-cü il tarixli "İnsan hüquqları sahəsində təhsilə dair Ümumdünya Proqramı" adlı qətnaməsində insan hüquqları sahəsində təhsilin insan hüquqlarının və əsas azadlıqların həyata keçirilməsində mühüm əhəmiyyət kəsb etdiyi, bərabərliyin təşviqində, konfliktlərin və insan hüquqlarının pozuntusu hallarının qarşısının alınmasında mühüm rol oynadığı vurğulanır. Proqramın I mərhələsi (2005-2009-cu illər) ibtidai və orta məktəblərdə insan hüquqları sahəsində təhsil məsələlərini əhatə edir. II mərhələ (2010-2014-cü illər) ali təhsil müəssisələri sistemində, həmçinin müəllimlərin, dövlət qulluqçularının, hüquq mühafizə orqanları əməkdaşlarının və hərbi heyətin hazırlığı sistemində insan hüquqlarına dair təhsil məsələlərini əhatə edir. Proqramın əlaqələndirilməsi işini BMT-nin İnsan hüquqları üzrə Ali Komissarlığı həyata keçirir. 27 sentyabr 2012-ci ildə BMT-nin İnsan Hüquqları Şurası Proqramın III mərhələsi (2015-2019-cu illər) üçün əsas prioritetlərin müəyyən edilməsi məqsədilə Ali Komissarlıq tərəfindən dövlətlərdən, milli insan hüquqları təsisatlarından və digər müvafiq maraqlı tərəflərdən rəylərini öyrənməsi ilə bağlı qətnamə qəbul etmişdir. Ali Komissar, öz növbəsində bununla bağlı məruzə hazırlamış və Şuranın 24-cü sessiyasına təqdim etmişdir.

94. İnsan hüquqları sahəsində təhsilə görə UNESCO mükafatı – 1978-ci ildə Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 30 illiyi münasibəti ilə təsis edilmiş mükafat. Mükafat konkurs əsasında təhsil müəssisələ-

rinə, təşkilatlara və ya ayrı-ayrı şəxslərə verilir. Mükafata namizəd şəxslər UNESCO-nun üzvü olan dövlətin ərazisində yerləşməlidirlər. Namizədlər bilavasitə insan hüquqlarının tədrisi və təbliği işi ilə məşğul olmalı, insan hüquqları sahəsində tədqiqatlar aparmalıdırlar. Mükafatlandırma haqqında qərar UNESCO-nun baş direktoru tərəfindən qəbul edilir. Mükafat iki ildə bir dəfə təqdim edilir.

95. İnsan hüquqları sahəsində təhsil onilliyinə dair BMT-nin Fəaliyyət Planı – BMT Baş Assambleyasının 49-cu sessiyasında qəbul edilmiş və 1995-2004-cü illəri əhatə edən sənəd. Fəaliyyət planı insan hüquqları sahəsində beynəlxalq sənədlərə, xüsusilə də Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 26-cı maddəsinə, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 13-cü maddəsinə, Uşaq hüquqları haqqında Konvensiyanın 29-cu maddəsinə, Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında Konvensiyanın 10-cu maddəsinə, İrqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında Konvensiyanın 7-ci maddəsinə, Vyana Bəyannaməsi və Fəaliyyət Proqramının 33, 34, 78-82-ci bəndlərinə əsaslanır. Onilliyin məqsədləri bunlardır: tələbatların qiymətləndirilməsi və insan hüquqlarına dair təhsilin gələcək inkişaf strategiyalarının işlənib hazırlanması; beynəlxalq, regional, milli və yerli səviyyələrdə insan hüquqları sahəsində təhsil potensialının gücləndirilməsi; insan hüquqlarına dair tədris materiallarının hazırlanmasının əlaqələndirilməsi; insan hüquqları sahəsində təhsilin təşviqi işində kütləvi informasiya vasitələrinin rolunun və imkanlarının gücləndirilməsi; Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qlobal miqyasda maksimal dərəcədə mümkün olan çox dildə müxtəlif formalarda, xüsusilə də müxtəlif savadlılıq dərəcəsinə malik şəxslər və əlilliyi olan şəxslər üçün əlçatan formada yayılması.

96. İnsan hüquqları sahəsində təhsil və hazırlığa dair Bəyannamə – BMT Baş Assambleyasının 19 dekabr 2011-ci il tarixli, 66/137 nömrəli qətnaməsi ilə qəbul edilmiş sənəd. Bəyannamədə qeyd edilir ki, hər bir insan və cəmiyyətin hər bir orqanı maarifləndirmə və təhsil yolu ilə insan hüquqlarına və əsas azadlıqlara hörmət olunmasına dəstək olmalıdır. Bəyannamədə həmçinin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakta və insan hüquqlarına dair digər beynəlxalq müqavilələrə uyğun olaraq, təhsilin insan hüquqlarına və əsas azadlıqlara hörmətin möhkəmləndirilməsinə yönəldilməsi üzrə dövlətlərin öhdəliyi öz əksini tapmışdır.

97. İnsan hüquqları sistemi – əsas insan hüquqlarının və azadlıqlarının

məcmusu. İnsan hüquqları sistemi dövlətdaxili qanunvericilik aktlarında (ilk növbədə konstitusiyada) və insan hüquqlarına dair fundamental universal və regional beynəlxalq-hüquqi aktlarda (Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt, Avropa İnsan Hüquqları Konvensiyası və digərləri) təsbit olunmuş insan hüquq və azadlıqlarından ibarətdir. İnsan hüquqları sisteminə mülki, siyasi, iqtisadi, sosial, mədəni və bununla bağlı digər insan hüquq və azadlıqları daxildir.

98. İnsan Hüquqları Şurasının şikayətlərə baxılması proseduru – BMT-yə üzv olan dövlətlərdə bütün insan hüquqlarını və əsas azadlıqları əhatə edən yeganə universal mexanizm. İnsan Hüquqları Şurasının şikayətlərə baxılması prosedurunun əsasını Şuranın yaranmasına qədər fəaliyyət göstərmiş İnsan Hüquqları Komissiyasının "1503" proseduru təşkil edir. 18 iyun 2007-ci ildə İnsan Hüquqları Şurası tərəfindən "BMT-nin İnsan Hüquqları Şurası: institusional quruculuq" adlı sənəd qəbul edilmişdir (qətnamə 5/1). Sənədə əsasən, Şura dünyanın istənilən yerində və istənilən vəziyyətdə insan hüquqlarının və əsas azadlıqların sistematik surətdə kobud pozuntusu hallarına dair məlumatlara baxa bilər. Belə məlumatları Şuraya ayrı-ayrı şəxslər, şəxslər qrupları və ya qeyri-hökumət təşkilatları təqdim edə bilərlər. Əvvəlki "1503" proseduru kimi bu prosedur da məxfi xarakter daşıyır. Qəbuledilənlik şərtlərinə cavab verən şikayətlər göstərilən pozuntularla bağlı rəy verilməsi üçün aidiyyəti dövlətə göndərilir. Siyasi xarakterli və BMT-nin Nizamnaməsinə, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə və insan hüquqları sahəsində digər sənədlərə zidd olan, yalnız kütləvi informasiya vasitələrində olan məlumatlara əsaslanan, xüsusi prosedurlar, müqavilə orqanları, yaxud BMT sistemində fəaliyyət göstərən digər prosedurlar və ya regional mexanizmlər tərəfindən baxılan, həmçinin anonim olan və kifayət qədər əsaslandırılmamış şikayətlərə baxılmır. Şikayət BMT-yə üzv olan istənilən dövlətə qarşı verilə bilər. Şuraya müraciət etməzdən əvvəl beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə müvafiq olaraq bütün mümkün dövlətdaxili hüquq müdafiə vasitələri tükəndirilməlidir. Şikayət edən tərəf səmərəsiz dövlətdaxili vasitələri (məsələn, qeyri-müstəqil məhkəmə sistemi) tükəndirməyə borclu deyildir. İnsan hüquqlarının pozuntularına dair məlumatlar İnsan Hüquqları Şurasına BMT-nin rəsmi internet səhifəsində yerləşdirilmiş xüsusi blankda BMT-nin rəsmi dillərindən (çin, ərəb, fransız, ingilis, ispan, rus) birində tərtib olunmalı və bu ünvana göndərilməlidir:

Complaint Procedure Unit, Human Rights Council Branch, Office of the United Nations High Commissioner for Human Rights, United Nations Office at Geneva, CH-1211 Geneva 10, Switzerland.

99. **İnsan hüquqları təbii hüquqlar kimi** – Bax: insan hüquqlarına dair təbii hüquq nəzəriyyəsi.

100. **İnsan hüquqları üzrə Avropa Məhkəməsi** – Bax: Avropa İnsan Hüquqları Məhkəməsi.

101. **İnsan hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi –** Azərbaycan Respublikasının İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyaya qoşulması ilə əlaqədar olaraq və İnsan Hüquqları üzrə Avropa Məhkəməsi qarşısında Azərbaycan Respublikasının mənafelərinin səmərəli müdafiəsini təmin etmək məqsədilə təsis edilmiş vəzifə. İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının Səlahiyyətli nümayəndəsi haqqında Azərbaycan Respublikası Prezidentinin 8 noyabr 2003-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının Səlahiyyətli nümayəndəsi haqqında Əsasnaməyə müvafiq olaraq, səlahiyyətli nümayəndənin təyinatı Azərbaycan Respublikasını İnsan Hüquqları üzrə Avropa Məhkəməsi qarşısında təmsil etməkdən ibarətdir. Azərbaycan Respublikası ilə Avropa Məhkəməsi arasında əlaqələr səlahiyyətli nümayəndə vasitəsilə həyata keçirilir. Səlahiyyətli nümayəndə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilir. Ali hüquq təhsilli, insan hüquqlarının müdafiəsi məsələləri üzrə təcrübəyə malik olan, Avropa Şurasının rəsmi dillərindən birini (ingilis və ya fransız) bilən Azərbaycan Respublikasının vətəndaşı səlahiyyətli nümayəndə təyin edilə bilər. Səlahiyyətli nümayəndə aşağıdakı funksiyaları həyata keçirir: insan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyaya və ona əlavə Protokollara əsasən, Azərbaycan Respublikasına qarşı qaldırılan işlərə, habelə Azərbaycan Respublikasının qaldırdığı işlərə Məhkəmədə baxılması zamanı Azərbaycan Respublikasının mənafelərinin müdafiəsi; Konvensiyadan irəli gələn öhdəliklərə Azərbaycan Respublikası tərəfindən riayət olunmasına dair Avropa Məhkəməsi və Avropa Şurası Nazirlər Komitəsi qərarlarının icrasının təmin edilməsi məqsədilə müvafiq dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi; Konvensiyanın tərəfi olan dövlətlər haqqında Məhkəmənin çıxardığı qərarların hüquqi nəticələrinin öyrənilməsi və Məhkəmənin presedent hüququnu nəzərə alaraq qanunvericiliyin və hüququn tətbiqi təcrübəsinin təkmilləşdirilməsi üçün təkliflə-

rin hazırlanması. Bu funksiyalara uyğun olaraq səlahiyyətli nümayəndə aşağıdakı səlahiyyətləri həyata keçirir: Məhkəmədə Azərbaycan Respublikasına qarşı qaldırılmış işlərdə, habelə digər dövlətlər tərəfindən Konvensiyanın pozulması ilə əlaqədar Azərbaycan Respublikası tərəfindən qaldırılmış işlərdə Azərbaycan Respublikasının nümayəndəsi qismində çıxış edir; Məhkəmədə Azərbaycan Respublikasına qarşı və ya Azərbaycan Respublikası tərəfindən qaldırılmış iddialar, habelə bu iddialarla bağlı işlərin gedişi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verir; səlahiyyətlərinə aid məsələlərin həllinə dair işçi və ekspert qrupları yaradır, mütəxəssisləri, alimləri və ekspertləri bu qrupa cəlb edir. İşçi qrupların tərkibi və fəaliyyət müddəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri tərəfindən müəyyən edilir; Məhkəmədə Azərbaycan Respublikasının tərəf olduğu işlərin səmərəli müdafiəsi üçün yerli və xarici vəkilləri, ekspertləri (o cümlədən müqavilə əsasında) cəlb edə bilər; Məhkəmə qarşısında Azərbaycan Respublikası ilə bağlı baxılan işlərdə mübahisənin barışıq sazişi yolu ilə nizamlanması məqsədilə danışıqlar aparır; Konvensiyanın pozulması ilə əlaqədar Azərbaycan Respublikasının qaldıra biləcəyi iddiaların mümkünlüyünü və məqsədəmüvafiqliyini araşdırır, habelə bu barədə dövlət orqanlarının, hüquqi və fiziki şəxslərin təkliflərinə baxır. Azərbaycan Respublikasının qaldıra biləcəyi iddia ilə bağlı məsələni səlahiyyətli nümayəndə öz təşəbbüsü ilə də qaldıra bilər; Azərbaycan Respublikasının qaldırıla biləcəyi iddianın məqsədəmüvafiqliyi ilə bağlı Azərbaycan Respublikasının xarici işlər, ədliyyə nazirliklərinin və digər əlaqədar dövlət orqanlarının rəylərini ala bilər; Azərbaycan Respublikasına aid işlərə baxılması ilə əlaqədar Məhkəmədən daxil olmuş sorğulara cavab verir, bu işlərlə bağlı Məhkəməyə yazılı qeyd və şərhləri təqdim edir; Məhkəmədə baxılan işin faktiki və hüquqi əsaslarının araşdırılması, Məhkəmənin göndərdiyi sorğulara cavab verilməsi, şərhlərin və qeydlərin hazırlanması, işin Məhkəmə qarşısında səmərəli müdafiə edilməsi üçün müvafiq dövlət orqanlarından lazımi məlumat əldə edir. Bu orqanlar tələb olunan məlumatı səlahiyyətli nümayəndənin göstərdiyi müddətdə təqdim edirlər; Məhkəmədə işlərə baxılması ilə əlaqədar müvafiq dövlət orqanlarından tələb olunan sənədlərin hazırlanmasına kömək göstərir; iddiaçıya pul kompensasiyasının ödənilməsi və ya pozulmuş hüquq və azadlıqların bərpa olunması haqqında Məhkəmə tərəfindən qərar qəbul edildiyi halda, Məhkəmə qərarının tam və vaxtında icra edilməsi məqsədilə aidiyyəti dövlət orqanlarına məlumat verir; Məhkəməyə və Avropa Şurasının Nazirlər Komitəsinə Məhkəmə qərarlarının Azərbaycan Respublikası tərəfindən icra

edilməsi barədə məlumat verir; Məhkəmənin çıxardığı qərarların hüquqi nəticəsini nəzərə alaraq normativ hüquqi aktları Konvensiyanın tələblərinə uyğunlaşdırmaq və onların tətbiqi ilə bağlı Konvensiyanın tələblərinin pozulması hallarının qarşısını almaq üçün təkliflər verir. Səlahiyyətli nümayəndə həmçinin ad hoc əsaslarla Azərbaycan Respublikasını insan hüquqları sahəsində ixtisaslaşmış digər təsisatlar qarşısında təmsil edə bilər.

102. İnsan hüquqları üzrə Komissiya – Bax: Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komissiyası.

103. İnsan hüquqları üzrə Ümumdünya Konfransı – insan hüquqlarına həsr olunmuş ən mühüm beynəlxalq forumlardan biri. Konfrans 14-25 iyun 1993-cü ildə Vyanada (Avstriya) keçirilmişdir. Konfrans, həm də rekord sayda iştirakçı sayı ilə yadda qalmışdır (ümumilikdə 7 min nəfər). Dövlət nümayəndə heyətləri ilə yanaşı, beynəlxalq təşkilatlar, elmi institutlar, milli insan hüquqları təsisatları və 800-dən artıq qeyri-hökumət təşkilatının nümayəndələri konfransın işində iştirak etmişlər. Konfransın ən mühüm nəticəsi 1993-cü il iyunun 25-də 171 dövlətin iştirakı ilə Vyana Bəyannaməsi və Fəaliyyət Proqramının qəbul edilməsi oldu. 100 bənddən ibarət olan bu sənəd insan hüquqları sahəsində ən mühüm sənədlər sırasında yer alır. Konfrans BMT Baş Assambleyasına insan hüquqlarının təşviqi və müdafiəsi məqsədilə insan hüquqları üzrə Ali Komissar vəzifəsinin təsis edilməsini tövsiyə etmişdir. Məhz bu tövsiyədən sonra Baş Assambleya Ali Komissar vəzifəsinin təsis edilməsi ilə bağlı qətnamə qəbul etmişdir.

104. İnsan hüquqları və beynəlxalq humanitar hüquq – XIX əsrdən insan hüquqları dövlətlərin konstitusiyalarında təsbit edilməyə başlandı və indi, demək olar ki, bütün konstitusiyalar bu cür təminatlar nəzərdə tutmuşlar. Hazırda bir çox universal və regional xarakterli beynəlxalq müqavilələrdə insan hüquqları öz təsbitini tapmışdır. İnsan hüquqları haqqında normalar beynəlxalq-hüquqi sənədlərdə rəsmi təsbitini tapandan sonra ilk vaxtlar bu normalarla humanitar hüquq normaları arasında qarşılıqlı əlaqə, onların hər birinin beynəlxalq hüquqda yeri barədə fikir ayrılıqları formalaşdı. İsveçrəli ictimai xadim Jan Pikte (1914-2002) belə hesab edirdi ki, insan hüquqları beynəlxalq humanitar hüququn bir hissəsidir və bu hüquqlar son nəticədə humanitar hüquqa əsaslanmalıdır. Bu iki hüquq sahəsinin tətbiqi və mənşəyinə diqqət yetirən müəlliflərin fikrincə, bu hüquq sahələri ayrı-ayrılıqda fəaliyyət göstərməlidir. Həm də bu mövqe tərəfdarları insan hüquqları hüququnun humanitar hüquqdan üstünlüyünü qəbul edirlər. Beynəlxalq Qızıl Xaç Komitəsinin keçmiş əməkdaşı

Hans-Peter Qasserə görə isə, beynəlxalq humanitar hüquq insan hüquqlarının silahlı münaqişələr zamanı tətbiq olunan xüsusi hissəsidir. Sürix Universitetinin professoru Dietrix Şindler beynəlxalq humanitar hüquq və insan hüquqları arasında qarşılıqlı əlaqələri tədqiq edərək beynəlxalq hüququn bu iki qolu arasında sıx əlaqənin mövcud olmasını təsdiq edir və göstərir ki, beynəlxalq humanitar hüquq və insan hüquqları ayrı-ayrı müqavilələrin predmeti olmalıdır. Bundan başqa beynəlxalq humanitar hüquq müddəaları döyüş aparılmasına dair qaydaları da əhatə etməlidir. Bu cür qaydalar isə insan hüquqları sahəsindən kənardadır və ayrıca baxış predmeti olmalıdır. Daha sonra D.Şindler göstərir ki, beynəlxalq humanitar hüququn məzmunu insan hüquqları haqqında konvensiyaların məzmunu ilə qismən uyğun olsa da, onlara riayət olunması və sanksiya tətbiq edilməsi üzərində nəzarət mexanizminə münasibətdə müxtəliflik vardır. Nəhayət, başqa bir qrup müəlliflər belə hesab edirlər ki, hər iki hüquq sahəsi müstəqildir, lakin onlar arasında qarşılıqlı əlaqə olmaqla bir-birini tamamlayır. BMT-nin 1968-ci ildə Tehranda keçirilmiş insan hüquqları üzrə beynəlxalq konfransda qəbul edilmiş "Silahlı münaqişələr zamanı insan hüquqlarına hörmət etmək haqqında" XXIII qətnamədə insan hüquqları və beynəlxalq humanitar hüququn qarşılıqlı əlaqəsi rəsmi olaraq tanındı. Əlbəttə, bu hüquq sahələrinin bir sıra oxşar və fərqli cəhətləri vardır. Şəxsin müəyyən hüquqlardan istifadə etməsinin onun üzərinə müəyyən vəzifələr qoyulması ilə müşayiət olunan hallar humanitar hüquqda az rast gəlinir. İnsan hüquqları sahəsində bütün insanlar üçün bərabər hüquqlar müəyyən edilmişdir. İnsan hüquqları hüququnun məqsədi ayrı-ayrı fərdlərin şəxsiyyət kimi inkişafı, onların şəxsi, sosial, siyasi və iqtisadi hüquqlarını həyata keçirmək üçün imkanların təmin olunmasıdır. Hüququn bu sahəsi insan şəxsiyyətinin hərtərəfli inkişafına xidmət edir. Humanitar hüquq isə silahlı münaqişələr zamanı insan ləyaqətinin mühafizəsinə xidmət edir. Yəni insan hüquqları fərdin inkişafına yeni perspektivlər açdığı halda, humanitar hüquq fərdin qorunmasına xidmət edir. İnsan hüquqları təsbit edilmiş bəzi beynəlxalq-hüquqi aktlarda, məsələn, Avropa İnsan Hüquqları Konvensiyasının 15-ci maddəsində, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 4-cü maddəsində, İnsan hüquqları üzrə Amerika Konvensiyasının 27-ci maddəsində əhalinin taleyini təhlükədə qoyan və mövcudluğu rəsmi surətdə elan edilən fövqəladə vəziyyət yarandıqda həmin beynəlxalq sənədlərdə nəzərdə tutulmuş insan hüquqlarının müəyyən qədər məhdudlaşdırılmasına yol verilir. Beynəlxalq humanitar hüquqda isə hər hansı hüququn

məhdudlaşdırılmasına yol verilmir. Beynəlxalq humanitar hüquq daha çox mərhəmət, şəfqət ideyalarına əsaslandığı halda, insan hüquqlarında ədalətliliyə daha çox üstünlük verilir. Beynəlxalq humanitar hüquq müharibə qurbanlarının müdafiəsinə, insan hüquqları hüququ isə beynəlxalq normaların pozulmasının qarşısının alınmasına daha çox diqqət yetirir. İnsan hüquqlarında daha ümumi hüquqlar öz təsbitini tapmışdır. Beynəlxalq humanitar hüquq normaları isə daha səciyyəvi xarakter daşıyır. İnsan hüquqları normaları ilə, əsasən dövlət və onun öz vətəndaşları arasındakı münasibətlər nizama salınır. Beynəlxalq humanitar hüquqda isə dövlətlə düşmən dövlətin vətəndaşları arasında münasibətlər nizama salınır. Beynəlxalq humanitar hüquq müstəsna olaraq beynəlxalq hüquq qaydası pozulan zaman tətbiq edildiyi halda, insan hüquqları silahlı münaqişələr zamanı öz qüvvəsində qalsa da, əsasən sülh vaxtı tətbiq olunur. Beynəlxalq humanitar hüquq və insan hüquqları arasında mövcud olan fərqlərə baxmayaraq, onlar ideoloji cəhətdən eyni tarixi və fəlsəfi köklərə malikdir. Hər iki hüquq sahəsi insanı qorumaq üçün yaranmış, hər iki hüquq sahəsi eyni məqsədə və eyni subyektə – insana xidmət edir.

105. İnsan hüquqları və əsas azadlıqlar – insan ali varlıq olduğu üçün ona məxsus olan və insan şəxsiyyətinin ayrılmaz tərkib hissəsini təşkil edən, demokratik-hüquqi dövlətlərin əsas qanunlarında və insan hüquqlarına dair fundamental beynəlxalq hüquqi aktlarda təsbit olunan təbii hüquq və azadlıqların məcmusu. İnsan hüquqlarının və əsas azadlıqların beynəlxalq kataloqu ilk dəfə olaraq BMT Baş Assambleyası tərəfindən 10 dekabr 1948-ci ildə qəbul edilmiş Ümumdünya İnsan Hüquqları Bəyannaməsində müəyyən edilmişdir. Bəyannaməyə əsasən, hər bir şəxs irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, siyasi və digər əqidəsindən, milli və ya sosial mənşəyindən, əmlak, sosial mövqe və digər vəziyyətindən asılı olmayaraq bu Bəyannamədə elan olunmuş bütün hüquq və azadlıqlara malik olmalıdır. Bəyannamədə insan hüquqlarının və əsas azadlıqların siyahısı müəyyən edilir, mülki, siyasi, iqtisadi, sosial, mədəni hüquqlar sadalanır. Bəyannamədə təsbit olunmuş insan hüquqları və əsas azadlıqlar bunlardır: yaşamaq hüququ, azadlıq hüququ, şəxsi toxunulmazlıq hüququ, köləlikdə və ya asılı vəziyyətdə saxlanılmamaq hüququ, köləliyin və kölə ticarətinin qadağan edilməsi, işgəncəyə və ya qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzaya məruz qalmamaq hüququ, hüquq subyektliliyinin tanınması hüququ, qanun qarşısında bərabərlik və heç bir ayrı-seçkiliyə yol verilmədən qanun tərəfindən bərabər müdafiə hüququ, pozulmuş hüquqların səmərəli bərpa

olunması hüququ, özbaşına həbs, saxlanılma və ya sürgünə məruz qalmamaq hüququ, ədalətli və müstəqil məhkəmə araşdırması hüququ, təqsirsizlik prezumpsiyası hüququ, törədildiyi vaxt cinayət sayılmayan əmələ (hərəkət və ya hərəkətsizliyə) görə cəzaya məruz qalmamaq hüququ, törədilmiş cinayət əməlinə görə onun törədildiyi vaxt qüvvədə olmuş qanunda nəzərdə tutulan cəzadan daha ağır cəzaya məruz qalmamaq hüququ, şəxsi və ailə həyatına münasibətdə özbaşına müdaxiləyə məruz qalmamaq hüququ, mənzil toxunulmazlığına, yazışma məxfiliyinə, yaxud şərəf və nüfuza münasibətdə özbaşına qəsdə məruz qalmamaq hüququ, sərbəst hərəkət etmək və istənilən dövlətin ərazisində özünə yaşayış yeri seçmək hüququ, hər bir şəxsin öz ölkəsi də daxil olmaqla istənilən ölkəni tərk etmək və öz ölkəsinə qayıtmaq hüququ, təqibdən digər ölkələrdə sığınacaq axtarmaq və sığınacaqdan istifadə etmək hüququ, vətəndaşlıq hüququ, vətəndaşlıqdan özbaşına məhrum edilməmək hüququ, nikaha daxil olmaq və ailə qurmaq hüququ, ailənin cəmiyyət və dövlət tərəfindən müdafiə olunmaq hüququ, mülkiyyət hüququ, fikir, vicdan və din azadlığı hüququ, əqidə və onu sərbəst ifadə etmək azadlığı hüququ, dinc toplantılar və assosiasiyalar azadlığı hüququ, ölkənin idarə edilməsində iştirak hüququ, öz ölkəsində dövlət qulluğuna bərabər əsaslarla daxil olmaq hüququ, sosial təminat hüququ, əmək hüququ, azad iş yeri seçmək hüququ, ədalətli və əlverişli əmək şəraiti hüququ, işsizlikdən müdafiə hüququ, bərabər əməyə görə bərabər əmək haqqı hüququ, həmkarlar ittifaqları yaratmaq və öz maraqlarını müdafiə etmək üçün onlara daxil olmaq hüququ, istirahət və asudə vaxt hüququ, layiqli həyat səviyyəsi hüququ, təhsil hüququ, cəmiyyətin mədəni həyatında sərbəst iştirak etmək, incəsənətdən zövq almaq, elmi tərəqqidə iştirak etmək və onun nemətlərindən istifadə etmək hüququ, müəllifi olduğu elmi, ədəbi və ya bədii əsərin nəticəsi kimi mənəvi və maddi maraqların müdafiəsi hüququ. İnsan hüquqları və əsas azadlıqlar, həmçinin digər fundamental universal və regional beynəlxalq hüquqi aktlarda da öz əksini tapmışdır. Belə sənədlərin sırasında Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktı, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktı, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanı qeyd etmək olar. Azərbaycan Respublikasının Konstitusiyasında insan hüquqlarının və əsas azadlıqların geniş siyahısı verilmişdir. Konstitusiyanın III fəsli əsas insan və vətəndaş hüquqları və azadlıqlarını ehtiva edir. Konstitusiyanın 24-cü maddəsinə əsasən, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır. Konstitusi-

yada bərabərlik hüququ, hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ, yaşamaq hüququ, azadlıq hüququ, mülkiyyət hüququ, əqli mülkiyyət hüququ, təhlükəsiz yaşamaq hüququ, şəxsi toxunulmazlıq hüququ, mənzil toxunulmazlığı hüququ, nikah hüququ, əmək hüququ, tətil hüququ, istirahət hüququ, sosial təminat hüququ, sağlam ətraf mühitdə yaşamaq hüququ, mədəniyyət hüququ, sağlamlığın qorunması hüququ, təhsil hüququ, mənzil hüququ, milli mənsubiyyət hüququ, ana dilindən istifadə hüququ, şərəf və ləyaqətin müdafiəsi hüququ, fikir və söz azadlığı, vicdan azadlığı, sərbəst toplaşmaq azadlığı, məlumat azadlığı, yaradıcılıq azadlığı, vətəndaşlıq hüququ, cəmiyyətin və dövlətin siyasi həyatında iştirak hüququ, dövlətin idarə olunmasında iştirak etmək hüququ, seçki hüququ, müraciət etmək hüququ, birləşmək hüququ, azad sahibkarlıq hüququ, hər kəsin işinə qərəzsiz yanaşılma və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılma hüququ, hər kəsin inzibati icraat və məhkəmə prosesində dinlənilmək hüququ, hər kəsin dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət etmək hüququ, hüquqi yardım almaq hüququ, hər kəsin onun işinə qanunla müəyyən edilmiş məhkəmədə baxılması hüququ, məhkəmə aidiyyətinin dəyişdirilməsinə yol verilməməsi hüququ, təqsirsizlik prezumpsiyası hüququ, bir cinayətə görə təkrarən məhkum edilməmək hüququ, məhkəməyə təkrar müraciət hüququ, qohumların əleyhinə ifadə verməyə məcbur edilməyə məruz qalmamaq hüququ, özbaşınalıqdan müdafiə və vicdanlı davranış hüququ, zərərin ödənilməsini tələb etmək hüququ, siyasi sığınacaq hüququ öz əksini tapmışdır. Konstitusiyanın 71-ci maddəsinə uyğun olaraq, Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. Azərbaycan Respublikası ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir. Bu isə əsasən o deməkdir ki, Konstitusiyada təsbit edilib-edilməməsindən asılı olmayaraq fundamental beynəlxalq hüquqi aktlarda öz əksini tapmış, yəni ümumtanınmış insan hüquq və azadlıqları Azərbaycan ərazisində qüvvədədir və birbaşa tətbiq edilə bilər. Yəni bu hüquqların milli hüquq tətbiq edən orqanlar, məhkəmələr tərəfindən tətbiq edilə bilməsi üçün onların dövlətdaxili hüquqa gətirilməsi mütləq deyil. Konstitusiya imkan verir ki, fundamental, ümumqəbulolunmuş insan hüquqları pozulduğu halda, hətta pozulmuş hüquq (hüquqlar) milli

qanunvericilikdə öz əksini tapmasa belə, pozuntuya məruz qalan şəxs məhkəmə orqanlarına pozulmuş hüququn bərpası üçün müraciət etsin.

106. İnsan hüquqları və əsas azadlıqları haqqında Müstəqil Dövlətlər Birliyi Konvensiyası – insan hüquqlarının müdafiəsi sahəsində MDB regionu çərçivəsində qəbul edilmiş ən mühüm beynəlxalq hüquqi akt. 1995-ci ildə Minsk şəhərində (Belarus Respublikası) qəbul edilmişdir. Konvensiyanın preambulasında insan hüquqları və əsas azadlıqları üzrə öhdəliklərin effektiv icrası, qanunun aliliyi və azadlıq idealı sahəsində hər bir Razılığa Gələn Tərəfin səylərinin artırılması, sülhün möhkəmləndirilməsi, insan hüquq və əsas azadlıqlarının pozulmasının qarşısının alınması xüsusilə vurğulanır. 39 maddədən ibarət olan bu beynəlxalq hüquqi sənəd özündə bir sira mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquq və azadlıqları birləşdirir. Həmin hüquq və azadlıqlara işgəncə, digər qəddar, qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftar və ya cəzaya məruz qalmamaq hüququ (maddə 3), şəxsi toxunulmazlıq və azadlıq hüququ (maddə 5), məhkəmə qarşısında bərabərlik hüququ (maddə 6), fikir, vicdan və etiqad azadlığı (maddə 10), nikah hüququ (maddə 13), əmək hüququ (maddə 14), sosial təminat hüququ (maddə 16) və s. aiddir. Bütün bunlarla yanaşı, Konvensiyanın 2-ci maddəsi xüsusilə diqqəti çəkən müddəaları özündə təsbit edir. Belə ki, həmin normada ölüm hökmünün tətbiq oluna bilmədiyi şəxslərin dairəsi göstərilmişdir. Onlara hökmün çıxarılması və ya icrası zamanı hamilə olan qadınlar, cinayətin törədilməsinə qədər yaşı 18-ə çatmayan şəxslər aid edilir. Milli azlıqlara mənsub olan şəxslərin öz etnik, dil, mədəni və ya dini xüsusiyyətini fərdi, birgə və maneəsiz şəkildə ifadə etmək, qorumaq və inkişaf etdirmək hüququ Konvensiyanın 2l-ci maddəsində öz əksini tapmışdır. Konvensiyanın 24-cü maddəsi isə birbaşa olaraq vətəndaşlıqla bağlıdır. Hər bir insanın vətəndaşlıq hüququ, kimsənin vətəndaşlıqdan və ya öz vətəndaşlığını dəyişmək hüququndan əsassız olaraq məhrum edilməməsi isə həmin maddənin əsas hissəsini təşkil edir.

107. İnsan hüquqları və ləyaqət – insan hüquqları doktrinası bütövlükdə ali dəyər olan insan ləyaqətinə əsaslanır. Ləyaqət – yaşından, cinsindən, dilindən, dinindən, irqindən, əmlak vəziyyətindən, siyasi mənsubiyyətindən və digər əlamətlərdən asılı olmayaraq hər bir insanın (o cümlədən uşağın, hətta ana bətnində olan uşağın da) toxunulmaz, pozulmaz və ayrılmaz təbii keyfiyyətidir. Ləyaqətindən imtina etmək hüquq və azadlıqlarından imtina etməyə, hüquq və azadlıqlarından imtina etmək isə ləyaqətindən imtina etməyə bərabərdir. İnsan hüquqları doktrinasında ləyaqət konsep-

siyası mərkəzi yerlərdən birini tutur. İnsan hüquqları sahəsində fundamental sənəd olan Ümumdünya İnsan Hüquqları Bəyannaməsində bununla bağlı bir sıra normalar mövcuddur. Bəyannamənin preambulasına əsasən, bəşər ailəsinin bütün üzvlərinə xas olan ləyaqət hissinin və onların bərabər və ayrılmaz hüquqlarının tanınması azadlıq, ədalət və ümumi sülhün əsasıdır. Bəyannamənin 1-ci maddəsinə əsasən isə, bütün insanlar ləyaqət və hüquqlarına görə azad və bərabər doğulurlar. Onların şüurları və vicdanları var və bir-birlərinə münasibətdə qardaşlıq ruhunda davranmalıdırlar. İnsanın hüquq və azadlıqları birbaşa olaraq məhz ləyaqətdən irəli gəlir. İnsanın hüquq və azadlıqlarını qorumaq üçün ilk növbədə onun ləyaqəti dövlət tərəfindən qorunmalıdır. 1975-ci il tarixli Helsinki Yekun Aktında dövlətlərin insan şəxsiyyətinə məxsus ləyaqətdən irəli gələn və insanın azad və hərtərəfli inkişafı üçün əsas olan mülki, siyasi, iqtisadi, sosial, mədəni və digər hüquq və azadlıqların səmərəli həyata keçirilməsini təşviq və inkişaf etdirəcəkləri qeyd edilir. Ləyaqət həmçinin insana dövlət tərəfindən verilən ictimai dəyərdir. Ləyaqətin dövlət tərəfindən qorunması insanın xoşbəxt həyat sürə bilməsi üçün ən vacib şərtlərdən biridir. Ləyaqəti tapdanmış insan xoşbəxtlik hissini itirmiş olur. Ləyaqət konsepsiyasına əsasən, insan ən ali, ən dəyərli, ən dahi varlıqdır. Hələ qədim yunan mütəfəkkiri Sofokl bildirirdi ki, "Yer üzündə ali varlıqlar çoxdur, lakin insandan alisi yoxdur". Alman filosofu Lüdviq Feyerbaxın (1804-1872) fikrincə, ləyaqət – insanın böyüklüyü, onun ən ali dəyəridir. Azərbaycan mütəfəkkirləri ləyaqət konsepsiyasına böyük önəm vermişlər. Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi (1141-1209) təxminən 900 il bundan əvvəl insan ləyaqətinə böyük önəm verərək "Sirlər xəzinəsi"ndə yazırdı:

Sən ey fələklər qədər uca, dəyərli İnsan!
Nazını çəkməkdədir bu yer, bu göy, kəhkəşan.
Heç xəbərin varmı ki, səsin yetişir hara?
Sənin zənn etdiyindən xeyli ucalıqlara!

Dahi Azərbaycan filosofu İmadəddin Nəsimi (1369-1419) təxminən 700 il bundan əvvəl insanı, onun ləyaqətini önə çəkərək yazırdı:

Məndə sığar iki cahan, mən bu cahana sığmazam
Həm sədəfəm, həm inciyəm
Adım Adəmdir, Adəməm mən bu məkanə sığmazam
Zərrə mənəm, günəş mənəm
Şəms mənəm, qəmər mənəm, şəkər mənəm

Ulu Öndər Heydər Əliyev öz fəaliyyətində insan ləyaqətinin toxunul-

mazlığı və ona hörmət olunması konsepsiyasını rəhbər tuturdu. Ulu Öndər deyirdi: "İnsan ləyaqətinə hörmət Azərbaycan xalqının çoxəsrlik ənənələrindən irəli gəlir". Ləyaqət nəinki fəlsəfi-etik, həm də konstitusion-hüquqi kateqoriyadır. XVIII əsrin sonları, XIX əsrin əvvəllərində ləyaqət konstitusion mühafizə obyektinə çevrilməyə başladı. XX əsrdə isə "insan ləyaqəti" kateqoriyası bir çox ölkələrin konstitusiyalarının ayrılmaz elementini təşkil etdi. Almaniya Konstitusiyasının 1-ci maddəsində deyilir: "İnsan ləyaqəti toxunulmazdır. Ona hörmət etmək və onu qorumaq bütün dövlət hakimiyyətinin vəzifəsidir". İsveçrə Konstitusiyasının 7-ci maddəsinə əsasən, insan ləyaqətinə hörmət edilməlidir və o qorunmalıdır. İtaliya Konstitusiyasının 3-cü maddəsinə görə, bütün vətəndaşlar bərabər ictimai ləyaqətə malikdirlər. İspaniya Konstitusiyasının 10-cu maddəsinə müvafiq olaraq, şəxsiyyətin ləyaqəti siyasi nizamın və ictimai sülhün əsasıdır. Yunanıstan Konstitusiyasının 2-ci maddəsinə əsasən, insan ləyaqətinə hörmət etmək və onu qorumaq dövlətin birinci dərəcəli vəzifəsidir. Polşa Konstitusiyasının 30-cu maddəsində göstərilir: "İnsanın anadangəlmə və ayrılmaz ləyaqəti insan və vətəndaş hüquq və azadlıqlarının mənbəyini təşkil edir. O, toxunulmazdır, ona hörmət edilməsi və onun qorunması hakimiyyət orqanlarının vəzifəsidir". "Ləyaqət" kateqoriyasının iki aspektini fərqləndirmək olar: insan ləyaqətinə hörmət insan hüquqları hüququnun ümumtanınmış prinsipi kimi və ləyaqət subyektiv hüquq kimi. Bir sıra müasir demokratik-hüquqi konstitusiyalar "ləyaqət" kateqoriyasının birinci aspektini ehtiva edir. Qeyd etmək lazımdır ki, "ləyaqət" kateqoriyasının hər iki aspekti Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Konstitusiyanın 24-cü maddəsinin I hissəsinə əsasən, insan ləyaqəti qorunur və ona hörmət olunur. Konstitusiyanın 46-cı maddəsinə müvafiq olaraq, hər kəsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır.

108. İnsan hüquq və vəzifələrinə dair Amerika Bəyannaməsi – Bax: Amerika Bəyannaməsi.

109. İnsanın konstitusiya hüquqi statusu – insanın konstitusiya ilə müəyyən olunmuş hüquq və azadlıqlarının, həmçinin əsas vəzifələrinin məcmusu.

110. İnsan istismarı – məcburi əmək, cinsi istismar, köləlik, köləliyə bənzər adətlər və onlardan irəli gələn asılılıq vəziyyəti, insan orqanlarının və toxumalarının qanunsuz çıxarılması, şəxs üzərində qanunsuz biotibbi tədqiqatların aparılması, qadının surroqat ana kimi istifadə edilməsi, qanunsuz, o cümlədən cinayətkar fəaliyyətə cəlb etmə.

111. İnsanlıq əleyhinə cinayətlər – insanların məhv edilməsi, məcburi yoxa

çıxarılması, siyasi, irqi, etnik, mədəni və ya cinsi motivlərə görə təqib edilməsi, işgəncə, qəsdən güclü iztirablara səbəb olma və ya ağır bədən xəsarətləri, yaxud fiziki və ya psixi sağlamlığa mühüm ziyan vurmaqdan ibarət olan digər qeyri-insani hərəkətlər. İlk dəfə olaraq insanlıq əleyhinə cinayətlərin definisiyası Nürnberq Tribunalının Nizamnaməsində verilmişdir. Nizamnaməyə əsasən, istənilən mülki əhaliyə qarşı müharibədən qabaq və ya müharibə dövründə Tribunalın yurisdiksiyasında olan hər hansı bir cinayətlə bağlı törədilən adamöldürmə, kütləvi qırğın, kölə vəziyyətinə salma, deportasiya və digər qeyri-insani aktlar və yaxud siyasi, irqi və ya dini əsasda təqiblər insanlıq əleyhinə cinayətləri təşkil edir. Ümumi beynəlxalq hüquqa əsasən, insanlıq əleyhinə cinayət sistematik və ya geniş miqyasda törədilən, hökumət və ya istənilən təşkilat, yaxud qrup tərəfindən həvəsləndirilən və ya istiqamətləndirilən göstərilən əməllərdən biridir: adamöldürmə, kütləvi qırğın, işgəncə, kölə vəziyyətinə salma, siyasi, irqi, dini və ya etnik motivlər üzrə təqib etmə, əsas insan hüquq və azadlıqlarının pozulmasını əhatə edən və əhalinin bir hissəsinin ciddi sıxışdırılmasına gətirib çıxaran irqi, etnik və ya dini əlamətlər əsasında ayrı-seçkilik, özbaşına deportasiya və ya əhalinin məcburi köçürülməsi, özbaşına həbs etmə, adamların zorakı itirilməsi, fiziki və ya psixi toxunulmazlığa, səhhətə və ya insan ləyaqətinə ciddi zərər yetirən digər qeyri-insani əməllər. Qeyd olunan əməllərin insanlıq əleyhinə cinayət kimi tövsif olunması üçün iki şərt tələb olunur: əməl sistematik və ya geniş miqyasda törədilməlidir; əməl hökumət və ya istənilən təşkilat, yaxud qrup tərəfindən həvəsləndirilməli və ya istiqamətləndirilməlidir. İnsanlıq əleyhinə cinayətlərin müasir definisiyası belə bir şərti nəzərdə tutmur ki, əməl müharibə zamanı və ya sülh əleyhinə cinayətlərlə, yaxud müharibə cinayətləri ilə bağlı törədilməlidir. Müasir beynəlxalq hüquq insanlıq əleyhinə cinayətlərin müstəqil statusunu müəyyən edir. Belə ki, Ruanda Beynəlxalq Tribunalının Nizamnaməsində insanlıq əleyhinə cinayətlərin müharibə zamanı və ya dinc vaxtı törədilə bilməsi qeyd olunur. Müasir beynəlxalq hüquqa əsasən, insanlıq əleyhinə cinayətlər beynəlxalq silahlı münaqişə ilə əlaqə tələb etmir. İnsanlıq əleyhinə cinayətlərə misal olaraq, sovet ordusu tərəfindən 1990-cı ilin yanvarın 20-də Bakıda törədilmiş cinayəti qeyd etmək olar. Bu cinayəti insanlıq əleyhinə cinayət kimi tövsif etsək, nəinki bilavasitə bu cinayəti törətmiş hərbçilərin və onların törədilməsinə əmr vermiş hərbi komandanlıq üzvlərinin, həmçinin də bu cinayətkar planı işləyib hazırlamış və onun həyata keçirilməsinə göstəriş vermiş o vaxtkı SSRİ rəhbərliyinin cinayət məsuliyyətinə cəlb olunması

məsələsi qoyulmalıdır. Fiziki şəxslərin beynəlxalq cinayət məsuliyyəti prinsipi müasir beynəlxalq hüquqda öz əksini tapmışdır. Bu prinsipə müvafiq olaraq, hər hansı beynəlxalq cinayəti törətmiş və yaxud törədilməsində bu və ya digər şəkildə iştirak etmiş şəxs cəmiyyətdə və dövlət aparatında tutduğu mövqedən asılı olmayaraq həmin cinayət əməlinə görə məsuliyyət daşıyır. Bir mühüm məsələni də qeyd etmək lazımdır ki, törədilmə vaxtından asılı olmayaraq belə cinayətləri törətmiş şəxslər məsuliyyətə cəlb edilə bilərlər. Beynəlxalq hüquqa görə, beynəlxalq cinayətlərə onların törədildiyi vaxtdan asılı olmayaraq heç bir iddia müddəti tətbiq olunmur. Bu mühüm prinsipin müqavilə əsası da vardır. Hərbi cinayətlərə və insanlıq əleyhinə cinayətlərə iddia müddətinin tətbiq olunmaması haqqında 1968-ci il Konvensiyasına əsasən, insanlıq əleyhinə cinayətlərə hər hansı bir iddia müddəti tətbiq olunmur. Beynəlxalq Cinayət Məhkəməsinin Statutunun 7-ci maddəsinə görə, aşağıdakı əməllər insanlıq əleyhinə cinayət kimi tövsif edilir: adam öldürmə; əhalini məhv etmə; kölə vəziyyətinə salma; işgəncə; aparteid; deportasiya və ya əhalinin məcburi köçürülməsi; adamların məcburi yoxa çıxarılması; siyasi, irqi, etnik, dini, mədəni və ya cinsi motivlərə görə təqibetmə; beynəlxalq hüququn əsas normalarına zidd olaraq azadlıqdan məhrum etmə; zorlama, fahişəliyə məcbur etmə, məcburi hamiləlik, məcburi sterilizasiya və ya cinsi zorakılığın istənilən digər formaları; qəsdən güclü iztirablara səbəb olma və ya ağır bədən xəsarətləri, yaxud fiziki və ya psixi sağlamlığa mühüm ziyan vurmaqdan ibarət olan digər anoloji qeyri-insani hərəkətlər. Azərbaycan Respublikası Cinayət Məcəlləsinə əsasən, təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və ya aparma; təcavüzkar müharibəni başlamağa açıq çağırışlar; beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə; soyqırım, soyqırım törədilməsinə təhrik etmə; ekosid; əhalini məhv etmə; köləlik; əhalini deportasiya etmə və ya məcburi köçürmə; cinsi zorakılıq; məcburi hamiləlik; təqib; insanları zorakılıqla yoxa çıxarma; irqi ayrı-seçkilik (aparteid); beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə; işgəncə sülh və insanlıq əleyhinə cinayətlər sayılır (100-113-cü maddələr).

112. İnsan meyarı – Bax: ATƏT-in insan meyarı.

113. İnsan ölçüsü – Bax: ATƏT-in insan meyarı.

114. İnsan və xalqların hüquqları haqqında Afrika Xartiyası – Bax: Afrika Xartiyası.

115. İnsan və xalqların hüquqları üzrə Afrika Komissiyası – Bax: Afrika Komissiyası.

116. **İnsan və xalqların hüquqları üzrə Afrika Məhkəməsi** – Bax: Afrika Məhkəməsi.
117. **İnsan və vətəndaş hüquqları Bəyannaməsi –** insan hüquqlarını təsbit edən mühüm əhəmiyyətə malik tarixi sənəd. Bəyannamə Böyük fransız burjua inqilabının sənədi kimi 26 avqust 1789-cu ildə Fransa Milli Məclisi tərəfindən qəbul edilmişdir. Preambula və 17 maddədən ibarət olan Bəyannamənin nəzəri əsasını məşhur fransız filosofu Jan-Jak Russonun (1712-1778) fəlsəfi-hüquqi fikirləri təşkil edir. Bəyannamənin təməlində hüquq bərabərliyi və hər kəsin anadan olandan azadlığa malik olması konsepsiyası dayanır. Bəyannamədə şəxsiyyətin azadlığı, söz azadlığı, əqidə azadlığı, əsarətə müqavimət göstərmək azadlığı təbii hüquqlar elan olunur. Bəyannamədə təsbit olunmuş hüquqları şərti olaraq bir neçə qrupa ayırmaq olar: 1) şəxsi hüquqlar; 2) siyasi hüquqlar; 3) sosial-iqtisadi hüquqlar. Bəyannamədə mülkiyyət hüququ toxunulmaz və müqəddəs elan olunur. Bəyannamədə həmçinin bəzi kollektiv hüquqlar da təsbit olunmuşdur (məsələn, suverenlik hüququ). Bəyannamə insan hüquqlarına dair ən mühüm tarixi sənədlərdən biri olaraq Fransa konstitusiya hüququnun təməlini təşkil edir. 16 iyul 1971-ci ildə Fransa Konstitusiya Şurası Bəyannaməni hüquqi cəhətdən məcburi sənəd kimi tanımışdır. Bəyannamə 2003-cü ildə UNESCO tərəfindən "Dünya xatirəsi" reyestrinə (ing. Memory of the World Register) daxil edilmişdir.
118. **İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi –** Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, insan ləyaqəti qorunur və ona hörmət edilir. Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır. Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir. Hüquqlardan sui-istifadəyə yol verilmir (maddə 24).
119. **İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi –** Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir (maddə 26).
120. **İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı –** Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz. Hər kəsin hüquq və azadlıqları bu Konstitusi-

yada və qanunlarda müəyyən edilmiş əsaslarla, habelə digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşır. Hüquq və azadlıqların məhdudlaşdırılması dövlət tərəfindən gözlənilən nəticəyə mütənasib olmalıdır. Müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə səfərbərlik elan edilərkən insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini nəzərə almaq şərtilə qismən və müvəqqəti məhdudlaşdırıla bilər. Həyata keçirilməsi məhdudlaşdırılan hüquq və azadlıqlar haqqında əhaliyə qabaqcadan məlumat verilir. Heç bir halda heç kəs din, vicdan, fikir və əqidəsini açıqlamağa məcbur edilə bilməz və bunlara görə təqsirləndirilə bilməz. Konstitusiyanın heç bir müddəası insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə yönəldilmiş müddəa kimi təfsir edilə bilməz. Azərbaycan Respublikası ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri məhkəmələr həll edir. Heç kəs törədildiyi zaman hüquq pozuntusu sayılmayan əmələ görə məsuliyyət daşımır. Hüquq pozuntusu törədildikdən sonra yeni qanunla bu cür hərəkətlərə görə məsuliyyət aradan qaldırılmışsa və ya yüngülləşdirilmişsə, yeni qanun tətbiq edilir. Hər kəs qanunla qadağan olunmayan hərəkətləri edə bilər və heç kəs qanunla nəzərdə tutulmayan hərəkətləri etməyə məcbur edilə bilməz. Dövlət orqanları yalnız Konstitusiya əsasında, qanunla müəyyən edilmiş qaydada və hüdudlarda fəaliyyət göstərə bilərlər (maddə 71).

121. İnsan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində polisin fəaliyyəti – Polis haqqında Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli Qanununa müvafiq olaraq, polis öz vəzifələrini yerinə yetirərkən irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, bütün şəxslərin Azərbaycan Respublikasının Konstitusiyasında və tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə nəzərdə tutulmuş hüquqlarını və qanuni mənafelərini hüquqa zidd əməllərdən qoruyur. Polisin hər hansı şəxslə insanın ləyaqətini alçaldan şəkildə rəftar etməsi yolverilməzdir. Cinayət törədən və ya törətməkdə şübhələnilən şəxsləri məlumat verməyə və ya cinayət əməlini törətməkdə təqsirini etiraf etməyə məcbur etmək, bu məqsədlə onları və digər şəxsləri hədələmək, işgəncəyə məruz qoymaq, onlara hər hansı fiziki və ya mənəvi təsir göstərmək qadağandır (maddə 5).

122. İnsan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan

cinayətlər – konstitusiyada təsbit edilmiş mülki, siyasi, iqtisadi, sosial, mədəni hüquq və azadlıqlara qəsd edən cinayətlər qrupu. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, bərabərlik hüququnu pozma, yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrini pozma, şəxsi həyatın toxunulmazlığını pozma, mənzil toxunulmazlığını pozma, hüquqi şəxslərin binalarının (otaqlarının) toxunulmazlığını pozma, seçki (referendumda iştirak) hüquqlarının həyata keçirilməsinə mane olma, seçkilərdə (referendumda) iştirak qaydalarını pozma, seçki (referendum) komissiyalarının işinə müdaxilə etmə və ya təsir göstərmə, seçki (referendumda iştirak) sənədlərini saxtalaşdırma, bilə-bilə səsləri düzgün hesablamama, yaxud səsvermənin gizliliyini pozma, vətəndaşların qanunvericilik təşəbbüsü qaydasında hazırlanan və Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim edilməsi təklif olunan qanun (qərar) layihəsinin dəstəklənməsi üçün imzaların toplanması qaydasının pozulması, əmək mühafizəsi qaydalarını pozma, əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi, jurnalistlərin qanuni peşə fəaliyyətinə mane olma, hamilə qadının və ya himayəsində üç yaşınadək uşağı olan qadının, üç yaşınadək uşağını təkbaşına böyüdən kişinin əmək hüquqlarını pozma, müəlliflik hüquqlarını və ya əlaqəli hüquqları pozma, inteqral sxem topologiyasından istifadəyə müstəsna hüququ pozma, folklor nümunələrindən istifadə tələblərinin pozulması, məlumat toplularından qeyri-qanuni istifadə, ixtiraçılıq və patent hüquqlarını pozma, dini ayinləri icra etməyə mane olma, dinə etiqad etməyə məcbur etmə və ya bu əməllərin dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində törədilməsini maliyyələşdirmə, qanunsuz olaraq dini təyinatlı ədəbiyyatı, audio və video materialları, mal və məmulatları və dini məzmunlu başqa məlumat materiallarını istehsal etmə, idxal etmə, satma və ya yayma, dini ekstremist materialları hazırlama, saxlama, yayma və ya bu əməlləri maliyyələşdirmə, dini ayinlərin icrası adı altında vətəndaşların hüquqlarına qəsd etmə, dini təbliğat, dini ayin və mərasimlərin aparılması tələblərini pozma, toplantıları keçirmə qaydasını pozma, siyasi partiyada üzvlüyə məcbur etmə insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlərdir (154-169-1-ci maddələr).

123. İnternetdə kommunikasiya azadlığı haqqında Bəyannamə – Avropa Şurasının Nazirlər Komitəsi tərəfindən 28 may 2003-cü ildə qəbul edilmiş İnternetin tənzimlənməsinin yeddi prinsipinin əks olunduğu sənəd. Bəyannamədə aşağıdakı prinsiplər təsbit olunmuşdur: internet üçün məz-

mun qaydaları; özünütənzimləmə və birgətənzimləmə; dövlət nəzarətinin olmaması; informasiya cəmiyyətində fərdlərin iştirakına maneələrin aradan qaldırılması; xidmət sahələrinin internetlə təmin olunma azadlığı; provayder xidmətlərinin internet materiallarının məzmunu ilə bağlı məhdud məsuliyyəti; anonimlik.

124. **İnternet hüququ –** hüquq elminin müstəqil bir sahəsi kimi formalaşmaqda olan informasiya hüququnun bir sahəsi; virtual məkan münasibətlərini tənzimləyən hüquq normalarının məcmusu. Bəzi müəlliflərin (məs., prof. A.Tedeyev) fikrincə, internet hüququ formalaşmaqda olan müstəqil hüquq sahəsi olub, predmetini informasiya mühitində həyata keçirilən elektron fəaliyyət prosesində formalaşan ictimai münasibətlər təşkil edir.
125. **İnternet informasiya ehtiyatı** – internet şəbəkəsində yaradılan, informasiyanın yayılması üçün istifadə olunan, müraciət edilməsi üçün domen adına və sahibi tərəfindən müəyyənləşdirilmiş digər işarələnməyə malik olan informasiya ehtiyatı.
126. **İnternet informasiya ehtiyatının sahibi** – internet informasiya ehtiyatından istifadə edilməsi, o cümlədən burada informasiya yerləşdirilməsi qaydalarını sərbəst olaraq müəyyən edən, internet informasiya ehtiyatına sahiblik və istifadə hüquqlarına malik olan şəxs.
127. **İnternet-qanunvericilik –** virtual məkanda münasibətləri tənzimləyən qanunların və digər normativ aktların məcmusu.
128. **İnternet provayder** – internet şəbəkəsinə telekommunikasiya vasitələri ilə qoşulmaq üçün texniki imkanı təmin edən təchizatçı.
129. **İnterpol –** Beynəlxalq Cinayət Polisi Təşkilatının (fr. Organisation Internationale de Police Criminelle – OIPC; ing. International Criminal Police Organization – ICPO) ixtisar edilmiş adı. İnterpol – əsas məqsədi cinayətkarlıqla mübarizə sahəsində milli hüquq mühafizə orqanlarının fəaliyyətini əlaqələndirməkdən ibarət olan beynəlxalq hökumətlərarası təşkilatdır. Sıralarında 190 dövləti birləşdirən İnterpolun hazırda qüvvədə olan Nizamnaməsi 1956-cı ildə qəbul edilmişdir. İnterpolun yaranması XX əsrin əvvəllərinə təsadüf edir. 1914-cü ildə Monako knyazlığında 24 dövlətin hüquq mühafizə orqanlarının nümayəndələrinin və hüquqşünasların iştirakı ilə I Beynəlxalq cinayət polisi konqresi keçirilmiş və konqresdə Beynəlxalq cinayət polisi komissiyasının yaradılması qərara alınmışdır. Lakin I Dünya müharibəsinin başlanması buna imkan verməmişdir. 1923-cü ildə Vyanada II Beynəlxalq cinayət polisi konqresində Vyana şəhərinin polis rəhbəri Johannes Schoberin təşəbbüsü ilə ayrı-ayrı dövlətlərin beynəlxalq cinayətkarlıqla mübarizə sahəsində səylərinin

birləşdirilməsi məqsədilə Beynəlxalq cinayət polisi komissiyası yaradılmışdır. II Dünya müharibəsi illərində Komissiyanın qərargahının Berlinə köçürülməsi və onun işinə "SS" (ixt. alm. Schutzstaffel – mühafizə dəstəsi) generallarının rəhbərlik etməsi ilə əksər dövlətlər Komissiyanın tərkibindən çıxmış və Komissiya faktiki olaraq beynəlxalq təşkilat kimi fəaliyyətini dayandırmışdır. 1946-cı ildə təşkilatın mənzil-qərargahının Parisə köçürülməsi ilə təşkilatın fəaliyyəti bərpa olunmuş və 1956-cı ildə yeni Nizamnaməsi qəbul olunmuşdur. Nizamnamə təşkilatın yeni adını – "Beynəlxalq cinayət polisi təşkilatı – İnterpol" müəyyən etdi. 1989-cu ildə təşkilatın mənzil-qərargahı Parisdən Lion şəhərinə köçürüldü. Təşkilatın ali orqanı ildə bir dəfə çağırılan Baş Assambleyadır. Təşkilatın cari fəaliyyətinə Baş katib rəhbərlik edir. İnterpolun üzv dövlətlərdə milli mərkəzi büroları fəaliyyət göstərir. İnterpolun daimi fəaliyyət göstərən mərkəzi orqanlarının yerləşdiyi yer Fransanın Lion şəhəridir.

130. İnzibati cərimə – Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən təyin edilən və təqsirkar şəxsdən dövlətin xeyrinə məcburi tutulan pul məbləği.

131. İnzibati hüquq – hüququn sahələrindən biri. İnzibati hüquq normaları dövlət idarəçiliyinin həyata keçirilməsi prosesində, insan hüquq və azadlıqlarının təmin edilməsində, ictimai qaydanın qorunmasında, dövlətin adından nəzarət və yoxlama fəaliyyətinin həyata keçirilməsində icra hakimiyyəti orqanlarının təşkili və fəaliyyəti sahəsində ictimai münasibətləri tənzimləyir. İnzibati hüquq normaları dövlətin, onun orqanlarının, vəzifəli şəxslərinin və digər dövlət qulluqçularının, vətəndaşların, hüquqi şəxslərin və digər müəssisə və təşkilatların, ictimai birliklərin iştirak etdiyi münasibətləri tənzimləyir. İnzibati hüquq münasibətlərinin xüsusiyyəti ondan ibarətdir ki, bu hüquq münasibətlərinin bir tərəfi qismində icra hakimiyyəti orqanı çıxış edir.

132. İnzibati xətalar məcəlləsi – Bax: Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi.

133. İnzibati prosessual məcəllə – Bax: Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi.

134. İpoteka – öhdəliyin icrasının təmin edilməsi üsulu olaraq daşınmaz əşyaların və rəsmi reyestrdə üzərində mülkiyyət hüquqları qeydə alınan daşınar əşyaların girovu.

135. İpoteka hüququ – borclu əsas öhdəliyi icra etmədikdə, ipoteka saxlayanın ipoteka predmetinə tutmanın yönəldilməsi hüququ.

136. İrqi ayrı-seçkilik – məqsədi, yaxud nəticəsi siyasi, iqtisadi, sosial, mədəni və ictimai həyatın hər hansı digər sahəsində insanın hüquq və azadlıqlarının bərabər əsasda tanınmasını, istifadə olunmasını, yaxud həyata keçirilməsini ləğv etmək və ya pisləşdirmək olan, irqi, dərinin rəngi, nəsil, milli, yaxud etnik mənşə əlamətlərinə əsaslanan hər hansı fərqləndirmə, istisna, məhdudiyyət, yaxud üstün tutulma. İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyaya əsasən, dövlətlər irqi ayrı-seçkilik hallarının aradan qaldırılması üçün zəruri tədbirlər görməlidirlər. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, irqi ayrı-seçkilik sülh və insanlıq əleyhinə cinayətdir.

137. İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya – BMT Baş Assambleyasının 2106 nömrəli, 21 dekabr 1965-ci il tarixli qətnaməsi ilə qəbul edilmiş beynəlxalq hüquqi akt. Konvensiyaya müvafiq olaraq, bütün insanlar qanun qarşısında bərabərdir və hər cür ayrı-seçkilikdən və ayrı-seçkiliyə təhrikdən qanunla bərabər şəkildə qorunmaq hüququna malikdirlər. Konvensiyada vurğulanır ki, insanlara irqinə, dərisinin rənginə, yaxud etnik mənşə əlamətlərinə görə ayrı-seçkilik qoyulması millətlər arasında dostluq və sülh münasibətlərinə mane olur və xalqlar arasında sülh və təhlükəsizliyin, habelə eyni dövlət daxilində insanların ahəngdar birgə yaşayışının pozulmasına gətirib çıxarır. Konvensiyaya əsasən, iştirakçı dövlətlər irqi ayrı-seçkiliyi pisləyir və təxirə salınmadan bütün mümkün vasitələrlə irqi ayrı-seçkiliyin bütün formalarını ləğv etmək siyasəti yürütməyi və bütün irqlər arasında qarşılıqlı anlaşmaya yardım göstərməyi öhdələrinə götürürlər. Azərbaycan Respublikası 31 may 1996-cı il tarixli Qanunla İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyaya qoşulmuşdur.

138. İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Komitə – BMT-nin insan hüquqları sahəsində fəaliyyət göstərən müqavilə komitələrindən biri. Komitə ilk yaradılan müqavilə qurumu olub İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın əsasında 1970-ildə təsis edilmişdir. Komitə onun işində müstəqil, şəxsi qisimdə iştirak edən, öz dövlətlərini təmsil etməyən, yüksək əxlaqi keyfiyyətlərə malik, 4 il müddətinə seçilən 18 nəfər ekspertdən ibarətdir. Konvensiyanın 9-cu maddəsinə əsasən, iştirakçı-dövlətlər Baş Katibə bu Konvensiyanın müddəalarının implementasiyası ilə bağlı həyata keçirdikləri qanunvericilik, məhkəmə, inzibati və ya digər tədbirlər haqqında hesabat təqdim edirlər. İlkin hesabat Konvensiyanın dövlətə münasibətdə qüvvəyə minməsindən sonra bir il müddətində, daha sonra

isə hər 4 ildən bir təqdim edilməlidir. Komitə həmçinin öz fəaliyyətinə dair Baş Assambleyaya illik hesabatlar təqdim edir. Konvensiyanın 11-ci maddəsinə uyğun olaraq, hər hansı iştirakçı dövlət digər iştirakçı dövlətin bu Konvensiyanın müddəalarına əməl etməməsi qənaətinə gələrsə, Komitəyə müraciət edə bilər. Dövlətlərarası şikayət prosedurunu nəzərdə tutan digər universal beynəlxalq müqavilələrdən fərqli olaraq, Konvensiya bir iştirakçı-dövlətin digərinə qarşı Komitəyə müraciətlə bağlı hər hansı bir xüsusi bəyanatın verilməsi və ya digər əlavə prosedur nəzərdə tutmur. Dövlətlərarası şikayət prosedurundan fərqli olaraq, fərdi şikayət proseduru fakültativ xarakter daşıyır. Belə ki, Konvensiyanın 14-cü maddəsinə əsasən, fərdi şikayət prosedurunun həyata keçirilməsi üçün dövlət Komitənin onun yurisdiksiyası altında olan şəxslərdən və ya şəxslər qrupundan bu Konvensiyanın pozuntusunun qurbanı olduğunu iddia edən məlumat ala bilər. Şikayət yalnız 14-cü maddəyə müvafiq olaraq, Komitənin müvafiq yurisdiksiyasını tanımaq barədə xüsusi bəyanat verən dövlətə qarşı verilə bilər. Komitənin fəaliyyəti subsidiar xarakter daşıyır. Belə ki, 14-cü maddənin 2-ci bəndinə əsasən, Komitənin fərdi şikayətlərə baxmaq səlahiyyətini tanıyan hər bir dövlət öz yurisdiksiyası hüdudlarında Konvensiyada təsbit olunmuş hüquqlarından hər hansının pozulmasının qurbanı olduğunu və mümkün yerli hüquq müdafiə vasitələrinin tükəndiyini iddia edən ayrı-ayrı şəxslərdən, yaxud şəxslər qrupundan şikayət qəbul etmək və baxılmaq üçün səlahiyyətli orqan təsis edə və ya belə bir orqanın milli hüquq sistemi çərçivəsində mövcudluğunu göstərə bilər. Bu Konvensiya üzrə hüququ pozulmuş şəxs 14-cü maddənin 2-ci bəndinə müvafiq olaraq təsis edilmiş, yaxud göstərilmiş orqanın fəaliyyətindən narazı qalarsa, altı ay ərzində həmin məsələ ilə əlaqədar Komitəyə müraciət edə bilər. Şikayətçi yalnız bütün mümkün dövlətdaxili hüquq müdafiə vasitələrini keçdikdən sonra Komitəyə müraciət edə bilər. Əgər bu vasitələrin tətbiqi həddindən artıq yubanırsa, bu halda şikayətçi belə dövlətdaxili vasitələri tükəndirmədən də Komitəyə müraciət edə bilər.

139. İstifadə hüququ – əmlakdan (əşyadan) onun faydalı təbii xassələrini hasil etməyin, habelə ondan fayda götürməyin hüquqi cəhətdən təmin edilmiş imkanı.

140. İstiqlal Bəyannaməsi – insan hüquqları sahəsində əsas tarixi sənədlərdən biri. Azərbaycanın müstəqilliyini rəsmi şəkildə elan edən 1918-ci il mayın 28-də qəbul edilmiş sənəd. 28 may tarixi Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü kimi qeyd edilir. İstiqlal Bəyannaməsinin qəbul olunması ilə Azərbaycan müsəlman şərqində ilk parlamentli

respublika, türk və islam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət oldu. Bəyannamədə vurğulanır ki, müstəqil Azərbaycanın siyasi quruluş forması demokratik respublikadır. Bəyannamə insan hüquqları baxımından əhəmiyyətli sənəd olmaqla insan hüquqlarına dair mühüm müddəaları ehtiva edir. Bəyannamədə qeyd edilir ki, Azərbaycan Xalq Cümhuriyyəti öz hüdudları daxilində milliyyətindən, dinindən, sosial vəziyyətindən və cinsindən asılı olmayaraq bütün vətəndaşlara mülki və siyasi hüquqları təmin edir.

141. İstiqlaliyyət Bəyannaməsi (ing. United States Declaration of Independence) – insan hüquqları sahəsində əsas tarixi sənədlərdən biri. Əsas müəllifi ABŞ-nin üçüncü prezidenti, görkəmli siyasi xadim, diplomat və filosof Tomas Cefferson (1743-1826) olan Bəyannamə 4 iyul 1776-cı ildə qəbul edilmişdir. 4 iyul tarixi Amerika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik Günü kimi qeyd edilir. Bəyannamə insan hüquqları baxımından əhəmiyyətli sənəd olmaqla bir sıra mühüm hüquq və azadlıqları bəyan edir. Bəyannamədə təbii və ayrılmaz hüquqlar kimi bərabərlik, yaşamaq, azadlıq, xoşbəxtliyə can atmaq kimi hüquqların bütün insanlara "Yaradan" tərəfindən verildiyi qeyd edilir. Bəyannamədə həmçinin vurğulanır ki, hökumət insanların təbii hüquqlarını təmin etməyə borcludur.

142. İstirahət hüququ – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 37-ci maddəsinə əsasən, hər kəsin istirahət hüququ vardır. Əmək müqaviləsi ilə işləyənlərə qanunla müəyyən edilmiş, lakin gündə 8 saatdan artıq olmayan iş günü, istirahət və bayram günləri, ildə azı bir dəfə 21 təqvim günündən az olmayan ödənişli məzuniyyət verilməsi təmin edilir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 24-cü maddəsinə əsasən, hər bir insan iş gününün ağlabatan məhdudlaşdırılması və ödənilən vaxtaşırı məzuniyyət hüququ da daxil olmaqla istirahət və asudə vaxt hüququna malikdir. İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 7-ci maddəsinə əsasən, istirahət, asudə vaxt və iş gününün ağlabatan şəkildə məhdudlaşdırılması və ödənilən mütəmadi məzuniyyət, eləcə də bayram günlərinin haqqının ödənilməsi təmin olunmalıdır. Dəyişdirilmiş Avropa Sosial Xartiyasının 2-ci maddəsinə əsasən, Tərəflərin öz üzərlərinə götürdükləri öhdəliklərdən biri də müvafiq ölkə və ya bölgənin adət və ənənəsinə görə istirahət günü kimi tanınmış həftə günü ilə imkan dərəcəsində üst-üstə düşən hər həftə üçün istirahət dövrü ayırmaqdan ibarətdir.

143. İşgəncə – fiziki ağrılar və ya psixi iztirablar vermə ilə ifadə olunan

hüquqazidd əməl. Birləşmiş Millətlər Təşkilatının İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı 10 dekabr 1984-cü il tarixli Konvensiyasına əsasən, bu Konvensiyanın məqsədləri üçün "işgəncə" dedikdə, hər hansı bir şəxsə ondan və ya üçüncü şəxsdən məlumat, yaxud etiraf əldə etmək üçün, onu, özünün, yaxud üçüncü şəxsin törətdiyi, yaxud törədilməsində şübhəli bilindiyi, şübhə doğuran hərəkətə görə cəzalandırmaq üçün, həmçinin onu, yaxud üçüncü şəxsi qorxutmaq və ya məcbur etmək üçün, yaxud hər hansı xarakterli ayrı-seçkiliyə əsaslanan hansısa səbəbə görə dövlətin vəzifəli şəxsi, yaxud rəsmi şəxs kimi çıxış edən başqa bir şəxs tərəfindən, yaxud onların təhriki və ya məlumatlılığı, yaxud göz yumması ilə qəsdən fiziki, yaxud mənəvi cəhətdən güclü ağrı və ya əzab verən hər hansı hərəkət başa düşülür. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, "işgəncə" dedikdə, şəxsin özündən və ya digər şəxsdən məlumat və ya etiraf almaq, yaxud onu və ya digər şəxsi qorxutmaq, özünün və ya digər şəxsin törətdiyi və ya törədilməsində şübhəli bilindiyi əmələ görə cəzalandırmaq, iradəsi əleyhinə hər hansı əməli törətməyə məcbur etmək məqsədilə və ya ayrı-seçkiliyə əsaslanan hər hansı səbəbdən ona güclü fiziki ağrı və ya psixi iztirablar vermə başa düşülür.

144. İşgəncə əleyhinə komitə – BMT-nin insan hüquqları sahəsində fəaliyyət göstərən müqavilə komitələrindən biri. Komitə İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyanın əsasında 1987-ci ildə təsis edilmişdir. 1988-ci ilin aprelində Komitə özünün ilk sessiyasını keçirmişdir. Komitə Konvensiyanın iştirakçı dövlətləri tərəfindən 4 il müddətinə seçilən, yüksək əxlaqi keyfiyyətlərə malik, insan hüquqları sahəsində tanınmış mütəxəssislər olan 10 müstəqil ekspertdən ibarətdir. Konvensiyanın 17-ci maddəsinin 2-ci bəndinə əsasən, iştirakçı dövlətlər Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın əsasında təsis edilmiş İnsan hüquqları komitəsinin üzvü olan və İşgəncə əleyhinə komitədə işləmək arzusunu bildirən şəxslərin namizədliyini irəli sürməyin məqsədəmüvafiq olduğunu nəzərə alırlar. Komitənin əsas səlahiyyəti hər 4 ildən bir iştirakçı dövlətlərin Konvensiya üzrə öz üzərlərinə götürdükləri öhdəliklərin icrası ilə bağlı dövri məruzələrinə, həmçinin fərdi və dövlətlərarası şikayətlərə baxmaqdan ibarətdir. Komitənin daha bir mühüm səlahiyyəti ondan ibarətdir ki, o, hər hansı bir iştirakçı dövlətin ərazisində sistematik surətdə işgəncə tətbiq edildiyinə dair əsaslı məlumat alarsa, ilk olaraq, həmin dövlətlə bu məlumatın araşdırılmasında əməkdaşlıq etməyi təklif edir və zəruri olarsa özünün bir və

ya bir neçə üzvünü məxfi təhqiqat aparmaq və bununla bağlı Komitəyə təcili surətdə məruzə təqdim etmək, həmçinin müvafiq dövlətin razılığı olarsa, onun ərazisində təhqiqat aparmaq üçün təyin edə bilər. Komitə dövlətlərin dövri məruzələri ilə bağlı ümumi xarakterli qeydlər etməklə yanaşı, təhqiqatın nəticələrini özünün qeyd və təklifləri ilə birgə müvafiq dövlətə göndərə bilər. Təhqiqatla bağlı bütün prosedur məxfi xarakter daşıyır. Komitənin fərdi və dövlətlərarası şikayətlərə baxmaqla bağlı yurisdiksiyası fakültativ xarakter daşıyır. Yəni Konvensiyanın iştirakçısı olan dövlət heç də Komitənin fərdi və dövlətlərarası şikayətlərə baxmaqla bağlı səlahiyyətini avtomatik olaraq tanımır. Bunun üçün iştirakçı dövlət tərəfindən xüsusi bəyanat verilməsi tələb olunur. Komitə tərəfindən fərdi və dövlətlərarası şikayətlərə baxılması proseduru, demək olar ki, belə səlahiyyətlərə malik digər müqavilə qurumlarında olduğu kimidir. BMT Baş Assambleyasının 18 dekabr 2002-ci il tarixli, 57/199 nömrəli qətnaməsi ilə qəbul edilmiş Fakültativ Protokol Komitənin səlahiyyətini genişləndirmiş və işgəncə əleyhinə həm beynəlxalq, həm də milli səviyyədə yeni mexanizmlərin yaradılmasını nəzərdə tutmuşdur. Belə ki, Protokol işgəncənin və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə müstəqil beynəlxalq və milli orqanlar tərəfindən müntəzəm başçəkmələr sisteminin yaradılmasını nəzərdə tutur. Protokola əsasən, İşgəncə əleyhinə komitənin tərkibində Protokolda göstərilən funksiyaları yerinə yetirəcək yeni bir qurum – İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Subkomitə yaradılır. Subkomitə öz fəaliyyətini BMT Nizamnaməsi çərçivəsində həyata keçirir və onun məqsəd və prinsiplərini, BMT-nin azadlıqdan məhrum edilmiş şəxslərlə rəftara aid normalarını, həmçinin konfidensiallıq, qərəzsizlik, qeyri-seçicilik, universallıq və obyektivlik prinsiplərini rəhbər tutur. Subkomitə yüksək əxlaqi keyfiyyətlərə malik və ədalət mühakiməsinin həyata keçirilməsi (əsasən də cinayət işləri üzrə) sahəsində, penitensiar sahədə və ya polis sistemində, yaxud da azadlıqdan məhrum edilmiş şəxslərlə rəftara aid digər sahələrdə təcrübəsi olan 4 il müddətinə seçilən 25 müstəqil üzvdən ibarətdir. Protokolun iştirakçı dövlətləri Subkomitənin üzvlərinin onların nəzarəti altında olan azadlıqdan məhrum edilmiş şəxslərin saxlandıqları yerlərə (buraya həmçinin ruhi xəstələrin saxlandığı müəssisələr də daxildir) baş çəkmələrinə lazımi şərait yaratmaq öhdəliyi götürmüşlər. Subkomitənin Protokolda qeyd olunmuş vəzifələrini yerinə yetirə bilməsi üçün iştirakçı

dövlətlər aşağıdakıları öz öhdələrinə götürürlər: Subkomitəni öz ərazisində qəbul etmək və saxlanma yerlərinə baş çəkməyə imkan vermək; işgəncəyə məruz qalmamaq hüququnun müdafiəsinin gücləndirilməsi məqsədilə ehtiyacların və zəruri olan tədbirlərin qiymətləndirilməsi məqsədilə Subkomitə tərəfindən sorğu edilə bilən bütün aidiyyəti məlumatı təqdim etmək; Subkomitənin tövsiyələrini öyrənmək və onların mümkün tətbiqi ilə bağlı dialoq aparmaq. Başçəkmələrin nəticəsi olaraq Subkomitə öz tövsiyə və iradlarını konfidensial qaydada iştirakçı dövlətə göndərir. Özünün fəaliyyəti haqqında illik hesabatı isə İşgəncə əleyhinə komitəyə təqdim edir. Fakültativ Protokolun gətirdiyi daha bir mühüm yenilik milli preventiv mexanizmlərlə bağlıdır. Protokola əsasən, onun müvafiq dövlətə münasibətdə qüvvəyə minməsindən sonra bir ildən gec olmayaraq iştirakçı dövlətlər milli səviyyədə işgəncənin qarşısının alınması məqsədilə müstəqil şəkildə fəaliyyət göstərəcək milli preventiv mexanizmlərin təsis edilməsi öhdəliyini götürürlər. İştirakçı-dövlətlər milli preventiv mexanizmlərə işgəncələrin qarşısının alınması ilə bağlı müvafiq qurumlara tövsiyələr verilməsi, qüvvədə olan qanunvericilik və qanun layihələrinə dair təkliflər verilməsi, azadlıqdan məhrum edilmiş şəxslərin sayı, onların saxlandıqları yerlər, onların rəftar və saxlanma şəraitinə dair istənilən məlumatın alınması, azadlıqdan məhrum edilmiş və ya azadlığı başqa cür məhdudlaşdırılmış şəxslərin saxlandığı və saxlana biləcəyi istənilən yerə sərbəst buraxılış imkanının olması, belə şəxslərlə fərdi söhbət aparmaq imkanının olması, Subkomitə ilə əlaqələr yaratmaq, ona məlumat ötürmək və üzvləri ilə görüşmək hüququnun olmasını təmin etməyi öz öhdələrinə götürürlər. Milli preventiv mexanizm araşdırmaların nəticəsi olaraq müvafiq səlahiyyətli orqanlara tövsiyələr verir və illik məruzələrlə çıxış edir. Subkomitə işgəncələrin qarşısının alınması ilə bağlı tövsiyə və iradları konfidensial qaydada iştirakçı dövlətlə yanaşı, zərurət olduqda milli preventiv mexanizmə də göndərir. Milli preventiv mexanizmin təşkili qaydalarını, milli səviyyədə hansı orqanın bu funksiyanı yerinə yetirəcəyi ilə bağlı məsələni açıq qoyan Fakültativ Protokol bunu iştirakçı – dövlətlərin öz ixtiyarına buraxır. Dövlətlər ya yeni bir təsisat, yaxud artıq mövcud olan hansısa bir qurum daxilində müstəqilliyi təmin olunmaqla bu mexanizmi yarada bilərlər. Təcrübə göstərir ki, milli preventiv mexanizm funksiyalarını bir çox hallarda müstəqil fəaliyyət göstərən insan hüquqları üzrə müvəkkil (ombudsman) təsisatları yerinə yetirir (məsələn, Çexiya, Polşa, Sloveniya, Serbiya, İsveç, Estoniya və Moldovada; Sloveniya və Moldovada isə bu mexanizmə qeyri-hökumət

təşkilatları da cəlb edilmişlər). Fakültativ Protokol Azərbaycan Respublikasının 2 dekabr 2008-ci il tarixli Qanunu ilə təsdiq edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 13 yanvar 2009-cu il tarixli Sərəncamına əsasən Fakültativ Protokolda nəzərdə tutulmuş milli preventiv mexanizm funksiyalarını yerinə yetirən təsisat qismində İnsan hüquqları üzrə müvəkkil (ombudsman) müəyyən edilmişdir.

145. İşgəncə əleyhinə milli preventiv mexanizm – milli səviyyədə işgəncələrin qarşısının alınması üçün fəaliyyət göstərən müstəqil orqan. İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı BMT Konvensiyasının 18 dekabr 2002-ci il tarixli Fakültativ Protokoluna əsasən, bu Protokolun qüvvəyə minməsindən və ya onun ratifikasiyasından, yaxud ona qoşulmasından sonra bir ildən gec olmayaraq hər bir iştirakçı-dövlət milli səviyyədə işgəncələrin qarşısının alınması üçün bir və ya bir neçə müstəqil milli preventiv mexanizmləri dəstəkləyir, təyin və ya təsis edir. İştirakçı dövlətlər milli preventiv mexanizmlərinin funksional müstəqilliyinə, habelə onların işçi heyətinin müstəqilliyinə təminat verir. Milli preventiv mexanizmlərə ən azı aşağıdakı səlahiyyətlər verilir: zərurət olduqda, işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiənin gücləndirilməsi məqsədilə Protokolun 4-cü maddəsində müəyyən olunmuş saxlanma yerlərində azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla bağlı məsələyə müntəzəm olaraq baxılması; Birləşmiş Millətlər Təşkilatının müvafiq normaları nəzərə alınmaqla azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə müvafiq qurumlara tövsiyələrin təqdim edilməsi, işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması; qüvvədə olan qanunvericilik və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi. Milli preventiv mexanizmlərin öz mandatını yerinə yetirə bilməsi məqsədilə Protokolun iştirakçı-dövlətləri onlara aşağıdakıları təqdim etməyi öhdələrinə götürürlər: Protokolun 4-cü maddəsində müəyyən olunmuş həbsdə saxlanma yerlərində olan azadlıqdan məhrum edilmiş şəxslərin sayı, həmçinin belə yerlərin sayı və yerləşdiyi yer haqqında istənilən məlumatı əldə etmək imkanı; belə şəxslərlə rəftar, habelə onların həbsdə saxlanma şəraiti haqqında istənilən məlumatı əldə etmək imkanı; bütün həbsdə saxlanma yerlərinə, onların binalarına və obyektlərinə buraxılış; azadlıqdan məhrum edilmiş şəxslərlə şahidsiz, şəxsən və ya zərurət olduqda tərcüməçi vasitəsilə, habelə milli preventiv mexanizmin fikrinə görə, aidiyyəti məlumatı verə

biləcək istənilən digər şəxslə fərdi söhbətlər aparmaq imkanı; baş çəkmək niyyətində olduqları yerləri və söhbət etmək niyyətində olduqları şəxsləri maneəsiz seçmək hüququ; Subkomitə ilə əlaqələr qurmaq, ona məlumat ötürmək və onunla görüşmək hüququ. Milli preventiv mexanizm tərəfindən toplanmış konfidensial məlumat açıqlanmır. Şəxsi xarakter daşıyan məlumatlar yalnız müvafiq şəxsin birbaşa ifadə edilən razılığı olduğu təqdirdə dərc edilir. Fakültativ Protokol Azərbaycan Respublikasının 2 dekabr 2008-ci il tarixli Qanunu ilə təsdiq edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 13 yanvar 2009-cu il tarixli Sərəncamına əsasən Fakültativ Protokolda nəzərdə tutulmuş milli preventiv mexanizm funksiyalarını yerinə yetirən təsisat qismində İnsan hüquqları üzrə müvəkkil (ombudsman) müəyyən edilmişdir. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında 28 dekabr 2001-ci il tarixli Konstitusiya Qanununa əsasən, Müvəkkil "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarını həyata keçirir. İşgəncənin və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısını almaq məqsədilə o, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə müntəzəm surətdə və ya zəruri saydığı istənilən halda baş çəkir. İnsan hüquqlarının pozulmasına dair şikayətdə əks etdirilmiş halların araşdırılması və milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi zamanı Müvəkkilin aşağıdakı hüquqları vardır: istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən dövlət orqanlarına, bələdiyyələrə və digər qurumlara, hərbi hissələrə, polis orqanlarına, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə daxil olmaq; saxlanılan şəxslərlə, habelə müvafiq məlumatı verə biləcək istənilən digər şəxslə təkbətək və ya zəruri saydığı halda mütəxəssisin və ya tərcüməçinin iştirakı ilə görüşmək və söhbət etmək; saxlanılan və ya əvvəllər saxlanılmış şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, eləcə də həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan bütün sənədlərlə tanış olmaq və surətlərini almaq; akt tərtib etmək, həyata keçirdiyi tədbirlərin gedişini və nəticələrini protokollaşdırmaq; texniki vasitələrdən istifadə etməklə foto, audio və video qeydiyyatını aparmaq; səlahiyyətli dövlət orqanlarına müvafiq tövsiyələr verməklə və həmin tövsiyələrə müəyyən edilmiş müddətdə cavablar almaq; dövlət orqanlarından, bələdiyyələrdən və digər qurumlardan, onların vəzifəli şəxslərindən zəruri məlumat, sənəd və materialları 10 iş

günü müddətində almaq; cinayət, mülki və inzibati işlərə dair qanuni qüvvəyə minmiş qərarlarla, həmçinin cinayət işlərinin başlanmasının rədd edilməsi barədə materiallarla tanış olmaq; şikayətin araşdırılması zamanı vəzifəli şəxslərdən yazılı arayışlar almaq; şikayətdə əks etdirilmiş halların yoxlanılması üçün müvafiq orqanlara tapşırıq vermək (yoxlama, qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) şikayət edilən dövlət orqanına, bələdiyyəyə və digər quruma və ya vəzifəli şəxsə tapşırıla bilməz); müvafiq dövlət orqanları və təşkilatlarına ekspert rəyinin hazırlanmasını tapşırmaq; dövlət orqanlarının, bələdiyyələrin və digər qurumların rəhbərləri və digər vəzifəli şəxsləri, hərbi hissələrin komandirləri, polis orqanlarının, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərin rəhbərliyi tərəfindən təxirə salınmadan qəbul edilmək; şikayət üzrə yerində araşdırma aparmaq və nəticələrini sənədləşdirmək; bu Konstitusiya Qanununun II fəsli ilə müəyyən edilmiş qaydada şikayətlərə baxılması, milli preventiv mexanizmin və müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi zamanı hüquq pozuntularının qarşısının alınması və aşkar edilmiş pozuntuların aradan qaldırılması məqsədilə dövlət orqanlarının, bələdiyyələrin və digər qurumların nümayəndələrini dəvət etməklə tədbirlər görmək. Bu Konstitusiya Qanununun 1.2-ci maddəsində nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi məqsədilə Müvəkkilin aparatında Milli preventiv qrup yaradılır. Yaşı 25-dən aşağı olmayan, ali təhsilli, insan hüquqlarının müdafiəsi sahəsində təcrübəyə və yüksək əxlaqi keyfiyyətlərə malik olan şəxslər Milli preventiv qrupun üzvü təyin olunurlar. Milli preventiv qrupun üzvləri Müvəkkil tərəfindən 3 il müddətinə şəffaf prosedurlar əsasında təyin olunurlar. İkili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır və xüsusilə ağır cinayətlərə görə məhkum olunmuş şəxs Milli preventiv qrupun üzvü təyin oluna bilməz. Milli preventiv qrup aşağıdakı hüquqlara malikdir: istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən polis orqanlarına, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə daxil olmaq, saxlanılan şəxslərlə, habelə müvafiq məlumatı verə biləcək istənilən digər şəxslə təkbətək və ya mütəxəssisin və ya tərcüməçinin iştirakı ilə görüşmək və söhbət etmək, saxlanılan və ya əvvəllər saxlanılmış şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, eləcə də həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan bütün sənədlərlə tanış olmaq və surətlərini almaq, akt tərtib etmək, həyata keçirdiyi tədbirlərin gedişini və nəticələrini proto-

kollaşdırmaq, texniki vasitələrdən istifadə etməklə foto, audio və video qeydiyyatını aparmaq; polis orqanlarının, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərin rəhbərliyi tərəfindən təxirə salınmadan qəbul edilmək; milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi zamanı hüquq pozuntularının qarşısının alınması və aşkar edilmiş pozuntuların aradan qaldırılması məqsədilə dövlət orqanlarının, bələdiyyələrin və digər qurumların nümayəndələrini dəvət etməklə tədbirlər görmək. Milli preventiv qrupun üzvü öz funksiyalarını həyata keçirməsi ilə əlaqədar ona məlum olmuş faktlar barəsində ifadə verməyə və ya hər hansı digər üsulla bu faktları açıqlamağa məcbur edilə bilməz. Bu təminat Milli preventiv qrupun üzvü qrupun tərkibindən çıxdıqdan sonra da qüvvədə qalır. Milli preventiv qrupun üzvü saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə öz funksiyalarını həyata keçirərkən tutula və ya saxlanıla bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz. Milli preventiv qrupun üzvünün poçt, teleqraf və digər göndərişlərinin, habelə elektron yazışmalarının üzərinə həbs qoyulmasına, onların yoxlanılmasına və ya götürülməsinə yol verilmir.

146. **İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiya –** BMT Baş Assambleyasının 39/46 nömrəli, 10 dekabr 1984-cü il tarixli qətnaməsi ilə qəbul edilmiş beynəlxalq-hüquqi akt. Konvensiyada işgəncənin anlayışı verilmişdir. Konvensiyada qeyd edilir ki, bu Konvensiyanın məqsədləri üçün "işgəncə" dedikdə, hər hansı bir şəxsə, ondan və ya üçüncü şəxsdən məlumat, yaxud etiraf əldə etmək üçün, onu, özünün, yaxud üçüncü şəxsin törətdiyi, yaxud törədilməsində şübhəli bilindiyi, şübhə doğuran hərəkətə görə cəzalandırmaq üçün, həmçinin onu, yaxud üçüncü şəxsi qorxutmaq və ya məcbur etmək üçün, yaxud hər hansı xarakterli ayrı-seçkiliyə əsaslanan hansısa səbəbə görə dövlətin vəzifəli şəxsi, yaxud rəsmi şəxs kimi çıxış edən başqa bir şəxs tərəfindən, yaxud onların təhriki və ya məlumatlılığı, yaxud göz yumması ilə qəsdən fiziki, yaxud mənəvi cəhətdən güclü ağrı və ya əzab verən hər hansı hərəkət başa düşülür. Yalnız qanuni sanksiyalar nəticəsində baş verən, bu sanksiyaların ayrılmaz tərkib hissəsi olan, yaxud onların təsadüfən doğurduğu ağrı və ya əzablar bu anlayışa daxil deyil. Konvensiyaya müvafiq olaraq, hər bir iştirakçı dövlət öz yurisdiksiyasında olan hər hansı ərazidə işgəncə hərəkətlərinin qarşısını almaq üçün təsirli qanunvericilik, inzibati, məhkəmə tədbirləri, yaxud digər tədbirlər görür. Heç bir müstəsna hal: müharibə vəziyyəti və ya təhlükəsi, daxili siyasi qeyri-sabitlik, yaxud hər hansı digər fövqəladə şərait

işgəncəyə haqq qazandıra bilməz. Vəzifəcə yüksək rəisin, yaxud dövlət hakimiyyəti orqanının əmri işgəncə verilməsinə haqq qazandıra bilməz. Azərbaycan Respublikası 31 may 1996-cı il tarixli qanunla İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyaya qoşulmuşdur.

147. **İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında Avropa Konvensiyası –** Avropa Şurası tərəfindən 26 noyabr 1987-ci ildə qəbul edilmiş beynəlxalq hüquqi akt. Konvensiya, əsas etibarilə İşgəncənin və qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsinin təşkili və fəaliyyəti ilə bağlı müddəaları özündə ehtiva edir. İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında Avropa Konvensiyası və onun 1 və 2 saylı Protokolları Azərbaycan Respublikasının 25 dekabr 2001-ci il tarixli Qanunu ilə təsdiq edilmişdir.

148. **İşgəncənin və qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsi –** İşgəncənin və qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftar və ya cəzanın qarşısının alınmasına dair 1987-ci il Avropa Konvensiyasının əsasında yaradılmış beynəlxalq nəzarət mexanizmi. Komitə azadlıqdan məhrum edilmiş şəxslərlə necə rəftar edildiyini dəyərləndirmək məqsədilə müntəzəm şəkildə azadlıqdan məhrumetmə yerlərinə səfərlər təşkil edir. Bu kimi yerlərə polis bölmələri, müvəqqəti saxlama yerləri, istintaq təcridxanaları, cəzaçəkmə müəssisələri, psixiatriya müəssisələri, qanunsuz miqrantların saxlanılması mərkəzləri və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlər daxildir. Komitənin üzvləri bu müəssisələrə məhdudiyyətsiz daxil olmaq və belə yerlərdə hər hansı məhdudiyyət olmadan hərəkət etmək hüququna malikdirlər. Onlar azadlıqdan məhrum edilmiş və ya azadlığı başqa cür məhdudlaşdırılmış şəxslərlə təkbətək söhbət apara və məlumat təqdim edə biləcək hər kəslə sərbəst ünsiyyət qura bilərlər. Hər bir səfərdən sonra Komitə müvafiq dövlətə müfəssəl hesabat göndərir. Bu hesabata Komitənin əldə etdiyi məlumatlar, onun tövsiyələri, şərhləri və sorğuları daxil olur. Səfərlər, adətən Komitənin bir neçə üzvündən ibarət olan, Komitə Katibliyi işçilərinin və lazım gəldikdə əlavə ekspertlərin və tərcüməçilərin də müşayiət etdikləri nümayəndə heyətləri tərəfindən həyata keçirilir. Komitənin üzvləri səfərləri dövri əsasda (adətən dörd ildə bir dəfə) həyata keçirirlər, lakin zəruri olduqda əlavə xüsusi (ad hoc) səfərlər də təşkil olunur. Bir qayda olaraq, başçək-

mələr Komitənin ən azı iki üzvü tərəfindən həyata keçirilir. Komitənin üzvləri hüquqşünaslar, həkimlər və penitensiar və ya polis mütəxəssisləri daxil olmaqla müxtəlif sahələri təmsil edən müstəqil və qərəzsiz ekspertlərdir. Avropa Şurası Nazirlər Komitəsi tərəfindən hər bir iştirakçı dövlətdən 4 il müddətinə (bir dəfə təkrar seçilə bilmək hüququ ilə) bir üzv seçilir. Üzvlər seçildikləri dövləti təmsil etmirlər, Komitənin işində fərdi qisimdə fəaliyyət göstərirlər. Müstəqilliyin təminatı nöqteyi-nəzərindən, üzvlər seçildikləri dövlətə səfər etmirlər. Komitə səfər edəcəyi dövlətin Hökumətini başçəkməni həyata keçirmək niyyətində olduğu barədə xəbərdar edir. Belə xəbərdarlıqdan sonra o, istənilən vaxtda başçəkməni həyata keçirə bilər. Müvafiq dövlət Komitəni öz vəzifələrini icra etmək üçün aşağıdakılarla təmin edir: öz ərazisinə daxil olmaq və məhdudiyyətsiz hərəkət etmək hüququ; azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlər barədə tam məlumat; daxildə məhdudiyyətsiz hərəkət etmək hüququ daxil olmaqla, azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı hər hansı bir yerə məhdudiyyətsiz daxil olmaq; Komitəyə öz vəzifələrini icra etmək üçün zəruri olan digər məlumat. Başçəkmə ilə əlaqədar Komitə tərəfindən əldə edilən məlumat, onun məruzəsi və onun Tərəflə məsləhətləşmələri məxfi xarakter daşıyır. Komitə üzvləri, ekspertlər və Komitəyə köməklik göstərən digər şəxslər istər fəaliyyət dövründə, istər bundan sonrakı dövrdə onlara vəzifələrinin icrası ilə əlaqədar məlum olan faktlar və məlumatları məxfi saxlamağa borcludurlar.

149. İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Subkomitə – İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı BMT Konvensiyasının 18 dekabr 2002-ci il tarixli Fakültativ Protokoluna əsasən yaradılmış orqan. Protokola əsasən, İşgəncə əleyhinə komitənin tərkibində Protokolda göstərilən funksiyaları yerinə yetirəcək yeni bir qurum – İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Subkomitə yaradılır. Subkomitə öz fəaliyyətini BMT Nizamnaməsi çərçivəsində həyata keçirir və onun məqsəd və prinsiplərini, BMT-nin azadlıqdan məhrum edilmiş şəxslərlə rəftara aid normalarını, həmçinin konfidensiallıq, qərəzsizlik, qeyri-seçicilik, universallıq və obyektivlik prinsiplərini rəhbər tutur. Subkomitə yüksək əxlaqi keyfiyyətlərə malik və ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində (əsasən də cinayət işləri üzrə), penitensiar sahədə və ya polis sistemində, yaxud da azadlıqdan məhrum edilmiş şəxslərlə rəftara aid digər sahələrdə təcrübəsi olan 4 il müddətinə seçilən

25 müstəqil üzvdən ibarətdir. Subkomitənin üzvləri öz funksiyalarını şəxsi qisimdə həyata keçirir, onlar müstəqil və qərəzsiz olmalı və Subkomitənin tərkibində səmərəli işləməyə imkanları olmalıdır. Subkomitənin tərkibinə eyni dövlətin birdən çox vətəndaşı daxil ola bilməz. Protokolun iştirakçı dövlətləri Subkomitənin üzvlərinin onların nəzarəti altında olan azadlıqdan məhrum edilmiş şəxslərin saxlandıqları yerlərə (buraya həmçinin ruhi xəstələrin saxlandığı müəssisələr də daxildir) başçəkmələrinə lazımi şərait yaratmaq öhdəliyi götürmüşlər. Subkomitənin Protokolda qeyd olunmuş vəzifələrini yerinə yetirə bilməsi üçün iştirakçı dövlətlər aşağıdakıları öz öhdələrinə götürürlər: Subkomitəni öz ərazisində qəbul etmək və saxlanma yerlərinə baş çəkməyə imkan vermək; işgəncəyə məruz qalmamaq hüququnun müdafiəsinin gücləndirilməsi məqsədilə ehtiyacların və zəruri olan tədbirlərin qiymətləndirilməsi məqsədilə Subkomitə tərəfindən sorğu edilə bilən bütün aidiyyəti məlumatı təqdim etmək; Subkomitənin tövsiyələrini öyrənmək və onların mümkün tətbiqi ilə bağlı dialoq aparmaq. Başçəkmələrin nəticəsi olaraq Subkomitə öz tövsiyə və iradlarını konfidensial qaydada iştirakçı dövlətə göndərir. Subkomitə fəaliyyəti haqqında illik hesabatı İşgəncə əleyhinə komitəyə təqdim edir.

150. **İşgəncəyə məruz qalmamaq hüququ** – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, hər kəsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır. Şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur. Heç bir hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz. Heç kəsə işgəncə və əzab verilə bilməz. Heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz. Özünün könüllü razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməz. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə müvafiq olaraq, heç kim işgəncələrə və yaxud ağır, qeyri-insani və ya onun ləyaqətini alçaldan rəftara və cəzaya məruz qalmamalıdır. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakta əsasən, heç kim işgəncələrə və ya ağır, qeyri-insani və ya onun ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır. Əsasən də heç bir şəxs özünün sərbəst razılığı olmadan tibbi və ya elmi təcrübələrə məruz qalmamalıdır. Avropa İnsan Hüquqları Konvensiyasına əsasən, heç kəs işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır (maddə 3). İşgəncəyə məruz qalmamaq hüququ mütləq hüquqlar kateqoriyasına aiddir, yəni dövlət heç bir halda bu hüququn təmin edilməsindən geri çəkilə bilməz və bu hüquq hər hansı bir formada

məhdudiyyətlərə məruz qala bilməz.

151. İT-İP cütlüyü – İnformasiya Texnologiyaları və Əqli Mülkiyyət birləşməsini ifadə edir.

K

1. **Kanonik hüquq –** kilsənin ali orqanları tərəfindən müəyyən edilən və kilsə kanonlarında təsbit olunan normaların məcmusu. Kanonik hüquq xristian kilsəsinin yaranması ilə formalaşmışdır. 1572-ci ildə kanonik hüquq külliyyatı (Corpus iuris canonici) tərtib edilmişdir. 1917-ci ildə, daha sonra isə 1983-cü ildə kanonik hüququ məcəlləsi qəbul edilmişdir.
2. **Karser** (lat. carcer – zindan) **–** cəzaçəkmə müəssisələrində və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərdə rejim qaydalarını pozan şəxslərin müvəqqəti olaraq saxlandığı təcrid olunmuş xüsusi birnəfərlik kamera.
3. **Kassasiya** (lat. cassatio – ləğv edilmə) **–** məhkəmə qərarlarından və hökmlərindən, qətnamə və qərardadlarından yuxarı məhkəmə orqanına şikayət edilməsi.
4. **Kassasiya instansiyası –** işə kassasiya şikayəti üzrə baxan məhkəmə instansiyası. Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli Qanununa əsasən, məhkəmələrdə işlərə birinci instansiya, apellyasiya və kassasiya instansiyaları üzrə baxılır (maddə 4).
5. **Kassasiya məhkəməsi –** işlərə kassasiya instansiyası qismində baxan ali məhkəmə orqanı. Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli Qanununa əsasən, Ali Məhkəmə kassasiya instansiyası məhkəməsi kimi qanunla müəyyən edilmiş prosessual qaydada ədalət mühakiməsini həyata keçirir (maddə 77).
6. **Kassasiya şikayəti –** məhkəmə qərarlarından və hökmlərindən, qətnamə və qərardadlarından yuxarı məhkəmə orqanına verilən şikayət. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin "Kassasiya şikayəti vermə hüququ" adlanan 402-ci maddəsinə əsasən, mülki işlər üzrə qəbul edilmiş qətnamənin mübahisələndirilən hissəsində iddianın qiyməti beş min manatdan, kommersiya mübahisələrinə dair işlər üzrə isə müvafiq olaraq on min manatdan az olan əmlak xarakterli iddialar üzrə qətnamələr istisna olmaqla, apellyasiya məhkəmələrinin mülki və kommersiya kollegiyalarının və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki və kommersiya kollegiyalarının qətnamələrindən kassasiya şikayəti verilə bilər. Apellyasiya məhkəmələrinin mülki və kommersiya kollegiyalarının və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki və kommersiya kollegiyalarının aşağıdakı qərardadlarından kassasiya şikayəti verilə bilər: apellyasiyanın qeyri-mümkün hesab edilməsi haqqın-

da; kassasiya şikayətinin qaytarılması (kassasiya şikayəti kassasiya instansiyası məhkəməsinin şikayətin qeyri-mümkünlüyü barədə qərarına əsasən qaytarıldığı hallar istisna olunmaqla) haqqında; kassasiya şikayətinin verilməsi müddətinin bərpasından imtina edilməsi barədə; iş üzrə icraata xitam verilməsi barədə; bu Məcəllənin 384.0.4-cü maddəsində nəzərdə tutulmuş işin aidiyyəti üzrə göndərilməsinə dair və bu Məcəllənin 384.0.6-cı maddəsində nəzərdə tutulmuş apellyasiya şikayətinin bu Məcəllənin tələblərinə zidd olaraq icraata qəbul olunması əsası ilə icraata qəbul qərardadının ləğv edilərək işin apellyasiya baxışından çıxarılmaqla birinci instansiyası məhkəməsinə qaytarılması haqqında. Birinci instansiya məhkəmələrinin məhkəmə aidiyyəti haqqında qərardadlarından və həmin qərardadlardan verilən şikayətin qaytarılması haqqında qərardaddan kassasiya şikayəti verilə bilər. Apellyasiya instansiyası məhkəməsinin aktlarından kassasiya şikayəti aşağıdakı müddətlərdə verilə bilər: qətnamə işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi gündən 2 ay müddətində; qərardad işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi gündən 10 gün müddətində (maddə 405).

7. **Kazus** (lat. casus – hadisə) **–** hadisə; hüquq məsuliyyəti doğurmayan təsadüfi hərəkət.
8. **Kibercinayət –** informasiya texnologiyaları sahəsində törədilən cinayət. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, kompyuter sisteminə qanunsuz daxil olma, kompyuter məlumatlarını qanunsuz ələ keçirmə, kompyuter sisteminə və ya kompyuter məlumatlarına qanunsuz müdaxilə, kibercinayətlərin törədilməsi üçün hazırlanmış vasitələrin dövriyyəsi, kompyuter məlumatlarının saxtalaşdırılması kibercinayətlərdir (271-273-2-ci maddələr).
9. **Kibercinayətkarlıq haqqında Budapeşt Konvensiyası –** kibercinayətlərə qarşı mübarizə sahəsində 23 noyabr 2001-ci ildə qəbul edilmiş beynəlxalq-hüquqi sənəd. Budapeşt Konvensiyasında kibercinayətlər 4 qrupa bölünür: kompyuter verilənləri və sistemlərinin məxfiliyi, tamlığı və istifadə imkanlarına qarşı cinayətlər – qanunsuz daxil olma, qanunsuz ələ keçirmə, verilənlərə müdaxilə, sistemlərə müdaxilə, qurğulardan qanunsuz istifadə; kompyuter vasitələrindən istifadə ilə bağlı cinayətlər – kompyuter texnologiyalarından istifadə etməklə saxtalaşdırma, kompyuter texnologiyalarından istifadə etməklə dələduzluq; məlumatların məzmunu ilə bağlı cinayətlər – uşaq pornoqrafiyası ilə bağlı cinayətlər; müəllif hüquqlarının və əlaqəli hüquqların pozulması ilə bağlı cinayətlər.
10. **Kiberhücum** – informasiya sistemlərinin və ya ehtiyatlarının informasi-

ya təhlükəsizliyinə təhdid yaradan, yaxud onların fəaliyyətinin pozulmasına və ya dayanmasına səbəb olan kiberməkan vasitəsilə qəsdən törədilən əməl.

11. **Kiberinsident** – informasiya sistemlərinin, avtomatlaşdırılmış idarəetmə sistemlərinin və informasiya-kommunikasiya şəbəkələrinin fəaliyyətinin dayanması və ya pozulması, yaxud həmin obyektlərdə informasiya təhlükəsizliyinin pozulmasına səbəb olan hadisə.
12. **Kiberməkan** – müəyyən mənada kompyuter şəbəkələrinin "daxili aləmi". "Kiber" – "kibernetika" sözündən yaranmışdır. "Kibernetika" termini qədim yunan dilində "kibernetes" sözündən götürülmüş, "idarə edən", "idarəçilik sənəti" mənasını verir. "Kiberməkan" anlayışı ilk dəfə 1982-ci ildə kanadalı yazıçı Uilyam Gibson tərəfindən "Yanan xrom" (Burning Chrome), az sonra isə 1984-cü ildə "Neuromancer" əsərlərində istifadə edilmişdir.
13. **Kibertəhdid** – informasiya sistemlərinə və ya ehtiyatlarına qanunsuz daxilolma, müdaxilə, habelə digər formalarda informasiya təhlükəsizliyinin pozulmasına səbəb ola bilən amil və ya vəziyyət.
14. **Kilsə hüququ –** Bax: kanonik hüquq.
15. **Klauzula** (lat. clausula – yekun) **–** beynəlxalq müqavilənin müxtəlif xüsusi şərtlərini bildirən müddəa.
16. **Klerikal dövlət** (lat. clericalis – ruhanilik) **–** hər hansı dinin rəsmi səviyyədə tanındığı dövlət; dini dövlət. Müasir dövrdə klerikal dövlətlərə misal olaraq, Birləşmiş Ərəb Əmirlikləri, İordaniya, İran, bəzi Latın Amerikası ölkələrini və s. göstərmək olar.
17. **Kollektiv hüquqlar –** insan hüquqlarının tarixi meyara görə təsnifatına əsasən üçüncü nəsil insan hüquqları. Kollektiv hüquqların xüsusiyyəti ondan ibarətdir ki, onlar ayrı-ayrı fərdlərə deyil, bütövlükdə topluma, kollektivə, xalqa məxsusdur. Fərdi və kollektiv hüquqlar arasında qarşılıqlı əlaqə mövcuddur və bu əlaqə "kollektiv hüquqların həyata keçirilməsi fərdin hüquq və azadlıqlarının pozulmasına gətirib çıxarmamalıdır" prinsipinə əsaslanır. Kollektiv hüquqlar təbii hüquqlar deyil, çünki bu və ya digər cəmiyyət, yaxud kollektivin maraqlarına görə formalaşır. Kollektiv hüquqlar bu və ya digər cəmiyyət, yaxud kollektivə daxil olan ayrı-ayrı fərdlərin hüquqlarının məcmusu kimi nəzərdən keçirilə bilməz. Kollektiv hüquqlara, əsas etibarilə inkişaf hüququ, sülh hüququ, sağlam ətraf mühit hüququ, təhlükəsizlik hüququ, informasiya mübadiləsi hüququ və bu kimi digər hüquqlar aid edilir. 1986-cı ildə BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş "İnkişafa olan hüquq" haqqında Bəyannamənin

preambulasında inkişafın bütün əhalinin və bütün şəxslərin inkişafda və onun gedişində yaradılan nemətlərin ədalətli bölgüsündə fəal, azad və konstruktiv iştirakı əsasında onların rifahının durmadan yüksəldilməsinə yönəldilmiş hərtərəfli iqtisadi, sosial, mədəni və siyasi proses olduğu göstərilir. Bəyannamədə vurğulanır ki, inkişaf hüququ insanın ayrılmaz hüququdur və buna müvafiq olaraq hər bir insan və bütün xalqlar insanın bütün hüquqlarını və əsas azalıqları tam həyata keçirə biləcək iqtisadi, sosial, mədəni və siyasi inkişafda iştirak etmək və onun nemətlərindən istifadə etmək hüququna malikdir. Bəyannamənin tələbinə görə, insan inkişaf prosesinin əsas subyektidir və inkişaf hüququnun fəal iştirakçısı və benefisiarı olmalıdır. Dövlətlər inkişaf hüququnun həyata keçirilməsi üçün milli səviyyədə lazım olan bütün tədbirləri görməli və məsələn, ehtiyatlara yol tapmağa, təhsilə, səhiyyəyə, qidalanmaya, mənzilə, məşğulluğa və gəlirlərin ədalətli bölgüsünə aid məsələlərdə hamı üçün inkişafın bərabərliyini təmin etməlidirlər. Bəyannamənin 10-cu maddəsində birbaşa göstərilir ki, milli və beynəlxalq səviyyələrdə siyasi tədbirlərin, qanunvericilik tədbirlərinin və digər tədbirlərin işlənib hazırlanması, qəbul edilməsi və həyata keçirilməsi daxil olmaqla inkişaf hüququnun tam həyata keçirilməsini və durmadan möhkəmləndirilməsini təmin etmək üçün bütün tədbirlər görülməlidir. İnsan Hüquqları üzrə Ümumdünya Konfransında qəbul edilmiş 25 iyun 1993-cü il tarixli Vyana Bəyannaməsi və Fəaliyyət Proqramında göstərilir ki, İnsan Hüquqları üzrə Ümumdünya Konfransı "İnkişaf hüququ haqqında" Bəyannamədə müəyyən edilən inkişaf hüququnu əsas insan hüquqlarının ayrılmaz tərkib hissəsinə daxil olan universal və ayrılmaz hüquq kimi təsdiq edir. Sülh hüququ ilə əlaqədar ilkin əsas BMT-nin Nizamnaməsində qoyulmuşdur. Belə ki, Nizamnamənin 1-ci maddəsində BMT-nin məqsədləri kimi beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq və bu məqsədlə sülhə təhlükənin qarşısını almaq və aradan qaldırmaq üçün və təcavüz aktlarını və digər sülhün pozulması hallarını önləmək üçün səmərəli kollektiv tədbirlər görmək və sülhün pozulmasına gətirib çıxara bilən beynəlxalq mübahisə və situasiyaların dinc vasitələrlə, ədalət və beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq nizamlanmasına və həll olunmasına müvəffəq olmaq müəyyən edilmişdir. Bu isə bilavasitə sülh hüququnun formalaşmasına və sonrakı inkişafına əhəmiyyətli təsir etmişdir. 12 noyabr 1984-cü ildə BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş Xalqların sülh hüququ haqqında Bəyannamədə xüsusi olaraq göstərilir ki, xalqlar üçün sülh həyatının təmin edilməsi hər bir dövlətin müqəddəs vəzifəsidir. Eyni zamanda Bəyan-

namənin 1-ci bəndində qeyd edilir ki, planetin bütün xalqları müqəddəs sülh hüququna malikdirlər. 2-ci bənddə isə belə hüququn təmin edilməsi dövlətin əsas vəzifələrindən biri kimi müəyyən edilir. Bunun üçün milli və beynəlxalq səviyyədə tədbirlərin görülməsi zəruriliyi isə Bəyannamənin 4-cü bəndinin tələbidir.

18. **Kollizion hüquq** – xarici elementli mülki-hüquqi münasibətləri tənzimləyən kollizion normaların məcmusu.
19. **Kollizion norma** – xarici elementli mülki-hüquqi münasibətlərə hansı dövlətin hüququnun tətbiq edilməsi ilə bağlı məsələləri tənzimləyən norma.
20. **Kolliziya** (lat. collisio – toqquşma) – eyni ictimai münasibətləri tənzimləyən hüquq normalarının bir-birinə zidd olması.
21. **Kombatant** (fr. combattant – vuruşan şəxs) – silahlı qüvvələrin tərkibinə daxil olan və döyüş əməliyyatlarında iştirak edən şəxs.
22. **Kommersiya sirri** – hüquqi və fiziki şəxslərin istehsal, texnoloji, idarəetmə, maliyyə və başqa fəaliyyəti ilə bağlı, sahibinin razılığı olmadan açıqlanması, onların qanuni maraqlarına ziyan vura bilən məlumatlar. Kommersiya sirri haqqında 4 dekabr 2001-ci il tarixli Azərbaycan Respublikası Qanununa müvafiq olaraq, məlumatın kommersiya sirrinə aid edilməsinin meyarlarına daxildir: kommersiya dəyərinə malik olması (başqa şəxslərə məlum olmadığına görə fəaliyyət sahəsində üstünlük qazanmaq və mənfəət əldə etmək baxımından əhəmiyyətlidir, digər şəxslərə bütövlükdə, yaxud hissələrlə satıla, bağışlanıla, müqavilə əsasında, yaxud varislik qaydasında verilə bilər və s.); məlumatın məxfiliyinin qorunması məqsədilə sahibi tərəfindən hüquqi, təşkilati, texniki və digər tədbirlərin həyata keçirilməsi; bu məlumatların sərbəst əldə olunmasının qanuni əsaslarla məhdudlaşdırılması (maddə 3). Kommersiya sirrinin hüquqi rejimi dedikdə, onun məzmununa daxil olan məlumatların dairəsi, məlumatın kommersiya sirri hesab olunmasının meyarları, kommersiya sirrinin subyektləri və onların hüquqi statusu, habelə bu sirrin yayılmasına görə qanunvericiliklə müəyyən olunmuş məsuliyyət formaları başa düşülür.
23. **Konfidensial informasiya** – İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının 30 sentyabr 2005-ci il tarixli Qanununun 34-cü maddəsinə müvafiq olaraq, vətəndaşların, mülkiyyət növündən asılı olmayaraq yaradılmış idarə, müəssisə və təşkilatların, digər hüquqi şəxslərin qanuni maraqlarının qorunması məqsədilə əldə olunmasına məhdudiyyət qoyulan peşə (həkim, vəkil, notariat), kommersiya, istintaq və məhkəmə sirləri.

24. **Konstitusionalizm** (lat. constitutio – quruluş) – insan hüquqlarına hörmətə və hüquqi dövlətin prinsiplərinə əsaslanan konstitusion quruluş. Hüquq ədəbiyyatında konstitusionalizm konstitusiya haqqında təlim kimi də nəzərdən keçirilir. Konstitusionalizm konsepsiyasına müvafiq olaraq, konstitusiyanın qəbul edilməsinin əsas məqsədi dövlət hakimiyyətinin həyata keçirilməsinin hədlərini müəyyən etmək, onu müəyyən hüquqi çərçivəyə salmaq, onun həyata keçirilməsində özbaşınalığın qarşısını almaq və insan hüquqlarını və əsas azadlıqları bəyan etməkdir. Konstitusionalizm termini elmi ədəbiyyata XVIII əsrin sonu XIX əsrin əvvəllərində gətirilmişdir. Konstitusionalizm termini ilk növbədə konstitusiyanın üstünlüyünü, aliliyini ehtiva edir. Konstitusionalizm hüquqi sistemdə, cəmiyyətin və dövlətin siyasi həyatında konstitusiyanın yerini və rolunu bildirən siyasi-hüquqi kateqoriyadır. Konstitusionalizmin məzmunu konstitusion quruculuq, konstitusion müddəaların təmin edilməsi, qorunması və həyata keçirilməsindən ibarətdir. Hər hansı bir dövlətdə konstitusiyanın mövcudluğu konstitusionalizmin bərqərar olması anlamına gəlmir. Konstitusionalizmin mövcudluğu konstitusiyanın demokratiya, insan hüquqlarına və əsas azadlıqlara hörmət, humanizm, sosial ədalət prinsiplərinə uyğun olmasından asılıdır. Bu mənada konstitusiyanın özünün də hüquqiliyi məsələsi aktual olaraq qalır.

25. **Konstitusion hüquqlar və azadlıqlar** – konstitusiyada təsbit olunmuş mülki, siyasi, iqtisadi, sosial, mədəni hüquqların və azadlıqların məcmusu. Azərbaycan Respublikası Konstitusiyasının III fəsli əsas insan və vətəndaş hüquqları və azadlıqlarını ehtiva edir. Konstitusiyanın 24-cü maddəsinə əsasən, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır. Konstitusiyada bərabərlik hüququ, hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ, yaşamaq hüququ, azadlıq hüququ, mülkiyyət hüququ, əqli mülkiyyət hüququ, təhlükəsiz yaşamaq hüququ, şəxsi toxunulmazlıq hüququ, mənzil toxunulmazlığı hüququ, nikah hüququ, əmək hüququ, tətil hüququ, istirahət hüququ, sosial təminat hüququ, sağlam ətraf mühitdə yaşamaq hüququ, mədəniyyət hüququ, sağlamlığın qorunması hüququ, təhsil hüququ, mənzil hüququ, milli mənsubiyyət hüququ, ana dilindən istifadə hüququ, şərəf və ləyaqətin müdafiəsi hüququ, fikir və söz azadlığı, vicdan azadlığı, sərbəst toplaşmaq azadlığı, məlumat azadlığı, yaradıcılıq azadlığı, vətəndaşlıq hüququ, cəmiyyətin və dövlətin siyasi həyatında iştirak hüququ, dövlətin idarə olunmasında iştirak etmək hüququ, seçki hüququ, müraciət

etmək hüququ, birləşmək hüququ, azad sahibkarlıq hüququ, hər kəsin işinə qərəzsiz yanaşılma və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılma hüququ, hər kəsin inzibati icraat və məhkəmə prosesində dinlənilmək hüququ, hər kəsin dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət etmək hüququ, hüquqi yardım almaq hüququ, hər kəsin onun işinə qanunla müəyyən edilmiş məhkəmədə baxılması hüququ, məhkəmə aidiyyətinin dəyişdirilməsinə yol verilməməsi hüququ, təqsirsizlik prezumpsiyası hüququ, bir cinayətə görə təkrarən məhkum edilməmək hüququ, məhkəməyə təkrar müraciət hüququ, qohumların əleyhinə ifadə verməyə məcbur edilməyə məruz qalmamaq hüququ, özbaşınalıqdan müdafiə və vicdanlı davranış hüququ, zərərin ödənilməsini tələb etmək hüququ, siyasi sığınacaq hüququ öz əksini tapmışdır. Konstitusiyanın 71- ci maddəsinə uyğun olaraq, Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. Azərbaycan Respublikası ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir.

26. **Konstitusion islahat** – konstitusiyaya yenidən baxılması və onun yeni redaksiyada qəbul edilməsi; konstitusiyaya əlavə və dəyişikliklərin edilməsi.
27. **Konstitusion məsuliyyət** – konstitusiyanın mühafizəsi məqsədlərinə xidmət edən hüquqi məsuliyyətin növlərindən biri. Konstitusion məsuliyyətin yaranma səbəbi konstitusiyanın pozulmasıdır. Bu növ məsuliyyətin subyektləri qismində dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxslər, hüquqi və fiziki şəxslər çıxış edir.
28. **Konstitusion təminatlar –** insan hüquqlarının və əsas azadlıqların, konstitusion prinsiplərin və konstitusion quruluşun əsaslarının müdafiəsini təmin edən konstitusion norma və institutlar. Konstitusion təminatlar insan və vətəndaşların konstitusion hüquq və azadlıqlarının həyata keçirilməsi və müdafiəsini təmin edən dövlət mexanizmlərinin və hüquqi institutların və prosedurların məcmusu kimi çıxış edir.
29. **Konstitusiya** (lat. constitutio – quruluş) – dövlətin hüquq sisteminin əsasını təşkil edən ali hüquqi qüvvəyə malik xüsusi normativ hüquqi akt. Konstitusiya dövlət idarəetmə orqanlarının təşkilinin əsasları və funksiyalarını və bu orqanların fəaliyyətini müəyyənləşdirən prinsiplərin formalaşdığı xüsusi hüquqi əhəmiyyətə malik sənəddir. Konstitusiya döv-

lət hakimiyyətinin həyata keçirilməsinin hədlərini müəyyənləşdirən və dövlət quruluşunun, hüquq sisteminin prinsiplərini müəyyən edən əsas qanundur. İlk yazılı konstitusiya 1787-ci ildə ABŞ-də, Avropa məkanında isə 1791-ci ildə Fransada və Polşada qəbul edilmişdir. Digər normativ aktlardan fərqli olaraq konstitusiya dövlətin və cəmiyyətin əsas qanunudur. Bu, əsasən onunla bağlıdır ki, konstitusion normalar dövlət hakimiyyətinin həyata keçirilməsi ilə bağlı olan mühüm ictimai münasibətləri tənzimləyir. Konstitusiyanı həmçinin əhali ilə dövlət arasında bağlanmış müqavilə kimi də xarakterizə etmək olar. Məhz buna görədir ki, konstitusiyalar, bir qayda olaraq, ümumxalq səsverməsi qaydasında qəbul edilir. Konstitusiyalar yazılı və qeyri-yazılı olur. Yazılı konstitusiyalar da öz növbəsində, vahid normativ akt formasında, yaxud bir neçə aktın toplusu (məsələn, İsveçrə və Finlandiya konstitusiyaları) formasında olur. Qeyri-yazılı konstitusiyalara misal olaraq isə, Böyük Britaniya və Yeni Zelandiya konstitusiyalarını qeyd etmək olar. Hər bir konstitusiya dövlətin hüquqi-siyasi və ictimai sisteminin tərkib hissəsidir. Konstitusiya ən yüksək hüquqi qüvvəyə malik olan əsas qanun kimi hüquqi mahiyyəti ilə bərabər, həm də, sosial-siyasi mahiyyətə malikdir. Hüquq elmində dəyişiklik edilmə üsuluna görə "çevik" və "sərt" konstitusiyalar fərqləndirilir. "Çevik" konstitusiyaların dəyişdirilməsi üsulu olduqca sadədir, belə konstitusiyalar, bir qayda olaraq, digər qanunların dəyişdirildiyi qaydada dəyişdirilir. "Sərt" konstitusiyalara dəyişiklik edilməsi üçün xüsusi şərtlər irəli sürülür (məsələn, əksər səs çoxluğu, ikiqat votum, referendumun keçirilməsi və s.). Müasir dövrdə "hibrid" konstitusiyaların meydana gəlməsi tendensiyası müşahidə edilir. "Sərt" konstitusiyalara dəyişiklik edilməsi "çevik" konstitusiyalara münasibətdə olduqca çətin olur. Konstitusiyanın sabitliyinin təmin edilməsi üçün əsas vasitə ona digər qanunlarla müqayisədə dəyişikliklər edilməsinin mürəkkəb prosedurunun (məsələn, referendumun keçirilməsi) nəzərdə tutulmasıdır. Azərbaycan Respublikasının Konstitusiyası hüquqi təbiətinə görə dəyişdirilmə üsulu baxımından məhz "sərt" konstitusiya modelinə aiddir. Belə ki, Konstitusiyanın 152-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklər yalnız referendumla qəbul edilə bilər. Konstitusiya ictimai həyatda və ictimai münasibətlərdə baş verən dəyişikliklərlə və inkişafla əlaqədar olaraq dəyişikliyə məruz qala bilər. Əks halda dövlətin qanunvericilik sisteminin əsası qismində çıxış edən konstitusiya müasir dövrün çağırışlarına cavab verməyəcək, ölkənin hərtərəfli inkişafı, demokratik-hüquqi prinsiplərin bərqərar olması baxımından mühüm əhə-

miyyət kəsb edən qlobal strateji prioritetlərə uyğun olmayacaqdır. Konstitusionalizm tarixinin dərindən təhlili onu deməyə əsas verir ki, əbədi və dəyişilməz konstitusiyalar olmayıb və yoxdur. Ən "sərt" konstitusiyalardan sayılan ABŞ Konstitusiyasına 27 əlavə və dəyişiklik qəbul edilmişdir. Uzun illərin demokratik-hüquqi Avropa dövlətlərinin əsas qanunları da dəfələrlə dəyişikliyə məruz qalmışdır. Almaniyanın Əsas Qanununa, yəni Konstitusiyasına dəyişikliklər və əlavələr parlamentin hər iki palatasında – bundestaqda və bundesratda üçdə iki səs çoxluğu ilə qəbul edilən xüsusi konstitusiya qanunları formasında edilir. 1949-cu ildə qəbul edilmiş Almaniya Konstitusiyasına əlavə və dəyişiklikləri nəzərdə tutan 40-dan çox xüsusi konstitusiya qanunları qəbul edilmişdir. Fransa Konstitusiyası bir neçə dəfə onun məzmununa əhəmiyyətli təsir göstərən dəyişikliklərə məruz qalaraq yenilənmişdir.

30. **Konstitusiya ədalət mühakiməsi –** Bax: konstitusiya ədliyyəsi.
31. **Konstitusiya ədliyyəsi –** konstitusiya nəzarətinin həyata keçirilməsinin əsas forması; xüsusi növ məhkəmə orqanları – konstitusiya məhkəmələri tərəfindən konstitusiya məhkəmə icraatı formasında həyata keçirilən konstitusiya nəzarəti. Azərbaycan Respublikasında konstitusiya ədliyyəsi orqanı Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsidir.
32. **Konstitusiya hüququ –** dövlətin, hakimiyyətin və cəmiyyətin təşkilinin, şəxsin hüquqi statusunun əsaslarını tənzimləyən hüquq normalarının məcmusu. Konstitusiya hüququnun predmeti ictimai münasibətlərin iki əsas sahəsini əhatə edir: 1) insan hüquqlarının və əsas azadlıqların müdafiəsi; 2) dövlətin və dövlət hakimiyyətinin quruluşu.
33. **Konstitusiya qanunu –** konstitusiyaya əlavə və ya dəyişiklik nəzərdə tutan və xüsusi qaydada qəbul edilən qanun. Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsinə əsasən, Azərbaycan Respublikası Konstitusiyasına əlavələr Azərbaycan Respublikasının Milli Məclisində 95 səs çoxluğu ilə Konstitusiya qanunları şəklində qəbul edilir. Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr haqqında Konstitusiya qanunları Azərbaycan Respublikasının Milli Məclisində iki dəfə səsə qoyulur. İkinci səsvermə birinci səsvermədən 6 ay sonra keçirilir. Konstitusiya qanunları Azərbaycan Respublikası Konstitusiyasının ayrılmaz hissəsidir və Azərbaycan Respublikası Konstitusiyasının əsas mətninə zidd olmamalıdır.
34. **Konstitusiyalı monarxiya –** monarxın hakimiyyətinin konstitusiya ilə məhdudlaşdığı monarxiya. Müasir dövrdə konstitusiyalı monarxiyalara misal olaraq, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığını, İspaniyanı, İsveçi və s. göstərmək olar.

35. **Konstitusiya Məhkəməsi –** xüsusi konstitusiya nəzarəti orqanı. Bir sıra dövlətlərdə konstitusiya məhkəməsi xüsusi kateqoriya məhkəmə orqanı olub, məhkəmə sisteminə daxil deyil. Konstitusiya məhkəməsi ilk dəfə olaraq 1920-ci ildə Avstriyada yaradılmışdır. Konstitusiya məhkəməsi və konstitusiya nəzarəti haqqında konsepsiyanın müəllifi yəhudi əsilli məşhur avstriyalı hüquqşünas və filosof Hans Kelzen (1881-1973) hesab edilir. Konstitusiya məhkəməsinin əsas səlahiyyəti konstitusiya nəzarətini həyata keçirmək və konstitusiyanı şərh etməkdən ibarətdir. Azərbaycan Respublikasında Konstitusiya Məhkəməsi 1998-ci ildə yaradılmışdır. (Daha ətraflı bax: Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi)

36. **Konstitusiya nəzarəti –** səlahiyyətli dövlət orqanlarının normativ aktların konstitusiyaya uyğunluğunun yoxlanılması sahəsində fəaliyyəti. Konstitusiya nəzarəti funksiyasını, bir qayda olaraq, konstitusiya məhkəmələri həyata keçirir.

37. **Konstitusiya şikayəti –** konstitusion hüquq və azadlıqların pozulması ilə bağlı şəxsin Konstitusiya Məhkəməsinə müraciət forması. Konstitusiya şikayəti Almaniya, Avstriya, Belçika, İspaniya, Macarıstan, Polşa və digər ölkələrdə geniş tətbiq edilir. Konstitusiya Məhkəməsi haqqında Azərbaycan Respublikasının 23 dekabr 2003-cü il tarixli Qanununun 34-cü maddəsinə əsasən, hər kəs onun hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarından, bələdiyyə və məhkəmə aktlarından Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərində göstərilən məsələlərin həll edilməsi üçün Konstitusiya Məhkəməsinə pozulmuş insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədilə şikayət verə bilər. Konstitusiya Məhkəməsinə şikayət, bir qayda olaraq, aşağıdakı hallarda və müddətlərdə verilə bilər: məhkəmə aktından şikayət vermək hüququndan tam istifadə edildikdən sonra axırıncı məhkəmə instansiyasının qərarının (Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarının) qüvvəyə mindiyi andan altı ay müddətində; ərizəçinin məhkəməyə müraciət etmək hüququnun pozulduğu andan üç ay müddətində. Hüquq və azadlıqların pozulması nəticəsində ərizəçiyə ağır və bərpaedilməz zərərin vurulmasının digər məhkəmələr vasitəsilə qarşısının alınması mümkün olmadıqda şikayət bilavasitə Konstitusiya Məhkəməsinə verilə bilər.

38. **Kontinental hüquq ailəsi –** kontinental Avropa ölkələrinin hüquq sistemlərinin məcmusu. Kontinental hüquq ailəsi hüquq ədəbiyyatında həm də roman-alman (roman-german) hüquq ailəsi adlandırılır. Bu hüquq ailəsinə daxil olan ölkələrdə hüququn başlıca mənbəyi kimi qanun (norma-

tiv hüquqi akt) çıxış edir. Kontinental hüquq ailəsinə həmçinin müəyyən özünəməxsus xüsusiyyətləri ilə Latın Amerikası ölkələrinin və Yaponiyanın hüquq sistemləri də daxildir. Kontinental hüquq ailəsinin elementləri həm də Kanadanın Kvebek əyalətinin və ABŞ-nin Luiziana ştatının hüquq sistemlərində mövcuddur. Kontinental hüquq ailəsinə hüquq normalarının müxtəlif sahələr üzrə dəqiq bölgüsü xasdır. Bu hüquq ailəsinə daxil olan ölkələrdə yazılı konstitusiya mövcud olur. Kontinental hüquq ailəsinin tərkibində Skandinaviya hüquq subailəsini fərqləndirmək lazımdır. Belə ki, kontinental Avropa ölkələrinin hüquq sistemlərindən fərqli olaraq, Skandinaviya ölkələrində məhkəmə təcrübəsi mühüm rol oynayır. Hazırda kontinental hüquq ailəsi vahid Avropa hüququnun formalaşması ilə əlaqədar olaraq yeni inkişaf mərhələsindədir.

39. **Kontinental hüquq sistemi –** Bax: kontinental hüquq ailəsi.
40. **Konvensiya –** beynəlxalq müqavilənin adlarından biri.
41. **Korrupsiya** (lat. corruptio – rüşvətlə ələ alma) **–** vəzifəli şəxslərin öz statusundan, təmsil etdiyi orqanın (qurumun) statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə qanunsuz olaraq maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməsi, habelə fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin qanunsuz olaraq vəzifəli şəxslərə təklif və ya vəd olunması və yaxud verilməsi yolu ilə həmin vəzifəli şəxslərin ələ alınması.
42. **Korrupsiya ilə əlaqədar hüquqpozmalar –** korrupsiya ilə əlaqədar hüquqpozmalar bilavasitə korrupsiya hüquqpozmalarından və korrupsiyaya şərait yaradan hüquqpozmalardan ibarətdir. Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının 13 yanvar 2004-cü il tarixli Qanununa əsasən, korrupsiya hüquqpozmaları aşağıdakılardır: vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində özü və yaxud üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər tələb etməsi, əldə etməsi və ya belə maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin verilməsi ilə bağlı təklifi və ya vədi qəbul etməsi; xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində vəzifəli şəxsə onun özü və ya üçüncü şəxslər üçün fiziki və ya hüquqi şəxs tərəfindən birbaşa və ya dolayı yolla maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunması, vəd edilməsi və ya verilməsi; vəzifəli şəxs tərə-

findən xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində qanunsuz olaraq alınmış əmlakdan özü və ya üçüncü şəxslər üçün mənfəət əldə etmək məqsədilə istifadə edilməsi; vəzifəli şəxs tərəfindən xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar maddi və sair nemətləri, imtiyazları və ya güzəştləri haqqı ödənilmədən və ya bazar qiymətlərindən və ya dövlət tərəfindən tənzimlənən qiymətlərdən aşağı qiymətə (tarifə) əldə edilməsi; vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar əmanətlərdən (depozitlərdən), qiymətli kağızlardan, rentadan, royaltidən və ya icarədən Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olaraq gəlir götürməsi; müəyyən mükafat müqabilində vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmək imkanına malik olduğunu bildirən hər hansı şəxsə birbaşa və ya dolayı yolla maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin təklif olunması, vəd edilməsi və ya verilməsi; müəyyən mükafat müqabilində vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmək imkanına malik olduğunu bildirən şəxs tərəfindən maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin qəbul edilməsi və ya belə maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin verilməsi ilə bağlı təklifin və ya vədin qəbul edilməsi (maddə 9). Qanuna görə vəzifəli şəxsin aşağıdakı hərəkətləri korrupsiyaya şərait yaradan hüquqpozmalar sayılır: xidməti vəzifəsini (səlahiyyətlərini) icra etdiyi dövrdə elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, digər ödənişli vəzifə tutmaq və ya fəaliyyət növü ilə məşğul olmaq; statusundan, təmsil etdiyi orqanın (qurumun) statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin əldə edilməsi məqsədilə fiziki və hüquqi şəxslərə sahibkarlıq fəaliyyətini həyata keçirməkdə, eləcə də subsidiyalar, subvensiyalar, dotasiyalar, kreditlər və digər güzəştlər alınmasında qanunsuz kömək etmək; bilavasitə, başqa və ya uydurma şəxslər vasitəsilə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, əvəzçilik üzrə işləmək (elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla), habelə sahibkarlıq fəaliyyətini həyata keçirən təsərrüfat subyektlərinin və maliyyə-kredit müəssisələrinin icra orqanlarının tərkibinə daxil olmaq; statusundan, təmsil etdiyi orqanın (qurumun) statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə onun səlahiyyət dairəsinə daxil olmayan məsələlər üzrə digər dövlət orqanlarının, yerli özünüidarəetmə orqanlarının və ya qurumların fəaliyyətinə qanunsuz müdaxilə

etmək; statusundan, təmsil etdiyi orqanın (qurumun) statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə şəxsi maraqlarına aid məsələlərin həllinə təsir etmək; normativ hüquqi aktların və digər orqanların (qurumların) qəbul edilməsi zamanı fiziki və ya hüquqi şəxslərə onların təyinatına uyğun olmayan üstünlüklər vermək; vəzifə tutduğu və ya ona tabe olan, onun nəzarətində olan, habelə ona hesabat verən orqanların işi üzrə fiziki və ya hüquqi şəxslərin nümayəndəsi qismində iştirak etmək; qanunla və ya digər normativ hüquqi aktlarla verilməsi nəzərdə tutulmuş məlumatların fiziki və ya hüquqi şəxslərə verilməsindən əsassız imtina etmək, belə məlumatların verilməsini gecikdirmək və yaxud natamam və ya təhrif olunmuş məlumatlar vermək; qanunla və ya digər normativ hüquqi aktlarla verilməsi nəzərdə tutulmayan məlumatları və sənədləri fiziki və hüquqi şəxslərdən tələb etmək; dövlət orqanlarının, yerli özünüidarəetmə orqanlarının və ya qurumların maddi və maliyyə vəsaitlərini qanunsuz olaraq namizədlərin, qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiya bloklarının, referendum üzrə təşəbbüs qruplarının seçki fonduna vermək; qanunvericiliklə başqa hal nəzərdə tutulmamışdırsa, dövlət fondlarına, dövlət orqanlarının, yerli özünüidarəetmə orqanlarının və ya qurumların təsərrüfat subyektlərinə məxsus olan maddi və maliyyə ehtiyatlarını qeyri-dövlət strukturlarına vermək; fiziki və ya hüquqi şəxslərə hüquqlarının və qanuni mənafelərinin həyata keçirilməsində süni maneələr yaratmaq; sahibkarlıq fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi ilə bağlı səlahiyyətləri belə fəaliyyəti həyata keçirən fiziki və hüquqi şəxslərə qanunsuz olaraq vermək (maddə 9).

43. **Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi (Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi) –** ixtisaslaşdırılmış prokurorluq orqanı olmaqla, korrupsiya hüquqpozmaları ilə əlaqədar məlumatlara baxır, korrupsiya ilə bağlı cinayətlər üzrə ibtidai istintaq, əməliyyat-axtarış fəaliyyətini həyata keçirir, korrupsiyaya qarşı mübarizənin vəziyyətini təhlil edir, ümumiləşdirir və bu sahədə işin səmərəliliyinin artırılması üçün təklif və tövsiyələr hazırlayır, həmin fəaliyyəti həyata keçirərkən normativ hüquqi aktlarda və onların layihələrində korrupsiya hüquqpozmalarına şərait yaradan hallar müəyyən etdikdə, onların aradan qaldırılması üçün Baş prokuror qarşısında məsələ qaldırır, maarifləndirmə işlərini, profilaktik tədbirləri, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş əsasnaməsinə uyğun olaraq digər səlahiyyətləri yerinə yetirir. Korrupsiyaya

qarşı Mübarizə Baş İdarəsinə vəzifəsinə görə Baş prokurorun müavini hesab edilən Baş İdarənin rəisi rəhbərlik edir.

44. **Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu –** korrupsiya ilə əlaqədar hüquqpozmaların aşkar edilməsi, qarşısının alınması və nəticələrinin aradan qaldırılmasına, sosial ədalətin, insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiə olunmasına, iqtisadiyyatın inkişafı üçün əlverişli şəraitin yaradılmasına, dövlət və yerli özünüidarəetmə orqanlarının, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərin, publik hüquqi şəxslərin və büdcə təşkilatlarının, vəzifəli şəxslərin fəaliyyətinin qanuniliyinin, şəffaflığının və səmərəliliyinin təmin edilməsinə yönəlmiş qanunvericilik aktı. Bu Qanun, habelə orqanlara (qurumlara) əhalinin etimadının möhkəmləndirilməsi, peşəkar kadrların orqanlarda (qurumlarda) qulluğa (işə) girməyə həvəsləndirilməsi, həmin şəxslərin korrupsiya ilə əlaqədar hüquqpozma törətməsini istisna edən şəraitin yaradılması məqsədini daşıyır. 13 yanvar 2004-cü ildə qəbul edilmişdir.

45. **Köləlik –** şəxs üzərində mülkiyyət hüququna xas olan səlahiyyətlərin tam və ya qismən həyata keçirilməsi. Müasir beynəlxalq hüquq və hüquqi dövlətlərin qanunvericilikləri köləliyi qadağan edir. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 8-ci maddəsinə əsasən, heç kim kölə halında saxlanılmamalıdır; köləlik və kölə ticarətinin bütün növləri qadağan edilir. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın 4-cü maddəsinə uyğun olaraq, heç kəs köləlikdə və ya əsarət altında saxlanılmamalıdır. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 4-cü maddəsinə əsasən, heç kim köləlikdə və ya asılı vəziyyətdə saxlanılmamalıdır; köləliyin və kölə ticarətinin bütün formaları qadağan edilir.

46. **Köləlikdə saxlanılmamaq hüququ** – əsas insan hüquqlarından biri. Avropa İnsan Hüquqları Konvensiyasının 4-cü maddəsinə görə, heç kəs köləlikdə və ya əsarət altında saxlanılmamalıdır. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 8-ci maddəsinə əsasən, heç kim kölə halında saxlanılmamalıdır; köləlik və kölə ticarətinin bütün növləri qadağan edilir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 4-cü maddəsinə əsasən, heç kim köləlikdə və ya asılı vəziyyətdə saxlanılmamalıdır; köləliyin və kölə ticarətinin bütün formaları qadağan edilir.

47. **Kritik informasiya infrastrukturu** – dövlət idarəçiliyi, müdafiə, səhiyyə, maliyyə bazarları, energetika, nəqliyyat, informasiya texnologiyaları,

telekommunikasiya, su təchizatı və ya ekologiya sahəsində fəaliyyəti təmin edən və funksionallığının pozulması dövlətin, cəmiyyətin və vətəndaşların maraqlarına mühüm zərər vura bilən informasiya sistemlərinin, avtomatlaşdırılmış idarəetmə sistemlərinin və informasiya-kommunikasiya şəbəkələrinin məcmusu.

48. **Kritik informasiya infrastrukturu obyekti** – kritik informasiya infrastrukturunun tərkib hissəsi olan informasiya sistemi, avtomatlaşdırılmış idarəetmə sistemi və ya informasiya-kommunikasiya şəbəkəsi.
49. **Kritik informasiya infrastrukturu subyekti** – kritik informasiya infrastrukturu obyektinin sahibi (istifadəçisi) olan dövlət orqanları (qurumları), o cümlədən dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılmış publik hüquqi şəxslər, habelə digər hüquqi şəxslər və ya fərdi sahibkarlar (mikro, kiçik və orta sahibkarlıq subyektləri istisna olmaqla).
50. **Kütləvi informasiya –** əldə olunması, ötürülməsi, istehsalı və yayımı Azərbaycan Respublikasının qanunları ilə məhdudlaşdırılmayan, qeyri-məhdud sayda şəxslərə çatdırmaq məqsədilə media subyektləri tərəfindən dərc olunan və (və ya) yayımlanan məlumatlar.
51. **Kütləvi İnformasiya Vasitələrinin Azadlığı Məsələləri üzrə Nümayəndə –** Bax: ATƏT-in Kütləvi İnformasiya Vasitələrinin Azadlığı Məsələləri üzrə Nümayəndəsi.

Q

1. **Qaçqın –** irqi mənsubiyyətinə, dini etiqadına, vətəndaşlığına, müəyyən sosial qrupa mənsub olmasına və ya siyasi əqidəsinə görə təqiblərin qurbanı olmaqdan əsaslı qorxduğu üçün vətəndaşı olduğu ölkədən kənarda qalan və həmin qorxu üzündən bu ölkənin himayəsindən istifadə edə bilməyən və ya istifadə etmək istəməyən və yaxud müəyyən vətəndaşlığı olmadığı halda öz daimi yaşadığı ölkəsindən kənarda qalan, həmin qorxu üzündən oraya qayıda bilməyən və ya qayıtmaq istəməyən şəxs. 28 iyul 1951-ci ildə qəbul edilmiş Qaçqınların statusu haqqında Konvensiyaya əsasən, qaçqın, ərazisinə gəlmək istədiyi və ya artıq ərazisinə keçdiyi dövlətin müvafiq orqanlarına əsaslandırılmış şəkildə sübut etməlidir ki, öz ölkəsində o məhz: 1) müəyyən irqi (etnik, milli) qrupa mənsub olduğuna görə; 2) öz dini əqidəsinə görə; 3) hansısa konkret dövlətin vətəndaşı olduğuna və yaxud öz dövlətinin vətəndaşı olmadığına görə; 4) müəyyən sosial qrupa mənsub olduğuna görə və 5) siyasi əqidəsinə görə təqiblərə məruz qalır və ya məruz qalmaq qorxusu var, yəni onun əsas hüquq və azadlıqları kobud şəkildə pozulur. Beynəlxalq hüquqa görə, bu şəxslərə qaçqın statusu verilmir: 1) barələrində sülh əleyhinə cinayət, müharibə cinayəti və ya insanlıq əleyhinə cinayət və yaxud BMT-nin məqsəd və prinsiplərinə zidd əməllər törətdikləri haqqında kifayət qədər ciddi əsaslar olan şəxslər; 2) dövlətin ərazisinə gələnə qədər onun hüdudlarından kənarda qeyri-siyasi xarakterli ağır cinayət törətmiş şəxslər. Qaçqınların statusu haqqında Konvensiyaya əsasən, şəxs qaçqın statusunu aşağıdakı hallarda itirir: 1) vətəndaşı olduğu və ya daimi yaşadığı dövlətin himayəsindən könüllü surətdə yenidən istifadə etdikdə; 2) öz vətəndaşlığından məhrum olub onu könüllü surətdə yenidən əldə etdikdə; 3) hazırda yaşadığı dövlətin və ya hər hansı başqa bir dövlətin vətəndaşlığını qəbul etdikdə və yeni vətəndaşı olduğu dövlətin himayəsindən istifadə etdikdə; 4) təqiblərdən qorxduğuna görə tərk etdiyi və ya hüdudlarından kənarda qaldığı dövlətdə könüllü surətdə yenidən məskunlaşdıqda; 5) qaçqın kimi tanınmasına əsas vermiş hallar aradan qalxdığına görə vətəndaşı olduğu dövlətin himayəsindən daha imtina edə bilmədikdə; 6) vətəndaşlığı olmayan şəxs üçün – qaçqın kimi tanınmasına əsas vermiş hallar aradan qalxdığına görə o öz daimi yaşadığı ölkəsinə qayıda bildikdə. Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında Azərbaycan Respublikasının 21 may 1999-cu il tarixli Qanununa əsasən, qaçqın – Azərbaycan Respublikasının vətəndaşı olmayıb, irqi

əlamətinə, milliyyətinə, dini etiqadına, müəyyən sosial qrupa mənsubluğuna və ya siyasi əqidəsinə görə təqiblərin qurbanı olmaq barəsində tam əsaslı ehtiyat üzündən vətəndaşı olduğu ölkədən kənarda qalan və eyni ehtiyat üzündən həmin ölkənin himayəsindən istifadə edə bilməyən və ya istifadə etmək istəməyən, yaxud müəyyən vətəndaşlığı olmayıb oxşar hallar nəticəsində əvvəl, adətən, yaşadığı ölkədən kənarda qalan, ehtiyat üzündən oraya qayıda bilməyən və ya qayıtmaq istəməyən şəxsdir. Qanunun 2-ci maddəsinə görə, aşağıdakılara qaçqın statusu verilmir: beynəlxalq hüquqda təyin edildiyi kimi, sülhə qarşı cinayət, hərbi cinayət, bəşəriyyətə və ya insanlığa qarşı cinayət törətdiyi müəyyənləşdirilmiş şəxsə; Azərbaycan Respublikasının ərazisinə gələnə qədər onun hüdudlarından kənarda qeyri-siyasi xarakterli ağır və ya xüsusilə ağır cinayət törətmiş şəxsə; Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə zidd əməllər törətməkdə təqsirləndirilən şəxsə.

2. **Qaçqınların statusu haqqında Konvensiya –** BMT Baş Assambleyasının 14 dekabr 1950-ci il tarixli, 429 (V) saylı qətnaməsi ilə çağırılmış qaçqınların və apatridlərin statusu məsələlərinə dair səlahiyyətli nümayəndələrin Konfransı tərəfindən 28 iyul 1951-ci ildə qəbul edilmiş çoxtərəfli beynəlxalq müqavilə. Qaçqınların statusuna dair 1967-ci il Protokolu Konvensiyaya cüzi dəyişikliklər etmişdir. Konvensiyaya əsasən, qaçqın – irqi mənsubiyyətinə, dini etiqadına, vətəndaşlığına, müəyyən sosial qrupa mənsub olmasına və ya siyasi əqidəsinə görə təqiblərin qurbanı olmaqdan əsaslı qorxduğu üçün vətəndaşı olduğu ölkədən kənarda qalan və həmin qorxu üzündən bu ölkənin himayəsindən istifadə edə bilməyən və ya istifadə etmək istəməyən və yaxud müəyyən vətəndaşlığı olmadığı halda öz daimi yaşadığı ölkəsindən kənarda qalan, həmin qorxu üzündən oraya qayıda bilməyən və ya qayıtmaq istəməyən şəxsdir.
3. **Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında Azərbaycan Respublikasının Qanunu** – Azərbaycan Respublikasında qaçqınların və məcburi köçkünlərin hüquqi statusunu tənzimləyən qanunvericilik aktı. 21 may 1999-cu ildə qəbul edilmişdir.
4. **Qaçqınlar üzrə BMT-nin Ali Komissarı –** Bax: Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarı (UNHCR).
5. **Qadın hüquqları –** qadınların fizioloji xüsusiyyətlərindən və sosial statuslarından irəli gələn hüquqların məcmusu. Qadın hüquqları sahəsində bir sıra mühüm beynəlxalq-hüquqi aktlar mövcuddur. Bunların sırasında Qadınların siyasi hüquqları haqqında 20 dekabr 1952-ci il tarixli Kon-

vensiyanı və Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 18 dekabr 1979-cu il tarixli Konvensiyanı qeyd etmək olar.

6. **Qadın hüquqları üzrə BMT-nin ixtisaslaşmış təşkilatı –** Bax: Birləşmiş Millətlər Təşkilatının Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Genişləndirilməsi Təşkilatı (UN Women).

7. **Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya –** BMT Baş Assambleyasının 34/180 saylı, 18 dekabr 1979-cu il tarixli qətnaməsi ilə qəbul edilmiş çoxtərəfli beynəlxalq müqavilə. Konvensiyanın məqsədləri üçün qadınlar barəsində ayrı-seçkilik anlayışı qadınların ailə vəziyyətindən asılı olmayaraq, kişi və qadınların hüquq bərabərliyi əsasında insan hüquqlarının və siyasi, iqtisadi, sosial, mədəni, mülki və hər hansı digər sahələrdə əsas azadlıqların zəiflədilməsinə, yaxud tanınmasını, qadınların onlardan istifadə etməsini, yaxud onları həyata keçirməsini heçə endirməyə yönəldilmiş cinsi əlamətə görə hər hansı fərqləndirmə, istisna, yaxud məhdudiyyət deməkdir. Konvensiyanın 3-cü maddəsinə əsasən, iştirakçı dövlətlər bütün sahələrdə, o cümlədən siyasi, sosial, iqtisadi və mədəni sahələrdə qadınların insan hüquqlarını və əsas azadlıqları kişilərlə bərabər əsasda həyata keçirmələrinə və onlardan istifadə etmələrinə təminat vermək üçün onların hərtərəfli inkişafını və tərəqqisini təmin edən bütün müvafiq tədbirləri, qanunvericilik tədbirləri də daxil olmaqla, həyata keçirirlər.

8. **Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi üzrə Komitə –** BMT-nin insan hüquqları sahəsində fəaliyyət göstərən müqavilə komitələrindən biri. Komitə Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 18 dekabr 1979-cu il Konvensiyasının əsasında 1982-ci ildə təsis edilmişdir. Komitə 4 il müddətinə seçilən, öz dövlətlərini təmsil etməyən, yüksək mənəvi keyfiyyətlərə malik və qadın hüquqları sahəsində ixtisaslaşan 23 ekspertdən ibarətdir. Komitə hər 4 ildən bir iştirakçı dövlətlərin dövri hesabatlarına baxır. Hesabatda Konvensiyanın müddəalarının həyata keçirilməsi üzrə qanunvericilik, məhkəmə, inzibati və digər tədbirlər barədə dolğun məlumat verilməlidir. Komitə BMT Baş Assambleyasının 1996-cı ildə qəbul etdiyi qətnaməyə uyğun olaraq 1997-ci ildən etibarən ildə hər biri 3 həftə davam etməklə 2 sessiya keçirir. Komitənin mühüm səlahiyyəti ondan ibarətdir ki, o, 10 dekabr 1999-cu il tarixli Fakültativ Protokola əsasən, fərdi şikayətlərə baxa bilər. Protokolun iştirakçısı olan dövlətin yurisdiksiyası altında olan istənilən fərd, fərdlər qrupu və ya onların adından digər tərəf Kon-

vensiyanın müddəalarının pozulması ilə bağlı Komitəyə müraciət edə bilər. Komitə, eyni zamanda qadın hüquqlarının səmərəli şəkildə təmini ilə bağlı ümumi tövsiyələr qəbul edir (məsələn, əlilliyi olan qadınların hüquqları haqqında 18 saylı tövsiyə, nikahda qadınların bərabər hüquqları haqqında 21 saylı tövsiyə və s.).

9. **Qadınların siyasi hüquqları haqqında Konvensiya –** BMT Baş Assambleyasının 640 (VII) saylı, 20 dekabr 1952-ci il tarixli qətnaməsi ilə qəbul edilmiş çoxtərəfli beynəlxalq müqavilə. Konvensiyada qadınların bir sıra siyasi hüquqları bəyan olunur: qadınlar bütün seçkilərdə heç bir ayrı-seçkilik qoyulmadan kişilərlə bərabər şərtlərlə səs vermək hüququna malikdirlər; qadınlar heç bir ayrı-seçkilik qoyulmadan kişilərlə bərabər şərtlərlə milli qanunla müəyyən olunmuş açıq seçkilər keçirilməsini tələb edən bütün təsisatlara seçilə bilərlər; qadınların heç bir ayrı-seçkilik qoyulmadan kişilərlə bərabər şərtlərlə dövlət qulluğunda vəzifə tutmaq və milli qanunla müəyyən edilən bütün dövlət funksiyalarını yerinə yetirmək hüququ vardır.

10. **Qanun –** qanunverici orqan tərəfindən və ya ümumxalq səsverməsi yolu ilə qəbul edilən, mühüm ictimai münasibətləri tənzimləyən ali hüquqi qüvvəyə malik olan normativ akt. Qanun dövlətin yurisdiksiyası altında olan bütün fiziki və hüquqi şəxslər, dövlət və yerli özünüidarəetmə orqanları, vəzifəli şəxslər üçün ümumməcburi davranış qaydaları müəyyən edən normativ aktdır. Müvafiq ictimai münasibətləri tənzimləmə funksiyasını yerinə yetirən qanun, hüquqi baxımdan mahiyyət etibarilə davamlıdır və stabildir, yalnız obyektiv ictimai zərurət halında dəyişikliyə məruz qalır və ya ləğv edilir. Qanunun strukturu aşağıdakı əsas elementlərdən ibarətdir: qanunu qəbul edən orqanın adı; qanunun adı; qanunun preambulası; qanunun normativ-hüquqi məzmunu; qanuna əməl edilməməsinin nəticələri; qanunla digər normativ-hüquqi aktların ləğvi; qanunun dərc edilməsi və qüvvəyə minməsi; müvafiq vəzifəli şəxsin imzası. Məşhur fransız filosofu Jan-Jak Russoya (1712-1778) görə, qanun – ümumi iradənin ifadəsi kimi dövlətin özbaşınalığına qarşı təminat rolunda çıxış edir. Mütəfəkkirin fikrincə, qanun sayəsində bərabərliyə nail olmaq olar. Tanınmış italyan filosofu və teoloqu Foma Akvinalının (1225-1274) fikrincə, "Qanun – şüurun hökmü olmaqla, ictimai rifahın təmin edilməsi məqsədi daşıyır". Qədim Roma hüquqşünaslarının fikrincə, qanunun gücü bunlarda ifadə olunur: əmr etmək, qadağan etmək, icazə vermək, cəzalandırmaq (Legis virtus haec est: imperare, vetare, permittere, punire). Qanun ali hüquqi qüvvəyə malik olmaqla hüququn

əsas mənbəyi qismində çıxış edir. Azərbaycan kontinental hüquq ailəsinə daxil olduğundan hüququn əsas mənbəyi qismində məhz qanun çıxış edir. Qanunlara hamı tərəfindən əməl edilməsi hüquqi dövlətin və vətəndaş cəmiyyətinin əsas göstəricilərindən biridir. Azad olmaq üçün qanunlara tabe olmaq gərəkdir (Legum servi esse debemus, ut liberi esse possimus).

11. **Qanunauyğun davranış –** Bax: hüquqauyğun davranış.

12. **Qanunçuluq –** qanunlara mütləq əməl edilməsində ifadə olunan hüquqi rejim. Hüquqi dövlətin ayrılmaz elementlərindən birini təşkil edən qanunçuluğun müəyyən edilməsi baxımından hüquq normalarının məzmun etibarilə xarakteristikası olduqca mühüm əhəmiyyət kəsb edir. Qanunçuluğun məzmununu hüquq texnikası baxımından təkmil qanunvericilik deyil, özündə hüququn əsas prinsiplərini, ilk növbədə insan hüquqlarına və əsas azadlıqlara hörmət edilməsi prinsipini, humanist dəyərlərin əsaslarını, sosial inkişafın obyektiv tendensiyalarını ehtiva edən qanunvericilik təşkil edir. Qanunçuluq həm də qanunvericilikdə və normayaradıcılıq prosesində hüququn obyektiv ifadəsini də özündə ehtiva edir. Qanunçuluğun təmin edilməsi yalnız qanunlara dövlətin yurisdiksiyası altında olan hər bir fiziki və hüquqi şəxsin, dövlət və yerli özünüidarə orqanlarının, vəzifəli şəxslərin əməl etməsində, qanunlarda boşluqların olmamasında, onların tam, dolğun və ziddiyyətsiz olmasında deyil, həmçinin də qanunların nə dərəcədə insan hüquqlarını və əsas azadlıqları, sosial ədaləti təmin etməsi ilə müəyyən edilir. Qanunçuluğun əsas mahiyyəti qanunlara əməl edilməsi və onların düzgün icra edilməsində ifadə olunur. Qanunçuluq həm də özündə onu ehtiva edir ki, qanuna müvafiq olan digər normativ hüquqi aktlara da əməl edilməlidir. Qanunçuluğun əsas prinsiplərindən biri ondan ibarətdir ki, qanun hüququn ümumtanınmış prinsiplərinə uyğun olmalıdır, yəni hüquqi olmalıdır.

13. **Qanunun aliliyi** – qanunun üstünlüyünü və ona əməl edilməsinin mütləq olduğunu müəyyən edən hüquqi doktrina. Yalnız qanunun aliliyi təmin edilən dövlət hüquqi xarakterə malik olur. Qanunun aliliyi konsepsiyası dərin tarixi köklərə malikdir. Qədim yunan filosofu Aristotelə (b.e.ə. 384-322) görə, qanun hökmran olmalıdır. Qədim Roma mütəfəkkiri və siyasi xadimi Siseronun (b.e.ə. 106-43) məşhur kəlamlarının birində deyilir: "Hamımız qanunun qullarıyıq". Tanınmış italyan filosofu və teoloqu Foma Akvinalı (1225-1274) qeyd edirdi ki, "Qanunun aliliyi ALLAH tərəfindən müəyyən edilmiş təbii qaydadır" (Həmçinin bax: Hüququn aliliyi).

14. **Qanunun analogiyası** – konkret ictimai münasibətləri tənzimləyən qa-

nunvericilik normaları olmadığına görə həmin ictimai münasibətlərə oxşar ictimai münasibətləri tənzimləyən qanunvericilik normalarının tətbiq edilməsi. Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının 21 dekabr 2010-cu il tarixli Konstitusiya Qanununa əsasən, konkret ictimai münasibətləri tənzimləyən qanunvericilik normaları olmadıqda hüququn analogiyasından və ya qanunun analogiyasından istifadə oluna bilər. Əvvəlcə qanunun analogiyasından istifadə olunur. Konkret ictimai münasibətləri tənzimləyən qanunvericilik normaları olmadıqda həmin ictimai münasibətlərə oxşar ictimai münasibətləri tənzimləyən qanunvericilik normaları tətbiq edilir. Mülki hüquq münasibətləri mülki qanunvericiliklə və ya tərəflərin razılaşması ilə birbaşa tənzimlənmədikdə və onlara tətbiq edilə bilən işgüzar adət olmadıqda həmin münasibətlərə, əgər bu onların mahiyyətinə zidd deyildirsə, oxşar münasibətləri tənzimləyən mülki qanunvericilik normaları tətbiq edilir. Konkret ictimai münasibətləri tənzimləyən qanunvericilik normaları olmadığına görə həmin ictimai münasibətlərə oxşar ictimai münasibətləri tənzimləyən qanunvericilik normalarını tapmaq mümkün olmadıqda hüququn analogiyasından istifadə edilir. Bu zaman Azərbaycan Respublikasının Konstitusiyasında və qanunlarda təsbit edilmiş hüququn konkret sahələrinə aid prinsiplərdən və hüququn ümumi prinsiplərindən istifadə olunur. Hüququn analogiyası tətbiq edilərkən ədalət, insaf və mənəviyyat tələbləri nəzərə alınmalıdır. Cinayət, inzibati xətalar və vergi qanunvericiliyində, məsuliyyətə cəlb olunma, hüquqların məhdudlaşdırılması və vəzifələrin müəyyən edilməsi hallarında hüququn analogiyasından və ya qanunun analogiyasından istifadə oluna bilməz (maddə 13). Aşağıdakı hallarda hüququn analogiyasından və ya qanunun analogiyasından istifadə oluna bilməz: qanunvericilikdə boşluqlar zahiri xarakter daşıdıqda; normativ tənzimləmə zərurəti olmadıqda; normativ tənzimləmə qanunla qadağan olunduqda; normativ tənzimləmə mövcud olduqda (maddə 16).

15. **Qanunvericilik –** qanunverici orqan tərəfindən qəbul edilən, yüksək hüquqi qüvvəyə malik olan normativ aktların – qanunların məcmusu. Geniş mənada qanunvericilik dedikdə qanunların və digər normativ hüquqi aktların məcmusu başa düşülür.

16. **Qanunvericilikdə boşluqlar** – konkret ictimai münasibətləri tənzimləyən qanunvericilik normalarının olmaması. Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının 21 dekabr 2010-cu il tarixli Konstitusiya Qanununa əsasən, qanunvericilikdə boşluqlar aşkar edilərkən aşağıdakılar nəzərə alınmalıdır: faktiki hal hüquqi tənzimləmə dairəsinə

aid olmalıdır; konkret ictimai münasibətləri tənzimləyən qanunvericilik normaları olmamalıdır; faktiki hal qanunvericilikdə qismən tənzimlənməlidir (tam tənzimlənməməlidir).

17. **Qanunvericilik hakimiyyəti –** hakimiyyətlərin bölgüsü prinsipinə müvafiq olaraq dövlət hakimiyyətinin qollarından biri. Qanunvericilik hakimiyyəti orqanı hüquqi aktların iyerarxiyasında konstitusiyadan sonra yüksək hüquqi qüvvəyə malik olan qanunlar qəbul edir. Qanunvericilik hakimiyyəti, bir qayda olaraq, parlamentə mənsub olur. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir.

18. **Qanunvericilik sistemi –** qanunların və digər normativ hüquqi aktların iyerarxik məcmusu. Azərbaycan Respublikasının Konstitusiyasının 148-ci maddəsinə əsasən, qanunvericilik sistemi aşağıdakı normativ hüquqi aktlardan ibarətdir: 1) Konstitusiya; 2) referendumla qəbul edilmiş aktlar; 3) qanunlar; 4) fərmanlar; 5) Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları; 6) mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir.

19. **Qanunvericilik təşəbbüsü –** qanunvericilik prosesinin qanun layihəsinin təqdim edilməsində ifadə olunan ilkin mərhələsi. Qanunverici orqanın yalnız qanunvericilik təşəbbüsü hüququna malik olan subyektlər tərəfindən təqdim edilən qanun layihələrinə baxmaq öhdəliyi vardır. Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinin I hissəsinə əsasən, Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququ (qanun layihələrini və başqa məsələləri Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim etmək hüququ) Azərbaycan Respublikası Milli Məclisinin deputatlarına, Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşına, Azərbaycan Respublikasının Prokurorluğuna və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə mənsubdur. Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının 21 dekabr 2010-cu il tarixli Konstitusiya Qanununa əsasən, qanunvericilik təşəbbüsü – Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinin I hissəsi ilə müəyyən edilmiş subyekt tərəfindən qanun layihəsinin Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə rəsmən təqdim edilməsidir (maddə 1).

20. **Qanunvericiliyin sistemləşdirilməsi** – normativ hüquqi aktların nizama salınması, onların daxili uzlaşdırılmış vahid sistemə çevrilməsi üzrə fəaliyyət.
21. **Qayıdış hüququ –** dövlətdaxili və beynəlxalq hüquqda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə əsasən, hər bir insan, öz ölkəsi də daxil olmaqla istənilən ölkəni tərk etmək və öz ölkəsinə qayıtmaq hüququna malikdir (maddə 13). Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 12-ci maddəsinə əsasən, heç kim öz ölkəsinə gəlmək hüququndan özbaşınalıqla məhrum edilə bilməz. BMT Baş Assambleyasının bəzi qətnamələrində də qayıdış hüququ öz əksini tapmışdır (məsələn, 7 iyun 2023-cü il tarixli, 77/293 nömrəli qətnamə). Beynəlxalq hüquqa görə təhlükəsiz qayıdış özündə aşağıdakı elementləri ehtiva edir: 1. Fiziki təhlükəsizlik - yaşamaq hüququ, azadlıq və şəxsi toxunulmazlıq hüququ, işgəncəyə məruz qalmamaq hüququnun təmin edilməsi. Fiziki təhlükəsizlik dövlətin təhlükəsizliklə bağlı bütün tədbirlərin həyata keçirilməsini ehtiva edir. 2. Hüquqi təhlükəsizlik – hər hansı əlamətə, xüsusilə də milli mənsubiyyətinə görə ayrı-seçkiliyə yol verilmədən insan hüquq və azadlıqlarının təmin edilməsi, səmərəli hüquq müdafiə mexanizmlərinə çıxışın təmin edilməsi. 3. Maddi təhlükəsizlik – sosial və iqtisadi hüquqların təmin edilməsi, sosial dəstək proqramlarının icrası. Müvafiq dövlət tərəfindən bu elementlərin kompleks şəkildə təmin edilməsi zəruridir. Həmçinin, qayıdış hüququnun səmərəli təmin edilməsi üçün bu komponentlər də nəzərə alınmalıdır: 1. ailə birliyi prinsipinə riayət edilməsinin zəruriliyi; 2. qayıdan şəxslərə daşınar əmlaklarını gətirmək hüququnun verilməsi. Qayıdış hüququ insan hüquq və azadlıqlarına, həmçinin insan ləyaqətinə hörmət əsasında təmin edilməlidir. 2003-cü ildə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, İnkişaf Proqramı və UNİCEF tərəfindən ləyaqətli qayıdışla bağlı "4R" proqramı hazırlanmışdır. Proqram özündə bunları ehtiva edir: 4R – 1. repatriasiya – özündə dövlət hakimiyyəti tərəfindən təşkil edilmiş qayıdışı ehtiva edir; 2. reinteqrasiya – yenidən inteqrasiya; 3. reabilitasiya – bərpa; 4. rekonstruksiya – yenidənqurma. Qeyd olunan proqramın səmərəli icrası üçün beynəlxalq monitorinqin həyata keçirilməsi zəruridir. Bu cür proqramlar qərbi azərbaycanlıların geri qayıdışı zamanı tətbiq oluna bilər, lakin gözlənilən nəticəni əldə etmək üçün BMT-nin müvafiq qurumlarının, digər beynəlxalq təşkilatların bu prosesdə iştirakı vacibdir. Beynəlxalq hüquqa görə, Ermənistan hökuməti bu ölkənin ərazisindən qovulmuş, etnik təmizləməyə məruz qalmış azərbaycanlıların öz yerlərinə təhlükəsiz

və ləyaqətli şəkildə qayıtmalarına şərait yaratmalıdır. Beynəlxalq hüquqa uyğun olaraq milli qanunvericilik də azərbaycanlıların hazırkı Ermənistan ərazisinə qayıtmaqlarına hüquqi zəmin yaradır. Azərbaycan Respublikasının vətəndaşlığı haqqında 30 sentyabr 1998-ci il tarixli Qanuna əsasən, 1988-ci il yanvarın 1-dən 1992-ci il yanvarın 1-dək Azərbaycan Respublikasının ərazisində məskunlaşmış qaçqınlar tərk etdikləri dövlətlərə qayıtmaq hüququnu itirmirlər. Qayıdış hüququ beynəlxalq hüquq normalarına əsaslanmaqla həyata keçirilməlidir.

22. **Qeyri-hökumət təşkilatı –** Bax: ictimai birlik; həmçinin bax: fond.
23. **Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasının Qanunu –** ictimai birliklərin və fondların, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin yaradılması və fəaliyyət göstərilməsi ilə bağlı münasibətləri tənzimləyən qanunvericilik aktı. 13 iyun 2000-ci ildə qəbul edilmişdir.
24. **Qəyyumluq Şurası –** Bax: Birləşmiş Millətlər Təşkilatının Qəyyumluq Şurası.
25. **Qitə hüquq sistemi –** Bax: kontinental hüquq ailəsi.
26. **Qloballaşma –** ümumdünya hüquqi, siyasi, iqtisadi, sosial, mədəni və dini inteqrasiya və unifikasiyanın obyektiv tarixi prosesi. Qloballaşmanın əsas elementlərindən biri qlobal cəmiyyət konsepsiyasıdır. Bu konsepsiyaya əsasən, bütün insanlar vahid qlobal cəmiyyətin üzvləridirlər. Elmi ədəbiyyatda bu konsepsiya kosmopoliya nəzəriyyəsi də adlanır. Qeyd olunan nəzəriyyə amerikalı sosioloq və filosof İmmanuel Vallerstaynın (1930-2019) əsərlərində inkişaf etdirilmişdir.
27. **Qloballaşma və insan hüquqları –** XX əsrdə başlanan insan hüquqlarının qloballaşması prosesi insan hüquqlarının təkamül yolu ilə inkişafının mühüm mərhələsidir. İnsan hüquqlarının qloballaşması bu hüquqların milli səviyyədən beynəlxalq səviyyəyə, ümumdünya səviyyəsinə çıxmasının göstəricisidir. İnsan hüquqlarına dair beynəlxalq standartların sürətlə yayılması, ayrı-ayrı milli hüquq sistemlərində insan hüquqlarını tənzimləyən normaların oxşarlığının artması, bir çox dövlətlərdə insan hüquqlarının eyni təminat mexanizmlərinin, ilk növbədə ombudsman təsisatlarının yaradılması və demək olar ki, eyni və ya oxşar funksiyaları yerinə yetirməsi, milli hüquq sistemlərinin unifikasiyası və digər bu kimi amillər insan hüquqlarının qloballaşmasını şərtləndirir. İnsan hüquqlarının qloballaşması beynəlxalq, regional və dövlətdaxili hüquqi sferaları əhatə edən spesifik normativ tənzimetmə sisteminin – qlobal insan hüquqları sisteminin formalaşmasına təkan verir. Qloballaşma in-

san hüquqlarının bütün kataloquna öz təsirini göstərir. Qloballaşma ilk növbədə insan hüquqlarını "informasiyalaşdırır". Müasir dövrün informasiya-kommunikasiya texnologiyalarının yüksək inkişafı ilə xarakterizə olunması, informasiya cəmiyyətinin, elektron hökumət modelinin formalaşması, sosial şəbəkələrin, süni intellektin sürətlə yayılması və həyatın bütün sferalarına sirayət etməsi və bununla bağlı digər faktorlar bilavasitə və ya dolayısı ilə insan hüquqlarına, onların məzmununa, həyata keçirilməsinə və müdafiəsinə təsir göstərir. Qloballaşmanın təsiri altında insan hüquqları planetar xarakter alır. Biotəbabətin, gen mühəndisliyinin inkişafı insan genomuna, insanların reproduktiv funksiyalarına, insanın psixikasına, fiziologiyasına, hətta insanın təbii ölüm prosesinə müdaxilə nəticəsində insan hüquqlarının təbii mahiyyəti, məzmunu və məqsədi dəyişikliyə məruz qalır. Qloballaşmanın təsiri nəticəsində insan hüquqlarının "antropologiyalaşması" prosesi baş verir. Dövlət sərhədlərini aşmaqla qloballaşma insan hüquqlarının tam həcmdə həyata keçirilməsi üçün geniş imkanlar açır. Qloballaşma şəraitində insan hüquqları həm də geniş demokratik proseslərin yayılmasına səbəb olur. Lakin bu zaman beynəlxalq siyasətdə ayrı-ayrı dövlətlər tərəfindən insan hüquqlarından onların mahiyyətinə zidd məqsədlər, məsələn, təzyiq vasitəsi kimi istifadə edilməsi yolverilməzdir. Bu hal insan hüquqlarının amorflaşmasına gətirib çıxarır. Qloballaşma şəraitində bütün insan hüquqlarının, o cümlədən fərdi və kollektiv hüquqların səmərəli şəkildə təmin edilməsi davamlı və dayanıqlı inkişafa keçidin əsas şərti kimi çıxış edir. BMT Baş Assambleyası tərəfindən 21 dekabr 2010-cu ildə "Qloballaşma və onun bütün insan hüquqlarından tam miqyaslı istifadəyə təsiri" adlı qətnamə qəbul edilmişdir. Qətnamədə insan hüquqları sahəsində əsas beynəlxalq hüquqi aktlara: BMT Nizamnaməsinə, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakta, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakta, Vyana Bəyannaməsi və Fəaliyyət Planına, İnkişaf hüququ haqqında Bəyannaməyə istinad edilərək heç bir ayrı-seçkilik olmadan insan hüquqlarının və əsas azadlıqların müdafiəsinin inkişafı və təbliği sahəsində beynəlxalq əməkdaşlığın zəruriliyi qeyd olunur. Qloballaşmanın yalnız iqtisadi proses deyil, həmçinin onun hüquqi aspektləri nəzərə alınaraq insan hüquqlarının tam həcmdə həyata keçirilməsinə mühüm təsir göstərdiyini qeyd edərək Baş Assambleya üzv-dövlətləri ədalətli qloballaşmanı dəstəkləməyə çağırır. Dövlətlər tərəfindən qloballaşma prosesində bütün insan hüquqlarının əsasında duran fundamental prinsiplərin, əsasən də bərabərlik və

ayrı-seçkiliyə yol verilməməsi prinsipinin həm milli, həm də beynəlxalq səviyyədə rəhbər tutulmasının vacibliyi qeyd olunmaqla bərabər, yoxsulluğun insan hüquqlarının tam və effektiv həyata keçirilməsinə əsas maneə olduğu bildirilir və Baş Assambleya bu problemin aradan qaldırılmasını beynəlxalq birliyin qarşısında duran ən mühüm vəzifə hesab edir. Baş Assambleya üzv-dövlətləri, BMT-nin ixtisaslaşmış qurumlarını, hökumətlərarası təşkilatları və vətəndaş cəmiyyətini yoxsulluğun aradan qaldırılması və inkişaf sahəsində beynəlxalq məqsədlərə çatmaq üçün qloballaşma prosesinin idarə edilməsi məqsədilə ədalətli iqtisadi inkişafı dəstəkləməyə çağırır. Qətnamədə qloballaşmanın mürəkkəb proses olmaqla onun mülki, siyasi, iqtisadi, sosial, mədəni hüquqların, o cümlədən də inkişaf hüququnun həyata keçirilməsinə mühüm təsir göstərdiyini nəzərə alaraq, insan hüquqlarının tam həcmdə həyata keçirilməsi üçün qloballaşmanın nəticələrinin təhlil edilməsinin zəruriliyi vurğulanır.

28. Qrant – Qrant haqqında Azərbaycan Respublikasının 17 aprel 1998-ci il tarixli Qanununa əsasən, qrant – humanitar, sosial və ekoloji layihələri, müharibə və təbii fəlakət nəticəsində ziyan çəkmiş ərazilərdə dağılmış istehsal, sosial təyinatlı obyektlərin və infrastrukturun bərpası üzrə işləri, təhsil, səhiyyə, mədəniyyət, hüquqi məsləhət, informasiya, nəşriyyat və idman sahələrində proqramları, elm, tədqiqat və layihələşdirmə proqramlarını, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən digər proqramları hazırlamaq və həyata keçirmək üçün bu Qanunla nəzərdə tutulmuş qaydada göstərilən yardımdır. Qrant yalnız konkret məqsəd (məqsədlər) üçün verilir. "Dini etiqad azadlığı haqqında" və "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulan ianələr və dövlət hakimiyyəti orqanlarının yardımları istisna olmaqla "Bələdiyyə maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən bələdiyyə maliyyəsinin iqtisadi əsaslarını (qrant istisna olmaqla) təşkil edən vəsait istisna olmaqla, qrant müqaviləsi (qərarı) olmadan bələdiyyələr, habelə Azərbaycan Respublikasında fəaliyyət göstərən dini qurumlar, qeyri-hökumət təşkilatları, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri maliyyə vəsaiti şəklində və (və ya) başqa maddi formada yardım qəbul edə bilməz. Qrant maliyyə vəsaiti şəklində və (və ya) başqa maddi formada verilir. Qrant təmənnasız verilir, onun əvəzi hər hansı bir şəkildə geri istənilə bilməz. Birbaşa mənfəət əldə etmək üçün istifadə edilən maddi yardım qrant sayılmır. Bilavasitə siyasi hakimiyyət uğrunda mübarizə məqsədləri, qanunların və digər qanunvericilik aktla-

rının qəbul etdirilməsi üzrə lobbiçilik fəaliyyəti, siyasi reklam, hər hansı siyasi təşkilatın (təşkilatların) və ya siyasi xadimin (xadimlərin) seçki kampaniyasının maliyyələşdirilməsi üçün istifadə edilən maddi yardım qrant sayılmır (maddə 1).

29. **Quaelibet poena corporalis, quamvis minima, major est qualibet poena pecuniaria** (lat.) – hər bir cismani cəza, hətta ən yüngül formada olsa belə, istənilən pul cəriməsindən daha ağırdır.

L

1. **Layiqli həyat səviyyəsi hüququ** – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinin 1-ci hissəsinə əsasən, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Konstitusiyanın 16-cı maddəsinin 1-ci hissəsinə müvafiq olaraq isə, Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır. İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 11-ci maddəsinin 1-ci hissəsinə əsasən, bu Paktda iştirak edən dövlətlər hər bir şəxsin özünün və ailəsinin kifayət qədər qidalanmasını, geyimini, yaşayış yerini və həyat şəraitinin daimi yaxşılaşmasını əhatə edən münasib həyat səviyyəsi hüququnu tanıyırlar. İştirakçı-dövlətlər bu hüququn həyata keçirilməsi üçün azad razılığa əsaslanan beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verərək müvafiq tədbirlər görəcəklər. Dəyişdirilmiş Avropa Sosial Xartiyasına uyğun olaraq, bütün işçilər özlərinin və ailələrinin normal həyat səviyyəsi üçün yetərli olan ədalətli mükafatlandırılma hüququna malikdirlər. Xartiyanın 4-cü maddəsinə əsasən, əməyin ədalətli ödənilməsi hüququnun səmərəli həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər işçilərin əməyinin işçilərə və ailələrinə layiqli həyat səviyyəsini təmin edəcək dərəcədə ödənilməsi hüququnu tanımaq öhdəliyini götürmüşlər.
2. **Legitimlik** (lat. legitimus – qanuni) – dövlət hakimiyyətinin fəaliyyətinin və mövcudluğunun qanuniliyinin əhali çoxluğu tərəfindən tanınması.
3. **Lex injusta non est lex** (lat.) – əgər qanun ədalətsizdirsə, o, qanun deyil.
4. **Leqallıq** (lat. legalis – qanuna müvafiq) – hər hansı bir münasibətlərin və ya hər hansı bir təşkilatın qanuna müvafiq olaraq mövcudluğu.
5. **Limburq prinsipləri** – İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın həyata keçirilməsinin əsas prinsipləri. 2-6 iyun 1986-cı ildə ABŞ, Almaniya, Avstraliya, İngiltərə, İspaniya, Macarıstan, Niderland, Norveç və digər ölkələrdən olan tanınmış beynəlxalq hüquqşünas alimlər, həmçinin BMT-nin İnsan Hüquqları Mərkəzinin, UNESCO-nun, Beynəlxalq Əmək Təşkilatının, Ümumdünya Səhiyyə Təşkilatının nümayəndələrinin və İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitənin üzvlərinin iştirakı ilə, əsas etibarilə Limburq Universitetinin (Niderland Krallığı) Hüquq fakültəsinin təşkilatçılığı ilə Niderlandın Maastrixt şəhə-

rində İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt üzrə iştirakçı dövlətlərin öhdəliklərinin xarakteri və həcmi ilə bağlı məsələlərin müzakirəsi məqsədilə keçirilmiş görüşdə razılaşdırılmış və qəbul edilmişdir. Qeyd olunan prinsiplər Paktın müddəalarının iştirakçı dövlətlər tərəfindən təfsiri zamanı mühüm əhəmiyyət kəsb edir. Limburq prinsipləri rəsmi xarakterə malik olmasa da, mühüm elmi və praktik əhəmiyyət kəsb edir. Prinsiplərə əsasən, iqtisadi, sosial və mədəni hüquqlar beynəlxalq insan hüquqları hüququnun ayrılmaz tərkib hissəsini təşkil edir. Qeyd olunan sənəddə həmçinin vurğulanır ki, insan hüquqları bölünməzdir və bir-biri ilə bağlıdır və buna görə də mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqların həyata keçirilməsinə eyni diqqətlə yanaşılmalıdır.

6. **Lokaut** (ing. lock out – qapını kiminsə üzünə bağlamaq) – kollektiv əmək mübahisələri zamanı yerinə yetirilməsi işəgötürənin istehsal, iqtisadi, maliyyə imkanlarına uyğun olmayan kollektiv tələblərlə, hüquqlarını və mənafeyini pozmaq cəhdi ilə keçirilən qanunsuz və əsassız tətillərin qarşısını almaq məqsədilə onun və ya mülkiyyətçi tərəfindən müəssisənin fəaliyyətinin müvəqqəti dayandırılması barədə elan. Azərbaycan Respublikası Konstitusiyasının 36-cı maddəsinə əsasən, qanunla müəyyən edilmiş hallar istisna olmaqla, lokaut qadağandır.
7. **Loyallıq** (ing. loyal – sadiq) – dövlət qulluqçusunun öz xidməti vəzifələrinə, konstitusiya quruluşuna sadiqliyi.

M

1. **Maastrixt rəhbər prinsipləri –** 22-26 yanvar 1997-ci ildə Niderlandın Maastrixt şəhərində İqtisadi, sosial və mədəni hüquqlara dair Limburq prinsiplərinin inkişafına həsr olunmuş forumda qəbul edilmiş sənəd. Sənədin tam adı – İqtisadi, sosial və mədəni hüquqların pozuntusuna dair Maastrixt rəhbər prinsipləridir. Sənəddə qeyd edilir ki, mülki və siyasi hüquqlar kimi iqtisadi, sosial və mədəni hüquqlar da dövlətlərin üzərinə üç növ öhdəlik qoyur: insan hüquqlarına hörmət etmək, onları qorumaq və həyata keçirmək. Bu öhdəliklərdən hər hansı birinin yerinə yetirilməməsi hüquqların pozulmasına səbəb olur. Sənəddə nəzərdə tutulan mühüm müddəalardan biri ondan ibarətdir ki, resursların çatışmazlığı bu və ya digər dövləti iqtisadi, sosial və mədəni hüquqların həyata keçirilməsinə dair müvafiq minimal öhdəliklərdən azad etmir. Sənəddə həmçinin vurğulanır ki, dövlətlər mülki və siyasi hüquqların pozuntusuna görə məsuliyyət daşıdıqları kimi, iqtisadi, sosial və mədəni hüquqların pozuntusuna görə də məsuliyyət daşıyırlar.
2. **Male nostro jure uti non debemus** (lat.) **–** hüquqlardan sui-istifadə yolverilməzdir.
3. **Mandat** (lat. mandatum – tapşırıq) – şəxsə xüsusi səlahiyyətlər verən sənəd; qanunverici orqanın üzvlərinin səlahiyyətlərinin qanuniliyini təsdiq edən sənəd.
4. **Manifest** (lat. manifestum – çağırış) – 1) dövlət başçısının və ya ali hakimiyyət orqanının əhaliyə ünvanlanmış xüsusi aktı; 2) siyasi partiyanın, ictimai birliyin fəaliyyət proqramını əks etdirən bəyannamə.
5. **Media** – kütləvi informasiyanın dövri və ya müntəzəm olaraq dərc olunmasını və (və ya) yayımlanmasını həyata keçirmək üçün istifadə olunan alət və vasitələr, habelə onlar vasitəsilə formalaşan informasiya mühiti.
6. **Media azadlığı** – dövlət senzurasının qadağan olunması, hər kəsin qanuni yolla informasiya axtarmaq, əldə etmək, hazırlamaq, ötürmək, istehsal etmək və yaymaq hüququna dövlət tərəfindən təminat verilməsi ilə xarakterizə olunan azadlıq növü. Media haqqında Azərbaycan Respublikasının 30 dekabr 2021-ci il tarixli Qanununa əsasən, Azərbaycan Respublikasında media azaddır. Media sahəsində fəaliyyət yaradıcılıq və redaksiya müstəqilliyi əsasında həyata keçirilir. Media sahəsində fəaliyyət azadlığı yalnız bu Qanun və media sahəsini tənzimləyən Azərbaycan Respublikasının digər qanunları ilə müəyyən edilmiş hallarda və qaydada məhdudlaşdırıla bilər. Azərbaycan Respublikasından kənarda yerləşən media

subyektlərinin fəaliyyətində bu Qanunun tələblərinin pozulması halları aşkar edildikdə, Şura və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə və bu Qanunda nəzərdə tutulmuş tədbirləri həyata keçirir (maddə 5).

7. **Media haqqında Azərbaycan Respublikasının Qanunu** – Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu və 13-cü bəndlərinə uyğun olaraq, media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edən normativ hüquqi akt. 30 dekabr 2021-ci ildə qəbul edilmişdir.

8. **Mediasiya** (lat. medius – orta) – mübahisələrin neytral, qərəzsiz, konfliktdə hər hansı bir marağı olmayan tərəfin – mediatorun iştirakı ilə alternativ həlli üsulu. Mediasiyanın tarixi qədim dövrlərə təsadüf edir. Qədim Yunanıstanda mübahisələrin vasitəçinin köməyi ilə həlli təcrübəsi geniş yayılmışdı. Mediasiya institutu hələ qədim Roma hüququna məlum idi. Roma hüququ, o cümlədən Yustinian məcəlləsi mediasiyanı tanıyırdı. Mediasiya institutunun müasir dövrdə inkişafı XX əsrin II yarısına təsadüf edir. İlk vaxtlar mediasiyadan ailə münasibətlərinə dair mübahisələrin həllində geniş istifadə olunurdu. 1970-ci illərin əvvəllərində ABŞ-də mediatorların iştirakı ilə mediasiya proqramının tətbiqinə başlanıldı və qısa müddət ərzində böyük uğur və populyarlıq qazandı. ABŞ-nin məhkəmə sistemi əksər mübahisələrin mediatorun iştirakı ilə həllinə üstünlük verir və tərəflərə mediatorun xidmətindən istifadə edilməsi təklif olunur. ABŞ-də mediasiyanın elmi-praktiki tərəflərini öyrənən və araşdıran xüsusi institut fəaliyyət göstərir. Mediasiya Avropa ölkələrində də geniş tətbiq olunur. Bir sıra Avropa ölkələrinin (Almaniya, Finlandiya, Fransa, Polşa və s.) qanunvericiliyində mediasiya institutu öz rəsmi təsbitini tapmışdır. Bəzi ölkələrdə isə mediasiyaya dair ayrıca qanunlar qəbul edilmişdir (Çexiya, İsveç, Norveç və s.). Mediasiya haqqında Azərbaycan Respublikasının 29 mart 2019-cu il tarixli Qanununa görə, mediasiya aşağıdakılar üzrə tətbiq edilir: mülki işlər və kommersiya mübahisələri (xarici elementli mübahisələr də daxil olmaqla); ailə münasibətlərindən irəli gələn mübahisələr; əmək münasibətlərindən irəli gələn mübahisələr; inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələr (maddə 3). Mediasiya tərəflər arasında münaqişə səviyyəsinin azaldılması və onları razı salacaq şəkildə mübahisənin həllini təmin etmək məqsədini daşı-

yır. Mediasiya aşağıdakı prinsiplər əsasında həyata keçirilir: könüllülük; tərəflərin hüquq bərabərliyi və əməkdaşlığı; mediatorların qərəzsizliyi və müstəqilliyi; mediasiya prosesinə müdaxilənin yolverilməzliyi; konfidensiallıq (maddə 4).

9. **Mediasiya haqqında Azərbaycan Respublikasının Qanunu** – Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 12-ci bəndlərinə uyğun olaraq, mübahisələrin alternativ həlli üsullarından olan mediasiyanın təşkili sahəsində ictimai münasibətləri tənzimləyən, mediasiyanın məqsədlərini, prinsiplərini, həyata keçirilməsi qaydalarını və mediatorların statusunu müəyyən edən normativ hüquqi akt. 29 mart 2019-cu ildə qəbul edilmişdir.
10. **Media subyekti** – əsas fəaliyyət növü kütləvi informasiyanın dərc olunması və (və ya) yayımlanması olan fiziki (jurnalistlər istisna olmaqla) və ya hüquqi şəxs, həmçinin media sahəsində fəaliyyət göstərən xarici hüquqi şəxsin Azərbaycan Respublikasında filial və nümayəndəliyi.
11. **Mediator –** mübahisələrin alternativ yolla həllində iştirak edən neytral, qərəzsiz, konfliktdə hər hansı bir marağı olmayan üçüncü tərəf – vasitəçi. Mediatorun əsas funksiyası tərəflər arasında kompromisin əldə edilməsi və yaranmış mübahisənin hərtərəfli həllinə nail olmaqdan ibarətdir. Mediator xüsusi mediasiya texnologiyasından istifadə etməklə tərəflər arasında konstruktiv dialoqun başlanmasına nail olur. Bəzi ölkələrdə mediator hakimiyyət orqanları tərəfindən törədilən hüquqpozmalarla bağlı ayrı-ayrı şəxslərdən şikayətlər almaq, araşdırma aparmaq və tövsiyələr vermək səlahiyyətinə malikdir. Bəzi ölkələrdə mediator həm də ombudsman funksiyalarını yerinə yetirir. Məsələn, Monakoda insan hüquq və azadlıqlarının müdafiəsi və mediasiya məsələləri üzrə Ali komissar fəaliyyət göstərir. Mediasiya haqqında Azərbaycan Respublikasının 29 mart 2019-cu il tarixli Qanununa görə, mediator – peşəkar əsasda mediasiya prosesinin həyata keçirilməsi üçün tərəflərin cəlb etdiyi və ya mediasiya təşkilatı tərəfindən təyin olunan, bu Qanunun tələblərinə cavab verən fiziki şəxsdir.
12. **Memorandum –** hər hansı bir beynəlxalq məsələnin faktiki tərəflərinin izah edildiyi, dövlətin mövqeyinin ifadə edildiyi diplomatik sənəd.
13. **Məcburi əmək –** qanunsuz olaraq şəxsin müəyyən işin yerinə yetirilməsinə məcbur edilməsi. Müasir beynəlxalq hüquq və hüquqi dövlətlərin qanunvericilikləri məcburi əməyi qadağan edir. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 8-ci maddəsinə əsasən, heç kim icbari və yaxud məcburi əməyə vadar edilməməlidir. İnsan hüquqlarının və əsas

azadlıqların müdafiəsi haqqında Konvensiyanın 4-cü maddəsinə görə, heç kim icbari və yaxud məcburi əməyə cəlb edilməməlidir. Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinə müvafiq olaraq, heç kəs zorla işlədilə bilməz.

14. **Məcburi köçkün –** müharibə, daxili iğtişaşlar, təbii və ya texnogen fəlakət, habelə iqlim dəyişmələri nəticəsində ölkə ərazisində öz daimi yaşayış yerini tərk etməyə məcbur olub başqa yerə köçmüş şəxslər. Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında Azərbaycan Respublikasının 21 may 1999-cu il tarixli Qanununa müvafiq olaraq, məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxs) – Azərbaycan Respublikası ərazisində hərbi təcavüz, təbii və texnogen fəlakət nəticəsində daimi yaşayış yerini tərk etməyə məcbur olub başqa yerə köçmüş şəxsdir. Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının 21 may 1999-cu il tarixli Qanununa görə, xarici hərbi təcavüz, müəyyən ərazilərin işğalı və ya mütəmadi atəş altında saxlanması nəticəsində Azərbaycan Respublikası ərazisində daimi yaşayış yerlərini tərk etməyə məcbur olub ölkə hüdudlarında başqa yerə köçmüş şəxslər bu Qanunun məqsədləri üçün məcburi köçkün hesab olunurlar. Ermənistan Respublikasında və başqa dövlətlərdə aparılan etnik təmizləmə nəticəsində daimi yaşayış yerlərini tərk edib Azərbaycan Respublikasına gəlmiş və daimi məskunlaşmamış şəxslər məcburi köçkünlərə bərabər tutulurlar.

15. **Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu –** Azərbaycan Respublikasında məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin məskunlaşdırılması, sosial müdafiəsi tədbirlərini və bununla əlaqədar dövlət orqanlarının vəzifələrini müəyyən edən qanunvericilik aktı. 21 may 1999-cu ildə qəbul edilmişdir.

16. **Məcəllə –** qanunvericiliyin bir sahəsinə aid hüquq normalarının birləşdirildiyi və sistemləşdirildiyi qanun; hüququn hər hansı bir sahəsinin normalarının təsbit olunduğu sistemləşdirilmiş qanunvericilik aktı.

17. **Məcəllələşdirmə** – normativ hüquqi aktların forma və məzmun baxımından yenidən işlənməsi yolu ilə vahid normativ hüquqi aktlarda birləşdirilməsi.

18. **Mədəni hüquqlar –** insanın mənəvi inkişafını təmin edən və fərdin cəmiyyətin proqressiv inkişafının faydalı iştirakçısı qismində çıxış etməsinə yönəlmiş hüquq və azadlıqlar kompleksi. Mədəni hüquqlar kateqoriyasına, əsasən bu hüquqlar aiddir: mədəniyyət hüququ, mədəni dəyərlərə ça-

tım hüququ, cəmiyyətin mədəni həyatında sərbəst iştirak etmək hüququ, yaradıcılıq azadlığı, elmi tərəqqinin nailiyyətlərindən istifadə etmək hüququ, mədəniyyət nailiyyətlərindən istifadə hüququ və s. Mədəniyyət haqqında Azərbaycan Respublikasının 21 dekabr 2012-ci il tarixli Qanununa görə, Azərbaycan Respublikasında hər kəsin mədəniyyət sahəsində hüquq və azadlıqları, beynəlxalq hüququn prinsip və normaları rəhbər tutulmaqla təmin edilir. Dövlət cinsindən, irqindən, dilindən, dini və siyasi əqidəsindən, milliyyətindən, sosial vəziyyətindən, sosial mənşəyindən, sağlamlıq imkanlarından, ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər bir şəxsin mədəniyyət sahəsində öz hüquq və azadlıqlarını həyata keçirməsinə təminat verir. Mədəniyyət sahəsində dövlət tərəfindən aşağıdakı bərabərliklər təmin edilir: dövlətin ərazisində yaşayan xalqların, milli azlıqların mədəniyyətlərinin, hüquq və azadlıqlarının bərabərliyi; dövlətin ərazisində yaşayan xalqların, milli azlıqların öz mədəniyyətlərini qorumaq, öz mədəniyyət kimliklərini müəyyən etmək, mədəni sərvətlərini bərpa etmək, gücləndirmək və inkişaf etdirmək bərabərliyi. Qanunda bir sıra mühüm mədəni hüquq və azadlıqlar öz əksini tapmışdır: mədəni həyatda iştirak etmək hüququ, mədəni özünəməxsusluq hüququ, yaradıcılıq azadlığı, xaricdə mədəniyyət fəaliyyəti hüququ, mədəniyyət sahəsində mülkiyyət hüququ, mədəniyyət sahəsində sahibkarlıq hüququ, mədəniyyət müəssisələrindən və mədəni sərvətlərdən istifadə etmək hüququ, mədəniyyət sahəsində təhsil hüququ, mədəniyyət sahəsində məlumat azadlığı.

19. **Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu** – Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasında dövlət mədəniyyət siyasətinin məqsəd və prinsiplərini, mədəniyyət fəaliyyəti subyektlərinin hüquq və vəzifələrini, mədəniyyət sahəsində hüquqi, təşkilati, iqtisadi və sosial təminatları müəyyən edən, mədəni sərvətlərin yaradılması, toplanması, tədqiqi, təbliği və qorunması sahəsində yaranan münasibətləri tənzimləyən qanunvericilik aktı. 21 dekabr 2012-ci ildə qəbul edilmişdir.

20. **Məhkəmə** – ədalət mühakiməsinin həyata keçirilməsi yolu ilə insanların pozulmuş hüquqlarını və azadlıqlarını bərpa edən, cəmiyyətin və ayrı-ayrı şəxslərin maraqlarını müxtəlif qəsdlərdən mühafizə edən, qanun pozuntusuna yol vermiş şəxslər barəsində dövlət məcburetmə tədbiri tətbiq etmək səlahiyyətinə malik olan dövlət orqanı. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə əsasən, məhkəmə – Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq ədalət mühakiməsini

həyata keçirmək məqsədilə yaradılan, bu Məcəllə ilə müəyyən edilmiş qaydada birinci, apellyasiya və kassasiya instansiyası qismində cinayət işlərinə və ya cinayət təqibi ilə bağlı digər materiallara baxan məhkəmədir. Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinə əsasən, insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri məhkəmələr həll edir. Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli Qanununa əsasən, Azərbaycan Respublikasında Azərbaycan Respublikasının qanunları ilə təsis edilmiş Azərbaycan Respublikası məhkəmələri fəaliyyət göstərir. Azərbaycan Respublikası məhkəmələrinin fəaliyyəti yalnız ədalət mühakiməsinin və qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada məhkəmə nəzarətinin həyata keçirilməsinə yönəldilmişdir. Məhkəmələr ədalət mühakiməsini həyata keçirərkən Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını, mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların, siyasi partiyaların, ictimai birliklərin, digər hüquqi şəxslərin hüquqlarını və qanuni mənafelərini hər cür qəsdlərdən və qanun pozuntularından müdafiə edir, Azərbaycan Respublikasının Konstitusiyasında və bu qanunda nəzərdə tutulmuş digər vəzifələri həyata keçirirlər. Məhkəmələrin üzərinə başqa vəzifələr qoyulması yolverilməzdir (maddə 3).

21. **Məhkəmə aidiyyətinin dəyişdirilməsinə yol verilməməsi** – şəxsin razılığı olmadan onun işinə başqa məhkəmədə baxılmasına yol verilməməsi. Azərbaycan Respublikası Konstitusiyasının 62-ci maddəsinə əsasən, hər kəsin onun işinə qanunla müəyyən edilmiş məhkəmədə baxılması hüququ vardır. Şəxsin razılığı olmadan onun işinə başqa məhkəmədə baxılmasına yol verilmir.

22. **Məhkəmə hakimiyyəti** – hakimiyyətlərin bölgüsü prinsipinə müvafiq olaraq dövlət hakimiyyətinin qollarından biri. Məhkəmə hakimiyyəti qanuna müvafiq olaraq konstitusiya, mülki, inzibati və cinayət məhkəmə icraatı vasitəsilə müstəqil məhkəmələr tərəfindən həyata keçirilir. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir. Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirir. Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının apellyasiya məhkəmələri, Azərbaycan Respublikasının ümumi məhkəmələri və digər ixtisaslaşdırılmış məhkəmələri həyata keçirir. Məhkəmə hakimiyyəti Konstitusiya,

mülki və cinayət məhkəmə icraatı vasitəsilə və qanunla nəzərdə tutulmuş digər vasitələr ilə həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır. Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli Qanununa əsasən, Azərbaycan Respublikasında məhkəmə hakimiyyətinin rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağından, Dövlət gerbindən və ədalət mühakiməsinin rəsmi emblemlərindən ibarətdir (maddə 6).

23. **Məhkəmə hökmü** – şəxsin təqsirləndirildiyi əməllərdə onun təqsirli olub-olmaması, təqsirləndirilən şəxsə cəza tətbiq edilib-edilməməsi haqqında birinci və apellyasiya instansiyası məhkəməsində məhkəmə baxışı nəticəsində hakimin (hakimlərin) çıxardığı qərar.

24. **Məhkəmə-Hüquq Şurası** – Azərbaycan Respublikasında məhkəmə sisteminin təşkilinin, hakimlərin və məhkəmə sisteminin müstəqilliyinin təmin edilməsi, vakant hakim vəzifələrinə hakim olmayan namizədlərin seçilməsinin təşkili, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, onların iş yerinin dəyişdirilməsi, vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb edilməsi, habelə məhkəmələr və hakimlərlə bağlı digər məsələləri səlahiyyəti daxilində həll edən məhkəmə hakimiyyətinin özünüidarə funksiyalarını həyata keçirən orqan. Məhkəmə-Hüquq Şurası haqqında Azərbaycan Respublikasının 28 dekabr 2004-cü il tarixli Qanununa əsasən, Məhkəmə-Hüquq Şurası öz fəaliyyətini müstəqillik, qanunçuluq, kollegiallıq, qərəzsizlik və obyektivlik prinsipləri əsasında qurur. Məhkəmə-Hüquq Şurası daimi fəaliyyət göstərən müstəqil orqandır və təşkilati, maliyyə, habelə hər hansı başqa cəhətdən qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarından, yerli özünüidarə orqanlarından, habelə hüquqi və fiziki şəxslərdən asılı deyildir (maddə 3-4). Şura 15 üzvdən ibarət tərkibdə fəaliyyət göstərir. Şuranın tərkibi, əsasən, hakimlərdən, habelə icra, qanunvericilik orqanları, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının və hüquq ictimaiyyətinin nümayəndələrindən ibarət olmaqla aşağıdakı şəxslərdən təşkil olunur: hakimlərin konfransı tərəfindən seçilən kassasiya instansiyası məhkəməsinin üç hakimi; hakimlərin konfransı tərəfindən seçilən apellyasiya instansiyası məhkəmələrinin üç hakimi; hakimlərin konfransı tərəfindən seçilən birinci instansiya məhkəmələrinin üç hakimi; Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən təyin edilən hakim; Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təyin edilən şəxs; Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən təyin edilən şəxs; Azərbay-

can Respublikasının Vəkillər Kollegiyası tərəfindən təyin edilən vəkil; Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən təyin edilən hüquqşünas alim; hüquq ictimaiyyətinin hakimlərin konfransı tərəfindən seçilən nümayəndəsi. Şura üzvlərinin səlahiyyət müddəti beş ildir (maddə 6). Şuranın tərkibinə ikili vətəndaşlığı, başqa dövlətlər qarşısında öhdəliyi olan, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, sahibkarlıq və kommersiya fəaliyyəti ilə məşğul olan şəxslər, din xadimləri daxil edilə bilməzlər (maddə 7). Məhkəmə-Hüquq Şurası aşağıdakı vəzifələri həyata keçirir: məhkəmələrin təşkil olunmasına dair Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təklif verir (olduğu yer və hakimlərin ümumi sayı); məhkəmələrin ərazi yurisdiksiyasını müəyyən edir; hakim vəzifəsinə namizədlərin seçilməsi işini təşkil edir; hakimlərin fəaliyyətini və məhkəmə sədrlərinin, sədr müavinlərinin və məhkəmə kollegiyaları sədrlərinin məhkəmə fəaliyyətinin təşkili ilə bağlı işini qiymətləndirir; "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 79-1-ci maddəsinə uyğun olaraq, məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması qaydasını Azərbaycan Respublikası Ali Məhkəməsinin təklifləri əsasında müəyyən edir; hakimlərin iş yerinin dəyişdirilməsinə, onların vəzifədə irəli çəkilməsinə, səlahiyyət müddətinin uzadılmasına, Azərbaycan Respublikasının Ali Məhkəməsinin və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədrləri istisna olmaqla təyin olunmuş hakimlər sırasından Azərbaycan Respublikası məhkəmələrinin sədrlərinin, sədr müavinlərinin və məhkəmə kollegiyaları sədrlərinin təyin edilməsinə, habelə bu şəxslərin vəzifədən azad edilməsinə və ya digər vəzifəyə keçirilməsinə dair məsələləri müzakirə edir; hakimlərin öz razılığı ilə 1 ilədək müddətə Məhkəmə-Hüquq Şurasının Aparatına ezam edilməsinə, zərurət olduqda, ezam edilmiş hakimin razılığı ilə ezam edilmə müddətinin yenidən 1 ilədək uzadılmasına dair məsələləri müzakirə edir; ezam edilmiş hakimi özünün və ya ezam edildiyi qurumun təşəbbüsü ilə əvvəl işlədiyi vəzifəyə qaytarır; hakim vəzifəsindən öz arzusu ilə azad olunaraq ədliyyə orqanlarında inzibati vəzifədə və ya prokurorluq orqanlarında prokurorluq işçisi kimi işləyən şəxs yenidən hakim vəzifəsinə təyin edilmək arzusunu bildirdikdə, onu müsahibədən keçirir; məhkəmə statistikasının aparılması, məhkəmələrdə kargüzarlığın təşkil edilməsi, icra və əmək intizamına riayət olunması üçün tədbirlər görür, birinci və apellyasiya instansiyası məhkəmələrində bu sahələr üzrə işin təşkili vəziyyətini yoxlayır; hakimlərin əmək və sosial hüquqlarının təmin edilməsi üçün tədbirlər görür; məhkəmələr tərəfindən məhkəmə

fəaliyyətinin təşkilinə dair ümumiləşdirmələri öyrənir, təhlil edir, məhkəmə statistikası sahəsində statistika hesabatının formasını müəyyənləşdirir, habelə statistika hesabatlarını ümumiləşdirir və dərc edir; birinci instansiya məhkəməsinin hakimi öz vəzifələrini yerinə yetirə bilmədikdə və ya hakim vəzifəsi vakant olduqda, həmin məhkəməyə digər müvafiq məhkəmənin hakiminin onun razılığı ilə 1 ilədək müddətə ezam edilməsi məsələsini müzakirə edir; birinci instansiya məhkəmələrində sədr və sədr müavini öz vəzifələrini yerinə yetirə bilmədikdə və ya sədr və sədr müavini vəzifələri vakant olduqda onların vəzifələrinin icrasını müvəqqəti olaraq həmin məhkəmənin hakimlərindən birinə həvalə edilməsi məsələsini müzakirə edir; Azərbaycan Respublikasının Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi və apellyasiya məhkəmələri istisna olmaqla, digər məhkəmələrin hakimlərinə məzuniyyət verir; hakimlərin peşə səviyyəsinin yüksəldilməsi, hakim vəzifələrinə namizədlərin hazırlanması üçün tədbirlər görür; hakimlərin müstəqilliyinin təmin edilməsi və məhkəmələrin işinə kənar müdaxilələrin qarşısının alınması üçün tədbirlər görür; məhkəmə fəaliyyətinin hüquqi və informasiya təminatını həyata keçirir; məhkəmələrin maddi-texniki təchizatı və maliyyələşdirilməsi üzrə təkliflər verir; Hakimlərin Etik Davranış Kodeksini təsdiq edir; hakimlərin vəsiqələrinin nümunələrini təsdiq edir; Məhkəmə-Hüquq Şurasının Apellyasiya Şurası haqqında Əsasnaməni təsdiq edir; hakimlərin təltif olunması, mükafatlandırılması və intizam məsuliyyəti məsələlərinə baxır; hakimlərin səlahiyyətlərinə xitam verilməsi və cinayət məsuliyyətinə cəlb edilməsi barədə müraciətlərə baxır; "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 113-cü maddəsinin birinci hissəsində nəzərdə tutulmuş halda hakimlərin səlahiyyətlərinə xitam verir, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 113-cü maddəsinin ikinci hissəsinin 1-ci, 3-5-ci, 8-ci (hakimin Azərbaycan Respublikası vətəndaşlığına xitam verilməsi halında) və ya 9-cu bəndlərində nəzərdə tutulmuş əsaslar olduqda, hakimlərin səlahiyyətlərinə vaxtından əvvəl xitam verir; daxil olmuş ərizə və şikayətlərə, o cümlədən Hakimlərin Seçki Komitəsinin qərarlarından verilmiş şikayətlərə baxır; qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri həyata keçirir (maddə 11).

25. **Məhkəmə instansiyası** – məhkəmə icraatı mərhələsi. Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli Qanununa əsasən, məhkəmələrdə işlərə birinci instansiya, apellyasiya və kassasiya instansiyaları üzrə baxılır. Rayon (şəhər) məhkəməsi birinci

instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş mülki, cinayət işlərinə, inzibati xətalara dair və digər işlərə baxır (maddə 20). Ağır cinayətlər məhkəməsi birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş cinayət işlərinə baxır. Ağır cinayətlər məhkəməsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) məsələsini həll edir, məhkəmə statistikasını təhlil edir, məhkəmə fəaliyyətinin təşkili vəziyyətini, məhkəmə təcrübəsini öyrənir və ümumiləşdirir, Azərbaycan Respublikası qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir (maddə 25). Hərbi məhkəmə birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş cinayət işlərinə, inzibati xətalara dair və digər işlərə baxır. Hərbi məhkəmə məhkəmə statistikasını təhlil edir, məhkəmə fəaliyyətinin təşkili vəziyyətini, məhkəmə təcrübəsini öyrənir və ümumiləşdirir, Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirir (maddə 31). İnzibati məhkəmə birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş inzibati mübahisələrə dair işlərə baxır. İnzibati məhkəmə məhkəmə statistikasını təhlil edir, məhkəmə fəaliyyətinin təşkili vəziyyətini, məhkəmə təcrübəsini öyrənir və ümumiləşdirir, Azərbaycan Respublikası qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir (maddə 42). Kommersiya məhkəməsi birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş kommersiya mübahisələrinə dair işlərə baxır. Kommersiya məhkəməsi məhkəmə statistikasını təhlil edir, məhkəmə fəaliyyətinin təşkili vəziyyətini, məhkəmə təcrübəsini öyrənir və ümumiləşdirir, Azərbaycan Respublikasının qanunları ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir (maddə 46.1). Azərbaycan Respublikası Konstitusiyasının 132-ci maddəsinin I hissəsinə müvafiq olaraq apellyasiya məhkəməsi mülki, kommersiya və inzibati mübahisələrə dair, cinayət və inzibati xətalara dair işlər üzrə yuxarı instansiya məhkəməsidir (maddə 61). Azərbaycan Respublikası Konstitusiyasının 131-ci maddəsinə uyğun olaraq Ali Məhkəmə ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid olan mülki (o cümlədən kommersiya və inzibati mübahisələrə dair), cinayət işləri və digər işlər üzrə ali məhkəmə orqanıdır. Ali Məhkəmə kassasiya instansiyası məhkəməsi kimi qanunla müəyyən edilmiş prosessual qaydada ədalət mühakiməsini həyata keçirir. Ali Məhkəmə Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində təşkil edilir, onun yurisdiksiyası Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir (maddə 77).

26. **Məhkəmə qərardadı** – iş mahiyyəti üzrə həll edilmədikdə çıxarılan məhkəmə aktı. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə əsasən, məhkəmə iş üzrə icraatı dayandırdıqda, icraata xitam verdikdə, iddianı baxılmamış saxladıqda, habelə bu Məcəllə ilə nəzərdə tutulmuş digər hallarda qərardad çıxarır. Ayrıca akt şəklində qəbul edilən qərardadda aşağıdakılar göstərilməlidir: qərardadın çıxarılma vaxtı və yeri; qərardadı çıxaran məhkəmənin adı, hakim və ya məhkəmənin tərkibi və məhkəmənin iclas katibi; işdə iştirak edən şəxslər, mübahisənin predmeti və ya irəli sürülmüş tələb; qərardadın hansı məsələ barədə çıxarılması; məhkəmənin gəldiyi nəticələrin səbəbləri və məhkəmənin rəhbər tutduğu qanunlara istinad edilməsi; baxılan məsələ üzrə nəticə; qərardaddan şikayət verilə bilərsə, şikayət vermə qaydası və müddəti (maddə 263-264).

27. **Məhkəmə qərarı** – dövlətin adından çıxarılan ədalət mühakiməsi aktı.

28. **Məhkəmə qətnaməsi** – işi mahiyyəti üzrə həll edən birinci instansiya məhkəməsinin aktı. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə əsasən, məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır. Qətnamə mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan maddi hüquq normalarına və işin baxılması zamanı qüvvədə olan prosessual hüquq normalarına uyğun çıxarılmalıdır. Qətnamə çıxarıldıqda hakim sübutları qiymətləndirir, iş üçün əhəmiyyətli olan nə kimi halların müəyyən edildiyini, nə kimi halların müəyyən edilmədiyini, tərəflərin hansı hüquqi münasibətdə olmalarını, həmin iş üzrə hansı qanunun tətbiq edilməli olduğunu və iddianın təmin olunub-olunmadığını müəyyən edir. Qətnamə giriş, təsviri, əsaslandırıcı və nəticə hissələrindən ibarətdir. Qətnamənin giriş hissəsində onun çıxarılma vaxtı və yeri, qətnamə çıxaran məhkəmənin adı, hakim, məhkəmə iclası katibi, tərəflər, işdə iştirak edən digər şəxslər, nümayəndələr və vəkillər, mübahisənin predmeti və ya irəli sürülən tələb göstərilməlidir. Qətnamənin təsviri hissəsində iddiaçının tələbi, cavabdehin etirazları və işdə iştirak edən digər şəxslərin izahatları göstərilməlidir. Qətnamənin əsaslandırıcı hissəsində işin məhkəmə tərəfindən müəyyən edilən halları, işin halları barədə məhkəmənin əsaslandırıldığı sübutlar və məhkəmənin bu və ya digər sübutları və iclasda iştirak edən şəxslərin istinad etdiyi qanun və digər hüquqi aktları rədd etmək üçün gətirdiyi dəlillər, habelə məhkəmənin qətnamə çıxararkən rəhbər tutduğu qanunlar və digər hüquqi aktlar göstərilməlidir. Cavabdeh tərəfindən iddia tələbi etiraf edildikdə qətnamənin əsaslandırıcı hissəsində yalnız iddianın etiraf edilməsi və onun məhkəmə tərəfindən qəbul edilməsi göstərilə bilər. Qətnamənin nəticə hissəsində iddianın tam və ya

qismən təmin edilməsi və ya rədd edilməsi haqqında məhkəmənin hansı nəticəyə gəldiyi, məhkəmə xərclərinin bölüşdürülməsi, qətnamədən şikayət vermə müddəti və qaydası göstərilməlidir; işə qiyabi baxıldığı halda qətnamənin nəticə hissəsində cavabdehin qətnamənin ləğvi üçün ərizə vermə qaydası da əks olunmalıdır (maddə 220).

29. **Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikasının Qanunu –** Azərbaycan Respublikasında ədalət mühakiməsinin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş müstəqil məhkəmə hakimiyyəti yaratmağa yönəlmiş qanunvericilik aktı. 10 iyun 1997-ci ildə qəbul edilmişdir.

30. **Məhkəmə müdafiəsi hüququ –** hər kəsin öz hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququ. Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikasının Qanununa əsasən, Azərbaycan Respublikası vətəndaşlarının, onun ərazisində yaşayan xarici vətəndaşların, habelə vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının Konstitusiyasında və digər qanunlarda nəzərdə tutulmuş hüquq və azadlıqlarının, hüquqi şəxslərin qanuni mənafelərinin hər cür qəsdlərdən və qanun pozuntularından məhkəmə icraatının istənilən mərhələsində məhkəmə müdafiəsi hüququ təmin olunur. Heç kəs məhkəmə müdafiəsi hüququndan məhrum edilə bilməz (maddə 10).

31. **Məhkəmə sistemi –** ədalət mühakiməsini həyata keçirən müxtəlif instansiya məhkəmələrinin qanunla müəyyən olunmuş məcmusu. Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikasının Qanununa əsasən, Azərbaycan Respublikasında ədalət mühakiməsini Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan aşağıdakı məhkəmələr həyata keçirirlər: rayon (şəhər) məhkəmələri; ağır cinayətlər məhkəmələri; Naxçıvan Muxtar Respublikasının ağır cinayətlər məhkəməsi; hərbi məhkəmələr; inzibati məhkəmələr; kommersiya məhkəmələri; Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi; apellyasiya məhkəmələri; Azərbaycan Respublikasının Ali Məhkəməsi.

32. **Məhkəmə təminatı ilə bağlı olan hüquqlar –** mülki və siyasi hüquqlar qrupuna daxil olan məhkəmə təminatına yönəlmiş xüsusi kateqoriya hüquq və azadlıqların məcmusu. Bu kateqoriya hüquqlara aiddir: həbs olunan hər bir şəxsə onun başa düşdüyü dildə həbsəalmanın səbəbləri və irəli sürülmüş istənilən ittiham barədə dərhal məlumat verilməsi; ağlabatan müddət ərzində məhkəmə araşdırması və məhkəməyə qədər azad edilmək hüququ; hər bir şəxsin tutulma və ya həbsə alma nəticəsin-

də, onun tutulmasının və ya həbsə alınmasının qanuniliyinə məhkəmə tərəfindən təxirə salınmadan baxılmaq və onun həbsinin məhkəmə tərəfindən qanunsuz hesab edildiyi halda azad edilmək hüququ; qanunsuz tutulma və ya həbsə almaya məruz qalmış hər bir şəxsin kompensasiya hüququ; hər bir şəxsin işinin ağlabatan müddətdə qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə tərəfindən obyektiv və açıq surətdə araşdırılması hüququ; təqsirsizlik prezumpsiyası hüququ; cinayət törətməkdə ittiham edilən hər bir şəxsin ona elan olunmuş ittihamın xarakteri və əsasları haqqında başa düşdüyü dildə dərhal və ətraflı məlumat almaq hüququ; cinayət törətməkdə ittiham edilən hər bir şəxsin öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və şəraitə malik olmaq hüququ; cinayət törətməkdə ittiham edilən hər bir şəxsin şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsilə müdafiə olunmaq və yaxud müdafiəçinin haqqını ödəmək üçün kifayət qədər vəsaiti olmadıqda, əgər ədalət mühakiməsinin mənafeləri bunu tələb edirsə, təmənnasız hüquqi yardım almaq hüququ; cinayət törətməkdə ittiham edilən hər bir şəxsin, onun əleyhinə ifadə vermiş şahidləri dindirmək və yaxud bu şahidlərin dindirilməsini tələb etmək, öz şahidlərinin və onun əleyhinə ifadə vermiş şahidlərin eyni şərtlərlə dindirilməsinə nail olmaq hüququ; cinayət törətməkdə ittiham edilən hər bir şəxsin məhkəmədə istifadə edilən dili başa düşmədikdə və ya həmin dildə danışa bilmədikdə tərcüməçinin pulsuz köməyindən istifadə etmək hüququ; qanunsuz cəzaya məruz qalmamaq hüququ; cinayət törətməyə görə məhkəmə tərəfindən məhkum edilmiş hər kəsin, barəsində çıxarılmış hökmə daha yuxarı məhkəmə instansiyasında yenidən baxılması hüququ; məhkəmə səhvinə görə kompensasiya hüququ; eyni əmələ görə iki dəfə məhkum edilməmək və ya cəzalandırılmamaq hüququ.

33. **Məhkəməyə müraciət etmək hüququ –** Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinə əsasən, hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət edə bilər. Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında Azərbaycan Respublikasının 11 iyun 1999-cu il tarixli Qanununa əsasən, dövlət orqanlarının və yerli özünüidarə orqanlarının, müəssisələrin, idarələrin və təşkilatların, ictimai birliklərin, vəzifəli şəxslərin qə-

rar və hərəkətləri (hərəkətsizliyi) nəticəsində öz hüquq və azadlıqlarını pozulmuş hesab edən Azərbaycan Respublikasının hər bir vətəndaşının məhkəməyə müraciət etmək hüququ vardır. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə başqa qayda nəzərdə tutulmamışdırsa, bu Qanunla müəyyənləşdirilmiş qaydada müvafiq məhkəməyə müraciət edə bilərlər (maddə 1).

34. **Məhkəməyə təkrar müraciət hüququ –** məhkəmə təminatı ilə bağlı olan əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 65-ci maddəsinə əsasən, məhkəmənin məhkum etdiyi hər bir şəxsin öz barəsində çıxarılmış hökmə qanunla nəzərdə tutulan qaydada yuxarı məhkəmədə yenidən baxılması, habelə özünün əfv edilməsi və cəzasının yüngülləşdirilməsi haqqında müraciət etmək hüququ vardır.

35. **Məhkum –** barəsində qanuni qüvvəyə minmiş ittiham hökmü çıxarılan şəxs. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə əsasən, Azərbaycan Respublikası məhkumların hüquq və azadlıqlarına, qanuni mənafelərinə hörmət edir və qoruyur, məhkumların islah edilmə vasitələrinin tətbiq edilməsinin qanuniliyini, cəzaların icrası zamanı onların hüquqi müdafiəsini və şəxsi təhlükəsizliyini təmin edir.

36. **Məhkumların əsas hüquqları və azadlıqları –** cəzaların icrası və çəkilməsi zamanı məhkumların qanunvericiliklə nəzərdə tutulmuş hüquq və azadlıqlarının məcmusu. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə əsasən, cəzaların icrası və çəkilməsi zamanı məhkumların qanunvericiliklə nəzərdə tutulmuş hüquq və azadlıqları təmin olunur. Məhkumların hüquq və azadlıqları yalnız qanunvericiliklə müəyyən olunmuş qaydada məhdudlaşdırıla bilər. Cəzaların icrası və çəkilməsi zamanı məhkumların aşağıdakı hüquqları vardır: cəzanı insan şəxsiyyətinə hörməti təmin edən şəraitdə çəkmək; ictimai faydalı əməklə məşğul olmaq; bədən tərbiyəsi və idmanla məşğul olmaq; istirahət etmək; pensiya və ya sosial müavinət almaq; ilk tibbi yardım daxil olmaqla, tibbi rəydən asılı olaraq ambulator və ya stasionar şəraitdə tibbi yardım almaq; öz hüquq və vəzifələri barədə, o cümlədən məhkəmə tərəfindən təyin edilmiş cəzanın icrası qaydası və şərtləri barəsində məlumat almaq; hüquq və azadlıqlarının müdafiəsi üzrə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada təklif, ərizə və şikayətlə dövlət dilində və ya başqa dildə müraciət etmək, zəruri hallarda isə bu məqsədlər üçün cəzanı icra edən müəssisə və ya orqan tərəfindən təqdim edilən tərcüməçi xidmətindən istifadə etmək; cəzanın icrası və çəkilməsi

ilə əlaqədar barəsində qəbul edilən qərarlara dair öz rəyini bildirmək və ya onlardan şikayət etmək; dini ayinlərin icra edilməsində iştirak etmək; hüquqi yardım almaq; "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq; təhsil almaq və peşə hazırlığı keçmək; əcnəbi, vətəndaşlığı olmayan və ya qaçqın statusuna malik olan məhkumların qısa müddətdə şəxsi məsələlər üzrə öz dövlətlərinin Azərbaycan Respublikasındakı diplomatik və konsulluq nümayəndəlikləri ilə və ya onlara himayədarlığı öz üzərinə götürmüş milli, yaxud beynəlxalq təşkilatlarla əlaqəyə girmək; cəzanın çəkilməsinin təxirə salınması və ya onun ləğv edilməsi, xəstəliyə görə cəzanı çəkməkdən azad edilməsi, ittiham hökmünün icrası müddəti ilə əlaqədar cəza çəkməkdən azad edilməsi, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi, amnistiyanın tətbiq edilməsi, müalicə müəssisəsində saxlanma vaxtının cəzaçəkmə müddətinə daxil edilməsi, məhkumluğun vaxtından əvvəl götürülməsi üçün ərizə ilə məhkəməyə, əfv edilmək üçün isə Azərbaycan Respublikasının Prezidentinə bilavasitə və ya qanuni nümayəndələrinin vasitəsilə, habelə yetkinlik yaşına çatmayan və ya fiziki pozuntulardan, yaxud psixi xəstəlikdən əzab çəkən məhkumlar barəsində isə onların müdafiəçilərinin və qanuni nümayəndələrinin vasitəsilə müraciət etmək. Cəzaları icra edən müəssisə və ya orqanın işçi heyəti məhkumlara qarşı münasibətdə nəzakətli olmalıdır. Məhkumlar qəddar və ya insan ləyaqətini alçaldan rəftara məruz qalmamalıdırlar. Məhkumlara məcburetmə tədbirləri yalnız qanuna əsasən tətbiq edilə bilər. Məhkumlar onların həyat və sağlamlıqlarını təhlükə altında qoya bilən tibbi və ya başqa təcrübələrə məruz qala bilməzlər (maddə 10).

37. **Məhkumlarla minimal standart davranış qaydaları –** BMT-nin 1955-ci ildə Cenevrədə keçirilmiş cinayətkarlığın qarşısının alınması və hüquq pozuntusu törədən şəxslərlə rəftara dair birinci Konqresində qəbul edilmiş, İqtisadi və Sosial Şuranın 31 iyul 1957-ci il və 13 may 1977-ci il tarixli qətnamələri ilə təsdiq edilmiş sənəd. Sənədin əsas prinsipi qaydaların qərəzsiz şəkildə və ayrı-seçkiliyə yol verilmədən tətbiq edilməsidir. Sənəddə şəxsi gigiyena, geyim, qidalanma, fiziki çalışmalar və idman, tibbi xidmət, ətraf mühitlə əlaqə, rəftar və digər məsələlərlə bağlı rəhbər prinsiplər öz əksini tapmışdır.

38. **Məişət zəminində cinsi zorakılıq** – Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli

Qanununun şamil edildiyi şəxslərin birinin digərini onun iradəsi əleyhinə seksual xarakterli hərəkətlərə məcbur etməsi.

39. **Məişət zəminində fiziki zorakılıq** – Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli Qanununun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən fiziki təzyiq göstərməsi, yəni zor tətbiq etməklə təhlükəsizliyini pozması, döyməsi, sağlamlığına zərər vurması, işgəncə verməsi, azadlıq hüququnu məhdudlaşdırması.
40. **Məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi** – Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli Qanununun şamil edildiyi şəxslərin birinin digərini onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum etməsinə, iqtisadi asılılıq yaratmasına, belə asılılığı saxlamasına və ya ondan sui-istifadə etməsinə yönəlmiş hərəkətləri.
41. **Məişət zəminində psixi zorakılıq** – Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli Qanununun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən psixi təzyiq göstərməsi və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətləri.
42. **Məişət zorakılığı** – qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə, Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli Qanununun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurması.
43. **Məişət zorakılığından zərər çəkmiş şəxs** – Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli Qanununun şamil edildiyi şəxslərin birinin digərinə qarşı qəsdən törətdiyi bu Qanunun 1.0.3-1.0.6-cı maddələrində nəzərdə tutulmuş hərəkətlər nəticəsində fiziki və ya mənəvi zərər çəkmiş şəxs.
44. **Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanunu –** qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşayışdan sui-istifadə etməklə törədilən zorakılığın, onun doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi, hüquqi yardımla təmin edilməsi, habelə məişət zorakılığına səbəb olan halların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirləri müəyyən edən və tənzimləyən qanunvericilik aktı. 22 iyun 2010-cu ildə qəbul edilmişdir.

45. **Məlumat azadlığı –** Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsinə əsasən, hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır. Kütləvi informasiyanın azadlığına təminat verilir. Kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağandır. Hər kəsin kütləvi informasiya vasitələrində dərc edilən və onun hüquqlarını pozan və ya mənafelərinə xələl gətirən məlumatı təkzib etmək və ya ona cavab vermək hüququna təminat verilir. Məlumat azadlığı haqqında Azərbaycan Respublikasının Qanununa əsasən, hər kəsin məlumat əldə etmək üçün müraciət etmək hüququ vardır (maddə 2). Məlumat azadlığının həyata keçirilməsinin əsas prinsipləri aşağıdakılardır: məlumat azadlığının təmin edilməsi; məlumatın açıqlığı və onun mübadilə edilməsinin azadlığı; məlumatın obyektivliyi, tamlığı və həqiqiliyi; məlumatın axtarılmasının, əldə edilməsinin, istifadə olunmasının, yayılmasının və qorunmasının qanuniliyi; hər kəsin şəxsi və ailə həyatının sirrinin saxlanması; şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyinin qorunması (maddə 5). Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 19-cu maddəsinə əsasən, hər bir insan maneəsiz olaraq öz fikirlərində qalmaq hüququna malikdir. Hər bir insan öz fikrini sərbəst ifadə etmək hüququna malikdir; bü hüquqa hər cür informasiyalara və ideyalara dövlət sərhədlərindən asılı olmayaraq şifahi və ya yazılı şəkildə, mətbuat və ya bədii ifadə formaları vasitəsilə və yaxud öz seçiminə uyğun olaraq digər üsullarla axtarmaq, almaq və yaymaq hüququ daxildir. Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinə əsasən, hər kəs öz fikrini ifadə etmək azadlığı hüququna malikdir. Bu hüquqa öz rəyində qalmaq azadlığı və dövlət hakimiyyəti orqanları tərəfindən hər hansı maneə olmadan və dövlət sərhədlərindən asılı olmayaraq, məlumat və ideyaları almaq və yaymaq azadlığı daxildir.

46. **Məlumat azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu –** məlumat azadlığının həyata keçirilməsi ilə əlaqədar yaranan münasibətləri tənzimləyən qanunvericilik aktı. 19 iyun 1998-ci ildə qəbul edilmişdir.

47. **Mənbə –** Bax: beynəlxalq hüququn mənbələri; həmçinin bax: hüququn mənbələri; insan hüquqlarının mənbələri.

48. **Mənəvi zərər –** şərəfin, ləyaqətin və işgüzar nüfuzun ləkələnməsi ilə bağlı şəxsə dəymiş fiziki və mənəvi iztirablar. Mənəvi zərər şəxsə doğulduğu andan və ya qanuna müvafiq olaraq ona məxsus olan qeyri-maddi

nemətlərə (həyat, sağlamlıq, ləyaqət, işgüzar nüfuz, şəxsi həyatın toxunulmazlığı və s.) vurulan zərərdir. Mənəvi zərərin vurulması həm şəxsi qeyri-əmlak, həm də əmlak hüquqlarının pozulmasına səbəb ola bilər.

49. **Mənzil hüququ –** Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 43-cü maddəsinə əsasən, heç kəs yaşadığı mənzildən qanunsuz məhrum edilə bilməz. Dövlət yaşayış binalarının və evlərin tikintisinə rəvac verir, insanların mənzil hüququnu gərçəkləşdirmək üçün xüsusi tədbirlər görür. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 25-ci maddəsinə müvafiq olaraq, hər bir insan, qida, geyim, mənzil, tibbi qulluq və zəruri sosial xidmətlər də daxil olmaqla onun özünün və ailəsinin sağlamlığının və rifahının qorunub saxlanılması üçün zəruri olan həyat səviyyəsinə malik olmaq hüququna və işsizlik, xəstəlik, əlillik, dulluq, qocalıq halında və ondan asılı olmayan digər səbəblərə görə dolanışıq vəsaitlərini itirdiyi halda təminat hüququna malikdir. İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 11-ci maddəsinə uyğun olaraq, bu Paktda iştirak edən dövlətlər hər kəsin özü və ailəsi üçün, kifayət qədər qida, paltar, mənzil, həmçinin həyat şəraitinin fasiləsiz yüksəlişi daxil olmaqla, qənaətbəxş həyat səviyyəsinə nail olmaq hüququnu tanıyırlar. Dəyişdirilmiş Avropa Sosial Xartiyasına əsasən, hər bir insan mənzil hüququna malikdir. Xartiyanın 31-ci maddəsinə əsasən, yaşayış yeri hüququnun səmərəli surətdə həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər müvafiq tədbirlərin görülməsi üçün aşağıdakı öhdəlikləri götürürlər: 1) lazımi tələblərə cavab verən yaşayış yerinin mümkünlüyünə dəstək vermək; 2) evsizliyin qarşısının alınması və tədricən aradan götürülməsi məqsədilə onun miqyaslarını azaltmaq; 3) kifayət qədər vəsaitləri olmayan insanlar üçün yaşayış yerinin qiymətini əlçatan etmək.

50. **Mənzil məcəlləsi –** Bax: Azərbaycan Respublikasının Mənzil Məcəlləsi.

51. **Mənzil toxunulmazlığı hüququ –** Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 33-cü maddəsinə əsasən, hər kəsin mənzil toxunulmazlığı hüququ vardır. Qanunla müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna olmaqla, mənzildə yaşayanların iradəsi ziddinə heç kəs mənzilə daxil ola bilməz. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 12-ci maddəsinə əsasən, heç kim şəxsi və ailə həyatına müdaxiləyə, yaşayış yerinin toxunulmazlığına, məktublaşmasının gizliliyinə, şərəf və nüfuzuna özbaşına qəsdə

məruz qala bilməz. Hər bir şəxsin belə müdaxilə və qəsddən qanun tərəfindən müdafiə olunmaq hüququ vardır. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 17-ci maddəsinə əsasən, heç kəsin şəxsi və ailə həyatına özbaşına, yaxud qanunsuz müdaxilə, mənzil toxunulmazlığına, yaxud yazışma sirrinə özbaşına, yaxud qanunsuz qəsd, yaxud şərəfinə və adına qanunsuz qəsd edilə bilməz. Hər bir insanın belə müdaxilə və qəsdlərdən qanunla müdafiə olunmaq hüququ vardır. Avropa İnsan Hüquqları Konvensiyasının 8-ci maddəsinə görə, hər kəs öz şəxsi və ailə həyatına, evinə və yazışma sirrinə hörmət hüququna malikdir.

52. **Məşğulluq –** Azərbaycan Respublikası vətəndaşlarının, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və bir qayda olaraq onlara qazanc (gəlir) gətirən hər hansı fəaliyyət.

53. **Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu –** məşğulluğa kömək sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını, eləcə də vətəndaşların əmək sahəsində və işsizlərin sosial müdafiəsi sahəsində dövlət təminatlarını müəyyən edən qanunvericilik aktı. 2 iyul 2001-ci ildə qəbul edilmişdir.

54. **Mətbuat relizi (press reliz)** – mediada çap olunmaq üçün mətbuat nümayəndələrinə ünvanlanmış və bir qayda olaraq hər hansı informasiya dəyəri olan məsələ barədə təşkilatın (və ya fərdi şəxslərin) münasibətini bildirməsi barədə məlumatları ehtiva edir. Press reliz hər bir təşkilatın PR (Public Relations (qısaldılmış forması pi-ar) – ictimaiyyətlə münasibətlər) sənədi hesab olunur.

55. **Miqrasiya Məcəlləsi –** Bax: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi.

56. **Millətlər Liqası –** dövlətlər arasında əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsi məqsədilə I Dünya müharibəsindən sonra yaradılmış beynəlxalq hökumətlərarası təşkilat. Liqanın Versal sülh müqaviləsinin tərkibinə daxil edilən Nizamnaməsi 10 yanvar 1920-ci ildə qüvvəyə minmişdir. Təşkilatın mənzil-qərargahı Cenevrə şəhərində yerləşirdi. Liqanın əsas orqanları Assambleya, Şura və Katiblik idi. Əsas fəaliyyət istiqamətini müharibələrin qarşısının alınması və beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsi təşkil edən Liqa yeni dünya müharibəsinin qarşısını ala bilmədi. Elə bu səbəbdən həmçinin BMT-nin yaradılması ilə əlaqədar olaraq 19 aprel 1946-cı ildə Liqa öz fəaliyyətini dayandırdı.

57. **Milli Azlıqların İşləri üzrə Ali Komissar –** Bax: ATƏT-in Milli Azlıqların İşləri üzrə Ali Komissarı.

58. **Milli Fəaliyyət Planı –** Bax: Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı.

59. **Milli Fəaliyyət Proqramı –** Bax: Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı.

60. **Milli Məclis –** Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini həyata keçirən orqan. Azərbaycan Respublikası Konstitusiyasının 81-ci maddəsinə əsasən, Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir. Milli Məclis 125 deputatdan ibarətdir. Milli Məclisin deputatları majoritar seçki sistemi, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilirlər. Milli Məclisin hər çağırışının səlahiyyət müddəti 5 ildir. Milli Məclis öz səlahiyyətlərinə aid məsələlər üzrə Konstitusiya qanunları, qanunlar və qərarlar qəbul edir. Milli Məclis aşağıdakı məsələlərə dair ümumi qaydalar müəyyən edir: bu Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarından və azadlıqlarından istifadə, bu hüquqların və azadlıqların dövlət təminatı; Azərbaycan Respublikası Prezidentinin seçkiləri; Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər və Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının statusu; referendum; məhkəmə quruluşu və hakimlərin statusu; prokurorluq; vəkillik və notariat; məhkəmə icraatı, məhkəmə qərarlarının icrası; bələdiyyələrə seçkilər və bələdiyyələrin statusu; fövqəladə vəziyyət rejimi; hərbi vəziyyət rejimi; dövlət təltifləri; fiziki və hüquqi şəxslərin statusu; mülki hüquq obyektləri; əqdlər, mülki müqavilələr, nümayəndəlik və vərəsəlik; mülkiyyət hüququ, o cümlədən dövlət, xüsusi və bələdiyyə mülkiyyətinin hüquqi rejimi, əqli mülkiyyət hüququ; digər əşya hüquqları; öhdəlik hüququ; ailə münasibətləri, o cümlədən himayəçilik və qəyyumluq; maliyyə fəaliyyətinin əsasları, vergilər, rüsumlar və ödənişlər; əmək münasibətləri və sosial təminat; cinayətlərin və başqa hüquq pozuntularının müəyyən edilməsi, onların törədilməsinə görə məsuliyyətin təyin edilməsi; müdafiə və hərbi qulluq; dövlət qulluğu; təhlükəsizliyin əsasları; ərazi quruluşu; dövlət sərhədi rejimi; beynəlxalq müqavilələrin təsdiqi və ləğvi; rabitə və nəqliyyat işi; statistika, metrologiya və standartlar; gömrük işi; ticarət işi və birja fəaliyyəti; bank işi, mühasibat, sığorta. Milli Məclisin səlahiyyətinə aşağıdakı məsələlərin həlli aiddir: Azərbaycan Respublikası Milli Məclisinin işinin təşkili; Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikası diplomatik nümayəndəliklərinin təsis edilməsi; inzibati ərazi bölgüsü; dövlətlərarası

və Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələrin təsdiq və ləğv edilməsi; Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası dövlət büdcəsinin təsdiq edilməsi və onun icrasına nəzarət; Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin seçilməsi; Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının hərbi doktrinasının təsdiqi; Konstitusiyada nəzərdə tutulmuş hallarda Azərbaycan Respublikası Prezidentinin fərmanlarının təsdiqi; Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Baş nazirinin vəzifəyə təyin edilməsinə razılıq verilməsi; Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikası Ali Məhkəməsi və Azərbaycan Respublikası apellyasiya məhkəmələri hakimlərinin təyin edilməsi; Azərbaycan Respublikasının Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Baş prokurorunun vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verilməsi; Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin təqdimatına əsasən Azərbaycan Respublikası Prezidentinin impiçment qaydasında vəzifədən kənarlaşdırılması; Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən hakimlərin vəzifədən kənarlaşdırılması; Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi; Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi; Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına cəlb edilməsinə razılıq verilməsi; Azərbaycan Respublikası Prezidentinin müraciətinə əsasən müharibə elan edilməsinə və sülh bağlanmasına razılıq verilməsi; referendum təyin edilməsi; amnistiya; bələdiyyələrin hesabatlarının dinlənilməsi.

61. **Minilliyin İnkişaf Məqsədləri –** BMT Baş Assambleyasının 8 sentyabr 2000-ci il tarixli, 55/2 saylı qətnaməsi ilə qəbul edilmiş Minilliyin Bəyannaməsinə əsasən üzv-dövlətlər tərəfindən qəbul edilmiş qlobal məqsədlər. Həmin məqsədlər bunlardır: 1. ifrat yoxsulluğu və aclığı aradan qaldırmaq; 2. ümumi ibtidai təhsili təmin etmək; 3. gender bərabərliyini təşviq etmək və qadınların hüquqlarını və imkanlarını genişləndirmək; 4. uşaq ölümü hallarını azaltmaq; 5. ana sağlamlığını yaxşılaşdırmaq; 6. İİV/QİÇS, malyariya və digər xəstəliklərə qarşı mübarizə aparmaq;

7. ekoloji davamlılığı təmin etmək; 8. inkişaf məqsədilə qlobal tərəfdaşlığı formalaşdırmaq. Bəyannamədə qeyd edilir ki, XXI əsrdə beynəlxalq münasibətlər üçün aşağıdakı dəyərlər xüsusilə əhəmiyyət kəsb edəcək: azadlıq; bərabərlik; həmrəylik; dözümlülük; təbiətə hörmət; ümumi öhdəlik.

62. **Monarxiya** (yun. monarchia – təkhakimiyyətlilik) **–** dövlət hakimiyyətinin tam və ya qismən bir şəxsə **–** monarxa məxsus olduğu idarəçilik forması. Müasir dövrdə monarxiyanın iki növünü qeyd etmək olar: mütləq və konstitusiyalı. Mütləq monarxiyalara misal olaraq, Birləşmiş Ərəb Əmirliklərini, Səudiyyə Ərəbistanını, Qətəri, konstitusiyalı monarxiyalara misal olaraq isə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığını, Danimarkanı, İsveçi misal göstərmək olar.

63. **Monitorinq –** beynəlxalq təşkilatların və müvafiq beynəlxalq mexanizmlərin ayrı-ayrı dövlətlər tərəfindən iştirakçısı olduqları beynəlxalq müqavilələr üzrə öhdəliklərin icrası üzrə nəzarət fəaliyyəti.

64. **Monoqamiya** (yun. monogamia – təknikahlılıq) **–** bir ər və bir arvaddan ibarət olan nikah.

65. **Moratorium** (lat. moratorium – təxirə salmaq) **–** qanunun və ya beynəlxalq müqavilənin icrasının müəyyən müddətə təxirə salınması.

66. **Multikulturalizm** – mədəni müxtəlifliyin qorunub saxlanmasına və inkişafına yönəlmiş siyasət və bu siyasəti əsaslandıran konsepsiya. Multikulturalizm tolerantlığın əsas aspektlərindən birini təşkil edir. Multikulturalizmin əsas şərti müxtəlif mədəniyyətlərin paralel şəkildə mövcudluğu və inkişafıdır. Multikulturalizm termini ilk dəfə olaraq XX əsrin 60-cı illərində Kanadada işlədilməyə başlanmışdır, 1971-ci ildən etibarən isə hökumətin siyasi kursunu bildirən rəsmi terminə çevrilmişdir. Amerikalı tədqiqatçı N.Qleyzerin fikrincə, multikulturalizm "vahid milli mədəniyyətin əvəzinə çoxsaylı mədəniyyətlərin ortaya çıxdığı inkişafın rəngarəng proseslərinin kompleksidir". Multikulturalizm çoxmillətli dövlətlərdə mədəni muxtariyyatın saxlanılması və tolerant mühitin formalaşması baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası Prezidentinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə 2016-cı il Azərbaycan Respublikasında "Multikulturalizm İli" elan edilmişdir. Sərəncamda qeyd edilir ki, "Tarixi İpək yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Ölkəmizdə

multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir...".

67. **Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında Azərbaycan Respublikasının Qanunu** – Azərbaycan Respublikası ərazisində elm, ədəbiyyat və incəsənət əsərlərinin (müəlliflik hüququ), habelə ifaların, fonoqramların, efir və ya kabel yayımı təşkilatlarının verilişlərinin (əlaqəli hüquqlar) yaradılması və istifadəsi ilə əlaqədar yaranan münasibətləri tənzimləyən normativ hüquqi akt. 5 iyun 1996-cı ildə qəbul edilmişdir.

68. **Müharibə cinayətləri –** beynəlxalq və ya daxili silahlı münaqişə zamanı hərbi əməliyyatların planlaşdırılması, hazırlanması, başlanması və ya aparılması ilə əlaqədar olaraq törədilmiş əməllər. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, silahlı münaqişə zamanı hərəkətsizlik etmə və ya cinayətkar əmr vermə, hərbi soyğunçuluq, müdafiə olunan nişanlardan sui-istifadə müharibə cinayətləri sayılır (114-119-cu maddələr). Beynəlxalq Cinayət Məhkəməsinin Statutunda müharibə cinayətləri dolğun və aydın şəkildə əks etdirilmişdir. Beynəlxalq hüquqa görə, müharibə cinayətlərinə bu əməllər aiddir: 1) beynəlxalq humanitar hüququn pozulması ilə qəsdən törədilmiş bu əməllərdən hər hansı biri: qəsdən adamöldürmə; işgəncə və ya qeyri-insani rəftar, o cümlədən bioloji eksperimentlər; ağır əzab-əziyyət və ya ciddi xəsarət yetirilməsi; hərbi zərurətlə bəraət qazandırılmayan və qeyri-qanuni və böyük miqyasda törədilən dağıntılar və əmlakın ələ keçirilməsi; hərbi əsirin və ya mülki şəxsin düşmən dövlətin silahlı qüvvələrində qulluq etməyə məcbur edilməsi; hərbi əsirin və ya mülki şəxsin qərəzsiz və normal məhkəmə araşdırmasına olan hüququndan qəsdən məhrum edilməsi; girov götürülməsi; 2) beynəlxalq humanitar hüququn pozulması ilə qəsdən törədilmiş və ölümlə nəticələnən və yaxud səhhətə ciddi zərər yetirən bu əməllərdən hər hansı biri: mülki əhalinin və ya ayrı-ayrı mülki şəxslərin hücum obyekti edilməsi; şəxsin kombatant olmadığını və ya artıq sıradan çıxdığını bilərək, onun hücum obyekti edilməsi; qırmızı xaç, qırmızı aypara və yaxud digər tanınmış fərqləndirmə emblemlərindən sui-istifadə edilməsi; 3) beynəlxalq humanitar hüququn pozulması ilə qəsdən törədilmiş bu əməllərdən hər hansı biri: işğal edən dövlət tərəfindən öz əhalisinin bir hissəsinin işğal etdiyi əraziyə köçürülməsi; hərbi əsirlərin və ya mülki şəxslərin geri qaytarılmasının əsas olmadan yubandırılması; 4) beynəlxalq humanitar hüququn pozulması ilə ləyaqətin təhqir edilməsi, o cümlədən insan ləyaqətini alçaldan rəftar, zorlama və məcburi fahişəlik; 5) müharibə qanun və adət-

lərinin pozulması ilə törədilmiş bu əməllərdən hər hansı biri: zəhərli silahların və ya lüzumsuz əzab-əziyyət törətmək üçün nəzərdə tutulmuş digər silahların tətbiq edilməsi; şəhər, qəsəbə və ya kəndlərin mənasız dağıdılması və yaxud hərbi zərurətlə əsaslandırılmayan soyğunçuluq; müdafiə olunmayan şəhərlərin, kəndlərin, binaların və ya yaşayış evlərinin və yaxud hərbsizləşdirilmiş zonaların istənilən vasitələrlə bombardman edilməsi; dini, təhsil, incəsənət və elm idarələrinin, tarixi abidələrin, incəsənət və elm əsərlərinin qəsb edilməsi, dağıdılması və ya onlara qəsdən ziyan vurulması; ictimai və ya xüsusi əmlakın talan edilməsi; 6) beynəlxalq xarakter daşımayan silahlı münaqişə zamanı tətbiq olunan beynəlxalq humanitar hüququn pozulması ilə törədilmiş bu əməllərdən hər hansı biri: insanların həyatına, səhhətinə və fiziki və ya psixi durumuna qarşı zorakı hərəkətlər, o cümlədən qəsdən adamöldürmə və habelə işgəncə, şikəstetmə kimi qəddar rəftar və yaxud bədən cəzasının istənilən forması; kollektiv cəzalandırma; girov götürülməsi; terror aktları; şəxsi ləyaqətin təhqir edilməsi, o cümlədən insan ləyaqətini alçaldan rəftar, zorlama və məcburi fahişəlik; hərbi soyğunçuluq; məhkəmə tərəfindən bundan əvvəl elan olunmuş qərar olmadan hökm çıxarılması və hökmün yerinə yetirilməsi; silahlı münaqişə zamanı, ətraf təbii mühitə genişmiqyaslı, uzunmüddətli və ağır ziyan vurulması niyyəti ilə hərbi zərurətlə əsaslandırılmayan müharibə üsul və vasitələrinin tətbiq edilməsi.

69. Müharibə qurbanlarının müdafiəsinə dair Cenevrə Konvensiyaları – Bax: Cenevrə Konvensiyaları.

70. Müqavilə – mülki hüquq və vəzifələrin müəyyənləşdirilməsi, dəyişdirilməsi və ya xitamı haqqında iki və ya bir neçə şəxsin razılaşması.

71. Müqavilə azadlığı – fiziki və hüquqi şəxslərin azad surətdə müqavilələr bağlamaq və bu müqavilələrin məzmununu sərbəst şəkildə müəyyənləşdirmək hüququ.

72. Mülki hüquq – əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyən hüquq normaları sistemi.

73. Mülki hüquq və azadlıqlar – şəxsin azadlıq və muxtariyyatının təminatını hər hansı bir xarici müdaxilədən onun hüquqi qorunmasını təmin etməyə yönəlmiş hüquq və azadlıqlar. Bu hüquqlar, əsas etibarilə, insanı dövlətin şəxsi azadlıq sferasına qeyri-qanuni müdaxiləsindən mühafizə etməyə yönəlmişdir. İnsanın mülki hüquq və azadlıqlarına yaşamaq hüququ, işgəncəyə məruz qalmamaq hüququ, ləyaqət hüququ, azadlıq hüququ, şəxsi toxunulmazlıq hüququ, mənzil toxunulmazlığı hüququ, vicdan azadlığı və bununla bağlı digər hüquq və azadlıqlar daxildir.

74. **Mülki məcəllə –** Bax: Azərbaycan Respublikasının Mülki Məcəlləsi.

75. **Mülki prosessual hüquq –** mülki işlər və iqtisadi mübahisələr üzrə ədalət mühakiməsinin həyata keçirilməsi, habelə məhkəmə aktlarının icrası nəticəsində məhkəmə və məhkəmə icraatının digər iştirakçıları arasında yaranan münasibətləri tənzimləyən hüquq normalarının məcmusu.

76. **Mülki prosessual məcəllə –** Bax: Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi.

77. **Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt –** insanın əsas mülki və siyasi hüquqlarını özündə ehtiva edən universal beynəlxalq müqavilə. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 16 dekabr 1966-cı ildə qəbul edilmiş, 23 mart 1976-cı ildə qüvvəyə minmişdir. İştirakçı-dövlətlərin Paktda nəzərdə tutulmuş öhdəliklərinə əməl etmələrinə nəzarət İnsan Hüquqları Komitəsi tərəfindən həyata keçirilir. Pakta dair iki fakültativ protokol qəbul edilmişdir: İnsan Hüquqları Komitəsinin fərdlərdən məlumatlar almaq və onları araşdırmaq səlahiyyətini tanıyan Birinci Fakültativ Protokol və ölüm cəzasının ləğvinə yönələn İkinci Fakültativ Protokol. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 2-ci maddəsinə əsasən, hər bir iştirakçı-dövlət "irq, dərinin rəngi, cins, dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşə, əmlak vəziyyəti, doğum və ya digər hər hansı əlamətlərə görə ayrı-seçkilik qoyulmadan ərazisində olan və yurisdiksiyasının şamil olunduğu hər kəsin bu Paktda tanınan hüquqlarına hörmət etməyi və onları təmin etməyi öhdəsinə götürür". 3 saylı Ümumi şərhində İnsan Hüquqları Komitəsinin vurğuladığı kimi, Pakta əməl etmək üçün "insan hüquqlarına hörmət etmək kifayət deyil, ... dövlətlər həm də yurisdiksiyalarında olan hər kəsin bu hüquqlarının həyata keçirilməsini təmin etməyi öhdələrinə götürüblər" və bu öhdəlik prinsipcə "Paktda nəzərdə tutulmuş bütün hüquqlara aiddir". Bu hüquqların həyata keçirilməsinin təmin edilməsinə yönələn hüquqi öhdəlik aşağıdakı məqsədlər üçün pozitiv tədbirlərin görülməsini nəzərdə tutur: birincisi, zəruri hallarda milli qanunların dövlətin beynəlxalq hüquqi öhdəliklərinə uyğun olmasından ötrü daxili qanunvericiliyin dəyişdirilməsi üçün; və ikincisi, həmin qanunların bütün dövlət orqanları və vəzifəli şəxslər tərəfindən, məsələn, məhkəmələr (inzibati məhkəmələr də daxil olmaqla), prokurorlar, polis və penitensiar müəssisələrin əməkdaşları, məktəblər, hərbçilər, xəstəxanalar və s. tərəfindən praktikada səmərəli tətbiqi üçün. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt bir sıra mühüm hüquq və azadlıqlara təminat verir: yaşamaq hüququ (maddə 6); işgəncələrə, yaxud qəddar, qeyri-insani və ya ləyaqəti

alçadan rəftar və ya cəzaya məruz qalmamaq hüququ, o cümlədən şəxsin könüllü razılığı olmadan tibbi və ya elmi eksperimentlərə məruz qalmasının qadağan edilməsi (maddə 7); köləliyə, kölə ticarətinə məruz qalmamaq və asılı hala salınmamaq hüququ (maddə 8, 1-ci və 2-ci bəndlər); icbari və ya məcburi əməyə məruz qalmamaq hüququ (maddə 8, 3-cü bənd); şəxsi azadlıq və toxunulmazlıq hüququ, o cümlədən qanunsuz tutulmamaq və həbsə alınmamaq hüququ (maddə 9); azadlıqdan məhrum edilmiş şəxslərin onlarla humanistcəsinə və insan şəxsiyyətinə xas olan ləyaqətinə hörmət edilməklə davranılması hüququ (maddə 10); şəxsin sadəcə müqavilə öhdəliyini yerinə yetirə bilməməsi səbəbindən azadlıqdan məhrum edilməsinin qadağan olunması (maddə 11); hərəkət azadlığı və yaşayış yerini seçmək azadlığı (maddə 12, 1-ci bənd); şəxsin öz ölkəsi də daxil olmaqla istənilən ölkəni sərbəst tərk etmək hüququ (maddə 12, 2-ci bənd); şəxsin öz ölkəsinə daxil olmaq hüququndan qanunsuz olaraq məhrum edilməmək hüququ (maddə 12, 4-cü bənd); iştirakçı dövlətin ərazisində qanuni yaşayan əcnəbilərin ölkədən qanunsuz çıxarılmasına qarşı müəyyən hüquqi təminatlar (maddə 13); mülki və cinayət işlərinin müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətli araşdırılması hüququ (maddə 13); qanunun qüvvəsinin geriyə tətbiqinə və cinayət əməli törədildiyi anda qüvvədə olan qanunla nəzərdə tutulmuş cəzadan daha ağır cəzanın təyin edilməsinə məruz qalmamaq hüququ (maddə 15); şəxsin hüquq subyektliyinin tanınması hüququ (maddə 16); şəxsi və ailə həyatının, mənzil toxunulmazlığının və ya yazışma sirrinin əsassız və ya qanunsuz müdaxilələrə məruz qalmaması hüququ (maddə 17); düşüncə, vicdan və din azadlığı hüququ (maddə 18); fikir və ifadə azadlığı hüququ (maddə 19); müharibə təbliğatının və ayrı-seçkiliyə, düşmənçiliyə və ya zorakılığa təhrik təşkil edən, milli, irqi və ya dini nifrətə yönələn təşviqatın qadağan olunması (maddə 20); dinc toplaşmaq hüququ (maddə 21); birləşmək azadlığı hüququ (maddə 22); sərbəst surətdə nikaha girmək, ailə qurmaq hüququ, nikaha girərkən, nikah dövründə və nikah pozulduqda ərlə arvadın bərabər hüquq və vəzifələri (maddə 23); uşağın ayrı-seçkiliyə məruz qalmadan xüsusi müdafiə ilə təmin edilmək, doğulduqdan sonra qeydiyyata alınmaq və vətəndaşlıq hüququ (maddə 24); dövlət işlərinin aparılmasında iştirak hüququ, ümumi, bərabər və gizli səsvermə yolu ilə keçirilən dövri seçkilərdə səs vermək hüququ, habelə dövlət qulluğuna qəbul edilmə hüququ (maddə 25); qanun qarşısında bərabərlik və qanun vasitəsilə bərabər müdafiə hüququ (maddə 26); azlıqların öz mədəniyyət, din və dillərindən istifadə hüququ (maddə 27). Bu

hüquq və azadlıqların bəzilərinin, məsələn, hərəkət azadlığı hüququnun, öz dininə və ya əqidəsinə etiqad etmək hüququnun, ifadə azadlığı, dinc toplaşmaq azadlığı və birləşmək azadlığı hüquqlarının həyata keçirilməsi müəyyən konkret məqsədlərlə, məsələn, milli təhlükəsizliyin, ictimai qaydanın, əhalinin sağlamlığının və mənəviyyatın qorunması və ya digər şəxslərin əsas hüquqlarına hörmət edilməsi məqsədləri ilə məhdudlaşdırıla bilər. Lakin bu məhdudiyyətlər qanuni şəkildə yalnız o halda tətbiq edilə bilər ki, onlar qanunla nəzərdə tutulmuş olsun və bir və ya bir neçə qanuni məqsədə nail olmaq üçün demokratik cəmiyyətdə zəruri olsun.

78. **Mülkiyyət hüququ –** Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinə əsasən, hər kəsin mülkiyyət hüququ vardır. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur. Hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən, mülkiyyət hüququ – subyektin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüququdur. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 17-ci maddəsinə əsasən, hər bir şəxsin həm təkbaşına, həm də digərləri ilə birlikdə mülkiyyətə sahib olma hüququ var. Heç kim özbaşına olaraq mülkiyyətdən məhrum edilə bilməz. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyaya dair 1 saylı Protokolun 1-ci maddəsinə əsasən, hər bir fiziki və hüquqi şəxs öz mülkiyyətindən maneəsiz istifadə hüququna malikdir. Heç kəs cəmiyyətin maraqları naminə və qanunla və beynəlxalq hüququn ümumi prinsipləri ilə nəzərdə tutulmuş şərtlər istisna olmaqla, öz mülkiyyətindən məhrum edilə bilməz.

79. **Müraciət** – müraciətə baxan subyektə və ya onun vəzifəli şəxsinə şəxsən və ya nümayəndə vasitəsilə yazılı (o cümlədən elektron) formada göndərilən (təqdim edilən) və ya şifahi formada edilən fərdi və ya kollektiv təklif, ərizə, şikayət. Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 30 sentyabr 2015-ci il tarixli Qanununa əsasən, müraciətin üç növü fərqləndirilir: 1. təklif – qanunların və digər normativ hüquqi aktların təkmilləşdirilməsi, dövlət və bələdiyyə orqanlarının və digər müraciətə baxan subyektlərin fəaliyyətinin yaxşılaşdırılması, elm,

təhsil, mədəniyyət, hüquq, sosial-iqtisadi, yaradıcılıq və başqa sahələrlə bağlı məsələlərin həlli barədə edilən müraciətdir. Məsələn, elm sahəsində tədqiqat aparan hər hansı bir müəllifin qanunvericilikdə olan boşluq və ziddiyyətlərlə bağlı qanunverici orqana təqdim etdiyi təklif; 2. ərizə – hüquq və azadlıqların həyata keçirilməsi ilə bağlı tələbləri nəzərdə tutan müraciətdir. Məsələn, sosial müavinət almaq məqsədilə müvafiq orqanlara edilən müraciət; 3. şikayət – pozulmuş hüquq və azadlıqların bərpası və müdafiəsi ilə bağlı tələbləri nəzərdə tutan müraciətdir. Məsələn, yerli icra hakimiyyəti orqanlarının hər hansı bir hərəkətindən yuxarı orqana verilən şikayət. Müraciətlər formasına görə yazılı və şifahi olur. Yazılı müraciət – kağız üzərində və ya elektron formada tərtib edilmiş müraciətdirsə, şifahi müraciət – vətəndaşların fərdi və kollektiv qəbulu zamanı və ya müraciətə baxan subyektin nümayəndəsinin iştirakı ilə canlı yayımlanan televiziya və radio proqramları zamanı, habelə telefon müraciət xidməti vasitəsilə edilən müraciətdir. Subyektinə görə isə müraciətlər fərdi və kollektiv müraciətlərə bölünür. Fərdi müraciət – bir subyekt tərəfindən verilir. Kollektiv müraciətlərə isə eyni məsələyə dair iki və daha çox şəxsin birgə müraciəti, yaxud ictimai iştirakçılığın həyata keçirilməsi ilə əlaqədar olan müraciətlər daxildir. Həm Konstitusiya, həm də Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının Qanunu fərdi və ya kollektiv şəkildə müraciət etmək hüququnu təsbit edir. Lakin burada bir istisna hal vardır ki, hərbi qulluqçuların kollektiv qaydada müraciətlərdə iştirakına yol verilmir.

80. **Müraciət etmək hüququ –** əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsinə əsasən, Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. Hərbi qulluqçular bu hüquqdan yalnız fərdi qaydada istifadə edə bilərlər. Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir. Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarının və onların vəzifəli şəxslərinin, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, habelə ayrı-ayrı vətəndaşların fəaliyyətini və ya işini tənqid etmək hüququ vardır. Tənqidə görə təqib qadağandır. Təhqir və böhtan tənqid sayıla bilməz.

81. **Müstəqil Dövlətlər Birliyi –** bir sıra keçmiş sovet respublikalarını özündə birləşdirən regional beynəlxalq hökumətlərarası təşkilat. Təşkilatın Nizamnaməsi 22 yanvar 1993-cü ildə qəbul edilmişdir. Nizamnaməyə əsasən, Birlik onun üzvlərinin suveren bərabərliyinə əsaslanır. Birliyin

üzv-dövlətləri beynəlxalq hüququn müstəqil və bərabər hüquqlu subyektləridir. Siyasi, iqtisadi, ekoloji, humanitar, mədəni və digər sahələrdə əməkdaşlığın həyata keçirilməsi, beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə və normalarına, həmçinin ATƏT-in sənədlərinə müvafiq olaraq insan hüquqlarının və əsas azadlıqların təmini MDB-nin əsas məqsədlərindəndir.

82. Müstəqil Dövlətlər Birliyi və insan hüquqları – MDB-nin Nizamnaməsində Təşkilatın əsas məqsədlərindən biri kimi beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına, həmçinin ATƏT-in sənədlərinə uyğun olaraq insan hüquqlarının və əsas azadlıqların təmin edilməsi müəyyən olunmuşdur. Təşkilat çərçivəsində insan hüquqlarının müdafiəsi ilə bağlı həm müqavilə mexanizmləri, həm də təşkilati mexanizmlər mövcuddur. Doğrudur, həmin mexanizmlərin təsir qüvvəsi digər qurumlar səviyyəsində olmasa da, bununla belə burada çox mühüm müddəalar təsbit edilmişdir. İnsan hüquqlarının müdafiəsi sahəsində Birlik çərçivəsində qəbul edilmiş ən mühüm beynəlxalq sənədlərdən biri 1995-ci il tarixli İnsan hüquqları və əsas azadlıqlar haqqında MDB Konvensiyasıdır. Konvensiyanın preambulasında insan hüquqları və əsas azadlıqları üzrə öhdəliklərin effektiv icrası, qanunun aliliyi və azadlıq idealı sahəsində hər bir Razılığa Gələn Tərəfin səylərinin artırılması, sülhün möhkəmləndirilməsi, insan hüquqlarının və əsas azadlıqların pozulmasının qarşısının alınması xüsusilə vurğulanır. 39 maddədən ibarət olan bu beynəlxalq-hüquqi sənəd özündə bir sira mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquq və azadlıqları ehtiva edir. Həmin hüquq və azadlıqlara işgəncə, digər qəddar, qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftar və ya cəzaya məruz qalmamaq hüququ (maddə 3), şəxsi toxunulmazlıq və azadlıq hüququ (maddə 5), məhkəmə qarşısında bərabərlik hüququ (maddə 6), fikir, vicdan və etiqad azadlığı (maddə 10), nikah hüququ (maddə 13), əmək hüququ (maddə 14), sosial təminat hüququ (maddə 16) və s. aiddir. Bütün bunlarla yanaşı, Konvensiyanın 2-ci maddəsi xüsusilə diqqəti çəkən müddəaları özündə təsbit edir. Belə ki, həmin normada ölüm hökmünün tətbiq oluna bilmədiyi şəxslərin dairəsi göstərilmişdir. Onlara hökmün çıxarılması və ya icrası zamanı hamilə olan qadınlar, cinayətin törədilməsinə qədər 18 yaşı tamam olmayan şəxslər aid edilir. Milli azlıqlara mənsub olan şəxslərin öz etnik, dil, mədəni və ya dini xüsusiyyətini fərdi, birgə və maneəsiz şəkildə ifadə etmək, qorumaq və inkişaf etdirmək 2l-ci maddənin əsas məzmununu təşkil edir. Konvensiyanın 24-cü maddəsi isə birbaşa olaraq vətəndaşlıqla bağlıdır. Hər bir

insanın vətəndaşlıq hüququ, kimsənin vətəndaşlıqdan və ya öz vətəndaşlığını dəyişmək hüququndan əsassız olaraq məhrum edilməməsi isə həmin maddənin əsas hissəsini təşkil edir. İnsan hüquq və azadlıqları ilə bağlı bu Konvensiya ilə yanaşı, ayrı-ayrı kateqoriya şəxslərin hüquq və azadlıqlarına həsr olunmuş aktlar da mövcuddur. Buna nümunə qismində regionda qaçqınların və məcburi köçkünlərin hüquqi statusu ilə əlaqədar məsələləri tənzimləyən beynəlxalq-hüquqi akt – 24 sentyabr 1993-cü ildə MDB-yə üzv dövlətlərin Dövlət Başçıları Şurasının Moskvada keçirilmiş görüşündə qəbul edilmiş Qaçqınlara və məcburi köçkünlərə yardım haqqında Saziş qeyd edilməlidir. Sazişin preambulasında iştirakçı dövlətlərin beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə hörmət etməsi, insan hüquqlarının müdafiəsinə yönəlmiş beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərə əməl etməsi, qaçqınların və məcburi köçkünlərin problemlərinin həllində üzv dövlətlərin həmrəyliyi kimi ideyalar əks olunmuşdur. Milli azlıqlara mənsub olan şəxslərin hüquqlarının təmin edilməsi haqqında 21 oktyabr 1994-cü i1 tarixli Minsk Konvensiyası isə regionda müvafiq kateqoriya şəxslərlə bağlı meydana çıxan münasibətləri tam şəkildə nizama salır. Sazişdə milli azlıqlara mənsub şəxslərin fərdi və ya birgə əsaslarla etnik, dil, mədəniyyət, dini xüsusiyyətlərini maneəsiz ifadə etmək, qorumaq və inkişaf etdirmək hüququ, yaşadıqları dövlətin isə ictimai və dövlət həyatında, yerli səviyyədə onların maraqlarının müdafiəsinə aid olan məsələlərin həllində iştirak etmək hüququnu təmin etmək öhdəliyini müəyyən edir. Birlik çərçivəsində insan hüquqlarının daha bir aspektinin – əmək miqrasiyasi və sosial müdafiə sahəsində əməkdaşlığın tənzim edilməsi də mühüm əhəmiyyət kəsb edir. 1994-cü ildə Moskvada qəbul edilmiş Əməkçi-miqrantların əmək miqrasiyası və sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında sazişin preambulasında deyilir ki, iştirakçı dövlətlərin hökumətləri onun işlənib hazırlanmasında BMT-nin insan hüquqları üzrə sənədlərində təsbit olunmuş prinsip və normalara, BƏT-in hüquqi aktlarına, həmçinin İqtisadi İttifaqın yaradılması haqqında 1993-cü il Müqaviləsinə əsaslanmışlar. Sazişə müvafiq olaraq, əməkçi-miqrantlara işə düzəldiyi dövlətdə qanuni əsaslarla ödənişli fəaliyyətlə məşğul olan və getdiyi dövlətdə daimi yaşayan şəxslər aid edilirlər. Əməkçilərin əmək fəaliyyəti işə düzəldiyi dövlətin əmək qanunvericiliyinə müvafiq olaraq, işəgötürənlə bağlanmış əmək müqavilələri ilə rəsmiləşdirilir. Sazişin 10-cu maddəsi isə əməkçi-miqrantların sosial təminat və sosial siğorta, həmçinin tibbi xidmətdən istifadə etməsi ilə bağlı müddəaları müəyyənləşdirir.

83. Mütləq hüquqlar və azadlıqlar – dövlətin heç bir halda, hətta fövqəladə vəziyyət şəraitində belə təmin etməkdən geri çəkilə bilmədiyi hüquqlar və azadlıqlar. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt mütləq hüquqlara və azadlıqlara bunları aid edir: yaşamaq hüququ, işgəncəyə və ya qəddar, qeyri-insani, yaxud insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qalmamaq hüququ, köləlikdə və ya asılı vəziyyətdə saxlanılmamaq hüququ, hər hansı bir müqavilə öhdəliyini yerinə yetirmək iqtidarında olmamağa görə azadlıqdan məhrum edilməyə məruz qalmamaq hüququ, törədilən anda qüvvədə olan dövlətdaxili qanunvericiliyə və ya beynəlxalq hüquqa uyğun olaraq cinayət əməli hesab olunmayan hər hansı bir əmələ görə məsuliyyətə cəlb edilməmək hüququ, cinayət əməlinin törədildiyi anda tətbiq edilməli olan cəzadan daha ağır cəzaya məruz qalmamaq hüququ, hüquq subyekti kimi tanınma hüququ, fikir, vicdan və din azadlığı. Avropa İnsan Hüquqları Konvensiyasına əsasən, yaşamaq hüququ, işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamaq hüququ, köləlikdə və ya asılı vəziyyətdə saxlanılmamaq hüququ, törədildiyi vaxt qüvvədə olan milli qanunvericilik və ya beynəlxalq hüquqa əsasən cinayət sayılmayan hərəkət və ya hərəkətsizliyə görə məhkum edilməmək hüququ, cinayət əməlinin törədildiyi vaxt tətbiq edilməli olan cəzadan daha ağır cəzaya məruz qalmamaq hüququ mütləq hüquqlardır.

N

1. **Napoleon Məcəlləsi** – Bax: Fransız Mülki Məcəlləsi.
2. **Naturalizasiya –** hər hansı bir dövlətin vətəndaşlığını əldə etmək istəyən şəxsin həmin dövlətin vətəndaşlığına qəbul edilməsi ilə bağlı hüquqi proses.
3. **Nazirlər kabineti –** dövlət idarəçiliyi sahəsində inzibati-sərəncamverici funksiyaları yerinə yetirən icra hakimiyyətinin ali orqanı. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, Azərbaycan Respublikasının Prezidenti icra səlahiyyətlərinin həyata keçirilməsinin təşkili məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetini yaradır. Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin yuxarı icra orqanıdır. Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidentinə tabedir və onun qarşısında cavabdehdir. Nazirlər Kabinetinin tərkibinə Azərbaycan Respublikasının Baş naziri, onun müavinləri, nazirlər və başqa mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri daxildirlər. Azərbaycan Respublikasının Nazirlər Kabineti: Azərbaycan Respublikası dövlət büdcəsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edir; Azərbaycan Respublikası dövlət büdcəsinin icrasını təmin edir; maliyyə-kredit və pul siyasətinin həyata keçirilməsini təmin edir; dövlət iqtisadi proqramlarının həyata keçirilməsini təmin edir; dövlət sosial təminat proqramlarının həyata keçirilməsini təmin edir; nazirliklərə və digər mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərlik edir, onların aktlarını ləğv edir; Azərbaycan Respublikası Prezidentinin onun səlahiyyətlərinə aid etdiyi digər məsələləri həll edir.
4. **Neminem laedit qui suo jure utitur** (lat.) **–** öz hüququndan istifadə edən şəxs heç kəsə mane olmur.
5. **Nemo cogitationis poenam patitur** (lat.) **–** heç kəs düşüncəsinə görə cəzalandırılmamalıdır.
6. **Nemo cogitur rem suam vendere, etiam justo pretio** (lat.) **–** heç kəs, hətta ədalətli qiymətə olsa belə, öz əmlakını satmağa məcbur edilməməlidir.
7. **Nemo debet ex alieno damno lucrari** (lat.) **–** heç kəs başqasının itkisi hesabına varlanmamalıdır.
8. **Nemo est supra leges** (lat.) **–** heç kəs qanundan üstün ola bilməz.
9. **Nemo jure suo uti cogltur** (lat.) **–** heç kəs öz hüququndan istifadəyə məcbur edilə bilməz.
10. **Nifrət nitqi** – Avropa Şurasının Nazirlər Komitəsinin 30 oktyabr 1997-ci

il tarixli, 97 (20) saylı Tövsiyəsinə əsasən – "Nifrət nitqi dedikdə, irqi nifrət, ksenofobiya, anti-semitizm və ya aqressiv millətçilik və etnosentrizmlə ifadə olunan dözümsüzlük, azlıqlara, miqrantlara və immiqrant mənşəli şəxslərə ayrı-seçkilik və düşmənçilik də daxil olmaqla, dözümsüzlüyə əsaslanan nifrətin digər formalarını yayan, təhrik edən, təşviq edən və ya əsaslandıran ifadənin bütün formaları başa düşülür". Beynəlxalq-hüquqi normaları rəhbər tutan Azərbaycan Respublikasının qanunvericiliyi də nifrət nitqinə qarşı çıxır. Belə ki, həm Azərbaycan Respublikası Konstitusiyasının 47-ci maddəsi irqi, milli, dini, sosial və hər hansı digər meyara əsaslanan ədavət və düşmənçilik oyadan təşviqat və təbliğatı qadağan edir, həm də 57-ci maddənin tənqid hüququnu nəzərdə tutan bəndində təhqir və böhtanın tənqid sayılmaması imperativ formada müəyyən edilir.

11. **Nikah** – qanunla nəzərdə tutulmuş qaydada ailə qurmaq məqsədilə kişi ilə qadının ittifaqı.

12. **Nikah hüququ** – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 34-cü maddəsinə əsasən, hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır. Nikah könüllü razılıq əsasında bağlanılır. Heç kəs zorla evləndirilə (ərə verilə) bilməz. Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əsasən, Azərbaycan Respublikasında nikah yaşı 18 yaş müəyyən olunur. Aşağıdakı şəxslər arasında nikahın bağlanmasına yol verilmir: yaxın qohumlar (valideynlər və uşaqlar, baba-nənə və nəvələr, doğma və ögey (ümumi ata və anası olan) qardaş və bacılar); övladlığa götürənlər və övladlığa götürülənlər; qardaşların və (və ya) bacıların ümumi bioloji baba və (və ya) nənəsi olan uşaqları; bioloji qohumluğu olan əmi (dayı) və qardaş (bacı) qızı, həmçinin bibi (xala) və qardaş (bacı) oğlu; ikisindən biri və ya hər ikisi başqası ilə nikahda olan şəxslər; bu Məcəllənin 13-cü maddəsində nəzərdə tutulmuş tibbi müayinədən keçməyən şəxslər; ikisindən biri və ya hər ikisi Azərbaycan Respublikası ərazisində qanunsuz olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər; ikisindən biri və ya hər ikisi ruhi xəstəlik və ya əqli gerilik nəticəsində məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan hesab edilən şəxslər. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 16-cı maddəsinə əsasən, yetkinlik yaşına çatmış kişilər və qadınlar irqi, milli və dini əlamətlərinə görə heç bir məhdudiyyət qoyulmadan nikaha daxil olmaq və ailə qurmaq hüququna malikdirlər. Onlar nikaha daxil olarkən, nikah müddətində və onun po-

zulması zamanı eyni hüquqlardan istifadə edirlər. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 23-cü maddəsinə uyğun olaraq, nikah yaşına çatmış kişi və qadınların nikah bağlamaq hüququ və ailə qurmaq hüququ tanınır. Avropa İnsan Hüquqları Konvensiyasının 12-ci maddəsinə əsasən, nikah yaşına çatmış kişilər və qadınlar bu hüququn həyata keçirilməsini tənzimləyən milli qanunvericiliyə müvafiq olaraq, nikaha daxil olmaq və ailə qurmaq hüququna malikdirlər.

13. **Normativ hüquqi akt –** qanunvericilik, icra və bəzi hallarda məhkəmə hakimiyyəti orqanlarının hüquq yaradıcılıq aktı. Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının 21 dekabr 2010-cu il tarixli Konstitusiya Qanununa əsasən, normativ hüquqi akt – tənzimlənməsi Azərbaycan Respublikasının Konstitusiyası ilə, qanunla və ya fərmanla dövlət orqanının səlahiyyətlərinə aid edilən məsələlər üzrə həmin dövlət orqanı tərəfindən və ya referendum yolu ilə qəbul edilmiş, hamı üçün məcburi davranış qaydalarını əks etdirən, qeyri-müəyyən subyektlər dairəsi üçün və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəddir (maddə 1).
14. **Normativ hüquqi aktda dəyişikliklərin edilməsi** – normativ hüquqi akta onun müddəalarının mətnini dəyişən və ya əlavə normaların daxil edilməsi.
15. **Normativ hüquqi aktın açıqlanması** – normativ hüquqi aktın rəsmi dövri mətbu nəşrdə dərc edilməsi, digər media subyektlərinin və ya başqa mümkün kommunikasiya vasitələrinin köməyi ilə rəsmi yayılması yolu ilə ümumi diqqətə çatdırılması.
16. **Normativ hüquqi aktın hüquqi qüvvəsi** – normativ hüquqi aktın müvafiq ictimai münasibətlərə tətbiqinin məcburiliyini, habelə onun digər normativ hüquqi aktlar barəsində üstünlüyünü və ya tabeliyini müəyyən edən xarakteristika.
17. **Normativ hüquqi aktların kolliziyası** – eyni ictimai münasibətləri tənzimləyən qüvvədə olan normativ hüquqi aktların ziddiyyəti (uyğunsuzluğu).
18. **Normayaratma fəaliyyəti** – normativ hüquqi aktların hazırlanması, ekspertizası, qəbul olunması, onlarda dəyişikliklər edilməsi, onların şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi üzrə fəaliyyət.
19. **Normayaratma orqanı** – normativ hüquqi aktları qəbul etmək səlahiyyətinə malik olan dövlət orqanı.
20. **Normayaratma prosesi** – dövlət orqanının normativ hüquqi aktların hazırlanması, qəbul olunması və qüvvəyə minməsi üzrə normayaratma fəaliyyəti.

21. **Normayaratma texnikası** – normativ hüquqi aktların layihələrinin hazırlanması qaydalarının sistemi.
22. **Notariat –** fiziki və hüquqi şəxslərin hüquqlarını və qanuni maraqlarını müdafiə etmək məqsədi daşıyan hüquqi institut. Notariat haqqında Azərbaycan Respublikasının 26 noyabr 1999-cu il tarixli Qanununa əsasən, Azərbaycan Respublikasında notariat dedikdə, bu Qanunla nəzərdə tutulmuş hüquqi hərəkətləri aparmağa müvəkkil edilmiş şəxslər birlikdə başa düşülür. Azərbaycan Respublikasında rəsmi və doğru sənədlərin tərtibi üçün hüquqların, hüquqi əhəmiyyətli faktların təsdiqi və digər notariat hərəkətlərinin aparılması notariat fəaliyyətinə məxsusdur və belə fəaliyyət yalnız bu Qanunla müəyyən edilmiş qaydada və nəzərdə tutulmuş şəxslər tərəfindən həyata keçirilə bilər (maddə 1).
23. **Notarius –** notariat fəaliyyəti ilə peşəkarcasına məşğul olan şəxs. Notariat haqqında Azərbaycan Respublikasının 26 noyabr 1999-cu il tarixli Qanununa əsasən, ali hüquq təhsilli, hüquqşünas ixtisası üzrə 3 ildən az olmayaraq iş stajına, mənəvi keyfiyyətlərə və peşə biliklərinə malik Azərbaycan Respublikasının vətəndaşı notarius ola bilər. İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxs, din xadimi vəzifəsinin icrası ilə bağlı əvvəllər qanunvericiliyin tələblərini pozduğuna görə işdən azad edilmiş, qanunla müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab olunan, əvvəllər cinayət törətmiş və buna görə məhkum olunmuş, barəsində notariat fəaliyyəti ilə məşğul olmasının məhdudlaşdırılması və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında qanuni qüvvəyə minmiş məhkəmə qərarı çıxarılmış, habelə bəraətverici əsaslar olmadan cinayətin törədilməsi üzrə cinayət işinin xitam olunması haqqında qanuni qüvvəyə minmiş istintaq orqanı və ya məhkəmənin qərarı olan, tibbi rəyə əsasən fiziki və əqli pozuntularına görə notarius işləməyə qadir olmayan, 65 yaşına çatmış şəxs notarius ola bilməz (maddə 3). Notarius öz vəzifələrini yerinə yetirərkən: fiziki və hüquqi şəxslərə aparılan notariat hərəkətləri ilə bağlı onların hüquq və vəzifələrini izah etməli, bu hüquqların həyata keçirilməsi və qanuni mənafelərinin qorunması üçün köməklik göstərməlidir; hüquqi məlumatsızlığın onlara vura biləcəyi ziyanın qarşısını almaq üçün notariat hərəkətlərinin aparılması nəticələri barədə onlara xəbərdarlıq etməlidir; bu Qanuna və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına əməl etməli, peşə fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar ona məlum olan məlumatları gizli saxlamalıdır (maddə 9).

24. **Nulli vendemus, nulli negabimus, aut differemus, rectum vel justitiam** (lat.) – nə insan hüquqları, nə də ədalət mühakiməsi heç kəsə satıla bilməz (1215-ci il Böyük Azadlıqlar Xartiyasından).
25. **Nullum crimen, nulla poena sine lege** (lat.) – qanun olmadan nə cinayət var, nə cəza.
26. **Nürnberq tribunalı** – İkinci dünya müharibəsi illərində beynəlxalq cinayətlər törətmiş şəxsləri mühakimə etmək üçün təsis olunmuş ilk beynəlxalq məhkəmə orqanı (Tokio tribunalı ilə yanaşı). Tribunal ABŞ, Böyük Britaniya, Fransa və SSRİ arasında 1945-ci ildə bağlanmış Sazişə əsasən yaradılmışdı. Tribunal 12 nəfəri ölüm cəzasına, 7 nəfəri azadlıqdan məhrumetmə cəzasına məhkum etmiş, 3 nəfərə isə bəraət vermişdi. Tribunalın Nizamnaməsinə əsasən onun yurisdiksiyasına aşağıdakı cinayətlər aid edilmişdi: sülh əleyhinə cinayətlər, əsasən də təcavüzkar müharibənin və ya beynəlxalq müqaviləni pozmaqla müharibənin planlaşdırılması, hazırlanması, başlanması, aparılması və ya sadalanan fəaliyyətin hər hansı birinin həyata keçirilməsinə yönəlmiş ümumi planda və qəsdlərdə iştirak etmək; hərbi cinayətlər, əsasən də müharibə qanun və ya adətlərini pozmaq. Bu pozuntulara işğal olunmuş ərazinin mülki əhalisinin öldürülməsi, işgəncə verilməsi, qula çevrilməsi və ya başqa məqsədlə aparılması; hərbi əsirlərin, yaxud dənizdə olan şəxslərin öldürülməsi və ya onlara işgəncə verilməsi; girovların öldürülməsi; ictimai və ya xüsusi mülkiyyətin talanması; şəhər, yaxud kəndlərin mənasız olaraq dağıdılması; hərbi zərurətlə əlaqədar olmayan virançılıq və başqa cinayətlər; insanlıq əleyhinə cinayətlər, əsasən də müharibəyə qədər və ya müharibə zamanı mülki əhaliyə qarşı törədilmiş adamöldürmə, işgəncə, qula çevirmə, sürgün və başqa qəddarlıqlar və ya siyasi, irqi və ya dini motivlərə əsasən mülki əhalini təqib etmə. Nizamnamədə birbaşa soyqırımı termini işlədilməsə də, bu cinayəti təşkil edən əməllər insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri kimi nəzərdə tutulmuşdu. Tribunalın Nizamnaməsində təsbit olunmuş prinsiplər BMT Baş Assambleyasının qətnamələrində əsas prinsiplər kimi təsdiq olunmuşdur. Həmin prinsiplər bunlardır: beynəlxalq hüquqa görə cinayət sayılan hər hansı əməli törətmiş şəxs ona görə məsuliyyət daşıyır və cəzalandırılmalıdır; beynəlxalq hüquqa görə cinayət sayılan hər hansı əmələ görə dövlətdaxili hüquqda cəza nəzərdə tutulmaması həmin əməli törətmiş şəxsi beynəlxalq hüquq üzrə məsuliyyətdən azad etmir; beynəlxalq hüquqa görə cinayət sayılan hər hansı əməli törətmiş şəxsin dövlət başçısı və ya hökumətin məsul vəzifəli şəxsi kimi hərəkət etməsi onu beynəlxalq hüquq üzrə məsuliyyət-

dən azad etmir; beynəlxalq hüquqa görə cinayət sayılan hər hansı əməli törətmiş şəxsin hökumət və ya məsul şəxsin əmrini yerinə yetirməklə əlaqədar fəaliyyət göstərməsi onu beynəlxalq hüquq üzrə məsuliyyətdən azad etmir; lakin yüngülləşdirici hal kimi qiymətləndirilə bilər; sülh və bəşəriyyət əleyhinə cinayətlər, insanlığa qarşı cinayətlər, hərbi cinayətlər beynəlxalq cinayət kimi cəzalandırılır.

O

1. **Ombudsman** (isv. ombud – nümayəndə) – fəaliyyəti konstitusiya və ya digər qanunvericilik aktı ilə tənzimlənən, müstəqil, yaxud hakimiyyətin qollarından birinin nəzdində fəaliyyət göstərən, əsas etibarilə dövlət orqanları, vəzifəli şəxslər tərəfindən pozulmuş insan hüquq və azadlıqlarını bərpa edən, insan hüquqlarının pozuntusu hallarının qarşısını almaq məqsədilə preventiv tədbirlər həyata keçirmək səlahiyyətinə malik olan ali vəzifəli şəxs. Ombudsman dövlət səviyyəsində insan hüquqlarına və əsas azadlıqlara hörmət edilməsinin təmin edilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi və təşviqi işini həyata keçirir. Ombudsman unikal hüquqi təbiətə malik olan institutdur. O, dövlət tərəfindən yaradılır və dövlətin insan hüquqları sahəsində öz üzərinə götürdüyü öhdəliklərin icrasına nəzarəti həyata keçirir. Müasir dövrdə ombudsman institutu hüquqi dövlətin mühüm atributlarından biri kimi çıxış edir. Müxtəlif ölkələrdə müxtəlif adlar altında fəaliyyət göstərməyinə baxmayaraq, insan hüquqlarının müdafiəsi ilə məşğul olan bu institut ümumtanınmış ombudsman adı ilə tanınır. Ombudsman institutu ilk dəfə rəsmi olaraq İsveçin 1809-cu il konstitusiyasında öz əksini tapmışdır. Hazırda İsveçdə dörd parlament ombudsmanı fəaliyyət göstərir. Müxtəlif ölkələrdə ombudsman vəzifəsi müxtəlif adlar daşıyır. Bu institutun vətəni olan Skandinaviya ölkələrində ədliyyə ombudsmanı, yaxud parlament ombudsmanı, bir sıra ingilisdilli ölkələrdə parlament komissarı və ya parlament müvəkkili (Böyük Britaniya, Yeni Zelandiya, Kanadanın ingilisdilli əyalətlərində), bəzi ölkələrdə dövlət nəzarətçisi (İsrail), vətəndaşların hüquqları üzrə parlament müvəkkili (Polşa), insan hüquqları üzrə müvəkkil (Azərbaycan, Rusiya), vətəndaşların yardımçısı (Ayova ştatı, ABŞ), xalq vəkili (Rumıniya), xalq ombudsmanı (Xorvatiya), ədliyyə kansleri (Estoniya) adlanır. Bu institutun adlandırılmasında, həmçinin "müdafiəçi" terminindən istifadə olunur ki, bu da onun fəaliyyətinin məhz insan hüquqlarının müdafiəsinə yönəldiyini göstərir: vətəndaşların müdafiəçisi (Kvebek əyaləti, Kanada), xalq müdafiəçisi (İspaniya, Gürcüstan), ictimai müdafiəçi (Nebraska ştatı, ABŞ). Bəzən ombudsman institutunun funksiyasını kollektiv orqan həyata keçirir: xalq hüquq müdafiəsi kollegiyası (Avstriya), Bundestaqın şikayətlər üzrə komitəsi (Almaniya), milli insan hüquqları komissiyası (Meksika). Bundan əlavə, insan hüquqlarının müdafiəsinin konkret istiqamətləri üzrə (hərbi qulluqçuların hüquqları, istehlakçıların hüquqları, gender bərabərliyi, uşaq hüquqları, ayrı-seçkilik problemləri üzrə)

işləyən "ixtisaslaşmış" ombudsman vəzifələri də vardır.

2. **Orqanik qanun** – müəyyən konstitusion-hüquqi institutu (seçkilər, vətəndaşlıq, məhkəmə quruluşu və s.) tənzimləyən, konstitusiya ilə nəzərdə tutulan hallarda qəbul edilən, qəbul edilməsi üsulu konstitusiya qanunlarından və digər qanunlardan fərqli olan normativ hüquqi akt.

Ö

1. **Öhdəlik** – Bax: insan hüquqları sahəsində dövlətlərin öhdəlikləri.
2. **Ölüm cəzası –** cinayət hüququnda müstəsna cəza tədbiri. Müasir beynəlxalq hüquq və demokratik-hüquqi dövlətlərin qanunvericilikləri ölüm cəzasının tətbiqini qadağan edir. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın ölüm cəzasının ləğvinə yönəlmiş 15 dekabr 1989-cu il tarixli İkinci Fakültativ Protokolunda ölüm cəzasının ləğvinin insan ləyaqətinin möhkəmlənməsinə və insan hüquqlarının mütərəqqi inkişafına səbəb olduğu vurğulanır. Protokolun 1-ci maddəsinə əsasən, bu Protokolun iştirakçı dövlətinin yurisdiksiyası altında olan heç bir şəxs ölüm cəzasına məhkum edilmir. Hər bir iştirakçı dövlət öz yurisdiksiyası çərçivəsində ölüm cəzasının ləğv edilməsi üçün bütün zəruri tədbirləri görür. Avropa İnsan Hüquqları Konvensiyasının bütün hallarda ölüm cəzasının ləğvinə dair 3 may 2002-ci il tarixli, 13 saylı Protokolunda qeyd edilir ki, Avropa Şurasının üzv dövlətləri yaşamaq hüququnun müdafiəsini gücləndirmək arzusunda olaraq, bütün hallarda ölüm cəzasını ləğv etmək üçün son addım atmaq əzmində olaraq bu Protokolu imzaladılar. Protokola əsasən, ölüm cəzası ləğv olunur. Heç kəs belə cəzaya məhkum edilə və ya edam oluna bilməz. Protokola uyğun olaraq, bu Protokolun müddəaları ilə bağlı öhdəliklərdən geri çəkilmə və qeyd-şərtlərin edilməsi qadağan edilir. Azərbaycan Respublikasında ölüm cəzası ləğv edilərək ömürlük azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilmişdir. Belə ki, Ulu Öndər Heydər Əliyev tərəfindən 1993-cü ildə ölüm hökmünün icrasına qadağa qoyulmuş, 1998-ci ildə isə məhz Ulu Öndərin təşəbbüsü ilə ölüm hökmü ləğv edilmişdir. Hazırda 100-dən artıq dövlətdə ölüm cəzası qadağan edilmişdir. Ölüm cəzasının qüvvədə olduğu ölkələrdə bu cəza növü əsasən bu üsullardan biri ilə həyata keçirilir: güllələmə, edam, daşqalaq edilmə, ölümcül inyeksiyanın yeridilməsi, elektrik stulu, qaz kamerasına yerləşdirmə. Hal-hazırda Avropa regionunda ölüm cəzasının tətbiq edildiyi yeganə ölkə Belarusdur. İlk dəfə olaraq ölüm cəzasının insanlığa zidd olduğunu elmi cəhətdən əsaslandıran və Avropa məkanında ilk dəfə olaraq ölüm hökmünə qarşı çıxan məşhur italyan mütəfəkkiri Çezare Bekkaria (ital. Beccaria Bonesana Cesare, 1738-1794) olmuşdur. Bekkarianın hüquq elminin, xüsusilə də cinayət hüququnun və kriminologiyanın inkişafına böyük təsir göstərmiş məşhur "Cinayətlər və cəzalar haqqında" əsərində (ital. Dei delitti e delle pene, 1764) müəllif inkvizisiya prosesini, o cümlədən ölüm cəzasını və işgəncələrin tətbiq edilməsini

kəskin tənqid etmiş və bu cəzaların cinayətkarlığın qarşısının alınması baxımından səmərəsizliyini elmi cəhətdən sübuta yetirmişdir. Məhz bu əsərin işıq üzü görməsindən sonra Avropada liberal islahatların həyata keçirilməsinə başlanılmışdır. Bekkarianın ideyalarının və elmi baxışlarının təsiri altında 1786-cı ildə Toskana (İtaliya) böyük hersoqu Leopoldun göstərişi ilə cinayət məcəlləsi hazırlanmış və Avropada ilk dəfə olaraq bu məcəlləyə müvafiq olaraq ölüm cəzası qadağan edilmişdir.

3. **Ömürlük azadlıqdan məhrum etmə** – Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, yalnız sülh və insanlıq əleyhinə, müharibə cinayətləri ilə əlaqədar, şəxsiyyət, ictimai təhlükəsizlik və ictimai qayda və dövlət hakimiyyəti əleyhinə törədilmiş xüsusilə ağır cinayətlərə görə müəyyən edilən cəza növü. Ömürlük azadlıqdan məhrum etmə qadınlara, cinayət törədərkən on səkkiz yaşı tamam olmamış şəxslərə, habelə hökm çıxarılanadək altmış beş yaşına çatmış kişilərə təyin edilmir (maddə 57).

P

1. **Pacta sunt servanda** (lat. müqavilələr icra edilməlidir) – beynəlxalq hüququn əsas prinsiplərindən biri. Prinsipin mahiyyəti ondan ibarətdir ki, dövlət iştirakçısı olduğu beynəlxalq müqavilədən irəli gələn öhdəlikləri vicdanla yerinə yetirməlidir. Beynəlxalq müqavilələr hüququ haqqında 23 may 1969-cu il tarixli Vyana Konvensiyasının preambulasında qeyd edilir ki, "pacta sunt servanda" ümumtanınmış normadır. Konvensiyanın "pacta sunt servanda" adlanan 26-cı maddəsinə əsasən, hər bir qüvvədə olan müqavilə onun iştirakçıları üçün məcburidir və onlar tərəfindən vicdanla icra edilməlidir. Azərbaycan Respublikasında beynəlxalq müqavilələrə əməl edilməsinin təminatçısı dövlət başçısıdır. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının təminatçısıdır (maddə 8) . Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında Azərbaycan Respublikasının 13 iyun 1995-ci il tarixli Qanununa görə, Azərbaycan Respublikası beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinə dönmədən əməl etməlidir. Azərbaycan Respublikası beynəlxalq müqavilələrə vicdanla əməl edilməsi prinsipinə uyğun olaraq, Azərbaycan Respublikasının iştirak etdiyi ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələrin digər iştirakçılarının da bu müqavilələrdən irəli gələn öhdəlikləri yerinə yetirməsi üçün səylər göstərir (maddə 15).
2. **Pakt** (lat. pactum – saziş, müqavilə) – beynəlxalq müqavilənin adlarından biri.
3. **Parlament** (lat. parlare, fr. parler – danışmaq) – hakimiyyətlərin bölgüsü prinsipini rəhbər tutan dövlətlərdə ali qanunverici orqan. Parlament bütün ölkə əhalisindən seçki yolu ilə mandat almış nümayəndələrin təmsil olunduğu ali nümayəndəli orqandır. Parlament ümumi seçkilər yolu ilə formalaşır. Parlamentin formalaşması və fəaliyyəti qədim tarixi köklərə malikdir. Xalq nümayəndəliyi orqanları hələ qədim dövlətlərə, əsasən də qədim Romaya məlum idi. Müasir parlamentarizmin vətəni İngiltərə hesab edilir. İngiltərədə parlamentin proobrazı XIII əsrdə insan hüquqları baxımından mühüm əhəmiyyət kəsb edən Böyük Azadlıqlar Xartiyası qəbul olunduqdan sonra yaradılmışdır. İngilis parlamenti 1265-ci ildən fəaliyyət göstərir. Parlamentlər, bir qayda olaraq, tək palatalı və iki pa-

latalı olur. İki palatalı parlamentlər aşağı və yuxarı palatalardan ibarət olur. Məsələn, İngiltərədə İcmalar palatası və Lordlar palatası, Rusiyada Dövlət Duması və Federasiya Şurası, ABŞ-də Nümayəndələr palatası və Senat və b. Parlamentin əsas təyinatı qanunvericilik funksiyasını həyata keçirməkdən ibarətdir. Parlament, eyni zamanda nəzarət funksiyasını da yerinə yetirir. Parlamentin nəzarət fəaliyyəti hökumətin və digər ali hakimiyyət orqanlarının fəaliyyətinə nəzarəti əhatə edir və əsas etibarilə hesabatların və məruzələrin dinlənilməsi yolu ilə həyata keçirilir. Əgər C.Lokk (1632-1704) və Ş.Monteskye (1689-1755) parlamentin fəaliyyətini yalnız qanunvericilik funksiyası ilə məhdudlaşdırırdılarsa, J.J.Russo (1712-1778) parlamentin icra hakimiyyəti üzərində nəzarətinin vacibliyini qeyd edirdi. Parlament müxtəlif ölkələrdə müxtəlif cür adlandırılır. Azərbaycanda Milli Məclis, Rusiyada, İsveçrədə Federal Məclis, ABŞ-də Konqress, Ukraynada Ali Rada, İsraildə Knesset, Serbiyada, Çernoqoriyada Skupşina, Polşada, Latviyada, Litvada Seym, Finlandiyada Eduskunta, İsveçdə Riksdaq, Almaniyada Bundestaq və s.

4. **Parlamentarizm** – sosial ədalətin və qanunçuluğun bərqərar olması məqsədilə parlamentin aparıcı rolu ilə hakimiyyətlərin bölünməsi və qanunun aliliyi prinsiplərinə əsaslanan dövlət hakimiyyətinin təşkilinin xüsusi sistemi. Parlamentarizm siyasi hakimiyyət mexanizminin fəaliyyətində parlamentin xüsusi rolunu ehtiva edir. Hüquq ədəbiyyatında parlamentarizm digər dövlət orqanları ilə müqayisədə parlamentin üstünlüyü ilə səciyyələnən idarəçilik sistemi kimi də nəzərdən keçirilir. Parlamentarizm, müəyyən mənada, həm də dövlət hakimiyyəti sistemində parlamentin aparıcı mövqeyinə əsaslanan xüsusi rejim, dövlət hakimiyyətinin həyata keçirilməsinin xüsusi metodu kimi də nəzərdən keçirilə bilər.
5. **Parlament hüququ** – parlamentin daxili quruluşu və prosessual-təşkilati fəaliyyətini, həmçinin onun digər dövlət orqanları və seçici korpusu ilə münasibətlərini tənzimləyən normalar və qaydalar sistemi.
6. **Pasiyentlərin hüquqları** – pasiyentlər (lat. patiens – əzab çəkən; əziyyətə dözən) tibbi xidmətin istehlakçısı, tibbi yardım göstərilən şəxslərdir. Avropada pasiyentlərin hüquqlarının təmin edilməsi sahəsində siyasət haqqında Bəyannaməyə əsasən, pasiyent – tibbi xidmətlərdən istifadə edən sağlam və ya xəstə şəxsdir. Pasiyentlərin hüquqlarına dair müddəalar həm milli qanunvericilik aktlarında, həm də beynəlxalq sənədlərdə öz əksini tapmışdır. Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının 26 iyun 1997-ci il tarixli Qanununa əsasən, pasiyentin: təxirəsalınmaz tibbi yardım göstərilməsi halları istisna ol-

maqla həkimin öz razılığı ilə həkimi, o cümlədən müalicə həkimini və müalicə-profilaktika müəssisəsini seçmək; sanitariya-gigiyena tələblərinə uyğun olan şəraitdə müayinə və müalicə olunmaq; stasionar müalicə olunduğu tibb müəssisəsinin mütəxəssislərinin iştirakı ilə konsilium və məsləhətləşmələr aparılmasını tələb etmək; tibbi yardım üçün müraciət faktını, müalicə, sağlamlıq vəziyyəti, xəstəliyin diaqnozu barəsində, eləcə də müayinə və müalicə zamanı əldə edilən digər məlumatları ətrafdakılardan gizli saxlamaq; tibbi müdaxiləyə şifahi və ya yazılı könüllü razılıq vermək; tibbi müdaxilədən imtina etmək; hüquq və vəzifələri haqqında, sağlamlığının vəziyyəti barədə məlumat almaq və öz mənafeyi baxımından bu məlumatı vermək mümkün olan şəxsi seçmək; daxili qaydalar pozulmamaq şərtilə xəstəxanada dini mərasimin icra edilməsi üçün ayrıca yerlə təmin olunmaq hüququ vardır. Pasiyentin hüquqları pozulduqda, o, müalicə-profilaktika müəssisəsinin rəhbərliyinə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və ya qanunvericilikdə müəyyən edilmiş qaydada məhkəməyə müraciət edə bilər (maddə 24). Pasiyentlərin hüquqları sahəsində bir sıra mühüm beynəlxaq sənədlər mövcuddur. 1981-ci ildə Ümumdünya Tibb Assambleyası tərəfindən qəbul edilmiş Pasiyentlərin hüquqları haqqında Lissabon Bəyannaməsində pasiyentlərin bir sıra hüquqları qeyd edilmişdir: sərbəst şəkildə həkim seçmək hüququ, həkim yardımından istifadə etmək hüququ, müalicə olunmağa razılıq vermək və ya müalicədən imtina etmək hüququ, həkim tərəfindən pasiyentin tibbi və şəxsi informasiyasına konfidensial yanaşma hüququ, mənəvi dəstəkdən, o cümlədən istənilən dini konfessiya xadiminin köməyindən istifadə hüququ. 1994-cü ildə Amsterdamda (Niderland Krallığı) Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən Avropada pasiyentlərin hüquqlarının təmin edilməsi sahəsində siyasət haqqında Bəyannamə qəbul edilmişdir. Bəyannamə sağlamlığın qorunması sahəsində əsas insan hüquqlarını təsdiq etmək, şəxsiyyətin bütövlüyünü və ləyaqətini qorumaq, pasiyentə bir şəxsiyyət kimi hörmət edilməsini təmin etmək, pasiyentlərlə tibb işçiləri arasında səmərəli münasibətlərin formalaşmasına yardım etmək, pasiyentlərin hüquqlarının müdafiəsi sahəsində beynəlxalq əməkdaşlığı inkişaf etdirmək, tibbi yardımın humanistləşdirilməsi və əsas insan hüquqlarının təmin edilməsi məqsədilə qəbul edilmişdir. Bəyannamədə bir sıra hüquqlar təsbit olunmuşdur: hər bir insanın şəxsiyyətinə hörmət edilməsi hüququ, hər bir insanın özünütəyin hüququ, hər bir insanın özünün fiziki və psixi tamlığını saxlamaq, həmçinin şəxsiyyətinin təhlükəsizliyi hüququ, hər bir

insanın öz səhhətini qorumaq hüququ. Bəyannaməyə əsasən, tibbi yardımın göstərilməsi zamanı pasiyent yalnız elə məhdudiyyətlərə məruz qala bilər ki, bu məhdudiyyətlər insan hüquqlarının prinsiplərinə zidd olmasın və qanunvericiliyə uyğun olsun. 2002-ci ilin noyabrın 15-də Brüsseldə (Belçika Krallığı) Avropa İttifaqı tərəfindən Pasiyentlərin hüquqları haqqında Avropa Xartiyası qəbul edilmişdir. Xartiyada pasiyentlərin on dörd hüququ təsbit olunmuş və bu hüquqların insan sağlamlığının yüksək səviyyədə qorunmasına yönəldiyi qeyd olunmuşdur: hər bir insanın xəstəliyin qarşısının alınması məqsədilə müvafiq xidmətlərdən yararlanmaq hüququ, tibbi xidmətlərin əlçatan olması hüququ, hər kəsin öz səhhəti, tibbi xidmətlər və bu xidmətlərdən istifadənin üsulları, həmçinin elmi tədqiqatlar və texniki tərəqqi nəticəsində əldə olunan imkanlar haqqında məlumat almaq hüququ, hər kəsin öz səhhəti ilə bağlı qərarların qəbul edilməsində fəal iştirakını təmin edəcək istənilən informasiyanı almaq hüququ, hər kəsin adekvat informasiya əsasında müxtəlif tibbi prosedurlar və müəssisələr arasında sərbəst seçim etmək hüququ, hər kəsin səhhəti ilə bağlı informasiya da daxil olmaqla şəxsi informasiyanın konfidensiallığı hüququ, hər kəsin əvvəlcədən müəyyən edilmiş müddətdə gecikməyə yol verilmədən zəruri müalicə almaq hüququ, hər kəsə keyfiyyətli tibbi xidmətin əlçatan olması hüququ, hər kəsin səhiyyə sisteminin qüsurlu fəaliyyəti, tibb işçilərinin səhlənkarlığı və xətaları nəticəsində vurulan zərərdən azad olmaq, həmçinin yüksək təhlükəsizlik standartlarına cavab verən tibbi xidmətlərin və müalicə prosedurlarının əlçatanlığı hüququ, hər kəsin iqtisadi və ya maliyyə mülahizələrindən asılı olmayaraq beynəlxalq standartlara uyğun diaqnostik prosedurlar da daxil olmaqla tibbi innovasiyaların əlçatanlığı hüququ, hər kəsin xəstəliyin istənilən mərhələsində mümkün olan dərəcədə əzab və ağrıdan xilas olmaq hüququ, hər kəsin müalicəyə fərdi yanaşılma hüququ, hər kəsin ona ziyan dəydiyi halda şikayət etmək hüququ, hər kəsin tibbi müəssisə tərəfindən dəyən fiziki və ya mənəvi və psixoloji zərər nəticəsində ağlabatan qısa müddət ərzində kifayət qədər kompensasiya almaq hüququ. Xartiyada qeyd edilir ki, pasiyentlərin hüquqlarının səmərəli müdafiəsi məqsədilə Xartiyada təsbit edilmiş hüquqlar tam və ya qismən milli qanunvericiliyə inkorporasiya edilə bilər.

7. **Pasiyentlərin hüquqları haqqında Avropa Xartiyası –** pasiyentlərin hüquqlarının səmərəli müdafiəsinin təmin edilməsi məqsədilə Avropa İttifaqı tərəfindən 2002-ci ilin noyabrın 15-də Brüsseldə (Belçika Krallığı) qəbul edilmiş sənəd. Xartiyada pasiyentlərin on dörd hüququ təsbit

olunmuş və bu hüquqların insan sağlamlığının yüksək səviyyədə qorunmasına yönəldiyi qeyd olunmuşdur: hər bir insanın xəstəliyin qarşısının alınması məqsədilə müvafiq xidmətlərdən yararlanmaq hüququ, tibbi xidmətlərin əlçatan olmasına olan hüquq, hər kəsin öz səhhəti, tibbi xidmətlər və bu xidmətlərdən istifadənin üsulları, həmçinin elmi tədqiqatlar və texniki tərəqqi nəticəsində əldə olunan imkanlar haqqında məlumat almaq hüququ, hər kəsin öz səhhəti ilə bağlı qərarların qəbul edilməsində fəal iştirak etməyini təmin edəcək istənilən informasiyanı almaq hüququ, hər kəsin adekvat informasiya əsasında müxtəlif tibbi prosedurlar və müəssisələr arasında sərbəst seçim etmək hüququ, hər kəsin səhhəti ilə bağlı informasiya da daxil olmaqla şəxsi informasiyanın konfidensiallığı hüququ, hər kəsin əvvəlcədən müəyyən edilmiş müddətdə gecikməyə yol verilmədən zəruri müalicə almaq hüququ, hər kəsin keyfiyyətli tibbi xidmətin əlçatan olması hüququ, hər kəsin səhiyyə sisteminin qüsurlu fəaliyyəti, tibb işçilərinin səhlənkarlığı və xətaları nəticəsində vurulan zərərdən azad olmaq, həmçinin yüksək təhlükəsizlik standartlarına cavab verən tibbi xidmətlərin və müalicə prosedurlarının əlçatanlığı hüququ, hər kəsin iqtisadi və ya maliyyə mülahizələrindən asılı olmayaraq beynəlxalq standartlara uyğun diaqnostik prosedurlar da daxil olmaqla tibbi innovasiyaların əlçatanlığı hüququ, hər kəsin xəstəliyin istənilən mərhələsində mümkün olan dərəcədə əzab və ağrıdan xilas olmaq hüququ, hər kəsin müalicəyə fərdi yanaşılma hüququ, hər kəsin ona ziyan dəydiyi halda şikayət etmək hüququ, hər kəsin tibbi müəssisə tərəfindən dəyən fiziki və ya mənəvi və psixoloji zərər nəticəsində ağlabatan qısa müddət ərzində kifayət qədər kompensasiya almaq hüququ. Xartiyada qeyd edilir ki, pasiyentlərin hüquqlarının səmərəli müdafiəsi məqsədilə Xartiyada təsbit edilmiş hüquqlar tam və ya qismən milli qanunvericiliyə inkorporasiya edilə bilər.

8. **Pasport** – şəxsə vətəndaşı olduğu dövlət tərəfindən verilən, ona ölkədən getmək və ölkəyə gəlmək hüququ verən, habelə onun şəxsiyyətini və vətəndaşlığını təsdiq edən sənəd.

9. **Passiv seçki hüququ –** vətəndaşların dövlət hakimiyyəti orqanlarında müəyyən vəzifələrə və seçkili orqanlara, o cümlədən yerli özünüidarə orqanlarına seçilmək hüququ. Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsinə əsasən, Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır. Məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkilərdə, habelə referendumda iştirak etmək

hüququ yoxdur. Hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin, bu Konstitusiyada və qanunda nəzərdə tutulan digər şəxslərin seçilmək hüququ qanunla məhdudlaşdırıla bilər. Azərbaycan Respublikasının Seçki Məcəlləsinə əsasən, Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsində və bu Məcəllədə nəzərdə tutulan hallar istisna olmaqla, aktiv seçki hüququna malik olan hər bir vətəndaşın referendum üzrə təşviqat qruplarının yaradılmasının təşəbbüsçüsü olmaq, Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş Prezidentliyə, deputatlığa, bələdiyyə üzvlüyünə namizədlər üçün irəli sürülən tələblərə cavab verdikdə, Milli Məclisin deputatı, Prezident, bələdiyyə üzvü seçilmək hüququ – passiv seçki hüququ vardır. Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsinin III hissəsinə, 85-ci və 100-cü maddələrinə uyğun olaraq, aşağıdakı şəxslərin Milli Məclisin deputatı, Prezident, bələdiyyə üzvü seçilmək hüququ – passiv seçki hüququ yoxdur: məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum etmə yerlərində cəza çəkən şəxslər; Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 15.4-15.5-ci maddələrində nəzərdə tutulan cinayətlərə görə məhkum olunmuş şəxslər; ikili vətəndaşlığı olan Azərbaycan Respublikası vətəndaşları (ikili vətəndaşlığı qalanadək); xarici dövlətlər qarşısında öhdəlikləri olan Azərbaycan Respublikası vətəndaşları (həmin öhdəliklərə xitam verilənədək). Belə öhdəliklər 5 ildən çox xarici dövlətdə yaşamaqla bağlı əmələ gələn davamlı, möhkəm və sabit münasibətlərin mövcudluğuna səbəb olan qeydiyyat, vergi, ölkə ərazisini müəyyən müddətdən artıq tərk etməmək, habelə digər siyasi və ya hüquqi öhdəliklər də ola bilər (maddə 13).

10. **Patent hüququ** – sənaye mülkiyyəti obyektləri – ixtiraların, faydalı modellərin və sənaye nümunələrinin yaradılması, hüquqi mühafizəsi və istifadəsi ilə əlaqədar yaranan əmlak münasibətlərini və onlarla bağlı şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyən hüquq normalarının məcmusu.
11. **Penitensiar** (lat. poenitentia – peşmanlıq) – qanun əsasında yaradılmış məhkəmənin təyin etdiyi cəzanın icrası məqsədilə dövlət məcburetmə tədbirləri sistemi.
12. **Penitensiar müəssisə** – qanun əsasında yaradılmış məhkəmənin təyin etdiyi azadlıqdan məhrumetmə cəzasının icrasını həyata keçirən cəzaçəkmə müəssisəsi.
13. **Pensiya** – Bax: əmək pensiyası.
14. **Petisiya** (lat. petitio – müraciət) – vətəndaşlar və ya dövlətin yurisdik-

siyası altında olan digər şəxslər tərəfindən dövlət orqanlarına və vəzifəli şəxslərə ünvanlanan fərdi və ya kollektiv müraciət.

15. **Piratçılıq** – pirat məhsulun hazırlanması (istehsalı) və yayılması. Piratçılıq tarixən dəniz quldurlarının adı ilə bağlı meydana gəlmiş və sonradan – XVII əsrin əvvəllərindən müəlliflik hüquqlarının pozulması hallarında istifadə edilməyə başlanmışdır.
16. **Plagiatlıq** (lat. plagio – oğurlayıram) – intellektual mülkiyyətin qeyri-maddi formada qanunsuz mənimsənilməsi. "Plagium" sözü Qədim Roma qanunlarında azad insanın köləliyə satışını bildirirdi. Müasir anlamda "plagiat" termini Avropa dillərində XVII əsrdə istifadə edilməyə başlanmışdır. Formasına görə plagiatın aşağıdakı növləri vardır: mətn tipli mənbələrdən ideyaların mənimsənilməsi; audio mənbələrdən ideyaların mənimsənilməsi; video ideyaların mənimsənilməsi; kompyuter proqramlarında plagiatlıq; qrafik tipli mənbələrdən ideyaların mənimsənilməsi. Məzmununa və prosesin baş vermə üsuluna görə plagiat iki növə bölünür: 1. köçürmə plagiatlıq və ya Copy & Paste plagiatlıq; 2. dəyişməklə plagiatlıq və yaxud intellektual plagiatlıq. Köçürmə plagiatlıq və ya Copy & Paste plagiatlıq şəxsin heç bir əməyi olmadan və ya cüzi əməyi olmaqla müəlliflik hüququnu mənimsəməsi prosesinə deyilirsə, intellektual plagiatlıq dedikdə, şəxsin mənimsəmək istədiyi əsəri dəyişdirməklə yeni formada öz adına təqdim etməsi başa düşülür. Birinci halda plagiatlıq açıq şəkildə özünü ifadə edir, ona görə də daha asanlıqla aşkarlana bilir, ikinci halda isə yeni mətndə bu və ya digər dərəcədə plagiat iştirakçının intellektual əməyi olduğundan plagiatlıq aktının müəyyən edilməsi çətinlik törədir.
17. **Plebissit** (lat. plebs, plebis – xalq kütləsi, sadə xalq, scitum – qərar) – xalqın iradəsinin təzahürünün formalarından biri. Bir qayda olaraq, plebissit konkret ərazidə yaşayan əhalinin həmin ərazinin mənsubiyyəti haqqında rəyinin öyrənilməsi məqsədilə tətbiq edilir. Plebissit dövlətdaxili qanunvericilik aktı və ya beynəlxalq müqavilə əsasında keçirilə bilər. Plebissitin təşkili və onun keçirilməsinə nəzarət dövlət, yaxud beynəlxalq təşkilat tərəfindən həyata keçirilə bilər.
18. **Plüralizm** (lat. pluralis – çoxlu) – demokratik cəmiyyət və hüquqi dövlət quruculuğunun əsas prinsiplərindən biri kimi fikir, rəy, siyasi mülahizələr, baxışlar müxtəlifliyi. Siyasi-hüquqi plüralizm demokratik dövlətin əsaslarından birini təşkil edir. Siyasi-hüquqi plüralizmin bərqərar olması insan hüquqlarının səmərəli təmini üçün mühüm zəmin yaradır.
19. **Poliqamiya** (yun. polys – çoxsaylı, gamos – nikah) – çoxnikahlılıq.

20. **Polis** (yun. politeia – şəhər-dövlət) – ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə dövlət orqanları və xidmətləri sistemi. Müasir tipli ilk polis sistemi 1829-cu ildə tanınmış ingilis dövlət xadimi Robert Pil (1788-1850) tərəfindən yaradılmış London paytaxt polisi, polisin fəaliyyətini tənzimləyən ilk qanunvericilik aktı isə 1829-cu ildə İngiltərədə qəbul olunmuş paytaxt polisi haqqında qanun (ing. Metropolitan Police Act) hesab edilir. Azərbaycanda polisin təşəkkül tarixi Azərbaycan Xalq Cümhuriyyəti dövrünə təsadüf edir. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti milli hökumətinin tərkibində Daxili İşlər Nazirliyi yaradılmışdır. Azərbaycanın ilk Daxili işlər naziri görkəmli dövlət xadimi Fətəli xan Xoyski (1875-1920) olmuşdur. Polis haqqında Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli Qanununa əsasən, polis – Azərbaycan Respublikasının icra hakimiyyətinə mənsub olan, vahid, mərkəzləşdirilmiş hüquq mühafizə orqanıdır (maddə 1). Azərbaycan Respublikasında polisin təyinatı insanların həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərini və mülkiyyətini hüquqa zidd əməllərdən qorumaqdan ibarətdir. Polis insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət, qanunçuluq, humanistlik və təkbaşçılıq prinsipləri əsasında fəaliyyət göstərir. Polisin fəaliyyətinin əsas istiqamətləri aşağıdakılardır: ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi; cinayətlərin və digər xətaların qarşısının alınması və açılması; yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi.

21. **Polis əməkdaşı** – polis orqanlarında müəyyən vəzifə tutan və Polis haqqında Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli Qanunu ilə müəyyənləşdirilmiş səlahiyyətləri həyata keçirən dövlət qulluqçusu.

22. **Polisin əsas vəzifələri** – Polis haqqında Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli Qanununa müvafiq olaraq, polisin əsas vəzifələri aşağıdakılardır: ictimai qaydanı qorumaq və ictimai təhlükəsizliyi təmin etmək; cinayətlərin və digər xətaların qarşısının alınması üçün tədbirlər görmək; yetkinlik yaşına çatmayanların hüquq pozuntularının qarşısının alınması sahəsində fəaliyyət göstərmək; şəxsiyyəti, insan hüquq və azadlıqlarını və mülkiyyəti hüquqa zidd əməllərdən qorumaq; Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş hallarda dövlət idarələrini və digər obyektləri mühafizə etmək; törədilmiş cinayətləri açmaq; cinayətlərin qeydiyyatını və uçotunu aparmaq; cinayətkarları aşkara çıxarmaq və tutmaq; səlahiyyətlərinə aid edilmiş işlər

üzrə təhqiqat və istintaq aparmaq; Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş səlahiyyətlər daxilində inzibati tənbeh və ya başqa təsir tədbirləri tətbiq etmək, tutulmuş və inzibati xətaya görə həbsə alınmış şəxsləri saxlamaq; Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək; kriminalistik və başqa tədqiqatların aparılmasını təmin etmək; Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada istintaq təcridxanalarında əməliyyat-axtarış fəaliyyətini müvafiq icra hakimiyyəti orqanı ilə birgə həyata keçirmək; hüquqi və fiziki şəxslərin əmlakını hüquqa zidd əməllərdən qorumaq məqsədilə müqavilələr bağlamaq; Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş icazə-qeydiyyat işlərini aparmaq; yol hərəkəti qaydalarına və hərəkət təhlükəsizliyinə riayət olunmasına nəzarət etmək; yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görmək; yol hərəkəti və onun təhlükəsizliyi göstəricilərinin vahid dövlət uçotu sistemini təşkil etmək (maddə 3).

23. **Pozitiv hüquqlar** – insanların hüquq münasibətlərinin iştirakçısı olaraq müxtəlif sosial rolları həyata keçirərək əldə etdikləri hüquqlar. Bu hüquqlar təbii hüquqlar deyil, sonradan əldə edilən pozitiv hüquqlardır. Pozitiv hüquqlar universal, əsas hüquqlar sırasına daxil deyil.

24. **Presedent** (lat. praecedens – əvvəlki) – analoji hallar üçün nümunə olan hərəkət və ya qərar. Hüquq ədəbiyyatında inzibati presedent və məhkəmə presedenti fərqləndirilir. İnzibati presedent inzibati orqanın və ya vəzifəli şəxsin inzibati iş üzrə normativ qüvvəyə malik qərarıdır. Məhkəmə presedenti analoji işlərin həlli zamanı nümunə kimi cıxış edən konkret iş üzrə yuxarı məhkəmə orqanının qərarıdır. Məhkəmə presedenti ümumi hüquq ailəsinə daxil olan ölkələrdə (ABŞ, Avstraliya, Böyük Britaniya, Kanada və b.) hüququn əsas mənbəyi qismində çıxış edir. Məhkəmə presedenti yuxarı məhkəmələr tərəfindən yaradılır və aşağı məhkəmə orqanları onların qərarlarını rəhbər tuturlar. Presedent hüququnun məzmunu yuxarı məhkəmə orqanları tərəfindən müəyyən edilir. Presedentin hüququn mənbəyi kimi tanınması məhkəmələrə hüquqyaratma imkanı verir. Ümumi hüquq ailəsinə daxil olan ölkələrdə məhkəmə orqanları yalnız ədliyyə orqanları kimi deyil, həm də hüquqyaratma orqanları kimi çıxış edir. ABŞ-də Ali məhkəmə və ştatların apellyasiya məhkəmələri öz presedentlərindən geri çəkilmək hüququna malikdir. Presedent hüququ həm də statut hüququnun formalaşmasına mühüm təsir göstərmişdir. XIX əsrin sonu XX əsrin əvvəllərindən başlayaraq parlament statutları

(qanunlar) məhkəmə presedenti ilə yanaşı, hüququn mənbəyi qismində də çıxış edir. Müasir dövrdə presedent hüquq normalarının qanunvericiliyə inkorporasiya olunması tendensiyası müşahidə olunur.

25. **Preyudisiya** (lat. praejudicialis – əvvəlki məhkəmə qərarına aid olan) – işə baxan bütün məhkəmələr üçün digər iş üzrə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı (hökmü) ilə müəyyən edilmiş faktların məcburiliyi. Prokurorluq orqanlarının aktları məhkəmə üçün preyudisiya əhəmiyyəti kəsb etmir. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin "Preyudisiya" adlanan 142-ci maddəsinə əsasən, cinayət təqibi üzrə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü cinayət təqibi üzrə icraatda həm müəyyən olunmuş hallara, həm də onların hüquqi qiymətinə görə təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə üçün məcburidir. Mülki iş, kommersiya və ya inzibati mübahisə üzrə qanuni qüvvəyə minmiş məhkəmənin qərarı cinayət işi üzrə icraatda təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəməyə yalnız hadisənin, yaxud hərəkətin olub-olmaması hissəsində məcburidir və təqsirləndirilən şəxsin təqsirli olub-olmaması nəticəsini əvvəlcədən həll etmir. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin mövqeyinə görə, preyudisiya institutunun əsas funksiyası eyni faktiki hallar arasındakı qarşılıqlı əlaqəni və məhkəmə qərarları arasındakı stabilliyi təmin etməkdir. Preyudisiya institutunun mülki prosesdə eyni faktiki hallar arasındakı qarşılıqlı əlaqəni təmin etmək funksiyasının mahiyyəti eyni faktiki halların təkrarən, lüzumsuz olaraq araşdırılması və onlar barəsində yenidən nəticəyə gəlinməsinin qarşısını almaqdan ibarətdir. Məhkəmə qərarının preyudisiallığı qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə müəyyənləşdirilmiş faktların və hüquq münasibətlərinin işdə iştirak edən şəxslər tərəfindən yenidən mübahisələndirilməsinin, məhkəmə üçün isə onların başqa prosesdə araşdırılmasının və təkzib edilməsinin mümkünsüzlüyünü ehtiva edir. Konstitusiya Məhkəməsi Plenumunun preyudisiallığın hədləri ilə bağlı formalaşdırdığı hüquqi mövqeyə əsasən, preyudisiallıq prinsipi yalnız əvvəlki və ya sonrakı proseslərdə iştirak edən tərəflərə, işdə iştirak edən digər şəxslərə və onların hüquq varislərinə aid edilir. Beləliklə, preyudisiallıq institutu yalnız işdə iştirak edən şəxslərə aid olmaqla, onlar tərəfindən qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi ilə müəyyən edilmiş faktların başqa məhkəmə prosesində mübahisələndirilməsini istisna edir (Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "G.Əhmədovanın şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 19 fevral 2019-cu il tarixli qərarının Azərbaycan Respublikası-

nın Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" 2019-cu il 24 iyul tarixli Qərarı).

26. **Prezident** (lat. praesidens – sədrlik edən) – respublika idarəçilik formasında təkbaşına dövlət başçısı. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının Prezidentidir. O, ölkənin daxilində və xarici münasibətlərdə Azərbaycan dövlətini təmsil edir. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının təminatçısıdır. Azərbaycan Respublikasının Prezidenti məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır. Azərbaycan Respublikasının ərazisində 10 ildən artıq daimi yaşayan, seçkilərdə iştirak etmək hüququna malik olan, o cümlədən ağır cinayətə görə məhkum olunmayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan Azərbaycan Respublikasının vətəndaşı Azərbaycan Respublikasının Prezidenti seçilə bilər. Azərbaycan Respublikasının Prezidenti ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə 7 il müddətinə seçilir. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinə əsasən, Azərbaycan Respublikasının Prezidenti: Azərbaycan Respublikasının Milli Məclisinə seçkiləri təyin edir; Azərbaycan Respublikasının dövlət büdcəsini Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə təqdim edir; dövlət iqtisadi və sosial proqramlarını təsdiq edir; Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə Azərbaycan Respublikasının Baş nazirini vəzifəyə təyin edir; Azərbaycan Respublikasının Baş nazirini vəzifədən azad edir; Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvlərini vəzifəyə təyin və vəzifədən azad edir; zəruri hallarda Azərbaycan Respublikası Nazirlər Kabinetinin iclaslarına sədrlik edir; Azərbaycan Respublikası Nazirlər Kabinetinin istefası haqqında qərar qəbul edir; Azərbaycan Respublikasının dövlət büdcəsində icra hakimiyyəti üçün nəzərdə tutulmuş xərclər çərçivəsində mərkəzi və yerli icra hakimiyyəti orqanları yaradır; Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının aktlarını ləğv edir; Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi və Azərbaycan Respublikasının apellyasiya məhkəmələri hakimlərinin vəzifəyə

təyin edilməsi haqqında Azərbaycan Respublikasının Milli Məclisinə təqdimatlar verir; Azərbaycan Respublikasının digər məhkəmələrinin hakimlərini vəzifəyə təyin edir; Azərbaycan Respublikasının Baş prokurorunu Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə vəzifəyə təyin və vəzifədən azad edir; Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisinə təqdimat verir, Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvləri sırasından Azərbaycan Respublikası Mərkəzi Bankının sədrini təyin edir; Azərbaycan Respublikasının hərbi doktrinasını Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir; Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ali komanda heyətini vəzifəyə təyin və vəzifədən azad edir; Azərbaycan Respublikası Prezidentinin Administrasiyasını təşkil edir və onun rəhbərini təyin edir; Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin seçilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinə təqdimat verir; Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndəliklərinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinə təqdimat verir, Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndələrini təyin edir və geri çağırır; xarici dövlətlərin diplomatik nümayəndələrinin etimadnamə və övdətnamələrini qəbul edir; dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələri bağlayır, dövlətlərarası və Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələri təsdiq və ləğv olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir; təsdiqnamələri imzalayır; referendum təyin edir; qanunları imzalayır və dərc edir; vətəndaşlıq məsələlərini həll edir; siyasi sığınacaq verilməsi məsələlərini həll edir; əfv edir; dövlət təltifləri ilə təltif edir; ali hərbi və ali xüsusi rütbələr verir; ümumi və qismən səfərbərlik elan edir, habelə səfərbərlik üzrə çağırılanları tərxis edir; Azərbaycan Respublikası vətəndaşlarının müddətli hərbi xidmətə çağırılması və müddətli hərbi xidmətdə olan hərbi qulluqçuların ehtiyata buraxılması barədə qərarlar qəbul edir; Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasını yaradır; Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına cəlb edilməsinə razılıq verilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisinə təqdimat verir; fövqəladə və hərbi vəziyyət elan edir; Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə müharibə elan edir və sülh bağlayır; Azərbaycan Respublikasının dövlət büdcəsində bu məqsədlər üçün nəzərdə

tutulmuş xərclər çərçivəsində xüsusi mühafizə xidmətləri yaradır; bu Konstitusiya ilə Azərbaycan Respublikası Milli Məclisinin və məhkəmə orqanlarının səlahiyyətlərinə aid edilməyən digər məsələləri icra qaydasında həll edir.

27. **Prokuror** (lat. procurare – qayğısına qalmaq; təmin etmək) – prosessual fəaliyyətin iştirakçılarından biri, ittiham tərəfinin əsas qanuni nümayəndəsi. Cinayət prosesində prokurorun əsas funksiyası cinayət təqibinin həyata keçirilməsidir. Prokurorluq haqqında Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli Qanununa müvafiq olaraq, prokuror – Azərbaycan Respublikasının baş prokuroru, bütün tabe prokurorlar, prokuror müavinləri, prokurorun böyük köməkçiləri, prokuror köməkçiləri, idarə, şöbə rəisləri, rəislərin müavinləri, idarə, şöbələrin böyük prokuror-metodistləri, böyük prokurorları, böyük prokuror-kriminalistləri, prokurorları və prokuror-kriminalistləridir (maddə 1). Prokuror, prokurorluğun müstəntiqi və əməliyyatçısı ali hüquq təhsilli, seçkilərdə iştirak etmək hüququna, prokuror, müstəntiq və ya əməliyyatçı vəzifələrinin yerinə yetirilməsi üçün zəruri peşə keyfiyyətlərinə malik və Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən Azərbaycan Respublikasının vətəndaşları ola bilər (maddə 29).

28. **Prokurorluq** (lat. procurare – qayğısına qalmaq; təmin etmək) – qanunların icrasına dövlət nəzarəti həyata keçirən orqanlar sistemi. İlk prokurorluq orqanı 1302-ci ildə Fransada yaradılmışdır. Azərbaycanda prokurorluq orqanlarının yaranması Azərbaycan Xalq Cümhuriyyəti dövrünə təsadüf edir. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanları fəaliyyətə başlamışdır. Azərbaycanın ilk baş prokuroru vəzifəsini icra edən Azərbaycan Xalq Cümhuriyyətinin ilk ədliyyə naziri Xəlil bəy Xasməmmədov (1875-1947) olmuşdur. Prokurorluq haqqında Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli Qanununa müvafiq olaraq, Azərbaycan Respublikasının Prokurorluğu məhkəmə hakimiyyəti sisteminə daxil olmaqla ərazi və ixtisaslaşdırılmış prokurorluqların Azərbaycan Respublikasının baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır. Prokurorluq qanunla nəzərdə tutulmuş hallarda və qaydada: cinayət işi başlayır və ibtidai istintaq aparır, habelə korrupsiya ilə bağlı cinayətlər üzrə cinayət işinin başlanmasını və ya istintaqın aparılmasını təmin etmək məqsədilə əməliyyat-axtarış fəaliyyətini həyata keçirir; cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik edir və qanunlara riayət edilməsini təmin edir;

təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarət edir; məhkəmədə iddia qaldırır (ərizə verir), mülki və kommersiya mübahisələrinə dair işlərə baxılmasında iddiaçı kimi iştirak edir; məhkəmədə cinayət işlərinə baxılmasında tərəf kimi iştirak edir, dövlət ittihamını müdafiə edir; məhkəmə qərarlarından və səlahiyyətli orqanın (vəzifəli şəxsin) inzibati xəta haqqında iş üzrə qərarlarından və ya qərardadlarından protest verir; Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati xəta haqqında iş üzrə icraata başlama haqqında qərar qəbul edir; məhkəmələr tərəfindən təyin edilmiş cəzaların məqsədinə nail olunmasında iştirak edir (maddə 4). Prokurorluğun fəaliyyətinin əsas prinsipləri aşağıdakılardır: qanunçuluq; hər kəsin qanun qarşısında hüquq bərabərliyi; fiziki şəxslərin hüquq və azadlıqlarına, hüquqi şəxslərin hüquqlarına əməl və hörmət edilməsi; obyektivlik, qərəzsizlik və faktlara əsaslanma; vahidlik və mərkəzləşdirmə, ərazi və ixtisaslaşdırılmış prokurorların Azərbaycan Respublikasının baş prokuroruna tabe olması; siyasi bitərəflik (maddə 5).

29. **Prolonqasiya** (lat. prolongatio – uzadılma) – müəyyən müddətə bağlanılan müqavilənin həmin müddət bitdikdən sonra müqavilənin özündə göstərilən şərtlərlə və ya tərəflərin xüsusi razılığı ilə uzadılması.

30. **Promulqasiya** (lat. promulgatio – açıq elan) – qanunun rəsmiləşdirilməsinin sonuncu mərhələsi. Promulqasiya parlament tərəfindən qəbul edilmiş qanunların imzalanması və dərc edilməsi üzrə dövlət başçısının xüsusi səlahiyyətidir. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərindən biri qanunların imzalanması və dərc edilməsidir.

31. **Prosessual hüquq** – prosessual qaydanı və maddi hüquq normalarının icrasının və həyata keçirilməsinin prosedurlarını tənzimləyən hüquq normalarının məcmusu. Prosessual hüquq cinayət, mülki, inzibati, həmçinin konstitusiya məhkəmə icraatı qaydasında işlərə baxılması prosesində yaranan münasibətləri tənzimləyir.

32. **Protokol** (yun. protokollon – manuskriptin birinci vərəqi) – 1) faktiki halların (iclasın gedişi, prosessual hərəkətlər, məhkəmə iclası və s.) qeydə alındığı sənəd; 2) beynəlxalq müqaviləyə əlavə və (və ya) dəyişiklik nəzərdə tutan rəsmi sənəd, müqavilənin ayrılmaz tərkib hissəsi. Məsələn, Avropa İnsan Hüquqları Konvensiyasının əlavə protokollarında qeyd edilir ki, Razılığa gələn Yüksək Tərəflər Protokolun müvafiq maddələrinin müddəalarını Konvensiyanın əlavə maddələri hesab edirlər və Konvensiyanın bütün müddəaları müvafiq olaraq tətbiq olunur. Beynəlxalq

hüquqda bəzən ayrıca beynəlxalq müqavilə də protokol adlanır. Məsələn, Müharibədə boğucu, zəhərli və ya digər bənzər qaz və bakterioloji vasitələrdən istifadənin qadağan edilməsinə dair 1925-ci il tarixli Cenevrə protokolu.

33. **Publik hüquq** – ümumdövlət və ya ictimai maraqların təmin edilməsi ilə bağlı olan münasibətləri tənzimləyən hüquq normalarının məcmusu.
34. **Publik hüquqi şəxs** – dövlət və bələdiyyə adından və ya publik hüquqi şəxs tərəfindən yaradılan, ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan, dövlət və ya bələdiyyə orqanı olmayan təşkilat.
35. **Publik hüquqi şəxslər haqqında Azərbaycan Respublikasının Qanunu –** publik hüquqi şəxslərin yaradılması, fəaliyyət göstərməsi və təşkili qaydalarını müəyyən edən qanunvericilik aktı. 29 dekabr 2015-ci ildə qəbul edilmişdir.

R

1. **Ratifikasiya** (lat. ratificatio, ratus – təsdiq edilmiş, qüvvəyə minmiş, facio – etmək) – müvafiq dövlət orqanı tərəfindən təsdiq edilməklə sənədə (məsələn, müqaviləyə) hüquqi qüvvənin verilməsi proseduru. Ratifikasiya ali hakimiyyət orqanı (adətən, parlament və ya dövlət başçısı) tərəfindən müqavilənin təsdiq olunması olmaqla müqavilənin məcburiliyinə razılığın ifadə olunmasının ən geniş yayılmış üsuludur. Ratifikasiya həm dövlətdaxili aktda (qanunda, fərmanda və s.), həm də beynəlxalq aktda (ratifikasiya sənədində) öz əksini tapır. Beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasına əsasən, ratifikasiya dövlətin beynəlxalq səviyyədə müqavilənin məcburiliyinə razılığını bildirməsidir. Vyana Konvensiyasının 14-cü maddəsinə görə, müqavilənin məcburiliyinə razılıq bu hallarda ratifikasiya vasitəsilə ifadə olunur: müqavilənin özündə bu birbaşa nəzərdə tutulubsa; başqa cür müəyyən olunubsa ki, danışıqlarda iştirak edən dövlətlər ratifikasiyanın zəruriliyi haqqında razılığa gəlmişlər; dövlətin nümayəndəsi müqaviləni ratifikasiya olunmaq şərtilə imzalamışdırsa; dövlətin müqaviləni ratifikasiya olunmaq şərtilə imzalamaq niyyəti onun nümayəndəsinin vəkalətindən irəli gəlirsə və yaxud danışıqlar zamanı ifadə olunmuşdursa. Dövlət hər hansı müqavilənin ratifikasiya olunması haqqında qərar çıxardıqdan sonra ratifikasiya sənədi tərtib edir. Ratifikasiya sənədində müqaviləni ratifikasiya etmiş dövlət orqanının adı, müqavilənin bütöv mətni, qeyd-şərtlər və / və ya bəyanatlar, müqavilənin vicdanla yerinə yetirilməsi haqqında dövlətin bəyanatı göstərilir. İkitərəfli müqavilə bağlanarkən onun iştirakçısı olan dövlətlər öz ratifikasiya sənədlərini bir-birinə verir. Çoxtərəfli müqavilələrdə isə ratifikasiya sənədləri depozitariyə saxlanmağa verilir. Hər bir dövlət öz qanunvericiliyində imzalamış olduğu hansı beynəlxalq müqavilələrin hansı qaydada ratifikasiya olunmasını müəyyən edir. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında Azərbaycan Respublikasının 13 iyun 1995-ci il tarixli Qanununa görə, Azərbaycan Respublikası beynəlxalq müqavilələrin onun üçün məcburiliyinə razılığını müqavilənin imzalanması, müqaviləni təşkil edən sənədlərin mübadiləsi, müqavilənin ratifikasiyası, təsdiq edilməsi, ona qoşulma vasitəsilə və razılığa gələn tərəflərin şərtləşdiyi hər hansı başqa üsulla ifadə edə bilər. Dövlətlərarası və Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələri Azərbaycan Respublikasının

Milli Məclisi təsdiq (ratifikasiya) edir. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən ratifikasiya üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilən beynəlxalq müqavilələrə Milli Məclisin müvafiq komitələrində qabaqcadan baxılaraq rəy verilir. Azərbaycan Respublikasının Milli Məclisi müvafiq icra hakimiyyəti orqanı tərəfindən ratifikasiya üçün təqdim edilmiş Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinə baxır və müvafiq qanun qəbul edir. Ratifikasiya üçün təqdim edilmiş beynəlxalq müqavilələr dövlət dilində olmalıdır. Rəsmi mətnləri dövlət dilində olmadıqda beynəlxalq müqavilələr dövlət dilinə tərcümə edilməli və tərcümə edilmiş mətnin rəsmi mətnə uyğunluğunu təsdiq edən sənəd əlavə edilməlidir.

2. **Reabilitasiya** (lat. rehabilitatio – bərpa) – pozulmuş hüquqların bərpa edilməsi.

3. **Referendum** – ümumdövlət və ümumsosial əhəmiyyət kəsb edən məsələlər üzrə səsvermə yolu ilə vətəndaşların iradəsinin bilavasitə ifadə forması. Referendum demokratiyanın vacib institutlarından biridir. Referendum həm də xalqın hüquqyaratma fəaliyyətidir. Referendum dövlət və vətəndaşlar üçün mühüm əhəmiyyət kəsb edən məsələlər üzrə qərarların qəbul edilməsi prosesində xalqın iştirakının demokratik üsullarından biridir. Referendum ilk dəfə olaraq İsveçrədə tətbiq edilmişdir. Azərbaycan Respublikasının Konstitusiyası 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi-referendum yolu ilə qəbul edilmişdir. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi – referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir. Azərbaycan xalqı öz hüquqları və mənafeləri ilə bağlı olan hər bir məsələni referendumla həll edə bilər. Aşağıdakı məsələlər yalnız referendumla həll oluna bilər: 1) Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi və ona dəyişikliklər edilməsi; 2) Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi. Aşağıdakı məsələlər üzrə referendum keçirilə bilməz: 1) vergilər və dövlət büdcəsi; 2) amnistiya və əfv etmə; 3) seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi müvafiq olaraq qanunvericilik və (və ya) icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid edilmiş vəzifəli şəxslərin seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi. Azərbaycan Respublikasının Seçki Məcəlləsinə əsasən, referendum – Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilən məsələlər üzrə Azərbaycan Respublikası vətəndaşlarının səsverməsidir. Azərbaycan Respublikasının vətəndaşla-

rı seçkilərdə və referendumda ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə iştirak edirlər. Azərbaycan Respublikası vətəndaşlarının seçkilərdə və referendumda iştirakı azad və könüllüdür. Seçkilərdə və ya referendumda iştirak edib-etməməyə məcbur etmək məqsədilə heç kəsin Azərbaycan Respublikası vətəndaşına təzyiq göstərmək hüququ yoxdur və heç kəs onun öz iradəsini azad ifadə etməsinə mane ola bilməz. İrqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və başqa ictimai birliklərə mənsubiyyətindən və ya digər statusundan asılı olmayaraq Azərbaycan Respublikası vətəndaşlarının seçmək, seçilmək və referendumda iştirak etmək hüququ vardır.

4. **Regional beynəlxalq müqavilələr –** müəyyən coğrafi ərazidə yerləşən dövlətlər arasında bağlanan müqavilələr. Regional müqavilələrin beynəlxalq-hüquqi əsası BMT Nizamnaməsində müəyyən edilmişdir. Nizamnamənin 52-ci maddəsinə görə, bu Nizamnamənin heç bir müddəası, beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması ilə bağlı olan və regional tədbirlər üçün münasib olan məsələlərlə məşğul olmaq məqsədilə regional sazişlərin və ya orqanların mövcud olmasını istisna etmir, o şərtlə ki, bu cür saziş və ya orqanlar və onların fəaliyyəti BMT-nin məqsəd və prinsiplərinə uyğundur. Regional beynəlxalq müqavilələrə misal olaraq, Avropa İnsan Hüquqları Konvensiyası, Avropa Sosial Xartiyası, İnsan və xalqların hüquqları haqqında Afrika Xartiyası, Amerika İnsan Hüquqları Konvensiyası və s. misal göstərmək olar.

5. **Regional beynəlxalq təşkilatlar –** üzvləri, əsasən müəyyən coğrafi regionu təmsil edən beynəlxalq hökumətlərarası təşkilatlar. Regional təşkilatların beynəlxalq-hüquqi əsası BMT Nizamnaməsində müəyyən edilmişdir. Nizamnamənin 52-ci maddəsinə əsasən, beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması ilə bağlı olan və regional tədbirlər üçün münasib olan məsələlərlə məşğul olmaq məqsədilə regional təşkilatlar təsis oluna bilər. Regional təşkilatların nizamnamələri və fəaliyyəti BMT-nin məqsəd və prinsiplərinə uyğun olmalıdır. Regional təşkilatlara misal olaraq, Avropa Şurası, Avropa İttifaqı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), Afrika İttifaqı, Amerika Dövlətləri Təşkilatı, Müstəqil Dövlətlər Birliyi (MDB), İslam Əməkdaşlıq Təşkilatı, Ərəb Dövlətləri Liqası və s. göstərmək olar.

6. **Reqlament –** dövlət və qeyri-dövlət təşkilatlarının, onların mərkəzi və yerli orqanlarının, həmçinin beynəlxalq təşkilatların, onların ayrı-ayrı

qurumlarının fəaliyyət qaydasını və daxili strukturunu dəqiqliklə tənzimləyən və müəyyənləşdirən akt.

7. **Reparasiya** (lat. reparatio – bərpa) – beynəlxalq hüquqda maddi məsuliyyətin formalarından biri. Dövlətə vurulan maddi ziyanın natura və ya pulla ödənilməsində ifadə olunur.
8. **Repatriant** (lat. repatrio – vətənə qayıtmaq) – müxtəlif səbəblərdən başqa dövlətin ərazisində olan və vətəndaşı olduğu, daimi yaşadığı dövlətə və ya mənşə ölkəsinə qayıdan şəxs.
9. **Repatriasiya** (lat. repatrio – vətənə qayıtmaq) – müxtəlif səbəblərdən başqa dövlətin ərazisində olan şəxslərin vətəndaşı olduğu, daimi yaşadığı dövlətə və ya mənşə ölkəsinə qayıtması. Repatriasiya, adətən, beynəlxalq müqavilə, yaxud dövlətdaxili akt əsasında həyata keçirilir.
10. **Repressali** (lat. repressaliae – qarşısını almaq, saxlamaq) – beynəlxalq hüquqda bir dövlətin başqa bir dövlətin beynəlxalq hüquqazidd əməllərinə cavab olaraq tətbiq etdiyi beynəlxalq hüquqauyğun siyasi və / və ya iqtisadi xarakterli məcburetmə tədbirləri. Müasir beynəlxalq hüquq insan hüquqlarının pozuntuları ilə müşayiət olunan repressalini qadağan edir. Repressali onun tətbiq edilməsinə səbəb olan beynəlxalq hüquq pozuntusuna proporsional olmalıdır.
11. **Repressiya** (lat. repressio – yatırılma) – mövcud siyasi quruluşun qorunub saxlanılması məqsədilə dövlət orqanları tərəfindən ayrı-ayrı şəxslərə və/və ya şəxslər qrupuna tətbiq edilən müxtəlif cəza tədbirləri.
12. **Resipiyent** (lat. recipere – almaq, qəbul etmək) – digər tərəfdən (məs., donordan) müxtəlif formalarda yardım (məs., pul yardımı) alan tərəf; həmçinin müalicə məqsədilə orqanizminə digər orqanizmin orqan və/və ya toxumasının köçürüldüyü şəxs. Qrant haqqında Azərbaycan Respublikasının 17 aprel 1998-ci il tarixli Qanununa əsasən, donorla münasibətlərində qrant alan resipiyent sayılır. Aşağıdakılar resipiyent ola bilərlər: müvafiq icra hakimiyyəti orqanı qismində Azərbaycan dövləti; Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən qurumlar; bələdiyyələr; publik hüquqi şəxslər; Azərbaycan Respublikasında fəaliyyət göstərən, nizamnaməsinə əsasən başlıca məqsədi xeyriyyəçilik, yaxud qrant predmeti ola bilən layihə və proqramların həyata keçirilməsi olan və qrant almaqla birbaşa mənfəət götürmək məqsədi güdməyən rezident və qeyri-rezident olan hüquqi şəxslər, onların filial, nümayəndəlik və şöbələri; Azərbaycan Respublikasının fiziki şəxsləri (maddə 3). İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında Azərbaycan Respublikasının 20 oktyabr 2020-ci il tarixli Qanununa əsasən, resipiyent – müalicə məqsədilə donor orqanı köçürülən şəxsdir (maddə 1).

13. **Respublika** (lat. res publica – ümumi iş) – dövlət başçısının seçki yolu ilə vəzifəyə seçildiyi idarəçilik forması. Respublikanın iki növü fərqləndirilir: prezidentli və parlamentli. Prezidentli respublikalarda prezident həm dövlət başçısı, həm də hökumətin başçısı funksiyalarını yerinə yetirir. Parlamentli respublikalarda baş nazir həm hökumət başçısı funksiyasını yerinə yetirir, həm də iqtidarda olan hakim partiyanın rəhbəri olur. Müasir dövrdə hibrid respublika idarəçilik formasını da fərqləndirmək olar. Bu idarəçilik forması güclü prezident hakimiyyəti ilə parlamentin hökumət üzərində səmərəli nəzarətini ehtiva edir. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır.
14. **Restitusiya** (lat. restitutio – əvəzi verilmə) – hüquq pozuntusu törədilməmişdən əvvəl mövcud olmuş vəziyyətin bərpa edilməsində ifadə olunan beynəlxalq-hüquqi məsuliyyətin formalarından biri. Restitusiyaya misal olaraq, zəbt edilmiş ərazinin azad edilməsi; qeyri-qanuni ələ keçirilmiş əmlakın geri qaytarılması və s. göstərmək olar.
15. **Retorsiya** – dövlətin digər bir dövlət tərəfindən ona qarşı törədilən beynəlxalq hüquq pozuntusuna cavab olaraq həyata keçirdiyi beynəlxalq hüquqa uyğun məcburedici cavab tədbirləri.
16. **Robot** – tapşırıqları avtomatik olaraq və ya müəyyən dərəcədə muxtariyyətlə yerinə yetirən hərəkətli maşın. Robot: hərəkətlidir, çünki ətraf mühit daxilində və ya təkbaşına hərəkət etmə qabiliyyətinə malikdir; maşındır, çünki mexaniki gücdən istifadə edən aparatdan ibarətdir; tapşırıqları yerinə yetirəndir, çünki insanlara xidmət üçün yaradılmışdır; avtomatik olaraq və ya müəyyən dərəcədə muxtariyyətlə çalışandır, çünki insan nəzarəti ilə və ya belə nəzarət olmadan işləyə bilər.
17. **Roma hüququ** – qədim Romada mövcud olmuş (b.e.ə. VIII əsrdən b.e. VI əsrinədək) hüquq sistemi, həmçinin bu hüquq sisteminin əsaslarını öyrənən hüquq elminin bir sahəsi. Roma hüququ roman-alman (kontinental) hüquq ailəsinin tarixi əsasını təşkil edir. Roma hüququnun möhtəşəm abidələri sırasında On iki cədvəl qanunları külliyyatı (lat. Leges duodecim tabularum, b.e.ə. 451-450-ci illər) önəmli yer tutur. Bu külliyyat, demək olar ki, bütün sahələri tənzimləyən qanunları özündə cəmləşdirirdi. On iki cədvəl qanunları ailə və varislik münasibətlərini tənzimləyən, həmçinin cinayət hüququ ilə bağlı normaları özündə ehtiva edirdi. Qeyd olunan qanunlar külliyyatı Roma hüququnun ilk yazılı mənbəyidir. B.e.ə. II əsrin sonunda tanınmış dövlət xadimi və filosof Mark Tulliy Siseronun müəllimi olmuş qədim romalı siyasi xadim və alim Kvint Mutsi Sevolanın (lat. Quintus Mucius Scaevola) Roma hüququna dair "Ius civile" adlı

ilk əsəri ilə, müəyyən mənada, Avropa hüquq elminin əsası qoyulmuş oldu.

18. **Roman-alman hüquq ailəsi –** Bax: kontinental hüquq ailəsi.
19. **Roman-alman hüquq sistemi –** Bax: kontinental hüquq ailəsi.
20. **Ruanda tribunalı –** BMT Təhlükəsizlik Şurasının 1994-cü il tarixli, 955 saylı qətnaməsi ilə təsis edilmiş ad hoc beynəlxalq cinayət tribunalı. Tribunal Ruandada və ona qonşu ölkələrdə qısa müddət ərzində (1994-cü ilin yanvar ayından həmin ilin dekabr ayınadək) törədilmiş beynəlxalq cinayətlərə, əsasən də genosid cinayətinə cavab tədbiri kimi yaradılmışdır. Tribunalın yurisdiksiyası yalnız fiziki şəxslərə şamil olunurdu. Tribunalın Nizamnaməsinə əsasən onun predmet yurisdiksiyası üç kateqoriya beynəlxalq cinayətləri əhatə edirdi: genosid; insanlıq əleyhinə cinayətlər; Müharibə qurbanlarının müdafiəsinə dair 12 avqust 1949-cu il tarixli Cenevrə konvensiyaları üçün ümumi olan 3-cü maddənin və II Əlavə protokolun pozuntusu. Tribunal üç məhkəmə palatası və apellyasiya palatası, prokuror və katiblikdən ibarət idi. Tribunal Aruşa şəhərində (Tanzaniya) yerləşirdi. Tribunal bir neçə şəxsi ömürlük azadlıqdan məhrumetmə cəzasına və digər cəzalara məhkum etmişdir. Tribunalın mühakimə etdiyi yeganə avropalı, Belçika vətəndaşı, Ruandanın "RTLM" radiostansiyasının əməkdaşı Corc Ruccu (fr. Georges Omar Ruggiu) olmuşdur. O, radio vasitəsilə tutsi etnik qrupuna mənsub olan şəxslərin öldürülməsinə dair çağırışlar (jurnalist, aparıcısı olduğu radio verilişlərdə tutsilərin "tarakan" olduqlarını və onların əzilməli olduqlarını bildirirdi) etdiyinə görə ona qarşı genosid cinayətinə çağırış edilməsi ilə bağlı ittiham irəli sürülmüş və o, Tribunal tərəfindən 12 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir. Tribunal beynəlxalq cinayət hüququ tarixində ilk dəfə olaraq, hökumət başçısı barəsində hökm çıxarmışdır. Belə ki, Ruandanın baş naziri (09.04-19.07.1994) Jan Kambanda genosid cinayətinə görə Tribunal tərəfindən ömürlük azadlıqdan məhrum etmə cəzasına məhrum edilmişdir. 2015-ci ilin dekabrından etibarən Tribunal rəsmi olaraq fəaliyyətini dayandırmışdır.

S

1. **Sağlam ətraf mühitdə yaşamaq hüququ –** Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 39-cu maddəsinə əsasən, hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır. Hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır. Heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz. Dövlət ekoloji tarazlığın saxlanılmasına, yabanı bitkilərin və vəhşi heyvanların qanunla müəyyən edilmiş növlərinin qorunmasına təminat verir. Bu sahədə əsas beynəlxalq sənədlər 1972-ci ildə Stokholmda (İsveç) keçirilmiş ətraf mühitin problemləri üzrə BMT konfransında qəbul edilmiş Bəyannamə və 1992-ci ildə Rio-de-Janeyroda (Braziliya) ətraf mühit və inkişaf üzrə keçirilmiş BMT konfransında qəbul edilmiş Bəyannamədir. Beynəlxalq hüquqda ilk dəfə olaraq Stokholm Bəyannaməsində "əlverişli ətraf mühit hüququ" anlayışı öz əksini tapmışdır. 1992-ci il Rio-de-Janeyro Bəyannaməsi müəyyən mənada Stokholm Bəyannaməsinin müddəalarını inkişaf etdirən və bu sənədin davamı kimi çıxış edən akt kimi dəyərləndirilə bilər. Rio Bəyannaməsində bir sıra yeni ekoloji hüquqlar öz əksini tapmışdır. Bunların sırasında ətraf mühitin vəziyyəti barədə beynəlxalq informasiyaya çatım hüququ, ətraf mühitə dair beynəlxalq problemlərin həllində iştirak hüququ və başqalarını qeyd etmək olar. 2012-ci ildə Rio-de-Janeyroda BMT-nin davamlı inkişaf üzrə konfransı (Rio+20 konfransı) keçirilmişdir. Konfransın nəticəsi olaraq "İstədiyimiz gələcək" adlı yekun sənəd qəbul edilmişdir. Sənədin əsasını "yaşıl iqtisadiyyat" konsepsiyası təşkil edir.
2. **Sağlamlığın qorunması hüququ –** Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 41-ci maddəsinə əsasən, hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır. Dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görür, sanitariya-epidemiologiya salamatlığına təminat verir, tibbi sığortanın müxtəlif növləri üçün imkanlar yaradır. İnsanların həyatı və sağlamlığı üçün təhlükə törədən faktları və halları gizlədən vəzifəli şəxslər qanun

əsasında məsuliyyətə cəlb edilirlər. İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 12-ci maddəsinə əsasən, bu Paktda iştirak edən dövlətlər hər bir şəxsin fiziki və psixi sağlamlığının ən yüksək səviyyəsinə çatmaq hüququnu tanıyırlar. Bu Paktda iştirak edən dövlətlərin bu hüququ tam həyata keçirmək üçün görməli olduğu tədbirlər sırasına: a) ölü doğulan uşaqların sayını və uşaq ölümü hallarının azaldılması və uşaqların sağlam inkişafının təmini; b) ətraf mühitin gigiyenasının və sənayedə əmək gigiyenasının bütün aspektlərinin yaxşılaşdırılması; c) epidemik, endemik, peşə xəstəlikləri və digər xəstəliklərin qarşısının alınması və onların müalicəsi; d) xəstəlik halında hamı üçün tibbi yardımın və tibbi xidmətin təmin olunması üçün şəraitin yaradılması məqsədilə atılan addımlar daxildir. Dəyişdirilmiş Avropa Sosial Xartiyasının 11-ci maddəsinə uyğun olaraq, sağlamlığın qorunması hüququnun səmərəli həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər bilavasitə, yaxud dövlət və ya özəl təşkilatlarla əməkdaşlıqda *inter alia* aşağıdakılara yönəldilmiş müvafiq tədbirləri həyata keçirmək öhdəliyini götürürlər: 1) xəstəliklərin səbəblərini mümkün qədər aradan qaldırmaq; 2) sağlamlığın dəstəklənməsi və səhiyyə məsələlərində şəxsi məsuliyyətin həvəsləndirilməsi üçün məsləhət və təhsil xidmətlərini müəyyən etmək; 3) epidemik, endemik və digər xəstəliklərin və həmçinin bədbəxt hadisələrin mümkün qədər qarşısını almaq.

3. Sağlamlığın vəziyyəti barədə vətəndaşların məlumat almaq hüququ – Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının 26 iyun 1997-ci il tarixli Qanununa əsasən, hər bir vətəndaş müayinənin nəticəsi, xəstəliyin diaqnoz və proqnozu, müalicə üsulları və bununla bağlı risk dərəcələri, aparılmış müalicənin nəticəsi haqqında məlumatlar da daxil olmaqla sağlamlığının vəziyyəti barədə özü üçün səmərəli formada məlumat almaq hüququna malikdir. Vətəndaşın sağlamlığının vəziyyəti barədə məlumat onun özünə, qanunvericilikdə müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan hesab edilən şəxslərin və ya yetkinlik yaşına çatmayanların sağlamlıqlarının vəziyyəti barədə məlumat isə onların valideynlərinə və ya qanuni nümayəndələrinə müayinə və müalicədə bilavasitə iştirak edən mütəxəssislər tərəfindən verilir. Xəstəliyin inkişaf proqnozu mənfi olduqda bu barədə məlumat xəstənin yaxın qohumlarına və ya qanuni nümayəndələrinə, xəstə tələb etdikdə isə bu məlumat ehtiyatlı formada onun özünə çatdırıla bilər. Vətəndaş onun sağlamlığının vəziyyətini əks etdirən tibbi sənədlərlə bilavasitə tanış olmaq və onlarla bağlı başqa mütəxəssislərdən məsləhət almaq hüququ-

na malikdir. Vətəndaşın tələbi ilə ona sağlamlığının vəziyyətini əks etdirən tibbi sənədlərin surətləri təqdim olunur. Psixiatriya yardımı alan və ya əvvəllər psixiatriya yardımı almış şəxsə göstərilən yardım tədbirləri barədə məlumatlar şəxsin özünün və yaxud onun qanuni nümayəndəsinin yazılı müraciətindən sonra 2 gün ərzində müəssisənin müdiriyyəti tərəfindən təqdim olunmalıdır. Pasiyentin məlumatları əldə etmək hüququ yalnız onun sağlamlığına zərərin vurulmasının qarşısının alınması və digər şəxslərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə məhdudlaşdırıla bilər. Psixi pozuntusu olan pasiyentə qulluq edən ailə üzvləri yalnız göstərdikləri yardıma aid olan məlumatı əldə edə bilərlər. Pasiyentə zərər törədə biləcək məlumatların onlara verilməsi qadağandır (maddə 25).

4. **Sahibkarlıq hüququ** – əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 59-cu maddəsinə əsasən, hər kəs öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər. Dövlət sahibkarlıq sahəsində yalnız dövlət maraqlarının, insan həyatının və sağlamlığının müdafiəsi ilə bağlı tənzimləməni həyata keçirir. Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikasının 15 dekabr 1992-ci il tarixli Qanununa əsasən, sahibkar öz fəaliyyətini həyata keçirmək üçün Azərbaycan Respublikasının qanunvericiliyinə əməl etməklə aşağıdakı hüquqlara malikdir: istənilən müəssisələr yaratmaq, onların idarəetmə orqanlarında vəzifə tutmaq və bu orqanların işində iştirak etmək; dövlət və digər mülkiyyət formalarına əsaslanan müəssisələrin əmlakının, başqa əmlakı və əmlak hüquqlarını tamamilə və ya qismən əldə etmək; başqa müəssisələrin fəaliyyətində öz sərəncamında olan əmlakla iştirak etmək; tərəflərin razılığı ilə başqa fiziki və hüquqi şəxslərin əmlakından və intellektual mülkiyyət obyektlərindən istifadə etmək; işçiləri işə qəbul etmək və işdən azad etmək; işçilərin əməyinin ödənilməsinin forma və sistemini, onların əmlakının məbləğini və gəlirinin digər növlərini müəyyənləşdirmək; təsərrüfat-maliyyə fəaliyyətini müstəqil həyata keçirmək, məhsul göndərənləri və istehsal olunan məhsulun (işlərin, xidmətlərin) istehlakçılarını seçmək, dövlət ehtiyacları üçün müqavilə əsasında iş görmək və məhsul göndərmək; öz məhsulları (işləri, xidmətləri) üçün qiymətlər (tariflər) müəyyənləşdirmək; pul vəsaitinin saxlanılması, hesablaşma, kredit və kassa əməliyyatlarının bütün növlərinin həyata keçirilməsi üçün banklarda hesablar açmaq; sahibkarlıq fəaliyyətindən əldə edilən mənfəətdən (gəlirdən) vergilər və digər icbari ödənişlərdən sonra

onun qalan hissəsindən sərbəst istifadə etmək; dövlət sosial təminatı sistemindən istifadə etmək; könüllü sığorta növünü sərbəst surətdə seçmək; hüquqlarına və qanuni mənafeyinə xələl gətirən dövlət orqanlarının və digər qurumların, təsərrüfat subyektlərinin və fiziki şəxslərin hərəkətlərindən şikayət etmək; xarici iqtisadi münasibətlərdə iştirak etmək; valyuta əməliyyatları aparmaq; ictimai fondlara, səhiyyəyə, xeyriyyəçilik, maarifçilik məqsədlərinə, elmi və mülki məqsədlərə, müharibə və başqa fövqəladə hadisələr zamanı isə dövlətə lazımi yardım göstərilməsinə ianələr vermək; həmkarlar ittifaqında və digər birliklərdə iştirak etmək (maddə 6).

5. **Sahiblik hüququ –** əmlaka (əşyaya) faktik sahibliyi həyata keçirməyin hüquqi cəhətdən təmin edilmiş imkanı.
6. **Salus populi – suprema lex** (lat.) – xalqın rifahı ən ali qanundur.
7. **Sanksiya** (lat. sanctio – məcburiyyət tədbiri; pozuntuya görə cəza müəyyən edən qanun) – hüquq normasında nəzərdə tutulan qaydanı pozan şəxsə qarşı müvafiq cəza tədbirləri müəyyən edən hüquq normasının elementi. Sanksiya hüquq pozuntusu törədən şəxsə qarşı tətbiq edilən hüquqi məcburi neqativ nəticədir. Hüquq normasında dispozisiyanın pozulmasına görə və digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi məqsədilə məcburetmə tədbirlərinə dair göstəriş hüquq normasının sanksiyasıdır.
8. **Satisfaksiya** (lat. satis – kifayət qədər, facere – etmək) – beynəlxalq hüquq pozuntusu törətmiş dövlətin qeyri-maddi məsuliyyətinin əsas forması. Satisfaksiya, bir qayda olaraq, mənəvi zərərin vurulması ilə əlaqədar, yəni digər dövlətin şərəf və ləyaqətinə toxunan hüquqa zidd əməllərlə bağlı tətbiq olunur. Satisfaksiya aşağıdakı formalarda ifadə olunur: zərərçəkmiş dövlətdən rəsmi üzr istənilməsi; təəssüf ifadə olunması; törədilmiş əməlin hüquqa zidd olmasının etiraf edilməsi; təqsirli şəxslərin məsuliyyətə cəlb olunması və cəzalandırılması və s.
9. **Seçki hüququ –** Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsinə əsasən, Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır. Məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkilərdə, habelə referendumda iştirak etmək hüququ yoxdur. Hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin, bu Konstitusiyada və qanunda nəzərdə tutulan digər şəxslərin

seçilmək hüququ qanunla məhdudlaşdırıla bilər. Azərbaycan Respublikasının Seçki Məcəlləsinə əsasən, seçki hüququ – Azərbaycan Respublikası Milli Məclisinin deputatlarını, Azərbaycan Respublikasının Prezidentini, bələdiyyələrə üzvləri seçmək və həmin orqanlara, Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilmək hüququ, o cümlədən namizədlərin irəli sürülməsində, seçkiqabağı (referendumqabağı) təşviqatda, seçki (referendum) komissiyalarının işində, seçkilərin (referendumun) keçirilməsinin müşahidəsində (seçkilərin (referendumun) nəticələrinin müəyyən edilməsi də daxil olmaqla), səsvermədə, digər seçki (referendum) hərəkətlərinin həyata keçirilməsində iştirak etməkdir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 21-ci maddəsinə əsasən, xalqın iradəsi dövlət hakimiyyətinin əsası olmalıdır; bu iradə vaxtaşırı və saxtalaşdırılmadan, ümumi və bərabər seçki hüququ əsasında, gizli səsvermə yolu ilə və yaxud səsvermə azadlığını təmin edən digər eynimənalı formalar vasitəsilə keçirilən seçkilərdə öz əksini tapmalıdır. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 25-ci maddəsinə müvafiq olaraq, hər bir vətəndaş hər hansı bir ayrı-seçkiliyə yol verilmədən və heç bir əsassız məhdudiyyət qoyulmadan aşağıdakı hüquq və imkanlara malik olmalıdır: a) dövlət işlərinin aparılmasında həm bilavasitə, həm də azad seçilmiş nümayəndələr vasitəsilə iştirak etmək; b) ümumi və bərabər seçki hüququ əsasında, gizli səsvermə yolu ilə keçirilən və seçicilərin öz iradələrini azad şəkildə bildirmələrinin təmin edildiyi həqiqi vaxtaşırı seçkilərdə səs vermək və seçilmək; c) öz ölkəsində ümumi bərabərlik əsasında dövlət qulluğuna buraxılmaq. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın 1 saylı Protokolunun 3-cü maddəsinə əsasən, Razılığa gələn Yüksək Tərəflər qanunverici hakimiyyət orqanını seçərkən xalqın iradəsini sərbəst ifadə edə biləcəyi şəraitdə ağlabatan dövriliklə gizli azad seçkilər keçirməyi öhdələrinə götürürlər.

10. **Seqreqasiya** (lat. segregate – ayırmaq) – irq, dil, dərinin rəngi və digər əlamətlərə görə müəyyən əhali qrupuna və ya milli azlıqlara qarşı tətbiq olunan irqi və milli ayrı-seçkiliyin bir forması. Seqreqasiya tətbiq olunduğu zaman ayrı-seçkiliyə məruz qalmış əhali qrupu və ya milli azlıq nümayəndələri üçün ayrıca məktəblər, xəstəxanalar, istirahət və iaşə yerləri və digər yerlər yaradılır. Müasir beynəlxalq hüquq seqreqasiyanı qadağan edir.

11. **Senzura** (lat. censura – ciddi mülahizə; tələbkar tənqid) – hakimiyyət orqanları tərəfindən arzuolunmaz hesab edilən ideyaların və məlumatların yayılmasının məhdudlaşdırılması və ya qarşısının alınması məqsədilə

informasiyanın, nəşr məmulatlarının, musiqi, kino, foto, rəsm və digər yaradıcılıq əsərlərinin, televiziya və radio verilişlərinin, internet resurslarının və portallarının, sosial şəbəkələrin və digər kütləvi informasiya vasitələrinin məzmunu və yayımlanması üzərində dövlət nəzarəti və bu nəzarəti həyata keçirən dövlət orqanları sistemi.

12. **Separatçılıq** (lat. separatus – ayrı) – yeni müstəqil dövlət yaratmaq yaxud digər dövlətin tərkibinə daxil olmaq və ya geniş muxtariyyat əldə etmək məqsədilə dövlətin ərazisinin bir hissəsinin ayrılmasına yönələn hərəkat. Separatçılıq beynəlxalq hüququn ümumtanınmış prinsiplərindən olan dövlətlərin suverenliyi və ərazi bütövlüyü prinsiplərinin pozulmasına gətirib çıxarır.

13. **Sərbəst toplaşmaq azadlığı** – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 49-cu maddəsinə əsasən, hər kəsin başqaları ilə birlikdə sərbəst toplaşmaq azadlığı vardır. Hər kəsin başqaları ilə birlikdə müvafiq dövlət orqanlarını qabaqcadan xəbərdar etməklə, ictimai qaydanı və ya ictimai əxlaqı pozmamaq şərtilə, dinc, silahsız yığışmaq, yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri keçirmək, piketlər düzəltmək hüququ vardır. Sərbəst toplaşmaq azadlığı haqqında Azərbaycan Respublikasının 13 noyabr 1998-ci il tarixli Qanununa əsasən, hər kəsin başqaları ilə birlikdə sərbəst toplaşmaq azadlığı Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr ilə təmin edilir. Həmin azadlığın həyata keçirilməsi və məhdudlaşdırılması bu Qanunla müəyyən edilir. Dövlət sərbəst toplaşmaq azadlığının həyata keçirilməsini təmin edir və bu Qanuna uyğun təşkil edilən toplantıların dinc və silahsız keçməsi üçün müvafiq tədbirlər görür. Dövlət sərbəst toplaşmaq azadlığının həyata keçirilməsi zamanı şəxslərin bərabərlik hüququna təminat verir (maddələr 1; 2). Qanunun 3-cü maddəsinə görə, bu Qanunda istifadə edilən "toplantı" anlayışı bir neçə şəxsin toplantıda iştirak etmək məqsədilə ictimai yerdə müvəqqəti toplaşması deməkdir. Bu cür toplantı yığıncaq, mitinq, nümayiş, küçə yürüşü, piket formalarında ola bilər. Bu Qanunun 3-cü maddəsində sadalanan toplantıların hər hansı birini təşkil edən şəxs və ya şəxslər bu barədə müvafiq icra hakimiyyəti orqanını qabaqcadan yazılı surətdə xəbərdar etməlidirlər. Xəbərdarlıq nəzərdə tutulmuş toplantı ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən zəruri tədbirlərin görülməsi məqsədilə onun yeri və vaxtının, küçə yürüşünün isə marşrutunun razılaşdırılması üçün toplan-

tının keçiriləcəyi gündən, bir qayda olaraq, azı 5 iş günü əvvəl təqdim edilməlidir. Xəbərdarlığın nəzərdə tutulmuş toplantının keçiriləcəyi gündən 5 iş günündən az müddətdə təqdim edilməsi təşkilatçılar tərəfindən əsaslandırılmalıdır. Yazılı xəbərdarlıqda aşağıdakı məlumatlar olmalıdır: 1) keçirilməsi nəzərdə tutulmuş toplantının forması; 2) ümumi məqsədi; 3) toplantının keçirilmə yeri və vaxtı; 4) iştirakçıların təxmini sayı; 5) küçə yürüşü keçirilirsə, onun təklif edilən marşrutu (yürüşün başlanma yeri, məsafəsi və bitəcəyi yer); 6) toplantı təşkilatçıları barədə məlumat (fiziki şəxsin adı, soyadı, atasının adı və ünvanı; hüquqi şəxsin adı və hüquqi ünvanı); 7) yazılı xəbərdarlığın təqdim edildiyi tarix; 8) əlaqə telefonları və ya onlar olmadıqda əlaqə ünvanı. Sərbəst toplaşmaq azadlığı yalnız qanunda nəzərdə tutulan və demokratik cəmiyyətdə zəruri olan hallarda, milli təhlükəsizlik və ya ictimai təhlükəsizlik mənafeləri üçün, iğtişaşların və ya cinayətin qarşısının alınması, sağlamlığın və mənəviyyatın, digər şəxslərin hüquq və azadlıqlarının qorunması üçün məhdudlaşdırıla bilər. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 20-ci maddəsinə əsasən, hər bir şəxs dinc yığıncaqlar və assosiasiyalar azadlığı hüququna malikdir. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 21-ci maddəsinə müvafiq olaraq, dinc yığıncaqlar hüququ tanınır. Bu hüquqdan istifadə edilməsinə qanuna müvafiq olaraq qoyulan və demokratik cəmiyyətdə dövlət təhlükəsizliyinin, yaxud ictimai təhlükəsizliyin, ictimai asayişin, əhalinin sağlamlığının və mənəviyyatının, yaxud başqa şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün zəruri olanlardan başqa heç bir məhdudiyyət qoyulmur. Avropa İnsan Hüquqları Konvensiyasının 11-ci maddəsinə uyğun olaraq, hər kəsin dinc toplaşmaq azadlığı və öz maraqlarını müdafiə etmək üçün həmkarlar ittifaqları yaratmaq və onlara qoşulmaq hüququ da daxil olmaqla, başqaları ilə birləşmək azadlığı hüququ vardır. Bu hüquqların həyata keçirilməsinə milli təhlükəsizlik və ictimai asayiş maraqları naminə, iğtişaşın və cinayətin qarşısını almaq üçün, sağlamlığın və mənəviyyatın qorunması üçün və ya digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olanlardan başqa, heç bir məhdudiyyət qoyula bilməz. Bu maddə silahlı qüvvələr, polis və ya inzibati dövlət orqanları üzvlərinin belə hüquqlarının həyata keçirilməsinə qanuni məhdudiyyətlər qoyulmasına mane olmur.

14. **Sərbəst toplaşmaq azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu –** Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə təmin edilən

sərbəst toplaşmaq azadlığının həyata keçirilməsi və məhdudlaşdırılması qaydalarını müəyyən edən qanunvericilik aktı. 13 noyabr 1998-ci ildə qəbul edilmişdir.

15. **Sərəncam hüququ** – əmlakın (əşyanın) hüquqi müqəddəratını təyin etməyin hüquqi cəhətdən təmin edilmiş imkanı.
16. **Sərhədlərin pozulmazlığı prinsipi** – beynəlxalq hüququn ümumtanınmış prinsiplərindən biri. Prinsipin mahiyyəti ondan ibarətdir ki, dövlətin razılığı olmadan onun sərhədləri heç bir halda dəyişdirilə bilməz. Sərhədlərin pozulmazlığı prinsipinin məzmunu bu elementlərdən ibarətdir: 1) mövcud sərhədlər beynəlxalq hüquqa müvafiq olaraq müəyyən olunmuş sayılır; 2) dövlət başqa bir dövlətə qarşı hər hansı ərazi iddiasından imtina etməlidir; 3) dövlət başqa bir dövlətin sərhədlərinə qarşı istənilən qəsdlərdən imtina etməlidir. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər. Azərbaycan Respublikasının dövlət sərhədi haqqında Azərbaycan Respublikasının 9 dekabr 1991-ci il tarixli Qanununa müvafiq olaraq, Azərbaycan Respublikasının dövlət sərhədi Azərbaycan Respublikasının dövlət ərazisinin (quru və su ərazisinin, yerin təkinin, dəniz və hava fəzasının) hüdudlarını müəyyən edən xətt və bu xətt üzrə keçən şaquli səthdir. Azərbaycan Respublikasının dövlət sərhədi Azərbaycan Respublikasının dövlət suverenliyinin ərazi hüdududur (maddə 1). Azərbaycan Respublikasının dövlət sərhədi müəyyən edilərkən və onun keçdiyi xətt dəyişdirilərkən, habelə həmsərhəd dövlətlərlə sərhəd məsələləri nizama salınarkən aşağıdakı prinsiplər rəhbər tutulur: Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsi; Azərbaycan Respublikasının dövlət suverenliyinin, ərazi bütövlüyünün və dövlət sərhədinin toxunulmazlığının təmin edilməsi; həmsərhəd dövlətlərlə qarşılıqlı surətdə faydalılıq əsasında hərtərəfli əməkdaşlıq; sərhəd mübahisələrinin sülh yolu ilə həll edilməsi (maddə 2).
17. **Sığınacaq hüququ –** vətəndaşı olduğu və ya daimi yaşadığı ölkədə siyasi motivlər əsasında məruz qaldığı təqiblərdən yaxa qurtarmaq üçün şəxsin başqa bir dövlətdən, onun ərazisinə keçməyə və orada yaşamağa icazə almaq hüququ. Sığınacaq hüququ həm də sığınacaq verilməsini və onun beynəlxalq-hüquqi nəticələrini nizama salan hüquq normalarının

məcmusu kimi beynəlxalq hüququn müstəqil bir institutu kimi də cıxış edir. Sığınacağın iki forması fərqləndirilir: ərazi sığınacağı və diplomatik sığınacaq. Diplomatik sığınacaq siyasi təqiblərə məruz qalan şəxsə xarici dövlətin diplomatik və ya konsul nümayəndəliyinin binasında sığınacaq verilməsidir. BMT Baş Assambleyasının 14 dekabr 1967-ci il tarixli qətnaməsi ilə qəbul edilmiş Ərazi sığınacağı haqqında Bəyannaməyə görə, hər hansı dövlət tərəfindən öz suverenliyini həyata keçirməklə verilən sığınacağa bütün digər dövlətlər tərəfindən hörmət edilməlidir. Sığınacaq hüququ insan hüquqlarına dair fundamental sənəd olan Ümumdünya İnsan Hüquqları Bəyannaməsində öz əksini tapmışdır. Bəyannamənin 14-cü maddəsinə müvafiq olaraq, hər kəs təqiblərdən digər ölkələrdə sığınacaq axtarmaq və bu sığınacaqdan istifadə etmək hüququna malikdir. Beynəlxalq hüquqa görə, barələrində soyqırımı, sülh əleyhinə cinayət, müharibə cinayəti və ya insanlıq əleyhinə cinayət törətdikləri haqqında kifayət qədər ciddi əsaslar olan şəxslər, habelə qeyri-siyasi cinayət törətdiklərinə görə öz ölkələrində təqib olunan şəxslər sığınacaq hüququndan istifadə edə bilməzlər. Azərbaycan Respublikası Konstitusiyasının 70-ci maddəsinə əsasən, hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikası əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə siyasi sığınacaq verir. Siyasi əqidəsinə görə, habelə Azərbaycan Respublikasında cinayət sayılmayan əmələ görə təqib edilən şəxslərin başqa dövlətə verilməsinə yol verilmir.

18. **Sığorta** – Sığorta fəaliyyəti haqqında Azərbaycan Respublikasının 25 dekabr 2007-ci il tarixli Qanununa əsasən, sığortalının və ya sığorta olunanın əmlakı, həyatı, sağlamlığı, mülki məsuliyyəti, həmçinin qanunla qadağan olunmayan fəaliyyəti, o cümlədən sahibkarlıq fəaliyyəti ilə əlaqədar olan əmlak mənafelərinin müdafiəsi sahəsində riskin ötürülməsinə və ya bölüşdürülməsinə əsaslanan münasibətlər sistemi.

19. **Sığorta fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu** – Azərbaycan Respublikasında sığorta bazarının inkişafının, sığorta bazarının peşəkar iştirakçılarının, o cümlədən sığortaçıların, təkrarsığortaçıların, sığorta vasitəçilərinin fəaliyyətinin əsas istiqamətlərini və prinsiplərini, habelə sığorta sahəsində tənzimləmə və nəzarətin hüquqi və iqtisadi əsaslarını müəyyən edən qanunvericilik aktı. 25 dekabr 2007-ci ildə qəbul edilmişdir.

20. **Siyasi hüquq və azadlıqlar** – insan hüquqları və azadlıqları kompleksinin mühüm qrupu. Siyasi hüquq və azadlıqlar dövlət hakimiyyətinin həyata keçirilməsində və dövlətin ictimai-siyasi həyatında insanın dövlət

hakimiyyəti və hüquqla təmin edilmiş iştirakı imkanıdır. Siyasi hüquqlar demokratik sistemin əsaslarından birini təşkil edir. Digər hüquqların reallaşması üçün siyasi hüquqların həyata keçirilməsinin təmin edilməsi vacib şərtdir. Mülki hüquq və azadlıqlardan fərqli olaraq siyasi hüquq və azadlıqlar insan muxtariyyatını təmin etməyə yox, onun siyasi proseslərin fəal iştirakçısı kimi təzahür etməsinə yönəlmişdir. Bu hüquqların dəyəri həm də ondan ibarətdir ki, onlar vətəndaş, cəmiyyət və dövlət arasındakı əlaqələrin möhkəmləndirilməsi üçün şərait yaradır. Siyasi hüquqlar, mahiyyət etibarilə şəxsi azadlığın sərhədlərindən biridir; siyasi şüur və iradənin daşıyıcısı kimi insan siyasi prosesin azad və özünəməxsus iştirakçısı qismində çıxış edir. İnsan hüquqları haqqında bir çox müasir universal və regional xarakterli beynəlxalq hüquq sənədləri insanın ayrılmaz hüquq və azadlıqlarının həcmini müəyyənləşdirərək söz və etiqad, dinc yığıncaq və birləşmək azadlığı, dövlətin və cəmiyyətin idarə edilməsində iştirak hüququ kimi bir sıra siyasi hüquqları təsbit edir.

21. **Siyasi sığınacaq hüququ** – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikasının Konstitusiyasının 70-ci maddəsinə əsasən, hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikası əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə siyasi sığınacaq verir. Siyasi əqidəsinə görə, habelə Azərbaycan Respublikasında cinayət sayılmayan əmələ görə təqib edilən şəxslərin başqa dövlətə verilməsinə yol verilmir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 14-cü maddəsinə müvafiq olaraq, hər kəs təqiblərdən digər ölkələrdə sığınacaq axtarmaq və bu sığınacaqdan istifadə etmək hüququna malikdir. Bu hüquq, həqiqətən də, qeyri-siyasi cinayət və ya Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə zidd hərəkət törədilməsinə əsaslanan təqiblər zamanı istifadə oluna bilməz.

22. **Sosial dövlət** (alm. Sozialstaat) – dövlət siyasəti hər bir insanın layiqli həyat səviyyəsinin təmin edilməsinə, insan hüquqlarının və əsas azadlıqların səmərəli həyata keçirilməsinə, cəmiyyətdə sosial fərqin aradan qaldırılmasına, sosial ədalət prinsipinə müvafiq olaraq maddi nemətlərin bərabər bölüşdürülməsinə yönələn dövlət. Sosial dövlət ideyasının müəllifi və bu termini ilk dəfə elmi ədəbiyyata gətirən alman filosofu Lorens fon Şteyn (alm. Lorenz von Stein, 1815-1890) olmuşdur. Şteynə görə, dövlət bütün vətəndaşlarının iqtisadi tərəqqisini təmin etməlidir. Dövlətin sosial olması barədə müddəa, bir qayda olaraq, əsas qanunda öz əksini tapır. Almaniya Konstitusiyasının 20-ci maddəsinə görə, Almaniya Federativ

Respublikası demokratik və sosial federativ dövlətdir. Azərbaycan Respublikasının Konstitusiyasının 12-ci maddəsinə əsasən, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Konstitusiyanın 16-cı maddəsinə görə isə, Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır. Sosial dövlətin əlamətlərini bu qaydada təsnifləşdirmək olar: yüksək iqtisadi inkişaf səviyyəsi; sosial yönümlü siyasət və iqtisadiyyat; insan hüquqlarının və əsas azadlıqların səmərəli şəkildə həyata keçirilməsi və müdafiəsi məqsədilə qanunvericilik bazasının və institusional mexanizmlərin mövcudluğu və praktikada səmərəli tətbiqi və fəaliyyəti; vətəndaş cəmiyyətinin formalaşması; sosial proqramların icrası; səmərəli sosial müdafiə kompleksinin mövcudluğu; dövlətin vətəndaşlar qarşısında sosial məsuliyyəti.

23. **Sosial hüquqlar –** insanın azad inkişafını, layiqli həyat səviyyəsini təmin edən hüquqlar qrupu. Sosial hüquqların əsas xarakterik xüsusiyyəti ondan ibarətdir ki, onlar insanın mühüm ehtiyaclarını təmin etməyə yönəlmişlər, bu hüquqlar səmərəli təmin olunmadan insanın normal yaşayışı mümkün ola bilməz. Sosial hüquqlar hər bir insanın normal fizioloji, maddi və mənəvi mövcudluğu və inkişafı üçün layiqli həyat və ictimai əhəmiyyətli fəaliyyəti üçün zəruri imkanlarını təmin edən hüquq və azadlıqlar kompleksidir. Bütövlükdə, bu hüquqlar və azadlıqlar insanların çətinlik və ehtiyaclardan azad olması üzrə şəraitin yaradılması üçün onların əmək və məişət, məşğulluq, sosial müdafiə sferasında hüquqi vəziyyətini müəyyən etməklə fərdlərin sosial, iqtisadi və mədəni şəraitinin normativ tənzimlənməsinə və müdafiə edilməsinə aiddir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi sosial hüquqların yüksək dəyərini göstərərək elan etmişdir ki, cəmiyyətin üzvü olmaq etibarilə hər bir insan sosial təminat hüququna, həmçinin iqtisadi, sosial və mədəni sahələrdə milli səylər və beynəlxalq əməkdaşlıq vasitəsilə hər bir dövlətin quruluş və ehtiyatlarına müvafiq olaraq öz ləyaqətinin qorunması və şəxsiyyətinin sərbəst inkişafı üçün lazım olan hüquqları həyata keçirmək hüququna malikdir (22-ci maddə). Sosial hüquqlara misal olaraq, sağlamlığın qorunması hüququ, tibbi yardım almaq hüququ, sosial təminat hüququ, layiqli həyat səviyyəsi hüququ, mənzil hüququ və s. göstərmək olar.

24. **Sosial sığorta –** Sosial sığorta haqqında Azərbaycan Respublikasının 18 fevral 1997-ci il tarixli Qanununa əsasən, bu Qanunla nəzərdə tutulmuş hallarda fiziki şəxslərin itirilmiş əməkhaqlarının, gəlirlərinin və ya əlavə

xərclərinin kompensasiya edilməsinə, habelə itirilməsinin qarşısının alınmasına yönəldilmiş təminat forması. Sosial sığortanın prinsipləri bunlardır: sosial sığortanın müntəzəmliyinə dövlət təminatı; sosial sığortanın ümumiliyi; sosial sığortanın işçilərə əmək qabiliyyətinin itirildiyi hər bir halda təminat verməsi; sosial sığorta subyektlərinin hüquq bərabərliyi; dövlət sosial sığortasının məcburiliyi; məcburi dövlət sosial sığortasının idarə edilməsində ictimai təşkilatların iştirakının təmin olunması.

25. **Sosial sığorta haqqında Azərbaycan Respublikasının Qanunu** – Azərbaycan Respublikasında sosial sığorta sahəsində münasibətləri tənzimləyən, sosial sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edən qanunvericilik aktı. 18 fevral 1997-ci ildə qəbul edilmişdir.

26. **Sosial təminat hüququ** – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 38-ci maddəsinə əsasən, hər kəsin sosial təminat hüququ vardır. Hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 22-ci maddəsinə uyğun olaraq, cəmiyyətin üzvü olmaq etibarilə hər bir insan sosial təminat hüququna, həmçinin iqtisadi, sosial və mədəni sahələrdə milli səylər və beynəlxalq əməkdaşlıq vasitəsilə hər bir dövlətin quruluş və ehtiyatlarına müvafiq olaraq öz ləyaqətinin qorunması və şəxsiyyətinin sərbəst inkişafı üçün lazım olan hüquqları həyata keçirmək hüququna malikdir. İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 9-cu maddəsinə əsasən, bu Paktda iştirak edən dövlətlər, sosial sığorta da daxil olmaqla hər bir şəxsin sosial təminat hüququnu tanıyırlar. Dəyişdirilmiş Avropa Sosial Xartiyasının 12-ci maddəsinə əsasən, sosial təminat hüququnun səmərəli surətdə həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər aşağıdakı öhdəlikləri götürürlər: 1) sosial təminat sistemini yaratmaq və onu saxlamaq; 2) sosial təminat sistemini qənaətbəxş səviyyədə, Avropa sosial təminat məcəlləsinin təsdiqi üçün tələb olunan minimal səviyyədə saxlamaq; 3) sosial təminat sisteminin tədricən daha yüksək səviyyəyə qaldırılmasına nail olmaq; 4) müvafiq ikitərəfli və çoxtərəfli sazişlər bağlamaqla və yaxud digər vasitələrlə və bu razılaşmalarda nəzərdə tutulmuş şərtlərə əməl olunmaqla, aşağıdakıları təmin etmək üçün tədbirlər görmək: a) müdafiə edilən şəxsin Tərəflərin əraziləri arasında hər hansı bir yerdəyişməsindən asılı olmayaraq, sosial təminat qanunvericiliyinin

nəzərdə tutduğu üstünlüklərin saxlanmasını daxil etməklə, sosial təminat hüququna aidiyyəti olan məsələlərdə öz vətəndaşları və digər Tərəflərin vətəndaşları üçün eyni rejimin yaradılmasını; b) Tərəflərdən hər birinin qanunvericiliyinə müvafiq olaraq həyata keçirilən sığorta və ya iş stajı dövrlərinin toplanaraq cəmlənməsi kimi vasitələrlə sosial təminat hüququnun verilməsi, saxlanılması və bərpa edilməsini.

27. Sosial və tibbi yardım hüququ – əsas iqtisadi-sosial hüquqlardan biri. Dəyişdirilmiş Avropa Sosial Xartiyasının 13-cü maddəsinə əsasən, sosial və tibbi yardım hüququnun səmərəli surətdə həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər aşağıdakı öhdəlikləri götürürlər: 1) yaşamaq üçün kifayət qədər vəsaitləri olmayan və bu vəsaitləri nə özünün şəxsi səyləri nəticəsində əldə etmək, nə də digər mənbələrdən almaq iqtidarında olmayan hər bir şəxsə sosial təminat sistemi çərçivəsində ödənişlər hesabına müvafiq yardım etmək, xəstələnmə hallarında isə onun vəziyyətində lazım olan qulluğu göstərmək; 2) bu cür yardımdan bəhrələnən şəxslərin, məhz buna görə, siyasi və sosial hüquqlarının pozulmamasını təmin etmək; 3) hər bir insanın müvafiq dövlət və ya özəl xidmətlərin vasitəsi və vasitəçiliyi ilə şəxsən özünün və ailəsinin maddi ehtiyaclarını aradan qaldırmaq və ya yüngülləşdirmək məqsədilə tələb oluna bilən məsləhət və fərdi yardım almasını nəzərdə tutmaq; 4) 1953-cü il dekabrın 11-də Parisdə imzalanmış Sosial və tibbi yardımlar haqqında Avropa Konvensiyasına əsasən, öz öhdəliklərinə uyğun, qanuni olaraq onların ərazisində olan (yerləşən) digər Tərəflərin vətəndaşlarına öz vətəndaşlarına tətbiq edilən şərtlərlə bu maddənin 1, 2 və 3-cü bəndlərində göstərilən müddəaları tətbiq etmək. İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 12-ci maddəsinə əsasən, bu Paktda iştirak edən dövlətlər hər bir şəxsin fiziki və psixi sağlamlığının ən yüksək səviyyəsinə çatmaq hüququnu tanıyırlar. Bu Paktda iştirak edən dövlətlərin bu hüququ tam həyata keçirmək üçün görməli olduğu tədbirlər sırasına: a) ölü doğulan uşaqların sayını və uşaq ölümü hallarının azaldılması və uşaqların sağlam inkişafının təmini; b) ətraf mühitin gigiyenasının və sənayedə əmək gigiyenasının bütün aspektlərinin yaxşılaşdırılması; c) epidemik, endemik, peşə xəstəlikləri və digər xəstəliklərin qarşısının alınması və onların müalicəsi; d) xəstəlik halında hamı üçün tibbi yardımın və tibbi xidmətin təmin olunması üçün şəraitin yaradılması məqsədilə atılan addımlar daxildir.

28. Soyqırımı – Bax: genosid.

29. Söz azadlığı – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra

beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 47-ci maddəsinə əsasən, hər kəsin fikir və söz azadlığı vardır. Heç kəs öz fikir və əqidəsini açıqlamağa və ya fikir və əqidəsindən dönməyə məcbur edilə bilməz. İrqi, milli, dini, sosial və hər hansı digər meyara əsaslanan ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 19-cu maddəsinə əsasən, hər bir şəxs əqidə və onu sərbəst ifadə etmək azadlığı hüququna malikdir; bu hüquqa maneəsiz olaraq əqidəyə malik olmaq və informasiya və ideyaları dövlət sərhədlərindən asılı olmayaraq istənilən vasitələrlə axtarmaq, əldə etmək və yaymaq azadlığı daxildir. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 19-cu maddəsinə müvafiq olaraq, hər bir insan maneəsiz olaraq öz fikirlərində qalmaq hüququna malikdir. Həmin maddənin 2-ci bəndinə əsasən, hər bir insan öz fikrini sərbəst ifadə etmək hüququna malikdir; bu hüquqa hər cür informasiyalara və ideyalara dövlət sərhədlərindən asılı olmayaraq şifahi və ya yazılı şəkildə, mətbuat və ya bədii ifadə formaları vasitəsilə və yaxud öz seçiminə uyğun olaraq digər üsullarla axtarmaq, almaq və yaymaq hüququ daxildir. Bu maddənin 2-ci bəndində nəzərdə tutulan hüquqlardan istifadə insanın üzərinə xüsusi öhdəliklər və xüsusi məsuliyyət qoyur. Buna görə də o, bəzi məhdudiyyətlərlə bağlıdır; lakin aşağıdakı məqsədlər üçün qoyula bilən həmin məhdudiyyətlər qanunla müəyyən edilməli və zəruri olmalıdır: a) başqa şəxslərin hüquqlarına və nüfuzlarına hörmət edilməsi üçün; b) dövlət təhlükəsizliyinin, ictimai asayişin, əhalinin sağlamlığının və mənəviyyatının qorunması üçün. Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinə görə, hər kəs öz fikrini ifadə etmək azadlığı hüququna malikdir. Bu hüquqa öz rəyində qalmaq azadlığı və dövlət hakimiyyəti orqanları tərəfindən hər hansı maneə olmadan və dövlət sərhədlərindən asılı olmayaraq, məlumat və ideyaları almaq və yaymaq azadlığı daxildir. Bu maddə dövlətlərin radio-yayım, televiziya və kinematoqrafiya müəssisələrinə lisenziya tələbi qoymasına mane olmur. Bu azadlıqların həyata keçirilməsi milli təhlükəsizlik, ərazi bütövlüyü və ya ictimai asayiş maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısını almaq üçün, sağlamlığın və mənəviyyatın qorunması üçün, digər şəxslərin nüfuzu və hüquqlarının müdafiəsi üçün, konfidensial şəkildə əldə edilmiş məlumatların açıqlanmasının qarşısını almaq üçün və ya ədalət mühakiməsinin nüfuz və qərəzsizliyini təmin etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan müəyyən rəsmi tələblərə, şərtlərə, məhdudiyyətlərə və ya sanksiya-

lara məruz qala bilər.

30. **Status** (lat. status – vəziyyət) – əsas hüquq və azadlıqların, həmçinin vəzifələrin məcmusu.
31. **Status-kvo** (lat. status quo – hal-hazırkı vəziyyət) – hal-hazırda mövcud olan faktiki və ya hüquqi vəziyyət.
32. **Statut** (lat. statutum – qərar) – ingilis-sakson hüquq ailəsinə daxil olan bir sıra ölkələrdə qanunvericilik aktlarının adı; beynəlxalq hüquqda: çoxtərəfli beynəlxalq müqavilə formasında olan və bir qayda olaraq, hər hansı beynəlxalq orqanın fəaliyyətini tənzimləyən hüquqi akt. Beynəlxalq orqanın statutu onun məqsədlərini, vəzifələrini, strukturunu, funksiyalarını və bununla bağlı digər məsələləri müəyyən edir.
33. **Subyektiv hüquq** – şəxsin qanunvericiliklə təmin olunan, onun maraqlarının qorunmasına yönələn mümkün davranış qaydası.
34. **Suisid** (lat. sui caedere – özünü öldürmək) – şəxsin bilərəkdən özünü həyatdan məhrum etməsi.
35. **Summum jus est summa injuria** (lat.) – qanunun sərt təfsiri ədalətsizlik doğurur.
36. **Suveren hüquqlar** – beynəlxalq hüququn bərabərhüquqlu subyekti kimi dövlətlərin malik olduqları hüquqlar. Suveren hüquqlara misal olaraq, beynəlxalq müqavilələr bağlamaq hüququ, sığınacaq vermək hüququ və s. göstərmək olar.
37. **Suverenlik** – (alm. Souveränität, fr. souveraineté – hökmranlıq) şəxsiyyətin, xalqın və ya dövlətin müstəqilliyini ifadə edən kateqoriya. Şəxsin suverenliyi dedikdə qanun çərçivəsində onun müstəqilliyi, əsas insan hüquq və azadlıqlarına malik olması, dövlətdən asılı olmaması və qanunla qadağan olunmayanı etmək azadlığı başa düşülür. Şəxsin suverenliyi hüququn aliliyi, insan hüquqlarına hörmət, insan ləyaqətinin üstünlüyü və şəxsiyyətin toxunulmazlığı konsepsiyalarına əsaslanır. Xalqın suverenliyi hər bir xalqın özünün taleyinin, ictimai və dövlət quruluşunun müəyyən edilməsində onun müstəqilliyində ifadə olunur. Dövlət suverenliyi dövlətin daxildə və xaricdə hüquqi və siyasi müstəqilliyində ifadə olunur.
38. **Sülh hüququ** – əsas kollektiv hüquqlardan biri. Sülh hüququ BMT Baş Assambleyasının 39/11 saylı, 12 noyabr 1984-cü il tarixli qətnaməsi ilə qəbul edilmiş Xalqların sülh hüququ haqqında Bəyannamədə öz əksini tapmışdır. Bəyannamədə qeyd olunur ki, "xalqlar üçün dinc həyatın təmin edilməsi hər bir dövlətin müqəddəs borcudur". Xalqların sülh hüququ Bəyannamədə müqəddəs hüquq kimi elan edilir. Bəyannamə-

də həmçinin bütün dövlətlərə və beynəlxalq təşkilatlara həm milli, həm də beynəlxalq səviyyələrdə zəruri tədbirlərin görülməsi yolu ilə sülh hüququnun hərtərəfli təmin edilməsinə çağırış öz əksini tapmışdır.

39. **Sülh mədəniyyəti –** insan hüquqlarına və azadlıqlarına, o cümlədən yaşamaq hüququna hörmətə, dövlətlərin suverenliyi, ərazi bütövlüyü və siyasi müstəqilliyi prinsiplərinə, münaqişələrin dinc yolla həllinə, azadlıq, ədalət, demokratiya, tolerantlıq, multikulturalizmə sadiqliyə əsaslanan dəyərlərin, dünyagörüşlərinin məcmusu. BMT Baş Assambleyasının 53/243 saylı, 13 sentyabr 1999-cu il tarixli qətnaməsi ilə Sülh mədəniyyəti sahəsində Bəyannamə və Fəaliyyət Proqramı qəbul edilmişdir. Bəyannaməyə əsasən, sülh mədəniyyəti aşağıdakılara əsaslanır: həyata hörmət, zorakılığın aradan qaldırılması və zorakılığın qadağan edilməsinin təbliği, təhsil, dialoq və əməkdaşlıq vasitəsilə zorakılıqdan imtina edilməsi; BMT Nizamnaməsinə və beynəlxalq hüquqa uyğun olaraq dövlətlərin suverenliyi, ərazi bütövlüyü və siyasi müstəqilliyi və dövlətin daxili yurisdiksiyasına aid olan məsələlərə qarışmamaq prinsipi; bütün insan hüquqlarının və əsas azadlıqların təşviqi və onlara hörmət olunması; münaqişələrin dinc yolla həllinə sadiqlik; inkişaf və ətraf mühit sahəsində indiki və gələcək nəsillərin ehtiyaclarının ödənilməsinə yönələn səylər; inkişaf hüququnun təşviq olunması və ona hörmət edilməsi; qadınlara və kişilərə bərabər hüquqların və bərabər imkanların təşviq edilməsi və hörmət olunması; hər kəsin öz fikrini və əqidəsini ifadə etmə azadlığına və informasiya azadlığına hörmət edilməsi və təşviqi; cəmiyyətin bütün səviyyələrində və xalqlar arasında azadlıq, ədalət, demokratiya, dözümlülük, həmrəylik, əməkdaşlıq, plüralizm, mədəni müxtəliflik, dialoq və anlaşma prinsiplərinə sadiqlik.

40. **Sülh mədəniyyəti sahəsində Bəyannamə və Fəaliyyət proqramı** – BMT Baş Assambleyasının 53/243 saylı, 13 sentyabr 1999-cu il tarixli qətnaməsi ilə qəbul edilmiş sənəd. Bəyannamə sülh mədəniyyətinin yayılması və möhkəmləndirilməsi məqsədilə hökumətlərin, beynəlxalq təşkilatların və vətəndaş cəmiyyəti tərəfindən öz fəaliyyətlərində onun müddəalarının rəhbər tutulması məqsədilə qəbul edilmişdir. Bəyannaməyə uyğun olaraq, sülh mədəniyyəti aşağıdakılara əsaslanır: həyata hörmət, zorakılığın aradan qaldırılması və zorakılığın qadağan edilməsinin təbliği, təhsil, dialoq və əməkdaşlıq vasitəsilə zorakılıqdan imtina edilməsi; BMT Nizamnaməsinə və beynəlxalq hüquqa uyğun olaraq dövlətlərin suverenliyi, ərazi bütövlüyü, siyasi müstəqilliyi və dövlətin daxili yurisdiksiyasına aid olan məsələlərə qarışmamaq prinsipi; bütün insan

hüquqlarının və əsas azadlıqların təşviqi və onlara hörmət olunması; münaqişələrin dinc yolla həllinə sadiqlik; inkişaf və ətraf mühit sahəsində indiki və gələcək nəsillərin ehtiyaclarının ödənilməsinə yönələn səylər; inkişaf hüququnun təşviq olunması və ona hörmət edilməsi; qadınlara və kişilərə bərabər hüquqların və bərabər imkanların təşviq edilməsi və hörmət olunması; hər kəsin öz fikrini və əqidəsini ifadə etmə azadlığına və informasiya azadlığına hörmət edilməsi və təşviqi; cəmiyyətin bütün səviyyələrində və xalqlar arasında azadlıq, ədalət, demokratiya, dözümlülük, həmrəylik, əməkdaşlıq, plüralizm, mədəni müxtəliflik, dialoq və anlaşma prinsiplərinə sadiqlik. Bəyannaməyə əsasən, sülh mədəniyyətinin bərqərar olması bunlarla birbaşa əlaqədardır: münaqişələrin dinc yolla həllinin, qarşılıqlı hörmət və anlaşmanın, beynəlxalq əməkdaşlığın təşviqi; BMT Nizamnaməsi və beynəlxalq hüquqa müvafiq olaraq beynəlxalq öhdəliklərə əməl edilməsi; demokratiyanın, bütün insan hüquqlarının və əsas azadlıqların inkişafı, onlara hörmət olunması və əməl edilməsinin təşviq edilməsi; bütün insanlara dialoq, danışıqlar, konsensusun formalaşması və fikir ayrılıqlarının dinc tənzimlənməsi bacarıqlarının inkişaf etdirilməsi imkanlarının verilməsi; demokratik institutların möhkəmləndirilməsi və inkişaf prosesində tam şəkildə iştirakın təmin edilməsi; yoxsulluğun və savadsızlığın aradan qaldırılması və ölkələrdə və ölkələr arasında bərabərsizliyin azaldılması; davamlı iqtisadi və sosial inkişafın təşviq edilməsi; qadınların hüquqlarının və imkanlarının genişləndirilməsi və qərarların qəbul edilməsinin bütün səviyyələrində onların bərabər təmsil olunmalarının əsasında qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğvi; uşaq hüquqlarına hörmət olunmasının və onların təşviqinin və müdafiəsinin təmin edilməsi; bütün səviyyələrdə informasiyanın sərbəst axınının təmin edilməsi və ona çatımın asanlaşdırılması; idarəetmə sahəsində şəffaflığın və hesabatlılığın artırılması; irqçiliyin, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onunla bağlı dözümsüzlüyün bütün formalarının ləğv edilməsi; etnik, dini və dil azlıqları da daxil olmaqla bütün sivilizasiyalar, xalqlar və mədəniyyətlər arasında qarşılıqlı anlaşma, dözümlülük və həmrəylik ideallarının irəliləyişi; müstəmləkə və ya xarici hökmranlıq və ya xarici təcavüz altında olan xalqlar da daxil olmaqla bütün xalqların özünütəyin hüququnun tam həyata keçirilməsi. Bəyannamədə qeyd edilir ki, təhsil, xüsusilə də insan hüquqları sahəsində təhsil sülh mədəniyyətinin yaradılmasının əsas şərtlərindən biridir. Bəyannamədə həmçinin o da vurğulanır ki, sülh mədəniyyətinin bərqərar olunması işinə vətəndaş cəmiyyəti cəlb olunmalıdır. Sülh mədəniyyəti

sahəsində Fəaliyyət proqramında təhsil vasitəsilə sülh mədəniyyətinin formalaşması, davamlı iqtisadi və sosial inkişafın təmin edilməsi üçün tədbirlər, bütün insan hüquqlarına hörmətin təşviq edilməsinə yönələn tədbirlər, qadınlar və kişilər arasında bərabərliyin təmin edilməsinə yönələn tədbirlər, demokratik iştirakın möhkəmləndirilməsinə yönələn tədbirlər, qarşılıqlı anlaşma, dözümlülük və həmrəyliyin möhkəmləndirilməsinə yönələn tədbirlər; geniş iştirakçılıq əsasında kommunikasiya və informasiyanın və biliklərin sərbəst yayılmasına dəstək verilməsinə yönələn tədbirlər; beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn tədbirlər öz əksini tapmışdır.

41. **Sülh və insanlıq əleyhinə cinayətlər –** beynəlxalq və dövlətdaxili hüquqa görə beynəlxalq cinayət sayılan cinayətlər qrupu. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və ya aparma; təcavüzkar müharibəni başlamağa açıq çağırışlar; beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə; soyqırım; soyqırımın törədilməsinə təhrik etmə; ekosid; əhalini məhv etmə; köləlik; əhalini deportasiya etmə və ya məcburi köçürmə; cinsi zorakılıq; məcburi hamiləlik; təqib; insanları zorakılıqla yoxa çıxarma; irqi ayrı-seçkilik (aparteid); beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə; işgəncə sülh və insanlıq əleyhinə cinayətlər hesab edilir. Beynəlxalq hüquqa əsasən, insanlıq əleyhinə cinayət sistematik və ya geniş miqyasda qəsdən törədilən bu əməllərdən hər hansı biridir: adamöldürmə; kütləvi qırğın; kölə vəziyyətinə salma; deportasiya və ya əhalinin məcburi köçürülməsi; beynəlxalq hüququn ümumtanınmış normalarının pozulması ilə həbs və ya fiziki azadlıqdan digər qəddar üsulla məhrumetmə; işgəncə; zorlama, seksual köləyə çevirmə, fahişəliyə məcburetmə, məcburi hamiləlik, məcburi sterilizasiya və ya seksual zorakılığın digər istənilən forması; hər hansı qrupun və ya icmanın siyasi, irqi, milli, etnik, mədəni, dini, gender və ya digər motivlərə görə təqib edilməsi; insanların zorakılıqla yoxa çıxarılması; aparteid; fiziki və ya psixi toxunulmazlığa, güclü iztirablar, yaxud ciddi bədən xəsarəti yetirilməsində ifadə olunan qeyri-insani əməllər.

42. **Süni intellekt** – ətraf aləmi təhlil edərək və müəyyən hədəflərə çatmaq üçün müəyyən dərəcədə muxtariyyət ilə ağıllı davranışları təqdim edən sistemlər.

Ş

1. **Şəxsi həyat –** şəxsin fiziki, psixoloji və mənəvi toxunulmazlığını, privatlığını və identikliyini əhatə edən hüquqi kateqoriya. Şəxsi həyat elə geniş bir anlayışdır ki, ona birmənalı, dəqiq tərif vermək mümkün deyil. Avropa İnsan Hüquqları Məhkəməsinin mövqeyinə görə, şəxsi həyat anlayışı fərdin özünün seçdiyi şəxsi həyatı yaşaya biləcəyi və ətraf aləm üçün qapada biləcəyi "şəxsi qapalı dairə" ilə məhdudlaşmır. Şəxsi həyat anlayışı həm də özündə müəyyən dərəcədə digər insanlarla əlaqələrin qurulması və inkişaf etdirilməsi hüququnu da ehtiva edir (Fon Hannover Almaniyaya qarşı işi).
2. **Şəxsi həyata və ailə həyatına hörmət hüququ** – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi və ailə həyatına müdaxilə etmək qadağandır. Hər kəsin şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ vardır (maddə 32). Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 17-ci maddəsinə əsasən, heç kimin şəxsi və ailə həyatına özbaşına və ya qeyri-qanuni müdaxilə, onun evinin toxunulmazlığına və yazışma sirrinə özbaşına və ya qeyri-qanuni qəsd və ya onun ləyaqəti və nüfuzuna qeyri-qanuni qəsd edilə bilməz. Hər bir insan belə müdaxilə və qəsdlərdən qanunla qorunmaq hüququna malikdir. Avropa İnsan Hüquqları Konvensiyasının 8-ci maddəsinə əsasən, hər kəs öz şəxsi və ailə həyatına, evinə və yazışma sirrinə hörmət hüququna malikdir.
3. **Şəxsi həyatın toxunulmazlığını pozma** – insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayət. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, şəxsi və ailə həyatının sirri olan məlumatların, belə məlumatları əks etdirən sənədlərin, video və foto çəkilişi materiallarının, səs yazılarının yayılması, habelə satılması və ya başqasına verilməsi, qanunsuz toplanılmasında ifadə olunur (maddə156).
4. **Şəxsi həyatın toxunulmazlığı tezisi –** amerikalı hüquqşünaslar Samuel Uorren (1852-1910) və Luis Brandeis (1856-1941) tərəfindən irəli sürülmüş, şəxsi toxunulmazlığa müasir aspektdən şərh verən yanaşma. 1890-cı ildə Harvard Hüquq İcmalında (Harvard Law Review) dərc olunan "Şəxsi həyatın toxunulmazlığı" (Right to privacy) adlı məqalədə şəxsi həyata dair bir çox vacib məqamlar öz əksini tapmışdır. Məqalədə

deyilir: "Şəxsi həyatın və mülkiyyətin toxunulmazlığı, əslində əvvəlki dövrlərdən ümumi hüquqda tanınmışdır. Belə ki, əvvəllər qanun (hüquq) daha çox fiziki müdaxilələrin qarşısının alınması vasitələrini nəzərdə tuturdu və "vi et armis" (silahın gücü ilə) prinsipi rəhbər tutulurdu. Lakin tədricən baş verən hüquqi, sosial, siyasi və iqtisadi dəyişikliklər insanın intellektinin ön plana çəkilməsinə və nəticə etibarilə, şəxsi həyatın və mülkiyyətin toxunulmazlığı kimi hüquqların əhatə dairəsinin genişlənməsinə gətirib çıxardı. Bununla da şəxsi toxunulmazlıq hüququ bir sıra imtiyazları ehtiva etməyə başladı və artıq mülkiyyət toxunulmazlığı yalnız maddi deyil, həmçinin qeyri-maddi formada sahibliyi əhatə etdi...".

5. **Şəxsi hüquqlar** – Bax: mülki hüquq və azadlıqlar; həmçinin bax: siyasi hüquq və azadlıqlar.
6. **Şəxsin suverenliyi –** şəxsiyyətin qanun çərçivəsində müstəqilliyini, üstünlüyünü və toxunulmazlığını ifadə edən kateqoriya. Şəxsin suverenliyi dedikdə qanun çərçivəsində onun müstəqilliyi, əsas insan hüquq və azadlıqlarına malik olması, dövlətdən asılı olmaması və qanunla qadağan olunmayanı etmək azadlığı başa düşülür. Şəxsin suverenliyi hüququn aliliyi, insan hüquqlarına hörmət, insan ləyaqətinin üstünlüyü və şəxsiyyətin toxunulmazlığı konsepsiyalarına əsaslanır.
7. **Şəxsi toxunulmazlıq hüququ** – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsinə əsasən, hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır. Hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi və ailə həyatına müdaxilə etmək qadağandır. Hər kəsin şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ vardır. Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kəs onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz. Hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, hər kəs onun haqqında toplanmış məlumatlarla tanış ola bilər. Hər kəsin onun barəsində toplanmış və həqiqətə uyğun ol-

mayan, tam olmayan, habelə qanunun tələbləri pozulmaqla əldə edilmiş məlumatların düzəldilməsini və ya çıxarılmasını (ləğv edilməsini) tələb etmək hüququ vardır. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, üçüncü şəxslər haqqında məlumat almaq məqsədilə elektron formada və ya kağız üzərində aparılan informasiya ehtiyatlarına daxil olmaq qadağandır. Məlumatın aid olduğu şəxsin buna razılığını aşkar ifadə etdiyi hallar, ayrı-seçkiliyə yol verməmək şərtilə anonim xarakterli statistik məlumatların emalı və qanunun yol verdiyi digər hallar istisna olmaqla, informasiya texnologiyalarından şəxsi həyata, o cümlədən əqidəyə, dini və etnik mənsubiyyətə dair məlumatların açıqlanması üçün istifadə edilə bilməz. Fərdi məlumatların dairəsi, habelə onların emalı, toplanması, ötürülməsi, istifadəsi və mühafizəsi şərtləri qanunla müəyyən edilir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 3-cü maddəsinə görə, hər bir şəxsin yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququ var. Bəyannamənin 12-ci maddəsinə əsasən, heç kim şəxsi və ailə həyatına müdaxiləyə, evinin toxunulmazlığına, məktublaşmasının gizliliyinə, şərəf və nüfuzuna özbaşına qəsdə məruz qala bilməz. Hər bir şəxsin belə müdaxilə və qəsdən qanun tərəfindən müdafiə olunmaq hüququ var. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 9-cu maddəsinə uyğun olaraq, hər bir insan azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir. Heç kim özbaşınalıqla həbs edilə və ya həbsdə saxlanıla bilməz. Heç kim qanunla müəyyən edilən əsaslardan başqa və qanuni prosedura uyğun olmadan heç bir halda azadlıqdan məhrum edilməməlidir. Avropa İnsan Hüquqları Konvensiyasının 5-ci maddəsinə əsasən, hər kəsin azadlıq və şəxsi toxunulmazlıq hüququ vardır.

8. **Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər** – insanların azadlığı və ləyaqəti əleyhinə yönələn cinayətlər qrupu. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, adam oğurluğu, insan alveri, məcburi əmək, insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlər, qanunsuz azadlıqdan məhrum etmə, qanunsuz olaraq psixiatriya xəstəxanasına yerləşdirmə, böhtan, təhqir, internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtan atma və ya təhqir etmə şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlərdir (144-148-1-ci maddələr).

9. **Şəxsiyyətin hüquqi statusu** – insanın əsas hüquq və azadlıqlarının, həmçinin qanunla üzərinə düşən öhdəliklərinin məcmusu. Şəxsiyyətin hüquqi statusu dövlət tərəfindən təminat verilən və konstitusiya və digər dövlətdaxili qanunvericilik aktlarında, həmçinin insan hüquqlarına dair

fundamental beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş təbii və subyektiv hüquq və azadlıqlardan, həmçinin demokratik cəmiyyətdə zəruri olan və qanunla müəyyən olunan vəzifələrdən ibarətdir.

10. **Şərəfin, ləyaqətin və ya işgüzar nüfuzun müdafiəsi** – şəxsin onun şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən, şəxsi və ailə həyatının sirrini və ya şəxsi və ailə toxunulmazlığını pozan məlumatların məhkəmə qaydasında təkzib olunmasını tələb etmək hüququ. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23-cü maddəsinə əsasən, fiziki şəxs onun şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən, şəxsi və ailə həyatının sirrini və ya şəxsi və ailə toxunulmazlığını pozan məlumatların məhkəmə qaydasında təkzib olunmasını tələb edə bilər, bu şərtlə ki, həmin məlumatları yaymış şəxs onların həqiqətə uyğun olduğunu sübuta yetirməsin. Faktik məlumatlar natamam dərc edildikdə də, əgər bununla şəxsin şərəfinə, ləyaqətinə və ya işgüzar nüfuzuna toxunulursa, eyni qayda tətbiq edilir. Marağı olan şəxslərin tələbi ilə fiziki şəxsin şərəf və ləyaqətinin müdafiəsinə onun ölümündən sonra da yol verilir. Əgər fiziki şəxsin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu ləkələyən və ya şəxsi və ailə həyatının sirrinə qəsd edən məlumatlar mediada yayılmışdırsa, həmin mediada da təkzib edilməlidir. Əgər göstərilən məlumatlar rəsmi sənədə daxil edilmişdirsə, həmin sənəd dəyişdirilməli və bu barədə marağı olan şəxslərə məlumat verilməlidir. Digər hallarda təkzib qaydasını məhkəmə müəyyənləşdirir. Mediada hüquqlarına və ya qanunla qorunan mənafelərinə toxunan məlumatlar dərc edilmiş (yayımlanmış) fiziki şəxsin həmin mediada öz cavabının dərc edilməsi (yayımlanması) hüququ vardır. Şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatlar yayılmış fiziki şəxsin həmin məlumatların təkzibi ilə yanaşı, onların yayılması nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır. Əgər fiziki şəxsin şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatları yaymış şəxsi müəyyənləşdirmək mümkün deyildirsə, barəsində bu cür məlumatlar yayılmış şəxsin ixtiyarı var ki, həmin məlumatların həqiqətə uyğun olmayan məlumatlar sayılmasını tələb etsin. Bu maddənin fiziki şəxsin işgüzar nüfuzunun müdafiəsinə dair qaydaları müvafiq olaraq hüquqi şəxsin işgüzar nüfuzunun müdafiəsinə də tətbiq edilir.

11. **Şərəf və ləyaqətin müdafiəsi hüququ** – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 46-cı maddəsinə əsasən, hər kəsin öz şərəf və ləyaqətini müda-

fiə etmək hüququ vardır. Şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur. Heç bir hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz. Heç kəsə işgəncə və əzab verilə bilməz. Heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz. Özünün könüllü razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməz. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 1-ci maddəsinə müvafiq olaraq, bütün insanlar ləyaqət və hüquqlarına görə azad və bərabər doğulurlar. Onların şüurları və vicdanları var və bir-birlərinə münasibətdə qardaşlıq ruhunda davranmalıdırlar. Bəyannamənin 12-ci maddəsinə görə, heç kim şəxsi və ailə həyatına müdaxiləyə, yaşayış yerinin toxunulmazlığına, məktublaşmasının məxfiliyinə, şərəf və nüfuzuna özbaşına qəsdə məruz qala bilməz. Hər bir şəxsin belə müdaxilə və qəsddən qanun tərəfindən müdafiə olunmaq hüququ var.

12. **Şifahi müraciət** – vətəndaşların fərdi və kollektiv qəbulu zamanı və ya müraciətə baxan subyektin nümayəndəsinin iştirakı ilə canlı yayımlanan televiziya və radio proqramları zamanı, habelə telefon müraciət xidməti vasitəsilə edilən müraciət.
13. **Şikayət** – pozulmuş hüquq və azadlıqların bərpası və müdafiəsi ilə bağlı tələbləri nəzərdə tutan müraciət.

T

1. **Teokratik dövlət –** dövlət doktrinasının əsasında dini təlimin dayandığı və dövlət hakimiyyətinin din xadimlərinə mənsub olduğu dövlət. Müasir dövrdə tam teokratik dövlət kimi roma-katolik kilsəsinin başçısı – Papa tərəfindən idarə olunan Vatikanı qeyd etmək olar.
2. **Teokratiya** (yun. theos – Allah, kratos – hakimiyyət) **–** hakimiyyətin dini qurumların və ruhanilərin əlində cəmləşdiyi siyasi rejim.
3. **Terrorçu –** hər hansı bir formada terror fəaliyyətinin həyata keçirilməsində iştirak edən şəxs.
4. **Terrorçuluğa qarşı mübarizə –** terror fəaliyyətinin aşkar edilməsi, qarşısının alınması, habelə terror nəticəsində dəyə biləcək zərərin minimuma endirilməsi ilə bağlı fəaliyyət.
5. **Terrorçuluq –** ictimai təhlükəsizlik əleyhinə olan cinayət. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər (terror aktı) törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmə terrorçuluqdur (maddə 214).
6. **Terror əleyhinə aparılan əməliyyatlar –** terror aksiyalarının qarşısının alınması, fiziki şəxslərin təhlükəsizliyinin təmin edilməsi, terrorçuların tərksilah edilməsi, zərərsizləşdirilməsi, habelə terror aksiyası nəticəsində dəyə biləcək zərərin minimuma endirilməsi məqsədilə həyata keçirilən xüsusi tədbirlər.
7. **Terror fəaliyyəti –** terror aksiyalarını təşkil etmə, planlaşdırma, hazırlama və həyata keçirmə, fiziki və hüquqi şəxslər üzərində zorakılıq etmə, terror məqsədilə maddi obyektləri məhv etmə və ya zədələmə, terror aksiyalarının həyata keçirilməsi məqsədilə qanunsuz silahlı birləşmələr, cinayətkar qruplar yaratma, habelə belə aksiyalarda iştirak etmə, şəxsləri terrorçuluğa cəlb etmə, silahlandırma, onlara təlim keçmə və onlardan istifadə etmə, bilərəkdən terror təşkilatlarını və ya terror qruplarını maliyyələşdirmə və ya onlara digər yardımlar etmə ilə bağlı olan fəaliyyət.
8. **Terrorizm** (lat. terror – qorxu, dəhşət) **–** ictimai təhlükəsizliyin pozulması, siyasi sabitliyin, demokratik əsasların, hüquq qaydasının, sosial nizamın sarsıldılması, dövlət və hakimiyyət orqanlarına təsir göstərilməsi,

əhalinin qorxudulması məqsədilə ayrı-ayrı şəxslər, şəxslər qrupları, əvvəlcədən əlbir olmuş bir qrup şəxs tərəfindən törədilmiş fiziki və hüquqi şəxslərə, dövlət və ya ictimai xadimə, xarici dövlətin nümayəndəsinə və ya beynəlxalq müdafiədən istifadə edən şəxslərə qarşı zorakılıq, onların həyatına qəsd edilməsi, zorakılıq tətbiq etməklə və ya qəsd etməklə hədələmə, insan tələfatı ilə nəticələnən və ya insan tələfatına təhlükə yaradan partlayışların törədilməsi və ya belə partlayışları törətməklə hədələmə, həmçinin əhəmiyyətli əmlak ziyanının vurulmasında təzahür edən hüquqazidd əməl (sui generis beynəlxalq cinayət). Bəşəriyyət yarandığı vaxtdan bu günədək insanın ən mühüm ehtiyaclarından biri təhlükəsizlik olmuşdur. Müasir dövrdə insanların təhlükəsizliyinə ən real və irimiqyaslı təhlükə terrorçuluqdur. Siyasi mübarizənin üsullarından biri kimi, terrorçuluq bu və ya digər şəkildə, demək olar ki, hər zaman mövcud olmuşdur. XXI əsrdə isə o, beynəlxalq hüquq qaydasını, beynəlxalq nizamasalmanı pozan faktora çevrilmişdir. Hazırda terrorçuluq yalnız ayrı-ayrı dövlətlərin daxili siyasi sabitliyinə deyil, bütövlükdə ümumdünya sabitliyinə böyük təhlükə kimi çıxış edir. Terrorçuluq artıq müstəqil və qlobal siyasi və hərbi gücə cevrilmişdir. Terrorla mübarizə birbaşa olaraq bütün dövlətlərin vəzifəsidir. Beynəlxalq terror aktları bir çox dövlətlərin maraqlarına toxunduğundan bəzən milli yurisdiksiyaların kolliziyası meydana çıxır. Məhz bu baxımdan terrorla mübarizədə qarşılıqlı hüquqi yardım göstərilməsi, təqsirkar şəxslərin ekstradisiyası və digər üsullarla dövlətlərarası əməkdaşlığın həyata keçirilməsi zəruridir. Terrorçuluqla mübarizədə dövlətlərarası əməkdaşlığın əsasını aut dedere aut judicare (ya təhvil ver, ya da mühakimə et) prinsipi təşkil etməlidir. Lakin dövlətlərarası münasibətlərdə təəssüf ki, bu mühüm prinsipə bəzi dövlətlər tərəfindən əməl edilmir. Bu isə terrorçuluğun dünya miqyasında daha geniş vüsət almasına səbəb olur. Beynəlxalq terror aktları, bir qayda olaraq, dövlətlə rəsmi münasibətlərdə olmayan şəxslər, yaxud qruplaşmalar tərəfindən törədilir. Lakin elə hallar da olur ki, bəzən müvafiq dövlət orqanları gizli şəkildə terror aktlarına dəstək verirlər. Ayrı-ayrı dövlətlərin terror aktlarına dəstək verməsi ilə terrorçuluq olduqca təhlükəli xarakter alır. Beynəlxalq hüquq bunu birmənalı olaraq qadağan edir. 1994-cü ildə BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş qətnamədə vurğulanır ki, dövlətlər terror fəaliyyəti təşkil etməkdən, terrora təhrikdən, terrorun həyata keçirilməsinə yardımdan, terroru maliyyələşdirməkdən çəkinməli, terror aktı törətmiş şəxsləri məsuliyyətə cəlb etməli və ya ekstradisiya etməlidirlər. Hal-hazırda terrorçuluğun qloballaşma-

sı müşahidə edilməkdədir. Terrorçuluğun ən təhlükəli cəhəti ondan ibarətdir ki, o, yeni dünya müharibəsinə zəmin yaradır. Bu gün bəzi böyük dövlətlər "özgə əllərlə müharibə"yə üstünlük verirlər, bu isə terrorçuluğun daha geniş miqyas almasına və inkişafına səbəb olur. Müasir dövrdə terrorçuluqla bağlı beynəlxalq hüquqda mövcud problemlərdən biri də bu cinayətin beynəlxalq cinayət kimi tövsif edilməməsidir. Beynəlxalq terrorçuluğa münasibətdə hostes humani generis (bəşəriyyətin düşməni) prinsipinin tətbiq edildiyini və terrorçuluğun beynəlxalq hüququn erga omnes xarakterinə malik olan ümumtanınmış prinsip və normalarını kobud şəkildə pozduğunu nəzərə alaraq terrorçuluq beynəlxalq cinayət kimi tövsif edilməlidir. Bəzi tədqiqatçılar tərəfindən belə bir fikir irəli sürülür ki, terrorçuluq cinayəti dövlətlər tərəfindən deyil, fiziki şəxslər tərəfindən törədildiyindən beynəlxalq cinayət kimi tövsif edilə bilməz. Belə yanaşmanın hüquqi əsası yoxdur. Məsələn, Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyada dövlətin məsuliyyəti ilə yanaşı, fiziki şəxslərin də məsuliyyəti nəzərdə tutulmuşdur. Beynəlxalq cinayətlər yalnız dövlətlər tərəfindən deyil, fiziki şəxslər tərəfindən də törədilir. BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının qətnamələrində də terrorçuluq cinayətinin subyektləri qismində həm dövlətlər, həm də fiziki şəxslər göstərilir. Terrorçuluq istər beynəlxalq hüquq ədəbiyyatında, istərsə də beynəlxalq cinayət hüququnun əsas mənbəyini təşkil edən sənədlərdə beynəlxalq cinayət kimi vurğulanmır. Beynəlxalq cinayət hüququ sahəsində tanınmış mütəxəssis, Humboldt adına Berlin universitetinin professoru Gerhard Verle "Beynəlxalq cinayət hüququnun prinsipləri" adlı məşhur əsərində terrorçuluğu beynəlxalq cinayətlər sırasına aid etmir. Müəllif beynəlxalq cinayətlər sırasında soyqırımını, insanlıq əleyhinə cinayətləri, müharibə cinayətlərini və təcavüz cinayətini qeyd edir. Beynəlxalq Cinayət Məhkəməsinin Statutunun "Məhkəmənin yurisdiksiyasına aid olan cinayətlər" adlanan 5-ci maddəsinə əsasən, Məhkəmənin yurisdiksiyası bütün beynəlxalq ictimaiyyəti narahat edən ən ciddi cinayətlərlə məhdudlaşır. Məhkəmə aşağıdakı cinayətlərə münasibətdə yurisdiksiyaya malikdir: soyqırımı cinayəti, insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, təcavüz cinayəti. Göründüyü kimi, terrorçuluğun, demək olar ki, bütün dünya dövlətlərini və xalqlarını narahat etdiyinə baxmayaraq, bu cinayət növü Beynəlxalq Cinayət Məhkəməsi kimi ixtisaslaşmış universal beynəlxalq məhkəmə orqanının əsas aktı olan Statutda öz əksini tapmamışdır. Eyni zamanda terrorçuluğun definisiyasını, onun mahiyyətini və əsas

əlamətlərini müəyyənləşdirən universal beynəlxalq müqavilə mövcud deyildir. Bütün bunlar terrorçuluğun beynəlxalq cinayət kimi tövsif edilməsində əsas maneələrdir. Hazırkı dövrdə beynəlxalq terrorçuluq cinayətinin Beynəlxalq Cinayət Məhkəməsinin Statutuna avtonom beynəlxalq cinayət kimi daxil edilməsi və bu cinayətin statusunun müəyyən edilməsi zəruridir. Beynəlxalq terrorçuluq cinayətinin ümumqəbuledilmiş anlayışının olmaması bu cinayət növünün Statuta daxil edilməsində əsas maneədir. Bunun üçün ilk növbədə BMT tərəfindən beynəlxalq terrorçuluqla mübarizə haqqında konvensiya qəbul edilməli və bu sənəddə beynəlxalq terrorçuluq cinayətinin dəqiq anlayışı müəyyən edilməlidir. BMT Baş Assambleyasının 17 dekabr 1996-cı il tarixli, 51/210 saylı qətnaməsi ilə yaradılmış terrorçuluqla mübarizə üzrə xüsusi komitənin vəzifələrindən birini beynəlxalq terrorçuluqla mübarizəyə dair konvensiya layihəsinin hazırlanması təşkil etsə də, Komitə, hələ ki, bu vəzifəsini yerinə yetirməmişdir. Eyni zamanda BMT tərəfindən 1972-ci ildə yaradılmış Komitə də terrorçuluğun vahid anlayışını işləyib hazırlaya bilməmişdir. Terrorçuluğa qarşı mübarizə sahəsində bir sıra beynəlxalq-hüquqi aktlar mövcud olsa da, məsələn, Bomba terrorçuluğu ilə mübarizəyə dair 15 dekabr 1997-ci il tarixli BMT Konvensiyası, Terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizəyə dair 10 aprel 2002-ci il tarixli BMT Konvensiyası, Nüvə terrorçuluğu aktları ilə mübarizəyə dair 13 aprel 2005-ci il tarixli BMT Konvensiyası, Terrorçuluğun qarşısının alınması haqqında 27 yanvar 1977-ci il tarixli Avropa Konvensiyası, Avropa Şurasının Terrorçuluğun qarşısının alınması haqqında 16 may 2005-ci il tarixli Konvensiyası və s., onların heç birində terrorçuluq cinayətinin dəqiq anlayışı verilməmişdir. Lakin ayrı-ayrı milli qanunvericilik aktlarında terrorçuluğun anlayışı bu və ya digər şəkildə verilir. Terrorçuluğa qarşı mübarizə haqqında Azərbaycan Respublikasının 18 iyun 1999-cu il tarixli Qanununa əsasən, terrorçuluq – ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər (terror aktı) törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmədir. Terrorçuluq cinayətinin analoji tərifi Azərbaycan Respublikasının Cinayət Məcəlləsində də verilmişdir. ABŞ Dövlət Departamenti terrorçuluqla bağlı illik məruzələrin hazırlanmasında ABŞ-nin

Mərkəzi Kəşfiyyat İdarəsi tərəfindən 1980-ci illərdə işlənib hazırlanmış tərifdən istifadə edir. Həmin tərifə görə, terrorçuluq – bu və ya digər dövlətdə mövcud hakimiyyətin lehinə, yaxud əleyhinə cıxış edən ayrı-ayrı şəxslər və ya qruplaşmalar tərəfindən siyasi məqsədlərlə güc tətbiqi və ya güc tətbiq etməklə hədələmədir, hansı ki, bu hərəkətlər, barəsində zorakılıq tətbiq edilən bilavasitə qurbandan daha çox qrup insanlara xəsarət yetirmək və ya qorxutmaq məqsədi güdür. ABŞ-nin Federal Təhqiqatlar Bürosunun terrorçuluğa verdiyi tərifə görə, terror aktı dövlətin cinayət qanunvericiliyinin pozulmasına və siyasi və ya sosial məqsədlər naminə hökumətə, mülki əhaliyə təzyiq göstərilməsi və ya onların qorxudulmasına yönələn zorakılıq aktıdır. BMT-nin keçmiş Baş katibi Kofi Annanın fikrincə, terrorçuluq – qlobal effektlərə malik qlobal təhlükədir və bu təhlükənin nəticələri inkişafdan tutmuş sülhə qədər, insan hüquqlarından tutmuş qanunun aliliyinə qədər BMT-nin fəaliyyətinin bütün aspektlərini əhatə edir.

9. **Terror qrupu –** terror fəaliyyətinin həyata keçirilməsi məqsədilə iki və daha artıq şəxsin birləşməsi.
10. **Terror təşkilatı –** terror fəaliyyətinin həyata keçirilməsi məqsədilə yaradılan və ya öz fəaliyyətində terrorçuluqdan istifadəni mümkün hesab edən təşkilat. Əgər struktur bölmələrindən biri təşkilatın hər hansı bir rəhbər orqanının razılığı ilə terror fəaliyyəti ilə məşğuldursa, həmin təşkilat terror təşkilatı hesab edilir.
11. **Təbii hüquq nəzəriyyəsi –** Bax: insan hüquqlarına dair təbii hüquq nəzəriyyəsi.
12. **Təcavüz** (lat. aggressio – hücum) – xüsusilə təhlükəli beynəlxalq cinayət. Beynəlxalq hüquqa görə, təcavüz ən ağır beynəlxalq cinayət hesab olunur. BMT Baş Assambleyasının 3314 (XXIX) saylı, 14 dekabr 1974-cü il tarixli "Təcavüzün tərifi" adlı qətnaməsinə əsasən, təcavüz – bir dövlət tərəfindən digər dövlətin suverenliyi, ərazi toxunulmazlığı və ya siyasi müstəqilliyinə qarşı silahlı güc tətbiqi və ya bu tərifdə müəyyən edilən qaydada BMT Nizamnaməsinə zidd olan digər əməllərdir. BMT Nizamnaməsinin 39-cu maddəsinə əsasən, təcavüz aktının müəyyən edilməsi BMT Təhlükəsizlik Şurasının müstəsna səlahiyyətinə aiddir. Təcavüz cinayəti özündə bir neçə mərhələni ehtiva edir: təcavüz aktının törədilməsi haqqında əmr verilməsi; təcavüzkar müharibənin planlaşdırılması; müharibənin hazırlanması; müharibənin başlanması; müharibənin aparılması. Beynəlxalq Cinayət Məhkəməsinin Statutunda təcavüz Məhkəmənin yurisdiksiyasına aid edilmişdir. Təcavüz cinayətinin tərifi Beynəlxalq

Cinayət Məhkəməsinin Statutunun 8 bis maddəsində verilmişdir. Həmin maddəyə görə, təcavüz cinayəti BMT Nizamnaməsinin aşkar pozuntusu olan təcavüz aktının planlaşdırılması, hazırlanması, başladılması və ya həyata keçirilməsidir.

13. **Təhqir** – şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayət. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, mediada və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında şəxsiyyətin şərəf və ləyaqətini nalayiq formada qəsdən alçaltma təhqir sayılır (maddə 148).
14. **Təhlükəsiz və sağlam əmək şəraiti hüququ** – əsas iqtisadi-sosial hüquqlardan biri. Dəyişdirilmiş Avropa Sosial Xartiyasının 3-cü maddəsinə əsasən, təhlükəsiz və sağlam əmək şəraiti hüququnu səmərəli surətdə təmin etmək məqsədilə Tərəflər işəgötürənlər və işçi təşkilatları ilə məsləhətləşmələr aparmaqla aşağıdakı öhdəlikləri götürürlər: 1) əmək və istehsalat mühitinin qorunması və sağlam şərait məsələləri üzrə ardıcıl milli siyasəti dürüst ifadə etmək, həyata keçirmək və ona vaxtaşırı yenidən baxmaq. Bu siyasətin ən başlıca məqsədi əməyin qorunması və gigiyenasını iş əsnasında baş verən bədbəxt hadisələrin və sağlamlığa vurulan zərərin və yaxud işlə bağlı risklərin, ən əsası, istehsal mühitinə xas olan risklərin səbəblərini minimuma endirmək yolu ilə yaxşılaşdırmaq olmalıdır; 2) əmək şəraitinin təhlükəsizlik və sağlamlıq qaydalarını nəşr etmək; 3) bu kimi qaydaların tətbiqi üzrə nəzarət üçün tədbirlər görmək; 4) bütün işçiləri əhatə edən, hər şeydən əvvəl, məsləhət və profilaktik funksiyaları daxil etməklə, əmək mühafizəsi və sağlamlıq xidmətlərinin mütərəqqi inkişafına dəstək vermək.
15. **Təhlükəsiz yaşamaq hüququ** – Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, hər kəsin təhlükəsiz yaşamaq hüququ vardır. Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək qadağandır.
16. **Təhsil hüququ** – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsinə əsasən, hər bir vətəndaşın təhsil almaq hüququ vardır. Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir. Maddi vəziyyətdən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir. Dövlət mini-

mum təhsil standartlarını müəyyən edir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 26-cı maddəsinə əsasən, hər bir şəxsin təhsil hüququ var. Ən azı ibtidai və ümumi təhsil pulsuz olmalıdır. İbtidai təhsil icbari olmalıdır. Hər kəs texniki və peşə təhsili almaq imkanına malik olmalıdır, ali təhsil də hər kəsin qabiliyyəti əsasında hamıya eyni dərəcədə müyəssər olmalıdır. Təhsil insan şəxsiyyətinin tam inkişafına və insan hüquqları və əsas azadlıqlara hörmətin artırılmasına yönəldilməlidir. Təhsil xalqlar, irqi və dini qruplar arasında qarşılıqlı anlaşmanın, dözümlülüyün və dostluğun möhkəmləndirilməsinə və Birləşmiş Millətlərin sülhü qoruma sahəsində fəaliyyətinə yardım etməlidir. Valideynlər öz azyaşlı uşaqlarının təhsil növünü seçməkdə üstünlüyə malikdirlər. İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 13-cü maddəsinə müvafiq olaraq, bu Paktda iştirak edən dövlətlər hər bir şəxsin təhsil hüququnu tanıyırlar. Onlar razılaşırlar ki, təhsil insan şəxsiyyətinin tam inkişafına və ləyaqətinin dərk olunmasına yönəldilməli, insan hüquqlarına və əsas azadlıqlara hörməti möhkəmləndirməlidir. Onlar daha sonra razılaşırlar ki, təhsil hamıya azad cəmiyyətin faydalı iştirakçısı olmaq imkanı verməlidir, bütün millətlər, irqi, dini və etnik qruplar arasında qarşılıqlı anlaşmaya, dözümlülüyə və Birləşmiş Millətlər Təşkilatının sülhü qoruma sahəsində fəaliyyətinə yardım etməlidir. Bu Paktda iştirak edən dövlətlər etiraf edirlər ki, bu hüququn tam şəkildə həyata keçirilməsi üçün: a) ibtidai təhsil hamı üçün icbari və pulsuz olmalıdır; b) orta təhsil və onun müxtəlif formaları, orta texniki-peşə təhsili də daxil olmaqla, bütün tədbirlər görmək, xüsusilə və tədricən pulsuz təhsilə keçmək yolu ilə açıq və hamıya müyəssər olmalıdır; c) ali təhsil bütün lazımi tədbirlərin, xüsusilə də tədricən pulsuz tədrisin tətbiq edilməsi yolu ilə hər kəsə qabiliyyətinə görə eyni dərəcədə müyəssər olmalıdır; d) ibtidai təhsil alma ibtidai təhsil almamış və ya onu tam bitirməmiş şəxslər üçün imkan dairəsində həvəsləndirilməli və intensivləşdirilməlidir; e) məktəblər şəbəkəsinin fəal inkişafı həyata keçirilməli, qənaətbəxş təqaüd sistemi təyin olunmalı və müəllim heyətinin maddi vəziyyəti daim yaxşılaşdırılmalıdır. Bu Paktda iştirak edən dövlətlər valideynlərin və müvafiq hallarda qəyyumların öz uşaqları üçün təkcə dövlət tərəfindən təsis olunmuş məktəbləri deyil, həmçinin dövlətin təhsil üçün təyin etdiyi minimum tələblərə cavab verən digər məktəbləri də seçmək və öz etiqadlarına əsasən uşaqlarının dini və mənəvi tərbiyəsini təmin etmək hüququna hörmət etməyi öhdələrinə götürürlər. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın 1 saylı Protokolunun 2-ci maddəsinə əsasən, heç kəs

təhsil hüququndan məhrum edilə bilməz. Dövlət təhsil və tədris sahəsində öz üzərinə götürdüyü funksiyaları yerinə yetirərkən, valideynlərin öz dini və fəlsəfi baxışlarına müvafiq olan təhsil və tədrisi təmin etmək hüququna hörmət edir.

17. **Təqsirsizlik prezumpsiyası** (lat. praesumptio – güman) – hüququn əsas prinsiplərindən biri olub, təqsirləndirilən şəxsin təqsirinin qanunla müəyyən edilmiş qaydada sübuta yetirilənədək təqsirsiz hesab edilməsində ifadə olunur. Azərbaycan Respublikası Konstitusiyasının 63-cü maddəsinə əsasən, hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır. Şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa, onun təqsirli bilinməsinə yol verilmir. Cinayətin törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsizliyini sübuta yetirməyə borclu deyildir. Ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz. Məhkəmənin hökmü olmasa, kimsə cinayətdə təqsirli sayıla bilməz. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 21-ci maddəsinə uyğun olaraq, cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs onun təqsiri bu Məcəllədə nəzərdə tutulmuş qaydada sübuta yetirilməyibsə və bu barədə qanuni qüvvəyə minmiş məhkəmənin hökmü yoxdursa, təqsirsiz sayılır. Şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa da, onun təqsirli bilinməsinə yol verilmir. Bu Məcəllənin müddəalarına uyğun surətdə müvafiq hüquqi prosedur daxilində ittihamın sübuta yetirilməsində aradan qaldırılması mümkün olmayan şübhələr təqsirləndirilən şəxsin (şübhəli şəxsin) xeyrinə həll edilir. Eyni ilə cinayət və cinayət-prosessual qanunlarının tətbiqində aradan qaldırılmamış şübhələr də onun xeyrinə həll olunmalıdır. Cinayət törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsiz olmasını sübuta yetirməyə borclu deyildir. İttihamı sübuta yetirmək, şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəsi üçün irəli sürülən dəlilləri təkzib etmək vəzifəsi ittiham tərəfinin üzərinə düşür.

18. **Təqsirsizlik prezumpsiyası hüququ** – Bax: təqsirsizlik prezumpsiyası.

19. **Tətil hüququ** – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 36-cı maddəsinə əsasən, hər kəsin təkbaşına və ya başqaları ilə birlikdə tətil etmək hüququ vardır. Əmək müqaviləsi əsasında işləyənlərin tətil etmək hüququ yalnız qanunla nəzərdə tutulmuş hallarda məhdudlaşdırıla bilər. Azərbaycan

Respublikasının Silahlı Qüvvələrində xidmət edən hərbi qulluqçular və mülki şəxslər tətil edə bilməzlər. Fərdi və kollektiv əmək mübahisələri qanunla müəyyənləşdirilmiş qaydada həll edilir. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, lokaut qadağandır. İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 8-ci maddəsinə görə, bu Paktda iştirak edən dövlətlər hər bir ölkənin qanunlarına uyğun şəkildə keçirilməklə tətil hüququnu təmin etməyi öhdələrinə götürürlər. Dəyişdirilmiş Avropa Sosial Xartiyasının 6-cı maddəsinə müvafiq olaraq, kollektiv müqavilələr bağlamaq hüququnun səmərəli həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər maraqların toqquşması hallarında işçilərin və işəgötürənlərin əvvəlcədən bağlanmış kollektiv müqavilələrdən irəli gələ biləcək öhdəliklərə riayət etmək şərtilə kollektiv fəaliyyət hüququnu, o cümlədən tətil etmək hüququnu tanıyırlar.

20. **Tibbi hüquq** – tibbi fəaliyyət sahəsində və tibbi xidmətlərin göstərilməsi ilə bağlı yaranan münasibətləri tənzimləyən hüquq normalarının məcmusu.
21. **Tibbi sığorta** – Tibbi sığorta haqqında Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli Qanununa əsasən, tibbi sığorta sağlamlığın qorunması sahəsində əhalinin sosial müdafiəsi forması olmaqla, sığorta hadisəsi baş verdikdə sığortaolunanın tibbi xidmət almasına, dərman və tibb vasitələri ilə təchizatına təminat verir. Tibbi sığorta icbari və könüllü formada həyata keçirilir. İcbari tibbi sığorta dövlət sosial sığortasının tərkib hissəsi olmaqla, sığorta hadisəsi zamanı icbari tibbi sığortanın maliyyə mənbələri hesabına və xidmətlər zərfi çərçivəsində sığortaolunanların tibbi yardım almasını, habelə onların dərman və tibb vasitələrindən istifadə etməsini təmin edir. Könüllü tibbi sığorta sığortaolunanların əlavə tibbi xidmət və dərman yardımı almasını təmin edir.
22. **Tibbi sığorta haqqında Azərbaycan Respublikasının Qanunu** – əhalinin tibbi sığortasının təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edən, tibbi sığortanın subyektləri arasındakı münasibətləri tənzimləyən qanunvericilik aktı. 28 oktyabr 1999-cu ildə qəbul edilmişdir.
23. **Tolerantlıq** (lat. tolerantia – dözüm) – başqa, qeyri dünyagörüşü, adət, ənənə, həyat tərzi, davranış, baxış, fikir, dil, din, etiqada insan hüquqlarına və azadlıqlarına hörmət əsasında dözümlü münasibət. UNESCO tərəfindən 1995-ci ildə qəbul edilmiş Tolerantlıq prinsipləri haqqında Bəyannaməyə əsasən, tolerantlıq – dünya mədəniyyətlərinin, özünüifadənin və insan fərdiyyətinin təzahür üsullarının zəngin müxtəlifliyinə hörmət olunması, onun qəbul edilməsi və düzgün anlaşılmasıdır. Ətrafdakılara

qarşı dözümlü münasibətlə bağlı ilk fikirlərə hələ qədim yunan filosofu Aristotelin (b.e.ə. 384-322) əsərlərində rast gəlinir. Aristotel qeyd edirdi ki, insan tanıdıqlarına və tanımadıqlarına, yaxınlarına və özgələrə münasibətdə eyni cür davranmalıdır. Dözümlülüklə bağlı fikirlər ingilis filosofu Con Lokkun (1632-1704) və alman filosofu İmmanuel Kantın (1724-1804) əsərlərində daha da inkişaf etdirilmişdir. İ.Kant öz əsərlərində birbaşa olaraq "tolerantlıq" terminindən istifadə etməsə də, qeyd edirdi ki, dözümlülüyün təminatı insan hüquqlarıdır. Tanınmış ingilis filosofu Con Mill (1806-1873) "Azadlıq haqqında" əsərində (1859) dözümlülüyün cəmiyyətin inkişafına təkan verdiyini elmi cəhətdən əsaslandırmışdır. Tolerantlıq terminini elmi ədəbiyyata ilk dəfə olaraq fransız filosofu və siyasi xadimi Antuan de Trasi (1754-1836) gətirmişdir.

24. **Tolerantlıq prinsipləri haqqında Bəyannamə –** UNESCO-nun Baş Konfransının 5.61 saylı, 16 noyabr 1995-ci il tarixli qətnaməsi ilə qəbul edilmiş beynəlxalq sənəd. Bəyannaməyə əsasən, tolerantlıq – dünya mədəniyyətlərinin, özünüifadənin və insan fərdiyyətinin təzahür üsullarının zəngin müxtəlifliyinə hörmət olunması, onun qəbul edilməsi və düzgün anlaşılmasıdır. Bilik, aşkarlıq, ünsiyyət və fikir, vicdan və əqidə azadlığı tolerantlığa zəmin yaradır. Tolerantlıq – müxtəliflikdə bir harmoniyadır. Tolerantlıq yalnız mənəvi borc deyil, o həm də siyasi və hüquqi ehtiyacdır. Tolerantlıq – sülhün əldə edilməsini mümkün edən və müharibə mədəniyyətinin sülh mədəniyyəti ilə əvəz edilməsinə səbəb olan yaxşılıqdır. Tolerantlıq güzəşt, mərhəmət və iltifat deyildir. Tolerantlıq ilk növbədə universal insan hüquq və azadlıqlarının tanınması əsasında formalaşan fəal münasibətdir. Tolerantlıq – insan hüquqlarının, plüralizmin (o cümlədən mədəni plüralizmin), demokratiyanın və hüquq qaydasının bərqərar olmasına kömək olan öhdəlikdir. Dövlət səviyyəsində tolerantlıq ədalətli və qərəzsiz qanunvericilik, hər bir şəxsə hər hansı bir ayrı-seçkiliyə yol vermədən onun iqtisadi və sosial inkişafı üçün imkanların yaradılmasını tələb edir. Bəyannaməyə əsasən, 16 noyabr tarixi Beynəlxalq Tolerantlıq Günü elan edilmişdir.

25. **Totalitar dövlət –** cəmiyyətin və insanların həyat və fəaliyyətinə tam (total) nəzarəti həyata keçirən, ictimai münasibətlərin və insanların həyatının bütün sferalarını tam şəkildə tənzimləyən, insanın təbii hüquq və azadlıqlarını tanımayan dövlət.

26. **Totalitarizm** (lat. totalis – tam, bütün) **–** hakimiyyətin cəmiyyətin və insanların həyat və fəaliyyətinə tam nəzarət etdiyi, ictimai münasibətlərin bütün sferalarını formalaşdırdığı və tənzimlədiyi, insanın təbii hüquq və azadlıqlarını tanımayan siyasi rejim.

27. **Törəmə hüquqlar –** əsas, konstitusion hüquqlardan törəyərək ayrı-ayrı normativ hüquqi aktlarda təsbit olunmuş hüquqlar.
28. **Transplantasiya –** sübutlu təbabətə əsaslanan bütün digər müalicə üsulları effekt vermədikdə insan həyatının xilas edilməsi və sağlamlığının bərpası üçün cərrahiyyə əməliyyatı aparmaqla xəstəliyi olan şəxsdə olmayan və ya funksiyasını itirmiş orqanların donordan alınmış orqanlarla əvəz edilməsi. İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında Azərbaycan Respublikasının 20 oktyabr 2020-ci il tarixli Qanununa əsasən, orqan donorluğu və transplantasiya qanunçuluq, humanizm, könüllülük, həmrəylik, şəfqət və təmənnasızlıq prinsiplərinə əsaslanır.
29. **Tribunal –** Bax: beynəlxalq tribunal.
30. **Turist –** Turizm haqqında Azərbaycan Respublikasının 27 dekabr 2021-ci il tarixli Qanununa əsasən, turizm məqsədilə səyahət etdiyi ölkədə (yerdə) 90 günədək müvəqqəti olan fiziki şəxs. Turistlərin aşağıdakı hüquqları vardır: getdiyi ölkənin (yerin) ərazisinə daxil olma, orada olma qaydaları, yerli əhalinin adətləri, dini mərasimlər, müqəddəs yerlər, xüsusi mühafizə olunan təbiət, tarix, mədəniyyət abidələri və digər turizm obyektləri, ətraf mühitin vəziyyəti barədə məlumat almaq; müvəqqəti olduğu ölkədə (yerdə) mövcud olan məhdudiyyətlər nəzərə alınmaqla, hərəkət-yerdəyişmə hüququndan, turizm ehtiyatlarından istifadə etmək; təxirəsalınmaz tibbi yardım almaq; şəxsi və əmlak təhlükəsizliyinin təmin edilməsini, fərdi məlumatlarının qorunmasını tələb etmək; təklif edilən turizm zərfinin (turizm xidmətinin) xüsusiyyətləri, turizm xidmətlərinin göstərilməsi üzrə müqavilənin şərtləri haqqında tam, dəqiq və düzgün məlumat almaq; turizm zərfinin (xidmətinin) satışına dair müqavilə şərtlərinin yerinə yetirilmədiyi hallarda ona dəymiş maddi və mənəvi zərərin ödənilməsini tələb etmək. Turistlərin vəzifələri aşağıdakılardır: müvəqqəti olduğu ölkənin (yerin) qanunvericiliyinə riayət, adət-ənənələrinə və dini etiqadlarına hörmət etmək; müvəqqəti olduğu ölkənin (yerin) təbii, tarixi və mədəni irsinə qayğı ilə yanaşmaq, onların mühafizəsi ilə bağlı qaydalara əməl etmək və ətraf mühitə ziyan vurmamaq; müvəqqəti olduğu ölkənin (yerin) konstitusiya quruluşunun, suverenliyinin, ərazi bütövlüyünün, dövlət təhlükəsizliyinin və ictimai asayişin pozulmasına yönəlmiş hərəkətlərə, həmin ölkədə (yerdə) əhalinin sağlamlığına zərər vura bilən, habelə həmin ölkənin (yerin) qanunvericiliyi ilə qadağan edilən digər hərəkətlərə yol verməmək; yerləşmə vasitələrində, istirahət və gəzinti yerlərində daxili intizam, yanğın təhlükəsizliyi və sanitariya-gigiyena qaydalarına əməl etmək.

31. Türk Dövlətləri Təşkilatı – Türk Dövlətləri Təşkilatının (TDT) yaradılması haqqında 3 oktyabr 2009-cu il tarixli Naxçıvan Sazişinə əsasən təsis edilmiş beynəlxalq hökumətlərarası təşkilat. Təşkilatın təsisçi dövlətləri Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstandır. Təsis sənədində qeyd edilir ki, sazişin tərəfləri olan türkdilli dövlətlər xalqları arasındakı tarixi bağlara, ümumi dil, mədəniyyət və ənənələrə əsaslanaraq, bundan sonra da hərtərəfli əməkdaşlığın dərinləşməsinə səy göstərərək, siyasi çoxqütblülük, iqtisadi və informasiya qlobalizasiyası proseslərinin inkişafı şəraitində regionda sülhün möhkəmləndirilməsi, təhlükəsizlik və sabitliyin təmin edilməsinə birgə töhfə verilməsini arzulayaraq, ümumi qurum çərçivəsində qarşılıqlı əlaqənin dövlətlər və onların xalqları arasında xoş qonşuluq, vahidləşmə və əməkdaşlıq üçün geniş potensialdan faydalanmağa şərait yaratdığını hesab edərək, türk dövlətləri başçılarının Zirvə Toplantısında təsdiqini tapmış qarşılıqlı etimad, qarşılıqlı fayda, bərabərlik ruhu, qarşılıqlı məsləhətləşmələr və ümumi inkişafa yönəlmiş niyyətlərdən çıxış edərək, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin məqsəd və prinsiplərinə, beynəlxalq hüququn ümumi qəbul olunmuş prinsip və normalarına, o cümlədən suveren bərabərlik, ərazi bütövlüyü və dövlətlərin beynəlxalq tanınmış sərhədlərinin toxunulmazlığı, həmçinin beynəlxalq sülh, təhlükəsizlik, xoş qonşuluq və dostluq münasibətlərinin inkişafının qorunması və dövlətlər arasında əməkdaşlıq prinsiplərinə sadiqliklərini təsdiq edirlər. TDT-nin əsas məqsəd və vəzifələri bunlardır: tərəflər arasında qarşılıqlı etimad, dostluq və xoş qonşuluğun möhkəmləndirilməsi; regionda və ümumilikdə dünyada sülhün qorunması, təhlükəsizlik və etimadın gücləndirilməsi; qarşılıqlı maraq doğuran xarici siyasət məsələləri, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində və beynəlxalq forumlardakı məsələlər üzrə ümumi yanaşmanın araşdırılması; beynəlxalq terrorizm, separatçılıq, ekstremizm, insan alveri, narkobiznesə qarşı mübarizədə fəaliyyətin əlaqələndirilməsi, həmçinin narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə nəzarət üzrə beynəlxalq siyasətə yardım göstərilməsi; siyasi, ticari-iqtisadi, hüquq-mühafizə, təbiətin mühafizəsi, mədəni, elmi-texniki, hərbi-texniki, təhsil, enerji, nəqliyyat, kredit-maliyyə və ümumi maraq kəsb edən digər sahələrdə səmərəli regional və ikitərəfli əməkdaşlığın təşviqi; əmtəələrin, kapitalın, xidmət və texnologiyaların hərəkətinin asanlaşdırılması, maliyyə və bank əməliyyatlarının sadələşdirilməsi məqsədilə ticarət, investisiyalar, gömrük və tranzit prosedurlarının gələcəkdə sadələşdirilməsi üçün əlverişli şəraitin yaradılması; tərəflərin xalqlarının

həyat səviyyəsinin daim yüksəldilməsi və həyat şəraitinin yaxşılaşdırılması məqsədilə bərabərhüquqlu tərəfdaşlıq əsasında birgə fəaliyyət vasitəsilə regionda hərtərəfli və balanslaşdırılmış iqtisadi yüksəlişə, sosial və mədəni inkişafa səy göstərilməsi; beynəlxalq hüququn ümumi qəbul olunmuş prinsip və normalarına uyğun olaraq qanunun aliliyi, səmərəli idarəçilik və əsas insan hüquq və azadlıqlarının təminatı üzrə məsələlərin müzakirəsi; elm, texnika, təhsil, səhiyyə, mədəniyyət, gənclər, idman və turizm sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi; türk xalqlarının böyük mədəni-tarixi irsinin təbliği, tanınması və yayılmasında kütləvi informasiya vasitələri arasında qarşılıqlı əlaqənin və tərəflər arasında təmasların təşviqi; qarşılıqlı əlaqənin inkişafı məqsədilə hüquqi məlumatın mübadiləsi, qarşılıqlı hüquqi yardımın göstərilməsi və hüquqi münasibətlərin müxtəlif sahələrində əməkdaşlıq üzrə məsələlərin müzakirəsi. TDT-nin strukturu aşağıdakı kimidir: Dövlət Başçıları Şurası; Xarici İşlər Nazirləri Şurası; Yüksək Vəzifəli Şəxslər Komitəsi; Türk Dövlətlərinin Ağsaqqallar Şurası; Katiblik. TDT-nin işçi dilləri Tərəflərin dövlət dilləri və ingilis dilidir. Təşkilat yaradılarkən adı Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası olub. 2021-ci ildə təşkilatın adına dəyişiklik edilmiş və hazırda Türk Dövlətləri Təşkilatı adı ilə fəaliyyətini davam etdirir. Hazırda təşkilatın 5 üzv dövləti var: Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyə. Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikası isə təşkilatda müşahidəçi statusa malikdir. Təşkilatın mənzil-qərargahı Türkiyənin İstanbul şəhərində yerləşir. TDT-nin Dövlət Başçıları Şurasının iclasına (Zirvə Görüşü) ev sahibliyi edən üzv ölkə növbəti zirvəyə qədər TDT-yə sədrlik edir. Türk dövlətlərinin parlamentləri arasında əməkdaşlığın dərinləşdirilməsi məqsədilə TDT-nin əlaqəli təşkilatı kimi 21 noyabr 2008-ci il tarixli İstanbul Sazişinə uyğun olaraq Türk Dövlətlərinin Parlament Assambleyası (TÜRKPA) fəaliyyət göstərir. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) TDT-nin əlaqəli, Türk Akademiyası və Türk Mədəniyyəti və İrsi Fondu isə TDT-yə bağlı təşkilatlar kimi öz səlahiyyətləri çərçivəsində elm və təhsil sahəsində əməkdaşlığı, Türk dünyasının ümumi dəyərlərinin yayılması və tanınması, eləcə də Türk mədəniyyəti və irsinin qorunması və təşviqini həyata keçirir. Türk Akademiyası 2010-cu ildə Qazaxıstanda qeydiyyatdan keçmiş təşkilat olaraq fəaliyyətə başlayıb. Akademiyanın yaradılması haqqında Saziş 22-23 avqust 2012-ci il tarixlərində TDT-nin Bişkekdə keçirilmiş ikinci Zirvə Görüşündə imzalanıb və Akademiyaya beynəlxalq status verilib. Türk Akademiyası Astana şəhərində yerləşir. Türk xalqlarının dili,

ədəbiyyatı, mədəniyyəti və etnoqrafiyasının tədqiqini koordinasiya və təşviq etmək məqsədilə fəaliyyət göstərir. Akademiyanın digər fəaliyyət məqsədləri türk xalqlarının mədəni və mənəvi irsinin tədqiq edilməsi ilə yanaşı dünya sivilizasiyasının inkişafında payının artırılması, dünya ictimaiyyətinin türk xalqlarının nailiyyətləri haqqında məlumatlandırılmasıdır. Türk Mədəniyyəti və İrsi Fondu 22-23 avqust 2012-ci ildə Bişkekdə keçirilmiş ikinci Zirvə Görüşündə yaradılıb və Nizamnaməsi imzalanıb. Qərargahı Bakı şəhərində yerləşir. Fond türk dünyası ilə bağlı müxtəlif tədbirlər, layihələr və proqramları maliyyələşdirmək və dəstəkləmək yolu ilə türk mədəniyyətinin və irsinin qorunmasına, tədqiqinə və təbliğinə köməklik göstərir. Türk Biznes Şurası 2011-ci ildə təsis edilib. Qurum TDT-yə üzv ölkələrin işgüzar dairələri və digər təşkilatları vasitəsilə türkdilli ölkələr arasında iqtisadi əməkdaşlığın dərinləşdirilməsini həyata keçirir. Türk Ticarət və Sənaye Palatası 2019-cu ildə təsis edilib. Üzv ölkələrin işgüzar dairələri, ticarət və sənaye palataları vasitəsilə türkdilli ölkələr arasında iqtisadi əməkdaşlığın dərinləşdirilməsini həyata keçirir. Türk İnvestisiya Fondu 2022-ci ilin 11 noyabr tarixində Səmərqənddə keçirilmiş doqquzuncu Zirvə Görüşündə yaradılmış TDT-nin ilk ortaq maliyyə qurumudur. Fond təşkilata üzv dövlətlər arasında ticari-iqtisadi əməkdaşlığı gücləndirmək və birgə layihələr həyata keçirmək məqsədi daşıyır. Naxçıvan Sazişinə uyğun olaraq ildə bir dəfə TDT-nin Zirvə Görüşləri və bir gün öncə TDT Xarici İşlər Nazirləri Şurasının görüşləri keçirilir. 06 iyul 2024-cü il tarixində Şuşada (Azərbaycan) Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilmişdir. Görüş çərçivəsində Qarabağ Bəyannaməsi imzalanmışdır. 2025-ci il oktyabrın 7-də Qəbələ şəhərində (Azərbaycan) TDT Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirilmişdir. Görüşün yekunu olaraq 12-ci Zirvə Görüşünün Bəyannaməsi imzalanmışdır.

U

1. **Ubi culpa est, ibi poena subesse debet** (lat.) – təqsir olan yerdə cəza da olmalıdır.
2. **Ubi jus ibi remedium** (lat.) – hüquq olan yerdə onun müdafiə vasitəsi də olmalıdır.
3. **Ubi jus incertum, ibi nullum** (lat.) – əgər qanun qeyri-müəyyəndirsə, o, mövcud deyildir.
4. **Ubi non est lex, ibi non est transgressio quoad mundum** (lat.) – qanun olmayan yerdə pozuntu da yoxdur.
5. **UNESCO** – Bax: Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı.
6. **Unitar dövlət** (lat. unus, uni – bir, tək; fr. unitaire – vahid) – ərazisi inzibati ərazi vahidlərindən (rayon, şəhər, şəhər rayonu və s.) ibarət olan dövlət. Dövlət nəzəriyyəsində yalnız inzibati ərazi vahidlərindən ibarət olan dövlət sadə unitar dövlət, tərkibində bir və ya bir neçə muxtar vilayət, yaxud muxtar respublika olan dövlət isə mürəkkəb unitar dövlət adlanır. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır.
7. **Universal Dövri İcmal** (ing. Universal Periodic Review) – BMT Baş Assambleyasının 15 mart 2006-cı il tarixli, 60/251 saylı Qətnaməsi ilə yaradılmış İnsan Hüquqları Şurası tərəfindən BMT-nin bütün üzv dövlətlərində insan hüquqları sahəsində standartların və öhdəliklərin yerinə yetirilməsinə nəzarət məqsədilə həyata keçirilən mexanizm. İcmalın əsas məqsədləri yerlərdə insan hüquqları sahəsində vəziyyətin yaxşılaşdırılması; dövlətlər tərəfindən insan hüquqları sahəsində öhdəliklərin yerinə yetirilməsi və bu sahədə pozitiv dəyişikliklərin və problemlərin qiymətləndirilməsi; dövlətlərin insan hüquqları sahəsində potensialının gücləndirilməsi; dövlətlər arasında "ən yaxşı təcrübə" nümunəsinin mübadiləsi; insan hüquqlarının təşviqi və müdafiəsi sahəsində əməkdaşlığın dəstəklənməsi; İnsan Hüquqları Şurası ilə, digər hüquq müdafiə orqanları ilə və İnsan Hüquqları üzrə Ali Komissarın İdarəsi ilə hərtərəfli əməkdaşlığın təşviqidir. İcmal bu sənədlər əsasında həyata keçirilir: müvafiq dövlətin milli məruzəsi; İnsan Hüquqları üzrə Ali Komissarın İdarəsi tərəfindən hazırlanan məlumat və milli insan hüquqları təsisatları və qeyri-hökumət təşkilatları tərəfindən təqdim olunan məruzələr. İcmal hər bir dövlətə insan hüquqları sahəsində görülən işlər, əldə edilən nailiyyətlər və mövcud çətinliklər barədə məlumat verməyə imkan verir. İcmal çərçivəsində döv-

lətlərə insan hüquqları sahəsində mövcud problemlərin həlli və çətinliklərin aradan qaldırılması məqsədilə potensialın möhkəmləndirilməsi üzrə yardım göstərilir. İcmal Şuranın 47 üzvündən ibarət işçi qrupu tərəfindən həyata keçirilir. Hər bir dövlətin İcmaldan keçirilməsinə üç məruzəçi-dövlətdən ibarət olan qrup ("troyka") yardım edir. İcmal keçirildikdən sonra işçi qrupu tərəfindən özündə İcmalın yekunlarını və tövsiyələri əks etdirən "yekun sənəd" qəbul edilir. Hal-hazırda İcmal bu sahədə mövcud olan yeganə universal mexanizmdir.

8. **Uşağın ad və vətəndaşlıq almaq hüququ –** Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli Qanununa əsasən, hər bir uşaq doğulduqdan sonra Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq qeydiyyata alınır və "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş hallar istisna olmaqla, vətəndaşlıq əldə edir. Uşağa ad valideynlərinin qarşılıqlı razılığı ilə, valideynləri olmadıqda isə qəyyumluq orqanlarının razılığı və ya göstərişi əsasında verilir (maddə 10).

9. **Uşağın ailədə yaşamaq hüququ –** Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli Qanununa əsasən, uşağın ailədə valideynləri ilə birgə yaşamaq, onlardan qayğı görmək hüququ vardır. Qanunvericiliklə nəzərdə tutulmuş hallardan başqa, valideynlərin istəyinə zidd olaraq uşağı onlardan ayırmaq qadağandır (maddə 17).

10. **Uşağın azadlıq və şəxsi toxunulmazlıq hüququ –** Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli Qanununa əsasən, uşaq azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir. Müstəsna hal kimi uşağın tutulmasına, həbs edilməsinə yalnız Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş əsaslar mövcud olduqda yol verilə bilər. Uşaq tutulduqda və ya həbs edildikdə bu barədə onun valideynlərinə və ya digər qanuni nümayəndələrinə dərhal məlumat verilməlidir. Uşaqların hüquqları və qanuni mənafeləri pozulduqda, o cümlədən valideynləri (onlardan biri) uşağın təhsili, tərbiyəsi üzrə vəzifələrini yerinə yetirmədikdə və ya valideynlik hüquqlarından sui-istifadə etdikdə uşaq öz hüquqlarını qorumaq üçün müvafiq icra hakimiyyəti orqanlarına, 14 yaşına çatdıqda isə məhkəməyə müraciət etmək hüququna malikdir. İstənilən fiziki və ya hüquqi şəxs uşaqlarla qəddar rəftar hallarını müşahidə etdikdə belə rəftarın qarşısının alınması üçün müvafiq orqanlara müraciət edə bilər. Valideynlərin və ya digər şəxslərin uşaqlarla qəddar rəftara yol verməsi, onlara qarşı psixi və fiziki zor tət-

biq etməsi, uşaqların hüquqlarını pozması Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada valideynlik hüquqlarından məhrum edilməyə, habelə inzibati və ya cinayət məsuliyyətinə səbəb olur (maddə 12).

11. **Uşağın əmək hüquqları –** Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli Qanununa əsasən, uşaqların yaşına, səhhətinə, ümumtəhsil və peşə hazırlığı səviyyəsinə uyğun olaraq əmək hüququ vardır. Uşaqların əmək hüququnun yaranmasının və həyata keçirilməsinin şərtləri Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə müəyyən edilir (maddə 24).
12. **Uşağın həyatı və sağlamlığının mühafizəsi hüququ –** Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli Qanununa əsasən, hər bir uşağın həyat və sağlamlığının mühafizə edilməsi hüququ vardır. Dövlət uşaqların həyatının mühafizəsi və sağlam inkişafını təmin edir, ekoloji təhlükəsizliyini təmin edən şərait yaradır, onların keyfiyyətli yeməklə, içməli təmiz su ilə təchizi üçün müvafiq tədbirlər görür. Uşaqların "Uşaqların icbari dispanserizasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dispanserizasiyadan keçmək, dispanserizasiyanın nəticələrindən asılı olaraq tibbi göstərişlər əsasında ambulator, stasionar və ya sanatoriya – kurort şəraitində tibbi yardım almaq, dispanserizasiyanın nəticələri, o cümlədən aparılmış müayinə-müalicə tədbirləri, habelə sağlamlığının vəziyyəti haqqında tam və obyektiv məlumat almaq hüquqları vardır. Alkoqollu və energetik içkilərin, tütün məmulatlarının uşaqlara satılması, əmək şəraiti ağır, zərərli olan iş yerlərində, habelə yeraltı tunellərdə, şaxtalarda və digər yeraltı işlərdə, uşaqların əxlaqi kamilliyinə mənfi təsir göstərən gecə klublarında, barlarda, alkoqollu və energetik içkilərin, tütün məmulatlarının, toksik preparatların istehsalı, daşınması, satışı və saxlanılması işlərində, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə bağlı olan və uşaqların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən digər işlərdə uşaq əməyinin tətbiq edilməsi qadağandır (maddə 9).
13. **Uşağın istirahət hüququ –** Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli Qanununa əsasən, hər bir uşağın istirahət və asudə vaxtdan istifadə etmək hüququ vardır. Uşaq öz maraqlarına və qabiliyyətinə uyğun olaraq məktəbdənkənar istirahət və məşğuliyyət növü seçməkdə müstəqildir. Valideynlər (onları əvəz edən digər şəxslər) və müvafiq dövlət orqanları uşaqların istirahət və asudə

vaxtlarında mənfi təsirlərə məruz qalmasının qarşısını alan tədbirlər görməlidirlər. Dövlət uşaqların istirahət və asudə vaxtını səmərəli təşkil etmək, mədəni həyata və yaradıcılıq fəaliyyətinə qovuşmasını təmin etmək məqsədilə məktəbdənkənar müəssisələrin, uşaq və gənclər idman, mədəniyyət və sağlamlıq ocaqlarının və digər istirahət yerlərinin geniş şəbəkəsini yaradır və inkişaf etdirir, bu obyektlərdən pulsuz və güzəştli istifadə qaydalarını müəyyən edir. Xüsusi dövlət əhəmiyyətli işlərin görülməsi ilə bağlı hallar istisna olmaqla uşaqların məktəbdənkənar istirahət və asudə vaxtlarının təşkili ilə bağlı yerlərin ləğvi və başqa məqsədlər üçün istifadə olunması qadağandır. Dövlət və bələdiyyə bədən tərbiyəsi-idman təşkilatlarında aztəminatlı ailələrdən olan uşaqlara, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara, məktəbəqədər yaşlı uşaqlara, sağlamlıq imkanları məhdud uşaqlara bədən tərbiyəsi-idman xidmətləri pulsuz göstərilir (maddə 25).

14. **Uşağın istismardan və zərərli təsirlərdən mühafizəsi –** Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli Qanununa əsasən, dövlət sosial, hüquqi, iqtisadi, tibbi və tərbiyəvi vasitələrlə uşaqları istismarın bütün növlərindən, ağır, zərərli və təhlükəli əməkdən və təsirlərdən mühafizə edir (maddə 28).
15. **Uşağın məlumat azadlığı –** Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli Qanununa əsasən, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hər bir uşağın əqli və fiziki inkişafı üçün zəruri olan istənilən məlumatı axtarmaq, əldə etmək, ötürmək və yaymaq hüququ vardır. Uşaqların zərərli informasiyadan qorunması "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir (maddə 15).
16. **Uşağın mənzil hüququ –** Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli Qanununa əsasən, hər bir uşağın mənzil hüququ vardır. Uşaqların yaşadıqları mənzil sahəsinə ailənin digər üzvləri ilə bərabər hüquqları vardır. Valideyn himayəsindən məhrum olmuş uşaqlar tərbiyə olunmaq üçün dövlət uşaq müəssisəsinə, qohumlarına və ya qəyyumlara (himayəçilərə) verildikdə əvvəl yaşamış olduqları mənzilə hüquqlarını saxlayırlar. Bu mənzilə köçmək mümkün olmadıqda həmin uşaqlar, habelə əvvəllər mənzil sahəsi olmayan valideyn himayəsindən məhrum uşaqlar mənzillə növbədənkənar təmin edilməlidirlər. Həmin mənzillərlə əlaqədar müqavilələrin bağlanması Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq həyata keçirilir. Sosial müdafiəyə ehtiyacı olan aztəminatlı gənclərə aid olan uşaqlara Azərbaycan Respub-

likasının Mənzil Məcəlləsi ilə müəyyən edilmiş qaydada sosial kirayə müqaviləsi əsasında yaşayış sahələri verilir (maddə 20).

17. **Uşağın şərəf və ləyaqətinin müdafiəsi hüququ –** Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli Qanununa əsasən, hər bir uşağın şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır. Təhsil müəssisələrində intizam qaydaları ədalət prinsipinə əsaslanmalı, tərbiyəedici və qarşılıqlı hörmət ruhunda olmalıdır. Uşaqların təhqir edilməsi, şəxsiyyətlərinin alçaldılması yolverilməzdir (maddə 27).
18. **Uşağın təhsil almaq hüququ –** Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli Qanununa əsasən, hər bir uşağın Azərbaycan Respublikasının təhsil qanunvericiliyinə uyğun olaraq təhsil almaq hüququ vardır. Dövlətin təhsil sistemi uşağın şəxsiyyətinin inkişafına, zəruri bilik və bacarıqları tam həcmdə əldə etməsinə şərait yaratmalıdır. Uşaqların icbari ümumi orta təhsildən yayındırılması qadağandır (maddə 22).
19. **Uşağın tərbiyə almaq hüququ –** Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli Qanununa əsasən, hər bir uşağın hərtərəfli inkişaf etmək, milli və ümumbəşəri dəyərlərə uyğun, humanizm və əxlaqi prinsiplər əsasında tərbiyə almaq hüququ vardır. Uşağın tərbiyəsi ailədə və təhsil müəssisəsində aparılır. Dövlət uşaqların yaradıcılıq qabiliyyətinin, estetik tərbiyəsinin inkişafı üçün müxtəlif müəssisələr yaradır, habelə belə müəssisələrin yaradılmasında ictimai təşkilatlara köməklik göstərir. Zorakılıq, qəddarlıq təbliğ edən və ya erotika və pornoqrafiya mövzusunda olan, habelə uşaqların psixi və mənəvi inkişafına zərərli təsir göstərən filmlərin, ədəbiyyatların və digər vəsaitlərin uşaqlar arasında yayılması və nümayişi, habelə bunların hazırlanmasına uşaqların cəlb edilməsi qadağandır (maddə 11).
20. **Uşağın vərəsəlik və valideynlərinin əmlakı hesabına saxlanma hüququ –** Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli Qanununa əsasən, hər bir uşağın valideynlərinin, övladlığa götürülənlərin əmlakına dair vərəsəlik, məhkəmənin qərarı ilə valideynlərdən hər ikisi və ya biri xəbərsiz itkin düşmüş və ya ölmüş elan edildikdə isə onların əmlakı hesabına saxlanmaq hüququ vardır (maddə 21).
21. **Uşağın vicdan, fikir və söz azadlığı –** Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli Qanununa əsasən, hər bir uşağın vicdan, fikir və söz azadlığı vardır. Valideynlər, digər şəxslər və dövlət orqanları uşağın vicdan, fikir və söz azadlığına hörmətlə yanaşmalıdırlar. Uşağın səhhətinə zərərli təsir göstərən dini ayinlərin icrasına cəlb edilməsi qadağandır (maddə 14).

22. **Uşağın yaşamaq və inkişaf etmək hüququ –** Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli Qanununa əsasən, hər bir uşağın yaşamaq, normal şəraitdə fiziki, əqli və mənəvi cəhətdən inkişaf etmək hüququ vardır. Dövlət bu şəraiti təmin edən iqtisadi, sosial-hüquqi və digər tədbirlər görməyi, sağlam və təhlükəsiz mühit yaratmağı öz öhdəsinə götürür (maddə 8).
23. **Uşağın zəruri maddi təminat hüququ –** Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli Qanununa əsasən, uşağın Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş minimum dolanacaq xərclərindən az olmayan maddi təminat almaq hüququ vardır (maddə 13).
24. **Uşaq hüquqları –** uşaqların fizioloji xüsusiyyətlərindən və sosial statuslarından irəli gələn hüquqların məcmusu. 18 yaşına (yetkinlik yaşına) çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən hər bir şəxs uşaq sayılır. Uşaq hüquqları hər bir uşağın hər hansı bir əlamətə görə ayrı-seçkilik olmadan malik olmalı olduğu əsas hüquq və azadlıqlar kompleksidir. Uşaq hüquqları sahəsində ilk təşkilatlar sırasında 1919-cu ilin mayında Londonda təsis edilən "Save the Children" təşkilatını və onun bir qolu kimi 1919-cu ilin noyabrında İsveçdə təsis olunmuş "Radda Barnen" təşkilatını qeyd etmək olar. "Save the Children" təşkilatının ilkin məqsədi uşaqların müdafiəsi üçün beynəlxalq alyansın yaradılması olmuşdur. Uşaq hüquqlarına dair ilk mühüm beynəlxalq sənədlərdən biri 26 noyabr 1924-cü ildə Cenevrədə Millətlər Liqası tərəfindən qəbul edilmiş Uşaq hüquqları Bəyannaməsidir. Bəyannamə özündə 5 mühüm prinsipi əks etdirirdi: 1) hər bir uşaq onun normal fiziki və mənəvi inkişafı üçün zəruri olan vasitələrlə təmin edilməlidir; 2) ac olan uşağa qida verilməlidir; xəstə uşağa tibbi yardım göstərilməlidir; səhv edən uşaq düzəldilməlidir; kimsəsiz və evsiz uşaqlar isə sığınacaqla təmin edilməlidirlər; 3) çətin zamanlarda, ilk növbədə, uşaqlar yardım almalıdırlar; 4) uşaqlar sevgi mühitində böyüməlidirlər və hər növ istismar formalarından müdafiə olunmalıdırlar; 5) uşaqlar onların ən yaxşı keyfiyyətlərinin digər insanların xeyrinə xidmət etməli olduqları düşüncəsində tərbiyə olunmalıdırlar. Uşaq hüquqları sahəsində bir sıra mühüm beynəlxalq-hüquqi aktlar mövcuddur. Bunların sırasında BMT Baş Assambleyasının 1386 (XIV) saylı, 20 noyabr 1959-cu il tarixli qətnaməsi ilə qəbul edilmiş Uşaq hüquqları haqqında Bəyannamə və BMT Baş Assambleyasının 44/25 saylı, 20 noyabr 1989-cu il tarixli qətnaməsi ilə qəbul edilmiş Uşaq hüquqları haqqında Konvensiya xüsusi yer tutur. Uşaq hüquqları haqqında Bəyannamədə

qeyd edilir ki, anadan olmasından əvvəl və sonra hər bir uşağın, onun fiziki və əqli qeyri-yetişkinliyi nəzərə alınaraq, zəruri hüquqi müdafiə də daxil olmaqla xüsusi mühafizəyə və qayğıya ehtiyacı vardır. Bəyannaməyə görə, bəşəriyyət malik olduğu ən yaxşı nemətləri uşaqlara verməlidir. Bəyannamə 10 prinsipdən ibarətdir. 1-ci prinsipə əsasən, hər bir uşaq bu Bəyannamədə təsbit olunmuş bütün hüquqlara hər hansı bir istisnaya və irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və ya digər əqidəsi, milli və ya sosial mənşəyi, əmlak vəziyyəti, doğumu və ya uşağa və ya onun ailəsinə aid digər hallara görə hər hansı fərqə və ya ayrı-seçkiliyə yol verilmədən malik olmalıdır. 2-ci prinsipə görə, hər bir uşaq, onun azad və ləyaqətli şəraitdə fiziki, əqli, əxlaqi, mənəvi və sosial baxımdan sağlam inkişafı üçün qanunla və digər vasitələrlə xüsusi müdafiə ilə təmin olunmalı və ona imkanlar və əlverişli şərait yaradılmalıdır. 3-cü prinsipə müvafiq olaraq, hər bir uşaq anadan olandan ad və vətəndaşlıq hüququna malik olmalıdır. 4-cü prinsipə əsasən, hər bir uşaq sosial təminatla bağlı rifahlardan istifadə etməlidir. Hər bir uşaq zəruri qida, yaşayış yeri, əyləncələr və tibbi xidmət hüququna malik olmalıdır. 5-ci prinsipə uyğun olaraq, fiziki, psixi və ya sosial baxımdan qüsuru olan uşaqlar onların xüsusi vəziyyətindən irəli gələn xüsusi rejim, təhsil və qayğı ilə təmin edilməlidirlər. 6-cı prinsipdə qeyd edilir ki, hər bir uşağın onun şəxsiyyətinin tam və harmonik inkişafı üçün sevgi və anlayışa ehtiyacı vardır. Cəmiyyətin və dövlət orqanlarının üzərində ailəsi və ya yaşayış üçün kifayət qədər vəsaiti olmayan uşaqlara xüsusi qayğı göstərmək vəzifəsi vardır. 7-ci prinsipə görə, hər bir uşaq pulsuz və icbari ibtidai təhsil almaq hüququna malik olmalıdır. 8-ci prinsipdə vurğulanır ki, hər bir uşaq bütün hallarda ilk müdafiə olunan və yardım alan kəslərin əhatəsində olmalıdır. 9-cu prinsipə müvafiq olaraq, hər bir uşaq istənilən növ etinasız münasibətdən, qəddarlıqdan və istismardan müdafiə olunmalıdır. Heç bir uşaq hər hansı formada alver obyekti ola bilməz. 10-cu prinsipə əsasən, hər bir uşaq irqi, dini və ya ayrı-seçkiliyin digər istənilən növünün təşviq olunduğu təcrübədən uzaq tutulmalıdır. Hər bir uşaq qarşılıqlı anlaşma, dözümlülük, sülh ruhunda tərbiyə olunmalıdır. Qeyd etmək lazımdır ki, Bəyannamə uşaq hüquqlarının inkişafına, həmçinin uşaq hüquqları sahəsində beynəlxalq-hüquqi sənədlərin və milli qanunvericilik aktlarının qəbuluna əhəmiyyətli təsir göstərmişdir. Uşaq hüquqları haqqında Konvensiya BMT Baş Assambleyasının 20 noyabr 1989-cu il tarixli 44/25 saylı qətnaməsi ilə qəbul edilmişdir. Konvensiya uşaq hüquqlarını kompleks şəkildə təmin edən ilk və yeganə universal bey-

nəlxalq müqavilədir. Konvensiyanın əsas müəllifi polşalı professor, hüquq elmləri doktoru Adam Lopatka (1928-2003) hesab edilir. 1996-cı ildə Fransanın təşəbbüsü ilə BMT tərəfindən Konvensiyanın qəbul olunduğu günün, yəni 20 noyabr tarixinin "Uşaq Hüquqları Günü" kimi qeyd edilməsi qərara alınmışdır. Konvensiya mühüm beynəlxalq-hüquqi akt kimi özündə uşaq hüquqları ilə bağlı bir sıra mühüm müddəaları ehtiva edir. Konvensiyaya əsasən, iştirakçı dövlətlər təsdiq edirlər ki, hər bir uşaq, onun şəxsiyyətinin tam və harmonik inkişafı üçün ailə mühitində, xoşbəxtlik, sevgi və anlaşma atmosferində böyüməlidir. Konvensiyaya görə, iştirakçı dövlətlər öz yurisdiksiyaları hüdudlarında olan hər bir uşağın heç bir ayrı-seçkiliyə yol vermədən bu Konvensiyada nəzərdə tutulmuş bütün hüquqlarına hörmət edirlər və onları təmin edirlər. Konvensiyada uşaqların yaşamaq hüququ, doğulduğu andan qeydiyyata alınmaq hüququ, ad hüququ, vətəndaşlıq əldə etmək hüququ, valideynlərini tanımaq və onlar tərəfindən qayğı göstərilmək hüququ, öz fərdiyyətini saxlamaq hüququ, öz baxışlarını azad şəkildə bildirmək hüququ, öz fikrini sərbəst ifadə etmək azadlığı, fikir, vicdan və din azadlığı, birləşmək və dinc toplaşmaq azadlığı, şəxsi həyata, ailə həyatına, mənzil toxunulmazlığına və ya yazışma sirrinə olan hüququn həyata keçirilməsinə özbaşına və ya qanunsuz müdaxilədən, yaxud şərəf və reputasiyaya qanunsuz qəsdlərdən müdafiə hüququ, bütün növ fiziki və ya psixoloji zorakılıqdan, təhqirdən və ya sui-istifadədən, kobud rəftardan və ya istismardan müdafiə olunmaq hüququ, ailə himayəsindən məhrum olmuş uşaqların dövlət tərəfindən xüsusi müdafiə və yardım hüququ, əqli və ya fiziki qüsurlu uşaqların dövlət tərəfindən xüsusi müdafiə hüququ, hər bir uşağın səmərəli səhiyyə xidmətlərindən istifadə hüququ, hər bir uşağın sosial sığorta da daxil olmaqla sosial təminatın faydalarından istifadə etmək hüququ, hər bir uşağın onun fiziki, əqli, mənəvi, əxlaqi və sosial inkişafı üçün zəruri olan həyat səviyyəsi hüququ, təhsil hüququ, istirahət və asudə vaxt hüququ, mədəni həyatda sərbəst iştirak etmək və incəsənətlə məşğul olmaq hüququ, iqtisadi istismardan müdafiə hüququ və uşaqların hərtərəfli inkişafını və xoşbəxt yaşayışını təmin etməyə yönələn digər hüquqlar və müddəalar öz əksini tapmışdır. Konvensiyaya görə, iştirakçı dövlətlər uşaqların narkotik vasitələrdən və psixotrop maddələrdən qeyri-qanuni istifadədən müdafiə etmək məqsədilə bütün zəruri tədbirləri, o cümlədən qanunvericilik, inzibati və sosial tədbirləri, həmçinin təhsil sahəsində tədbirləri həyata keçirirlər. Konvensiyanın 34-cü maddəsinə müvafiq olaraq, iştirakçı dövlətlər uşaqları bütün növ seksual istismardan qoru-

mağı öhdələrinə götürürlər. Konvensiyaya əsasən, istənilən məqsədlə və istənilən formada uşaqların oğurlanması, uşaq alveri və ya onların kontrabandasının qarşısının alınması üçün Tərəflər milli, ikitərəfli və çoxtərəfli səviyyədə bütün zəruri tədbirləri görürlər. Konvensiyanın 36-cı maddəsinə görə, iştirakçı dövlətlər uşağın rifahının istənilən aspektinə xələl gətirən istismarın bütün digər formalarından uşaqları qoruyurlar. Konvensiyaya uyğun olaraq, iştirakçı dövlətlər təmin edirlər ki: a) heç bir uşaq işgəncəyə və ya digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmasın; b) heç bir uşaq qeyri-qanuni və ya özbaşına şəkildə azadlıqdan məhrum edilməsin; c) azadlıqdan məhrum edilmiş hər bir uşaqla humanist rəftar olunsun və onun yaşından irəli gələn tələbatlar nəzərə alınaraq onun şəxsiyyətinə xas olan ləyaqətinə hörmətlə yanaşılsın; d) azadlıqdan məhrum edilmiş hər bir uşağın dərhal hüquqi yardım almaq hüququ təmin edilsin. Konvensiyanın 38-ci maddəsinə əsasən, iştirakçı dövlətlər silahlı münaqişələr zamanı tətbiq olunan və uşaqlara aidiyyatı olan beynəlxalq humanitar hüquq normalarına hörmət etməyi və onları təmin etməyi öhdələrinə götürmüşlər. Konvensiyaya görə, iştirakçı dövlətlər istənilən növ etinasızlıq, istismar və ya sui-istifadə, işgəncə və ya istənilən digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza və ya silahlı münaqişənin qurbanı olan uşaqların fiziki və psixoloji bərpası və sosial reinteqrasiyası məqsədilə bütün zəruri tədbirləri görürlər. Uşaq hüquqları haqqında Konvensiyaya dair üç fakültativ protokol qəbul edilmişdir: 1) Uşaq alveri, uşaq fahişəliyi və uşaq pornoqrafiyasına dair 25 may 2000-ci il tarixli Fakültativ Protokol. Bu Protokola əsasən, iştirakçı dövlətlər uşaq alverini, uşaq fahişəliyini və uşaq pornoqrafiyasını qadağan edirlər. 2) Uşaqların silahlı münaqişələrdə iştirakına dair 25 may 2000-ci il tarixli Fakültativ Protokol. Bu Protokola uyğun olaraq, iştirakçı dövlətlər onların silahlı qüvvələrinin 18 yaşına çatmamış hərbi qulluqçularının hərbi əməliyyatlarda birbaşa iştirak etməmələri üçün bütün mümkün tədbirləri görürlər. Protokolun 2-ci maddəsinə görə, iştirakçı dövlətlər təmin edirlər ki, 18 yaşına çatmayan şəxslər silahlı qüvvələrə məcburi qaydada çağırılmasınlar. 3) Müraciət proseduruna dair 19 dekabr 2011-ci il tarixli Fakültativ Protokol. Bu Protokol Uşaq hüquqları Komitəsinə həm fərdi, həm də dövlətlərarası müraciətlərə baxmaq səlahiyyəti verir. Uşaq hüquqları haqqında Konvensiyanın əsasında xüsusi mexanizm – Uşaq hüquqları Komitəsi fəaliyyət göstərir. Komitə 1990-cı ildə fəaliyyətə başlamışdır. Komitə 4 il müddətinə seçilən, uşaq hüquqları sahəsində səriştəyə malik, müstəqil qisimdə

fəaliyyət göstərən 10 ekspertdən ibarətdir. Komitənin əsas səlahiyyəti iştirakçı dövlətlərin uşaq hüquqlarının təmini ilə bağlı ölkədə vəziyyətə dair hər 5 ildən bir məruzələrə, həmçinin Uşaq hüquqları haqqında Konvensiyaya dair 19 dekabr 2011-ci il tarixli Fakültativ Protokola əsasən fərdi və ya dövlətlərarası müraciətlərə baxmaqdan ibarətdir. Komitə həmçinin Baş Assambleyaya Baş Katib tərəfindən onun adından uşaq hüquqları ilə bağlı bu və ya digər məsələyə dair təhqiqat aparmaq təklifi ilə müraciət edə bilər. Komitə dövlətlərin dövri məruzələri ilə bağlı ümumi xarakterli tövsiyələr qəbul edir. Uşaq hüquqlarına dair Azərbaycan Respublikasında 19 may 1998-ci ildə ayrıca qanunvericilik aktı – Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanun Azərbaycan Respublikasının Konstitusiyasına, Uşaq Hüquqları Bəyannaməsinə, Uşaq Hüquqlarına dair Konvensiyaya və digər beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikasında uşaqların hüquqlarını və azadlıqlarını, uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edir. Uşaqların bu Qanunda nəzərdə tutulmuş hüquqları və vəzifələri 18 yaşına (yetkinlik yaşına) çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən hər bir şəxsə aid edilir. Qanuna əsasən, uşaqlar barəsində dövlət siyasəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldilir. Qanunun "Uşaq mənafelərinin üstünlüyü" adlanan 5-ci maddəsinə müvafiq olaraq, dövlət orqanları, bütün fiziki və hüquqi şəxslər öz fəaliyyətində uşaqların mənafelərini üstün tutmalı, onların hüquqlarının təmin olunmasına şərait yaratmalıdırlar. Azərbaycan Respublikasının normativ hüquqi aktları və müvafiq orqanların qərarları uşaq mənafelərinə zidd olmamalı və onların icrası uşaqların həyatına, inkişafına və tərbiyəsinə zərər gətirməməlidir. Uşağın hüquq və mənafelərini məhdudlaşdıran hər hansı əqd etibarsızdır. Qanuna görə bütün uşaqlar bərabər hüquqlara malikdirlər. Uşaqların, onların valideynlərinin və ya onları əvəz edən şəxslərin sosial və əmlak vəziyyətindən, sağlamlığından, irqi və milli mənsubiyyətindən, dilindən, təhsilindən, dinindən, siyasi baxışlarından, yaşayış yerindən asılı olmayaraq uşaqlar ayrı-seçkiliyə məruz qala bilməzlər. Uşaqlar valideynlərinin və ya onları əvəz edən digər şəxslərin hərəkətlərinə görə məsuliyyət daşımır və valideynləri ilə bağlı səbəblərə görə onların hüquqlarının məhdudlaşdırılmasına yol verilmir. Nikahda və ya nikahdankənar doğulmasından asılı olmayaraq

uşaqların valideynləri barəsində eyni hüquqları vardır. Qanunda uşaqların bir sıra hüquqları öz əksini tapmışdır: yaşamaq və inkişaf etmək hüququ; həyat və sağlamlığın mühafizəsi hüququ; ad və vətəndaşlıq almaq hüququ; tərbiyə almaq hüququ; azadlıq və şəxsi toxunulmazlıq hüququ; zəruri maddi təminat hüququ; vicdan, fikir və söz azadlığı; məlumat azadlığı; ailədə yaşamaq hüququ; mənzil hüququ; vərəsəlik və valideynlərinin əmlakı hesabına saxlanma hüququ; təhsil almaq hüququ; əmək hüquqları; istirahət hüququ; ictimai təşkilatlarda birləşmək hüququ; şərəf və ləyaqətin müdafiəsi hüququ və s.

25. **Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu –** Azərbaycan Respublikasının Konstitusiyasına, Uşaq Hüquqları Bəyannaməsinə, Uşaq Hüquqlarına dair Konvensiyaya və digər beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikasında uşaqların hüquqlarını və azadlıqlarını, uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edən qanunvericilik aktı. 19 may 1998-ci ildə qəbul edilmişdir.

26. **Uşaq hüquqları haqqında Bəyannamə –** uşaq hüquqları sahəsində mühüm əhəmiyyət kəsb edən beynəlxalq-hüquqi akt. Bəyannamə BMT Baş Assambleyasının 1386 (XIV) saylı, 20 noyabr 1959-cu il tarixli qətnaməsi ilə qəbul edilmişdir. Bəyannamədə qeyd edilir ki, anadan olmasından əvvəl və sonra hər bir uşaq onun fiziki və əqli qeyri-yetişkinliyi nəzərə alınaraq, zəruri hüquqi müdafiə də daxil olmaqla xüsusi mühafizəyə və qayğıya ehtiyacı vardır. Bəyannaməyə görə, bəşəriyyət malik olduğu ən yaxşı nemətləri uşaqlara verməlidir. Bəyannamə 10 prinsipdən ibarətdir. 1-ci prinsipə əsasən, hər bir uşaq bu Bəyannamədə təsbit olunmuş bütün hüquqlara hər hansı bir istisnaya və irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və ya digər əqidəsi, milli və ya sosial mənşəyi, əmlak vəziyyəti, doğumu və ya uşağa və ya onun ailəsinə aid digər hallara görə hər hansı fərqə və ya ayrı-seçkiliyə yol verilmədən malik olmalıdır. 2-ci prinsipə görə, hər bir uşaq onun azad və ləyaqətli şəraitdə fiziki, əqli, əxlaqi, mənəvi və sosial baxımdan sağlam inkişafı üçün qanunla və digər vasitələrlə xüsusi müdafiə ilə təmin olunmalı və ona imkanlar və əlverişli şərait yaradılmalıdır. 3-cü prinsipə müvafiq olaraq, hər bir uşaq anadan olandan ad və vətəndaşlıq hüququna malik olmalıdır. 4-cü prinsipə əsasən, hər bir uşaq sosial təminatla bağlı rifahlardan istifadə etməlidir. Hər bir uşaq zəruri qida, yaşayış yeri, əyləncələr və tibbi xidmət hüququna malik olmalıdır. 5-ci prinsipə uyğun olaraq, fiziki, psixi və ya sosial baxımdan

qüsuru olan uşaqlar onların xüsusi vəziyyətindən irəli gələn xüsusi rejim, təhsil və qayğı ilə təmin edilməlidirlər. 6-cı prinsipdə qeyd edilir ki, hər bir uşağın onun şəxsiyyətinin tam və harmonik inkişafı üçün sevgi və anlayışa ehtiyacı vardır. Cəmiyyətin və dövlət orqanlarının üzərində ailəsi və ya yaşayış üçün kifayət qədər vəsaiti olmayan uşaqlara xüsusi qayğı göstərmək vəzifəsi vardır. 7-ci prinsipə görə, hər bir uşaq pulsuz və icbari ibtidai təhsil almaq hüququna malikdir. 8-ci prinsipdə vurğulanır ki, hər bir uşaq bütün hallarda ilk müdafiə olunan və yardım alan kəslərin əhatəsində olmalıdır. 9-cu prinsipə müvafiq olaraq, hər bir uşaq istənilən növ etinasız münasibətdən, qəddarlıqdan və istismardan müdafiə olunmalıdır. Heç bir uşaq hər hansı formada alver obyekti ola bilməz. 10-cu prinsipə əsasən, hər bir uşaq irqi, dini və ya ayrı-seçkiliyin digər istənilən növünün təşviq olunduğu təcrübədən uzaq tutulmalıdır. Hər bir uşaq qarşılıqlı anlaşma, dözümlülük, sülh ruhunda tərbiyə olunmalıdır. Bəyannamə uşaq hüquqlarının inkişafına, həmçinin uşaq hüquqları sahəsində beynəlxalq-hüquqi sənədlərin və milli qanunvericilik aktlarının qəbuluna əhəmiyyətli təsir göstərmişdir.

27. **Uşaq Hüquqları haqqında Konvensiya** – uşaq hüquqlarını kompleks şəkildə təmin edən ilk və yeganə universal beynəlxalq müqavilə. Konvensiya BMT Baş Assambleyasının 20 noyabr 1989-cu il tarixli, 44/25 saylı qətnaməsi ilə qəbul edilmişdir. Konvensiyanın əsas müəllifi polşalı professor, hüquq elmləri doktoru Adam Lopatka (1928-2003) hesab edilir. 1996-cı ildə Fransanın təşəbbüsü ilə BMT tərəfindən Konvensiyanın qəbul olunduğu günün, yəni 20 noyabr tarixinin "Uşaq Hüquqları Günü" kimi qeyd edilməsi qərara alınmışdır. Konvensiya mühüm beynəlxalq-hüquqi akt kimi özündə uşaq hüquqları ilə bağlı bir sıra mühüm müddəaları ehtiva edir. Konvensiyaya əsasən, iştirakçı dövlətlər təsdiq edirlər ki, hər bir uşaq, onun şəxsiyyətinin tam və harmonik inkişafı üçün ailə mühitində, xoşbəxtlik, sevgi və anlaşma atmosferində böyüməlidir. Konvensiyaya görə, iştirakçı dövlətlər öz yurisdiksiyaları hüdudlarında olan hər bir uşağın heç bir ayrı-seçkiliyə yol vermədən bu Konvensiyada nəzərdə tutulmuş bütün hüquqlarına hörmət edirlər və onları təmin edirlər. Konvensiyada uşaqların yaşamaq hüququ, doğulduğu andan qeydiyyata alınmaq hüququ, ad hüququ, vətəndaşlıq əldə etmək hüququ, valideynlərini tanımaq və onlar tərəfindən qayğı göstərilmək hüququ, öz fərdiyyətini saxlamaq hüququ, öz baxışlarını azad şəkildə bildirmək hüququ, öz fikrini sərbəst ifadə etmək azadlığı, fikir, vicdan və din azadlığı, birləşmək və dinc toplaşmaq azadlığı, şəxsi həyata, ailə həyatına,

mənzil toxunulmazlığına və ya yazışma sirrinə olan hüququn həyata keçirilməsinə özbaşına və ya qanunsuz müdaxilədən yaxud şərəf və reputasiyaya qanunsuz qəsdlərdən müdafiə hüququ, bütün növ fiziki və ya psixoloji zorakılıqdan, təhqirdən və ya sui-istifadədən, kobud rəftardan və ya istismardan müdafiə olunmaq hüququ, ailə himayəsindən məhrum olmuş uşaqların dövlət tərəfindən xüsusi müdafiə və yardım hüququ, əqli və ya fiziki qüsurlu uşaqların dövlət tərəfindən xüsusi müdafiə hüququ, hər bir uşağın səmərəli səhiyyə xidmətlərindən istifadə hüququ, hər bir uşağın sosial sığorta da daxil olmaqla sosial təminatın faydalarından istifadə etmək hüququ, hər bir uşağın onun fiziki, əqli, mənəvi, əxlaqi və sosial inkişafı üçün zəruri olan həyat səviyyəsi hüququ, təhsil hüququ, istirahət və asudə vaxt hüququ, mədəni həyatda sərbəst iştirak etmək və incəsənətlə məşğul olmaq hüququ, iqtisadi istismardan müdafiə hüququ və uşaqların hərtərəfli inkişafını və xoşbəxt yaşayışını təmin etməyə yönələn digər hüquqlar və müddəalar öz əksini tapmışdır. Konvensiyaya görə, iştirakçı dövlətlər uşaqların narkotik vasitələri və psixotrop maddələri qeyri-qanuni istifadədən müdafiə etmək məqsədilə bütün zəruri tədbirləri, o cümlədən qanunvericilik, inzibati və sosial tədbirləri, həmçinin təhsil sahəsində tədbirləri həyata keçirirlər. Konvensiyanın 34-cü maddəsinə müvafiq olaraq, iştirakçı dövlətlər uşaqları bütün növ seksual istismardan qorumağı öhdələrinə götürürlər. Konvensiyaya əsasən, istənilən məqsədlə və istənilən formada uşaqların oğurlanması, uşaq alveri və ya onların kontrabandasının qarşısının alınması üçün Tərəflər milli, ikitərəfli və çoxtərəfli səviyyədə bütün zəruri tədbirləri görürlər. Konvensiyanın 36-cı maddəsinə görə, iştirakçı dövlətlər uşağın rifahının istənilən aspektinə xələl gətirən istismarın bütün digər formalarından uşaqları qoruyurlar. Konvensiyaya uyğun olaraq, iştirakçı dövlətlər təmin edirlər ki: a) heç bir uşaq işgəncəyə və ya digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmasın; b) heç bir uşaq qeyri-qanuni və ya özbaşına şəkildə azadlıqdan məhrum edilməsin; c) azadlıqdan məhrum edilmiş hər bir uşaqla humanist rəftar olunsun və onun yaşından irəli gələn tələbatlar nəzərə alınaraq onun şəxsiyyətinə xas olan ləyaqətinə hörmətlə yanaşılsın; d) azadlıqdan məhrum edilmiş hər bir uşağın dərhal hüquqi yardım almaq hüququ təmin edilsin. Konvensiyanın 38-ci maddəsinə əsasən, iştirakçı dövlətlər silahlı münaqişələr zamanı tətbiq olunan və uşaqlara aidiyyatı olan beynəlxalq humanitar hüquq normalarına hörmət etməyi və onları təmin etməyi öhdələrinə götürmüşlər. Konvensiyaya görə, iştirakçı dövlətlər istənilən növ etinasızlıq, istismar və

ya sui-istifadə, işgəncə və ya istənilən digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza və ya silahlı münaqişənin qurbanı olan uşaqların fiziki və psixoloji bərpası və sosial reinteqrasiyası məqsədilə bütün zəruri tədbirləri görürlər. Uşaq hüquqları haqqında Konvensiyaya dair üç fakültativ protokol qəbul edilmişdir: 1) Uşaq alveri, uşaq fahişəliyi və uşaq pornoqrafiyasına dair 25 may 2000-ci il tarixli Fakültativ Protokol. Bu Protokola əsasən, iştirakçı dövlətlər uşaq alverini, uşaq fahişəliyini və uşaq pornoqrafiyasını qadağan edirlər. 2) Uşaqların silahlı münaqişələrdə iştirakına dair 25 may 2000-ci il tarixli Fakültativ Protokol. Bu Protokola uyğun olaraq, iştirakçı dövlətlər onların silahlı qüvvələrinin 18 yaşına çatmamış hərbi qulluqçularının hərbi əməliyyatlarda birbaşa iştirak etməmələri üçün bütün mümkün tədbirləri görürlər. Protokolun 2-ci maddəsinə görə, iştirakçı dövlətlər təmin edirlər ki, 18 yaşına çatmayan şəxslər silahlı qüvvələrə məcburi qaydada çağırılmasınlar. 3) Müraciət proseduruna dair 19 dekabr 2011-ci il tarixli Fakültativ Protokol. Bu Protokol Uşaq hüquqları Komitəsinə həm fərdi, həm də dövlətlərarası müraciətlərə baxmaq səlahiyyəti verir. Konvensiyanın əsasında xüsusi mexanizm – Uşaq hüquqları Komitəsi fəaliyyət göstərir.

28. **Uşaq Hüquqları Komitəsi –** BMT-nin insan hüquqları sahəsində fəaliyyət göstərən müqavilə komitələrindən biri. Komitə Uşaq hüquqları haqqında Konvensiyanın əsasında 1990-cı ildə fəaliyyətə başlamışdır. Komitə 4 il müddətinə seçilən, uşaq hüquqları sahəsində səriştəyə malik, müstəqil qisimdə fəaliyyət göstərən 10 ekspertdən ibarətdir. Komitənin əsas səlahiyyəti iştirakçı dövlətlərin uşaq hüquqlarının təmini ilə bağlı ölkədə vəziyyətə dair hər 5 ildən bir məruzələrə, həmçinin Uşaq hüquqları haqqında Konvensiyaya dair 19 dekabr 2011-ci il tarixli Fakültativ Protokola əsasən fərdi və ya dövlətlərarası müraciətlərə baxmaqdan ibarətdir. Komitə həmçinin Baş Assambleyaya Baş Katib tərəfindən onun adından uşaq hüquqları ilə bağlı bu və ya digər məsələyə dair təhqiqat aparmaq təklifi ilə müraciət edə bilər. Komitə dövlətlərin dövri məruzələri ilə bağlı ümumi xarakterli tövsiyələr qəbul edir.

29. **Uşaqların hüquq bərabərliyi –** Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli Qanununa əsasən, bütün uşaqlar bərabər hüquqlara malikdirlər. Uşaqların, onların valideynlərinin və ya onları əvəz edən şəxslərin sosial və əmlak vəziyyətindən, sağlamlığından, irqi və milli mənsubiyyətindən, dilindən, təhsilindən, dinindən, siyasi baxışlarından, yaşayış yerindən asılı olmayaraq uşaqlar ayrı-seçkiliyə məruz qala bilməzlər. Uşaqlar valideynlərinin və ya onları əvəz

edən digər şəxslərin hərəkətlərinə görə məsuliyyət daşımır və valideynləri ilə bağlı səbəblərə görə onların hüquqlarının məhdudlaşdırılmasına yol verilmir. Nikahda və ya nikahdankənar doğulmasından asılı olmayaraq uşaqların valideynləri barəsində eyni hüquqları vardır (maddə 6).

30. **Uşaqların ictimai təşkilatlarda birləşmək hüququ –** Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli Qanununa əsasən, uşaqların təhsil və ya yaşayış yerlərində Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada ictimai birliklər və ictimai özfəaliyyət orqanları yaratmaq və onlarda birləşmək hüququ vardır. Uşaqların və uşaq ictimai birliklərinin və ictimai özfəaliyyət orqanlarının siyasi fəaliyyətə cəlb edilməsinə yol verilmir (maddə 26).

31. **Uşaq mənafelərinin üstünlüyü –** Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli Qanununa əsasən, dövlət orqanları, bütün fiziki və hüquqi şəxslər öz fəaliyyətində uşaqların mənafelərini üstün tutmalı, onların hüquqlarının təmin olunmasına şərait yaratmalıdırlar. Azərbaycan Respublikasının normativ hüquqi aktları və müvafiq orqanların qərarları uşaq mənafelərinə zidd olmamalı və onların icrası uşaqların həyatına, inkişafına və tərbiyəsinə zərər gətirməməlidir. Uşağın hüquq və mənafelərini məhdudlaşdıran hər hansı əqd etibarsızdır (maddə 5).

32. **Uzurpasiya** (lat. usurpatio – mənimsəmə) **–** dövlət hakimiyyətinin hər hansı şəxs, şəxslər və ya qrup tərəfindən qanunazidd şəkildə zorla ələ keçirilməsi. Demokratik dövlətlərin əsas qanunları uzurpasiyanı qadağan edir. Azərbaycan Respublikası Konstitusiyasının "Hakimiyyətin mənimsənilməsinə yol verilməməsi" adlanan 6-cı maddəsinə görə, Azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz. Hakimiyyətin mənimsənilməsi xalqa qarşı ən ağır cinayətdir.

Ü

1. **Ümumdünya İnsan Hüquqları Bəyannaməsi** – fundamental insan hüquqlarının və azadlıqlarının bəyan edildiyi ilk universal beynəlxalq sənəd. Bəyannamə 1948-ci ilin dekabrın 10-da Parisdə Şayo sarayında (fr. Palais de Chaillot) BMT Baş Assambleyasının 183-cü plenar iclasında 48 üzv dövlət tərəfindən qəbul edilmişdir. Baş Assambleyanın 423 (V) saylı qətnaməsinə əsasən, 10 dekabr tarixi "İnsan Hüquqları Günü" kimi qeyd edilir. İlk dəfə "İnsan Hüquqları Günü" 1950-ci ildə qeyd edilmişdir. Hər il bu əlamətdar tarixin qeyd olunması İnsan hüquqları üzrə Ali Komissarın İdarəsi tərəfindən təşkil edilir. Bir qayda olaraq, "İnsan Hüquqları Günü" münasibəti ilə BMT-nin Baş Katibi və İnsan hüquqları üzrə Ali Komissarı üzv dövlətlərə müraciət ünvanlayır. Müraciətdə insan hüquqlarının təmini sahəsində BMT-ni narahat edən əsas məsələlər, həmçinin insan hüquqlarının pozuntularının aradan qaldırılması, pozulmuş hüquqların bərpası, ümumilikdə insan hüquqlarının səmərəli təmini istiqamətində üzv dövlətlərə tövsiyələr öz əksini tapır. Bəyannamə BMT Baş Assambleyasının qətnaməsi şəklində qəbul olunduğuna görə tövsiyə xarakteri daşıyır. Eyni zamanda onun müddəalarına hüquqi qiymət verdikdə nəzərə almaq lazımdır ki, beynəlxalq hüquqda müqavilə ilə yanaşı, dövlətlərin beynəlxalq təcrübəsi nəticəsində formalaşmış və onlar tərəfindən tədricən hüquqi norma kimi təsdiq olunan adətlər də mühüm rol oynayır. Bəyannamədə təsbit edilmiş əsas hüquq və azadlıqlar əksər dövlətlər tərəfindən hüquqi cəhətdən vacib olan adət və ya müqavilə normaları kimi tanınır. Bir sıra dövlətlərin konstitusiyaları birbaşa Bəyannaməyə istinad edərək, onun bəzi müddəalarını özündə əks etdirir. Bəyannamədə qeyd olunmuş prinsip və normalar yeni beynəlxalq müqavilələrin bağlanması prosesində tədricən inkişaf edir və dəqiqləşir. Bu, dövlətlərarası münasibətlərin inkişafında həmin sənədin böyük əhəmiyyətini göstərir. 1948-ci ildə "bütün xalqların və dövlətlərin əldə etməli olduqları standartlar" qismində qəbul edilmiş Bəyannamə hazırda beynəlxalq hüququn əsas mənbələrindən biri olmaqla, bir çox dövlətlər tərəfindən insan hüquqlarına aid müxtəlif qanunvericilik aktlarının işlənib hazırlanması üçün model qismində çıxış edir. 1948-ci ildən sonra qəbul edilmiş 100-dən çox konstitusiyada Bəyannamədə təsbit olunmuş fundamental hüquqların geniş siyahısı vardır. Müasir dövrdə bir çox dövlətlər insan hüquqları sahəsində qanunların şərhi üçün Bəyannamənin müddəalarından geniş istifadə edir. Bir sıra ölkələrin məhkəmələri öz qərarların-

da Bəyannamənin müddəalarına istinad edirlər. Bir sıra dövlətlər Bəyannaməyə əksər hissəsi ümumməcburi normalara çevrilmiş sənəd kimi baxırlar. Belə yanaşma, xüsusən ona görə vacibdir ki, bəzi dövlətlər nə Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın, nə də İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın iştirakçılarıdırlar. Belə dövlətlər Bəyannaməni rəhbər tutmalıdırlar. 1994-cü ildə BMT Baş Assambleyası İnsan hüquqları üzrə Ali Komissar vəzifəsini təsis edərkən Bəyannaməyə əməl olunmasının zəruriliyini vurğulamış və qeyd etmişdir ki, Ali Komissar BMT-nin Nizamnaməsi, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və insan hüquqları sahəsində digər beynəlxalq sənədlər əsasında fəaliyyət göstərməlidir. BMT Baş Assambleyasının köməkçi orqanı statusuna malik olan, 2006-cı ildə yaradılmış İnsan Hüquqları Şurasının təsis sənədində (BMT Baş Assambleyasının 60/251 saylı qətnaməsində) Şuranın öz fəaliyyətində söykənəcəyi əsas sənəd kimi Bəyannamə göstərilmişdir. Bundan əlavə, Bəyannamə Universal Dövri İcmal prosedurunun əsaslarından biri kimi nəzərdə tutulmuşdur. Bəyannamənin mətni Eleonora Ruzveltin sədrliyi ilə BMT-nin İnsan Hüquqları Komissiyası tərəfindən hazırlanmışdır. Bəyannamənin əsas müəllifləri görkəmli ictimai xadim, BMT-nin İnsan Hüquqları Komissiyasının sədri Eleonora Ruzvelt, beynəlxalq hüquq sahəsində tanınmış kanadalı mütəxəssis, BMT-nin İnsan hüquqları bölməsinin rəhbəri Con Hamfri, livanlı diplomat və filosof Çarlz Malik və yəhudi əsilli fransalı hüquqşünas Rene Kassen hesab olunur. Bəyannamənin hazırlanmasında Böyük Azadlıqlar Xartiyasından (İngiltərə), İstiqlaliyyət Bəyannaməsindən və Hüquqlar haqqında Billdən (ABŞ), İnsan və vətəndaş hüquqları haqqında Bəyannamədən (Fransa) istifadə edilmişdir. Bəyannamə özündə həm mülki və siyasi, həm də iqtisadi, sosial və mədəni hüquqları ehtiva edir. İnsan hüquqlarının təbii xarakter daşımasını təsdiq edən Bəyannamə, müəllifi görkəmli hüquqşünas, Nobel Sülh Mükafatı (1968) və BMT-nin İnsan hüquqları mükafatı laureatı (1968), professor Rene Kassen olan 1-ci maddəsində bütün insanların öz ləyaqətlərinə və hüquqlarına görə azad və bərabər doğulduqlarını elan edir. Preambuladan və 30 maddədən ibarət olan Bəyannamədə həm I nəsil, həm də II nəsil hüquq və azadlıqlar təsbit olunmuşdur: yaşamaq hüququ, azadlıq hüququ, şəxsi toxunulmazlıq hüququ, kölə vəziyyətində və ya asılı vəziyyətdə saxlanılmamaq hüququ, işgəncəyə və ya qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzaya məruz qalmamaq hüququ, harada olmasından asılı olmayaraq hüquq subyekti kimi tanınmaq hüququ, qanun qarşısında bərabər-

lik və hər hansı ayrı-seçkiliyə yol verilmədən qanun tərəfindən bərabər müdafiə hüququ, pozulmuş hüquqların səlahiyyətli milli məhkəmələr tərəfindən səmərəli bərpası hüququ, özbaşına həbsə, saxlanılmaya və ya sürgünə məruz qalmamaq hüququ, müstəqil və ədalətli məhkəmə araşdırması hüququ, təqsirsizlik prezumpsiyası hüququ, şəxsi və ailə həyatına özbaşına müdaxilədən, mənzil toxunulmazlığına, yazışma sirrinə və ya şərəf və ləyaqətə özbaşına qəsdə məruz qalmamaq və belə müdaxilə və ya qəsdlərdən qanunla müdafiə olunmaq hüququ, hər bir dövlətin hüdudlarında sərbəst hərəkət etmək və özünə sərbəst surətdə yaşayış yeri seçmək hüququ, istənilən ölkəni, o cümlədən öz ölkəsini tərk etmək və ora qayıtmaq hüququ, sığınacaq axtarmaq və sığınacaqdan istifadə etmək hüququ, vətəndaşlıq hüququ, özbaşına olaraq vətəndaşlıqdan və ya vətəndaşlığı dəyişmək hüququndan məhrum edilməmək hüququ, nikaha daxil olmaq və ailə qurmaq hüququ, mülkiyyət hüququ, mülkiyyətdən özbaşına olaraq məhrum edilməmək hüququ, fikir, vicdan və din azadlığı hüququ, etiqad azadlığı hüququ, dinc toplaşmaq azadlığı hüququ, dövlətin idarə edilməsində bilavasitə və ya azad şəkildə seçilmiş nümayəndələr vasitəsilə iştirak etmək hüququ, öz ölkəsində dövlət qulluğuna bərabər çatımlılıq hüququ, sosial təminat hüququ, əmək hüququ, iş yerini sərbəst seçmək hüququ, ədalətli və əlverişli iş şəraiti hüququ, işsizlikdən müdafiə hüququ, hər hansı bir ayrı-seçkiliyə yol verilmədən bərabər əməyə görə bərabər əmək haqqı hüququ, hər bir işçinin özünün və ailəsinin ləyaqətli şəkildə yaşayışını təmin edəcək ədalətli və qənaətbəxş ödəniş hüququ, həmkarlar ittifaqları yaratmaq və öz maraqlarını müdafiə etmək məqsədilə həmkarlar ittifaqlarına daxil olmaq hüququ, iş gününün ağlabatan məhdudlaşdırılması və müntəzəm ödənişli məzuniyyət də daxil olmaqla istirahət və asudə vaxt hüququ, özünün və ailəsinin sağlamlığının və firavanlığının qorunub saxlanması üçün qida, geyim, yaşayış yeri, tibbi xidmət və zəruri sosial təminat da daxil olmaqla zəruri olan həyat səviyyəsi hüququ, işsizlik, xəstəlik, əlillik, dulluq, qocalıq və ya özündən asılı olmayan digər səbəblərdən yaşamaq üçün zəruri vasitələrin itirildiyi digər hallarda işsizlikdən müdafiə hüququ, nikahda və ya nikahdankənar doğulan bütün uşaqların bərabər sosial müdafiə hüququ, təhsil hüququ, cəmiyyətin mədəni həyatında sərbəst iştirak etmək, incəsənətdən zövq almaq, elmi tərəqqidə iştirak etmək və onun faydalarından istifadə etmək hüququ, müəllifi olduğu elmi, ədəbi və ya bədii əsərlərin nəticəsi olan maddi və mənəvi maraqların müdafiəsi hüququ, bu Bəyannamədə təsbit edilmiş hüquq və azadlıqların tam şəkildə həyata

keçirilə biləcəyi sosial və beynəlxalq nizam hüququ. Bəyannamədə onun müddəalarının həyata keçirilməsi mexanizmi, burada təsbit olunmuş insan hüquq və azadlıqlarına dövlətlər tərəfindən riayət edilməsi üzərində hər hansı nəzarət mexanizmi və ya proseduru nəzərdə tutulmamışdır. Lakin qeyd etmək lazımdır ki, Bəyannamənin mətni hazırlanarkən belə bir nəzarət qurumunun təsis edilməsi təklifi irəli sürülmüşdü. Hindistandan olan nümayəndə Hansa Mehta və avstraliyalı Uilyam Hocson Bəyannamənin müddəalarının pozulması hallarını araşdıracaq beynəlxalq tribunalın yaradılması təklifi ilə çıxış etmişdilər. Lakin bu təklif sonradan rədd edildi, çünki o zaman BMT-yə üzv dövlətlər belə bir addımın atılmasına hazır deyildilər. Bəyannamənin əsas müəlliflərindən biri olan E.Ruzvelt bu sənədi "bəşəriyyətin Böyük Azadlıqlar Xartiyası" adlandırırdı. Bəyannamə insan hüquqları sahəsində ilk hüquqi cəhətdən məcburi sənəd olmasa da, miqyasına və əhəmiyyətinə görə ən önəmli sənədlərdən oldu. Məhz onun əsasında sonradan insan hüquqlarına dair çoxsaylı beynəlxalq konvensiyalar qəbul edilmiş, əksər dövlətlər onun müddəalarını konstitusiyalarında təsbit etmişlər. Bəyannamə müxtəlif dillərə ən çox tərcümə olunmuş sənəd kimi 1999-cu ildə Ginnesin Rekordlar Kitabına düşmüşdür. Belə ki, Bəyannamə 500 dilə və dialektə (o cümlədən müxtəlif milli azlıqların dillərinə) tərcümə edilmişdir. Böyük Britaniya və İspaniyada isə bu sənəd jest (nümayiş məqsədilə edilən hərəkət) dilinə çevrilmişdir. BMT-nin İnsan hüquqları üzrə Ali Komissarı olmuş Zeyd Raad əl-Hüseynin fikrincə, Bəyannamənin çoxsaylı dillərə tərcümə edilməsi onun həqiqi universal xarakterə malik olmasının göstəricisidir. Bəyannamə beynəlxalq insan hüquqları hüququnun inkişafında əvəzsiz rol oynamışdır. Birmənalı şəkildə qeyd etmək olar ki, müasir dövrdə beynəlxalq səviyyədə insan hüquqlarının məzmununu müəyyənləşdirmək üçün müraciət edilən ilk sənəd məhz Ümumdünya İnsan Hüquqları Bəyannaməsidir.

2. **Ümumdünya Sammitinin Yekun Sənədi –** 2005-ci ilin 14-16 sentyabr tarixlərində Nyu-Yorkda BMT-nin mərkəzi qərargahında keçirilmiş dövlət və hökumət başçılarının sammitində qəbul edilmiş və insan hüquqları baxımından mühüm əhəmiyyət kəsb edən sənəd. BMT Baş Assambleyasının 16 sentyabr 2005-ci il tarixli, 60/1 nömrəli qətnaməsi ilə qəbul edilmişdir. Ümumdünya sammitinin məqsədi əsas dörd istiqamət üzrə mövcud olan problemlərin hərtərəfli həllinin təmin edilməsindən ibarət olmuşdur: inkişaf; sülh və kollektiv təhlükəsizlik; insan hüquqları və qanunun aliliyi; BMT-nin möhkəmləndirilməsi. Sammitdə qəbul edilmiş

yekun sənəd beş əsas bölmədən ibarətdir: dəyərlər və prinsiplər; inkişaf; sülh və kollektiv təhlükəsizlik; insan hüquqları və qanunun aliliyi; BMT-nin möhkəmləndirilməsi. Sənədin insan hüquqları və qanunun aliliyi bölməsində insan hüquqları, məcburi köçkünlər, qaçqınların müdafiəsi və onlara yardım göstərilməsi, qanunun aliliyi, demokratiya, əhalinin genosiddən, müharibə cinayətlərindən, etnik təmizləmələrdən və insanlıq əleyhinə cinayətlərdən qorumaq öhdəliyi, uşaq hüquqları, insanın təhlükəsizliyi, sülh mədəniyyəti və mədəniyyətlərarası, sivilizasiyalararası və dinlərarası dialoqa münasibətdə təşəbbüslərlə bağlı müddəalar öz əksini tapmışdır. Yekun sənəddə xüsusilə vurğulanır ki, bütün insan hüquqları universaldır, bölünməzdir, qarşılıqlı əlaqəlidir, qarşılıqlı asılıdır və biri digərini tamamlayandır və bütün insan hüquqlarına ədalətlə, bərabər qaydada, eyni əsaslarla, eyni diqqətlə yanaşılmalıdır.

3. **Ümumxalq səsverməsi –** Bax: referendum.
4. **Ümumi hüquq** (ing. common law) **–** orta əsr İngiltərəsində tarixən formalaşmış və hüququn əsas mənbəyi qismində məhkəmə presedenti cıxış edən hüquq sistemi. "Ümumi hüquq" termini həm ingilis-sakson hüquq sistemini, həm də presedent hüququnun bir hissəsini ehtiva edir. "Ümumi hüquq" termini (lat. jus commune) XII-XIII əsrlərdə Roma hüququnun anlayışı kimi meydana gəlmişdir. Presedent hüququnun bir hissəsi kimi ümumi hüquq məhkəmə presedentlərinin məcmusunu təşkil edir. Ümumi hüquq, əsas etibarilə, hakimlər tərəfindən yaradılır və məhz buna görə də "məhkəmə hüququ" da adlandırılır. Hüquq ədəbiyyatında və təcrübədə Avropa ümumi hüququ (Böyük Britaniya, İrlandiya) və qeyri-Avropa ümumi hüququ fərqləndirilir. Bəzi qeyri-Avropa dövlətlərində (məsələn, Hindistanda) ümumi hüquq qismən mövcuddur. Ümumi hüquq İngiltərədə kral məhkəmələrinin fəaliyyəti nəticəsində meydana gəlmişdir. Ümumi hüquq norması kontinental hüquq normasından fərqli olaraq ümumi məcburi davranış qaydası yaratmır, konkret problemlərin həllinə yönəlir.
5. **Ümumi hüquq ailəsi –** Bax: ingilis-amerikan hüquq ailəsi.
6. **Ümumi hüquq sistemi –** Bax: ingilis-amerikan hüquq ailəsi.
7. **Ümumi seçki hüququ** – vətəndaşların hər hansı bir ayrı-seçkiliyə yol verilmədən seçmək, seçilmək və referendumda iştirak etmək hüququ. Azərbaycan Reaspublikasının Seçki Məcəlləsinə əsasən, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və başqa ictimai birliklərə mənsubiyyətindən və ya digər statusundan asılı olmayaraq Azərbaycan Respublikası vətəndaş-

larının seçmək, seçilmək və referendumda iştirak etmək hüququ vardır (maddə 3).

8. **Ünvanlı dövlət sosial yardımı** – aztəminatlı ailələrə dövlət tərəfindən göstərilən pul yardımı. Ünvanlı dövlət sosial yardımı haqqında Azərbaycan Respublikasının 21 oktyabr 2005-ci il tarixli Qanununa əsasən, sosial yardım hüququna orta aylıq gəliri onlardan asılı olmayan səbəblərdən (ailə üzvlərinin əmək qabiliyyətsiz olması, ailənin əmək qabiliyyətli üzvünün orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsə, əlilliyi olan uşağa və ya 8 yaşına çatmamış uşağa qulluq etməsi, 23 yaşınadək əyani təhsil alması, müvafiq icra hakimiyyəti orqanında dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi və ya işçilərin sayı və ya ştatların ixtisar edilməsi ilə əlaqədar işsiz kimi qeydə alınması, vəfat etməsi, məhkəmə tərəfindən itkin düşmüş və yaxud ölmüş hesab edilməsi, azadlıqdan məhrum edilməsi, ailə üzvünün olduğu yerin məlum olmaması) hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan aztəminatlı ailələr malikdirlər (maddə 3). Sosial yardımın məqsədi aztəminatlı ailələrin sosial müdafiəsinin təmin edilməsindən ibarətdir. Sosial yardımın əsas prinsipləri aşağıdakılardan ibarətdir: ünvanlılıq – sosial yardım yalnız aztəminatlı ailələrə təyin olunur; ədalətlilik – sosial yardım ailənin orta aylıq gəliri ilə hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusu arasındakı fərq məbləğində təyin olunur; bərabərlik – sosial yardım bütün aztəminatlı ailələrə təyin olunur. Sosial yardım dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir (maddələr 4; 5).

9. **Ünvanlı dövlət sosial yardımı haqqında Azərbaycan Respublikasının Qanunu** – ünvanlı dövlət sosial yardımının göstərilməsinin məqsəd və prinsiplərini, təyin olunmasının hüquqi əsaslarını və bu sahədə yaranan digər münasibətləri tənzimləyən qanunvericilik aktı. 21 oktyabr 2005-ci ildə qəbul edilmişdir.

V

1. **Valideynlərindən ayrı yaşayan uşağın hüququ –** Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli Qanununa əsasən, valideynlərinin hər ikisindən və ya birindən ayrı yaşayan uşağın onları tanımaq, habelə bu ona mənfi təsir göstərmirsə, valideynləri ilə ünsiyyətdə olmaq hüququ vardır (maddə 18).
2. **Valideynlərin hüquq və vəzifələri –** Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli Qanununa əsasən, valideynlərin uşağın tərbiyəsində bərabər hüquq və vəzifələri vardır. Onlar uşağı sağlam böyütməli, ümumbəşəri və milli dəyərlər əsasında tərbiyə etməli, müstəqil həyata hazırlamalıdırlar. Uşağın qabiliyyətinin inkişaf etdirilməsi, onun maddi və mənəvi tələbatlarının təmin edilməsi, hüquq və mənafelərinin mühafizəsi valideynlərin əsas vəzifələridir. Valideynlərin uşaqlar barəsində hüquq və vəzifələrinin həyata keçirilməsinə dövlət orqanlarının qarışmasına yalnız qanunla nəzərdə tutulmuş hallarda və uşağın maraqları naminə yol verilə bilər. Uşaqların vurduğu maddi ziyana görə onun valideynləri, övladlığa götürənlər, qəyyumlar və ya himayəçilər Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar (maddə 19).
3. **Valideynlərin hüquq və vəzifələrinin bərabərliyi –** Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əsasən, valideynlərin öz uşaqları barəsində bərabər hüquq və vəzifələrə malik olması.
4. **Valideynlik hüquqlarından məhrumetmə –** Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əsasən, valideynlər (onlardan biri) valideynlik hüquqlarından aşağıdakı hallarda məhrum edilə bilərlər: öz valideynlik vəzifələrini yerinə yetirmədikdə; alimenti qəsdən ödəmədikdə; heç bir üzürlü səbəb olmadan uşağı doğum evindən və yaxud hər hansı sosial xidmət müəssisəsindən götürməkdən imtina etdikdə; valideynlik hüquqlarından sui-istifadə etdikdə; uşaqlara qarşı məişət zorakılığı ilə bağlı hərəkətlər törətdikdə; xroniki alkoqol və narkomaniya xəstəsidirsə; uşaqların və ya ərinin (arvadının) sağlamlığına və ya həyatına qarşı qəsdən edilmiş cinayət törətdikdə; uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayət törətdikdə (maddə 64).
5. **Valideynlik hüquqlarından məhrumetmə qaydası –** Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əsasən, valideynlik hüquqlarından məhrumetmə məhkəmə qaydasında həll edilir. Məhkəmə valideynlik hüquqlarından məhrumetmə işlərinə valideynlərdən (onları əvəz edən

şəxslərdən) birinin ərizəsinə, müvafiq icra hakimiyyəti orqanının, prokurorun, habelə yetkinlik yaşına çatmayanların hüququnu müdafiə edən orqanın və ya müəssisələrin müraciətinə əsasən onların iştirakı ilə baxır. Valideynlik hüquqlarından məhrumetmə işinə baxılarkən müvafiq icra hakimiyyəti orqanının iştirakı təmin edilməlidir. Valideynlik hüquqlarından məhrumetmə işinə baxılarkən məhkəmə valideynlik hüquqlarından məhrum edilmiş valideynlərdən (onlardan birindən) uşağa aliment tutulması məsələsini də həll edir. Valideynlik hüquqlarından məhrumetmə işinə prokurorun iştirakı olmadan baxılarkən məhkəmə valideynin (onlardan birinin) hərəkətlərində cinayət əməli olduğunu aşkar edərsə, bu barədə prokurora məlumat verməyə borcludur. Valideynlik hüquqlarından məhrumetmə barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış dərhal hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür (maddə 65).

6. **Valideynlik hüquqlarından məhrumetmənin nəticələri –** Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əsasən, valideynlik hüquqlarından məhrum edilmiş valideynlər uşağa münasibətdə həmin uşaqla qohumluq faktına əsaslanan bütün hüquqlarını, o cümlədən bu Məcəllənin 82-ci maddəsinə əsasən uşaqdan təminat almaq, habelə uşaqlar üçün təyin edilmiş dövlət müavinəti almaq və imtiyazlardan istifadə etmək hüququnu itirirlər. Valideynlik hüquqlarından məhrum edilmiş valideynlər uşaqların saxlanmasını təmin etmək vəzifələrindən azad edilmirlər. Valideynlik hüquqlarından məhrum edilmiş valideynlər (onlardan biri) ilə uşaqların birgə yaşamaq məsələlərini məhkəmə Azərbaycan Respublikasının mənzil qanunvericiliyinə əsasən həll edir. Valideynlik hüquqlarından məhrum edilmiş valideynlərin (onlardan birinin) uşaqları mənzilə xüsusi mülkiyyət hüququna və ya ondan istifadə hüququna, uşağın valideynlərlə və başqa qohumlarla qohumluq faktına əsaslanan əmlak hüquqlarına, o cümlədən vərəsəlik hüququna malikdir. Uşağın digər valideynə verilməsi mümkün olmadıqda və ya valideynlərin hər ikisi valideynlik hüquqlarından məhrum edildikdə, uşaq müvafiq icra hakimiyyəti orqanının himayəsinə verilə bilər. Uşaq valideynlərin (onlardan birinin) valideynlik hüquqlarından məhrum edilməsi haqqında məhkəmənin qətnaməsindən 6 ay keçəndən sonra övladlığa götürülə bilər (maddə 66).

7. **Valideynlik hüquqlarının bərpası –** Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əsasən, valideynlərin (onlardan birinin) həyat tərzi, əxlaqı,

uşağın tərbiyəsinə münasibətləri dəyişdikdə, valideynlik hüquqları bərpa edilir. Valideynlik hüquqlarının bərpası valideynlik hüquqlarından məhrum edilmiş valideynlərin (onlardan birinin) ərizəsinə əsasən məhkəmə yolu ilə həll edilir. Valideynlik hüquqlarının bərpası işinə müvafiq icra hakimiyyəti orqanının iştirakı ilə baxılır. Valideynlik hüquqlarının bərpası ilə bağlı valideynlərin ərizəsi ilə birlikdə uşağın valideynlərə (onlardan birinə) qaytarılması tələbinə də baxıla bilər. Valideynlik hüquqlarının bərpası uşağın mənafeyinə zidd olarsa, məhkəmə valideynlərin (onlardan birinin) valideynlik hüquqlarının bərpası iddiasını uşağın rəyini nəzərə almaqla rədd edə bilər. Uşaq 10 yaşına çatmışsa, ancaq onun razılığı ilə valideynlik hüquqları bərpa edilə bilər. Uşaq övladlığa götürülmüşsə və övladlığa götürmə ləğv edilməmişsə, valideynlik hüquqları bərpa edilə bilməz (maddə 67).

8. **Valideynlik hüquqlarının həyata keçirilməsi –** Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əsasən, valideynlik hüquqları uşaqların mənafeyinə zidd həyata keçirilə bilməz. Valideynlik hüquqlarını həyata keçirərkən valideynlər uşaqların mənəvi inkişafına, fiziki və psixi sağlamlığına xələl yetirməməlidirlər. Uşaqların tərbiyəsində onların istismarına, təhqir edilməsinə, mənəviyyatının alçaldılmasına, qəddarlığa, kobudluğa, biganəliyə yol verilə bilməz. Valideynlik hüquqlarını həyata keçirərkən uşaqların hüquq və mənafelərinə ziyan vuran valideynlər qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar. Uşaqların tərbiyə və təhsilinə aid olan bütün məsələlər uşaqların hüquq və mənafeləri, onların rəyi nəzərə alınmaqla, valideynlərin qarşılıqlı razılığı əsasında həll olunur. Valideynlər (onlardan biri) öz aralarında olan narazılığı həll etmək üçün müvafiq icra hakimiyyəti orqanına və ya məhkəməyə müraciət edə bilərlər. Valideynlər ayrı yaşadıqda uşaqların yaşayış yeri onların razılığı ilə həll edilir. Valideynlər arasında razılıq olmadıqda, məhkəmə mübahisəni uşaqların hüquq və mənafelərini, onların rəyini və sair halları (uşaqların qardaş və bacılarına, valideynlərdən hər birinə olan bağlılığı, valideynlərin əxlaqi və digər şəxsi keyfiyyətləri, uşağın yaşı, onun inkişafı və tərbiyəsi üçün şərait yaradılması) nəzərə almaqla həll edir (maddə 60).

9. **Valideynlik hüquqlarının məhdudlaşdırılması –** Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əsasən, məhkəmə valideynlik hüquqlarından məhrum etmədən uşağın mənafeyini nəzərə almaqla, valideynlərdən (onlardan birindən) uşağın alınması barədə qətnamə qəbul edə bilər. Uşağın valideynlərlə (onlardan biri ilə) qalması onlardan asılı olmayan

hallarda (psixi pozğunluq və ya başqa xroniki xəstəliklər, ağır vəziyyət və s.) uşağın həyatı üçün təhlükə yaradırsa, valideynlik hüquqlarının məhdudlaşdırılmasına yol verilir. Valideynlərin davranışı onlarla qalan uşaq üçün təhlükəlidirsə, valideynlik hüquqlarından məhrumetmə üçün əsas yoxdursa, valideynlik hüquqlarının məhdudlaşdırılmasına yol verilir. Valideynlər öz davranışını dəyişməzlərsə, valideynlik hüquqlarının məhdudlaşdırılması barədə məhkəmə qətnaməsinin çıxarılmasından 6 ay keçdikdən sonra müvafiq icra hakimiyyəti orqanı uşaqların mənafeyini nəzərə alaraq valideynlik hüquqlarından məhrumetmə iddiası qaldırmalıdır. Müvafiq icra hakimiyyəti orqanı valideynləri (onlardan birini) bu müddətdən də tez valideynlik hüquqlarından məhrumetmə barədə iddia qaldıra bilər. Uşağın yaxın qohumları, prokuror, yetkinlik yaşına çatmayan uşaqları müdafiə edən orqanlar, məktəbəqədər, ümumtəhsil və başqa müəssisələr valideynlik hüquqlarının məhdudlaşdırılması barədə iddia qaldıra bilərlər. Bu Məcəllənin 116-1.5-ci maddəsində nəzərdə tutulmuş hallarda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) valideynlik hüquqlarının məhdudlaşdırılması barədə iddia qaldıra bilər. Valideynlik hüquqlarının məhdudlaşdırılması işinə müvafiq icra hakimiyyəti orqanının iştirakı ilə baxılır. Bu zaman məhkəmə valideynlərdən (onlardan birindən) aliment tutulması məsələsini də həll edir. Valideynlik hüquqlarının məhdudlaşdırılması barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış dərhal hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür (maddə 68).

10. **Valideynlik hüquqlarının məhdudlaşdırılmasının nəticələri** – Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əsasən, valideynlik hüquqları məhdudlaşdırılan valideynlər uşağın tərbiyəsi ilə şəxsən məşğul olmaq, uşaqlı valideynlər üçün dövlət müavinətləri və imtiyazlarına olan hüquqlarını itirirlər. Valideynlik hüquqları məhdudlaşdırılan valideynlər uşağın saxlanmasını təmin etmək vəzifəsindən azad edilmirlər. Valideynlik hüquqları məhdudlaşdırılan valideynin uşaqları mənzilə xüsusi mülkiyyət hüququna və ya yaşayış sahəsindən istifadə, valideyn və digər qohumlarla faktiki qohumluğa əsaslanan əmlak hüquqlarına, o cümlədən vərəsəlik hüququna malikdirlər. Hər iki valideynin valideynlik hüquqları məhdudlaşdırılmışsa, uşaq müvafiq icra hakimiyyəti orqanının himayəsinə verilir (maddə 69).

11. **Valideynlik hüquqlarının müdafiəsi –** Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əsasən, valideynlər məhkəmənin qərarına və ya qanuna əsaslanmadan uşağı yanında saxlayan hər hansı şəxsdən onu geri qaytarmağı tələb edə bilərlər. Bu halda mübahisə yarandıqda valideynlər məhkəməyə müraciət etmək hüququna malikdirlər. Belə tələblərə baxdıqda məhkəmə uşağın valideynlərə verilməsinin uşağın marağına zidd olduğunu müəyyən edərsə, uşağın arzusuna əsasən valideynlərin iddiasını rədd edə bilər. Valideynlərin və ya başqa şəxslərin yanında yaşayan uşağın tərbiyəsinin və inkişafının təmin olunmaması məhkəmə tərəfindən müəyyən edilərsə, məhkəmə uşağı müvafiq icra hakimiyyəti orqanının himayəsinə verə bilər (maddə 63).
12. **Vassenaar sazişi** – 1996-cı ildə Niderland Krallığının Vassenaar şəhərində 33 ölkə tərəfindən imzalanmış saziş. Bu sazişə görə, kriptoqrafik mühafizə vasitələri silah sistemlərinə daxil edilir.
13. **Veritas nihil veretur nisi abscondi** (lat.) **–** həqiqət gizlədilməkdən başqa heç nədən qorxmur.
14. **Veymar Konstitusiyası** (alm. Weimarer Verfassung; tam adı – Alman dövlətinin konstitusiyası, alm. Verfassung des Deutschen Reichs) **–** Almaniyanın ilk demokratik konstitusiyası. 11 avqust 1919-cu ildə Veymar şəhərində qəbul edilmişdir. Veymar konstitusiyası Almaniyada parlamentli demokratiya və federalizm prinsipləri əsasında respublika təsis etmişdir. Veymar konstitusiyası Avropada o dövrün ən demokratik, hüquqi konstitusiyası sayılırdı. Bu konstitusiya həm də insanın ləyaqətli yaşayışını təmin edən ilk sosial konstitusiya idi. Qeyd olunan konstitusiya dövləti respublika elan etsə də, onun əvvəlki adını – Alman imperiyası (Deutsches Reich) – saxladı. Konstitusiyanın ən mühüm bölmələrindən biri 90 maddədən ibarət "Almanların əsas hüquq və vəzifələri" adlanan bölmə idi. Burada şəxsiyyətin toxunulmazlığı, yaşayış yerinin toxunulmazlığı, söz azadlığı, mətbuat azadlığı, ana dili hüququ, emiqrasiya hüququ, ölkənin hüdudlarından kənarda müdafiə hüququ, ləyaqətli yaşamaq hüququ təsbit olunmuşdur. Konstitusiyada həm də bir sıra sosial-iqtisadi hüquq və azadlıqlar da öz əksini tapırdı: əmək şəraitinin yaxşılaşdırılması hüququ, asudə vaxt hüququ və s. Veymar konstitusiyasında, həmçinin kilsənin dövlətdən ayrılması məsələsi də qeyd olunurdu. Veymar Konstitusiyasının bəzi müddəaları 1949-cu ildə qəbul edilmiş Almaniya Federativ Respublikasının Əsas Qanununa inkorporasiya edilmiş, Əsas Qanuna zidd olmayan bir sıra müddəaları isə adət hüququnun bir hissəsinə çevrilmişdir.

15. **Vəkil –** hüquq müdafiə fəaliyyətini peşəkarcasına həyata keçirməli olan şəxs. Vəkillər və vəkillik fəaliyyəti haqqında Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli Qanununun 8-ci maddəsinin 1-ci hissəsinə əsasən, ali hüquq təhsilli, hüquqşünas ixtisası üzrə bir ildən az olmayaraq iş stajı olan və ya elmi müəssisələrdə (təşkilatlarda) və təhsil müəssisələrində hüquq sahəsində bir ildən az olmayan müddətdə fəaliyyət göstərən, Vəkillərin İxtisas Komissiyasında peşə yararlığının müəyyən edilməsi məqsədilə yazılı testdən və müsahibədən ibarət ixtisas imtahanını müvəffəqiyyətlə vermiş, müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsində icbari təlimi müvəffəqiyyətlə bitirmiş Azərbaycan Respublikasının vətəndaşları bu maddənin II hissəsində göstərilən hallara zidd olmamaq şərti ilə vəkil ola bilərlər. Azərbaycan Respublikasının vətəndaşı olan, əvvəllər vəkil və ya hakim (intizam qaydasında vəkillik və ya hakimlik fəaliyyətinə xitam verilmiş şəxslər, həmçinin Məhkəmə-Hüquq Şurası tərəfindən həyata keçirilən qiymətləndirmə nəticəsində səlahiyyətləri uzadılmamış hakimlər istisna olmaqla) olmuş şəxslər onların müraciətləri əsasında yazılı testi vermədən, müsahibədən keçərək icbari təlimə cəlb olunmaqla həmin təlimi müvəffəqiyyətlə keçdikdən sonra vəkilliyə qəbul olunurlar. Azərbaycan Respublikasının vətəndaşı olan, əvvəllər vəkil və ya hakim (intizam qaydasında vəkillik və ya hakimlik fəaliyyətinə xitam verilmiş şəxslər, həmçinin Məhkəmə-Hüquq Şurası tərəfindən həyata keçirilən qiymətləndirmə nəticəsində səlahiyyətləri uzadılmamış hakimlər istisna olmaqla) olmuş şəxslər yazılı test vermədən, müsahibədə iştirak etmək hüququndan yalnız bir dəfə istifadə edə bilərlər. Hüquq elmləri doktoru elmi dərəcəsi olan şəxslər, müvafiq icra hakimiyyəti orqanı tərəfindən hüquq sahəsində fəxri ad verilmiş şəxslər, habelə əvvəllər Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi, apellyasiya və kassasiya instansiyası məhkəmələrinin sədri vəzifəsində işləmiş şəxslər onların müraciətləri əsasında yazılı testi vermədən, müsahibədə iştirak etmədən və icbari təlimə cəlb edilmədən vəkilliyə qəbul olunurlar. İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan, qanunla müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab olunmuş, qanunvericiliklə müəyyən edilmiş qaydada alınan tibbi rəyə əsasən əqli pozuntularına görə vəkillik fəaliyyətini həyata keçirməyə qadir olmayan, qəsdən az ağır, ağır və ya xüsusilə ağır cinayət törətməyə görə məhkumluğu ödənilməmiş və ya götürülməmiş, barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında qanuni qüvvəyə minmiş məhkəmə

qərarı olan şəxslər vəkil ola bilməzlər. Vəkillər bütün məhkəmə instansiyalarında və Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsində həyata keçirilən icraatlara buraxılırlar. Vəkil dövlət qulluğuna (dövlət qulluğunun xüsusi növünə) qəbul edildikdə onun vəkillik fəaliyyəti dövlət qulluğuna xitam verilənədək dayandırılır. Dövlət qulluğuna (dövlət qulluğunun xüsusi növünə) qəbul edilməsi ilə əlaqədar vəkillik fəaliyyəti dayandırılmış və bundan sonra dövlət qulluğunda (dövlət qulluğunun xüsusi növündə) iki il və ya daha çox qulluq keçmiş şəxslər (hüquqşünaslıq ixtisası üzrə ali təhsil tələb edən vəzifələrdə qulluq keçən dövlət qulluqçuları istisna olmaqla) dövlət qulluğuna (dövlət qulluğunun xüsusi növünə) xitam verildikdən sonra onların vəkillik fəaliyyətinə buraxılmalarına mane olan bu Qanunla müəyyən edilmiş hallar aşkar edilmədikdə onlar müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsində icbari təlimi müvəffəqiyyətlə bitirdikdən sonra vəkillik fəaliyyəti ilə məşğul ola bilərlər. Dövlət qulluğuna (dövlət qulluğunun xüsusi növünə) qəbul edilməsi ilə əlaqədar vəkillik fəaliyyəti dayandırılmış və bundan sonra dövlət qulluğunda (dövlət qulluğunun xüsusi növündə) iki ildən az qulluq keçmiş şəxslər, habelə hüquqşünaslıq ixtisası üzrə ali təhsil tələb edən vəzifələrdə qulluq keçmiş dövlət qulluqçuları dövlət qulluğuna (dövlət qulluğunun xüsusi növünə) xitam verildikdən sonra onların müraciəti olduqda və vəkillik fəaliyyətinə buraxılmalarına mane olan bu Qanunla müəyyən edilmiş hallar aşkar edilmədikdə vəkilliyə buraxılırlar. Vəkillər Kollegiyasının üzvü olmayan şəxs tərəfindən özünə münasibətdə və ya təşkilatının adında "vəkil" sözündən və bu sözün istifadə edildiyi ifadələrdən, eyni zamanda onların başqa dillərə tərcüməsindən istifadə olunması qadağandır. Vəkillər müstəqildirlər və yalnız qanunun tələblərinə tabedirlər. Vəkillər aşağıdakı hüquqlara malikdirlər: hüquqi yardım üçün müraciət etmiş fiziki və hüquqi şəxslərin müdafiəçisi olmaq, onların, habelə dövlət orqanlarının (qurumlarının) hüquqlarını, qanuni maraq və mənafelərini təhqiqat, istintaq, məhkəmə, digər dövlət orqanlarında (qurumlarında), yerli özünüidarəetmə orqanlarında, hüquqi şəxslərdə, o cümlədən xarici ölkələrdə və beynəlxalq təşkilatlarda müdafiə və təmsil etmək; öz fəaliyyətində qanunvericiliklə qadağan olunmamış və vəkil etikasına zidd olmayan bütün üsullardan və vasitələrdən istifadə etmək; vəkillik fəaliyyətini həyata keçirməklə əlaqədar sənəd toplamaq, hüquqi yardım göstərmək üçün zəruri olan arayışları (məlumatları) və digər sənədləri dövlət orqanlarından (qurumlarından), yerli özünüidarəetmə orqanlarından, hüquqi şəxslərdən tələb etmək, onlarla tanış olmaq və hə-

min sənədlərin surətlərini çıxarmaq, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, daşınmaz əmlakın dövlət reyestrinin məlumatlarının alınması ilə bağlı yazılı sorğular vermək; xüsusi bilik tələb edən məsələlərin araşdırılması üçün ekspertlərdən və ya mütəxəssislərdən rəy və məlumatlar almaq; qanunvericiliklə nəzərdə tutulmuş qaydada texniki vasitələrdən istifadə etmək; qanunvericiliklə müəyyən olunmuş qaydada müdafiə və ya təmsil edilən şəxslə təklikdə, maneəsiz görüşüb danışmaq; kassasiya instansiyası məhkəməsində özü-özünü təmsil etmək (maddə 15). Vəkillər Kollegiyasına üzv olduğu dövrdə vəkil: qanunun tələblərini rəhbər tutmalı və icra etməli, müdafiə edilən və ya hüquqları təmsil edilən şəxsin mənafelərini qorumaq üçün qanunvericiliklə nəzərdə tutulmuş bütün üsullardan istifadə etməlidir; vəkil sirrini qorumalı, vəkil andına və vəkil etikasına riayət etməlidir; hüquqi yardımın göstərilməsi üçün müraciət etmiş şəxsin maraqlarına zidd və hüquqlarının həyata keçirilməsinə mane olan hər hansı hərəkəti, müdafiəçisi olduğu şəxsin mənafeyinə zidd olaraq onun törədilmiş cinayətlə əlaqəsini və təqsirini təsdiq, zərərçəkmişlə barışığını elan və ona qarşı qaldırılmış mülki iddianı qəbul etməməli, müdafiəsinə yönəlmiş şikayəti geri götürməməlidir; mənafeyi təmsil edilən və ya müdafiə edilən şəxsin icazəsi olmadan hüquqi yardımın göstərilməsi ilə əlaqədar vəkilə məlum olan faktları və sənədləri, eləcə də mənəviyyata, demokratik cəmiyyətdə ictimai qaydaya və ya dövlət təhlükəsizliyinə ziyan vura bilən, həmçinin yetkinlik yaşına çatmamışların mənafeləri və ya tərəflərin şəxsi və ailə həyatının müdafiəsi tələb edərsə, belə məlumatları yaymamalıdır; qanunla müəyyən edilmiş hallar istisna olmaqla vəkil sirrindən özünün şəxsi və ya başqasının mənafeyi üçün istifadə etməməlidir; üzvlük haqqını hər ay ödəməlidir; normativ hüquqi aktlarla müəyyən olunmuş qaydada və hallarda hüquqi yardım haqqını ödəmək üçün kifayət qədər vəsaiti olmayan şəxslərə dövlət hesabına hüquqi yardım göstərməlidir; il ərzində minimal icbari tədris saatlarını toplamalıdır; Vəkillər Kollegiyası orqanlarının bu Qanuna əsasən müəyyən etdiyi qaydalara əməl etməli və həmin orqanların qəbul etdiyi qərarları icra etməlidir; vəkil onun tərəfindən qəbul edilən müdafiə öhdəçiliyindən imtina etməməlidir; "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarından irəli gələn tələblərə əməl etməlidir. Vəkilin qanun pozuntusuna yol verməsi nəticəsində müdafiə edilən və yaxud təmsil edilən

şəxsin əmlakına bilavasitə zərər dəyərsə, buna vəkil maddi məsuliyyət daşıyır. Müdafiə edilən və ya təmsil edilən şəxslər qarşısındakı məsuliyyətinə zəmanət vermək məqsədi ilə vəkillərin sığorta bank hesabı yaradılır. Hər bir vəkil hər ay həmin hesaba aylıq gəlirinin 2 faizini keçirir. Hər hansı vəkil tərəfindən vurulmuş ziyanın ödənilməsi üçün onun vəsaiti kifayət etmədikdə, məhkəmə qərarına əsasən vəkillərin sığorta bank hesabı vəsaitindən istifadə edilir. Belə hallarda Vəkillər Kollegiyasının Rəyasət Heyəti Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyən edilmiş qaydada sığorta bank hesabından ödənilmiş vəsaiti ziyan vurmuş vəkildən tələb etməlidir. Vəkilin mülki işlər, kommersiya mübahisələri, inzibati icraat üzrə, inzibati xətalar haqqında işlər və ya cinayət işləri üzrə icraatda müvafiq olaraq nümayəndə və müdafiəçi qismində iştirakını istisna edən hallar Azərbaycan Respublikasının prosessual qanunvericiliyi və inzibati xətalar haqqında qanunvericiliyi ilə müəyyən edilir. Hüquqi yardımın göstərilməsi üçün müraciət etmiş fiziki və hüquqi şəxslərə, habelə dövlət orqanlarına (qurumlarına) məxsus və iddia obyekti olan əmlakın və hüquqların vəkil tərəfindən öz adına və ya başqa şəxslər üçün alınması və başqa yolla əldə edilməsi qadağandır (maddə 16).

16. **Vəkillər Kollegiyası –** qeyri-dövlət, müstəqil, özünü idarə edən və bütün vəkillərin daxil olduğu vahid qurum (qeyri-kommersiya hüquqi şəxs). Vəkillər və vəkillik fəaliyyəti haqqında Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli Qanununa əsasən, Vəkillər Kollegiyasının üzvü olmayan şəxslər vəkillik fəaliyyəti ilə məşğul ola bilməzlər. Vəkillər Kollegiyasının təşkili və fəaliyyəti bu Qanunla və ona müvafiq olaraq qəbul edilmiş Vəkillər Kollegiyasının Nizamnaməsi ilə müəyyən edilir. Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağı (konfransı), Vəkillər Kollegiyasının Rəyasət Heyəti, Vəkillərin İntizam Komissiyası və Vəkillərin İxtisas Komissiyası Vəkillər Kollegiyasının orqanlarıdır. Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə nəzərdə tutulmuş qaydada Vəkillər Kollegiyası tərəfindən regional qurumlar (mərkəzlər), hüquqi yardım mərkəzləri və tədris mərkəzləri təsis oluna bilər. Vəkillər Kollegiyası aşağıdakı vəzifələri həyata keçirir: bu Qanunun tələblərinə uyğun olaraq Kollegiya üzvlüyünə qəbul olunma məsələsini həll edir; bu Qanunun tələblərinə uyğun olaraq intizam nəzarətini həyata keçirir; hüquq mühafizə orqanlarının və məhkəmələrin tələbi əsasında vəkillik fəaliyyəti ilə bağlı məsələlərə rəy verir; vəkillərə münasibətdə öz səlahiyyətləri daxilində qanunla nəzərdə tutulmuş qaydada və hallarda cinayət yolu ilə

əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı, o cümlədən hədəfli maliyyə sanksiyalarının tətbiqi ilə bağlı nəzarət orqanının funksiyalarını həyata keçirir; dövlət hesabına göstərilən hüquqi yardıma görə haqqın (vəsaitin) vəkil qurumlarına və fərdi qaydada fəaliyyət göstərən vəkillərin bank hesablarına köçürülməsini təmin edir; bu Qanunun tələblərinə uyğun olaraq başqa məsələləri həll edir. Naxçıvan Muxtar Respublikasının qanunu ilə Naxçıvan Muxtar Respublikasında Vəkillər Kollegiyası yaradıla bilər. Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası Azərbaycan Respublikası Vəkillər Kollegiyasının tərkibinə daxildir (maddə 9). Vəkillər Kollegiyasını Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri təmsil edir və onun adından çıxış edir. Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri: Vəkillər Kollegiyası Rəyasət Heyətinin işini təşkil edir və aparatının işinə rəhbərlik edir; bu Qanunda nəzərdə tutulmuş hallarda və qaydada kollegiyaya qəbul, vəkillərin kollegiyadan xaric edilməsinə dair məsələləri Vəkillər Kollegiyası Rəyasət Heyətinin iclaslarında baxılması üçün hazırlayır və təqdim edir; Vəkillər Kollegiyası Rəyasət Heyətinin iclaslarına sədrlik edir; Vəkillər Kollegiyası Rəyasət Heyəti aparatının işçilərini işə qəbul və işdən azad edir; Vəkillər Kollegiyası Rəyasət Heyəti aparatının işçiləri tərəfindən əmək və icra intizamına əməl olunmasına nəzarət edir; statistika hesabatının təhlilini təşkil edir; vətəndaşları qəbul edir, onların qəbulu, ərizə və şikayətlərinə baxılması sahəsində Vəkillər Kollegiyası Rəyasət Heyətinin işini təşkil edir; Vəkillər Kollegiyasının regional qurumlarının (mərkəzlərinin), hüquqi yardım mərkəzlərinin və tədris mərkəzlərinin rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir; təsdiq olunmuş smeta daxilində maliyyə vəsaitləri üzərində sərəncam verir (maddə 12).

17. **Vəkillər və vəkillik fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu –** Azərbaycan Respublikasının ərazisində hər bir şəxsin məhkəmə prosesində, ibtidai istintaqda və təhqiqatda öz hüquqlarının və qanunla qorunan mənafelərinin müdafiəsini həyata keçirmək üçün özünün seçdiyi vəkilə müraciət etmək, tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüquqlarının təmin olunmasının və başqa məsələlər üzrə hüquqi yardım göstərən vəkillərin fəaliyyətinin tənzimlənməsi məqsədilə qəbul edilmiş və Azərbaycan Respublikasında yüksək keyfiyyətli hüquqi yardımın göstərilməsi üzrə vəkillik fəaliyyətinin əsas prinsiplərini, vəkillərin hüquqi statusunu və onların özünüidarəsinin əsaslarını müəyyən edən qanunvericilik aktı. 28 dekabr 1999-cu ildə qəbul edilmişdir.

18. **Vəkillik –** hüquq müdafiə fəaliyyətini peşəkarcasına həyata keçirməli olan müstəqil hüquqi təsisat.Vəkillər və vəkillik fəaliyyəti haqqında Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli Qanununa əsasən, vəkillik qanunun aliliyi, müstəqillik, demokratizm, humanizm, ədalət, şəffaflıq, insan hüquqlarına hörmət və konfidensiallıq prinsipləri əsasında fəaliyyət göstərir. Vəkilliyin əsaslarını bunlar təşkil edir: Azərbaycan Respublikasının Konstitusiyasına, bu Qanuna, Azərbaycan Respublikasının prosessual qanunvericiliyinə və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına əməl edilməsi; vəkillərin və onların birliyinin peşəkar fəaliyyətinə prokurorluq, məhkəmə və digər dövlət orqanları (qurumları), habelə fiziki, vəzifəli və hüquqi şəxslər tərəfindən müdaxiləyə, təzyiqə yol verilməməsi; vəkillərin hüquqlarının bərabərliyi; özünüidarəetmə, vəkillər və vəkillik fəaliyyətinə dair məsələlər üzrə müstəqil qərar qəbul edilməsi. Vəkilliyin əsas vəzifələri fiziki və hüquqi şəxslərin, habelə dövlət orqanlarının (qurumlarının) hüquqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin müdafiə edilməsindən və onlara yüksək keyfiyyətli hüquqi yardımın göstərilməsindən ibarətdir.

19. **Vətəndaş –** müvafiq dövlətlə hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs. Azərbaycan Respublikası Konstitusiyasına əsasən, Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının vətəndaşlarından doğulmuş şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Konstitusiyaya görə, Azərbaycan Respublikasının vətəndaşı Azərbaycan Respublikası vətəndaşlığından (onun qanunla müəyyən edilmiş itirilmə halları istisna olmaqla) məhrum edilə bilməz. Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikasından qovula və ya xarici dövlətə verilə bilməz. Azərbaycan Respublikası onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir. Azərbaycan Respublikasının vətəndaşlığı haqqında Azərbaycan Respublikasının 30 sentyabr 1998-ci il tarixli Qanununun 5-ci maddəsinə əsasən, aşağıdakı şəxslər Azərbaycan Respublikasının vətəndaşları sayılırlar: 1) bu Qanunun qüvvəyə mindiyi günədək Azərbaycan Respublikasının vətəndaşlığında olmuş şəxslər, o şərtlə ki, Azərbaycan Respublikasının vətəndaşı bu Qanunun qüvvəyə mindiyi günədək Azərbaycan

Respublikasında yaşayış yeri üzrə qeydiyyatda olsun; 2) 1992-ci il yanvarın 1-dək Azərbaycan Respublikasının və ya başqa dövlətin vətəndaşı olmayan, lakin Azərbaycan Respublikasında yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər; 3) 1988-ci il yanvarın 1-dən 1992-ci il yanvarın 1-dək Azərbaycan Respublikasının ərazisində məskunlaşmış qaçqınlar; 4) bu Qanuna müvafiq surətdə Azərbaycan Respublikası vətəndaşlığını əldə etmiş şəxslər. Bu maddənin birinci hissəsinin 2-ci bəndində nəzərdə tutulmuş şəxslər o halda Azərbaycan Respublikasının vətəndaşlığını əldə edirlər ki, bu Qanunun qüvvəyə mindiyi gündən bir il müddətində Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilmək haqqında ərizə ilə müraciət etsinlər. Bu maddənin birinci hissəsinin 3-cü bəndi əsasında Azərbaycan Respublikası vətəndaşlığını əldə etmiş qaçqınlar tərk etdikləri dövlətlərə qayıtmaq hüququnu itirmirlər. Həmin şəxslərə Azərbaycan Respublikasının qanunvericiliyində məcburi köçkünlər üçün nəzərdə tutulmuş güzəştlər şamil edilir. Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilir. Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

20. Vətəndaş cəmiyyəti – zəruri olmayan qadağalardan və sərt inzibati tənzimləmədən azad olan, insan hüquqlarının təbii hüquqlar kimi tanındığı və insan hüquq və azadlıqlarına hörmət olunduğu, şəxsiyyətin ləyaqətinin üstün tutulduğu, özünü sərbəst ifadə edən, bərabərhüquqlu və azad insanların cəmiyyəti. Vətəndaş cəmiyyəti insanların, onların müxtəlif birliklərinin, icmaların çoxşaxəli əlaqələrinin üfüqi sistemini ehtiva edir. Bu əlaqələr bərabərliyə əsaslanır. Vətəndaş cəmiyyəti insanların dövlətdən asılı olmayaraq mövcud olan həyat fəaliyyəti sahəsi, ictimai münasibətlər sferasıdır. Vətəndaş cəmiyyətinin subyekti kimi fərdlər və onların birlikləri bərabər hüquqludurlar və onlara münasibətdə "qanunla qadağan olunmayana icazə verilir" prinsipi tətbiq edilir. Vətəndaş cəmiyyəti və dövlət bölgüsü şərti xarakter daşıyır, belə ki, fərd həm vətəndaş cəmiyyətinin üzvü, həm də dövlətin vətəndaşı kimi çıxış edir. Müasir hüquqi dövlətlərdə ayrı-ayrı fərdlər və onların birlikləri, siyasi partiyalar, həmkarlar ittifaqları, dini icmalar, kütləvi informasiya vasitələri və s. vətəndaş cəmiyyətinin əsas subyektləri kimi çıxış edirlər. Vətəndaş cəmiyyətinin formalaşması demokratik rejimli dövlətlərdə mümkündür. Belə dövlətlərdə vətəndaş cəmiyyəti özünütənzimləyən sistem kimi fəaliyyət göstərir. Vətəndaş cəmiyyətinin siyasi mexanizmi qismində parlamenta-

rizm, hüquqi mexanizmi qismində isə konstitusionalizm və onun tərkib elementi kimi müstəqil məhkəmə sistemi çıxış edir. Vətəndaş cəmiyyəti dövlətin sosial strukturlardan ayrılması və ictimai münasibətlərin dövlətsizləşdirilməsi nəticəsində formalaşmışdır. Məhz vətəndaş cəmiyyətinin formalaşması və inkişafı prosesində müasir hüquq və dövlət meydana gəlmişdir. Burada işlədilən vətəndaş termini konstitusiya hüququnda işlənən klassik vətəndaş termini ilə üst-üstə düşmür və fərqli mənada işlədilir. Məşhur alman filosofu Hegel (1770-1831) "Hüquq fəlsəfəsi" əsərində (1820) qeyd edirdi ki, vətəndaş cəmiyyətinin hüquqi əsaslarını hüquq subyekti kimi insanların bərabərliyi, onların hüquqi azadlığı, xüsusi mülkiyyət, müqavilələrin vicdanla icrası, hüququn pozuntulardan mühafizəsi, həmçinin sistemləşdirilmiş qanunvericilik və nüfuzlu məhkəmə, o cümlədən andlılar məhkəməsinin mövcudluğu təşkil edir. Vətəndaş cəmiyyətinin əsas əlaməti insan hüquq və azadlıqlarının tanınması və onlara hörmət olunmasıdır. Vətəndaş cəmiyyətinin formalaşması və inkişafı bir neçə əsrdir ki, davam edir. Bu proses dünya miqyasında, hələ ki, tam yekunlaşmamışdır.

21. **Vətəndaş hüquqları –** Bax: mülki hüquq və azadlıqlar.
22. **Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu –** Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə təsbit edilmiş Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi qaydalarını müəyyənləşdirən, habelə vətəndaşların hüquq və azadlıqlarının məhkəmə təminatı ilə əlaqədar yaranan münasibətləri tənzimləyən qanunvericilik aktı. 11 iyun 1999-cu ildə qəbul edilmişdir.
23. **Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının Qanunu –** Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsinə və 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikası vətəndaşlarının müraciət etmək hüququnun həyata keçirilməsi ilə bağlı münasibətləri tənzimləyən, vəzifəli şəxslərin müraciətlərə baxması qaydasını müəyyən edən qanunvericilik aktı. 30 sentyabr 2015-ci ildə qəbul edilmişdir.
24. **Vətəndaşlığı olmayan şəxs –** Bax: apatrid.
25. **Vətəndaşlıq –** insanın dövlətlə qarşılıqlı hüquq və vəzifələr doğuran davamlı hüquqi bağlılığı. Vətəndaşa həm dövlətin hüdudları daxilində, həm

də hüdudlarından kənarda suveren dövlət hakimiyyəti şamil edilir, qarşılıqlı hüquqlar, vəzifələr və məsuliyyət müəyyən edilir. Vətəndaşlığın əldə edilməsi qaydası və ümumilikdə vətəndaşlıqla bağlı məsələlər qanunla tənzimlənir. Azərbaycan Respublikasının vətəndaşlığı haqqında Azərbaycan Respublikasının 30 sentyabr 1998-ci il tarixli Qanununa əsasən, Azərbaycan Respublikasının vətəndaşlığı onun əldə edilməsi əsaslarından asılı olmayaraq hamı üçün bərabərdir. Azərbaycan Respublikası vətəndaşlarının hüquqları, azadlıqları və vəzifələri onların mənşəyindən, sosial və əmlak vəziyyətindən, irqi və milli mənsubiyyətindən, cinsindən, təhsilindən, dilindən, dinə münasibətindən, siyasi və başqa əqidələrindən, məşğuliyyət növündən və xarakterindən, yaşayış yerindən, həmin yerdə yaşadığı müddətdən və başqa hallardan asılı olmayaraq bərabərdir. Azərbaycan Respublikasının vətəndaşlığını təsdiq edən sənədlər bunlardır: 1) Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi; 2) 15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı; 3) Azərbaycan Respublikası vətəndaşının pasportu. Qanunun 11-ci maddəsinə uyğun olaraq, şəxs Azərbaycan Respublikasının vətəndaşlığını aşağıdakı hallarda əldə edir: 1) Azərbaycan Respublikasının ərazisində (bu Qanunun 12-ci maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş hallar istisna olmaqla) və ya Azərbaycan Respublikasının vətəndaşından doğulduqda; 2) Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edildikdə; 3) Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş əsaslar olduqda; 4) bu qanunda nəzərdə tutulmuş başqa əsaslar olduqda. Qanunun 12-ci maddəsinə görə, Azərbaycan Respublikasının ərazisində doğulmuş və hər iki valideyni əcnəbi olan uşaq Azərbaycan Respublikasının vətəndaşı hesab edilmir. Azərbaycan Respublikasının ərazisində doğulmuş və valideynlərindən biri əcnəbi, digəri isə vətəndaşlığı olmayan şəxs olan uşaq Azərbaycan Respublikasının vətəndaşı hesab edilmir. Azərbaycan Respublikasının ərazisində doğulmuş və hər iki valideyni vətəndaşlığı olmayan şəxs olan uşaq Azərbaycan Respublikasının vətəndaşıdır. Azərbaycan Respublikasının ərazisində olan, hər iki valideyni naməlum uşaq Azərbaycan Respublikasının vətəndaşıdır. Qanunun 14-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının ərazisində son beş il ərzində fasiləsiz olaraq qanuni əsaslarla daimi yaşayan, qanuni gəlir mənbəyi olan, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət olunması barədə öhdəlik götürən, habelə Azərbaycan Respublikasının dövlət dilini bilməsi haqqında sənəd təqdim edən əcnəbi və vətəndaşlığı olmayan şəxs mənşəyindən, irqi və

milli mənsubiyyətindən, cinsindən, təhsilindən, dinə münasibətindən, siyasi və başqa əqidələrindən asılı olmayaraq bu qanuna müvafiq surətdə öz vəsatəti ilə Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilə bilər. Əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının ərazisində daimi yaşama müddəti ona qanunvericiliklə müəyyən edilmiş qaydada daimi yaşamaq üçün icazə və ya qaçqın statusu verildiyi gündən hesablanır. Azərbaycan Respublikasının ərazisində daimi yaşama müddəti o halda fasiləsiz hesab edilir ki, şəxs il ərzində Azərbaycan Respublikasının ərazisini üç aydan çox olmayan müddətə tərk etmiş olsun. Aşağıdakı hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər bu maddənin birinci hissəsində göstərilən müddət nəzərə alınmadan Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilə bilərlər: 1) şəxsin elm, texnika, mədəniyyət və ya idman sahələrində yüksək nailiyyətləri olduqda; 2) şəxs Azərbaycan Respublikası üçün xüsusi maraq kəsb etdikdə və digər müstəsna hallarda. Bu hallarda əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilməsinin məqsədəuyğunluğu müvafiq icra hakimiyyəti orqanı tərəfindən əsaslandırılmalıdır. Şəxsin Azərbaycan Respublikasının qarşısında xüsusi xidmətləri olduqda o, bu maddənin birinci hissəsində göstərilən şərtlər nəzərə alınmadan Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilə bilər. Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilməsi barədə vəsatət qaldıran şəxs Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit olunmuş dövlət quruluşunu zorakılıqla dəyişdirməyə, Azərbaycan Respublikasının ərazi bütövlüyünü pozmağa çağırışlar edərsə, dövlət təhlükəsizliyinə, ictimai asayişin qorunmasına, əhalinin sağlamlığına və ya mənəviyyatına zərər vuran fəaliyyət göstərərsə, irqi, dini və milli müstəsnalığı təbliğ edərsə, terrorçuluq fəaliyyəti ilə əlaqəsi olarsa, vətəndaşlığa qəbul haqqında vəsatəti rədd edilir. Azərbaycan Respublikası vətəndaşlığına qəbul haqqında qərar Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 20-ci bəndinə müvafiq surətdə qəbul olunur. Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilməsi barədə vəsatət qaldıran şəxs tərəfindən müvafiq dövlət rüsumunun ödənilməsi məsələsi "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Azərbaycan Respublikasının vətəndaşlığına aşağıdakı hallarda xitam verilir: 1) Azərbaycan Respublikasının vətəndaşlığından çıxmaq nəticəsində; 2) Azərbaycan Respublikasının vətəndaşlığını itirmək nəticəsində; 3) Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş əsaslar olduqda; 4) bu qanunda nəzərdə tutulmuş

digər əsaslar olduqda.

26. Vətəndaşlıq hüququ – Azərbaycan Respublikasının vətəndaşlığı haqqında Azərbaycan Respublikasının 30 sentyabr 1998-ci il tarixli Qanununa əsasən, Azərbaycan Respublikası Konstitusiyasının 52-ci maddəsinə görə, Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının vətəndaşlarından doğulmuş şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır.

27. Vətəndaşlıq hüququnun təminatı – Azərbaycan Respublikası Konstitusiyasının 53-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının vətəndaşı Azərbaycan Respublikası vətəndaşlığından (onun qanunla müəyyən edilmiş itirilmə halları istisna olmaqla) məhrum edilə bilməz. Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikasından qovula və ya xarici dövlətə verilə bilməz. Azərbaycan Respublikası onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir.

28. Vətəndaş və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt – Bax: Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt.

29. Vətən müharibəsi – Ermənistanın hərbi təxribatlarına cavab olaraq və tarixi, beynəlxalq səviyyədə tanınmış Azərbaycan torpaqlarının işğaldan azad edilməsi, məcburi köçkünlərin pozulmuş hüquqlarının bərpa edilməsi məqsədilə başlanan və Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun parlaq qələbəsi və Ermənistanın kapitulyasiyası ilə başa çatan 44 günlük müharibə. XX əsrin 80-ci illərinin sonları-90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20%-ni işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür. Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir. 2019-cu ildən etibarən

isə Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmuşdur. Bununla Ermənistan bir daha özünün əsl məqsədinin mövcud status-kvonu möhkəmləndirməkdən və Azərbaycan ərazilərini işğal etməkdən ibarət olduğunu nümayiş etdirmişdir. Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, "yeni ərazilər uğrunda yeni müharibə" çağırışı, mülki şəxslərdən ibarət "könüllü dəstələri" yaratmaq qərarı, 2020-ci il iyulun 12-də Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi. Azərbaycan dəfələrlə bəyan etmişdi ki, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdə qanunsuz mövcudluğu regionda sülh və təhlükəsizlik üçün əsas təhdiddir və hər zaman vəziyyətin gərginləşməsinə səbəb ola bilər. Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu. 44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi. Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi. Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və

kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi. Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı. Azərbaycan öz torpaqlarını 30 illik işğaldan azad edərək ərazi bütövlüyünün bərpasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə nail olmuşdur. 2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərksilah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlanmışdır. Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Bununla da Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin adı tarixə "Qalib Azərbaycan dövlətinin banisi" kimi qızıl hərflərlə yazıldı.

30. **Vicdan azadlığı –** Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquq və azadlıqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinə əsasən, hər kəsin vicdan azadlığı vardır. Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və ya yaymaq hüququ vardır. Dini mərasimlərin yerinə yetirilməsi, ictimai qaydanı pozmursa və ya ictimai əxlaqa zidd deyildirsə, sərbəstdir. Dini etiqad və əqidə hüquq pozuntusuna bəraət qazandırmır. Heç kəs öz dini etiqadını və əqidəsini ifadə etməyə (nümayiş etdirməyə), dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur edilə bilməz. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 18-ci maddəsinə əsasən, hər bir insan düşüncə, vicdan və din azadlığı hüququna malikdir; bu hüquqa öz dinini və ya əqidəsini dəyişmək azadlığı, öz dininə və ya əqidəsinə həm təkbaşına, həm də başqaları ilə birlikdə, dini təlimdə, ibadətdə və dini mərasim qaydalarının yerinə yetirilməsində açıq və fərdi qaydada etiqad

etmək azadlığı daxildir. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 18-ci maddəsinə əsasən, hər bir insanın fikir, vicdan və din azadlığı hüququ vardır. Bu hüquqa özünün seçdiyi dinə və əqidəyə malik olmaq, öz dininə və əqidəsinə istər təklikdə, istərsə də başqaları ilə birgə, açıq, yaxud fərdi qaydada, ibadətdə, dini ayin və mərasimlərin icrasında və təlimdə etiqad bəsləmək azadlığı daxildir. Heç kəs öz seçiminə görə dininə və əqidəsinə malik olmaq və ya onları qəbul etmək azadlığını alçaldan məcburiyyətə məruz qalmamalıdır. Öz dininə və əqidəsinə etiqad etmək azadlığına yalnız qanunla müəyyən edilən və ictimai təhlükəsizliyin, asayişin, sağlamlığın və əxlaqın, eyni dərəcədə digər şəxslərin əsas hüquq və azadlıqlarının mühafizəsi üçün zəruri olan məhdudiyyətlər qoyula bilər. Bu Paktda iştirak edən dövlətlər valideynlərin və müvafiq hallarda qanuni qəyyumların uşaqlarının öz şəxsi əqidələrinə uyğun dini və mənəvi tərbiyə almasını təmin etmək azadlığına hörmət etməyi öhdələrinə götürürlər. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın 9-cu maddəsinə əsasən, hər kəsin fikir, vicdan və din azadlığı hüququ vardır; bu hüquqa öz dinini və ya əqidəsini dəyişmək azadlığı, öz dininə və ya əqidəsinə həm təkbaşına, həm də başqaları ilə birlikdə etiqad etmək və açıq, yaxud şəxsi qaydada ibadəti, təlimləri, dini və mərasim ayinlərini yerinə yetirmək azadlığı daxildir. Öz dininə və baxışlarına etiqad etmək azadlığı yalnız ictimai asayiş maraqları naminə, ictimai qaydanı, sağlamlığı, yaxud mənəviyyatı qorumaq üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan məhdudiyyətlərə məruz qala bilər. Vicdan azadlığı insanın düşünmək və öz əqidəsinə uyğun olaraq davranmaq hüququdur. O, bir-biri ilə üzvi surətdə bağlı olan bir sıra struktur elementləri özündə birləşdirir: hər hansı bir dinə etiqad etmək; dini ibadət etmək; dinini dəyişdirmək; heç bir dinə etiqad etməmək; ateist təbliğatı aparmaq; dini qurum yaratmaq; öz dinini təbliğ etmək; dini mədəni-maarif fəaliyyəti göstərmək; dinə olan münasibətindən asılı olmayaraq hamının qanun qarşısında bərabərliyi.

31. **Vis legibus est inimica** (lat.) – zorakılıq hüququn düşmənidir.
32. **Vita et membra sunt in potestate legis** (lat.) – insanın həyatı və vücudu qanunun hökmranlığı altındadır.
33. **Voluntas in delictis non exitus spectatur** (lat.) – cinayətdə əsas olan nəticə deyil, niyyətdir.
34. **Vyana Bəyannaməsi və Fəaliyyət Proqramı** – Avstriyanın paytaxtı Vyana şəhərində keçirilmiş İnsan hüquqları üzrə Ümumdünya Konfran-

sında 1993-cü il iyunun 25-də 171 dövlətin iştirakı ilə qəbul edilmiş insan hüquqlarına dair ən mühüm sənədlərdən biri. 100 bənddən ibarət olan Vyana Bəyannaməsi və Fəaliyyət Proqramında insan hüquqlarının təşviqinin və müdafiəsinin beynəlxalq birlik üçün birinci dərəcəli məsələ olduğu, insan hüquqlarının insan şəxsiyyətinə xas olan ləyaqətdən irəli gəldiyi, insan şəxsiyyətinin insan hüquqlarının və əsas azadlıqların mərkəzi subyekti olduğu, insan hüquqlarına və əsas azadlıqlara hörmət edilməsinin, onların təmin edilməsinin və müdafiəsinin təşviqi üzrə öhdəliklərin yerinə yetirilməsinin dövlətlərin müqəddəs borcu olduğu, insan hüquq və azadlıqlarının universallığının heç bir şübhə doğurmadığı, insan hüquqlarının və əsas azadlıqların hər kəsə anadan olandan məxsus olduğu və onların müdafiəsinin və təşviq edilməsinin dövlətlərin ən birinci vəzifəsi olduğu qeyd edilir. Həmçinin bütün insan hüquqlarının universal, bölünməz, bir-birindən asılı və bir-biri ilə əlaqəli olduğu, dövlətlərin siyasi, iqtisadi və mədəni sistemlərindən asılı olmayaraq bütün insan hüquqlarının və əsas azadlıqların təşviq və müdafiə etmək üzrə öhdəlik daşıdıqları vurğulanır. Sənəddə BMT sistemi çərçivəsində insan hüquqları sahəsində fəaliyyətin əlaqələndirilməsinin gücləndirilməsi, bərabərlik, ləyaqət və tolerantlıq, milli və ya etnik, dini və dil azlıqlarına mənsub olan şəxslərin, əməkçi-miqrantların, qadınların, uşaqların, əlilliyi olan şəxslərin hüquqlarının səmərəli müdafiəsi ilə bağlı müddəalar öz əksini tapmışdır. Xüsusi olaraq qeyd edilmişdir ki, "insan ləyaqətinin alçaldılmasının ən mənfur üsulu işgəncədir və bunun da nəticəsində insan öz ləyaqətindən məhrum olur". Sənəddə işgəncəyə məruz qalmamaq hüququ məhdudlaşdırılmasına yol verilməyən mütləq hüquq kimi göstərilir. Sənədin mühüm bölmələrindən biri də insan hüquqları sahəsində təhsillə bağlıdır. İnsan hüquqları sahəsində təhsilin, bu sahədə kadr hazırlığı və cəmiyyətin insan hüquqları barədə məlumatlandırılmasının qarşılıqlı anlaşmanın, dözümlülüyün və sülhün möhkəmləndirilməsi baxımından zəruriliyi vurğulanır. Daha sonra qeyd olunur ki, "təhsil insan şəxsiyyətinin tam inkişafına və insan hüquqlarına və əsas azadlıqlara hörmətin möhkəmləndirilməsinə yönəldilməlidir. İnsan hüquqları, humanitar hüquq, demokratiya və qanunçuluqla bağlı məsələlər bütün tədris müəssisələrinin tədris proqramlarına daxil edilməlidir. İnsan hüquqları sahəsində təhsil sülhün, demokratiyanın, inkişafın və sosial ədalətin təmin edilməsi ilə bağlı məsələləri əhatə etməlidir". Əlilliyi olan şəxslərin hüquqları ilə bağlı qeyd olunur ki, "bütün insan hüquqları və əsas azadlıqlar universaldır və bununla da onlar heç şübhəsiz ki, əlilliyi olan şəxsləri də əhatə edir. Əlilliyi olan

şəxslərə münasibətdə istənilən birbaşa diskriminasiya və ya digər neqativ diskriminasion rəftar onların hüquqlarının pozuntusudur. Əlilliyi olan şəxslər tam şəkildə cəmiyyətin həyatında iştirak etmək hüququna malikdirlər". Bəyannamə və Fəaliyyət Proqramında uşaq hüquqları ilə bağlı mühüm müddəalar təsbit olunmuşdur. Konfrans "uşaqlara birinci dərəcəli diqqət" prinsipini təsdiqləmiş və uşaq hüquqlarına, ilk növbədə isə yaşamaq, müdafiə, inkişaf və iştirak hüququna hörmətin təşviq edilməsinin zəruriliyi qeyd olunmuşdur. Qız uşaqlarının hüquqlarının səmərəli müdafiəsinin vacibliyi xüsusilə qeyd olunmuşdur. "Bərabər vəziyyət və qadın hüquqları" adlanan bölmədə qadınların bütün insan hüquqlarından tam şəkildə və bərabər əsaslarla istifadəsinin, həmçinin qadınlara münasibətdə bütün növ açıq və gizli diskriminasiyanın aradan qaldırılmasının zəruriliyi qeyd olunmuşdur. Bəyannamə və Fəaliyyət Proqramında bütün əməkçi-miqrantların və onların ailə üzvlərinin insan hüquqlarının müdafiəsinin, milli və ya etnik, dini və dil azlıqlarına mənsub olan şəxslərin hüquqlarının müdafiə və təşviq edilməsinin, irqçilik, irqi ayrı-seçkilik, ksenofobiya və dözümsüzlüyün digər formalarının aradan qaldırılmasının zəruriliyi vurğulanmışdır.

Y

1. **Yaradıcılıq azadlığı** – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquq və azadlıqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 51-ci maddəsinə əsasən, hər kəsin yaradıcılıq azadlığı vardır. Dövlət ədəbi-bədii, elmi-texniki və başqa yaradıcılıq növlərinin azad həyata keçirilməsinə təminat verir. İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 15-ci maddəsinə əsasən, bu Paktda iştirak edən dövlətlər elmi tədqiqatlar və yaradıcılıq fəaliyyəti üçün qeyri-şərtsiz olaraq lazım olan azadlığa hörmət etməyi öhdələrinə götürürlər.
2. **Yaşamaq hüququ** – Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsinə əsasən, hər kəsin yaşamaq hüququ vardır. Dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən ölüm cəzasının tətbiqi və qanunla nəzərdə tutulmuş digər hallar istisna olmaqla, hər bir şəxsin yaşamaq hüququ toxunulmazdır. Müstəsna cəza tədbiri kimi ölüm cəzası, tam ləğv edilənədək, yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı xüsusilə ağır cinayətlərə görə qanunla müəyyən edilə bilər. Qanunla nəzərdə tutulmuş zəruri müdafiə, son zərurət, cinayətkarın yaxalanması və tutulması, həbsdə olanın həbs yerindən qaçmasının qarşısının alınması, dövlətə qarşı qiyamın yatırılması və ya dövlət çevrilişinin qarşısının alınması, ölkəyə silahlı basqın edilməsi halları istisna olmaqla insana qarşı silah işlədilməsinə yol verilmir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 3-cü maddəsinə əsasən, hər bir şəxsin yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququ var. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 6-cı maddəsinə müvafiq olaraq, yaşamaq hüququ hər bir insanın ayrılmaz hüququdur. Bu hüquq qanunla qorunur. Heç kim özbaşınalıqla həyatdan məhrum edilə bilməz. Avropa İnsan Hüquqları Konvensiyasının 2-ci maddəsinə görə, hər kəsin yaşamaq hüququ qanunla qorunur. Heç kəs qanunla ölüm cəzası nəzərdə tutulmuş cinayət törətməyə görə, məhkəmə tərəfindən çıxarılmış belə hökmün icrasından başqa, həyatından məhrum edilə bilməz. Yaşamaq hüququ insan hüquqları sırasında özünəməxsus yer tutur və təbii olaraq ən mühüm hüquq sayılır. Yaşamaq hüququ insan hüquqları və azadlıqları kompleksinin əsasını təşkil edir. İnsan hüquqlarına dair fundamental beynəlxalq-hüquqi aktların müddəalarına əsasən yaşamaq

hüququ qanunla qorunur və heç kəs qanunsuz olaraq həyatdan məhrum edilə bilməz. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 6-cı maddəsinin, Amerika İnsan Hüquqları Konvensiyasının 4-cü maddəsinin və Avropa İnsan Hüquqları Konvensiyasının 2-ci maddəsinin təmin etdiyi müdafiənin dərəcəsi konkret müqavilələrdə nəzərdə tutulmuş ölüm cəzasına qoyulan məhdudiyyətlərdən asılı olaraq fərqlənir, lakin İnsan Hüquqları Komitəsinin qeyd etdiyi kimi, belə məhdudiyyətlər və "öhdəliklərdən geri çəkilmə" fərqli məsələlərdir. Bu üç müqavilənin arasında yalnız Avropa Konvensiyasında həyatdan məhrum etməyə konkret olaraq hansı hallarda icazə verildiyi göstərilir. Belə ki, bu Konvensiyanın 2-ci maddəsinə əsasən, "həyatdan məhrum etmə aşağıdakı məqsədlər üçün güc tətbiqində mütləq zərurətin nəticəsi olduqda bu maddənin pozuntusu hesab edilmir: a) istənilən şəxsin hüquqa zidd zorakılıqdan qorunması üçün; b) qanuni həbsi həyata keçirmək və ya qanuni əsaslarla həbsdə olan şəxsin qaçmasının qarşısını almaq üçün; c) qanuna müvafiq olaraq iğtişaş və ya qiyamın yatırılması üçün" (2-ci maddənin 2-ci bəndi). İnsan hüquqlarına dair beynəlxalq hüquq normaları ilə qorunan yaşamaq hüququ, eyni zamanda o deməkdir ki, dövlətlər insanları qanunsuz və ya məhkəmədənkənar qətlə yetirməməli və belə halların baş verməsinə imkan verməməlidirlər. Dövlətin üzərində yaşamaq hüququnun pozuntularının qarşısını almaq, belə halları araşdırmaq, təqsirkarları məhkəməyə cəlb etmək və cəzalandırmaq və pozuntulardan zərər çəkənləri kompensasiya ilə təmin etmək öhdəliyi vardır. Yaşamaq hüququnu səmərəli şəkildə müdafiə etmək üçün pozitiv tədbirlər görmək vəzifəsi fövqəladə vəziyyətlərdə də qüvvədə qalır. İnsan Hüquqları Komitəsi qeyd etmişdir ki, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 6-cı maddəsi ilə təmin edilən və insan şəxsiyyətindən ayrılmaz olan yaşamaq hüququ məhdudlaşdırılmış tərzdə şərh edilə bilməz və bu hüququ müdafiə etmək öhdəliyi dövlətlər tərəfindən konstruktiv tədbirlər görülməsini tələb edir. Yaşamaq hüququnun səmərəli təmini sahəsində mübahisəli məsələlərdən biri də abortla bağlıdır. İnsan hüquqlarına dair beynəlxalq hüquq normalarında abort məsələsinə birbaşa toxunulmur, lakin İnsan hüquqları haqqında Amerika Konvensiyasının 4-cü maddəsinin 1-ci bəndində nəzərdə tutulur ki, bir qayda olaraq, yaşamaq hüququ "mayalanma anından başlayaraq qanunla qorunur". Bu müddəadan belə nəticə çıxır ki, hətta hamiləliyin ilk həftələrində səbəbsiz yerə abortdan istifadə edilməsi istisna olunmalıdır. Bu məsələni Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 6-cı maddəsinin müddəaları baxımından

nəzərdən keçirərkən İnsan Hüquqları Komitəsi Qvatemaladakı vəziyyətlə əlaqədar bildirmişdir ki, "ananın həyatı üçün birbaşa ölüm təhlükəsinin olduğu hallardan başqa qalan bütün hallarda qüvvədə olan qanunvericilikdə nəzərdə tutulmuş sərt cəza tədbirlərini tətbiq etməklə abort etdirmə hallarını cinayət əməli kimi cəzalandırmaq ciddi problemlər yaradır. Belə ki, təkzibolunmaz məlumatlara əsasən, bu cür tədbirlər xüsusən analar arasında ölüm hallarının yüksək səviyyədə olmasına, qanunsuz abortların həyata keçirilməsinə səbəb olur və əhalinin ailə planlaşdırılması məsələlərində məlumatsızlığı da öz təsirini göstərir". Buna görə də, Komitənin rəyinə əsasən, iştirakçı dövlətlər: "hamiləliklərinə son qoymağı qərara almış qadınların yaşamaq hüququnu (6-cı maddə) təmin etmək üçün zəruri tədbirlər görməyə borcludurlar və bu məqsədlə hamilə qadınları onların hüquqlarına riayət edilməsini təmin edən zəruri məlumat və vasitələrlə təchiz etməli və ananın həyatı üçün birbaşa ölüm təhlükəsinin olduğu hallardan başqa qalan bütün hallarda abortlara ümumi qadağa qoyan qanunvericilikdə müəyyən istisna halları nəzərdə tutan dəyişikliklər etməlidirlər". İnsan Hüquqları Komitəsi həmçinin qeyd etmişdir ki, "yaşamaq hüququna çox vaxt dar çərçivəli şərh verilir". Komitənin rəyinə görə: "Ayrılmaz hüquq olan yaşamaq hüququ" ifadəsi məhdudlaşdırılmış formada şərh edildikdə düzgün anlaşıla bilməz və bu hüququn qorunması dövlətlər tərəfindən pozitiv tədbirlərin görülməsini tələb edir. Bununla əlaqədar olaraq Komitə hesab edir ki, körpələrin ölüm hallarının səviyyəsini azaltmaq və yaşama müddətini uzatmaq, xüsusən aclıq və epidemiyalarla mübarizə aparmaq üçün iştirakçı dövlətlər tərəfindən mümkün olan bütün tədbirlərin görülməsi məqsədəuyğundur. Avropa İnsan Hüquqları Konvensiyasının 2-ci maddəsi ilə təmin edilən yaşamaq hüququnu şərh edərkən Avropa İnsan Hüquqları Məhkəməsi bildirmişdir ki, 2-ci maddənin 1-ci bəndinin birinci cümləsi "təkcə dövlətin insanları qəsdən və qanunsuz olaraq həyatdan məhrum etməkdən çəkinməsini deyil, həm də yurisdiksiyası daxilində olan şəxslərin həyatını qorumaq üçün lazımi tədbirlər görməsini tələb edir". Məhkəmənin mövqeyinə görə, bu öhdəlik: "dövlətin üzərinə fərdləri şəxsiyyət əleyhinə cinayətlər törətməkdən çəkindirən və arxasında həmin normaların pozulması hallarının qarşısının alınmasını, kökünün kəsilməsini və onları pozanların cəzalandırılmasını təmin edən hüquq mühafizə mexanizmləri dayanan səmərəli cinayət qanunvericiliyi normalarını qəbul etməklə yaşamaq hüququnu təmin etməkdən ibarət mühüm vəzifə qoyur. O həmçinin müvafiq hallarda digər fərdin cinayətkar

hərəkətləri nəticəsində həyatı təhlükə altında olan fərdin və ya fərdlərin müdafiəsi üçün dövlətin qabaqlayıcı tədbirlər görməkdən ibarət pozitiv öhdəliyini doğurur". Makkenn (McCann) və başqaları Birləşmiş Krallığa qarşı işdə Məhkəmə bildirmişdir ki, "dövlət orqanları tərəfindən ölümlə nəticələnə bilən güc tətbiqinin qanuniliyini yoxlamaq üçün prosedurlar mövcud olmasa, dövlət nümayəndələri tərəfindən qanunsuz qətlə yetirilmə hallarına qanunla qoyulmuş ümumi qadağa praktikada səmərəsiz olar. 2-ci maddənin 1-ci bəndində nəzərdə tutulmuş yaşamaq hüququnu qorumaq öhdəliyi, Konvensiyanın 1-ci maddəsinin dövlətin üzərinə qoyduğu "hər kəs üçün Konvensiyada müəyyən olunmuş hüquq və azadlıqları təmin etmək" öhdəliyi ilə birgə götürülməklə, dolayısı ilə tələb edir ki, fərdlər dövlət nümayəndələri tərəfindən güc tətbiqi nəticəsində qətlə yetirildikdə müəyyən formada rəsmi araşdırma aparılsın". Beləliklə, Avropa İnsan Hüquqları Konvensiyasının 2-ci maddəsində nəzərdə tutulmuş yaşamaq hüququnu təmin etmək üçün iştirakçı dövlətlər bu hüququn pozulması halları ilə əlaqədar səmərəli qabaqlayıcı, araşdırıcı, qadağanedici və cəzalandırıcı tədbirlər görməyə borcludurlar. İnsan hüquqlarının pozuntularını araşdırmaq, məhkəmə təqibini həyata keçirmək və təqsirkarları cəzalandırmaq vəzifəsi, təbii ki, Avropa İnsan Hüquqları Konvensiyasının iştirakçısı olan bütün dövlətlərə eyni qaydada şamil olunur. Məsələn, baxdığı bir çox işlərdə Avropa İnsan Hüquqları Məhkəməsi yaşamaq hüququnun pozulması ilə bağlı araşdırma aparmaq öhdəliyinin əhəmiyyətini vurğulayıb. Avropa Məhkəməsi bu mühüm məsələ ilə bağlı özünün məhkəmə praktikasını Avşarın işi üzrə qərarında qısaca ümumiləşdirib. Həmin qərarda deyilir: "Konvensiyanın 2-ci maddəsində nəzərdə tutulmuş yaşamaq hüququnu qorumaq öhdəliyi, dövlətin Konvensiyanın 1-ci maddəsində nəzərdə tutulmuş ümumi öhdəliyi ilə, yəni "yurisdiksiyası daxilində olan hər kəs üçün Konvensiyada müəyyən olunmuş hüquq və azadlıqları təmin etmək" öhdəliyi ilə əlaqəli şəkildə götürülməklə, dolayısı ilə tələb edir ki, bu və ya digər şəxslər güc tətbiqi nəticəsində qətlə yetirildikdə müəyyən formada rəsmi araşdırma aparılmalıdır... Belə araşdırmanın əsas məqsədi yaşamaq hüququnu qoruyan ölkədaxili qanunların səmərəli tətbiqini təmin etməkdən və dövlət nümayəndələrinin və ya orqanlarının cəlb olunduğu işlərdə onların cavabdehliyi altında baş verən ölüm hallarına görə onların məsuliyyətini təmin etməkdən ibarətdir. Bu məqsədlərə nail olmaq üçün aparılan araşdırmaların forması müxtəlif hallardan asılı olaraq fərqlənə bilər. Lakin hansı formada araşdırma aparılmasından asılı olmayaraq, müvafiq məsələ on-

ların diqqətinə çatdırılan kimi dövlət orqanları öz təşəbbüsləri əsasında hərəkət etməlidirlər. Onlar bu məsələni mərhumun yaxın qohumunun öhdəsinə buraxaraq onun rəsmi şikayət ərizəsi verməsini və ya istintaq hərəkətlərinə başlamaq üçün müraciət etməsini gözləməməlidirlər...". Məhkəmə həmçinin qeyd etmişdir ki, "yaşamaq hüququnu nəzərdə tutan Avropa Konvensiyasının 2-ci maddəsinin müddəalarından irəli gələn prosessual öhdəlik daha geniş araşdırma aparılmasını tələb edir". Bu işdə zərərçəkən mühafizə və təhlükəsizlik xidmətinin əməkdaşları tərəfindən evindən çıxarılaraq aparılmışdı. O, polis bölməsinə gətirilmiş və daha sonra başqa yerə aparılaraq qətlə yetirilmişdi. Məhkəmə bu nəticəyə gəldi ki, Konvensiyanın 2-ci maddəsi pozulub, çünki "polis, dövlət ittihamçısı və məhkəmə tərəfindən aparılmış araşdırma Mehmet Şerif Avşarın qətlinin halları ilə bağlı operativ və adekvat araşdırma təşkil etmirdi". Beləliklə, "dövlət yaşamaq hüququnun müdafiəsini təmin etmək vəzifəsindən irəli gələn prosessual öhdəliyini pozmuşdu", yəni yaşamaq hüququnun pozuntusunu araşdırmaq vəzifəsini yerinə yetirməmişdi. Bundan başqa, Məhkəmə qərara aldı ki, Avşarın qətlinə görə hökumət məsuliyyət daşıyır. Bu qərar o demək idi ki, dövlət, həmçinin substantiv (maddi-hüquqi) öhdəliyini pozub, yəni Avropa Konvensiyanın 2-ci maddəsində nəzərdə tutulmuş yaşamaq hüququnu qorumayıb.

3. **Yaşayış yeri seçmək hüququ –** Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsinə əsasən, qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəs sərbəst hərəkət edə bilər, özünə yaşayış yeri seçə bilər və Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilər. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 13-cü maddəsinə əsasən, hər bir insan, hər bir dövlətin hüdudları daxilində sərbəst hərəkət etmək və özünə yaşayış yeri seçmək hüququna malikdir. Hər bir insan, öz ölkəsi də daxil olmaqla, istənilən ölkəni tərk etmək və öz ölkəsinə qayıtmaq hüququna malikdir. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 12-ci maddəsinə müvafiq olaraq, hər hansı bir dövlətin ərazisində qanuni olan hər bir kəs bu ərazinin hüdudları daxilində sərbəst hərəkət etmək və özünə yaşayış yeri seçmək hüququna malikdir. Hər bir insan, öz ölkəsi də daxil olmaqla, istənilən ölkəni tərk etmək hüququna malikdir. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasına dair 4 saylı Protokolun 2-ci maddəsinə görə, qanuni əsaslarla hər hansı dövlətin ərazisində olan hər kəsin həmin ərazidə sərbəst hərəkət etmək və

özünə yaşayış yeri seçmək hüququ vardır. Hər kəs, öz ölkəsi də daxil olmaqla, hər hansı ölkəni tərk etməkdə azaddır. Bu hüquqların həyata keçirilməsinə milli təhlükəsizlik və ictimai asayiş maraqları naminə, ictimai qaydanı qorumaq üçün, cinayətin qarşısını almaq üçün, sağlamlığın və mənəviyyatın qorunması üçün və ya digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olanlardan başqa, heç bir məhdudiyyət qoyula bilməz.

4. **Yetkinlik yaşına çatmayan şəxslərə münasibətdə ədalət mühakiməsinin həyata keçirilməsinə dair BMT-nin minimal standart qaydaları (Pekin qaydaları) –** BMT Baş Assambleyasının 40/33 saylı, 29 noyabr 1985-ci il tarixli qətnaməsi ilə qəbul edilmiş sənəd. Qaydalara görə, yetkinlik yaşına çatmayan şəxslərə münasibətdə ədalət mühakiməsi bütün yetkinlik yaşına çatmayanlar üçün sosial ədalətin hərtərəfli təmin edilməsi çərçivəsində hər bir ölkənin milli inkişaf prosesinin tərkib hissəsi olmalıdır. Bu Qaydaların məqsədləri üçün yetkinlik yaşına çatmayan dedikdə, mövcud hüquq sistemi çərçivəsində hüquq pozuntusuna görə yetkinlik yaşına çatmış şəxslər üçün nəzərdə tutulmuş məsuliyyət formasından fərqli qaydada məsuliyyətə cəlb olunan uşaq və ya gənc insan, hüquq pozuntusu dedikdə isə, mövcud hüquq sistemi çərçivəsində qanuna uyğun olaraq cəzalandırılan istənilən əməl (hərəkət və ya hərəkətsizlik) başa düşülür. Minimal standart qaydalar elə tərtib olunmuşdur ki, müxtəlif hüquq sistemləri çərçivəsində tətbiq edilə bilsin. Qaydalar bütün hallarda qərəzsiz və heç bir ayrı-seçkiliyə yol vermədən tətbiq edilməlidir. Qaydaların 2.3-cü bəndinə əsasən, qanunvericilikdə və təcrübədə bu minimal standart qaydaların implementasiyası üçün milli qanunvericilik aktlarının qəbuluna ehtiyac vardır. Qaydaların 5.1-ci bəndinə görə, yetkinlik yaşına çatmayanlara münasibətdə ədalət mühakiməsinin məqsədi ilk növbədə yetkinlik yaşına çatmayanların rifah halının təmini və onlara qarşı tətbiq olunan təsir tədbirlərinin yetkinlik yaşına çatmayanların şəxsiyyətinin xüsusiyyətlərinə və törədilmiş hüquq pozuntusuna uyğunluğu olmalıdır. Qaydaların "Yetkinlik yaşına çatmayanların hüquqları" adlanan 7-ci bəndinə görə, məhkəmə araşdırmasının bütün mərhələlərində əsas prosesual təminatlar – təqsirsizlik prezumpsiyası, irəli sürülən ittiham barəsində məlumatlı olmaq hüququ, ifadə verməkdən imtina etmək hüququ, vəkillə təmin edilmək hüququ, valideynlərin və ya qəyyumun iştirak etmək hüququ, yuxarı instansiyaya apellyasiya vermək hüququ təmin edilməlidir. Konfidensiallıqla bağlı müddəaları da özündə ehtiva edən qaydalarda vurğulanır ki, hüquq pozuntusu törətmiş yetkinlik yaşı-

na çatmayanın şəxsiyyətini bildirən hər hansı bir məlumatın yayılmasına yol verilmir.

5. **Yığıncaqlar azadlığı –** Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuş əsas insan hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 49-cu maddəsinə əsasən, hər kəsin başqaları ilə birlikdə müvafiq dövlət orqanlarını qabaqcadan xəbərdar etməklə, ictimai qaydanı və ya ictimai əxlaqı pozmamaq şərtilə, dinc, silahsız yığışmaq, yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri keçirmək, piketlər düzəltmək hüququ vardır. Sərbəst toplaşmaq azadlığı haqqında Azərbaycan Respublikasının 13 noyabr 1998-ci il tarixli Qanununa görə, hər kəsin başqaları ilə birlikdə sərbəst toplaşmaq azadlığı Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr ilə təmin edilir. Dövlət sərbəst toplaşmaq azadlığının həyata keçirilməsini təmin edir və bu Qanuna uyğun təşkil edilən toplantıların dinc və silahsız keçməsi üçün müvafiq tədbirlər görür. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 20-ci maddəsinə əsasən, hər bir insan dinc yığıncaqlar və assosiasiyalar azadlığı hüququna malikdir. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 21-ci maddəsinə əsasən, dinc yığıncaqlar keçirmək hüququ tanınır. Bu hüquqdan istifadəyə qanuna müvafiq surətdə qoyulan və demokratik cəmiyyətdə dövlətin və ictimaiyyətin təhlükəsizliyi, ictimai asayiş, əhalinin sağlamlığının və mənəviyyatının və yaxud başqa şəxslərin hüquq və azadlıqlarının qorunması mənafeləri üçün zəruri olan məhdudiyyətlərdən başqa, heç bir məhdudiyyət qoyula bilməz. Avropa İnsan Hüquqları Konvensiyasının 11-ci maddəsinə uyğun olaraq, hər kəsin dinc toplaşmaq azadlığı və öz maraqlarını müdafiə etmək üçün həmkarlar ittifaqları yaratmaq və onlara qoşulmaq hüququ da daxil olmaqla, başqaları ilə birləşmək azadlığı hüququ vardır. Bu hüquqların həyata keçirilməsinə milli təhlükəsizlik və ictimai asayiş maraqları naminə, iğtişaşın və cinayətin qarşısını almaq üçün, sağlamlığın və mənəviyyatın qorunması üçün və ya digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olanlardan başqa, heç bir məhdudiyyət qoyula bilməz. Bu maddə silahlı qüvvələr, polis və ya inzibati dövlət orqanları üzvlərinin belə hüquqlarının həyata keçirilməsinə qanuni məhdudiyyətlər qoyulmasına mane olmur.

6. **Yuqoslaviya tribunalı –** keçmiş Yuqoslaviya ərazisində baş vermiş hadisələri araşdırmaq və ağır cinayətlər törətmiş şəxsləri mühakimə etmək məqsədilə təsis edilmiş ad hoc beynəlxalq tribunal. Tribunal BMT

Təhlükəsizlik Şurasının 22 fevral 1993-cü il tarixli, 808 saylı və 25 may 1993-cü il tarixli 827 saylı qətnamələri əsasında yaradılmışdır. Tribunalın nizamnaməsinə uyğun olaraq, o, müharibə cinayətləri, genosid və insanlıq əleyhinə cinayətlərə münasibətdə yurisdiksiyaya malikdir. Tribunalın yalnız fiziki şəxslər üzərində yurisdiksiyası vardır. Tribunal 160-dan çox şəxs barəsində ittiham irəli sürmüş və onlarla şəxs barəsində hökm çıxarmışdır. Tribunalın yerləşdiyi yer Haaqa şəhəridir (Niderland). Tribunal beynəlxalq cinayət hüququnun inkişafına mühüm töhfələr vermişdir. O, müharibə cinayətlərinin və insanlıq əleyhinə cinayətlərin tərkib elementlərini genişləndirmiş və konkretləşdirmişdir. Tribunal öz işini 2017-ci ildə başa vurmuşdur.

7. **Yurisdiksiya** (lat. jurisdictio – səlahiyyət) – dövlətin öz hakimiyyət səlahiyyətlərini həyata keçirməsini ifadə edən termin. Dövlətin qanunverici, inzibati (icra) və məhkəmə yurisdiksiyası fərqləndirilir. Geniş mənada dövlətin öz yurisdiksiyasını həyata keçirməsi ərazisi hüdudları daxilində öz suverenliyini həyata keçirməsidir. Yurisdiksiya dövlətin hüquqi hakimiyyəti olmaqla, onun hüquqi formaya salınmış məcburetmə mexanizmidir.
8. **Yurisprudensiya** (lat. juris prudentia – hüquqşünaslıq, hüquq haqqında elm, lat. jus – hüquq və prudentia – bilik) – dövlət və hüquq haqqında elm. Müstəqil elm sahəsi kimi bizim eradan əvvəl IV əsrin sonları, III əsrin əvvəllərində Qədim Romada təşəkkül tapmışdır. Qədim Roma hüquqşünasları yurisprudensiyanı "yaxşılıq və ədalət sənəti" kimi müəyyən edirdilər. Məşhur romalı hüquqşünas Domisi Ulpian (lat. Domitius Ulpianus; bizim eranın II-III əsrləri) yurisprudensiyanı ilahi və insani əməllərin, haqlının və haqsızın dərk edilməsi kimi müəyyən edirdi. Yurisprudensiya termini özündə bir neçə komponenti birləşdirir: dövlət və hüquq haqqında elm; dövlət və hüquq haqqında biliklərin məcmusu; hüquq haqqında biliklərin praktik tətbiqi, hüquqşünasların fəaliyyəti. Həmçinin bax: hüquq elmi.
9. **Yuvenal ədliyyə** (lat. juvenalis – gənc) – yetkinlik yaşına çatmayan şəxslərə münasibətdə ədalət mühakiməsini həyata keçirən məhkəmə orqanları sistemi.
10. **Yuvenal məhkəmə** – xüsusi prosessual qaydada yetkinlik yaşına çatmayan şəxslərə münasibətdə ədalət mühakiməsini həyata keçirən məhkəmə orqanı. İlk yuvenal məhkəmə orqanı 1899-cu ildə ABŞ-nin Çikaqo şəhərində təsis edilmişdir. ABŞ təcrübəsi əsasında yuvenal məhkəmələr 1908-ci ildən Böyük Britaniyada, 1914-cü ildən isə Fransada fəaliyyətə

başlamışdır. Yuvenal məhkəmələrin əsas vəzifələrindən biri uşaqların hüquqlarının müdafiəsi və onların reabilitasiyasıdır. Yuvenal məhkəmələrin fəaliyyəti ədalət mühakiməsinin ümumi prinsipləri ilə yanaşı, bir sıra xüsusi prinsiplərə əsaslanır: uşaqların hüquqlarının və qanuni maraqlarının üstünlüyü, məhkəmə prosesinin məxfiliyi, məhkəməyəqədər barışdırıcı prosedurların mütləq qaydada tətbiqi, uşağın şəxsiyyətinin və onun hüquq pozuntusu törətməsinin səbəblərinin mütləq qaydada tədqiqi və s.

11. **Yuvenal sistem –** hüquq pozuntusu törətmiş yetkinlik yaşına çatmayan şəxslərlə işləyən dövlət orqanları sistemi. Belə orqanlara ixtisaslaşmış polis, məhkəmə, prokurorluq, penitensiar xidmət və digər orqanlar aiddir.

Z

1. **Zəfər Günü –** Vətən müharibəsində Azərbaycan xalqının qələbəsi şərəfinə qeyd edilən gün. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" Sərəncama əsasən qeyd edilir. Sərəncama əsasən hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilir. Sərəncamda göstərilir ki, Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı. Azərbaycan Respublikası Prezidentinin 3 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilir.

ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Abdullayev, F.S. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hüquqi mövqeləri / F.S.Abdullayev. – Bakı: Zərdabi LTD MMC, – 2013. – 664 s.
2. Bayramova, P.A. Fövqəladə vəziyyət şəraitində insan hüquqlarının müdafiəsi / P.A.Bayramova. – Bakı: Azərbaycan Universiteti, – 2004. – 184 s.
3. Beynəlxalq hüquq / Məsul redaktor və tərcüməçi R.F.Məmmədov. – Bakı: Qanun, – 2002. – 752 s.
4. Əliyev, E.Ə. Beynəlxalq publik hüquq kursu. Ümumi hissə. Dərslik: [2 cilddə] / E.Ə.Əliyev, F.E.Hüseynova. Yenidən işlənmiş və təkmilləşdirilmiş ikinci nəşr.– Bakı: Bakı Universiteti, – c. 1. – 2023. – 752 s.
5. Əliyev, Ə.İ. Avropa hüququ. Dərslik /Ə.İ.Əliyev, E.Ə.Əliyev, A.A.Məhərrəmov, Ə.Q.Məmmədov, F.E.Hüseynova. – Bakı: Günəş-B, – 2016. – 764 s.
6. Əliyev, Ə.İ. Azərbaycan beynəlxalq cinayətlər hədəfində: hüquqi təhlil (Azərbaycan, fransız, ingilis, rus və türk dillərində) / Ə.İ.Əliyev. – Bakı: Nurlar, – 2018. – 176 s.
7. Əliyev, Ə.İ. İnsan hüquqları. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşri / Ə.İ.Əliyev. – Bakı: Nurlar, – 2019. – 352 s.
8. Əliyev, M.N. Sosial təminat hüququ / M.N.Əliyev. – Bakı: Adiloğlu, – 2007. – 464 s.
9. Əliyev, Ş.İ. İnsan hüquqları sistemində sosial hüquqlar (nəzəri və praktiki məsələlər). Dərs vəsaiti / Ş.İ.Əliyev. – Bakı: Bakı Universiteti, – 2008. – 368 s.
10. Əliyev, Z.H. Avropa İnsan Hüquqları Məhkəməsi. Dərs vəsaiti / Z.H.Əliyev. – Bakı: – AZSEA, – 2012. – 232 s.
11. Əliyev, Z.H. İnsan Hüquqları Ümumi Bəyannaməsi və Azərbaycan Respublikasının Konstitusiyası / Z.H.Əliyev. – Bakı: – 2003. – 36 s.
12. Əliyev, Z.H. Ulu Öndər Heydər Əliyev və hüquq elminin inkişafı. Monoqrafiya / Z.H.Əliyev. – Bakı: – 2023. – 142 s.
13. Əsgərov, Z.A. Konstitusiya hüququ. Dərslik / Z.A.Əsgərov. – Bakı: Bakı Universiteti, – 2024. – 608 s.
14. Hüquq ensiklopedik lüğəti / Red. hey. sədri M.F.Məlikova. – Bakı: Azərbaycan Ensiklopediyasının Baş Redaksiyası, – 1991. – 544 s.
15. Hüseynov, L.H. Beynəlxalq hüquq. Dərslik. Yenidən işlənmiş ikinci nəşr / L.H.Hüseynov. – Bakı: Qanun, – 2012. – 368 s.

16. İbayev, V.Ə. Avropa Məhkəməsi presedentləri: mülkiyyət hüququ / V.Ə.İbayev. – Bakı: Elm, – 2007. – 250 s.
17. İbayev, V.Ə. Avropa Məhkəməsi presedentləri: sərbəst toplaşmaq və birləşmək azadlığı / V.Ə.İbayev, A.Q.Hüseynov. – Bakı: Elm, – 2007. – 224 s.
18. İbayev, V.Ə. Beynəlxalq humanitar hüquq. Dərslik / V.Ə.İbayev. – Bakı: Hüquq ədəbiyyatı, – 2001. – 496 s.
19. Qasımov, A.M. Əmək hüququ. Dərslik / A.M.Qasımov. – Bakı: Letterpress, – 2016. – 840 s.
20. Quliyev, A.İ. Hüquq ensiklopediyası / A.İ.Quliyev. – Bakı: Qanun, – 2007. – 1108 s.
21. Mehdiyev, F.S. Nəzəriyyə və təcrübədə insan hüquqları / F.S.Mehdiyev. – Bakı: Adventa MMC, – 2013. – 405 s.
22. Məlikova, M.F. Hüquq nəzəriyyəsi. Dərslik / M.F.Məlikova. – Bakı: Elm və təhsil, – 2023. – 452 s.
23. Məmmədov, R.K. Beynəlxalq cinayət hüququ və Azərbaycan Respublikasının cinayət qanunvericiliyi / R.K.Məmmədov. – Bakı: NAT Co MMC, – 2012. – 312 s.
24. Sadıqov, Ə.İ. Beynəlxalq iqtisadi hüquq / Ə.İ.Sadıqov. – Bakı: Bakı Universiteti, – 2008. – 396 s.
25. Səmədova, Ş.T. Transmilli cinayət hüququnun nəzəri və praktiki problemləri / Ş.T.Səmədova. – Bakı: Mütərcim, – 2023. – 304 s.
26. Süleymanova, E.T. İnsan hüquqları. Mühazirələr toplusu. Dərs vəsaiti / E.T.Süleymanova, Z.H.Əliyev. – Bakı: Bakı Universiteti, – 2014. – 360 s.

Türk dilində

27. Akillioğlu, T. İnsan haklarının korunması alanında uluslararası temel belgeler / T.Akillioğlu. – Ankara: Bilgi Yayınevi, – 1995. – 145 s.
28. Costas, D. Hukuk, adalet və insan hakları / D.Costas. – Ankara: Notabene Yayınları, – 2015. – 184 s.
29. Mumcu, A. İnsan hakları ve kamu özgürlükleri / A.Mumcu. – Ankara: Turhan Kitabevi, – 2007. – 356 s.
30. Reisoğlu, S. Uluslararası boyutlarıyla insan hakları / S.Reisoğlu. – İstanbul: Beta Yayınları, – 2001. – 326 s.

Rus dilində

31. Валеев, Р.М. Контроль в современном международном праве / Р.М.Валеев. – Казань: Центр инновационных технологий, – 2001. – 300 с.
32. Гараджаев, Д. Конституционное право Азербайджанской Республики / Д.Гараджаев. – Баку, 2023. – 624 с.
33. Гомьен, Д., Харрис, Д., Зваак Л. Европейская конвенция о правах человека и Европейская социальная хартия: право и практика / Д.Гомьен, Д.Харрис, Л.Зваак. – Москва: МНИМП, – 1998. – 600 с.
34. Гусейнов, Л.Г. Международная ответственность государств за нарушения прав человека / Л.Г.Гусейнов. – Киев: Институт государства и права НАН Украины, – 2000. – 316 с.
35. Гусейнов, Т.И. Международные и национально-правовые аспекты экологической безопасности / Т.И.Гусейнов. – Баку: Издательство Бакинского Государственного Университета, – 2017. – 367 с.
36. Даниленко, Г.М. Международная защита прав человека. Вводный курс. Учебное пособие / Г.М.Даниленко. – Москва: Юристь, – 2000. – 256 с.
37. Карташкин, В.А. Права человека: международная защита в условиях глобализации / В.А.Карташкин. – Москва: Норма, – 2009. – 288 с.
38. Керимов, Д.А. Методология права: предмет, функции, проблемы философии права / Д.А.Керимов. – Москва: СГА, – 2003. – 521 с.
39. Комментарий к Конвенции о защите прав человека и основных свобод и практике ее применения / Под общ. ред. В.А.Туманова и Л.М.Энтина. – Москва: Норма, – 2002. – 336 с.
40. Кононенко, В.П. Обычно-правовая природа прецедентного характера решений Европейского Суда по правам человека / В.П.Кононенко. – Харьков: Право, – 2008. – 506 с.
41. Лукашук, И.И. Международное право. Общая часть. Учебник / И.И.Лукашук. – Москва: БЕК, – 1997. – 371 с.
42. Лукашук, И.И. Международное право. Особенная часть. Учебник / И.И.Лукашук. – Москва: БЕК, – 1997. – 410 с.
43. Международная и внутригосударственная защита прав человека. / учебник / под ред. проф. Л.Х. Мингазова. – Москва: Проспект, – 2021. – 848 с.
44. Микеле Де Сальвиа. Прецеденты Европейского Суда по правам человека. Руководящие принципы судебной практики, относящейся

к Европейской конвенции о защите прав человека и основных свобод. Судебная практика с 1960 по 2002 г. / Микеле Де Сальвиа. – Санкт-Петербург: Юридический центр Пресс, – 2004. – 1072 с.
45. Рагимов, И.М. Философия преступления и наказания / И.М.Рагимов. – Санкт-Петербург: Юридический центр Пресс, – 2015. – 288 с.
46. Сафаров, Н.А. Экстрадиция в международном уголовном праве: проблемы теории и практики / Н.А.Сафаров. – Москва: Волтерс Клувер, – 2005. – 416 с.
47. Туманов, В.А. Европейский суд по правам человека: очерк организации и деятельности / В.А.Туманов. – Москва: Норма, – 2001. – 304 с.
48. Юридическая энциклопедия / Отв. ред. Б.Н.Топорнин. – Москва: Юристь, – 2001. – 1272 с.
49. Юридический энциклопедический словарь / О.Г.Румянцев, В.Н.Додонов. – Москва: ИНФРА-М, – 1996. – 384 с.

İngilis dilində

50. Andenas, M. General principles and the coherence of international law / M.Andenas, M.Fitzmaurice, A.Tanzi, J.Wouters. – Leiden: Koninklijke Brill, – 2019. – 460 p.
51. Bantekas, I. International human rights law and practice / I.Bantekas, L.Oette. – 2nd edition. – Cambridge: Cambridge University Press, – 2016. – 922 p.
52. Buckley, M.C. Towards convergence in international human rights law (Nottingham Studies on Human Rights) / M.C.Buckley, A.Donald, P.Leach. – Leiden: Koninklijke Brill, – 2017. – 686 p.
53. Byrnes, A. International law in the new age of globalization / A.Byrnes, M.Hayashi, C.Michaelsen. – Leiden: Koninklijke Brill, – 2013. – 448 p.
54. Capaldo, Z.G. The pillars of global law / Z.G.Capaldo. – New York: Routledge, – 2016. – 452 p.
55. Carter, E.B. International law / E.B.Carter, A.S.Weiner, B.D.Hollis. – 7th edition. – New York: Wolters Kluwer, – 2018. – 1202 p.
56. Cassese, A. International law / A.Cassese. – 2nd edition. – New York: Oxford University Press, – 2005. – 612 p.
57. Charlesworth, H. Human rights and the Universal Periodic Review: rituals and ritualism / H.Charlesworth, E.Larking. – Cambridge: Cambridge University Press, – 2014. – 314 p.
58. Chimni, B.S. International law and world order: a critique of contempo-

rary approaches / B.S.Chimni. – 2nd edition. – Cambridge: Cambridge University Press, – 2017. – 640 p.
59. Cogan, K.J. The Oxford handbook of international organizations / K. J.Cogan, I.Hurd, I.Ian Johnstone. – New York: Oxford University Press, – 2016. – 1100 p.
60. Cohen, J.A. Taiwan and international human rights: a story of transformation / J.A.Cohen, W.P.Alford, C.Lo. – Singapore: Springer Nature Singapore Pte, – 2019. – 706 p.
61. Comparative international law / A.Roberts, P.B.Stephan, P.H.Verdier [et al.] – New York: Oxford University Press, – 2018. – 640 p.
62. Crawford, J. Brownlie's principles of public international law / J.Crawford. – Oxford: Oxford University Press, – 2019. – 872 p.
63. Czapliński, W. Unrecognised subjects in international law / W.Czapliński, A.Kleczkowska. – Warsaw: Scholar publishing House, – 2019. – 402 p.
64. Dhiman, O.P. Understanding human rights / O.P.Dhiman. – Delhi: Kalpaz Publications, – 2011. – 392 p.
65. Dixon, M. Cases & materials on international law / M.Dixon, R.McCorquodale, S.Williams. – 5th edition. – Oxford: Oxford University Press, – 2017. – 832 p.
66. Forsythe, P.D. Human rights in international relations / P.D.Forsyathe. – 4th edition. – Cambridge: Cambridge University Press, – 2018. – 432 p.
67. Greer, S. Human Rights in the Council of Europe and the European Union: Achievements, trends, challenges / S.Greer, J.Gerards, R.Slow. – Cambridge: Cambridge University Press, – 2018. – 554 p.
68. Hashimoto, H. The Prospects for a regional human rights mechanism in East Asia. (RLE Modern East and South East Asia) / H.Hashimoto. – 1st edition. – Abingdon: Routledge, – 2015. – 252 p.
69. Henriksen, A. International law / A.Henriksen. – 2nd edition. – Oxford: Oxford University Press, – 2019. – 384 p.
70. Kellow, A. Handbook of research on NGOs / A.Kellow, M.G.Hannah. – Cheltenham: Edward Elgar Publishing, – 2018. – 488 p.
71. Kelsen, H. Principles of international law / H.Kelsen. – Clark NJ: The Lawbook Exchange, – 2003. – 480 p.
72. Koch, I.E. Human rights as indivisible rights: the protection of socio-economic demands under the European Convention on Human Rights / I.E.Koch. – Leiden: Koninklijke Brill, – 2009. – 362 p.
73. Kolb, R. The law of treaties: an introduction / R.Kolb. – Cheltenham: Edward Elgar Publishing, – 2016. – 304 p.
74. Lavranos, N. Hague Yearbook of International Law / N.Lavranos,

A.K.Ruth // Annuaire de La Haye de Droit International.– Leiden: Koninklijke Brill, - vol. 24. – 2011. – 446 p.

75. McClennen, A.S. The Routledge companion to literature and human rights / A.S.McClennen, S.A.Moore. – Abingdon: Routledge, – 2016. – 528 p.
76. Moore, J.A. The New United Nations: international organization in the twenty-first century / J.A.Moore, J.Jerry Pubantz. – New York: Routledge, – 2017. – 354 p.
77. Nolan, A. The United Nations special procedures system / A.Nolan, R. Freedman, T.Murphy. – Leiden: Koninklijke Brill, – 2017. – 472 p.
78. Nowak, M. U.N. Covenant on Civil and Political Rights. CCPR Commentary. N.P. Engel, Publisher, – 2005. – 1277 p.
79. Rainey, B. The European Convention on Human Rights / B.Rainey, E.Wicks, C.Ovey. – 7th edition. – New York: Oxford University Press, – 2017. – 728 p.
80. Ramcharan, G.B. Modernizing the UN human rights system / G.B.Ramcharan. – Leiden: Koninlijke Brill, – 2019. – 241 p.
81. 74. Sandholtz, W. Research handbook on the politics of international law / W.Sandholtz, A.C.Whytock. – Cheltenham: Edward Elgar Publishing, – 2017. – 608 p.

Müəllif haqqında məlumat

Əliyev Zaur Hümbət oğlu – 29 yanvar 1980-ci ildə Azərbaycan Respublikasının Bərdə şəhərində anadan olmuşdur.

1996-cı ildə Bakı şəhəri 132 saylı orta məktəbi, 2000-ci ildə Bakı Dövlət Universiteti, Beynəlxalq hüquq və beynəlxalq münasibətlər fakültəsinin "Beynəlxalq hüquq" ixtisası üzrə bakalavriat səviyyəsini, 2002-ci ildə həmin ixtisas üzrə magistratura səviyyəsini fərqlənmə diplomu ilə bitirmişdir. 2009-cu ildə həmin universitetin "Beynəlxalq hüquq" ixtisası üzrə aspiranturasını bitirmiş və "Avropa İnsan Hüquqları Məhkəməsinin yurisdiksiyası" mövzusunda dissertasiya işi müdafiə etmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 1 iyun 2011-ci il tarixli qərarı ilə hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 3 may 2018-ci il tarixli (protokol № 15-k) qərarı ilə dosent elmi adı almışdır.

2003-2005-ci illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrində zabit kimi həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 11 iyul 2008-ci il tarixli, 13 fevral 2009-cu il tarixli və 13 iyul 2012-ci il tarixli Sərəncamları ilə yaradılmış İşçi qruplarının üzvü kimi Azərbaycan Hökumətinin Birləşmiş Millətlər Təşkilatına insan hüquqları üzrə təqdim etdiyi dövri məruzələrin hazırlanmasında yaxından iştirak etmişdir.

Beynəlxalq hüquq və insan hüquqlarına dair 90-dan çox elmi əsərin müəllifidir. 30-dan çox elmi məqaləsi xarici ölkələrdə çap olunmuşdur. Bir sıra elmi əsərləri Strasburqda Avropa İnsan Hüquqları Məhkəməsinin kitabxanasında və Cenevrədə BMT-nin kitabxanasında saxlanılır.

Müəllifi olduğu "Avropa İnsan Hüquqları Məhkəməsi" adlı dərs vəsaiti 2010 və 2012-ci illərdə nəşr olunmuş, kitaba ön sözü Avropa İnsan Hüquqları Məhkəməsinin həmin dövrdə sədri olmuş professor J.P.Kosta yazmışdır.

Moskvada çap olunmuş "İnsan hüquqlarının beynəlxalq və dövlətdaxili müdafiəsi" adlı dərsliyin (Международная и внутригосударственная защита прав человека. Учебник. Москва, Статут, 2011, 830 с.) və Sankt-Peterburqda çap olunmuş "Beynəlxalq hüquq və konstitusiya hüququ: qarşılıqlı təsir problemləri" adlı kollektiv monoqrafiyanın (Международное и конституционное право: проблемы взаимовлияния. Коллективная монография. Санкт-Петербург, 2016, 494 с.) müəlliflərindən biridir.

Müxtəlif ölkələrdə (Avstriya, Almaniya, Belçika, Fransa, İsveç, İsveçrə,

İtaliya, İspaniya, Yunanıstan, Polşa, Macarıstan, Rusiya, Ukrayna, Tailand, Türkiyə və s.) keçirilmiş 60-dan çox beynəlxalq konfransda məruzə ilə çıxış etməklə iştirak etmişdir.

Beynəlxalq səviyyədə bir sıra fəxri fərmanlarla təltif edilmişdir. 1 dekabr 2008-ci ildə insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi işində səmərəli fəaliyyətinə görə Tatarıstan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili tərəfindən fəxri fərmanla təltif edilmişdir.

2007-ci ildə müxtəlif ölkələrdən olan yüzlərlə namizəd sırasından Cenevrə Beynəlxalq Münasibətlər İnstitutunun təşkil etdiyi "İsveçrə Liderlik Proqramı"nın qalibi olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 25 iyun 2014-cü il tarixli Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişdir.

Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının, həmçinin Vəkillər Kollegiyasının İxtisas Komissiyasının üzvüdür.

2002-2016-cı illərdə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Aparatında baş məsləhətçisi, sektor müdiri, şöbə müdirinin müavini və şöbə müdiri vəzifələrində çalışmışdır. Dövlət qulluğunun baş müşaviridir.

2016-2022-ci illərdə Heydər Əliyev Fondunun hüquqşünası, baş hüquqşünası vəzifələrində çalışmışdır. 10 may 2019-cu ildə humanizm, xeyirxahlıq və vətənpərvərlik kimi ideallara əsaslanaraq həyata keçirilən genişmiqyaslı layihələrdə fəal iştirakına görə Heydər Əliyev Fondunun 15 illiyi münasibətilə xatirə diplomu ilə təltif edilmişdir.

2022-ci ildən Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanıdır.

Əliyev Zaur Hümbət oğlu

İNSAN HÜQUQLARI. ENSİKLOPEDİYA

(Azərbaycan dilində)

Aliyev Zaur Humbat ogly
HUMAN RIGHTS. ENCYCLOPEDIA

(in Azerbaijani language)

ISBN: 9789952486803

9 78995 2 486803

indigo
PRINTING HOUSE

AZ1141, Bakı, Ş.Mehdiyev küç., 133
Tel.: (+994 12) 596 17 12 / 13 / 14
Mob.: (+994 50) 532 12 22 | (+994 55) 213 22 73
E-mail: info@indigo.az

Çapa imzalanıb: 08.11.2025
Fiziki çap vərəqi: 640x900 1/60
Kəsimdən sonra: 190x260
Sifariş № 08752


9 78995 2 486803